AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU

MÜBARİZ AĞALARLI

# AZƏRBAYCAN BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ

## *(XV-XVI ƏSRLƏR)*

BAKI - 2024

Azərbaycan Milli Elmlər Akademiyası
A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Şurasının
qərarı ilə çap olunur

**Elmi redaktor:** **Şahin Fərzəliyev**
*tarix elmləri doktoru, professor*

**Rəyçilər:** **Tofiq Nəcəfli**
*tarix elmləri doktoru, dosent,*

**Əhməd Quliyev**
*tarix üzrə fəlsəfə doktoru, dosent*

**Ağalarlı Mübariz. Azərbaycan beynəlxalq münasibətlər sistemində (XV-XVI əsrlər).** Bakı: "BİROL GROUP" MMC, 2024, – 386 s.

Monoqrafiyada XV-XVI əsrlərdə beynəlxalq münasibətlər sisteminin mahiyyəti və spesifik xüsusiyyətləri şərh edilir, Azərbaycanın bu sistemdə rolu və yeri müqayisəli təhlil olunur. Mövcud mənbələr və müvafiq ədəbiyyat əsasında Azərbaycan dövlətlərinin xarici siyasətinin əsas istiqamətləri araşdırılır, onların Osmanlı və Böyük Moğol imperiyaları, Teymurilər, Misir Məmlükləri, Şeybanilər, Dekan əmirləri, Moskva knyazlığı, gürcü çarlıqları, Avropa dövlətləri ilə siyasi-diplomatik münasibətləri öyrənilir.

**ISBN 978 - 9952 - 579 - 12 - 3**

© AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu, 2024.

Monoqrafiyanın üz cildində: Azərbaycan Səfəvi hökmdarı Şah I Təhmasibin Moğol hökmdarı Hümayun Şah ilə görüşü.

## KİTABDAKILAR

**GİRİŞ** ........................................................................................ 5

**I FƏSİL. AZƏRBAYCAN XV ƏSR BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ**

1.1. Azərbaycan Qaraqoyunlu dövlətinin Teymuri və Osmanlı dövlətləri ilə qarşılıqlı siyasi əlaqələri........................ 29
1.2. Azərbaycan Ağqoyunlu dövlətinin Osmanlı və Teymuri dövlətləri ilə siyasi münasibətləri.............................. 69
1.3. Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin Misir Məmlük dövləti ilə siyasi münasibətləri ......................... 84
1.4. Azərbaycan Ağqoyunlu dövləti ilə Avropa dövlətləri arasında diplomatik-siyasi münasibətlər................................ 112
1.5. Şirvanşahlar dövlətinin xarici siyasi əlaqələri ................ 128
1.6. Azərbaycan dövlətlərinin beynəlxalq münasibətlər sistemində yeri və rolu ......................................................... 137

**II FƏSİL. AZƏRBAYCAN XVI ƏSR BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ**

2.1. Azərbaycan Səfəvi dövlətinin Osmanlı və Şeybani dövlətləri ilə siyasi əlaqələri .................................................. 165
2.2. Azərbaycan Səfəvi dövləti ilə Misir Məmlük dövləti arasında siyasi əlaqələr ......................................................... 216
2.3. Azərbaycan Səfəvi dövləti ilə Böyük Moğol dövləti arasında siyasi münasibətlər .................................................. 233
2.4. Azərbaycan Səfəvi dövlətinin Avropa dövlətləri ilə diplomatik-siyasi münasibətləri............................................. 265
2.5. Azərbaycan Səfəvi dövlətinin beynəlxalq sistemində yeri və rolu ........................................................................ 296

**NƏTİCƏ** .......................................................................... 325

**XÜLASƏLƏR**

***İngilis dilində*** ............................................................. 333
***Rus dilində***.................................................................. 334

**ƏLAVƏLƏR**...................................................................... 336
**BİBLİOQRAFİYA**............................................................. 361

# GİRİŞ

Qədim tarixə və dövlətçilik ənənələrinə malik olan Azərbaycan xalqının diplomatiya tarixi çox zəngindir. Tarix boyu Azərbaycanın beynəlxalq aləmlə siyasi və diplomatik münasibətləri mövcud olmuş, orta əsrlər dövründə bu əlaqələr daha da inkişaf etmişdir.

XV-XVI əsrlər Azərbaycan dövlətçilik tarixinin intibah dövrüdür. Bu dövrü Azərbaycanın dövlətçilk ənənələrinin bərpası, inkişafı və möhkəmlənməsi dövrü kimi xarakterizə etmək olar. Həmin dövrdə Azərbaycanda Qaraqoyunlu, Ağqoyunlu, Şirvanşahlar, Səfəvi dövlətlərinin yaranması və fəaliyyəti nəticəsində ölkəmizin beynəlxalq münasibətlər sistemində siyasi, iqtisadi mövqeyi və rolu güclənmiş, onun Avropa və Şərq ölkələri ilə qarşılıqlı münasibətləri daha da genişlənmişdir.

XV-XVI əsrlərdə Yaxın və Orta Şərq bölgəsinin siyasi mühiti türk dövlətlərinin aparıcı rolu ilə səciyyəvidir. Həmin dövrdə Avrasiya məkanı türk dövlətləri arasında bölünərək yeni siyasi, mədəni və dini sərhədlərə ayrılmışdır. Kiçik Asiyada Osmanlı, Azərbaycan və ətraf ərazilərdə Qaraqoyunlu, Ağqoyunlu, Şirvanşahlar, Səfəvi, Mərkəzi Asiyada Teymurilər, Şeybanilər, Hindistanda Böyük Moğol dövləti, həmçinin Misir, Suriya və Hicazda hökm sürən Məmlük dövləti bölgənin siyasi xəritəsini formalaşdıran aparıcı dövlətlər idi. Bu dövrdə bölgənin siyasi xəritəsində əhəmiyyətli rola malik olmuş Azərbaycan dövlətlərinin uğurlu xarici siyasəti həm Avropada, həm də Şərq ölkələrində baş verən hadisələrə ciddi şəkildə təsir etmişdir.

Hazırda beynəlxalq münasibətlər sisteminin fəal subyektinə çevrilmiş Azərbaycan Respublikası özünün çağdaş istiqlal tarixinin mühüm mərhələsini yaşayır. Xalqımızın zəngin tarixi dövlətçilik ənənələri inkişaf etdirilir, xarici siyasi əlaqələr genişlənir. Xüsusilə də II Qarabağ savaşı – Vətən müharibəsində Azərbaycanın zəfər çalması təkcə Qarabağ bölgəsinin erməni işğalından azad edilməsi ilə nəticələnmədi, həmçinin bölgədə yeni geosiyasi reallıqlar yaratdı. Qarabağ zəfəri xalqımıza tarixi Azərbaycan torpaqlarının bütövləşməsi istiqamətində ciddi tə-

şəbbüslərlə çıxış etmək imkanı qazandırdı. Məhz bu baxımdan müasir dövrdə Azərbaycan Respublikasının xarici siyasətinin inkişafında orta əsr Azərbaycan dövlətçilik prinsiplərinin, diplomatik ənənələrinin və zəngin xarici siyasət təcrübəsinin öyrənilməsinin böyük əhəmiyyəti vardır. Ona görə də Azərbaycanın beynəlxalq əlaqələrinin orta əsrlərlə bağlı olan tarixini araşdırmaq, tarixi-siyasi coğrafiyasına yenidən nəzər yetirmək, ölkəmizin bölgədə baş vermiş siyasi hadisələrdə oynadığı rolu müəyyənləşdirmək, orta əsrlər dövrü diplomatiya tariximizin incəliklərinə bələd olmaq və müvafiq nəticələr çıxarmaq çox aktualdır. Bu baxımdan XV-XVI əsrlərdə Avrasiya məkanında baş vermiş siyasi hadisələrdə yaxından iştirak etmiş Azərbaycan Qaraqoyunlu, Ağqoyunlu, Şirvanşahlar və Səfəvi dövlətlərinin Avropada və Asiyada mövcud olmuş dövlətlərlə qarşılıqlı siyasi əlaqələr tarixinin müqayisəli şəkildə araşdırılması mühüm əhəmiyyət kəsb edir.

Dünya tarix elmində müasir beynəlxalq münasibətlər sisteminin fundamental quruluşunun 1648-ci ildə imzalanan Vestfal sülh sazişi ilə başlanması əsas kimi götürülsə də, bəzi tədqiqatçılar beynəlxalq münasibətlər sisteminin orta əsrlər dövründə yarandığını və orta əsrlərə məxsus spesifik xüsusiyyətləri özündə ehtiva edərək inkişaf etdiyini qeyd etmişlər. Rus tarixçisi S.Skazkin orta əsrlərdə beynəlxalq münasibətlər sisteminin spesifik xüsusiyyətlərini təhlil edərək qeyd edir kı, "XI-XV əsrlərdə Avropada müəyyən beynəlxalq münasibətlər sistemi yaranır, tədricən bəzi diplomatik normalar və ənənələr işlənib hazırlanırdı. Eyni zamanda Avropa ölkələri ilə Şərq ölkələri arasında da iqtisadi, siyasi və mədəni əlaqələr genişlənir və möhkəmlənirdi"[1].

Amerikalı sosioloq E.Vallerşteyn beynəlxalq münasibətlər sisteminin formalaşmasında vahid dünya iqtisadi sisteminin yaranmasının vacib amil olduğunu qeyd edərək yazırdı ki, "XV əsrin sonu  XVI əsrin əvvəllərində dünya iqtisadi sistemi formalaşmağa başladı. Hələ qədimdə Çin, Pers, Roma kimi imperiyalar

---

[1] *Orta əsrlər tarixi,* S. Skazkinin ümumi redaktəsi ilə, (Azərbaycan dilinə çevirəni Y. Mahmudov), Bakı, Maarif, 1988, s.444-445.

dünya iqtisadi sisteminin ilk görüntülərini yaratmışlar. Orta əsrlərdə xaç yürüşləri, rekonkista, Böyük coğrafi kəşflər bu sistemi formalaşdırmağa kömək etdi”[2].

Tarixçi A.Хорошкевиç də öz tədqiqatlarında XV əsrin sonu XVI əsrin əvvəllərində rus dövlətinin (Moskva knyazlığı-M.A.) beynəlxalq münasibətlər sistemində yerini və rolunu təhlil edərək siyasi və iqtisadi əlaqələrinin geniş şəkildə şərhini vermişdir[3].

Tədqiqatçıların bu fikirlərinin elmi mahiyyət daşıdığını qeyd edərək hesab edirik ki, XV-XVI əsrlərdə beynəlxalq münasibətlər sisteminin əsasını təşkil edən beynəlxalq hüquq normalarının inkişaf etməsi, Böyük coğrafi kəşflərdən (1498) sonra dünya iqtisadi sisteminin formalaşması, beynəlxalq siyasi və iqtisadi münasibətlərin davamlı inteqrasiyasına ciddi təkan verirdi. Həmçinin beynəlxalq münasibətlər sisteminin formalaşmasında əsas amillərdən biri olan dövlətlər arasında siyasi və diplomatik münasibətlərin, daimi elçilik sisteminin inkişafı, ikitərəfli və çoxtərəfli hərbi-siyasi ittifaqların yaranması, həmin dövrdə orta əsrlərin özünəməxsus xüsusiyyətlərini özündə əks etdirən beynəlxalq münasibətlər sisteminin mövcudluğunu və inkişaf etdiyini deməyə əsas verir.

Monoqrafiya iki fəsildən ibarətdir. “**Azərbaycan XV əsr beynəlxalq münasibətlər sistemində”** adlanan birinci fəsil, XIV əsrin sonu – XV əsrin əvvəllərində Avrasiya məkanında baş vermiş siyasi hadisələrin müqayisəli şəkildə təhlili ilə başlanır. Qeyd olunur ki, bu dövrdə Avropada, Yaxın və Orta Şərqdə, həmçinin Mərkəzi Asiyada yeni dövlətlər meydana gəlmiş, həmin dövlətlər arasında özünəməxsus siyasi münasibətlər mövcud olmuşdur. Avrasiya coğrafiyasında mövcud olan hakimiyyətlər arasındakı bu siyasi əlaqələr orta əsrlər dövrü səciyyəvi xüsusiyyətlərini özündə ehtiva edən beynəlxalq münasibətlər

---

[2] В. Зарин, *Запад и Восток (в мировой истории XIV-XIX вв.),* М, Наука, 1991, с.69.

[3] А. Хорошкевич, *Русское государство в системе международных отношений в конца XV начала XVI в.,* Москва, Наука, 1980, с.169-196.

sisteminin yaranmasında mühüm rol oynayırdı. Həmin dövrün Avrasiya xəritəsinə nəzər yetirsək, burada mövcud olmuş dövlətlər arasında hərbi-siyasi qarşıdurmanın, mürəkkəb siyasi hadisələrin baş verdiyinin şahidi oluruq.

XIV əsrin sonlarına doğru Osmanlı imperiyasının Şərqi Avropada apardığı müharibələr, Məmlük dövləti ilə Avropa səlibçiləri arasında Suriyanın dəniz limanları uğrunda baş verən münaqişələr, tənəzzül dövrünü yaşayan Qızıl Orda dövləti ilə Rus knyazlıqarı arasında baş verən çəkişmələr, Əmir Teymurun qərb istiqamətində hərbi yürüşləri, həmin yürüşlər ərəfəsində Azərbaycanda Cəlairilər hakimiyyətində mövcud olan siyasi böhran Yaxın və Orta Şərq bölgəsində mövcud siyasi mənzərənin xeyli mürəkkəb olduğunun əsas göstəricilərindən idi.

Belə bir siyasi şəraitdə Əmir Teymur qərb istiqamətində üç yürüş edərək Yaxın Şərqi, o cümlədən Azərbaycanı ələ keçirərək yaratdığı imperiyanın tərkibinə qatdı. Əmir Teymurun ölümündən sonra (fevral, 1405), Azərbaycanda onun varislərinin (Teymurilərin) siyasi hakimiyyəti zəifləməyə başladı. Mavəraünnəhrdə Teymuri şahzadələri arasında hakimiyyət uğrunda mübarizə qızışdı və bu çəkişmələr Azərbaycanda da ciddi siyasi böhrana səbəb oldu. Fürsətdən istifadə edən Şirvanşah Şeyx I İbrahim, Qaraqoyunlu bəyi Qara Yusif və Sultan Əhməd Cəlairi Azərbaycanda siyasi hakimiyyəti ələ keçirmək uğrunda mübarizəyə qoşuldular[4]. Həmin mübarizədə Qara Yusif Teymuriləri Azərbaycandan qovaraq bütün siyasi rəqiblərini məğlub etdi və Azərbaycan taxt-tacına sahib oldu[5]. Beləliklə, bu dövrdən etibarən Azərbaycanda Qaraqoyunlu sülaləsinin hakimiyyəti bərqərar oldu.

Azərbaycan Qaraqoyunlu dövlətinin yaranması ilə Yaxın Şərqdə müəyyən siyasi sabitlik yarandı. Qaraqoyunlu sülaləsinin

---

[4] K. Kopraman, *Misir Memlükleri tarihi: Sultan al-Malik al-Muayyad Şeyh al-Mahmudi devri (1412-1421),* Ankara, Kaynak Eserler dizisi, 1989, s.38.

[5] F. Metsopski, *Teymurləngin və onun xələflərinin tarixi,* Bakı, Azərbaycan SSR EA nəşriyyatı, 1957, s.22; Şərəfəddin Əli Yəzdi, *Zəfərnamə, Azərbaycan tarixinə dair seçmələr,* (tərcümə, ön söz və izahlar V. Z. Piriyev), Bakı, 1996, s.44-47.

hakimiyyətə gəlməsi ilə Azərbaycanda Teymuri hökmranlığına son qoyuldu, yerli hakimiyyət sistemi bərpa edildi. Qaraqoyunlu dövlətinin timsalında yenidən mərkəzləşmiş Azərbaycan dövlətinin yaranması ölkənin siyasi, iqtisadi və mədəni inkişafı üçün böyük zəmin yaratdı. Azərbaycan Qaraqoyunlu hakimiyyətinin yeritdiyi xarici siyasət bu dövrdə ölkənin iqtisadi, siyasi inkişafı üçün böyük əhəmiyyətə malik idi. Çünki Azərbaycanın və bu dövlətin tərkibinə qatılmış digər ərazilərin strateji mövqeyi, iqtisadi və təbii ehtiyatları, Avropa ilə Asiya arasında mövcud olan bir neçə böyük ticarət yollarının bu ərazidən keçməsi, qonşu dövlətlərin bu ərazilərə olan ərazi iddiaları, dövlətin çoxşaxəli xarici siyasət yeritməsini zəruri edirdi. Bu baxımdan Qaraqoyunlu hökmdarları dövlətin xarici siyasətinin inkişafına ciddi önəm verirdilər.

Qaraqoyunlu sülaləsinin hakimiyyəti dövründə (1410-1468) Azərbaycanın Osmanlı imperiyası, Teymurilər dövləti, Misir Məmlük hakimiyyəti ilə siyasi münasibətləri mövcud olduğu halda Avropa dövlətləri ilə siyasi və diplomatik münasibətləri mövcud olmamışdır. Bu dövrdə Osmanlı dövləti ilə hərbi münaqişə vəziyyətində olan Avropa dövlətləri Osmanlı hakimiyyəti ilə dostluq əlaqələrinə böyük önəm verən Qaraqoyunlu dövləti ilə münasibətlər qurmaq fikrindən uzaq olmuş, bunun üçün heç bir siyasi və diplomatik addım atmamışdılar.

XV əsrin ortalarına doğru Şərqi Anadoluda yaranmış Ağqoyunlu bəyliyi siyasi cəhətdən güclənərək özünün siyasi nüfuz dairəsini genişləndirməyə başladı. Azərbaycan taxt-tacı uğrunda mübarizə aparan Ağqoyunlu Həsən bəy Bayandur (Uzun Həsən-M.A.) 1467-ci ilin noyabr ayında Muş döyüşündə Qaraqoyunlu ordusunu ağır məğlubiyyətə uğratdı. Həmin döyüşdə Qaraqoyunlu hökmdarı Cahanşah öldürüldü[6].

---

[6] Ə. Tehrani, *Kitabi-Diyarbəkriyyə*, (fars dilindən tərcümə, ön söz, şərhlər və göstəricilərin müəllifi Rəhilə Şükürova)., Bakı, Elm, 1998, s.227; W. Hinz, *Uzun Hasan ve Şeyh Cüneyd: XV yüzyılda İran'ın milli bir devlet haline yükselişi,* Leypsiq, 1936, (tərc. Tevfik Bıyıklıoğlu), Ankara, Türk Tarih Kurumu Basımevi, 1992, s.42-44.

Ağqoyunlu Həsən bəy Bayandur qısa zamanda Qaraqoyunlu sülaləsinin hakimiyyətinə son qoydu (1468)[7]. Beləliklə, Azərbaycanda Ağqoyunlu sülaləsinin siyasi hakimiyyəti (1468-1501) rəsmən elan olundu.

Azərbaycan hökmdarı Həsən padşah qısa bir müddət ərzində bütün siyasi rəqiblərini məğlub edərək Kür çayından cənubda və Şərqi Anadoluda yerləşən bütün Azərbaycan torpaqlarını öz siyasi hakimiyyəti altında birləşdirdi. Tezliklə İraq-i Ərəb, Xuzistan, Kirman, Fars, Kaşan, Mazandaran, Xorasan əraziləri də bu dövlətin tərkibinə qatıldı. Bu dövrdə Tiflis şəhəri və ətrafı da Ağqoyunlu hakimiyyətinin siyasi nüfuz dairəsinə daxil edilmişdi. Şirvanşahlar dövləti isə Ağqoyunlu dövlətinin vassal asılılığında idi.

Azərbaycanda Ağqoyunlu-Bayandur sülaləsi hakimiyyətə gəldikdən sonra dövlətin xarici siyasətində nəzərəçarpacaq dərəcədə dəyişikliklər baş verdi və yeni istiqamətlər müəyyən olundu. Həmin dövrdə Azərbaycanda Ağqoyunluların Teymuri, Misir Məmlük və Osmanlı dövlətləri ilə yanaşı, Avropa dövlətləri, həmçinin Moskva knyazlığı ilə də münasibətləri mövcud idi.

Ağqoyunlu sülaləsinin hakimiyyəti dövründə Azərbaycanın gürcü çarları ilə siyasi münasibətləri də əhəmiyyət kəsb edirdi. Bu dövrdə Ağqoyunlu dövlətindən vassal asılılığında olmuş Gürcü hakimləri (Kartli, Kaxetiya, İmeretiya, Samçe) Azərbaycan xəzinəsinə illik xərac ödəyirdilər[8].

Ağqoyunlu hökmdarı Sultan Yaqubun ölümündən (1490) sonra Azərbaycan taxt-tacı uğrunda baş vermiş mübarizə dövlətin xarici siyasətinə ciddi zərbə vurdu. Ağqoyunlu hakimiyyətinin xarici-siyasi, diplomatik əlaqələri nəzərəçarpacaq dərəcədə zəiflədi və bölgədə baş verən hadisələrdə rolu azaldı. Həmin dövrdən etibarən Azərbaycanda Ağqoyunlu sülaləsinin hakimiyyəti tənəzzül dövrünə daxil oldu.

---

[7] T. Nəcəfli, *Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi müasir türk tarixşünaslığında.*, Bakı, Çaşıoğlu, 2000, s.125.

[8] В. Багратиони, *История царства Грузинского,* (пер. Н. Накашидзе)., Тбилиси, Мецниереба, 1976, с.21 .

XV əsrdə Yaxın Şərqdə baş vermiş siyasi hadisələrdə fəal şəkildə iştirak etmiş Azərbaycan dövlətlərindən biri də Şirvanşahlar dövləti idi. Bu dövrdə Şirvanşahlar dövləti Teymurilər dövləti və Osmanlı imperiyası ilə diplomatik-siyasi münasibətlər saxlamış, həmin münasibətlər əsasən dostluq xarakteri daşımışdır. Həmin dövrdə Şirvanşahlar dövləti Moskva knyazlığı ilə də siyasi münasibətlər quraraq, iqtisadi-ticarət əlaqələrini inkişaf etdirmişdir[9].

XV əsrdə Avrasiya dünyasının tərkib hissəsi olan Azərbaycan dövlətlərinin beynəlxalq münasibətlər sistemində özünəməxsus yeri və rolu olmuşdur. Bu dövrdə beynəlxalq münasibətlər sistemi dövlətlərin siyasi və diplomatik münasibətləri, hərbi-siyasi qarşıdurmaları və iqtisadi-ticarət əlaqələrinin tənzimlənməsi şəraitində inkişaf edirdi. Orta əsrlər dövrünün özünəməxsus teokratik xüsusiyyətlərini özündə əks etdirən, əsasını siyasi və hüquqi ənənələr təşkil edən orta əsr beynəlxalq münasibətlər sisteminin inkişafı Yaxın və Orta Şərqdə mövcud olan siyasi, iqtisadi münasibətlərin təşəkkülünə ciddi surətdə təsir edirdi.

Həmin dövrdə beynəlxalq münasibətlərin inkişafına bir neçə amil təsir edirdi. Bu münasibətlər xalqlar və dövlətlər arasında inteqrasiyanın sürətlənməsi, Avropada feodallaşma prosesinin başa çatması, daxili və xarici ticarətin genişlənməsi ilə əlaqəli olaraq inkişaf edirdi. Xalqların və milli dövlətlərin təşəkkülü prosesinin başlanması, XIV-XV əsrlərdə osmanlıların Ön Asiyada və Balkan yarımadasında möhkəmlənməsi beynəlxalq münasibətlərin intensivləşməsinə əhəmiyyətli dərəcədə zəmin yaradırdı. Artıq XIV-XV əsrlərdə Avropada müəyyən beynəlxalq münasibətlər sistemi yaranır, tədricən bəzi diplomatik normalar və ənənələr işlənib hazırlanırdı. Bu dövrdə müharibə və dəniz hüququ inkişaf etməkdə idi. Avropa və Şərq ölkələri arasında da iqtisadi, siyasi, mədəni əlaqələr genişlənir və möhkəmlənirdi.

---

[9] *Azərbaycan tarixi,* 7 clddə, III c., Bakı, Elm, 1999, s.100-101; Ф. Алиев, *Азербайджано-русские отношения (XV-XIX вв.),* часть I., Баку, Элм, с.15.

Orta əsrlər dövründə beynəlxalq münasibətlər sisteminin təşəkkülündə beynəlxalq hüququn subyektləri arasında münasibətləri tənzimləyən beynəlxalq hüquq normaları mühüm rol oynayırdı. Həmin dövrdə beynəlxalq münasibətlər sisteminin təşəkkülündə mühüm əhəmiyyət kəsb edən və diplomatik münasibətləri özündə əks etdirən diplomatiya hüququ və dövlətlərarası ticarət münasibətlərini tənzimləyən gömrük hüququ inkişaf etməkdə idi. XV əsrdə diplomatiya hüququ dövlətlər arasında danışıqlar, müqavilələr, diplomatik yazışmalar yolu ilə həyata keçirilirdi. Bu dövrdə diplomatlar və elçilik heyətləri toxunulmazlıq hüququna malik idi[10].

XV-XVI əsrlərdə Azərbaycandan qonşu ölkələrə və Avropaya göndərilən elçilər, diplomatik missiyalarını yerinə yetirməklə yanaşı, beynəlxalq əlaqələrin inkişafında da əhəmiyyətli rol oynayırdılar. Artıq XV əsrdən Azərbaycanın qonşu ölkələrdə diplomatik missiyanı həyata keçirən üç, beş və yeddiillik elçilikləri – səfarətxanaları fəaliyyət göstərirdi.

Ümumiyyətlə, XV əsrdə beynəlxalq münasibətlər sisteminin inkişaf etməsində Yaxın Şərqdə mühüm siyasi və strateji mövqeyi olmuş Azərbaycan (Qaraqoyunlu, Ağqoyunlu, Şirvanşahlar) dövlətləri fəal şəkildə iştirak etmişdilər.

Monoqrafiyanın II fəsli **“Azərbaycan XVI əsr beynəlxalq münasibətlər sistemində”** adlanır. Bu fəsildə Azərbaycan Səfəvi dövlətinin xarici siyasətinin əsas istiqamətləri təhlil olunaraq Səfəvi hakimiyyətinin Misir Məmlük, Osmanlı, Şeybani, Böyük Moğol, Avropa dövlətləri, həmçinin Moskva knyazlığı ilə hərbi-siyasi və diplomatik münasibətləri araşdırılmışdır.

Məlumdur ki, XVI əsr Avrasiya məkanında ciddi siyasi hadisələrlə zəngin olan bir dövrə təsadüf edir. Bu dövr yeni imperiyaların yaranması, onların siyasi, iqtisadi, mədəni və dini sərhədlərə bölünməsi ilə səciyyələnirdi. Həmin dövrdə Şərqdə baş verən mürəkkəb proseslər bölgənin yeni siyasi xəritəsini

---

[10] Л. Левин, *История международного права*, М, Экзамен, 2006, с.121; Ю. Баскин və Д. Фельдман, *История международного права*, Москва, Международные отношения, 1990, с.52.

meydana çıxardı. Kiçik Asiya və ətraf ərazilərdə Osmanlı imperiyası, Azərbaycanda Səfəvi dövləti, Hindistanda Böyük Moğol imperiyası, Mərkəzi Asiyada Şeybanilər dövləti bu siyasi xəritənin əsas subyektlərindən idi.

Artıq XV əsrin sonlarında Azərbaycanda Ağqoyunlu hakimiyyəti özünün tənəzzül dövrünü yaşayırdı. Belə mürəkkəb bir şəraitdə siyasi və dini mərkəzi Ərdəbil şəhərində yerləşən Səfəvi sülaləsinin nümayəndəsi İsmayıl Səfəvi (1487-1524) Azərbaycanda siyasi hakimiyyət uğrunda mübarizəyə başladı.

1501-ci ildə İsmayıl Səfəvi Şərur düzündə baş vermiş döyüşdə Ağqoyunlu hökmdarı Əlvənd Mirzəni məğlub edərək paytaxt Təbrizə daxil olub ana babası Ağqoyunlu Həsən bəy Bayandurun "hüquqi varisi" kimi şahlıq taxtına əyləşdi. İslamın imami (Şiə - M.A.) məzhəbini rəsmi dövlət dini elan edən Şah I İsmayıl "on iki İmam" adına xütbə oxutdurdu və öz adına sikkə kəsdirdi[11].

Beləliklə, Şah I İsmayıl Ağqoyunlu sülaləsinin siyasi və hüquqi varisi kimi Azərbaycanda hakimiyyətə gələrək Səfəvi sülaləsinin rəsmi hakimiyyətini elan etdi. Qısa müddət ərzində Ağqoyunluların siyasi hakimiyyətinə tamamilə son qoyan Şah I İsmayıl Səfəvi, 1503-1510-cu illərdə apardığı uğurlu hərbi əməliyyatlar nəticəsində Şərqi Anadolu, İraqi-Əcəm, Fars, Xorasan, İraqi-Ərəb ərazilərini Səfəvi hakimiyyətinin siyasi nüfuz dairəsinə daxil etdi[12]. Bununla da paytaxtı Təbriz olan Azərbaycan Səfəvi imperiyası yarandı.

Azərbaycanda Səfəvi-Qızılbaş sülaləsinin hakimiyyətə gəlişi ilə siyasi sabitlik yarandı və dövlətin xarici siyasətində canlanma müşahidə olundu. Həmçinin qonşu dövlətlərlə yeni siyasi

---

[11] O. Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti,* Bakı, Azərnəşr, 1993, s.45; И. Петрушевский, *Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI–начале XIX вв.*, Ленинград, Изд. ЛГУ им. А. Жданова, 1949, с.69.

[12]Шараф-хан ибн Шамсаддин Бидлиси, *Шараф-Наме,* (перевод, предисловие, примечания и приложения Е. Васильевой)., т.2, М, Наука, 1976, с.147; O. Əfəndiyev, *a.g.ə.,* s.46.

əlaqələr quruldu. Bu dövrdə dövlətin sərhədlərinin genişləndirilməsi, xarici dövlətlərlə diplomatik və iqtisadi-ticarət əlaqələrin inkişaf etdirilməsi Səfəvi hakimiyyətinin xarici siyasətinin əsasını təşkil edirdi.

XVI əsrdə Səfəvi hökmdarlarının yürütdüyü xarici siyasət xətti çoxşaxəli səciyyə daşıyırdı. Həmin dövrdə Səfəvi hakimiyyətinin xarici siyasətində Osmanlı imperiyası, Şeybani dövləti ilə münasibətləri hərbi-siyasi xarakterli olub daha çox hərbi qarşıdurmalar şəraitində baş verirdi. Bunun əksinə olaraq Səfəvi dövlətinin Misir Məmlük dövləti, Böyük Moğol imperiyası, Avropa dövlətləri ilə diplomatik əlaqələrinin inkişafı üçün münbit siyasi şərait mövcud olmuş, bu münasibətlər qarşılıqlı siyasi anlaşma şəraitində davam etmişdir.

XV əsrdə olduğu kimi XVI əsrdə də beynəlxalq münasibətlər sistemi davamlı şəkildə inkişaf etməkdə idi. Bu dövrdə beynəlxalq münasibətlər, Avropada kapitalist münasibətlərinin yaranması, Böyük coğrafi kəşflər və müstəmləkə işğalları fonunda özünü büruzə verirdi. Avropada milli dövlətlərin yaranması prosesinin başlanması ilə "dövlət marağı" prinsipi ön planda idi.

XV əsrin sonu - XVI əsrin əvvəllərindən başlayan Böyük coğrafi kəşflər, dünyanın siyasi xəritəsinin dəyişməsinə və Avropa dövlətlərinin Şərqə olan iqtisadi və siyasi maraqlarının artmasına səbəb oldu. Böyük coğrafi kəşflər dünyanın siyasi xəritəsini zənginləşdirməklə yanaşı, dünya iqtisadi sisteminin formalaşmasına münbit zəmin hazırladı.

Dünya iqtisadi sisteminin formalaşma prosesinin başlanması beynəlxalq münasibətlər sisteminin hüquqi əsasını təşkil edən beynəlxalq hüquq normalarının daha da təkmilləşməsinə səbəb oldu. Beynəlxalq siyasi və ticarət qanunlarının təkmilləşməsi Avropa dövlətləri ilə Şərq ölkələri arasında əlaqələrin intensiv inkişafına geniş şərait yaratdı.

Azərbaycanın XV-XVI əsrlər tarixinə aid farsdilli mənbələr, Avropa diplomatlarının rəsmi məlumatları və səfərnamələri, orta əsrlər dövrü Osmanlı qaynaqları tədqiqat prosesində əhəmiyyətli dərəcədə elmi baza rolunu oynamışdır.

Nizaməddin Şaminin "Zəfərnamə"[13], Şərəfəddin Əli Yəzdinin "Zəfərnamə"[14], Əbu-Bəkr Tehraninin "Kitabi-Diyarbəkriyyə"[15], Bədrəddin Mahmud əl-Ayninin "İqd əl-cuman fi-tarix əhl əz-zaman"[16], Fəzlullah ibn Ruzbehan Xuncinin "Tarixi-aləm-arayi Əmini"[17], Tacəddin Salmaninin "Tarix-namə"[18], Həsən bəy Rumlunun "Əhsənüt-təvarix (Tarixlərin ən yaxşısı)"[19], İsgəndər bəy Münşi Türkmanın "Tarixe-aləmaraye-Abbasi. (Dünyanı bəzəyən Abbasın tarixi)"[20], Şərəfxan Bidlisinin "Şərəfnamə"[21], "Şah Təhmasibin təzkirəsi"[22], Xacə Zeynəlabdin Əli

---

[13] Nizamüddin Şami, *Zafername,* (çeviren Necati Luqal)., Ankara, Türk Tarih Kurumu Basımevi, 1987.

[14] Şərəfəddin Əli Yəzdi, *Zəfərnamə: Azərbaycan tarixinə dair seçmələr,* (tərcümə, ön söz və izahlar V.Z.Piriyev), Bakı, 1996.

[15] Əbubəkr Tehrani, *Kitabi-Diyarbəkriyyə,* (fars dilindən tərcümə edən, ön söz, şəhrlər və göstəricilərin müəllifi Rəhilə Şükürova)., Bakı, Elm, 1998.

[16] M. Əsədov, *Azərbaycan XIII-XV əsrin birinci yarısında (Bədrəddin Mahmud əl-Ayninin "İqd əl-cuman fi-tarix əhl əz-zaman" əsəri üzrə),* dissertasiya, Bakı, 1996.

[17] Фазлуллах ибн Рузбихан Хунджи, *Тарих-и алам-ара-йи Амини,* (перевод с английского на русский Т. Минорской)., Редакторы и прим. З. Буниятов и О. Эфендиев., Баку, Элм, 1987.

[18] Тадж ад-Дин Салмани, *Тарих-наме,* (перевод с турецского акад. З. Буниятова)., Баку, Элм, 1997.

[19] Həsən bəy Rumlu, *Əhsənüt-təvarix (Tarixlərin ən yaxşısı),* fars dilindən tərcümə və şərhlər professor Oqtay Əfəndiyev, dosent Namiq Musalı, Kastamonu, Uzanlar, 2017; Həsən bəy Rumlu, *Tarixlərin ən yaxşısı (Əhsənüt - təvarix),* (fars dilindən tərcümə Ş. Fərzəliyev), I cild., Bakı, Elm, 2022; Hasan Rumlu, *Ahsenü't-Tevarix: Şah İsmail tarihi,* (çeviren Cevat Cevan)., Ankara, Ardıç yayınları, 2004; Hasan-i Rumlu, *Ahsenü't-Tevarix*, (çeviren Mürsel Özrürk)., Ankara, Türk Tarih Kurumu Basımevi, 2006.

[20] İsgəndər Bəy Münşi Türkman, *Tarixe-aləmaraye-Abbasi,* (tərc., ön sözün müəl., şərh O. Əfəndiyev və N. Musalı)., I cild Bakı, Təhsil, 2009. İsgəndər bəy Münşi Türkman, *Dünyanı bəzəyən Abbasın tarixi,* (fars dilindən tərcümə Ş. Fərzəliyev)., I kitab, Bakı, Şərq-Qərb Nəşriyyat evi, 2010; İsgəndər bəy Münşi Türkman, *Dünyanı bəzəyən Abbasın tarixi*, ( tərc. Ş. Fərzəliyev)., II kitab, Bakı, Şərq-Qərb Nəşriyyat evi, 2014.

[21] Ш. Бидлиси, *Шараф-Наме,* (перевод, предисловие, примечания и приложения Е. Васильевой)., т.2, М, Наука, 1976.

Əbdi bəy Şirazinin "Təkmilət-ül-əxbar"[23], Əmir Mahmud Xandəmirin "Tarix-i Şah İsmail və Şah Təhmasib Səfəvi"[24], Qiyasəddin bin Hümaməddin əl-Hüseyni Xandəmirin "Həbib əs-siyər fi əxbar əfrad əl-bəşər"[25], Kəmaləddin Əli Binainin "Şeybani-namə"[26], Hafiz Tanış ibn Məhəmməd əl-Buxarinin "Şərəfnameye-şahi"[27], Qazi Əhməd Quminin "Xülasət ət-təvarix"[28], Zəhirəddin Məhəmməd Baburun "Baburnamə"[29], Əbül Fəzl Əllaminin "Əkbərnamə"[30], İbrahim Əfəndi Peçəvinin "Tarix"[31], Mustafa Əfəndi Selanikinin "Tarixi-Selaniki"[32], Mehmed Solakzadənin "Tarix"[33], Xoca Sadəddin Əfəndinin "Tacüt-təvarix"[34]

---

[22] *Şah Təhmasibin təzkirəsi,* (tərcümə və müqəddimə Rəhimov Əbülfəz Haşim oğlu)., Bakı, Azərnəşr, 1996.

[23] Zeynalabidin Əli Əbdi bəy Şirazi, *Təkmilətül-əxbar,* (fars dilindən tərcümə, müqəddimə və şərhlərin müəllifi Ə. Rəhimli)., Bakı, Elm, 1996.

[24] Əmir Mahmud Xandəmir, *Tarix-i Şah İsmail və Şah Təhmasib Səfəvi,* Tehran, Tənzim Məhəmməd Cərrah.

[25] Qiyasəddin ibn Emaməddin əl-Hüseyni Xandəmir, *Həbib əs-siyər fi əxbar əfrad əl-bəşər,* III cild, Tehran, h.1333.

[26] Камал-ад-Дин Али Бинаи, *Шайбани-наме, Материалы по истории казахских ханств XV-XVIII веков, (*Извлечения из персидских и тюркских сочинений)., Алма-Ата, Наука, 1969, с. 96-128.

[27] Хафиз-и Таныш Бухари, *Шараф-наме-йи шахи: Книга шахской славы, (*перевод с персидского, введение, приложение и указатели М. Салахетдиновой)., М, Наука, 1983.

[28] Ş. Məmmədova, *"Xülasət ət-təvarix" Azərbaycan tarixinin mənbəyi kimi,* Bakı, Elm, 1991.

[29] *Бабур-наме: Записки Бабура,* (перевод М.Салье)., Ташкент, Изд-во Акад. Наук Узбекской ССР, 1958.

[30] Абу-л Фазл Мубарак Аллами, *Акбар-наме,* (подготовка к изданию С. Воробьневой)., т.1, Самара, Агни, 2003.

[31] İbrahim Efendi Peçevi, *Peçevi tarihi,* (hazırlayan B.S.Baykal)., Ankara, Başbakanlıq Matbaası, 1981.

[32] Mustafa Əfəndi Selaniki, *Tarix-i Selaniki 1563-1600: Azərbaycan və qonşu ölkələrin tarixinə dair iqtibaslar,* (Osmanlı türk dilindən tərcümə edəni akad. Z. Bünyadov)., Bakı, Elm, 1992.

[33] Mehmed Solakzade, *Tarix: Azərbaycan tarixinə dair iqtibaslar,* (Osmanlı türk dilindən çevirəni Z.M.Bünyadov)., Bakı: Elm, 1992.

əsərləri və digər mənbələr XV-XVI əsrlərdə Azərbaycan dövlətlərində baş verən hadisələrin, qonşu dövlətlərlə hərbi-siyasi münasibətlərin və diplomatik əlaqələrin tədqiqində əhəmiyyətli dərəcədə rol oynamışdı.

XV-XVI əsrlərdə Azərbaycanın Avropa ölkələri ilə diplomatik münasibətlərini tədqiq edərkən, Venesiya elçi və səyyahlarından olan İosafat Barbaro, Ambrozio Kontarini, Katerino Zeno, Anonim Tacir, Ancolello, Vinçenso Allesandri və Mikele Membrenin "Səyahətnamə"ləri[35], ingilis tacir-səyyahlarından Antoni Cenkinson, Tomas Olkok, Riçard Conson, Artur Edvards, Ceffri Deket və başqalarının verdiyi məlumatlar[36], Səlibçilərin darmadağın edildiyi zaman (1396) osmanlılar tərəfindən əsir alınan Bavariyalı əsgər İohan Şiltberqerin[37] 1394-1427-ci

---

[34]Hoca Sadeddin Efendi, *Tacü't-tevarih,* (yalınlaştıran İsmet Parmaksızoğlu)., II c, Ankara, Meteksan Limitid Şirketi, 1979; Hoca Sadeddin Efendi, *Tacü't-tevarih*: *Fatih Sultan Mehmed ve İkinci Beyazid dönemleri,* (yalınlaştıran İsmet Parmaksızoğlu), III c., İstanbul, Milli Egitim Basımevi, 1979; Hoca Sadeddin Efendi, *Tacü't-tevarih: Şehzadelerin girişimleri-Selimname ve Yavuz Sultan Selim dönemi,* (yalınlaştıran İsmet Parmaksızoğlu), IV c., İstanbul, Milli Egitim Basımevi, 1979.

[35] Ə. Quliyev, *XVI əsrin ortalarında Azərbaycan Səfəvilər dövlətinin ictimai-siyasi vəziyyəti: Mikel Membrenin "Səyahətnamə"si əsasında*, Bakı, Şərq-Qərb, 2011; *Venesiyalılar Şah I Təhmasibin sarayında (Mikele Membre və Vinçenso Alessandri),* (tərc, ön söz, giriş və şərhlər O. Əfəndiyev)., Bakı, 2005; *Uzun Hasan ve Fatih mücadelesi döneminde Doğu'da Venedik elçileri: Caterino Zeno ve Ambrogio Contarini'nin seyahatnâmeleri* (çev. ve notlar T.Gündüz), İstanbul, Yedetepe Yayınları, 2006; *Seyyahların Gözüyle Sultanlar ve Savaşlar: Giavvani Maria Angiolello-Venedikli Bir Tüccar ve Vincenzo D'Alessandri'nin Seyahatnameleri(Tercüme ve notlar T.Gündüz),* İstanbul, Yeditepe Yayınları, 2007; *Səfərnameye veniziyan dər İran: Şeş səfərname,* (Səfərnamehaye veniziyan ke dər zəmane uzun həsən Ağqoyunlu be İran amədeənd), (tərcome: Doktor Mənuçehre əmiri), Tehran, Şerkəte səhamiye enteşarate xarəzmi, 1349.

[36] *Английские путешественники в Московском государстве в XVI веке,* (перевод с английского Ю.Готье)., Л, 1937.

[37] Иоганн Шильтбергер, *Путешествие по Европе, Азии Африке с 1394 года по 1427 год,* перевод со старонемецкого Ф.К.Вруна, издание, редакция и примечания З.М.Буниятова, Баку, Элм, 1984.

illərdə Osmanlı imperiyası, Azərbaycan, Orta Asiya, Misir və digər dövlətlərin ərazisində baş verən hadisələrlə bağlı verdiyi məlumatlar xüsusi əhəmiyyətə malikdir.

XV-XVI əsrlərdə Azərbaycanın Avropa ölkələri ilə diplomatik münasibətlərini tədqiq edərkən, Q.Berşenin "Venesiya Respublikası və Persiya"[38] adlı diplomatik sənədlər toplusunu xüsusilə qeyd etmək lazımdır. Bu topluya XV əsrin ortalarından başlayaraq XVII əsrin sonlarına qədər Ağqoyunlu və Səfəvi dövlətlərinin Venesiya ilə siyasi və diplomatik əlaqələrini əks etdirən Venesiya Senatının arxiv sənədləri daxil edilmiş, Ağqoyunlu və Səfəvi hökmdarları ilə Venesiya hökuməti arasında yazışmalar, Azərbaycana göndərilən Venesiya diplomatlarına verilən məxfi təlimatlar və bununla əlaqədar Venesiya Senatının xüsusi qərarları, Ağqoyunlu və Səfəvi sarayına göndərilmiş diplomatların Venesiya hökümətinə məktubları və hesabatları daxil edilmişdir. Həmçinin bu sənədlər toplusunda Venesiya diplomatlarının Ön Asiyada baş verən siyasi hadisələr barədə məlumatları da öz əksini tapmışdır.

Tədqiqata aid mənbələr içərisində Oruc Bəy Bayatın (Don Juan) əsərinin də əhəmiyyəti böyükdür. Bu əsərdə Səfəvi dövlətinin ictimai-siyasi vəziyyəti və xarici siyasi əlaqələri ilə bağlı maraqlı məlumatlara rast gəlinir[39].

XV-XVI əsrlərdə Azərbaycan-gürcü münasibətlərinin öyrənilməsində orta əsr gürcü tarixçilərinin əsərlərini də əhəmiyyətli hesab etmək olar. Bu baxımdan gürcü tarixçiləri Parsadan Qorqidcanidzenin "Gürcüstan tarixi"[40] və Vaxuşti Baqrationinin

---

[38] G. Berchet, *La Respubblica di Venezia e la Persia,* Torino, 1865, Tipoqrafia G.B. Paravia E Comp.

[39] *Книга Орудж-бека Баята – Дон-Жуана Персидского,* (перевод с английского, введение и комментарии О. Эфендиева и А. Фарзалиева)., Баку, Язычы, 1988.

[40] П. Горгиджанидзе, *История Грузии,* (перевод, исследование и указатели Р. Кикнадзе и В. Путури)., Тбилиси, Мецниереба, 1990.

"Gürcü çarlığının tarixi"[41] əsərləri Azərbaycan dövlətləri (Ağqoyunlu, Səfəvi) ilə gürcü hakimləri arasında olan siyasi münasibətlərlə bağlı tarixi məlumatlarla zəngindir.

XVI əsrdə Səfəvilər dövləti ilə Moskva knyazlığı arasındakı əlaqələr tədqiq olunarkən, dövrün siyasi və diplomatik münasibətlərini özündə əks etdirən mənbələrdəki rəsmi məlumatlardan da istifadə olunmuşdur[42].

Tədqiqat işində, həmçinin Azərbaycan dövlətlərinin xarici siyasi əlaqələrinin öyrənilməsində mühüm rol oynayan epistolyar mənbələrdən (diplomatik yazışma sənədləri)[43], ümumiləşmiş əsərlərdən[44] də istifadə edilmişdir.

Azərbaycan tarixçilərinin və bir sıra əcnəbi tədqiqatçıların dövrlə bağlı tədqiqat əsərləri Azərbaycanın XV-XVI əsr beynəlxalq münasibətlər tarixinin araşdırılması üçün əhəmiyyətli rol

---

[41] В. Багратиони, *История царства Грузинской,* (перевод Н.Накашидзе)., Тбилиси, Мецьниереба, 1976.

[42] *Памятники дипломатических сношений древней России с державами иностранными,* т.2, Санкт-Петербург, Изд. Отделениемъ Собственной Е.И.В.Канцелярии, 1852; *Памятники дипломатических и торговых сношений Московский Руси с Персией,* (под ред. Н. Веселовского)., т.1, Санкт-Петербург, Товарищество Паровой Скоропечатии Яблонский и Пероттъ, 1890; *Памятники дипломатических и торговых сношений Московский Руси с Персией,* (под ред. Н. Веселовского)., т.2, Санкт-Петербург, Лештуковская Паровая Скоропечатная П. Яблонскаго, 1892.

[43] Ş. Fərzəlibəyli, *Epistolyar irsimizdən: Şirvanşahlar Xəlilullah və Fərrux Yəsarla yazışmalar,* Bakı, Azərbaycan tarixi müzeyinin əsərləri, 2005, s.69-78; *Şah İsmayıl Səfəvi: tarixi-diplomatik sənədlər toplusu,* (fars və ərəb dillərindən tərcümə: Ş. Yəhyayev, E. Əliyev; şərhlər və qeydlər: E. Əliyev, T. Hacıyev və E. Əmirov, S. Süleymanov, elmi redaktor: R. Mehdiyev)., Bakı, Şərq-Qərb Nəşriyyat Evi, 2014.

[44] *История Востока (Восток в средние века),* т.2. М, Восточная литература РАН, 2000; *История Востока (Восток на рубеже средневековья и нового времени-XVI-XVIII вв.),* т.3. М, Восточная литература РАН, 1999; *История Европы (От средневековйя к новому времени-конец XV-первая половина XVII в.),* (ответственные редакторы Л. Мильская, В. Рутенбург)., т.3. М, Наука, 1993; *История дипломатии,* (сост. А. Лактионов)., М, АСТ, 2005.

oynamışdır. Yerli və xarici mütəxəssislərin XV-XVI əsrlərdə Qaraqoyunlu, Ağqoyunlu, Şirvanşahlar və Səfəvi dövlətlərinin xarici siyasəti və diplomatik əlaqələri ilə bağlı araşdırmaları mövzunun tədqiq olunması üçün əlverişli imkan yaratmışdır.

Azərbaycan tarixçilərindən A.A.Bakıxanov[45], C.M.İbrahimov[46], E.M.Şahmalıyev[47], O.Ə.Əfəndiyev[48], V.Z.Piriyev[49], S.B.Aşurbəyli[50], S.A.Məmmədov[51], S.M.Onullahi[52], Ə.N.Quli-

---

[45] A. Bakıxanov, *Gülüstani-İrəm,* Bakı, Möminin, 2001.

[46] C. İbrahimov, *Qaraqoyunlu dövləti,* Bakı, 1948; Дж.М. Ибрагимов, *Феодальные государства на территории Азербайджана XV века,* Баку, Азерб. Педогог. Университета, 1962.

[47] Э. Шахмалиев, К вопросы о дипломатических сношениях первых Сефевидов с западными странами. *//Труды Азербайджанского Государственного Университета, Серия историческая, 1950, вып. 1,* с. 51-68; Э. Шахмалиев. Дипломатические отношения Испании с Сефевидским государством во второй половине XVI века *//«Ученые записки» Азербайджанского Государственного Университета, Серия истории и философии, 1955, №7.* с.117-127; Э. Шахмалиев. К вопросу о времени начала упадка Венеции *//«Ученые записки» Азербайджанского Государственного Университета. Серия истории и философии, 1977, № 9.* с. 117-126.

[48] O. Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti,* Bakı, Azərnəşr, 1993; *Venesiyalılar Şah I Təhmasibin sarayında (Mikele Membre və Vinçenso Alessandri), (*ingilis dilindən tərcümə, ön söz, giriş və şərhlər Oqtay Əfəndiyev)., Bakı, Təhsil, 2005; О.А. Эфендиев, *Некоторые сведения о последних ширваншахах Дербентской династии (1500-1538 гг.),* Ближний и Средний Восток, Москва, 1962, с.87-93; О.А. Эфендиев, *К некоторым вопросам внутренней и внешней политики Шаха Исмаила I,* Труды Института Истории АН Азерб. ССР, Т.XII, 1957, с.150-180; О.А.Эфендиев, *Образование Азербайджанского государства Сефевидов в начале XVI века,* Баку, Изд. АН. Азербайджанской ССР, 1961.

[49] V. Piriyev, *Azərbaycan XIII-XIV əsrlərdə*, Bakı, Nurlan, 2003.

[50] С. Ашурбейли, *Экономические и культурные связи Азербайджана с Индией в средние века.*, Ваку, Элм, 1990; S. Aşurbəyli, *Şirvanşahlar dövləti (VI-XVI əsrlər).,* Bakı, Azərnəşr, 1997; S. Aşurbəyli, *Bakı şəhərinin tarixi (Orta əsrlər dövrü).,* Bakı, Azərnəşr, 1998.

[51] S. Məmmədov, *Azərbaycan XV-XVIII əsrin birinci yarısında.*, Bakı, APİ-nin nəşriyyatı, 1981; С. Мамедов, *Азербайджан по источником XV- первой половины XVIII вв.,* Баку, Элм, 1993.

yev[53], Ə.Hüseynov[54], M.H.Heydərov[55], F.M.Əliyev[56], Ə.Ə.Rəhmani[57], Ş.F.Fərzəliyev[58], Y.M.Mahmudov[59], Ş.M.Mustafayev[60], X.S.Qasımov[61], T.H.Nəcəfli[62], Z.H.Bayramlı[63], R.Ə.Ağayev[64],

---

[52] S. Onullahi, *XIII-XVII əsrlərdə Təbriz şəhərinin tarixi.*, Bakı, Elm, 1982.

[53] Ə. Quliyev, *Azərbaycan-Rusiya münasibətləri tarixindən: XV-XVII əsrlər,* Bakı, Azərnəşr, 1958.

[54] А. Гусейнов, *Азербайджано-Русские отношения (XV-XVII веков).*, Баку, Изд. АН Азерб. ССР, 1963.

[55] М. Гейдаров, *Города и городское ремесло Азербайджана XIII-XVII вв,* Баку., Элм, 1982.

[56] Ф. Алиев, *Азербаджано-Русские отношения (XV-XIX вв.).*, Баку, "Элм", 1985, с. 173.

[57] А. Рахмани, *Азербайджан в конце XVI и XVII веке (1590-1700 годы).*, Баку, Элм, 1981.

[58] Ş. Fərzəliyev, *Azərbaycan XV-XVI əsrlərdə*: *Həsən bəy Rumlunun "Əhsənüt-təvarix" əsəri üzrə,* Bakı, Elm, 1983; Ş. Fərzəlibəyli, *Azərbaycan və Osmanlı imperiyası (XV-XVI əsrlər),* Bakı, Azərnəşr, 1995; Ş. Fərzəlibəyli, *Epistolyar irsimizdən: Şirvanşahlar Xəlilullah və Fərrux Yasarla yazışmalar,* Azərbaycan tarixi müzeyinin əsərləri, 2005, s. 69-78.

[59] Я. Махмудов, *Взаимоотношения государств Ак-коюнлу и Сефевидов с европейскими странами: II половина XV - начало XVII века.*, Баку, Издательство Бакинского университета, 1991; Y. Mahmudov, *Azərbaycan diplomatiyası: Ağqoyunlu və Səfəvi dövlətlərinin Avropa ölkələri ilə əlaqələri (XV-XVII yüzilliklər),* Bakı, Azərbaycan diplomatiyası, 1996; Y. Mahmudov, *Azərbaycan diplomatiyası: Ağqoyunlu və Səfəvi dövlətlərinin Avropa ölkələri ilə əlaqələri: XV-XVII yüzilliklər.*, Bakı, Təhsil, 2006.

[60] Ш. Мустафаев, *Восточная Анатолия: от Аккоюнлу к Османской империи.,* М, Востлит, 1994.

[61] X. Qasımov, *Azərbaycan mədəniyyəti: XVI-XVII əsrlər.*, Bakı, Nurlan, 2002.

[62] T. Nəcəfli, *Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi müasir türk tarixşünaslığında.*, Bakı, Çaşıoğlu, 2000; T. Nəcəfli, *Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri. (Müasir Türkiyə tarixşünaslığında),* Bakı, Çaşıoğlu, 2012; T. Nəcəfli. *Səfəvi-Osmanlı münasibətləri. (Türkiyə tarixşünaslığında),* Bakı, Turxan NPB, 2014; T. Nəcəfli, *Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti: Türkiyə tarixşünaslığında.,* Bakı, Turxan, 2020; T. Nəcəfli, *Azərbaycan Səfəvi dövlətinin Hindistanın türk-müsəlman sultanlıqları ilə münasibətləri.,* Bakı, Turxan, 2020; T. Nəcəfli. *Azərbaycan Səfəvi imperiyasının Türküstan xanlıqları ilə siyasi əlaqələri,* "İdeal-Print" MMC, Bakı, 2021.

N.S.Musalı[65], B.A.Əhmədov[66], T.R.Cəfiyev[67], F.A.Hüseyn[68], A.Fərzəliyev və R.Məmmədova[69], Ə.S.Quliyev[70], H.A.Abdulla-yev[71], D.M.Əzimli[72], N.Axundova[73], N.Məmmədova[74],

---

[63] Z. Bayramlı, *Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu.*, Bakı, Avropa, 2015.

[64] R. Ağayev, *Azərbaycan və Mərkəzi Asiya dövlətlərinin qarşılıqlı münasibətləri. (XV-XVI əsrlər).*, Bakı, Kür, 2004.

[65] N. Musalı, *I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Sah İsmayıl" əsəri əsasında).*, Bakı, Elm və Təhsil, 2011; N. Musalı, Tarixşünaslıqda Səfəvi sülaləsi hakimiyyətinin hüquqi əsaslarına münasibət məsələsinə dair, *AMEA Aspirantlarının elmi konfranslarının matereallları.*, Bakı, Elm, 2003, s. 180-183.

[66] Б. Ахмедов, *Из истории торговых отношений Англии с государством Сефевидов,* автореф. дис… канд. ист. наук., Баку, 1967.

[67] T. Cəfiyev, *Azərbaycanın feodal dövlətləri XV-XVI əsrin birinci rübündə (Xoca Sədəddin Əfəndinin "Tacüt-təvarix" əsəri əsasında),* t.ü.f.d üzrə avtorefatı., Bakı, 2007.

[68] Ф. Гусейн, *Османо-Сефевидская война 1578-1590 гг,* (по материалам трудов османского летописца Ибрахима Рахимзаде)., Баку, Нурлан, 2005.

[69] А. Фарзалиев и Р. Мамедова, *Сефевиды и Великие Моголы в мусульманской дипломатии.*, Санкт-Петербург, Филологический факультет СПбГУ, 2004.

[70] Ə. Quliyev, *XVI əsrin ortalarında Azərbaycan Səfəvilər dövlətinin ictimai-siyasi vəziyyəti: Mikel Membrenin "Səyahətnamə"si əsasında.*, Bakı, Şərq-Qərb, 2011; Ə. Quliyev, *Azərbaycan Səfəvi dövlətinin diplomatiya tarixi məsələləri Venesiya arxiv sənədlərində.*, AMEA Tarix İnstitutunun e-kitabxanası, Bakı, 2023.

[71] H. Abdullayev, *Azərbaycan Səfəvi dövlətinin daxili və xarici siyasəti: I Şah Abbas Səfəvinin Hakimiyyəti dövrü.*, Bakı, Apostol, 2022.

[72] D. Əzimli, *Azərbaycanın Qərbi Avropa ölkələri ilə ticarət əlaqələri və Türkiyə: XV əsrin II yarısı - XVII əsrin I yarısı.*, Bakı, Turxan, 2014.

[73] Н. Ахундова, *Азербайджанские государства в 15-16 вв. по материалам "Кембриджской истории Ирана",* Баку, ИПО Турхан, 2015, 172 с.

[74] Н. Мамедова, *Сефевидский посол при дворе французского короля Людовика XIV (Перевод и комментарии к историческому труду Мориса Эрбетта "Персидский посол при дворе Людовика XIV").* Баку, Турхан ИПО, 2019, 264 с.

S.M.Məlikzadə[75], X.A.Qambayzadə[76], L.R.Qafarzadə[77], R.A.Muğanlinski[78], R.Nəcəfova[79] və digərlərinin əsərləri tədqiqat prosesində əhəmiyyətli dərəcədə elmi baza rolunu oynamışdır.

Tədqiqat zamanı əcnəbi tarixçilərin əsərlərinə də müraciət olunmuş, müasir tarixçilərin problemə münasibəti işıqlandırılmışdır. **Türkiyə tarixçilərindən** F.Sümer[80], H.İnalçik və D.Quataert[81], İ.H.Uzunçarşılı[82], F.M.Kırzıoğlu[83], Y.Öztuna[84],

---

[75] S. Məlikzadə, *İtalyan "Karmelitlərin xronikası"nda Azərbaycan tarixi məsələləri,* t.ü.f.d. üzrə avtoreferatı., Bakı, 2022.

[76] X. Камбай-заде, *Взаимоотношения государства Сефевидов с западноевропейскими странами конец XVI-первой треть XVII вв,* Автореф. Дис… канд. ист. наук., Баку, 1991.

[77] Л. Кафар-заде, Миссия Энтони Дженкинсона в Сефевидское государство: почему из «скромного начала» не возникли «великие последствия»?, *«Клио», №8 (188), ООО «Полторак»,* Санкт-Петербург, 2022, с. 32-44.

[78] Р. Муганлинский, *Азербайджанские государства XV-XVI вв. в английской историографии.*, Баку, 1998.

[79] R. Nəcəfova, Səfəvi ordusunun idarə olunmasında Azərbaycan türkləri, *Bakı Universitetinin Xəbərləri, humanitar elmlər seriyası, №1.,* Bakı, 2021, s.166-173.

[80] F. Sümer, *Kara-Koyunlular: Başlanğıctan Cihan-Şaha'a kadar,* Cilt I., Ankara, Türk Tarih Kurumu Basımevi, 1984; F. Sümer, *Safevi devletinin kuruluşu ve gelişmesinde Anadolu türklerinin rolü: Şah İsmail ile halefleri ve Anadolu türkleri.,* Ankara, Türk Tarih Kurumu Basımevi, 1992; F. Sümer, Akkoyunlular, *Türk Dünysı araşdırmaları, 1986, № 40*., s. 1-38.

[81] H. İnalçik ve D. Quataert, *Osmanlı imparatorluğunun ekonomik ve sosyal tarihi (1300-1600),* (türkçeye çeviren Halil Berktay), I c., İstanbul, Mart Matbaacılıq Sanatları Ltd. Şti., 2001; H. İnalçik, *Osmanlı tarihine toplu bir bakış: Osmanlı 1.,* Ankara, Yeni Türkiye Yayınları, 1999, s. 37-116.

[82] İ. Uzunçarşılı, *Anadolu beylikleri və Akkoyunlu, Karakoyunlu devletləri*., Ankara, TTK Basımevi, 1969; İ. Uzunçarışlı, *Osmanlı tarihi,* cilt I., Ankara, TTK Basımevi, 1961; İ. Uzunçarışlı, *Osmanlı tarixi: İstanbul'un fethinden Kanuni Sultan Suleyman'ın ölümüne kadar*, cilt II., Ankara, TTK Basımevi, 1988.

[83] F. Kırzıoğlu, *Osmanlılar'ın Kafkas-elleri'ni fethi (1451-1590).,* Ankara, Türk tarih kurumu basımevi, 1993.

B.S.Baykal[85], B.Kütükoğlu[86], R.Kılıç[87], S.Tansel[88], Ş.Turan[89], S.Özbaran[90], İ.Aka[91], Y. Halaçoğlu[92], K.Y.Kopraman[93], Y.Küçükdağ[94], H.Bıyıktay[95], A.N.Kurat[96], F.R.Unat[97], Y.Yücel[98],

---

[84] Y. Öztuna, *Başlanğıcından zamanımıza kadar Türkiye tarihi,* IV c., İstanbul, Sanayi A. Ş. Matbaası, 1964.

[85] B. Baykal, Fateh Sultan Mehmet-Uzun Hasan rakabetinde Trabzon meselesi, *Türkmen Akkoyunlu imparatorluğu: Siyasal, sosyal ve kültürel tarihine ilişkin makaleler antolojisi.*, Ankara, 2003, s.145-151; B. Baykal, Uzun Hasanın Osmanlılara karşı katı mücadeleye hazırlıkları ve Osmanlı-Akkoyunlu harbinin başlaması, *Türkmen Akkoyunlu imparatorluğu: Siyasal, sosyal ve kültürel tarihine ilişkin makaleler antolojisi.*, Ankara, 2003, s. 235-242.

[86] B. Kütükoğlu, *Osmanlı-İran siyasi münasebetleri (1578-1612).*, İstanbul, Özal Matbaası, 1993.

[87] R. Kılıç, *Kanuni devri Osmanlı-İran münasebetleri (1520-1565).*, İstanbul, İQ Kültür Sanat Yayinçılıq ve Uluslararası Tanıtım Hizmetleri Şti., 2006.

[88] S. Tansel. Fatih'in doğu siyaseti, *Türkmen Akkoyunlu imparatorluğu: Siyasal, sosyal ve kültürel tarihine ilişkin makaleler antolojisi.*, Ankara, 2003, s.173-188; S. Tansel, Trabzon Rum imparatorluğunun ortadan kaldırılması, *Türkmen Akkoyunlu imparatorluğu: Siyasal, sosyal ve kültürel tarihine ilişkin makaleler antolojisi.*, Ankara, 2003, s. 243-247.

[89] Ş. Turan, Fatih Mehmet-Uzun Hasan mücadelesi ve Venedik, Türkmen Akkoyunlu imparatorluğu: *Siyasal, sosyal ve kültürel tarihine ilişkin makaleler antolojisi.*, Ankara, 2003, s. 189-233.

[90] S. Özbaran, *Portekizli seyyahlar: İran, Türkiye, İrak, Suriye ve Mısır yollarında.*, İstanbul, Kitapyayınevi, 2007.

[91] İ. Aka, *Timur ve devleti,* Ankara, Türk tarih kurumu basımevi, 1991.

[92] Y. Halaçoğlu, *XIV-XVII yüzyıllarda Osmanlılarda devlet teşkilatı ve sosyal yapı,* 6. Baskı., Ankara, Türk Tarih Kurumu Basımevi, 2007.

[93] K. Kopraman, *Misir Memlükleri tarihi: Sultan al-Malik al-Muayyad Şeyh al-Mahmudi devri (1412-1421).*, Ankara, Kaynak Eserler dizisi, 1989.

[94] Y. Küçükdağ, *Osmanlı devleti'nin Şah İsmail'in Anadolu'yu şiileştirme çalışmalarını engellemeye yönelik önlemleri,* Osmanlı 1., Ankara, Yeni Türkiye Yayınları, 1999, s. 269-281.

[95] H. Bıyıktay, *Timurlular zamanında Hindistan Türk imparatorluğu.*, Ankara, Türk Tarih Kurumu Basımevi, 1989.

[96] A. Kurat, *Rusya tarihi: Başlangıçtan 1917'ye kadar.*, Ankara: Türk Tarih Kurumu Basımevi, 1988.

R.Yinanç[99], C.Aydoğmuşoğlu[100], **Sovet dövrü rus tədqiqatçıları və Rusiya tarixçilərindən** İ.P.Petruşevski[101], A.M.Antonova[102], А.Л.Xoroşkeviç[103], V.V.Bartold[104], P.P.Buşev[105], A.P.Novoselsev[106], E.N.Kuşeva[107], N.D.Mikluxo-Maklay[108], N.A.İva-

---

[97] F. Unat, *Osmanlı sefirleri ve sefaretnameleri,* (tamamlayıp yayımlayan Bekir Sıtkı Baykal)., Ankara, Türk Tarih Kurumu Basımevi, 1987.

[98] Y. Yücel, *Kadi Burhaneddin.*, Ankara, Kültür ve Turizm Bakanlığı Yayınları, 1987; Y. Yücel, *Timurun Ortadoğu-Anadolu seferleri ve sonucları:1393-1402.*, Анкара, Türk Tarih Kurumu Basımevi, 1989.

[99] R. Yinanç, *Dulkadir beyliği.*, Ankara, TTK Basımevi, 1989.

[100] C. Aydoğmuşoğlu, *Şah Abbas ve zamanı,* doktora tezi., Ankara, 2011.

[101] И. Петрушевский, Государства Азербайджана в XV веке, *Сборник статей по истории Азербайджана,* вып. I., Баку, 1949, с.153-213; И. Петрушевский, *Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI - начале XIX вв.*, Ленинград, Изд. ЛГУ им. А. Жданова, 1949; И.П. Петрушевский, Азербайджан в XVI-XVII вв, *Сборник статей по истории Азербайджана*, вып. I., Баку, 1949, с. 225-298.

[102] А. Антонова, *Очерки общественных отношений и политического строя Могольской Индии времен Акбара (1556-1605).*, М, Изд-во Акад. наук СССР, 1952, с.283.

[103] А. Хорошкевич, *Русское государство в системе международных отношений в конца XV-начала XVI в.*, Москва, Наука, 1980.

[104] В. Бартольд, *Место прикаспийских областей в истории мусулиманского мира*, Сочинения: т.2, ч.1., М, Изд Вост. лит, 1963; В. Бартольд, *Ширваншахи, Сочинения*: т.2, ч.1., М, Изд Вост. Лит, 1963, с. 875-878; В. Бартольд, *Шейбаниды, Сочинения*: т.2, ч.2, М, Наука, 1964, с. 545-548; В. Бартольд, *Улуг бек и его время, Сочинения*: т.2, ч.2., М, Наука, 1964, с. 25-178.

[105] П. Бушев, *История посольств и дипломатических отношений Русского и Иранского государства в 1586-1612 гг.*, М, Наука, 1976.

[106] А. Новоселцьев, *Русско-иранские политические отношения во второй половине XVI в, Международные связи России до XVII в.,* М, 1961, с. 444-461.

[107] Е. Кушева, Политика Русского государства на Северном Кавказе в 1552-1572гг*, Исторические записки АН СССР 1950, № 34*, с. 236-287.

[108] Н. Миклухо-Маклай, К истории политических взаимоотношений Ирана со Средний Азией в XVI в, *Краткие сообщения института востоковедения АН СССР, вып. IV.*, М, 1952, с. 11-18.

nov[109], M.B.Fexner[110], N.A.Smirnov[111], B.A.Zarin[112], İ.M.Filştinskiy[113], A.M.Xazanov[114], L.N.Levin[115], M.A.Polievktov[116], **Qərb ölkələrinin tədqiqatçılarından** A.Allouçe[117], V.Hinz[118], L.Stenly[119] [241], R.Savory[120], V.Minorski[121], J.C.Pauel-Pri-

---

[109] Н. Иванов, *Османские завоевания арабских стран (1516-1574гг).*, М, Наука, 1984.

[110] М. Фехнер, *Торговля русского государства со странами Востока в XVI в.*, М, 1956.

[111] Н. Смирнов, К истории борьбы европейских держав за колониальное порабощение Турции в XVI-XVIII веках, *Труды МИФЛИ.,* т.2, М, 1958, с. 162-175; Н. Смирнов, *Политика России на Кавказе в XVI-XIX веках.*, М,1958.

[112] В. Зарин, *Запад и Восток (в мировой истории XIV-XIX вв.).,* М, Наука, 1991.

[113] И. Фильштинский, *История Арабов и Халифата (750-1517),* М, АСТ, 2006.

[114] А. Хазанов, *Экспансия Португалии в Африке и борьба Африканских народов за независимость (XVI-XVIIIвв.).,* Москва, Наука, 1976.

[115] Л. Левин, *История международного права.,* М, Экзамен, 2006.

[116] М. Полиевктов, *Европейские путешественники XIII-XVIII вв. по Кавказу,* Акад. наук СССР., Науч.исслед. ин-т кавказоведения им. акад. Н.Я. Марра., Тифлис, 1-я тип., Сахелгами, 1935.

[117] A. Allouche, Osmanlı-Safevi ilişkileri: kökenleri ve gelişimi, (çeviren A.Emin Dağ)., İstanbul, Anka Yayınları, 2001.

[118] W. Hinz, *Uzun Hasan ve Şeyh Cüneyd: XV yüzyılda İran'ın milli bir devlet haline yükselişi.*, Leypsiq, 1936, (türk diline çevireni Tevfik Bıyıklıoğlu)., Ankara, Türk Tarih Kurumu Basımevi, 1992.

[119] L. Stanley, *History of Egypt in the middle ages.*, Londan, Metuen and Co, 1901.

[120] R. Savory, *Iran under the Safawids,* Cambridg: Cambridge University Press, 1980; R. Savory, The Struggle for Supremacy in Persia after the death of Timur, *Studies on the History of Safawid Iran*, Der Islam 40, 1964, p.35-65.

[121] V. Minorsky, The Middle East in the Western politics in 13-th, 15- th and 17- th centuries, *Journal of Royal Asiatic Society.*, 1940, vol. 27, p.427- 461; V. Minorsky, The Aq-qoyunlu and land reforms, Iranica. *Twenty articles: Publications of the University of Tehran.*, 1964, p. 228-241.

ce[122], J.E.Woods[123], F.Qrenard[124], J.U.Hammer[125], S.N.Fisher[126], L.Tardy[127], İ.M.Lapidus[128], E.Eberhard[129], **İran tarixçilərindən** Ə.Ə.Vilayəti[130], Ə.Nəvai[131], M.Parsadust[132], X.Bəyani[133], H.Cabbari[134], N.Fəlsəfi[135], P.Bastani[136], P.Semnani[137], H.Zərca-

---

[122] J. Powell-Price, *A history of India.*, London, Thomas Nelson and Sons LTD, 1955.

[123] J. Woods, *The Aqquyunlu Clan: Confederation, Empire (A study in 15th/9th century Turko-Iranian politics).*, Chicago, Bibliotheca Islamica, 1976.

[124] F. Qrenard, *Babur,* (hazırlayan Orhan Yüksel)., İstanbul,Milli Egitim Basımevi, 1971.

[125] J. Hammer, *Osmanlı tarihi,* (çeviren Mehmet Ata), I c., İstanbul, Milli Egitim Basımevi, 1990.

[126] S. Fisher, The foreign relations of Turkey: 1481–1512, *Illinois Studies in the Social Sciences, vol. 30, no. 1.*, Urbana, Illinois U.P., 1948.

[127] L. Tardy, *Beyond the Ottoman Empire (14-th – 16-th centry Hunqarian Diplomacy in the East).*, Szeged, Attila Jozsef University, 1978.

[128] İ. Lapidus, *Muslim cities in the later Middle Ages.*, Cambridge, Harvard University Press, 1967.

[129] E. Eberhard, *Osmanische Polemik gegen die Safawiden im 16. Jahrhundert nach arabischen Handschriften.*, Freiburq, Klaus Schwarz Verlaq, 1970.

[130] Ə. Vilayəti, *Şah İsmayıl Səfəvi dövründə İranın xarici əlaqələr tarixi.*, Bakı. Əlhuda, 1998.

[131] Ə. Nəvai, *Şah Abbas: Mecmueye əsnad və mokatebate tarixe həmrah ba yaddaşthaye təfsili.*, Enteşarate Bonyade Fərhənge İran, Tehran, 1352.

[132] M. Parsadust, *Şah Təhmasib.,* Tehran, 1377; M. Parsadust, *Şah İsmayıle əvvəl, Padşahi ke nəqşe əmiqi dər İran və irani daşt.*, Tehran, 1381.

[133] X. Bəyani, *Tarixe nezamiye İran dər doreye Səfəviyye.,* Tehran, Enteşarate bozorə ərteştaran, 1353.

[134] H. Cəbbari, Qəndahar və nəqşe an dər rəvabete por fərazo nəşib miyane İran və Hendustan, *Həmayeşe Səfəviyye dər qostəreye tarixe İranzəmin (məcmue məqalat).,* Təbriz, Daneşqahe Təbriz, 1383, s.219-228.

[135] N. Fəlsəfi, *Zendeqaniye Şah Abbase əvvəl. Celde əvvəl, moqəddemate səltənəte u əz veladət ta padşahi,* Çape dovvom., Tehran, çape Keyhan, 1334.

[136] P. Bastani, *Siyasət və eqtesade əsre Səfəvi.*, Tehran, nəşre Səfi Əlişah, 1348.

[137] P. Semnani, *Şah Esmail morşede sorx kolahan,* Nəşre-ketabbe-numune., Tehran, h.1371.

bad[138], Z.Sabetiyan[139] və digərlərinin əsərlərində orta əsr Azərbaycan dövlətlərinin (XV-XVI əsrlər) xarici siyasəti, beynəlxalq əlaqələri və diplomatik münasibətləri haqqında olduqca əhəmiyyətli məlumatlara rast gəlinir.

Tədqiqat işinin ərsəyə gəlməsində öz elmi məsləhətləri ilə mənə dəstək olmuş elmi rəhbərim professor Şahin Fərzəlibəyliyə dərin minnətdarlığımı bildirirəm. Həmçinin AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın XV-XVIII əsrlər tarixi" şöbəsinin kollektivinə dəstək və təkliflərindən dolayı təşəkkürlərimi çatdırıram. Eyni zamanda, tədqiqat prosesində mənə elmi və mənəvi dəstəyinə görə Azərbaycan səfəvişünaslıq məktəbinin banisi, AMEA-nın müxbir üzvü, mərhum Oqtay Əfəndiyevi və mərhum tarixçi-alim dosent Dilavər Əzimlini  minnətdarlıq duyğusu ilə yad edir, ruhlarına Allahdan rəhmət diləyirəm.

Azərbaycan diplomatiyasının uğurlu addımlar atdığı hazırkı dövrdə beynəlxalq münasibətlər sahəsində dünya dövlətləri ilə qarşılıqlı təcrübə mübadiləsinə, beynəlxalq müstəvidə davamlı əməkdaşlığa və beynəlxalq münasibətlərin təhlili və tədqiqinə böyük ehtiyac duyulur. Bu baxımdan hesab edirik ki, bu monoqrafiya, XV-XVI əsrlər Azərbaycanın beynəlxalq münasibətlər və diplomatiya tarixinə, Azərbaycan dövlətçiliyinin orta əsrlər dövrü xarici siyasət məsələlərinə dərindən işıq salmağa imkan yaradacaqdır. Hesab edirik ki, beynəlxalq əlaqələr və diplomatiya tarixi üzrə mütəxəssislər, elmi tədqiqatçılar, Azərbaycanın beynəlxalq əlaqələr tarixi ilə maraqlanan hər bir kəs bu əsərdən dəyərli məlumatlar əldə edə biləcəkdir.

---

[138] H. Zərrəcabad, Təəmmolate tarixiye İran və Hend dər əsre Səfəviyye, *Həmayeşe Səfəviyye dər qostəreye tarixe İranzəmin (məcmue məqalat).,* Təbriz, Daneşqahe Təbriz, 1383, s.979-994.

[139] Z. Sabetiyan, *Əsnad və namehaye tarixiye doreye Səfəviyye.,* Tehran, enteşarate daneşqahe Tehran, 1343.

# I FƏSİL

# AZƏRBAYCAN XV ƏSR BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ

## 1.1. Azərbaycan Qaraqoyunlu dövlətinin Teymuri və Osmanlı dövlətləri ilə qarşılıqlı siyasi əlaqələri

XIV əsrin sonu XV əsrin əvvəllərində Avrasiya məkanında siyasi hadisələrlə zəngin bir dövr başlayır. Bu dövrdə istər Avropada, istər Yaxın və Orta Şərqdə, istərsə də Mərkəzi Asiyada yeni dövlətlər meydana gəlmiş və bu dövlətlər arasında özünəməxsus siyasi münasibətlər yaranmışdı. Avrasiya dünyasında yaranan bu siyasi münasibətlər orta əsrlər dövrünün spesifik xüsusiyyətlərini özündə əks etdirən beynəlxalq münasibətlər sisteminin yaranmasında mühüm rol oynamışdır.

Bu dövrdə Avrasiya məkanının siyasi xəritəsinə nəzər yetirdikdə bölgədə mövcud olan dövlətlərin hərbi-siyasi qarşıdurmasının və mürəkkəb siyasi hadisələrin baş verdiyinin şahidi oluruq. Belə ki, bölgənin böyük dövlətlərindən biri olan Osmanlı imperiyasının  Şərqi Avropada apardığı müharibələr, Suriyanın dəniz limanları uğrunda gedən Məmlük-Xaçlı mücadiləsi, artıq tənəzzül dövrünü yaşayan Qızıl Orda dövləti ilə Rus knyazları arasında baş verən münaqişələr, bu dövrdə Əmir Teymurun qərb istiqamətindəki hərbi yürüşləri və bu yürüşlər ərəfəsində Cəlairilər dövlətində mövcud olan siyasi böhran bölgənin  siyasi mənzərəsinin kifayət qədər mürəkkəbliyindən xəbər verirdi.

Teymurun Yaxın Şərqə yürüşü ərəfəsində Yaxın Şərq bölgəsindədə siyasi pərakəndəlik hökm sürürdü. Həmin dövrdə Xorasanda Kertlər (1245-1383) və Sərbədarlar (1337-1381), Astarabad, Damğan və Bistan bölgələrində Toğa Teymurlular (1337-1410), Fars və Kirman ərazilərində Müzəffərlilər (1294-1393), İraqi-Ərəb, İraqi-Əcəm və Azərbaycanın Kür çayından cənubda yerləşən ərazilərində Cəlairilər (1340-1410), Azərbaycanın Kür

çayından şimalda yerləşən torpaqlarında isə Cəlairilərdən siyasi asılılıqda olan Şirvanşahlar (861-1538) hökmranlıq edirdi[140].

Bu dövrdə bölgədə yerləşən dövlətlərin daxili vəziyyəti və xarici siyasi münasibətlərinin qeyri-sabit oması Əmir Teymurun qərb istiqamətində yürüşlərinə münbit şərait yaradırdı.

Əmir Teymur Xorasanın siyasi cəhətdən parçalanmasından istifadə edərək 1380-1384-cü illərdə bu ərazini tamamilə işğal etdi[141]. Xorasanın işğalından sonra Teymur Azərbaycan istiqamətində ilk yürüşə başladı. 1386-cı ildə qərb istiqamətində birinci yürüşə başlayan Əmir Teymur, tezliklə Sultaniyyəni və Təbrizi ələ keçirdi, Naxçıvan, Qars, Tiflis istiqamətində yürüşünü davam etdirərək Arran Qarabağına gəldi. Bu zaman Cəlairi hökmdarı Sultan Əhməd Teymura qarşı müqavimət göstərmək iqtidarında olmadığı üçün Bağdad istiqamətində geri çəkildi[142].

Şirvan hökmdarı Şeyx I İbrahim isə Teymurun işğalçılıq yürüşləri qarşısında duruş gətirməyin çətin olduğunu nəzərə alaraq Şirvanı onun talanlarından xilas etmək üçün Qarabağa gedib ona öz itaətini bildirdi[143].

Əmir Teymur Qarabağda olarkən, Cəlairi Sultan Əhmədə məktub yazaraq ondan tabe olmağı tələb etdi. Lakin Sultan Əhməd Teymura tabe olmaqdan boyun qaçırdığı üçün Tey-

---

[140] R. Savory, The Struggle for Supremacy in Persia after the death of Timur, *Studies on the History of Safawid Iran*., Der Islam 40, 1964, p.35; S. Aşurbəyli, *Şirvanşahlar dövləti (VI-XVI əsrlər)*., Bakı, Azərnəşr, 1997, s.206; S. Aşurbəyli, *Bakı şəhərinin tarixi (Orta əsrlər dövrü)*., Bakı, Azərnəşr, 1998, s.86.

[141] İ. Aka, *Timur ve devleti*., Ankara, Türk tarih kurumu basımevi, 1991, s.11.

[142] N. Şami, *Zəfər-namə (Azərbaycanın və qonşu ölkələrin tarixinə dair iqtibaslar),* (türk dilindən tərcümə edəni akademik Z.M.Bünyadov)., Bakı, Elm, 1992, s.7-9; *Azərbaycan tarixi, VII cilddə*, III c., Bakı, Elm, 1999, s.44; S. Onullahi, *XIII-XVII əsrlərdə Təbriz şəhərinin tarixi*., Bakı, Elm, 1982, s.96; F. Metsopski, *Teymurləngin və onun xələflərinin tarixi*., Bakı, Azərbaycan SSR EA nəşriyyatı, 1957, s.11.

[143] N. Şami, *Zəfər-namə*, s.9; S. Aşurbəyli, *Şirvanşahlar dövləti (VI-XVI əsrlər).,* s.281; İ. Aka, *Timur ve devleti*., s.13.

mur onun Azərbaycanın cənub hissəsindəki hökmranlığını ləğv etdı[144].

Əmir Teymur 1387-ci ilin yazında qaraqoyunlular üzərinə yürüşə başladı. O, Aladağ və Çapakçur bölgəsində qaraqoyunlulara qarşı mübarizədə ciddi uğur qazana bilməyərək Fars vilayətinə, oradan isə Səmərqəndə geri döndü[145].

Əmir Teymur 1392-ci ildə qərbə doğru özünün beşillik yürüşünə (1392-1397) başladı. Həmin ildə Təbrizə daxil olan Teymur, buradan İraqi-Ərəb istiqamətində hərəkət edərək Bağdadı ələ keçirdi (avqust/1393). Bağdad hakimi Sultan Əhməd Cəlairi isə müqavimət göstərə bilməyib Dəməşqə gəldi[146].

Əmir Teymurun Bağdadı ələ keçirməsi Anadoluda və Misirdə böyük narahatlığa səbəb oldu.

Teymurun qərb istiqamətində yürüşü ərəfəsində Anadolunun xəritəsi öz siyasi mürəkkəbliyi ilə xarakterizə olunurdu. Bu dövrdə Orta Anadoluya Osmanlı dövləti, Sivas-Kayseri bölgəsinə Qazi Bürhanəddin Əhməd, Larenda bölgəsinə Qaraman bəyliyi, Ərzincan bölgəsinə Ərzincan əmirliyi, Şərqi Anadolunun şimal-şərq bölgəsinə Qaraqoyunlu bəyliyi, Maraş bölgəsinə Zilqədər bəyliyi, Diyarbəkr bölgəsinə isə Ağqoyunlu bəyliyi nəzarət edirdi. Misir və Suriya əraziləri isə Məmlük dövlətinin hakimiyyəti altında idi[147].

---

[144] R. Ağayev, *Azərbaycan və Mərkəzi Asiya dövlətlərinin qarşılıqlı münasibətləri (XV-XVI əsrlər).,* Bakı, Kür, 2004, s.42.

[145] F. Metsopski, *a.gə.,* s.13; F. Sümer, *Kara-Koyunlular (Başlanğıctan Cihan-Şaha'a kadar),* cilt I., Ankara, Türk Tarih Kurumu Basımevi, 1984, s.51; V. Piriyev, *Azərbaycan XIII-XIV əsrlərdə.,* Bakı, Nurlan, 2003, s.168; R. Ağayev, *a.g.ə.,* s.42.

[146] N. Şami, *Zəfər-namə.,* s.11; F. Sümer, *Kara-Koyunlular.,* s.56-57; A. Bakıxanov, *Gülüstani-İrəm.,* Bakı, Möminin, 2001, s.88; C. İbrahimov, *Qaraqoyunlu dövləti.,* Bakı, 1948, s.33.

[147] İ. Aka, *Timur ve devleti.,* s.18; Y. Yücel, *Timurun Ortadoğu-Anadolu seferleri ve sonucları (1393-1402).,* Aнкара, Türk Tarih Kurumu Basımevi, 1989, s.3.

Əmir Teymur Bağdadı ələ keçirdikdən sonra Anadolu bəylərinə və Məmlük sarayına məktublar göndərərək onları itaət etməyə çağırdı[148]. Teymurun bu məktubuna Ərzincan hakimi Muttəhərtən, Qaramanoğlu Əlaəddin bəy, Zülqədəroğlu Suli bəy, Ağqoyunlu Osman bəy müsbət cavab verərək onun itaət təklifini qəbul etdiklərini bildirdilər. Qaraqoyunlu bəyi Qara Yusif və Qayseri-Sivas hakimi Qazi Bürhanəddin isə Teymurun itaətini rədd etdi. Məmlük sultanı Bərkuk (1382-1399) isə Teymurun məktubuna onun göndərdiyi elçiləri öldürməklə cavab verdi[149].

Belə bir siyasi şəraitdə Kayseri-Sivas hakimi Qazi Bürhanəddin Teymura qarşı bir ittifaq yaratmaq təşəbbüsü ilə çıxış edərək Osmanlı və Məmlük sultanları ilə danışıqlara başladı. Qazi Bürhanəddinin apardığı danışıqlar müsbət sonluqla başa çatdı və Sultan İldırım Bəyazid (1389-1402), Seyfəddin Sultan Bərkuk (1382-1399), Toxtamış xan (1380-1396) və Qazi Bürhanəddin (1381-1398) arasında Əmir Teymura qarşı hərbi ittifaq yarandı[150]. Qeyd edək ki, Qaraqoyunlu bəyliyi və Cəlairi hökmdarı Sultan Əhməd bu ittifaqı müdafiə edirdilər.

Əmir Teymur ona qarşı yaradılan bu ittifaqı parçalamaq üçün müəyyən təşəbbüslər göstərsə də, bir nəticə əldə edə bilmədi. Ərzuruma qədər gələn Teymur ona qarşı olan bu hərbi ittifaqdan ehtiyat edərək Anadolu istiqamətində yürüşlərini dayandırdı və Gürcüstan istiqamətinə hərəkət edərək (sentyabr 1394) bütün gürcü vilayətlərini ələ keçirdi[151].

Teymur 1395-ci ilin yazında Dərbəndi keçərək, Toxtamış xanın üzərinə ikinci dəfə yürüşə başladı. Aprel ayının 15-də (1395) Terek çayı yaxınlığında baş verən döyüşdə Qızıl Ordalı-

---

[148] İ. Aka, *Timur devri Anadolusu, Osmanlı 1.*, Ankara, Yeni Türkiye Yayınları, 1999, s.229.
[149] İ. Aka, *Timur ve devleti.*, s.20; Y. Yücel, *a.g.ə.*, s.12-13.
[150] İ. Aka, *Timur devri Anadolusu.*, s.230; Y. Yücel, *a.g.ə.*, s.14-17.
[151] П. Горгиджанидзе, *История Грузии,* (перевод, исследование и указатели Р. Кикнадзе, В. Путури)., Тбилиси, Мецниереба, 1990, с.50; İ. Aka, *Timur ve devleti.*, s.21.

lar ağır məğlubiyyətə uğradı. Bu qələbədən sonra Teymur Azərbaycana geri dönərək oğlu Miranşahı Azərbaycana hakim təyin etdi və Səmərqəndə qayıtdı[152].

Əmir Teymurun Toxtamış üzərində qələbəsi ona qarşı yaradılan hərbi ittifaqa vurulan ən böyük zərbə idi. Cünki Toxtamışın bu ittifaqda iştirakı Teymurun Anadolunu işğal etməsinə ciddi maneə törədirdi. Məhz Teymurun Anadoluda işğallarını dayandıraraq geri dönməsi də şimaldan Toxtamışın, cənubdan isə məmlüklərin hücumundan ehtiyat etməsi ilə əlaqədar idi. Teymur Toxtamış üzərində qələbə çalmasına baxmayaraq, yenə də ona qarşı yaradılan ittifaqdan ehtiyat edir, bütün imkanlarından istifadə edərək bu ittifaqı dağıtmağa çalışırdı. Çünki bu ittifaq Teymurun Anadolunu işğalının qarşısında hərbi sədd idi.

Bu dövrdə Əmir Teymur da siyasi rəqiblərinə qarşı mübarizə aparmaq üçün Avropa dövlətləri ilə danışıqlar aparırdı. Osmanlı imperiyasına qarşı birgə mübarizə aparmaq üçün Cağatay hökmdarı ilə ilk ittifaq yaratmaq təşəbbüsünü Avropa dövlətləri göstərmişdi. Bu münasibətlə, Avropa dövlətləri Bizansın və Genuyanın nümayəndələri vasitəsilə Əmir Teymurla ilkin danışıqlar aparmış və bu danışıqlarda Osmanlı imperiyasına qarşı mübarizədə ona kömək təklif olunmuşdu. Avropa dövlətlərinin bu təklifi Cağatay hökmdarı üçün cəlbedici idi. Çünki Teymurun dəniz əməliyyatları üçün hərbi donanması olmadığından bu dövrdə okean və dənizlərdə üstün mövqeyə malik olan Venesiya və Genuyanın dəstəyi onun üçün əhəmiyyətli idi[153].

1402-ci ilin baharında Trabzon imperatoru III Manuel (1390-1412) Fərat çayı yaxınlığında Teymurla görüşərək ona os-

---

[152] R. Ağayev, *Azərbaycan və Mərkəzi Asiya dövlətlərinin qarşılıqlı münasibətləri*, s.42; *История народов Северного Кавказа с древнейших времен до коньца XVIII в.*, Москва, Наука, 1988, с.214; Y. Yücel, *a.g.ə.*, s.31-33.

[153] И. Умняков, Международные отношения Средней Азии в начале XV века, *Труды Узбекского Государственного Университета., Новая серия. 1956, Выпуск 61*, с.183.

manlılara qarşı mübarizə aparmaq üçün 20 hərbi gəmi ilə kömək edəcəyinə söz vermişdi[154]. Aparılan danışıqlar nəticəsində Konstantinopolun imperatoru və Pera məntəqəsinə nəzarət edən genuyalılar Teymura əsgər və hərbi qalereyalarla (hərbi qayıqlar – M.A.) yardım etməyə söz vermişdilər[155].

Əmir Teymurla Fransa kralı VI Karl (1380-1422) və İngiltərə kralı IV Henrix (1399-1443) arasında da  osmanlılara qarşı birgə mübarizə aparmaq üçün diplomatik danışıqlar aparılmışdı[156]. Lakin Avropa dövlətləri ilə Əmir Teymur arasında aparılan bu danışıqlar nəticəsiz başa çatmış və Teymurun Ankara döyüşündə (1402) osmanlılar üzərində qələbəsindən sonra bu diplomatik təmaslar öz əhəmiyyətini  itirmişdi.

Əmir Teymur 1396-cı ilin qışında Şirvanda olarkən Osmanlı sultanı İldırım Bəyazidə bir məktub göndərərək "Allahın köməyi ilə Toxtamışa qalib gəldiyini, bir il öncə İraqi-Ərəbdə olarkən Şam tərəfinə hakim olan adı sanı bilinməyən, əsil soydan gəlməyən Bərkuka elçilər yolladığını və bu elçilərin öldürüldüyünü, bu səbəbdən Şam ölkəsinə yürüş edəcəyini və Məmlük Sultanının dostu olan Sivas hakiminə də həddini bildirəcəyini", - yazır, həmçinin məktubunda İldırım Bəyazidə ona qarşı olan ittifaqdan ayrılmasını da məsləhət görürdü[157].

Göründüyü kimi, Əmir Teymur bu məktub vasitəsilə Osmanlı Sultanını Anadoluya edəcəyi hərbi yürüşdən xəbərdar etmişdi. Lakin mövcud siyasi şəraiti nəzərə alan Teymur osmanlılara qarşı hərbi yürüşü təxirə salaraq Səmərqəndə dönməyə məcbur olmuşdu.

Əmir Teymurun Səmərqəndə qayıtmasından istifadə edən müttəfiqlər onu müdafiə edən bəzi Anadolu bəylərinə qarşı mübarizəyə başladılar. Bu mübarizə zamanı Əmir Teymurun müttəfiqi Ağqoyunlu Osman bəy Kayseri-Sivas hakimi Qazi Bürha-

---

[154] И. Умняков, *a.g.ə.,* s.184.
[155] И. Умняков, a.g.ə., s.185.
[156] И. Умняков, *a.g.ə.,* s.186-187.
[157] İ. Aka, *Timur ve devleti.*, s.23.

nəddini qətlə yetirdi (mart/1398)[158]. Əmir Teymura qarşı ittifaqın yaradılmasında böyük xidmətləri olan Qazi Bürhanəddinin ölümü bu ittifaqa böyük zərbə vurdu. Həmçinin bu dövrdə Misir sultanı Bərkukun (1399) vəfat etməsi də "antiteymuri ittifaqına" növbəti zərbə idi.

Qazi Bürhanəddinin və Sultan Bərkukun ölümündən sonra osmanlılar Şərqi Anadolunun bir hissəsini və məmlüklərə aid olan bəzi əraziləri işğal etdı. Osmanlıların bu davranışları müttəfiqlər arasındakı siyasi münasibətləri gərginləşdirdi və Teymura qarşı yaradılan hərbi ittifaqın dağılmasına səbəb oldu. Belə bir şəraitdə Anadoluda Teymurun yürüşlərinin qarşısını alacaq elə bir ciddi siyasi qüvvə yox idi.

Əmir Teymur, 1399-cu il iyulun 10-da qərb istiqamətində özünün yeddiillik yürüşünə (1399-1404) başladı. O, 1400-cü ilin noyabr ayında Suriya istiqamətində yürüş edərək Hələb (30 noyabr/1400) və Şam (25mart/1401) şəhərlərini ələ keçirdi[159].

Əmir Teymur Suriya səfəri əsnasında Osmanlı sultanı I Bəyazidə (İldırım Bəyazıd-M.A.) bir neçə təhdidedici məktub göndərərək ona itaət etməsini və itaətin təminatı olaraq oğlanlarından birini onun yanına göndərməyi tələb etdi.

Əmir Teymurun I Bəyazidə yazdığı ilk məktubda deyilirdi: "Əmiri Əzəm Teymur Gürgandan, ərəb olmayan əmirlərin ən adili, Allahın düşmən üzərinə çəkilmiş qılıncı və ədaləti, sevdiyi qulları üçün göndərilən, düşməni və münkirləri ortadan qaldıran, qazi və mücahidlərin pənahı, müsəlmanların sərhədlərini qoruyan Haqqın, dünyanın və dinin cəlalı Qazi Bəyazid Bahadır xana:

---

[158] Ə. Tehrani, *Kitabi-Diyarbəkriyyə,* (fars dilindən tərcümə, ön söz, şəhrlər və göstəricilərin müəllifi Rəhilə Şükürova)., Bakı, Elm, 1998, s.53; F. Sümer, Akkoyunlular, *Türk Dünysı araşdırmaları, 1986, № 40,* s.8; İ. Aka, *Timur devri Anadolusu*., s.231.

[159] İ. Aka, *Timur devri Anadolusu*., s.231; J. Hammer, *Osmanlı tarihi,* I c, (çeviren Mehmet Ata)., İstanbul, Milli Egitim Basımevi, 1990, s.74-75; *Грузинские документы: IX-XV вв,* (перевод и комментарии С. Какабадзе)., М, Наука, 1982, с.127-129.

Zati aliniz ilə zahirən nə bir dostluğumuz, nə də heç bir zaman görüşməyimiz müyəssər olmayıb. Bir-birimizə çaparlar vasitəsi ilə məktublar yazaraq dostluq bağlarının qurulmasına yönələn cəhdlərimiz də olmadı. Dinin əlamətlərini ucaltmaq və Peyğəmbərlərin əfəndisinin dinini uzaq və ən ucqar yerlərə yaymaq üçün cəhd edirik. Siz də Qərbdə yolunu azmış təriqətlərə, dinə müxalif olanlara və haq dinini inkar edənlərə qarşı mübarizə aparırsınız... Buraya qədər yazdıqlarım bir-birimizə dostluq və sevgimizdən qaynaqlanır. Durumu siz də öyrənmisiniz, bu səbəbdən də xoş niyyətimizə yardımçı olun. Sizə qarşı xoş münasibət və rızama diqqət edin, unutmayın. İstəyirəm ki, hər zaman münasibətimiz o qədər xoş olsun ki, bizə elçilər və məktublar göndərəsiniz. Hansı şəkildə olursa olsun, elçi və qasid göndərib zati-şəriflərinizin sağlam xəbərlərinizi və dövlət işlərinizin intizamı haqqında bizləri sevindirin ki, dostluğumuzu gücləndirsin... Ağlını başına toplayaraq bil ki, Qara Yusif və Sultan Əhməd bizim qılınclarımızın gücündən və əsgərlərimizin heybətindən qaçdılar. Sənə də məlumdur ki, bu adamlar fəsad törədərək şəhərləri dağıdıb haqqa tapınanları məhv edirlər. Bunlar Firon kimi əzəmətli və təkəbbürlü kafirlərdir. Əgər öz fəlakətini istəmirsənsə onları qəbul etmə. Bunlar sizin diyarınızda himayə görürlər. Onlar getdikləri yerə uğrusuzluq və təhlükə aparırlar. Bu kimi insanlar Osmanlı dövlətinin qanadları altında himayə görməməlidirlər. Onları himayə etməyin və yanınızdan qovun. Harda gördünüzsə yaxalayıb oradaca da qətl edin. Nəbadə bu əmrimə qarşı gələsən. Yoxsa o halda qəzəbimi üzərinizdə hiss edərsiniz. Bizə qarşı gələnlərin və onlara uyanların hallarından mütləq xəbəriniz olub. Xülasə, aramızda söz-söhbət yaranmasın. Hələ mənə qarşı gəlib müharibə etməyi heç düşünməyin… Allahın doğru yolunda olana, əmri və izni ilə hərəkət edənlərə salam olsun”[160].

---

[160] A. Daş, Ankara Savaşı Öncesi Timur İle Yıldırım Bayezid'in Mektuplaşmaları, *Selçuk Üniversitesi Türkiyat Araştırmaları Dergisi (15).*, 2004, s.145.

Teymurun məktubunu alan Sultan İldırım Bəyazid əsəbiləşərək, hətta məktubu gətirən elçiyə qarşı sərt və soyuq davranmışdı. Teymurun istəklərinin qəbul edilməsinin Osmanlı səltənətinin şəninə zidd olduğunu, bu addımın Osmanlı sultanı olaraq ona yaraşmadığını bildirərək, təhdid və təhqiramiz məzmunlu bir məktub yazaraq Teymura göndərmişdi.

Sultan I Bəyazıd Əmir Teymura cavab məktubunda yazırdı: “Həmd Allaha məxsusudur, O, bizi İslam ilə şərəfləndirərək ərəb və əcəm sultanlarının üzərinə sərdar təyin etmişdir. Salavat Allahın lütfü və ehsanlarının ən xeyirlisi olan Məhəmmədə və ali izamı və Əshabi Kiramı üzərinə olsun... Teymur adı ilə anılan ey quduz köpək. Ey təkfur məlikindən də kafir olan Teymur! Məlumun olsun ki, məktubu oxudum. Ey uğursuz, məni belə boş sözlərləmi qorxudacaqsan? Məni cəfəng sözlərinləmi aldadacaqsan? Məni əcəm hökmdarı, yaxud tatarıstanlımı sanırsan? Yoxsa əsgərlərimi hind əsgərli ilə müqayisə edirsən? Olmaya topladığım əsgərləri İraq və Herat əsgəri sanırsan? Bəlkə yanımda olan İslam qazilərini Hələb və Şam əsgərləri hesab edirsən? Sənin işin əhdindən dönmək, qan tökmək və ev yıxmaqdan ibarətdir. Biz isə Şərqdəki və Qərbdəki sultanların ən fəzilətlisi, uzaqda və yaxındakı xaqanların ən şərəflisiyik. Bizim ordularımızın və əsgərlərimizin nizamını sən bilirsən, daima qalib və müzəffər olduğumuz haqqında məlumatın var… Əgər sən dünya hirsi ilə köpəklər kimi döyüşməyə cəhd edərsənsə, biz də döyüşərik. Bu zaman Allahın dediyi olur, o da ən yüksək əmrdir… Məlumun olsun ki, əgər biz gəldiyimizdə döyüş meydanına gəlməsən qadınların üç dəfə boş olsunlar (Şəriət qanunlarına görə kişi xanımına üç dəfə "boşadım" deyirsə, həmin cütlüyün nikahı qüvvədən düşmüş sayılır-M.A.). Yox, əgər sən bizə hücum etdiyin zaman mən səninlə döyüşməkdən imtina edib qaçaramsa, o zaman mənim qadınlarım üç dəfə boş olsunlar. Salam müsəlmanların

üzərinə olsun və Allahın lənəti də qiyamətə qədər sənin və sənə uyanların hamısının üzərinə olsun"[161].

Göründüyü kimi, Sultan I Bəyazid elçisi Yaqub bəylə göndərdiyi bu məktubda, onun bu təklifini rədd edərək ona qarşı müharibəyə hazır olduğunu bildirmişdi[162].

Bu dövrdə Osmanlı sultanı I Bəyazidlə Əmir Teymur arasında siyasi gərginlik getdikcə dərinləşirdi. Teymurun Osmanlı sultanına göndərdiyi növbəti məktublarda yeni tələblər irəli sürülür, İldırım Bəyazidin cavab məktublarında isə bu tələblər təhqiramiz ifadələrlə rədd edilirdi. Belə bir vəziyyətdə osmanlılarla Əmir Teymur arasında gedən diplomatik mübarizənin müharibə ilə nəticələnəcəyi qaçılmaz idi.

Əmir Teymur artıq osmanlılara qarşı aparılan diplomatik mübarizənin nəticə verməyəcəyini anlayaraq Səmərqənddən yeni hərbi qüvvələr gətirib Anadoluya yürüş etməyə qərar verdi. Yürüş ərəfəsində Teymur son dəfə Sultan Bəyazidə bir məktub göndərdi. Bu məktubda da o, Osmanlı sultanının itaət etməsini, şahzadələrdən birinin girov olaraq onun yanına göndərilməsini, Anadolu bəylərindən alınan yerlərin həmin bəylərə qaytarılmasını, Qara Yusifin və Sultan Əhmədin təslim edilməsini Osmanlı sultanından tələb edirdi.

Məktubda deyilirdi: "... İndiyə kimi sülh olması üçün çalışdım və nəhayət Sivasa gəlməyim an məsələsidir. Kafirə fürsət verməmək üçün İslam diyarlarını dağıtmaqdan çəkinib Şama tərəf gedərək Misir əmirindən intiqamımızı aldıq. Sizin xəstə olduğunuz söylənilərkən biz, bunu fürsət bilib ciddiyə almadıq. Ancaq siz, fürsət tapan kimi bizə bağlı olan Ərzincana gəlib valimizi incitdiniz. Adamımız sizin peşman olub sülhü təmin etmək istəyində olduğunuzu bizə yazmışdı. Biz də inandıq və sülh olacağı ümidi ilə bir neçə dəfə məktub göndərdik. Ancaq siz isə ortaya kəskin mövqe qoydunuz. O qədər ki, bizim və əsgərləri-

---

[161] A. Daş, *a.g.ə.,* s.145.

[162] İ. Uzunçarışlı, *Osmanlı tarihi,* cilt I., Ankara, TTK Basımevi, 1961, s.306; J. Hammer, *Osmanlı tarihi.,* s.72.

miz haqqında kafir və kafirdən daha betər kafirlərdir dediyiniz sözlər hər yanda danışılmağa başladı. Elçiləriniz Sunqur və Əhməd uzun müddətdir yanımızdadırlar. Müsəlman olmağımızı və inancımızı bilirlər. Hədəfimiz Kəfə və Kırım tərəf olduğu halda, Şirvandan geri dönüb yenidən Ərzincandan o tərəfə keçmək zərurəti yarandı. Səmərqənddə olan oğlum Muinəddin Məhəmməd Sultan Bahadır da əsgərləri ilə gəlib mənə qoşulacaqdır. Böyüklərimizdən eşitmişik ki, müsəlman, başladığı işi bitirən insandır. Biz bu vaxta qədər başladığımız heç bir işi yarımçıq buraxmadıq. Heç bir işi də özbaşımıza görmədik. Hər işimizi silsile-i aliyyə böyüklərinin rəhbərliyi və məsləhəti ilə etdik. Dövlətimizin sərhədi Çindən Anadoluya kimi uzanır. Rum diyarı İslam ölkəsidir. Oraya səfər etmək istəmirik. Oraya edəcəyimiz səfər nəticəsində şəhərlərin viran qalmasından və müsəlmanların ölməsindən ancaq din düşmənləri məmnun qalar. Daha öncə zatialinizə ərz etdiyim tələblər yerinə yetirilərsə, o zaman biz, Şərqdəki cihadımıza davam edərkən, siz də Avropadakı fəthlərinizə davam edərsiniz. Qara Yusiflə Əhməd Cəlayirin nə qədər yaramaz və yol kəsən olduqlarını anlamadınızmı? Onları bizə verin. İstəyimiz Ərzincana varmadan və əsgərimiz şəhərlərinizə girmədən öncə Sivas, Malatya, Elbistan, Ərzincan və Kemah diyarlarını bizim döyüş sahəmiz olduğundan oraların bizə verilməsini sağlam bir əhdnamə ilə bildirin. Sülhə qarşı deyiləm və razıyam. Əgər oğlanlarından birini bu tərəfə peşimanlığını söyləmək və yaralı qəlbimizi düşmənçilik şübhələrindən qurtarmaq üçün göndərsəydin, bu fitnə atəşini söndürməyə yetər və çəkdiyimiz sıxıntıların tozunu silməyə əl verərdi. Göndərəcəyin şahzadəyə övladımızdan artıq münasibət göstəriləcəkdi. Beləliklə də, dostluq və birlik razılaşmaları yaranar, ayrılıq birləşməyə dönər və ürəklərdəki inciklik aradan qalxar və hər şey yolunda olardı... Əgər Ərzincandan daha irəli gedib sizin ölkənizə girərsək, özünüzü bilib boyun əyməlisiniz. Etdiklərinizə peşiman olub adam-

larınızdan birini göndərib sülh və dostluq yaratmalısınız. Olmadığı təqdirdə dəmir qılınclarınız muma dönəcəkdir[163].

Osmanlı Sultanı İldırım Bəyazıd Teymurun məktubuna bu şəkildə cavab verir: "Teymur Köregen həzrətləri, maraq doğuran məktubunuz mən Sivasa gəldikdən sonra gəldi. Bu arada mən də anlaşma hazırlığına başlamışdım ki, Qaramanlılar tərəfindən qəfldən sülhün əleyhinə olan başqa bir məktub ordu qərargahımıza gəldi və anlaşmanın gecikməsinə səbəb oldu. Dövlət ərkanından ağıllı insanlar bu durumu belə dəyərləndirdilər: İkinci məktub qarışıq dönəmdə yazılaraq elçi ilə göndərildi. Bu Qaramanoğulları həmişə ocağımızın düşməni olublar. Bunlar elçimizi öldürüb fitnə atəşi alovlanana qədər məktubu saxladılar. Sülh yaranacağını görüb bəzi rəzilləri üstümüzə göndərərək bizləri şübhəyə saldılar. Bu rəzillərin əlinə keçən məktubumuzun gecikməsinə səbəb biz olmadığımız sizə məlumdur. Bu yurda gələn qonağın üstünə qılınc çəkilməz və bucağa sığınan dua əhlinə dəyilməz. Əgər sözlərim şiddətli davaya səbəb olacaqsa, o zaman şiddət dolu sözləri ilk dəfə sizin məktubunuzda gördük. Yox, əgər bizdən yaltaqlanmaq gözləyirsənsə, biləsən ki, xanədanımız Cənabı Haqdan başqasına yalvarmadı. Qələbə və məğlubiyyət övliyaların həyatıdır. Baxıram ki, söz çox uzanır. Dava üçün bəhanə axtaranın bəhanəsinin önünə keçmək mümkün deyil. Sülh və cəngin cəzası və mükafatı buna səbəb olan tərəfə aiddir. Hər iki tərəfdən hər kim fitnə çıxarırsa, vəbalı onun boynundadır. Allahu Təala onun cəzasını versin"[164].

Osmanlı sultanının danışıqlar yolu ilə itaət etməyəcəyini görən Əmir Teymur 1402-ci ilin mart ayında osmanlılara qarşı yürüşə başladı. Tərəflər arasında Ankara yaxınlığında baş verən döyüşdə (20 iyul/1402) osmanlılar məğlub oldu və Sultan İldırım Bəyazid əsir alındı[165]. Osmanlılar üzərində qələbə qazandıq-

---

[163] A. Daş, *a.g.ə.,* s.150.
[164] A. Daş, *a.g.ə.*, s.150-151.
[165] N. Şami, *Zafername,* (farscadan çeviren Necati Luqal)., Ankara, Türk Tarih Kurumu Basımevi, 1987, s. 305-311; И. Шильтбергер, *Путешествие*

dan sonra Teymur hücum edərək (avqust-sentyabr/1403) qaraqoyunlu qüvvələrini məğlub etdi. Bu məğlubiyyətlərdən sonra Qaraqoyunlu bəyi Qara Yusif və Sultan Əhməd Dəməşq naibi Şeyx əl-Mahmudinin yanına gedərək orada sığınacaq tapdılar[166].

Bu hadisədən sonra Əmir Teymur, elcisi Xoca Məsudu Qahirəyə göndərərək "... Müsəlman məmləkətlərini talan edən Qara Yusifin edam edilməsini, Sultan Əhmədin isə ona göndərilməsini" Misir sultanından tələb etdi. Teymurun Misirə hücum edəcəyindən ehtiyat edən Sultan Fərəc (1399-1405) onların həbs edilməsi barədə Dəməşq naibinə göstəriş verdi və onlar həbs olundu[167].

Qeyd edək ki, Əmir Teymurun bir neçə dəfə Azərbaycanın və Bağdadın hökmdarı olan Sultan Əhmədi Osmanlı və Məmlük sultanlarından tələb etməsinin müəyyən siyasi səbəbləri var idi. Belə ki, Teymur başa düşürdü ki, Sultan Əhmədin formal olsa da Cəlairi hökmdarı titulu daşıması onun bu bölgələrdə hakimiyyəti üçün maneə yaradır. Məhz bu baxımdan Əmir Teymur Osmanlı və Məmlük hökmdarlarına məktub göndərərək Sultan Əhmədi tələb etmiş, lakin bu cəhdləri uğursuzluqla nəticələnmişdi.

Teymur qərb istiqamətində etdiyi yeddillik səfəri zamanı osmanlılara və məmlüklərə güclu zərbə vurdu və işğal etdiyi əraziləri varisləri arasında bölərək (1404) Səmərqəndə geri döndü[168]. Əmir Teymur 1405-ci ildə Çin istiqamətində yürüşü zamanı yolda xəstələndi və qısa xəstəlikdən sonra 69 yaşında vəfat

---

*по Европе, Азии, Африке с 1394 года по 1427 год*, (перевод со старонемеского Ф. Вруна), Издание, редаксия и примечания З. Буниятова., Баку, Элм, 1984, с.24-25.

[166] K. Kopraman, *Misir Memlükleri tarihi, Sultan al-Malik al-Muayyad Şeyh al-Mahmudi devri (1412-1421).*, Ankara, Kaynak Eserler dizisi, 1989, s.33; Ş. Fərzəlibəyli, *Azərbaycan və Osmanlı imperiyası (XV-XVI əsrlər).*, Bakı, Azərnəşr, 1995, s.10; F. Sümer, *Kara-Koyunlular.*, s.65.

[167] N. Şami, *Zafername.*, s.348; F. Sümer, *Kara-Koyunlular.*, s.66.

[168] Т. Салмани, *Тарих-наме,* (перевод с турецского акад. З.М.Буниятова. Баку, Элм, 1997, с.13; İ. Aka, *Timur ve devleti.*, s.31.

etdi (fevral /1405)[169]. Əmir Teymurun ölümündən sonra onun yaratdığı böyük imperiya qısa bir zamanda dağılmağa başladı.

Ümumiyyətlə, Əmir Teymurun Yaxın Şərq və Anadoluda həyata keçirdiyi hərbi yürüşlər bu bölgədə yerləşən dövlətlərin istər daxili vəziyyətində, istərsə də xarici siyasi əlaqələrində ciddi böhran yaratdı. Bu yürüşlər dövründə  Osmanlı, Qızıl Orda, Cəlairi və Məmlük dövlətlərinin siyasi mövqelərinə ciddi zərbə vurulmuş, Şərqi Anadolu bəyliklərinin mövcudluğu təhlükə qarşısında qalmışdı. Əgər Teymurun qərbə yürüşlərindən əvvəl bu dövlətlərin xarici siyasətinin əsasını iqtisadi və siyasi əlaqələr təşkil edirdisə, Teymurun yürüşləri dövründə aparılan siyasət isə teymuri işğalına qarşı birgə mübarizə formasında təzahür edirdi. Məhz həmin dövlətlərin Teymura qarşı yaratdığı "antiteymuri ittifaqı" da bu siyasətin məntiqi nəticəsi idi.

Əmir Teymurun qərb istiqamətində həyata keçirdiyi hərbi yürüşlər zamanı və teymurilərin hökmranlığı dövründə Azərbaycanda siyasi və iqtisadi böhran hökm sürürdü.

Əmir Teymurun ölümündən sonra Azərbaycanda teymurilərin siyasi hakimiyyəti zəifləməyə başladı. Mavəraünnəhrdə Teymuri şahzadələri arasında gedən hakimiyyət uğrunda mübarizə, Azərbaycanda ciddi siyasi hakimiyyət böhranı ilə müşayiət olunurdu. Belə bir vəziyyətdən istifadə edən Şirvanşah Şeyx I İbrahim Azərbaycanda hakimiyyət uğrunda mübarizəyə başladı. Bu mübarizədə Sultan Əhməd və Qaraqoyunlu bəyi Qara Yusif də iştirak edirdi.

1406-cı ildə Azərbaycanda siyasi hakimiyyət uğrunda başlanan mübarizəyə Qara Yusif Qaraqoyunlu da qoşuldu[170].

---

[169] Т. Салмани, a.g.ə., s.18-19; И. Шильтбергер, *Путешествие по Европе, Азии, Африке с 1394 года.*, с.30; Ш. Бидлиси, *Шараф-Наме,* (перевод, предисловие, примечания и приложения Е. Васильевой), Т.2., М, Наука, 1976, с.99.

[170] T. Nəcəfli, *Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri (Müasir Türkiyə tarixşünaslığında)*, Bakı, Çaşıoğlu, 2012, s.39.

Qara Yusif və Sultan Əhməd Cəlairi hələ Dəməşqdə həbsdə olarkən Azərbaycanın və İraqı-Ərəbin idarə olunması haqqında razılığa gəlmişdilər. Əldə olunan razılığa əsasən, İraqi-Ərəbi Sultan Əhməd, Azərbaycanı isə Qara Yusif (oğlu Pirbudağın adından-M.A.) idarə etməli idi. Lakin həbsdən azad olunandan sonra Sultan Əhməd razılığı pozaraq Təbriz istiqamətində hərəkət etməyə başladı[171].

Bu zaman Teymurilərin asılılığından imtina etmiş Şirvanşah Şeyx I İbrahim Azərbaycanda hökm sürən siyasi hakimiyyət böhranından və ölkədə baş verən iğtişaşlardan istifadə edərək hakimiyyəti ələ keçirmək üçün paytaxt Təbrizə daxil oldu (may-iyun/1406)[172]. Lakin o, Sultan Əhmədin Azərbaycana gəldiyini eşidərək Təbriz şəhərini tərk etdi[173].

Şeyx I İbrahim Şirvana geri döndükdən sonra Sultan Əhməd Təbrizə daxil oldu. Lakin Teymuri Əbubəkrin Təbrizə gəldiyini eşidən Sultan Əhməd Azərbaycanı tərk edərək Bağdada dönmək məcburiyyətində qaldı[174]. Bu zaman Azərbaycanda hakimiyyət uğrunda fəal şəkildə mübarizəyə başlayan Qara Yusif teymurilər üzərində bir neçə qələbə qazanaraq teymurilərin müttəfiqi Van hakimi İzzəddin Şiri və Avnik qalasının  hakimi Əmir Doladayı məğlub edib Şərqi Anadoluda teymurilərin hakimiyyətinə son qoydu[175].

---

[171] R. Ağayev, *Azərbaycan və Mərkəzi Asiya dövlətlərinin qarşılıqlı münasibətləri.*, s.47; T. Nəcəfli, *Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri...* s.39; İ. Aka, *Timur ve devleti.*, s.43.

[172] S. Aşurbəyli, *Şirvanşahlar dövləti (VI-XVI əsrlər).*, s.286: S. Aşurbəyli, *Bakı şəhərinin tarixi (orta əsrlər dövrü).*, Bakı, Azərnəşr, 1998, s.87.

[173] F. Sümer, *Kara-Koyunlular.*, s.71; *Azərbaycan tarixi: VII cilddə,* III c., Bakı, Elm, 1999, s.85.

[174] İ. Aka, *Timur ve devleti.*, s.43; F. Sümer, *Kara-Koyunlular.*, s.72; R. Məmmədov, Naxçıvan şəhərinin tarixi oçerki (orta əsrlər dövrü)., Bakı, Elm, 1977, s.97.

[175] F. Metsopski, *Teymurləngin və onun xələflərinin tarixi.*, s.22; İ. Aka, *Timur ve devleti.*, s.44.

Qaraqoyunlularla teymurilər arasında davam edən hərbi-siyasi mübarizə sonda Qara Yusifin qələbəsi ilə başa çatdı. 1408-ci il aprelin 21-də Sərdrudda baş verən son döyüşdə teymuri Əbu Bəkr məğlub edildi, atası Miranşah isə öldürüldü[176]. Beləliklə, Azərbaycanda Teymurilərin hakimiyyətinə son qoyuldu.

Həsən by Rumlu yazır ki, "Qara Yusifin Sərdrud döyüşündə Teymuri Əbubəkr üzərində qələbə qazandıqdan sonra elçilərini çoxsaylı hədiyyələrlə Sultan Əhməd Cəlairinin yanına göndərdi. Sultan onları çox yaxşı qarşıladı, Pirbudaq və Qara Yusif üçün padşahlıq simvolları göndərdi. Qara Yusif Pirbudağı səltənətə çıxardı. Sikkələri və xutbəni onun adıyla süslədi. Hökmlərdə "Pirbudaq xan yarlığından Əbu Nəsr Yusif Bahadur sözümüz" ifadəsinin yazılmasını bildirdi..."[177]

Qaraqoyunlu sülaləsi Teymurilər üzərində qələbədən sonra Azərbaycanda hakimiyyəti idarə etsələr də, bu hələlik rəsmi xarakter daşımırdı. Cünki Azərbaycan hakimiyyətinin hüquqi cəhətdən rəsmi hökmdarı Cəlairilər sülaləsinin nümayəndəsi Sultan Əhməd idi. Azərbaycan teymurilər tərəfindən işğal olunduqdan sonra Sultan Əhmədin Əmir Teymur tərəfindən rəsmi hökmdarlıq statusu ləğv edilsə də, Teymuri işğalı sona çatdıqdan sonra Azərbaycan hakimiyyəti uğrunda mübarizə aparan Cəlairi hökmdarı hələ də bu statusu özündə saxlayırdı.

Qara Yusiflə Sultan Əhməd arasında 1410-cu il avqust ayının 30-da Təbriz yaxınlığında baş verən döyüşdə Cəlairi hökmdarı məğlub oldu. Bu döyüşdə ələ keçirilən Sultan Əhməd Qara Yusifin oğlu Pirbudağın Azərbaycanı, Qaraqoyunlu hökmdarının digər oğlu Qiyasəddin Şahməhəmmədin isə İraqi-Ərəbi idarə etməsi haqqında rəsmi razılıq verdi. Bununla da Sultan

---

176 Ш. Бидлиси, *Шараф-Наме*., с.100; F. Sümer, *Kara-Koyunlular*., s.75; R. Savory, *The Struggle for Supremacy in Persia after the death of Timur*., p.37.

177 H. Rumlu, *Ahsenüt-tevarih*, Çeviren: Mürsel Öztürk. TTK Yayınları, Ankara, 2006, s. 65.

Əhməd Azərbaycanda və İraqi-Ərəbdə hakimiyyətinin Qaraqoyunlu sülaləsinə keçdiyini rəsmən təsdiq etdi[178].

1411-ci ildə Təbrizdə çağırılan Azərbaycan əyanlarının məclisində Cəlairi hökmdarı Pirbudağın adına yazılmış yarlığı (rəsmi şah sənədi) əsasında Pirbudaq Azərbaycanın rəsmi hökmdarı elan edildi[179]. Bununla da Azərbaycanda Qaraqoyunlu sülaləsinin hakimiyyətinin əsası qoyuldu.

Bu barədə Həsən bəy Rumlu "Əhsənüt-təvarix" əsərində yazırdı: "Bu vaxt Pirbudaq xan məclisə gəldi. Əmirlər sultana (Sultan Əhməd-M.A.) dedilər: "Sənin ülkan Pirbudaq xana çatır. Azərbaycan məmləkətinin ona verilməsi haqqında Pirbudaq xanın adına bir nişan (fərman) yaz. Sultan onların təklifiylə öz xətti ilə nişan yazmalı oldu. Qara Yusif dedi: "Biz Şahməhəmmədi Azərbaycanda qoymuşduq. Sən onu buradan ixrac etdin. İndi özünün qədim yerini (İraqi-Ərəbi) ona inayət elə. Sultan o haqda bu məzmunda başqa bir nişan yazdı: "Bağdaddakı izzətli fərzəndlər Məhəmməd və Əbülqasim, həmçinin Tikrit qalasının kutvalları bilsinlər ki, Bağdad taxt-tacını və İraqi-Ərəb diyarını böyük və izzətli fərzənd Qiyasəddin Şahməhəmməd bahadıra verdim"[180].

Qaraqoyunlu sülaləsi Azərbaycanda siyasi hakimiyyəti bərqərar olduqdan sonra, Qara Yusif Şirvanşah Şeyx I İbrahimə tabe olmaq tələbi ilə bir məktub göndərdi. Müstəqilliyini itirmək istəməyən Şirvan hökmdarı Şəki hakimi Seyid Əhməd və gürcü çarı II Konstantinlə ittifaqa girərək qaraqoyunlulara qarşı mübarizəyə başladı. Tərəflər arasında h. 815-ci ilin şaban ayında (6 noyabr - 4 dekabr/1412) (Bəzi tədqiqatçılar bu döyüşün 19 fevral 1412-ci ildə baş verdiyini qeyd edir-M.A.) Kür çayı sahilində

---

[178] F. Sümer, *Kara-Koyunlular.*, s.85; İ. Aka, *Timur ve devleti.*, s.47.

[179] Ş. Fərzəliyev, *Azərbaycan XV-XVI əsrlərdə (Həsən bəy Rumlunun "Əhsənüt-təvarix" əsəri üzrə).*, Bakı, Elm, 1983, s.91; F. Sümer, *Kara-Koyunlular.*, s.87.

[180] Həsən bəy Rumlu, *Tarixlərin ən yaxşısı (Əhsənüt-təvarix),* I cild, Fars dilindən tərcümə edən professor Şahin Fərzəliyev, Bakı, 2022, s. 64

baş verən döyüşdə qaraqoyunlu ordusu qələbə çaldı. Bu döyüşdə gürcü çarı Konstantin öldürüldü, Şirvanşah I İbrahim isə əsir alındı[181].

Həsən bəy Rumlu bu döyüşü təsvir edərkən yazırdı: "Şeyx İbrahim... çoxlu qoşun və saysız-hesabsız döyüşçü dəstələri toplayaraq, Gürcüstan valisi Kustəndil (Konstantin) və Əmir Seydi Əhməd Şəkki ilə bellərinə Qara Yusifə qarşı müxalifət kəməri bağlayıb döyüş meydanına yollandılar. Şeyx İbrahim Kür çayı kənarında dayanıb ətrafına xəndək qazdırdı. Qara Yusifin qoşunu çaydan külək kimi keçib müxaliflər üzərinə həmlə etdi... Şirvanlılar (şirvaniyan) və gürcülər Qara Yusif Türkmana bayrağı üstündəki şir köksündəki tülkü kimi meydandan qaçmağa başladılar... Pirbudaq öz əli ilə Kustəndilin başını vurdu və Şeyx İbrahimi zəncirləyibTəbrizə apardı"[182].

Bu məğlubiyyətdən sonra Şirvanşah Şeyx I İbrahim Qaraqoyunlu dövlətinin vassallığını qəbul etdi və sikkəni Qaraqoyunlu dövlətinin rəsmi hökmdarı Pirbudağın adına kəsdirməyə başladı. Qaraqoyunlu dövlətinin vassallığını qəbul edən I İbrahim bundan sonra da Şirvan vilayətini, Şəki hüdudlarından Dərbəndə qədər idarə etmək hüququnu özündə saxladı[183].

Azərbaycanda Qaraqoyunlu dövlətinin yaranması, Yaxın Şərqdə baş verən siyasi hadisələrdə müəyyən bir sabitlik yaratdı. Qaraqoyunluların Azərbaycanda hakimiyyətə gəlməsi ilə, Teymurilərın Azərbaycanda qısa zamanda hökm sürmüş siyasi hakimiyyətinə son qoyuldu və yerli hakimiyyət sistemi yenidən bərpa edildi. Qaraqoyunlu dövlətinin timsalında yenidən mərkəzləşmiş Azərbaycan dövlətinin yaranması bu dövlətin istər sosial-iq-

---

[181] Ş. Fərzəliyev, *Azərbaycan XV-XVI əsrlərdə.*, s.91; S. Aşurbəyli, *Şirvanşahlar dövləti (VI-XVI əsrlər).*, s.289; R. Savory, *The Struggle for Supremacy in Persia after the death of Timur.*, p.38.

[182] Həsən bəy Rumlu, *Tarixlərin ən yaxşısı (Əhsənüt - təvarix).* I cild, Fars dilindən tərcümə edən Şahin Fazil, Bakı, Elm, 2022, s. 79-81

[183] Ш. Бидлиси, *Шараф-Наме.*, с.102; R. Ağayev, *Azərbaycan və Mərkəzi Asiya dövlətlərinin qarşılıqlı münasibətləri.*, s.49; S. Aşurbəyli, *Bakı şəhərinin tarixi.,* s.87; Ş. Fərzəliyev, *Azərbaycan XV-XVI əsrlərdə.*, s.92.

tisadi, istər siyasi, istərsə də mədəni həyatının inkişafı üçün böyük zəmin yaratdı. Bu dövrdə dövlətin iqtisadi və siyasi cəhətdən inkişafı üçün Qaraqoyunlu hakimiyyətinin yeritdiyi xarici siyasətin böyük əhəmiyyəti var idi. Çünki bu dövrdə Azərbaycanın siyasi mövqeyi və iqtisadi resursları, Avropa ilə Asiya arasında mövcud olan bir neçə böyük ticarət yollarının bu ərazidən keçməsi dövlətin xarici siyasi əlaqələrinin inkişafını zəruri edirdi. Bu baxımdan Qaraqoyunlu hökmdarları dövlətin xarici siyasətinin inkişafına ciddi önəm verirdi.

Bu dövrdə Osmanlı imperiyası Azərbaycanın xarici siyasətində mühüm yer tuturdu. Qara Yusifin hakimiyyəti illərində Osmanlı imperiyası ilə siyasi əlaqələr daimi dostluq münasibətləri səviyyəsində olmuş və davamlı şəkildə inkişaf etmişdi. Hələ Qaraqoyunlu bəyliyi dövründə əsası qoyulan Qaraqoyunlu-Osmanlı münasibətləri, Əmir Teymurun qərbə yürüşləri dövründə dostluq xarakteri daşımış, qaraqoyunluların Azərbaycanda hakimiyyəti dövründə də bu dostluq əlaqələri davamlı şəkildə inkişaf etmişdi.

Azərbaycanda Qaraqoyunlu sülaləsi hakimiyyətə gəldikdən sonra Osmanlı imperiyası Qaraqoyunlu hakimiyyətini rəsmi şəkildə tanıdı və diplomatik əlaqələrin inkişafı üçün müəyyən addımlar atdı. Belə ki, Osmanlı sultanı Mehmed Çələbi (1413-1421) Qaraqoyunlu sarayına göndərdiyi məktublarda, Qara Yusifi "padşah", yaxud da "sultani-səlatin ət-türk... Qara Yusif bahadır" (türk sultanlarının sultanı) adlandırmış, hətta rəsmi hökmdar statusu Pirbudağa məxsus olsa da, Qara Yusifə hökmdar deyə müraciət etmişdi[184].

Qeyd edək ki, Həsən bəy Rumlu öz əsərində 1419-cu il hadisələrini təsvir edərkən Qara Yusifi Azərbaycan şəhriyarı adlandırmışdı. Həsən bəy Rumlu bu haqda yazırdı: "Bu il (1419), Pir Ömər bir dəstə silahlı dilavərlə yürüş bayrağını Kəmax qalasına tərəf dalğalandırdı. O vaxtlarda o diyarın valisi olan ağqo-

---

[184] Ş. Fərzəlibəyli, *Azərbaycan və Osmanlı imperiyası (XV-XVI əsrlər).*, Bakı, Azərnəşr, 1995, s.12.

yunlu Qara Osmanın oğlu Yaqub bəy cəng iddiası ilə qaladan çıxdı, döyüşdən sonra tutuldu, Pir Ömər onu Təbrizə yolladı, özü isə Ərzincana döndü, amma sonra o, Qara Yusif Türkmanın yanına dilli-dilavər qasidlər yollayaraq, ondan kömək xahişi etdi. Azərbaycan şəhriyarı xahişin müqabilində Bayram bəy Əmirdivanı, Baba Hacı bəy Gavrudini, Bayazid bəy Ayinlini və Əmir İlyas Hacılını iyirmi min adlı-sanlı döyüşçü ilə Qara Osmanın dəf olunmasından ötrü Pir Ömərin mədədinə göndərdi[185].

Qara Yusif də müntəzəm olaraq Osmanlı sultanı ilə elçilər vasitəsilə əlaqə saxlayır və Teymurilərlə münasibəti haqqında məlumat verirdi. Bu məqsədlə Qaraqoyunlu hökmdarı, elçisi Xacə Bəhram Naxçıvani vasitəsilə Osmanlı sultanına bir məktub göndərərək, "Şahruxun Azərbaycanı tələb etməsi və qaraqoyunluların teymurilərə qarşı gördükləri tədbirlər haqqında" məlumat vermişdi. Sultan Mehmed Çələbi məktubun cavabında Qara Yusifə müharibə məsələlərini diplomatik yolla həll etməyi məsləhət görür və "səy edin ki,... fitnə atəşi şölələnməsin",- deyirdi[186].

Bu dövrdə istər Osmanlı sultanı, istərsə də Qaraqoyunlu hökmdarı Teymurilərə qarşı yumşaq münasibət göstərir, Şahruxla siyasi münasibətləri gərginləşdirməməyə çalışırdılar. Lakin istər Qaraqoyunluların, istərsə də Osmanlıların bölgə uğrunda mübarizədə Teymurilərlə siyasi maraqları toqquşurdu.

Ankara döyüşündən sonra parçalanmış Osmanlı imperiyasını vahid siyasi hakimiyyət altında birləşdirən Sultan Mehmed Çələbinin Anadoludakı siyasi fəaliyyəti Heratda ciddi narahatlıq doğurmağa başlamışdı. Teymuri hökmdarı Şahrux hələ 1416-cı ilin əvvəllərində Osmanlı sultanına göndərdiyi məktubda qardaşlarını hakimiyyətdən məhrum etdiyi üçün dolayısı ilə onu qınamışdı. Osmanlı sultanı isə Şahruxa yazdığı məktubda "haki-

---

[185] Həsən bəy Rumlu, *Tarixlərin ən yaxşısı (Əhsənüt - təvarix).* I cild, Fars dilindən tərcümə edən Şahin Fazil,. Bakı, Elm, 2022, s. 105.

[186] Ş. Fərzəlibəyli, *Azərbaycan və Osmanlı imperiyası*., s.11; T. Nəcəfli, *Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi müasir türk tarixşünaslığında*., Bakı, Çaşıoğlu, 2000, s.108.

miyyətin ortaqlıq qəbul etmədiyini, ortaqlığın daima düşmənlərə fürsət və cəsarət verdiyi" cavabını vermişdi[187].

Göründüyü kimi, Teymuri hakimiyyəti parçalanmış Osmanlı dövlətinin yenidən birləşdirilməsini öz dövlət maraqlarına zidd hesab edirdi. Çünki Osmanlı dövlətinin yenidən güclənməsi Əmir Teymurun Anadoluya yürüşü vaxtı himayə etdiyi bəyliklərə ciddi təhlükə yaradırdı. Anadoluda Teymurilər dövlətinin siyasi dayaqları olan bu bəyliklərə yaranan təhlükə şübhəsiz ki, Teymuri hökmdarı Şahruxu narahat etməyə bilməzdi. Həmçinin Qaraqoyunlu dövlətinin də getdikcə güclənməsi Teymuri hakimiyyətinin siyasi maraqlarına cavab vermirdi. Bu səbəblər, Yaxın Şərqdə və Anadoluda teymurilərin keçmiş siyasi mövqeyini bərpa etmək üçün, Şahruxu qərb istiqamətində yenidən hərbi yürüşlərə başlamağa sövq edirdi.

Şahruxun Azərbaycana yürüşü ərəfəsində qaraqoyunluların Ərzincan hakimi Pir Ömərin Qarahisarı mühasirəyə alması Osmanlı-Qaraqoyunlu münasibətlərində müəyyən gərginlik yaratdı. Şəhər hakimi Məlik Əhməd oğlu Həsən bəy, Amasya valisi şahzadə Murada müraciət edərək yardım istədi. 1418-ci ilin avqust ayında Osmanlı hərbi qüvvələri köməyə gələrək Pir Öməri ağır məğlubiyyətə uğratdı[188]. Qaraqoyunlu dövlətinin əyalət hakimləri ilə osmanlılar arasında bu cür yerli münaqişələri olmasına baxmayaraq, hər iki dövlət arasında mövcud olan dostluq münasibətləri davam edirdi.

Teymuri hökmdarı Şahruxun Azərbaycana hərbi yürüşə (1420) başladığı zaman Qara Yusif müttəfiqi Sultan Mehmed Çələbiyə məktub göndərərək Osmanlı sultanından hərbi kömək istədi. Osmanlı sultanı elçisi Həsən bəy vasitəsilə cavab məktubunda Qaraqoyunlu hökmdarını "sultani-səlatin ət-türk" adlandıraraq ona ürək-dirək vermiş, kömək göstərməkdən bo-

---

[187] İ. Aka, *Timur ve devleti.*, s.60.

[188] F. Sümer, *Kara-Koyunlular.*, s.98; T. Nəcəfli, *Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi müasir türk tarixşünaslığında.*, s.109.

yun qaçıraraq "Allah-təala sənə xeyir versin" xeyir-duası ilə kifayətlənmişdi[189].

Şahruxun Azərbaycana yürüşü dövründə Osmanlı hakimiyyəti teymurilərə qarşı ehtiyatlı münasibət göstərir və Ankara döyüşündəki ağır məğlubiyyətdən sonra Teymuri hökmdarı ilə açıq hərbi qarşıdurmadan çəkinirdi. Digər tərəfdən hələ də Anadoluda teymurilərə siyasi meyilliliyi ilə seçilən bəyliklərin mövcudluğu Osmanlı hakimiyyəti üçün əlavə təhlükə idi. Şübhəsiz ki, bu siyasi birliklər osmanlı təhlükəsindən qorunmaq üçün teymurilərlə müttəfiqlikdə maraqlı idilər.

Bu dövrdə qonşuluğunda Qaraqoyunlu dövləti kimi güclü bir siyasi rəqibin olması osmanlıların siyasi maraqlarına cavab vermirdi. Osmanlı hakimiyyəti hesab edirdi ki, baş verəcək Qaraqoyunlu-Teymuri müharibəsi hər iki dövlətin hərbi-siyasi gücünü zəiflədə və onların Şərqi Anadoludakı siyasi dayaqlarına zərbə vura, bunun nəticəsində də Osmanlı dövlətinin Şərqi Anadoluya dair hərbi-siyasi addımlarına zəmin yarada bilərdi. Bu səbəblərdən Osmanlı hakimiyyəti Şahruxun Azərbaycana hərbi müdaxiləsi dövründə Qara Yusifə hərbi kömək göstərməkdən imtina etmişdi.

Ümumiyyətlə, Qara Yusifin hakimiyyəti illərində Qaraqoyunlu dövləti ilə Osmanlı imperiyası arasında siyasi münasibətlər diplomatik səviyyədə davam etmiş və dostluq xarakteri daşımışdı. Bu münasibətlər hər iki dövlətin bölgədəki ümumi siyasi maraqları əsasında formalaşmış və inkişaf etmişdi.

Qara Yusifin hakimiyyəti dövründə (1410-1420) Qaraqoyunlu dövlətinin siyasi münasibətlərdə olduğu dövlətlərdən biri də Teymurilər dövləti idi. Bu dövrdə Qaraqoyunlu hakimiyyəti üçün Teymurilərlə siyasi münasibətlərin böyük əhəmiyyəti var idi. Çünki Teymurilər dövləti ilə davam edən mübarizə, Qaraqoyunlu dövlətinin xarici siyasətinin müəyyən olunmasında əsas amillərdən biri idi.

---

[189] Ş. Fərzəlibəyli, *Azərbaycan və Osmanlı imperiyası.*, s.14.

Teymuri Şahruxun hakimiyyəti (1409-1447) zamanı Qaraqoyunlu-Teymuri münasibətlərində siyasi gərginlik hökm sürürdü. Çünki Teymuri hökmdarı Qaraqoyunlu dövlətini rəsmi olaraq tanımır və bu dövlətə qarşı ərazi iddiaları ilə çıxış edirdi. Belə ki, özlərini Əmir Teymurun yaratdığı imperiyanın varisi sayan teymurilər Azərbaycan Qaraqoyunlu dövlətinin ərazisini Teymuri Miranşahın varislərinin əraziləri hesab edir və bu əraziləri işğal etməyə çalışırdılar.

Əmir Teymurun ölümündən sonra Mavəraünnəhrdə hakimiyyət uğrunda mübarizədə uğur qazana bilməyən Miranşahın oğlu Sultan Xəlil Səmərqənddə hakimiyyəti Şahrux Mirzəyə təhvil verdi. Bunun müqabilində Şahrux Sultan Xəlili Reyə hakim təyin edərək ona Azərbaycanı və İraq-i Əcəmi qaraqoyunlulardan geri almaq tapşırığı verdi. Sultan Xəlil 1410-cu ilin mart ayında böyük bir ordu ilə Rey şəhərinə gəlsə də, lakin Ömər Şeyxin oğlanları arasında gedən siyasi mübarizə qaraqoyunlulara qarşı ciddi mübarizə aparmağa imkan vermədi. Bu ərəfədə Sultan Xəlilin qəflətən vəfat etməsi (6 noyabr/1410) teymurilərin Azərbaycana ilk yürüşünü təxirə saldı[190].

Qara Yusif 1414-cü ildə teymuri sarayına bir elçi heyəti göndərdi. Lakin tarixi mənbələrdə bu elçinin nə məqsədlə gəldiyi haqqında məlumat verilmir.

Həsən bəy Rumlu bu haqda yazır: "Yenə bu il (1414), Qara Yusif Türkmanın bir adamı Şahrux Sultanın dərgahına gələrək, ona dövlətxahlıq üslubunda yazılmış bir məktub gətirdi"[191]. Buna cavab olaraq Şahrux, elçisi Əmir Həsənəyi Qararaqoyunlu sarayına göndərmiş, bu elçi 1415-ci il martın 26-da geri qayıtmışdı[192].

---

[190] Т. Салмани, *Тарих-наме.*, с.111; F. Sümer, *Kara-Koyunlular.*, s.93; R. Ağayev, *Azərbaycan və Mərkəzi Asiya dövlətlərinin qarşılıqlı münasibətləri.*, s.51; Ш. Бидлиси, *Шараф-Наме.*, с.101;

[191] Həsən bəy Rumlu, *Tarixlərin ən yaxşısı (Əhsənüt - təvarix).* I cild, Fars dilindən tərcümə edən Şahin Fazil,. Bakı, Elm, 2022, s. 93.

[192] R. Ağayev, *a.g.ə.,* s.51.

Bu dövrdə siyasi cəhətdən möhkəmlənməyə çalışan Qaraqoyunlu dövlətinin mövcud durumu Qara Yusifi Teymurilərlə münasibətləri normallaşdırmağa sövq edirdi. Məhz Teymuri sarayına göndərilən bu elçinin məqsədi Qaraqoyunlu-Teymuri münasibətlərini normallaşdırmaq idi.

Qara Yusif Teymurilər dövləti ilə mövcud olan siyasi ziddiyyərtləri sülh yolu ilə həll etmək üçün 1415-ci ilin baharında elçisi Mərdanşahı Teymuri sarayına göndərmişdi. Qaraqoyunlu hökmdarının Şahruxa yazdığı məktubda, "əgər Şahrux Sultaniyyə qalasını bizim ixtiyarımıza buraxarsa, onun hakimiyyətini tanıyacaq, istədiyi kimi hərəkət edəcəyik" təklifini vermişdi. Teymuri Şahrux Qaraqoyunlu hökmdarına cavab məktubunda yazırdı ki, "oğlunu hüzuruna göndərdiyi halda Sultaniyyə qalasına qədər əraziləri ona bağışlayacaqdır"[193].

Qara Yusifin Şahruxa belə bir təklif etməsi bir tərəfdən Teymurilərlə münasibətləri normallaşdırmaq, digər tərəfdən isə böyük ticarət mərkəzi olan Sultaniyyə şəhərini əldə etmək məqsədi daşıyırdı. Lakin Şahruxun irəli sürdüyü şərtlər Qaraqoyunlu dövlətinin mənafeyinə uyğun olmadığı üçün Qara Yusif bu təklifləri qəbul etməmiş, Sultaniyyəni hərbi yolla ələ keçirmək qərarına gəlmişdi.

Bu məqsədlə qaraqoyunlular tərəfindən 1415-ci ildə Sultaniyyəyə edilən hərbi yürüş bu şəhərin ələ keçirilməsi və şəhər hakimi Əmir Bəstamın Qum şəhərinə qaçması ilə nəticələndi[194]. Sultaniyyənin qaraqoyunlular tərəfindən ələ keçirilməsi Qaraqoyunlu-Teymuri münasibətlərini daha da kəskinləşdirdi.

Qara Yusif h. 820-ci ilin sonlarında (1417) Herata bir elçi heyəti göndərdi. Lakin elçi heyətinin nə məqsədlə gəldiyi barədə heç bir məlumat yoxdur[195]. Görünür, göndərilən elçi heyətinin

---

[193] İ. Aka, *a.g.ə.*, s.60; F. Sümer, *Kara-Koyunlular.*, s.95.
[194] T. Cəfiyev, *Azərbaycanın feodal dövlətləri XV-XVI əsrin birinci rübündə (Xoca Sədəddin Əfəndinin "Tacüt-təvarix" əsəri əsasında),* tar. elm. nam... dis. avtoref., Bakı, 2007, s.21; F. Sümer, *Kara-Koyunlular.*, s.95;
[195] F. Sümer, *Kara-Koyunlular.*, s.98.

məqsədi Sultaniyyə şəhəri geri alındıqdan sonra kəskinləşən Qaraqoyunlu-Teymuri münasibətlərini normallaşdırmaq idi.

Qaraqoyunlu elçiləri Heratda olarkən Ağqoyunlu bəyi Qara Osmanın da elçisi Teymuri sarayında olmuş, hər iki elçi heyəti səfər ayında (mart/1418) Heratdan geri dönmüşdü[196].

Qeyd edək ki, bu ərəfədə Ağqoyunlu elçisinin Herata getməsinin səbəbi onların Qaraqoyunlu dövlətinə qarşı teymurilərlə birgə mübarizə aparmasından irəli gəlirdi. Çünki Ağqoyunlu elçisinin geri qayıtdıqdan iki ay sonra Osman bəyin qaraqoyunlularla əldə etdiyi razılaşmanı (tərəflər arasında əldə olunan razılaşmaya görə (1417) ağqoyunlular Mardini müəyyən miqdarda ödənc müqabilində Qaraqoyunlu dövlətinə təhvil vermişdi – M.A.) pozaraq Mardinə hücum etməsi, şübhəsiz ki, Şahruxla razılaşdırılmış bir plan əsasında həyata keçirilmişdi.

Bu dövrdə Mavəraünnəhrdə öz hakimiyyətini möhkəmləndirən Şahrux, Reydən başlayaraq İraqi-Əcəm, Fars, Kirman, Xorasan ərazilərini də siyasi nüfuz dairəsinə daxil etmişdi. Teymuri hökmdarı Qaraqoyunlu dövlətini də öz siyasi nüfuz dairəsinə almaqla Əmir Teymurun yaratdığı imperiyanı yenidən bərpa etmək istəyirdi. Bu məqsədlə Şahrux Qara Yusifə öz tələblərini sülh yolu ilə qəbul etdirmək üçün növbəti dəfə elcisi Sadiq bəyi Qaraqoyunlu sarayına (1420) göndərdi. Şahruxun elçisi Qaraqoyunlu sarayında rədd cavabı alaraq geri döndü[197].

Bu barədə Həsən bəy Rumlu yazırdı: “O həzrət öz mulazimi Sədiqi elçi sifəti ilə Təbrizə göndərdi və sülhdən söhbət açdı. Amma Qara Yusif Türkman dilinə qan qaraldıcı (pərişan) sözlər gətirdi və Sədiq Herata qayıtdı. Şahruxa ərz etdi ki, Qara Yusif Türkman özünü o diyarda müstəqil padşah bilir və ətraf yerlərin hakim və sərdarları ona tabedirlər. Qara Yusif möhkəm qalalar tikdirib, müxalifət bayrağı qaldırıb və qətiyyən padşahın (Şahruxun) şan-şöhrətindən (şövkət) və döyüşçülərinin çoxluğundan

---

196 F.Sümer, *a.g.ə.*, s.98.

197 Ş. Fərzəliyev, *Azərbaycan XV-XVI əsrlərdə.*, s.93; R. Ağayev, *a.g.ə.,* s.54; İ. Aka, *Timur ve devleti.*, s.61; F. Sümer, *Kara-Koyunlular.*, s.105.

qorxub-çəkinmir, döyüşçüsünün sayı çox olduğundan o, alın lövhəsinə cəng və döyüş nəqşini yazmışdır”[198].

Bu ərəfədə teymurilərin Xarəzm valisi Şah Məlik də elçisi Payəndəni Qara Yusifin yanına göndərərək sülh istədiyini bildirmiş, Sultaniyyəni və Qəzvini Teymurilərə qaytaracağı təqdirdə Suriya və Ruma qədərki əraziləri, Azərbaycan ilə İraqi-Ərəbin ona veriləcəyini bildirmişdi. Qara Yusif Teymuri əmirinin bu təklifinə razı olmamış və Şah Məlikin elçisini həbs etdirmişdi[199].

Qaraqoyunlu dövləti ilə Teymurilər dövləti arasında aparılan diplomatik danışıqlara baxmayaraq, artıq tərəflər arasında müharibə qaçılmaz idi. Çünki Teymurilərin irəli sürdüyü tələblər Qaraqoyunlu dövlətinin siyasi müstəqilliyini təhlükə altında qoyduğu üçün qəbuledilməz idi. Eyni zamanda Osmanlı dövlətinin getdikcə güclənərək Şərqi Anadoluda teymurilərin vassalı olan bəylikləri təhdid etməsi Teymurilər dövlətinin Anadoludakı siyasi mövqelərinə təhlükə törədirdi. Digər tərəfdən Yaxın Şərq bölgəsində zəngin gəlir qaynağına malik olan, beynəlxalq ticarətin mərkəzlərindən biri hesab olunan Sultaniyyə və Qəzvin kimi ərazilərin Qaraqoyunlu dövlətinin nəzarətində olması Teymurilər dövlətinin siyasi və ticarət maraqlarına cavab vermirdi. Şahrux siyasi məqsədlərinə diplomatik yolla çatmağın mümkün olmadığını nəzərə alaraq Qaraqoyunlu dövləti ilə müharibəyə başlamağı qərara aldı.

Teymurilərlə müharibə ərəfəsində Qaraqoyunlu dövlətinin daxili və xarici siyasi vəziyyəti o qədər də ürəkaçan deyildi. Şərqi Anadoluda ağqoyunlulara qarşı aparılan hərbi əməliyyatlar vaxtı Məmlük dövlətinin Ağqoyunlu Osman bəyi himayə etməsi Məmlük-Qaraqoyunlu münasibətlərində ciddi gərginlik yarat-

---

[198] Həsən bəy Rumlu, *Tarixlərin ən yaxşısı (Əhsənüt - təvarix).* I cild, Fars dilindən tərcümə edən Şahin Fazil,. Bakı, Elm, 2022, s. 107.

[199] F. Sümer, a.g.ə., s.107; T. Nəcəfli, *Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi müasir türk tarixşünaslığında*., s.109.

mış, Qara Yusif (mart/1420) orduya Suriyaya yürüş üçün hazırlıq əmri vermişdi[200].

Məmlük sultanı Şeyx əl – Mahmudi Qara Yusifin Suriya üzərinə hücum xəbərini eşidərək ona qarşı müharibəyə hazırlaşırdı. Bu ərəfədə Qara Yusifin oğlanları İspənd Mirzə və Şah Məhəmmədin Teymurilərə qarşı mübarizənin əleyhinə olması, Qaraqoyunlu sarayında siyasi elita arasında parçalanmaya imkan yaradırdı[201].

Şahrux h. 823-cü ildə (1420-ci ilin ortaları) Qaraqoyunlu dövlətinə qarşı yürüşə başladı. Şahruxun hərbi yürüşə başladığını eşidən Qara Yusif Təbrizdən çıxaraq Ucan yaxınlığında Səidabad kəndinə gəldi. Lakin həmin ilin zülqədə ayının 7-də (13 noyabr/1420) gözlənilmədən burada vəfat etdi[202].

Qara Yusifin ölümü Qaraqoyunlu dövlətində siyasi böhrana səbəb oldu. Qaraqoyunlu sarayında baş verən siyasi gərginlik Teymurilərə qarşı mübarizə aparmağa imkan vermədi və paytaxt Təbrizin teymurilər tərəfindən döyüşsüz ələ keçirilməsi ilə nəticələndi. Bununla da Şahruxun Azərbaycanda öz siyasi mövqelərini möhkəmlətmək məqsədilə hərbi-siyasi addımları üçün münbit şərait yarandı.

Qey edək ki, Qara Yusifin hakimiyyəti illərində Qaraqoyunlu-Teymuri münasibətləri siyasi gərginliklə müşahidə olunmuş, hərbi-siyasi münasibətlər üstünlük təşkil etmişdi. Dövlətlər arasında həyata keçirilən məhdud şəkildə elçilik mübadiləsi tərəflərin bir-birini təhdid edən siyasi tələblərinin çatdırılması məqsədi daşımışdı. Həmçinin Teymuri hakimiyyəti Qara Yusifin Azərbaycandakı siyasi hakimiyyətini tanımamışdı.

Ümumiyyətlə, Qara Yusifin hakimiyyəti dövründə Qaraqoyunlu dövlətinin xarici siyasətinin əsası qoyuldu və beynəl-

---

[200] K. Kopraman, *Misir Memlükleri tarihi.*, s.198.

[201] F. Sümer, *a.g.ə.,* s.103-104.

[202] R. Ağayev, *a.g.ə.*, s.54; İ. Aka, *Timur ve devleti.*, s.61; Ə.Tehrani, *Kitabi-Diyarbəkriyyə.*, s.64; İ. Uzunçarşılı, *Anadolu beylikleri və Akkoyunlu, Karakoyunlu devletləri.,* Ankara, TTK Basımevi, 1969, s.182.

xalq əlaqələri inkişaf etməyə başladı. İki istiqamətdə - hərbi-siyasi və diplomtik formada həyata keçirilən xarici siyasət, dövlətin siyasi mövqeyinin güclənməsinə və diplomatik əlaqələrin möhkəmlənməsinə xidmət edirdi. Bu dövrdə dövlətin siyasi maraqları çərçivəsində xarici siyasət istiqamətləri müəyyən olunmuş və həyata keçirilmişdi.

Qara Yusifin ölümündən (1420) sonra Azərbaycanda siyasi hakimiyyət böhranı başladı. Teymürilərin müdaxiləsi ilə dərinləşən bu böhran hakimiyyət uğrunda mübarizəyə çevrildi. Bu mübarizədə bir tərəfdə ağqoyunlular, digər tərəfdən Qara Yusifin oğlanları iştirak edirdi. Qeyd etmək lazımdır ki, artıq başlanan hakimiyyət uğrunda mübarizə, dövlətin siyasi təsisatları ilə yanaşı, Qaraqoyunlu dövlətinin formalaşmaqda olan xarici siyasətinin əsaslarına da ciddi zərbə vurdu. Bu dövrdən başlayaraq Azərbaycanın xarici siyasi əlaqələri sabit şəkildə deyil, pərakəndə formada inkişaf etməyə başladı.

Qara Yusif vəfatından əvvəl Azərbaycan taxt-tacına varis təyin etmədiyi üçün Qaraqoyunlu əmirləri Qara Yusifin ikinci oğlu İsgəndər Mirzəni hökmdar elan etdilər[203].

Qara Yusifin ölüm xəbəri Şahruxa 1420-ci il noyabrın 17-də çatdırıldı. Şahrux noyabr ayının 21-də (21 noyabr/1420) Sultaniyyəyə, oradan Ərdəbilə, oradan isə Muğan yolu ilə hərəkət edərək Qarabağa gəldi (dekabr/1420)[204].

Şahrux Qarabağda olarkən Osmanlı sultanına bir məktub göndərdi. O, bu məktubda yazırdı: "..Qara Yusif mənimlə düşmənçilik edirdi. Çarəsiz qalıb özümüzü qorumaq məqsədilə... 823-cü ilin şaban ayında (avqust/1420) Səmərqənddən çıxıb Azərbaycana yollandıq... Zilqədə ayının axırında Qara Yusifin ölüm xəbəri gəldi. Böyük oğlum Mirzə Baysunqur Təbrizi tutmağa yollandı... Qara İsgəndər Ərzincanın Çubuqcivarına qaç-

---

[203] İ. Uzunçarşılı, *Anadolu beylikleri və Akkoyunlu, Karakoyunlu devletləri.*, s.183; T. Cəfiyev, *Azərbaycanın feodal dövlətləri XV-XVI əsrin birinci rübündə.*, s.21.

[204] R. Ağayev, *a.g.ə.*, s.55; İ. Aka, *Timur ve devleti.*, s.62.

mışdı. O, Qara Osmanla döyüşməkdədi... Əgər o, sizin tərəflərə pənah gətirsə, onu ələ keçirib mənim sarayıma göndərin..."[205].

Sultan II Murad bu məktubu alan kimi Şahruxa dərhal cavab məktub yolladı. Məktubda deyilirdi "...Sizin hümayun əhvalınızdan və Azərbaycanın zəbtindən ... xəbərdar olduq və bu bizim keyfimizi çoxaltdı. Qara İsgəndərin Ruma tərəf qaçmağından fikrə düşdük və fərman verdik ki, əgər ondan bir xəbər tuta bilsələr dərhal ona hücum etsinlər"[206].

Bu ərəfədə Ağqoyunlu bəyi Osman bəyin Mardinə hücum etdiyini eşidən İsgəndər ağqoyunlulara qarşı yürüşə başladı. Tərəflər arasında 1421-ci ilin mart ayında Mardin bölgəsində, Xatuniyyə gölünün şimalında şiddətli döyüş oldu. Bu döyüşdə ağqoyunlular məğlub oldu[207].

Bu vaxt Qara Yusifin oğlu İspənd Mirzə elçisi Əmir Fədlullah oğlu Həmzəni Teymuri hökmdarının yanına göndərərək ona tabe olduğunu bildirdi. Lakin İspənd Mirzənin səmimiyyətinə inanmayan Şahrux Qaraqoyunlu şahzadələrinə qarşı mübarizəyə qərar verdi. Qara Yusifin oğlanları bir neçə dəfə elçi göndərərək sülh təklif etsələr də Şahrux bunu qəbul etmədi[208]. Sülh təkliflərinin rədd edildiyini görən İsgəndər Mirzə və İspənd Mirzə teymurilərə qarşı müharibəyə başladılar. Qaraqoyunlularla teymurilər arasında Alaşkert yaxınlığında həlledici döyüş oldu (30 iyul-1 avqust/1421). Bu döyüşdə qaraqoyunlu ordusu məğlub oldu. Bu qələbədən sonra Təbrizə daxil olan Şahrux Azərbaycanın idarəçiliyini oğlanlarına və əmirlərinə təklif etsə də onlar İsgəndər Mirzənin qorxusundan bundan imtina etdilər. Şah-

---

[205] Ş. Fərzəlibəyli, *Azərbaycan və Osmanlı imperiyası.*, s.17; T. Nəcəfli, *Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi müasir türk tarixşünaslığında.*, s.110.

[206] Ş.Fərzəlibəyli, *a.g.ə.*, s.17; T. Nəcəfli, *a.g.ə.*, s.110.

[207] Z. Şirazi, *Təkmilətül-əxbar*, (fars dilindən tərcümə, müqəddimə və şərhlərin müəllifi Ə. H. Rəhimli)., Bakı, Elm, 1996, s.66-67; F. Sümer, *Kara-Koyunlular.*, s.119.

[208] Ş. Fərzəliyev, *Azərbaycan XV-XVI əsrlərdə.*, s.95; F. Sümer. *Kara-Koyunlular.*, s.121; İ. Aka, *Timur ve devleti.*, s.62.

rux Azərbaycanın idarəçiliyini Ağqoyunlu Əli bəyə tapşıraraq 1421-ci ilin oktyabr ayında Herata qayıtdı[209].

Azərbaycanda siyasi dayaqları zəif olan Ağqoyunlu Əli bəy qısa müddətdən sonra Təbrizi tərk etməyə məcbur oldu. Bundan istifadə edən Qaraqoyunlu şahzadəsi İsfahan bəy Təbrizi tutdu. Bu zaman Qaraqoyunlu hökmdarı İsgəndər Mirzə Təbrizə doğru hərəkət edirdi. Belə olan şəraitdə İsfahan bəy Təbrizi tərk edib Ruma tərəf çəkildi və İsgəndər Mirzə şəhərə daxil oldu. Qaraqoyunlu hökmdarı bir müddət Təbrizdə qaldıqdan sonra dövlətin sərhədləri daxilində siyasi hakimiyyəti gücləndirmək üçün Bidlis, Əhlət istiqamətində yürüşlər təşkil etdi və bir il sonra isə Sultaniyyə şəhərini ələ keçirdi[210].

Qaraqoyunlu hökmdarı İsgəndərin Sultaniyyəni ələ keçirməsi Şahruxu ciddi narahat etməyə başladı. Eyni zamanda bu ərəfədə Məmlük ordusunun Anadolunun cənub-şərqinə (Urfa) yürüş etməsi Teymurilərin Anadoludakı siyasi dayaqlarına təhlükə yaradırdı. Məhz bu səbəbdən Qaraqoyunlu və Məmlük təhlükəsinin qarşısını almaq üçün Şahrux qərb istiqamətində növbəti yürüşə başladı.

Şahrux 1429-cu il aprelin 10-da Azərbaycan istiqamətində hərəkətə başladı və iyun ayının 25-də (25 iyun/1429) Sultaniyyəyə çatdı[211]. Teymurilərə qarşı mübarizəyə başlayan Qaraqoyunlu ordusu 1429-cu il iyulun 17-də Salmas ovalığında Teymuri ordusu ilə qarşılaşdı. Bu döyüşdə qaraqoyunlular məglub oldu. İsgəndər Mirzə və qardaşı Cahanşah Şərqi Anadolu istiqamətinə geri çəkildilər. Qaraqoyunluların məğlubiyyətindən sonra Anadolu və Misir yolları Teymuri hərbi qüvvələri üçün açıl-

---

[209] Ə. Tehrani, *Kitabi-Diyarbəkriyyə.*, s.68-70; R. Savory, *The Struggle for Supremacy in Persia after the death of Timur.*, p.40; F. Sümer, a.g.ə., s.121; *Azərbaycan tarixi: VII cilddə,* III c., s.81.

[210] Ş. Fərzəliyev, *a.g.ə.*, s.96; F. Metsopski, *Teymurləngin və onun xələflərinin tarixi.*, s.26-27; İ. Aka, *Timur ve devleti.*, s.67.

[211] R. Ağayev, *Azərbaycan və Mərkəzi Asiya dövlətlərinin qarşılıqlı münasibətləri.,* s.57.

mış oldu. İkinci bir Teymuri istilasından təşvişə düşən Osmanlı hakimiyyəti və Məmlük dövləti hər vəchlə Şahruxla qarşıdurmadan yayınmağa çalışırdılar. Bu dövrdə Osmanlı imperiyası Venesiya ilə müharibə vəziyyətində olduğu üçün belə bir vəziyyətdə Sultan II Murad ikinci bir Teymuri təhlükəsi ilə qarşı-qarşıya gəlmək istəmirdi[212].

Şahrux bir neçə dəfə qaraqoyunlular üzərində qələbə qazanmasına baxmayaraq, Azərbaycanı öz siyasi təsir dairəsinə keçirə bilmədi. Bu səbəbdən o, İsgəndər Mirzə ilə qardaşları arasında olan ixtilaflardan istifadə edərək şahzadə Əbu Səidi ona itaət etdiyi üçün Azərbaycan hökmdarı kimi tanıdı və 1430-cu ilin iyul ayında Azərbaycanı tərk etdi. Sahruxun geri qayıtması Osmanlı və Məmlük sarayında mövcud olan siyasi gərginliiyi aradan qaldırdı[213].

Əbu Səidin Azərbaycanda siyasi hakimiyyəti uzun sürmədi. Şahruxun Azərbaycanı tərk etdiyini eşidən İsgəndər Mirzə h. 835-ci ildə (1430) geri döndü və Əbu Səidi öldürərək öz hakimiyyətini bərpa etdi[214].

Qaraqoyunlu hökmdarı İsgəndər Mirzənin hakimiyyəti yenidən əlində cəmləşdirməsi Teymurilər dövləti ilə münasibətlərin yenidən gərginləşməsinə səbəb oldu. Bu ərəfədə qaraqoyunluların Şirvana yürüşü vəziyyəti daha da pisləşdirdi. Şahrux üçüncü dəfə Azərbaycana yürüşə başladı[215].

Şahrux, 1434-cü il noyabrın 5-də Heratdan çıxıb Rey istiqamətində hərəkət etdi. Teymuri qoşunu Azərbaycana daxil olarkən İsgəndər Mirzə onlara qarşı mübarizəyə başladı. Lakin qaraqoyunlu qoşunu teymurilərə qarşı mübarizədə /1435/ məğ-

---

[212] İ. Aka, *Timur ve devleti.*, s.68.
[213] F. Sümer, *Kara-Koyunlular.*, s.131; R. Ağayev, *a.g.ə.*, s.58; İ. Aka, *a.g.ə.*, s.69.
[214] Ш. Бидлиси, *Шараф-Наме.*, c.111; R. Ağayev, *a.g.ə.*, s.58; F.Sümer, *a.g.ə.*, s.132.
[215] Z. Şirazi, *Təkmilətül-əxbar.*, s.78; Ш. Бидлиси, *a.g.ə.*, c.112; İ. Aka. *Timur ve devleti.*, s.71.

lub olaraq Rum istiqamətində geri çəkildi. Şahruxun göstərişi ilə İsgəndər Mirzənin qarşısını kəsmək istəyən Ağqoyunlu Osman bəy qaraqoyunlularla döyüşdə məğlub oldu. Bu döyüşdə Osman bəy ağır yaralanaraq həlak oldu. İsgəndər Mirzə teymurilərin təqibindən yaxa qurtarmaq üçün Ərzurumdan ayrılaraq Osmanlı dövlətinin sərhədlərinə daxil oldu. İsgəndərin Osmanlı ölkəsinə girdiyini görən Şahrux, elçisi Şeyx Nurəddin Məhəmmədi Sultan II Muradın yanına göndərərək Qaraqoyunlu hökmdarının ölkəsinə gəldiyi təqdirdə ələ keçirib ona göndərməsini tələb etdi[216].

Şahrux 1436-cı il may ayında Ucana gəldi və ona itaətini bildirmiş Qaraqoyunlu şahzadəsi Cahanşahı Azərbaycan hökmdarı kimi tanıdı (14 oktyabr/1436) və Xorasan istiqamətində geri qayıtdı[217].

Beləliklə, Şahruxun Azərbaycana üçüncü səfəri də nəticəsiz qaldı. Şahrux Cahanşahın hakumiyyətə gəlişi ilə Azərbaycanda Qaraqoyunlu sülaləsinin hakimiyyətini rəsmi formada tanıdı.

Hələlik rəsmi Qaraqoyunlu hökmdarı olan İsgəndər Mirzə Osmanlı dövlətinin sərhədlərini keçərkən elçisi vasitəsilə Sultan II Muraddan qışı Toqatda keçirməsinə razılıq verməsini xahiş etdi. Osmanlı hökmdarı Amasya valisi Yürgüc Paşaya İsgəndər Mirzəyə layiqincə hörmət edilməsinə göstəriş verdi. Lakin İsgəndər Mirzənin hərbi qüvvələrinin bu ərazilərdə talançılıqla məşğul olması osmanlıların etirazına səbəb oldu və İsgəndər Mirzə Osmanlı imperiyasının sərhədlərini tərk etmək məcburiyyətində qaldı[218].

---

[216] Ə. Tehrani, *Kitabi-Diyarbəkriyyə.*, s.78; F. Sümer, *a.g.ə.,* s.137; R. Savory, *The Struggle for Supremacy in Persia after the death of Timur.*, p.41.
[217] Ш. Бидлиси *a.g.ə.,* c.113; R. Savory, *a.g.ə.*, p.41; T. Nəcəfli, Qaraqoyunlu-Teymuri münasibətləri müasir Türkiyə tarixşünaslığında, *AMEA-nın Xəbərləri,Tarix, fəlsəfə, hüquq seriyası., 2006, №7*, s.76
[218] M. Solakzadə, *Tarix: Azərbaycan tarixinə dair iqtibaslar,* (Osmanlı türk dilindən çevirəni Z.M.Bünyadov)., Bakı, Elm, 1992, s.10; F. Sümer, *Kara-Koyunlular...* s.138; Ş. Fərzəliyev, *Azərbaycan XV-XVI əsrlərdə.*, s.98.

Osmanlı dövlətini tərk edən İsgəndər Mirzə, h. 839-cu ilin baharında (mart/1436) siyasi hakimiyyətini bərpa etmək üçün Təbriz istiqamətində hərəkət etdi. Lakin o, qardaşı Cahanşahla Təbriz yaxınlığında baş verən döyüşdə məğlub oldu və Əlincə qalasına gəldi. Bu zaman Məmlük qoşunu İsgəndər Mirzəyə kömək etmək üçün Diyarbəkr istiqamətində hərəkət etdi[219]. Əlincə qalasında Məmlüklərin hərbi yardımına ümid bağlayan İsgəndər Mirzə Məmlük sultanı Barsbəyin ölümü səbəbindən bu kömək-dən məhrum oldu və oğlu Şah Qubad tərəfindən (aprtel/1438) öldürüldü[220].

Beləliklə, Qaraqoyunlu hökmdarı İsgəndər Mirzənin ölümündən sonra Azərbaycanda rəsmi şəkildə Cahanşahın hakimiyyəti (1438-1467) bərqərar oldu.

Ümumiyyətlə, İsgəndər Mirzənin Azərbaycanda hakimiyyəti dövründə Azərbaycanda qeyri-sabit siyasi şərait hökm sürmüş, Teymurilərin Azərbaycana etdiyi mütəmadi yürüşlər dövlətin vəziyyətini daha da ağırlaşdırmışdı. Bunun nəticəsində Qaraqoyunlu şahzadələri arasında hakimiyyət uğrunda mübarizə mütəmadi xarakter almışdı. İsgəndər Mirzənin dövründə baş verən bu hadisələr dövlətin xarici siyasi əlaqələri və diplomatik münasibətlərinə ciddi zərər vurmuşdu.

Cahanşah Azərbaycanda hakimiyyətə gəldikdən sonra dövlətin daxilində siyasi sabitlik bərpa olundu və xarici siyasi əlaqələr yenidən inkişaf etməyə başladı.

Bu dövrdə Qaraqoyunlu dövləti ilə Osmanlı imperiyası arasında siyasi və diplomatik münasibətlər yenidən fəallaşdı. Sultan II Muradla (1421-1451) Cahanşah Qaraqoyunlu arasında davam edən diplomatik əlaqələr, tərəflərin bir-birinə fəthnamələr, təbriknamələr göndərilməsi ilə müşaiyət olunur, dövlətlərа-

---

[219] Ə. Tehrani, *Kitabi-Diyarbəkriyyə.*, s.92; T. Cəfiyev, *Azərbaycanın feodal dövlətləri XV-XVI əsrin birinci rübündə.*, s.23.

[220] Ш. Бидлиси, *Шараф-Наме.*, с.114; Ə. Tehrani, *Kitabi-Diyarbəkriyyə.*, s.94; W. Hinz, *Uzun Hasan ve Şeyh Cüneyd.*, s.112.

rasında olan mübahisəli məsələlər rəsmi yazışma yolu ilə həll edilirdi.

Osmanlı sultanı II Murad, Macarıstanın fəth olunması münasibəti ilə Cahanşaha bir "fəthnamə" göndərmiş, Cahanşah da cavab məktubunda onu təbrik edərək, özünün siyasi əqidəsini belə ifadə etmişdi.: " Mən həmişə sələflərim kimi islam dininə müxalif olanlarla mübarizə edəcəyəm və onların rəqiblərinə qarşı belimə cihad və müharıbə kəməri bağlayacağam[221].

Osmanlılar tərəfindən 1453-cü ildə İstanbul şəhərinin fəthi bölgədə yeni bir siyasi mənzərə yaratdı. Ön Asiyanın ən güclü dövlətlərindən birinə çevrilən Osmanlı imperiyası istər Avropada, istərsə də Şərqdə öz siyasi nüfuz dairəsini getdikcə gücləndirməyə başladı. Bu dövrdə də Azərbaycan-Osmanlı siyasi münasibətləri ardıcıl surətdə davam edir, elçilər vasitəsilə diplomatik əlaqələr inkişaf etdirilirdi.

Osmanlı hökmdarı Sultan II Mehmed İstanbul şəhərinin fəth olunması ilə əlaqədar olaraq, Cahanşaha bir "fəthnamə" göndərmişdi. Bu "fəthnamə"də Qaraqoyunlu hökmdarına "ata" (Həzrəte-əbəvi Cahanşah) deyə müraciət edən Osmanlı sultanı bu şəhərin məhz "islam dininin qüvvəsi ilə" alındığından bəhs edir, osmanlılar tərəfindən edilən fəthlərin hər iki dövlət tərəfindən edilən fəthlər kimi qiymətləndirirdi. Sultan II Mehmedin bu "fəthnamə"sinə cavab olaraq, Cahanşah elçisi Şükrullah vasitəsilə, Osmanlı hökmdarına özünün Bağdad "fəthnamə"sini göndərmiş və yeni qələbəsini çox böyük şadlıqla xəbər vermişdi[222].

Osmanlı Sultanı Trabzona yürüşü ərəfəsində də Cahanşaha bir məktub göndərərək bu yürüş barədə məlumat vermişdi. O, məktubda yazırdı: "Pedəre-əzizim Cahanşah (əziz atam Cahanşah)... biz Trabzona yollanırıq... Əgər bu hücumla əlaqədar olaraq bizim məktublaşmamız bir qədər təxirə düşərsə, başqa şey haq-

---

[221] Ş. Fərzəlibəyli, *Azərbaycan və Osmanlı imperiyası.*, s.21.
[222] Ş. Fərzəlibəyli, *a.g.ə.,* s.22-23.

qında düşünməyib məktublaşma qapılarını qapamayın”[223]. Göründüyü kimi, Qaraqoyunlu və Osmanlı hökmdarları bir-birinə mütəmadi olaraq öz hərbi yürüşləri barədə məlumat vermişlər.

Ümumiyyətlə, Cahanşahın hakimiyyəti dövründə Qaraqoyunlu-Osmanlı münasibətlərinin əsasını dostluq və müttəfiqlik münasibətləri təşkil etmiş, hər iki dövlət arasında diplomatik əlaqələr, elçi mübadiləsi intensiv xarakter daşımışdı.

Cahanşahın hakimiyyəti dövründə Azərbaycan Qaraqoyunlu dövləti ilə Teymurilər dövləti arasında olan siyasi münasibətlər, əvvəlki dövrlərdən fərqli olaraq daha çox dinc xarakter daşımışdı. Teymuri Şahruxun siyasi və hərbi köməyi ilə hakimiyyətə gələn Cahanşah Teymurilərlə siyasi münasibətləri pozmamağa çalışırdı. Cahanşah başa düşürdü ki, Qara Yusifin ölümündən sonra Qaraqoyunlu dövləti Teymurilər dövləti ilə siyasi rəqabət aparacaq gücdə deyil. Bu səbəbdən Cahanşah Şahruxla hesablaşmağa məcbur olmuşdu.

1446-cı ildə Cahanşah dostluq əlaqələrinin inkişaf etdirilməsi məqsədilə Şahruxunun yanına bir elçi göndərmişdi. Bu haqda Həsən bəy Rumlu yazırdı: “Dünyanın məskən yerlərinin dörddə bir hissəsinin sahibi olan padşah Nişapura gəlib çatdı. Cahanşah Türkmanın elçisi Azərbaycan diyarından müzəffər orduya gələrək, gətirdiyi peşkəşləri təqdim etdi və belə dedi: “Cahanşah padşah belə ərz edir ki, mən təkcə bir süvarisi olan cavan idim, bu gün sizin qəhredici dövlətinizin sayəsində yüz min süvariyə sahibəm və özümü Cəm məqamlı dərgahın mülazimlər və xadimlər silkindən sayıram. Ümidvaram ki, mə’hud (şərtləşdirilmiş) dəstur (qayd) üzrə inayət gözünü və bəndəvazlığı məndən əsirgəməzsiniz” O həzrət (Şahrux) elçiyə böyük hörmət etdi, geri qayıtmağına izn verdi”[224].

---

[223] T. Nəcəfli, *Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi müasir türk tarixşünaslığında*., s.114.

[224] Həsən bəy Rumlu, *Tarixlərin ən yaxşısı (Əhsənüt - təvarix).* I cild, Fars dilindən tərcümə edən Şahin Fazil,. Bakı, Elm, 2022, s. 257-258

Qaraqoyunlu sarayından Teymuri sarayına Şahruxun ölümü ərəfəsində də bir elçi göndərilmişdi. Həsən bəy Rumlu yazır ki, "Şahrux padşah Reyin Fəşapuyəsində qışladığı vaxt Cahanşah padşah Əli Şəkər bəyi bol töhfələrlə aləmpənah dərgaha göndərmişdi. Adlı-sanlı əmir Sultaniyyəyə çatdıqda Şahrux padşahın vəfatı xəbərini eşitdi, o şəhəri mühafizə altına alaraq, türkman şəhriyarının dərgahına bir qasid yollayıb, Sultaniyyə fəthini ona bildirdi"[225].

1436-cı ildən Şahruxun ölümünə qədər (1447) Qaraqoyunlu dövləti ilə Teymurilər dövləti arasında heç bir toqquşma olmamış, tərəflər dinc şəraitində yaşamışlar. Qaraqoyunluların teymurilərlə normal siyasi münasibətləri Şahruxun ölümünə qədər (12 mart/1447) davam etdi[226]. Şahruxun ölümündən sonra qaraqoyunlu-teymuri münasibətləri yenidən kəskinləşməyə başladı.

Qaraqoyunlu Cahanşah Şahruxun varisləri arasında gedən hakimiyyət uğrunda mübarizədən istifadə edərək Qəzvin və Sultaniyyəni Teymurilərdən geri aldı və İraqi-Əcəm bölgəsinə yürüş etməyə qərar verdi. Bu haqda Əbubəkr Tihrani yazırdı: "Şahrux Mirzə rəhmətə gedəndə Cahanşah Mirzənin əmirlərindən olan və Cahanşah bəydən Şahrux sarayına hədiyyə aparan Əli Şəkər bəy Sultaniyyə şəhərinə çatıb xaqan həzrətlərinin (Şahruxun) ölüm xəbərini eşitdi və Sultaniyyədə dayandı. Sonra Sultaniyyə hakimini qovub şəhəri Cahanşah Mirzə üçün ələ keçirdi. İraqi-Əcəm hakimi Sultan Məhəmməd Mirzə Farsı ələ keçirməklə məşğul olduğu üçün Cahanşah Mirzə İraqın Azərbaycana bitişik hissəsini tutdu... Həmədan, Qəzvin və Dərgəzin Qum vilayətinə qədər Cahanşahın əlinə keçdi... Cərbadeqan yaxınlığındakı Kəmre əyalətində sülh bağlandı (Cahanşahla Sultan

---

[225] Həsən bəy Rumlu, *Tarixlərin ən yaxşısı (Əhsənüt - təvarix).* I cild, Fars dilindən tərcümə edən Şahin Fazil,. Bakı, Elm, 2022, s. 277.

[226] R. Ağayev, *Azərbaycan və Mərkəzi Asiya dövlətlərinin qarşılıqlı münasibətləri.,* s.61.

Məhəmməd Mirzə arasında) və Sultaniyyə, Qəzvin və Həmədan Cahanşah Mirzənin ixtiyarına keçdi”[227].

Bu hadisələri Həsən bəy Rumlu bu şəkildə təsvir edir: “O vaxtlarda, Əmir Hüseyn Taromi bir dəstə məşhur əmirlə İsfahandan çıxıb, türkman şəhriyarının xidmətinə yetişdilər. Mirzə Sultan Məhəmməd məskun yerlərin padşahı Şahrux Sultanın tapşırığı (dəstur) ilə bu məzmunlu bir hümayun fərman (nişan) yazdı: “Əmir Cahanşah Türkman padşahanə inayətə layiq görüldüyü üçün gərək bunu bilsin: Eşidilmişdir ki, onun adamları, hümayun fərmana xilaf olaraq, bizim vilayətə daxil olmuşdur. Bu əməl qayda-qanundan uzaqdır. O, gərək həmin vilayəti ali divan naiblərinin ixtiyarına versin və həzrət Şahrux padşahın onun üçün tə’yin etdiyi məmləkətlə kifayətlənsin, yaxud savaş üçün cəng meydanı təyin etsin”. Sultan Məhəmməd fərmanın üstünə möhür vurub onu qasidlə yolladı, özü də həmin elçinin ardınca yola düşdü. O fərmanı mütaliə edən Cahanşah padşah onun məzmunundan hali oldu və təəccüblənib dedi: “Bu şəxs bahadır bir adamdır, ya da divanəlik nəşəsinin təsiri altındadır ki, mənim kimi bir padşaha belə məktub yazmışdır”. O, bundan sonra müqayisəyə gəlməz bir qoşun ilə İraq və Farsa tərəf hərəkət gəldi. Hər iki ləşkər arasındakı məsafə bir-birinə yaxınlaşanda, Şahrux padşah dövründə Cahanşah padşahı fərzəndliyə qəbul edən Gövhərşad bəyim Mövlana Yaqub Pərvanəçini elçi kimi Cahanşah padşahın yanına göndərdi. Buna görə də, savaş və müxalifət sülh və müvafiqətlə əvəz olundu, ülfət qayda-qanunu təzələndi, məhəbbət vasitələri və səmimiyyət (movəddət) müddəti (qərayen) əl-ələ verdi, ədavət və biganəlik yaxınlığa və yeganəliyə (birliyə) çevrildi. Gövhərşad bəyim o vaxtlarda Mirzə Əlaüddövlə, Əmir Şeyx Loğman Bərlas və Əhməd Firuzşahla birlikdə Uluğ bəydən qaçaraq, Sultan Məhəmmədin ordusuna birləşmişdilər. Sonra isə Cahanşah ilə sülh bağlandı. Mirzə Sultan Məhəmməd onun qızını öz nikahı altına gətirdi, Qəzvini və Sultaniyyəni

---

[227] Ə. Tehrani, *Kitabi-Diyarbəkriyyə*., s.158-159.

sirbəha (süd haqqı) kimi ali məqamlı Cahanşah padşaha verdi, hər iki qoşun qılınc və nizə işlətmədən öz diyarlarına qayıtdı. Cahanşah padşah Həmədan hakimliyini – Əli Şəkər bəyə, Qəzvini Qılınc Aslana, Sultaniyyəni Şəhsüvar bəy Bayramiyə inayət etdi”[228].

Teymuri taxt-tacı uğrunda gedən siyasi mübarizədə qələbə çalaraq hakimiyyətə gələn Şahruxun nəvəsi Əbülqasim Babur, 1451-ci ildə, İraqi-Əcəmdə özünü hökmdar elan edən Sultan Məhəmmədi öldürərək İraqi-Əcəm və Fars bölgələrini öz torpaqlarına qatdı. Teymuri hökmdarı Babur bu siyasi uğurlarından sonra Qaraqoyunlu hökmdarı Cahanşaha məktub göndərərək vaxtilə babası Şahrux zamanında aldığı Azərbaycan bölgəsinin vergisini Herata göndərib, onun adına xütbə oxudub sikkə kəsdirməyi tələb etdi. Cahanşah onun bu tələbini rədd edərək, bütün İraqi-Əcəm və Fars bölgəsini tutmağa qərar verdi[229].

Teymurilər dövlətinin siyasi və hərbi gücünün zəiflədiyini yaxşı bilən Cahanşah Ağqoyunlular ilə sülh bağlayıb oğlu Pirbudağın başçılığı ilə İraqi-Əcəmi ələ keçirmək üçün bir ordu göndərdi. Göndərilən ordu Savə, Qum, İsfahanı ələ keçirərək Farsa doğru irəliləməyə başladı. Qısa bir zamanda İraqi-Əcəm, Fars və Kirman Qaraqoyunlu dövlətinin nəzarətinə keçdi[230].ı

Teymuri hökmdarı Baburun hakimiyyəti çox davam etmədi və o, 1457-ci il mart ayında vəfat etdi[231]. Baburun ölüm xəbərini eşidən Cahanşah Mazandaranı ələ keçirdi və h. 861-ci ilin zilhiccə ayında (20 sentyabr/18 oktyabr 1457-ci il) Xorasan istiqamətində hərəkət etdi. O, h. 862-ci ilin şaban ayının 15-də (28 iyun/1458-ci il) Teymuri Mirzə İbrahim ibn Əlaüddövləni

---

[228] Həsən bəy Rumlu, *Tarixlərin ən yaxşısı (Əhsənüt - təvarix).* I cild, Fars dilindən tərcümə edən Şahin Fazil,. Bakı, Elm, 2022, s. 277-279.

[229] İ. Aka, *Timur ve devleti.*, s.85; R. Savory, *The Struggle for Supremacy in Persia after the death of Timur.*, p.45.

[230] Ə. Tehrani, *Kitabi-Diyarbəkriyyə.*, s.174-175; Ш. Бидлиси, *Шарафнаме.*, с.125; İ. Aka, *Timur ve devleti.*, s.86.

[231] Ш. Бидлиси, a.g.ə., c.127; R. Savory, *a.g.ə.,* p.46; Ş. Fərzəliyev, *Azərbaycan XV-XVI əsrlərdə.*, s.99.

məğlub edərək Herat şəhərini tutdu və öz adına xütbə oxudub sikkə kəsdirdi. Cahanşah Heratda olarkən xarici dövlətlərin elçiləri bura gələrək onu salamlayır, ənam və hədiyyələrini təqdim edirdilər[232].

Bu zaman Səmərqənddə hakimiyyətə gələn Əbu Səid elçisi Mövlana Nəcməddin Ömər və Mövlana Yusif Əttarı sülh təklifi ilə Cahanşahın yanına göndərmişdir. Teymuri hökmdarı elçisi vasitəsi ilə Qaraqoyunlu hökmdarına təklif edirdi ki, "Cahanşah gərək Şahruxun ona vermiş olduğu Azərbaycanla qane olub Azərbaycana qayıtsın"[233].

Bu haqda Həsən bəy Rumlu yazır: "O əsnada Mirzə Əlaüddövlə Gorcestandan türkman şəhriyarının dərgahına gəlib münasib bir yerdə qərar tutdu. Sultan Əbu-Səidin elçiləri olan Mövlana Nəcməddin Ömər və Mövlana Yusif Əttarı da dərgaha gətirdilər. Cahanşah padşah ali nəsilli padşahlar və iqtidarlı xosrovlarla görüşərək, məhəbbətli sözlər və səmimanə kəlmələrlə onların qəlb aynasındakı kədər pasını sildi. Həmin ayın on doqquzunda (5 may/1458) o müzəffər padşah vəziri Əmir Nizaməddin Seyid Aşuru elçilərlə həmrah edib Sultan Əbu Səidin dərgahına yolladı "[234].

Cahanşah sülh təklifinə razı olub danışıqları davam etdirmək üçün 1458-ci il oktyabrın 28-də elçisi Seyid Aşuru Əbu Səidin yanına göndərdi. Qaraqoyunlu elçisi Əbu Səidə bildirdi ki, "onun hökmdarı Cahanşah Şam və Rum nayihələrindən tutmuş bu hüdudlara qədər olan ərazilərin hökmdarıdır. O, məni sizinlə münasibətləri dostcasına möhkəmlətmək üçün göndərmişdi"[235].

---

[232] Ə. Tehrani, *a.g.ə.,* s.185-187; *Azərbaycan tarixi: VII cilddə,* III c., s.83; İ. Aka, *Timur ve devleti*., s.87.

[233] Ə. Tehrani, *a.g.ə*., s.188.

[234] Həsən bəy Rumlu, *Tarixlərin ən yaxşısı (Əhsənüt - təvarix).* I cild, Fars dilindən tərcümə edən Şahin Fazil,. Bakı, Elm, 2022, s. 399.

[235] Həsən bəy Rumlu. *Əhsənüt-təvarix (Tarixlərin ən yaxşısı)* Fars dilindən tərcümə və şərhlər professor Oqtay Əfəndiyev, dosent Namiq Musalı., s.221.

Qaraqoyunlu hökmdarı ilə Əbu Səid arasında davam edən danışıqlardan sonra tərəflər sülh müqaviləsi bağlamağa razı oldular. Lakin bu zaman Cahanşahın oğlu Həsən Əlinin həbsdən qaçaraq qiyam qaldırması, Əbu Səidin sülh danışıqlarını pozaraq qaraqoyunlularla müharibəyə başlamasına səbəb oldu. Belə bir vəziyyətdə teymurilərlə münaqişəyə girməyin nəticə verməyəcəyini görən Cahanşah, yenidən elçi göndərərək məsələləri sülh yolu ilə həll etmək arzusunda olduğunu Əbu Səidə bildirdi. Cahanşahın ağır vəziyyətdə olduğunu görən Teymuri hökmdarı bundan istifadə edərək qəti şəkildə bildirdi ki, "Cahanşah Azərbaycanla qane olub Şahrux Mirzənin ölkəsini tamamilə tərk etdiyi təqdirdə sülh bağlana bilər"[236].

Tərəflər arasında davam edən uzun sülh danışıqlarından sonra 1458-ci ilin dekabr ayında Qaraqoyunlu dövləti ilə Teymurilər dövləti arasında sülh müqaviləsi bağlandı[237]. Əbu Bəkr Tihrani bu sülh müqaviləsi haqqında belə yazır: "... Hər iki tərəf sülh danışıqlarına başladı. Cahanşah Mirzə tərəfdən Qazi Abdullah getdi və sülh barədə razılıq əldə olundu. Sülh müqaviləsinin mətnini bu bəndə yazdı. Məzmunu belə idi: Abi Rövşən sərhəd və Əlaüddövlə Mirzəyə məxsus Astrabadı ayıran nöqtə oldu. Digər Xorasan və Kuhistan torpaqları Sultan Əbu Səidə məxsus oldu"[238].

Sülh müqaviləsinə görə vaxtilə Teymurilərə məxsus olan İraqi-Əcəm, Fars və Kirman bölgələri Qaraqoyunlu dövlətinin tabeliyinə keçdi[239]. Bu dövrdə Şirvanşahlar, Gilan və Mazandaran hakimləri də Cahanşahın vassalı idilər.

Ümumiyyətlə, Cahanşahın hakimiyyəti illərində Qaraqoyunlu-Teymuri münasibətləri normal xarakter daşımış, Cahanşahla Şahrux arasında mövcud olan siyasi və diplomatik əlaqələr

---

[236] Ш. Бидлиси, *a.g.ə.*, c.128; R. Ağayev, *Azərbaycan və Mərkəzi Asiya dövlətlərinin qarşılıqlı münasibətləri.*, s.61.
[237] Ş. Fərzəliyev, *a.g.ə.,* s.99; R. Ağayev, *a.g.ə.,* s.63.
[238] Ə. Tehrani, *Kitabi-Diyarbəkriyyə.*, s.189.
[239] R. Ağayev, *a.g.ə.*, s.63.

sülh şəraitində inkişaf etmişdi. Şahruxun ölümündən sonra Teymuri hakimiyyəti uğrunda gedən mübarizədən istifadə edən Cahanşahın Xorasana etdiyi hərbi yürüşlər, hər iki dövlət arasında mövcud olan normal siyasi münasibətlərə mənfi təsir göstərmişdi. Lakin Cahanşahın Əbu Səidlə bağladığı sülh müqaviləsi münasibətlərdə sabitlik yaratmışdı. Bu müqavilədən sonra hər iki dövlət arasında mövcud olan normal münasibətlər bərpa olunmuş və Cahanşahın siyasi hakimiyyəti dövründə teymurilərlə heç bir hərbi münaqişə baş verməmişdi.

Ümumiyyətlə, Azərbaycanda Cahanşahın hakimiyyəti dövründə Qaraqoyunlu dövlətində daxili siyasi sabitlik bərpa olunmuş, dövlətin xarici siyasi və diplomatik əlaqələri inkişaf etməyə başlamışdı. Cahanşahın yeritdiyi uğurlu xarici siyasət nəticəsində uzun sürən Qaraqoyunlu-Teymuri münaqişəsi səngimiş, siyasi münasibətlərin inkişafı istiqamətində müəyyən addımlar atılmışdır. Eyni zamanda Cahanşah müttəfiqi Osmanlı dövləti ilə də siyasi münasibətlərin inkişafına önəm verir, Misir Məmlük dövləti ilə siyasi və diplomatik əlaqələri davam etdirirdi.

### 1.2. Azərbaycan Ağqoyunlu dövlətinin Osmanlı və Teymuri dövlətləri ilə siyasi münasibətləri

Özünü Hülakü ulusunun varisi sayan və onların hökmranlıq etdiyi ərazilərdə siyasi hakimiyyətini bərqərar etməyə çalışan Qaraqoyunlu hökmdarı Xorasan səfərindən (1458) sonra mərkəzi Diyarbəkr olan Şərqi və Cənub-şərqi Anadolunun bəzi bölgələrində hakim olan Ağqoyunlu bəyliyinə qarşı mübarizəyə başladı[240].

Bu dövrdə Şərqi Anadoluda Ağqoyunlu bəyliyi siyasi cəhətdən güclənərək öz siyasi nüfuz dairəsini genişləndirməyə çalışırdı. Ağqoyunluların siyasi cəhətdən güclənməsi, Osmanlı imperiyasının maraqlarına cavab vermirdi. Çünki Şərqi Anadoluda Osmanlı imperiyasının güclü siyasi rəqibinə çevirilən Ağqoyun-

---

[240] İ. Aka, *Timur ve devleti.*, s.90.

lu bəyliyi, osmanlıların şərq istiqamətində irəliləməsinin qarşısını alır, bu da tərəflər arasında münasibətləri daha da kəskinləşdirirdi. 1461-ci ildə osmanlıların, ağqoyunlularla müttəfiq olan Trabzon dövlətini ilhaq etməsi bu münasibətlərə ciddi zərbə vurdu.

Ağqoyunlu-Osmanlı münasibətlərinin gərginləşməsi Qaraqoyunlu hakimiyyətinin siyasi mənafelərinə uyğun idi. Çünki bu dövrdə Ağqoyunlu bəyliyi Qaraqoyunlu dövlətinin qərb sərhədləri üçün ciddi təhlükə yaradırdı.

Ağqoyunlu bəyliyinin getdikcə gücləndiyini görən Cahanşah təcili olaraq Osmanlı sultanı II Mehmedə bir məktub göndərib ağqoyunlulara qarşı birgə mübarizə aparmaq üçün kömək istədi: "Qədim vaxtlardan bizim tərəfin... sizin şərafətli xanədanınıza həqiqi məhəbbəti və dostluğu olmuşdur... Amma araya girən Həsən Ağqoyunlu bu müddət ərzində zahirdə özünün razılıq və məhəbbətini göstərirdisə də, əslində başqa cür hərəkət edirdi... Himməti uca olan həzrət onun cəzalanması üçün qoy cəhd etsin"[241].

Cahanşah ağqoyunlulara qarşı mübarizə aparmaq üçün 1467-ci ildə növbəti dəfə Van istiqamətində hərəkət etdi. Osmanlı sultanı ilə əldə olunan razılığa görə Amasya valisi Bəyazid ağqoyunlulara qarşı bu yürüşdə Qaraqoyunlu dövlətinə hərbi kömək göstərməli idi. Lakin osmanlılar bu hərbi yardımı göstərmədi. 1467-ci il noyabrın 10-da Ərzincan yaxınlığında Muş düzündə tərəflər arasında başlanmış döyüş qaraqoyunluların məğlubiyyəti və Cahanşahın öldürülməsi ilə nəticələndi[242]. Bununla da Cahanşahın Azərbaycanda hökm sürən 30 illik hakimiyyətinə (1438-1467) son qoyuldu.

Ağqoyunlu bəyi Uzun Həsən Bayandur Cahanşah üzərində qələbə çaldıqdan sonra onun oğlu Həsənəlini də məğlub edərək 1468-ci ildə Azərbaycanda qaraqoyunluların siyasi hakimiyyəti-

---

[241] Ş. Fərzəlibəyli, *Azərbaycan və Osmanlı imperiyası.*, s.24.

[242] Ə. Tehrani, *Kitabi-Diyarbəkriyyə.*, s.227; W. Hinz, *Uzun Hasan ve Şeyh Cüneyd.*, s.42-44; Ш. Мустафаев, *Восточная Анатолия: от Аккоюнлу к Османской империи.*, М, Востлит, 1994, с.11; R. Savory, *a.g.ə.*, p.50.

nə son qoydu[243]. Bununla da Azərbaycanda Ağqoyunlu sülaləsinin siyasi hakimiyyəti bərqərar oldu.

Azərbaycanda ağqoyunlular hakimiyyətə gəldikdən sonra dövlətin xarici siyasətində ciddi dəyişiklik baş verdi və xarici siyasi əlaqələrin yeni istiqamətləri müəyyən olundu. Ağqoyunlu hakimiyyətinin xarici siyasi əlaqələri Qaraqoyunlu hakimiyyətindən fərqli olmuşdu. Daim rəqabət aparan bu iki türk sülaləsinin baş verən siyasi hadisələrdə arxalandığı siyasi qüvvələr fərqli idi. Ağqoyunluların siyasi hakimiyyətə gəlməsi ilə Azərbaycanın xarici siyasi və diplomatik əlaqələrinə Avropa dövlətləri və Moskva knyazlığı ilə münasibətlər də əlavə olundu.

Ağqoyunluların hakimiyyətinin ilk illərində ölkədə kəskin siyasi vəziyyət hökm sürürdü. Azərbaycanda baş verən hakimiyyət dəyişikliyi səbəbindən yaranan mürəkkəb vəziyyətdən istifadə edən qonşu dövlətlər bu bölgədə öz siyasi maraqlarını həyata keçirməyə cəhd edirdilər. Xüsusilə də Uzun Həsənin siyasi uğurları Teymuri hökmdarı Əbu Səidi narahat etməyə başlamışdı. Teymuri hökmdarı Azərbaycanda yaranmış vəziyyətdən istifadə edərək zahirən Cahanşahın intiqamını almaq, əslində isə Azərbaycan torpaqlarını işğal etmək üçün hazırlıq görməyə başladı[244].

Azərbaycanda Ağqoyunlu sülaləsinin hakimiyyətə gəlməsi ilə tarixi keçmişə söykənən Ağqoyunlu-Teymuri ənənəvi dostluq münasibətləri arxa plana keçdi. Artıq əvvəlki dövrlərdə osmanlı və qaraqoyunlulara qarşı birgə mübarizə səbəbindən yaranan bu dostluq əlaqələrini hər iki dövlətin siyasi maraqları əvəz etmişdi. Ağqoyunlu hökmdarı Uzun Həsənin teymurilərə qarşı həyata keçirdiyi siyasət bir qayda olaraq Qaraqoyunlu hakimiyyətinin siyasətinin davamı idi. Belə ki, Teymuri Əbu Səid bölgə-

---

[243] Ш. Бидлиси, *Шараф-наме.*, с.130; T. Nəcəfli, *Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi müasir türk tarixşünaslığında*., s.125; М. Гасратян, С. Орешкова и Ю. Петросян, *Очерки истории Турции.*, М, Наука, 1983, с.53-54; Ş. Fərzəlibəyli, *Azərbaycan və Osmanlı imperiyası.*, s.37.
[244] R. Ağayev, *a.g.ə.*, s.72.

də ağqoyunluların siyasi cəhətdən güclənməsini qətiyyən qəbul etmir, Ağqoyunlu hökmdarı Uzun Həsən isə dövlətin Şərqdəki siyasi maraqlarını hər vəchlə qorumağa çalışırdı.

Beləliklə, Əbu Səid Cahanşahın ölümündən istifadə edərək h. 872-ci ilin şaban ayında (fevral/1468) Azərbaycan istiqamətində yürüşə başladı[245].

Həsən bəy Rumlu Əbu Səidin Azərbaycana yürüşünü bu şəkildə təsvir edir: "Azərbaycan şəhriyarı Mirzə Müzəffərəddin Cahanşah Türkman Diyarbəkrdə qətlə yetən vaxtlarda Sultan Əbu Səidin yanından Təbrizə gələn Əli bəy Cığatay Xorasana qasidlər göndərdi. Rəbiülaxirin on ikisində (12 qasım/1467) öldürülən Cahanşah padşahın ölüm xəbəri cəmadülaxırın üçündə Mərvdə Sultan Əbu Səidə gəlib yetdi. Buna görə də, o üfüqlər padşahı Azərbaycana yürüş əzmi ilə qışlaq yurdundan hərəkətə başladı"[246].

Ölkədə tam siyasi sabitlik yarada bilməyən və osmanlılarla müharibə vəziyyətində olan Uzun Həsən teymurilərlə mövcud hərbi qarşıdurmanı aradan qaldırmaq üçün diplomatik vasitələrdən istifadə etməyə başladı.

Uzun Həsən məsələləri sülh yolu ilə həll etmək üçün anası Saray Xatunın başçılıq etdiyi elçi heyətini Əbu Səidin yanına göndərdi. Əbu Səid Ağqoyunlu hökmdarının elçilərini hörmətlə qarşılayaraq, danışıqlara razı oldu. Uzun Həsənin Əbu Səidə təqdim olunan məktubunda göstərilirdi ki, onların ata-babaları həmişə bir-biri ilə dostluq münasibətlərində, əksinə Qara Yusifin övladları ilə düşmən münasibətlərində olmuş və Qaraqoyunlularla Əmir Teymurun nəsli arasında heç vaxt həqiqi qarşılıqlı etimad olmamışdır[247]. Elçi heyətinin apardığı danışıqlara baxmayaraq müsbət nəticə əldə edilmədi.

---

[245] R. Savory, *a.g.ə.*, p.51; İ. Aka, *Timur ve devleti.*, s.92.

[246]Həsən bəy Rumlu, *Tarixlərin ən yaxşısı (Əhsənüt - təvarix).* I cild, fars dilindən tərcümə edən Şahin Fazil,. Bakı, Elm, 2022, s. 481-482.

[247] R. Ağayev, *a.g.ə.*, s.74.

Beləliklə, Uzun Həsənin sülh təkliflərinə baxmayaraq, Əbu Səid Azərbaycan istiqamətində hərbi yürüşünu davam etdirdi. Qeyd edək ki, Əbu Səid yürüşə başladıqdan sonra da tərəflər arasında danışıqlar davam edirdi. Əbu Səid Miyanə şəhərində olarkən Uzun Həsən Murad bəy adlı elçisini sülh təklifi ilə onun yanına göndərmiş və bildirmişdi ki, qış qurtardıqdan sonra Azərbaycanı tərk edib Diyarbəkrə gedəcək və Azərbaycanı onun ixtiyarına buraxacaq[248]. Bu barədə Əbu Bəkr Tehrani yazırdı: “ Sahibqran (Uzun Həsən-M.A.) qardaşı oğlu Murad bəyi hədiyyələrlə Sultan Əbu Səidin hüzuruna göndərdi... Murad bəy Miyanə düzənliyində Sultan Əbu Səidin ordusuna çatanda onu saxladılar və onu Sultanın hüzuruna apardılar. O, (Sahibqranın) sözlərini çatdırdıqdan sonra Əbu Səid dedi: “Həsən bəy Azərbaycanı bizim ixtiyarımıza verməlidir... Mən övladlarımı Ruma və Şama göndərəcəyəm... o diyar fəth olunduqdan sonra Azərbaycanın əvəzinə onları (Sahibqrana) verəcəyəm”[249].

Əbu Səid öz elçisi ilə birlikdə Murad bəyi yola salaraq həmin sözləri Sahibqrana çatdırmağı tapşırdı. Uzun Həsən Əbu Səidin təklifini rədd edərək, “ İraq və Azərbaycan iki kuzə kimidir. Mən onların hər ikisini tapdım. İraqı ona verdim, Azərbaycanı özümə saxladım. Sultan Əbu Səid hələ İraqı bütünlüklə ələ keçirməmiş Azərbaycana üz tutub, bu isə insafsızlıqdır” cavabını verdi[250].

Bu zaman Əbu Səid, Əli adlı elçisi vasitəsilə Uzun Həsənə bir məktub göndərdi. Məktubda deyilirdi: “ Bu yürüşdə bizim dəlilimiz və əsasımız odur ki, Təbriz mənim babamın dəfn olunduğu yerdir. Bu neçə ildə o xanədan bizim xanədana itaət göstərib... Mənim istəyim belədir ki, Sahibqran Azərbaycandan əl çəkib Diyarbəkrə qayıtsın. Mən Rum və Şamı fəth etdikdən sonra bunun əvəzində bir sıra vilayətləri ona bağışlayacağam”[251]. Ağ-

---

[248] R. Ağayev, *a.g.ə.*, s.75.
[249] Ə. Tehrani, *Kitabi-Diyarbəkriyyə.*, s.253.
[250] Ə. Tehrani, *Kitabi-Diyarbəkriyyə.*, s.253.
[251] Ə. Tehrani, *a.g.ə.*, s.255-256.

qoyunlu hökmdarı Əbu Səidin tələblərinə cavab olaraq elçisi Qaziəsgər Əlaəddin Əlini Əbu Səidin yanına göndərdi. Uzun Həsən, Əbu Səidə göndərdiyi məktubda yazırdı: "Sizin qanuni torpaqlarınızı Cahanşah tutmuşdur. Əgər Yəzddə bir xarvar yük vurmaq istəyirdilərsə, Yəzd darğaları on dəfə müraciət etməyincə, icazə ala bilmirdilər. Sizin elçinizin başına çadır saldılar və siz onunla vuruşa bilmədiniz. Allahın köməyi ilə mən sizin dövlətinizi bu bəladan qurtardım. İndi mən Azərbaycanı, sizin irsi torpaqlarınızı qılınc gücünə əlinizdən almış bir padşahdan alandan sonra siz istəyirsiniz ki, onu hiylə və yağlı dil vasitəsilə məndən qoparasınız. Bu insafsızlığın son həddidir.. İndi ki, iş döyüş həddinə gəlib çıxıb, Qarabağda gözləyəcəyəm, qoy müharibəyə hazırlaşsın döyüş meydanına gəlsin"[252].

Artıq Uzun Həsənin Əbu Səidlə qarşılaşacağı məlum idi. Belə bir vaxtda Uzun Həsən Teymurilərə qarşı Şirvanşah Fərrux Yasar və Ərdəbilin sahibi Şeyx Heydər Səfəvinin iştirak etdiyi güclü ittifaq yaratdı[253]. Nəhayət, 1469-cu il yanvarın 27-də tərəflər arasında baş verən döyüşdə Teymurilər məğlub oldu və Əbu Səid əsir alınaraq edam edildi[254].

Qısa bir müddət ərzində bütün siyasi rəqiblərini məğlub edən Həsən padşah Bayandur (Uzun Həsən-M.A.) Kür çayından cənubda və Şərqi Anadoluda yerləşən bütün Azərbaycan torpaqlarını öz siyasi hakimiyyəti altında birləşdirdi. Eyni zamanda İraqi-Ərəb, Qərbi İran, Xorasan əraziləri də bu dövlətin tərkibinə daxil idi. Həmçinin Tiflis də daxil olmaqla "şimal-şərqi Gürcüstan" və Şəki əmirliyi Ağqoyunlu hakimiyyətinin siyasi nüfuz dairəsində idi. Şirvanşahlar dövləti isə Ağqoyunlu dövlətindən vassal asılılığında idi.

---

[252] Ə. Tehrani, *a.g.ə.*, s.255-256.

[253] R. Ağayev, *a.g.ə.*, s.76.

[254] G. Berchet, *La Respubblica di Venezia e la Persia*, Torino: Tipoqrafia G. B. Paravia E Comp, 1865, p.101; R. Savory, a.g.ə., p.52; Ш. Бидлиси, *Шараф-наме.*, с.131; F. Sümer, *Akkoyunlular.*, s.23.

Həsən padşah Əbu Səidi məğlub etdikdən sonra Xorasanın idarəçiliyini Şahruxun nəvəsi Yadigar Məhəmməd Mirzəyə tapşırdı. Uzun Həsənin bu addımı bundan sonra Ağqoyunlu-Teymuri münasibətlərinə öz mənfi təsirini göstərdi[255].

Ağqoyunlu hökmdarı 1469-cu ilin may ayında Xorasan və Mavəraünnəhr Yadigar Məhəmməd Mirzəyə verilməsi haqqında fərman imzaladı və onu Xorasana göndərdi. Lakin Əbu Səidin ölümündən sonra Teymuri hökmdarı olan Sultan Hüseyn Baykara Yadigar Məhəmməd Mirzəyə qarşı qoşun göndərdi. Tərəflər arasında 1469-cu il oktyabrın 16-da baş verən son döyüşdə Yadigar Məhəmməd Mirzə məğlub olaraq Simnana qaçdı[256].

Teymurilərin qələbəsindən sonra Sultan Hüseyn Baykara Uzun Həsənə bir məktub göndərdi. Məktubda göstərilirdi ki: "Ağqoyunlularla teymurilər arasında həmişə dostluq münasibəti olmuşdu. Əbu Səidə gəldikdə isə o, öz layiqli cəzasına çatmışdı... İndi bizim sizdən təvəqqimiz budur ki, öz şəfqətli baxışlarınızı bizə tərəf çevirəsiniz və bizi başqalarından əskik saymayasınız[257].

Uzun Həsən elçisi Qazi Əli vasitəsilə Teymuri hökmdarına cavab məktubu göndərərək, Xorasanda olan bütün qaraqoyunlular nəslindən olanların ona verilməsini tələb etdi. Sultan Hüseyn Baykara bu tələbi yerinə yetirmədiyi üçün Uzun Həsən ona qarşı mübarizə aparmaq üçün Məhəmməd Mirzənin köməyinə yenidən qoşun göndərdi. Məhəmməd Mirzə, 1470-ci il iyulun 8-də Heratda Teymuri taxt-tacını ələ keçirdi. Lakin, tezliklə (21 avqust/1470) Sultan Hüseyn Baykara Məhəmməd Mirzəni qətlə yetirərək Heratda öz siyasi hakimiyyətini bərpa etdi[258].

---

[255] R. Ağayev, *a.g.ə.*, s.82.

[256] R. Ağayev, *a.g.ə.,* s.82-82; İ. Aka, *Timur ve devleti.*, s.95; J. Woods, *The Aqquyunlu Clan, Confederation, Empire (A study in 15th/9th century Turko-Iranian politics).*, Chicago, Bibliotheca Islamica, 1976, p.125.

[257] R. Ağayev, *a.g.ə.,* s.83.

[258] Ш. Бидлиси, *Шараф-наме.*, с.133; R. Ağayev, *a.g.ə.*, s.84; R. Savory, *a.g.ə.*, p.53; İ. Aka, *a.g.ə.*, s.95.

Sultan Hüseyn Baykaranın bu addımları hər iki dövlət arasında siyasi münasibətləri yenidən pisləşdirdi. Teymuri hökmdarı vəziyyətin kəskinləşməsindən ehtiyat edərək münasibətləri bərpa etmək üçün elçisi Şeyxulislam  Abdullahı Ağqoyunlu sarayına göndərdi. Teymuri hökmdarı Uzun Həsənə yazdığı məktubda, tarixən Ağqoyunlu-Teymuri dostluq münasibətlərini qeyd edir, bu münasibətlərin davam etməsini arzuladığını bildirirdi. Eyni zamanda məktubda Astrabad vilayətinin ona verilməsi də qeyd olunmuşdu[259].

Uzun Həsən elçini hörmətlə qarşılayaraq böyük qonaqpərvərlik göstərdi. Ağqoyunlu hökmdarı eyni zamanda Astrabadın Sultan Hüseyn Baykaranın adamlarına təhvil verilməsi haqqında hökm yazdı. Uzun Həsən bu hökmü Qazi Əlaəddin Əliyə verib onu icra etmək üçün Teymuri elçısi ilə yola saldı[260]. Bununla da Ağqoyunlu–Teymuri münasibətləri normallaşmağa başladı.

Bu dövrdə Ağqoyunlu dövləti Osmanlı dövləti ilə müharibə vəziyyətində olduğu üçün Uzun Həsənin teymurilərlə razılaşma əldə etməsi vacib idi. Çünki Ağqoyunlu hökmdarı başa düşürdü ki, düşmənlərinə qarşı hər iki cəbhədə mübarizə aparmaq onun siyasi hakimiyyətinə ciddi təhlükədir. Bu səbəbdən o, teymurilərlə razılaşma əldə edərək osmanlılarla mübarizə aparmaq üçün Qaraman bəyliyi və Venesiya ilə ittifaq yaratmaq istiqamətinə addımlar atmağa başladı.

Ağqoyunlu sülaləsinin Azərbaycanda hakimiyyəti dövründə Osmanlı dövləti ilə siyasi münasibətlər Ağqoyunlu dövlətinin xarici siyasətinin əsas istiqamətlərindən birini təşkil edirdi. Qaraqoyunlu-Osmanlı münasibətlərindən fərqli olaraq Ağqoyunlu-Osmanlı münasibətləri tamamilə başqa istiqamətdə inkişaf etmişdi. Qaraqoyunlu dövləti ilə Osmanlı imperiyası arasında olan siyasi münasibətləri əsasən dostluq xarakteri daşıyırdısa da, əksinə Ağqoyunlu-Osmanlı siyasi münasibətləri daha çox siyasi qarşıdurmalarla müşaiyət olunurdu.

---

[259] Ə. Tehrani, *Kitabi-Diyarbəkriyyə.*, s.292; R. Ağayev, *a.g.ə.,* s.85.
[260] Ə. Tehrani, *a.g.ə.*, s.292.

XV əsrin 60-cı illərində Osmanlı imperiyasına qarşı mübarizə Ağqoyunlu dövlətinin xarici siyasətinin əsas məsələsinə çevrilmişdi. II Sultan Mehmedin 1461-ci ildə Trabzonu ilhaq etməsi, Ağqoyunlu-Osmanlı münasibətlərini daha da kəskinləşdirdi. Osmanlıların Trabzonu tutması ilə Qara dəniz vasitəsilə həyata keçirilən Avropa-Asiya dəniz ticarət yolu Osmanlı imperiyasının nəzarətinə keçmişdi. Bununla da Ağqoyunlu dövləti Qara dənizə çıxış yolundan məhrum olmuş, onun Qərbi Avropa ilə siyasi və ticarət əlaqələrinə ciddi zərbə vurulmuşdu[261].

Ağqoyunlu hökmdarı Həsən padşah Bayandur, hakimiyyətinin ilk illərində ölkədə mövcud olan qeyri-sabit siyasi şəraiti və teymurilərlə münaqişə vəziyyətini nəzərə alaraq Osmanlı imperiyası ilə siyasi münasibətləri kəskinləşdirməməyə çalışırdı. Çünki Qaraqoyunlu şahzadələri və Teymuri hökmdarı Əbu Səidə qarşı aparılan mübarizə Ağqoyunlu hökmdarını osmanlılarla siyasi rəqabətdən çəkinməyə vadar edirdi. Bu səbəbdən Həsən padşahın hakimiyyətinin ilk illərində osmanlılarla siyasi münasibətlər normal xarakter daşımışdı. Eyni zamanda tərəflər arasında mövcud olan münasibətlər Ağqoyunlu dövlətinin siyasi maraqlarına cavab verdiyi kimi, osmanlıların da dövlət mənafelərini ifadə edirdi. Çünki bu dövrdə Venesiya ilə müharibə aparan (1463-1479) Osmanlı dövləti Ağqoyunlu dövləti ilə hərbi qarşıdurmaya girməkdə maraqlı deyildi.

Uzun Həsən Cahanşaha qalib gələn kimi Sultan II Mehmedə məktub göndərib onu bu hadisədən xəbərdar etdi. O, bu məktubunda Cahanşahın ağqoyunlular üzərinə hücum etməsini, tə-

---

[261] Hoca Sadeddin Efendi, *Tacü't-tevarih (Fatih Sultan Mehmed ve İkinci Beyazid dönemleri),* yalınlaştıran İsmet Parmaksızoğlu, III c., İstanbul, Milli Egitim Basımevi, 1979, s.46-47; Y. Mahmudov, *Azərbaycan diplomatiyası. Ağqoyunlu və Səfəvi dövlətlərinin Avropa ölkələri ilə əlaqələri (XV-XVII yüzilliklər).,* Bakı, Azərbaycan diplomatiyası, 1996, s.81; İ. Ertaylan, Trabzonun fethi, *Türkmen Akkoyunlu imparatorluğu: Siyasal, sosyal ve kültürel tarihine ilişkin makaleler antolojisi.,* Ankara, 2003, s.172; T. Nəcəfli, *Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi müasir türk tarixşünaslığında.,* Bakı, Çaşıoğlu, 2000, s.123.

rəflər arasında baş verən döyüş və qaraqoyunluların məğlub olması haqqında Osmanlı sultanına məlumat verirdi. Eyni zamanda Uzun Həsən Osmanlı sultanından xahiş edirdi ki, " onu sadiq sansın ki, o da əbədiyyət kəmərini belinə bağlayıb "əbədi dövlətin"duaçısı olsun"[262].

Uzun Həsən Qaraqoyunlu Həsənəli Mirzəni məğlub etdikdən sonra elçi Seyid Əhməd Toğanoğlu vasitəsilə Osmanlı sultanı II Mehmedə növbəti bir məktub göndərdi. Ağqoyunlu hökmdarı bu məktubda onun Həsənəli Mirzə ilə Həmədan yaxınlığında baş verən döyüşdə qaraqoyunluları məğlub etməsi və Həsənəli Mirzənin qətlə yetirilməsi haqqında məlumat verir və qeyd edirdi ki, "İndi bütün Azərbaycan, İraq, Fars və Kirman məmləkətləri bizim hökmümüz altında asudə həyat sürür. Aramızdakı məhəbbət və sədaqət ali dərəcədə olduğu üçün müjdənin sizə bildirilməsi vacib görüldü"[263] .

Sultan II Mehmed Uzun Həsənin məktubuna cavab olaraq onu taxta çıxması münasibəti ilə təbrik etmək üçün elçisi Əmir bəyi qiymətli hədiyyələrlə Ağqoyunlu sarayına göndərdi. Bu barədə Əbubəkr Tihrani yazırdı: " Rum (hökmdarı) Sultan Məhəmmədin elçisi şahanə töhfələr və hədiyyələrlə, səmimiyyət və əhd-peymana sədaqət bildirən və İraqın fəthi münasibətilə təbrik sözlərini ehtiva edən bir məktubla gəlib çıxdı və məktubun çavabını alıb geri qayıtdı"[264].

Teymurilərlə aparılan mübarizədə böyük hərbi və siyasi uğur qazanan Uzun Həsən Osmanlı sarayına mütəmadi olaraq göndərdiyi "fəthnamələrdə" bu qələbələrini təntənəli şəkildə Sultan II Mehmedə çatdırırdı. O, h. 875-ci ilin ramazan ayında (sentyabr/1470) Osmanlı sultanına göndərdiyi bir məktubda, (Qeyd - Uzun Həsənin bu məktubu fars dilində yazıldığı digər məktublarından fərqli olaraq ərəb dilində yazılmışdır-M.A.) Azərbaycan və İraq məmləkətlərini ələ keçirdikdən sonra Fars

---

[262] Ş. Fərzəlibəyli, *Azərbaycan və Osmanlı imperiyası.*, s.38.
[263] Ş. Fərzəlibəyli, *a.g.ə.,* s.39.
[264] Ə. Tehrani, *Kitabi-Diyarbəkriyyə.*, s.293.

istiqamətində yürüş etdiyini, bu əraziləri ələ keçirdiyini qeyd edir və yazırdı ki, "Şiraz darül-mülkü səltənətin paytaxtı oldu. Böyük padşah Sultan Hüseyn Baykara, Şeyx-i-əzəm Şihəbəddin Abdullanı şəfaət və sülh üçün bizə elçi göndərdi. Onlar layiqli töhfələr gətirərək sikkə və xütbəni bizim hümayün adımızla bəzədilər və bizə öz itaət və sədaqətlərini ərz etdilər. Bu vaxt Qaramandan bir elçi gələrək Rumlardan şikayət etdiyini, bu səbəbdən oğlum Zeynal bəy Bahadırı üç min əsgərlə Qaramanın köməyinə göndərdim... Vəzifənizdir ki, bu müjdələri eşidib dövlətxahlıq və yaxşı münasibətlərə cəhd edəsiniz"[265].

Uzun Həsənin siyasi və hərbi uğurları Osmanlı hakimiyyətini ciddi şəkildə narahat etməyə başlamışdı. Çünki Sultan II Mehmed başa düşürdü ki, Ağqoyunlu dövləti gücləndikcə Osmanlı imperiyasına qarşı olan təhlükə getdikcə artır.

Uzun Həsənin son məktubunda əks olunmuş fəth xəbərləri və Qaraman bəyliyinə edilən hərbi kömək Sultan II Mehmedin böyük qəzəbinə səbəb oldu. O, dərhal cavab məktubu hazırlayaraq Ağqoyunlu sarayına göndərdi. Məktubda deyilirdi: " Sən ki, sərdare-əcəm, xane-əzəm, Firidune-zəmanə Həsən xansan... Agah olasan ki, hər kəs dövləti ilə qürurlanıb həddindən artıq təcavüzə qurşanarsa, insafsız əməllər edərsə dövlətin əldən çıxmasına, məmləkətin zavala uğramasına səbəb ola bilər... Əgər sən və sənə tabe olub kömək edənlər islam əhlinə qorxunc qəsd edirsinizsə, dövlət və şəriət düşmənlərindən birisiniz... bizim atımız... yəhərlənmiş, qılınclarımız qurşanmışdır... (Sonradan) bilmədim və ya qafil oldum deməyəsən..."[266].

H. 868-ci ildə (avqust/1464) İbrahim bəyin ölümündən sonra Qaraman bəyliyində taxt-tac uğrunda gedən mübarizədən istifadə edən osmanlılar, bu bəyliyi siyasi nüfuz dairəsinə almaq

---

[265] İ. Ertaylan. Akkoyunlu-Osmanlı mücadelesi, *Türkmen Akkoyunlu imparatorluğu: siyasal, sosyal ve kültürel tarihine ilişkin makaleler antolojisi.,* Ankara, 2003, s.254; Ş. Fərzəlibəyli, *Azərbaycan və Osmanlı imperiyası*., s.40.

[266] Ş. Fərzəlibəyli, *a.g.ə.*, s.41; A. Şimşirgil, *Osmanlı'yı yükselten zaferler, Osmanlı 1.*, Ankara, Yeni Türkiye Yayınları, 1999, s.354.

üçün mübarizəyə başladılar. Osmanlıların Trabzonu ələ keçirdikdən sonra Qara dəniz vasitəsilə Avropa ilə siyasi və ticarət əlaqələrindən məhrum olan Ağqoyunlu dövlətinin Aralıq dənizi vasitəsilə Avropaya çıxışı üçün Qaraman və Zülqədər bəyliyi körpü rolunu oynayırdı. Bu bəyliklərin Ağqoyunlu dövləti üçün böyük strateji əhəmiyyətini anlayan Uzun Həsən, Qaraman şahzadələrindən Pirəhməd bəy və Qasım bəyi, həmçinin Zülqədər taxtına oturtmaq üçün Qılıc Arslanı himayə edirdi. Ağqoyunlu hökmdarının bu bəyliklərin siyasi işlərinə müdaxılə etməsi Ağqoyunlu-Osmanlı münasibətlərini daha da gərginləşdirdi.

Osmanlı Sultanı yetişməkdə olan müharibədə hərbi və strateji üstünlüyü ələ almaq məqsədilə 1466-cı ildə Qaraman bəyliyinin işğalına başladı. Uzun Həsənin anası  Saray Xatunun Osmanlı sultanı ilə Qaramanı öz keçmiş hakimlərinə qaytarmaq haqqındakı danışıqları da nəticəsiz qaldı. “ Qaraman böhranı” Ağqoyunlu-Osmanlı ziddiyyətlərini müharibə həddinə yaxınlaşdırmaqda idi[267].

Bu arada Ağqoyunlu hökmdarı Osmanlı sarayına daha bir elçi göndərərək Osmanlı sultanından “Trabzonu və qəsb edilən digər yerlərin geri qaytarılmasını tələb etdi. Lakin Sultan II Mehmed bu təklifi rədd etdi[268].

Qaraman şahzadələri Pirəhməd bəy və Qasım bəyin hərbi kömək üçün Uzun Həsənə müraciət etməsi Ağqoyunlu hökmdarının osmanlılara qarşı müharıbəyə başlamasına səbəb oldu. Ağqoyunlular, h. 877-ci ilin baharında (mart/1472) uğurlu hərbi

---

[267] T. Nəcəfli, *Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi müasir türk tarixşünaslığında.*, s.128; Hoca Sadeddin Efendi, *Tacü't-tevarih (Fatih Sultan Mehmed ve İkinci Beyazid dönemleri*), yalınlaştıran İsmet Parmaksızoğlu, III c., İstanbul, Milli Egitim Basımevi, 1979, s.94-96; İ. Uzunçarışlı, *Osmanlı tarixi (İstanbul'un fethinden Kanuni Sultan Suleyman'ın ölümüne kadar),* cilt II., Ankara, TTK Basımevi, 1988, s.89.

[268] G. Berchet, *La Respubblica di Venezia e la Persia*., p.12; Ş. Turan, Fatih Mehmet-Uzun Hasan mücadelesi ve Venedik, *Türkmen Akkoyunlu imparatorluğu: siyasal, sosyal ve kültürel tarihine ilişkin makaleler antolojisi,* Ankara, 2003, s.208.

əməliyyatlar keçirərək Toqatı, Qeysəriyyəni, Ağsarayı və digər əraziləri ələ keçirdikdən sonra Qaraman bəyliyinə daxil oldu[269]. Lakin rəbiül-əvvəl ayında (aprel/1472) Beyşehir gölü yaxınlığında osmanlılarla baş verən döyüşdə Ağqoyunlu hərbi qüvvələri məğlub oldu. Osmanlılara məğlub olan Uzun Həsən yürüşün istiqamətini dəyişərək Məmlük dövlətinin vassalı olan Zülqədər bəyliyinin ərazisinə daxil oldu. Kahta, Ayntap və Gərgəri ələ keçirən Ağqoyunlu hökmdarı Zülqədər hakimi Şahbudaq bəydən itaət göstərməyi tələb etdi. Lakin Malatyaya qədər irəliləmiş Ağqoyunlu qüvvələri, h. 877-ci ildə (1472) Məmlük sultanı Qayıtbayın Yaşbəy komandanlığı altında göndərdiyi qoşun tərəfindən məğlub edildi[270].

Qaraman bəyliyinin işğalından sonra strareji məqsədinə catan Osmanlı sultanı, 1473-cü il iyulun 11-də Ağqoyunlu hakimiyyəti ilə münasibətləri "normallaşdırmaq" üçün Ağqoyunlu sarayına bir elçi göndərdi. Bu zaman osmanlılara qarşı Venesiya ilə hərbi ittifaq bağlayan Uzun Həsən, Osmanlı elçisini qəbul etməmiş və "biz də qanlar axıdan əsgərlərimizlə o diyara təvəccüh etdik, siz də yaxına gəlin ki, bir-birimzlə mukabele edəlim" deyərək bu sözləri Osmanlı sultanına çatdırmağı istəmişdi[271]. Çünki Uzun Həsən anlayırdı ki, ağqoyunlularla qəti şəkildə müharibəyə qərar verən Sultan II Mehmedin bu diplomatik addımı vaxt qazanmaq və qarşıdakı müharıbəyə hazırlığı başa çatdırmaqdan başqa bir şey deyildi. Həqiqətən də Sultan II Mehmed 1473-cü ilin aprel ayında Ağqoyunlu dövlətinə qarşı hərbi yürüşə başlamışdı.

---

[269] İ. Uzunçarışlı, *Osmanlı tarixi (İstanbul'un fethinden Kanuni Sultan Suleyman'ın ölümüne kadar).*, s.93; T. Nəcəfli, *Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi müasir türk tarixşünaslığında*., s.130.

[270] *Travels of the Venetians in Persia: A Narrative of Italian Travels in Persia in the 15-th and 16-th centuries*, (translated and edited by C.Grey)., London, Hakluyt Society, vol. 49, p.130; R. Yinanç, *Dulkadir beyliği,* Ankara, TTK Basımevi, 1989, s.77; Ş. Fərzəlibəyli, *Azərbaycan və Osmanlı imperiyası...* s.42; İ. Ertaylan, *Akkoyunlu-Osmanlı mücadelesi.*, s.256.

[271] Ş. Turan, *Fatih Mehmet-Uzun Hasan mücadelesi ve Venedik.*, s.220.

Osmanlıların hərbi yürüşünün qarşısını almaq üçün Ağqoyunlu hökmdarı Qaraman istiqamətində hərəkətə keçdi. 1473-cü il avqustun 1-də Malatya yaxınlığında ağqoyunlularla osmanlılar arasında şiddətli vuruşma baş verdi. Bu döyüşdə osmanlılar ağır məğlubiyyətə uğradı. Qələbəyə ümidini itirmiş Osmanlı sultanı döyüşdən sonra öz zabitlərindən birini barışıq əldə etmək üçün Ağqoyunlu hökmdarının yanına göndərdi. Lakin Uzun Həsən Sultan II Mehmedin bu təklifini qəbul etmədi və osmanlıları təqib etməyə başladı[272].

Bu məğlubiyyətdən sonra Osmanlı sultanı öz hərbi qüvvələrini Bayburd istiqamətində geriyə çəkməyə başladı. 1473-cü il avqustun 11-də Tərcan yaxınlığında Otluqbeli deyilən yerdə tərəflər arasında baş verən həlledici döyüşdə ağqoyunlular məğlub oldu[273]. Otluqbeli döyüşü ilə Ağqoyunlu-Osmanlı müharibəsi sona yetdi. Sultan II Mehmed ağqoyunlular üzərindəki qələbədən sonra avropalıların qərb istiqamətindən osmanlı torpaqlarına hücum etməsindən ehtiyat edərək müharibəni davam etdirmədi[274].

Uzun Həsən Otluqbeli məğlubiyyətindən sonra elçisi Əhməd Bəkrçini sülh təklifi ilə Sultan II Mehmedin yanına göndərdi. Tərəflər arasında aparılan danışıqlardan sonra sülh bağlandı. Sülhün şərtlərinə görə ağqoyunlular Şəbin-Qarahisarın osmanlıların tabeliyinə keçməsini qəbul etdi. Eyni zamanda tərəfələr bir-birinə hücum etməmək haqqında öhdəlik götürdü[275].

Ümumiyyətlə, Həsən padşah Bayandurun hakimiyyəti dövründə Ağqoyunlu-Osmanlı münasibətləri mürəkkəb xarakter daşımış, tərəflər arasında mövcud olan məhdud formada diplo-

---

[272] Y. Mahmudov, *Azərbaycan diplomatiyası.*, s.111; Ş. Turan, *a.g.ə.*, s.223.

[273] H. S. Efendi, *Tacü't-tevarih (Fatih Sultan Mehmed ve İkinci Beyazid dönemleri),* yalınlaştıran İsmet Parmaksızoğlu, III c., İstanbul, Milli Egitim Basımevi, 1979, s.127; Ş. Turan, *a.g.ə.*, s.223; Ш. Мустафаев, *Восточная Анатолия: от Аккоюнлу к Османской империи.*, с.12; M. Solakzadə, *Tarix.*, s.13-16.

[274] Y. Mahmudov, *a.g.ə.*, s. 113.

[275] Ş. Turan, *a.g.ə.,* s.227.

matik əlaqələr dövlətlərarası dostluq münasibətlərinin möhkəmlənməsini təmin etməmişdi. Çünki Osmanlı dövlətinin şərq istiqamətində ərazilərini genişləndirmək siyasəti, Ağqoyunlu dövlətinin qərb ərazilərinin osmanlılar tərəfindən işgalı təhlükəsini yaratmış və Ağqoyunlu hökmdarını buna qarşı hərbi və siyasi tədbirlər görməyə vadar etmişdi. Hər iki dövlət arasında gedən siyasi rəqabət sonda Ağqoyunlu-Osmanlı müharibəsinə gətirib çıxarmışdı.

Ağqoyunlu hökmdarı Sultan Yaqubun hakimiyyəti illərində (1478-1490) də Azərbaycanın xarici siyasi əlaqələri inkişaf etməkdə idi. Sultan Yaqubun xarici siyasət sahəsində ilk addımı Osmanlı sarayına elçi göndərib dostluq münasibətləri yaratmaq istədiyini bildirməsi oldu. Yeni Ağqoyunlu hökmdarının 12 illik hakimiyyəti dövründə Ağqoyunlu hakimiyyətinin osmanlılarla düşmənçilik etmək meyli aradan qalxmış, bu münasibətlər Sultan Yaqub və Sultan Mehmed Fateh arasında diplomatik yazışmalar və elçi mübadiləsi ilə əvəz olunmuşdu[276].

Bu dövrdə Ağqoyunlu dövləti ilə Sultan Hüseyin Baykaranın başçılıq etdiyi Teymurilər dövləti arasında əsasən əmin-amanlıq dövrü kimi xarakterizə olunur. Sultan Yaqubun hakimiyyətinin ilk illərində Kerman vilayəti ilə bağlı baş verən hadisələr hər iki dövlət arasındakı münasibətləri təhlükə altına qoysa da, lakin tezliklə bu münaqişə həll edilmiş və dövlətlərarası dostluq münasibətləri bərpa olunmuşdur[277].

Ümumiyyətlə, Sultan Yaqubun hakimiyyəti dövründə Azərbaycanın xarici siyasəti Uzun Həsən hakimiyyətinin yeritdiyi hərbi-siyasi xarakterli siyasətdən fərqli olaraq daha çox siyasi-diplomatik səciyyə daşımışdı. İstər Osmanlı imperiyası, istər Teymurilər dövləti, istərsə də digər qonşu dövlətlərlə diplomatik əlaqələr mövcud olmuş və inkişaf etdirilmişdi.

---

[276] R. Ağayev, *Azərbaycan və Mərkəzi Asiya dövlətlərinin qarşılıqlı münasibətləri.*, s.85; Ş. Fərzəlibəyli, *Azərbaycan və Osmanlı imperiyası.*, s.55; V. Minorsky, *The Aq-qoyunlu and land reforms,* Iranica, Twenty articles, Publications of the University of Tehran., 1964, p.229.

[277] R. Ağayev, *a.g.ə.,* s.86.

Sultan Yaqubun ölümündən (1490) sonra taxt-tac uğrunda gedən siyasi mübarizə dövlətin xarici siyasətinə ciddi zərbə vurdu. Azərbaycanın xarici siyasi və diplomatik əlaqələri zəiflədi və Ağqoyunlu hakimiyyətinin bölgədə baş verən hadisələrdə rolu azaldı. Bu dövrdən etibarən Azərbaycanda Ağqoyunlu sülaləsinin hakimiyyətinin tənəzzül dövrü başlayır.

## 1.3. Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin Misir Məmlük dövləti ilə siyasi münasibəti

Misir Məmlük dövləti Yaxın Şərqdə inkişaf etmiş feodalizm dövrünün mühüm siyasi dövlət təhsisatlarından biri olmuşdur. Hələ Abbasilərin xəlifəliyi dövründə Ərəb xilafətində böyük nüfuza sahib olmuş "məmlük sistemi", XII əsrin ortalarından etibarən Misirin dövlət sistemində ciddi siyasi və hərbi güc mərkəzinə çevrilmişdi.

Krım yarımadası, Qafqaz ölkələri, Qıpçaq əraziləri, Anadolu, Fars, Türküstan və Avropadan qul kimi satın alınaraq tacirlər vasitəsilə Misir ərazisinə gətirilən məmlüklər, əsasən hökmdarların və əmirlərin mühafizə sistemində xidmətə verilirdilər[278]. Tədricən Misir sarayında siyasi mövqelərini möhkəmləndirən məmlüklər, siyasi hakimiyyəti ələ keçirərək Misir Məmlük dövlətini (Devletül-Memalük) yaratmışlar. Əyyubilər dövlətinin sonuncu hökmdarı Turan Şah əl- Müəzzəmə öldürüldükdən sonra 1250-ci ildə türk əsilli İzzəddin Aybək əl-Muizzinin sultanlıq taxtına oturması ilə Misir Məmlük dövlətinin əsası qoyulmuş və bu dövrdən etibarən Bəhri və ya Türk sülaləsinin hakimiyyəti başlamışdı[279].

---

[278] İ. Yiğıt, *İslam tarihi*, VII c., İstanbul, Kayıhan yayınevi neşriyatı, 1991, s.14; *Doğuştan günümüze Büyük İslam tarihi*, İ. Müşavir ve redaktör H. Yıldız, VI c., İstanbul: Çağ Yayınları, 1992, s.434.

[279] *История Востока (Восток в средние века),* т.2., М, Восточная литература РАН, 2000, с.518; И. Фильштинский, *История Арабов и Халифата (750-1517).*, М, АСТ, 2006, с.261.

Bəhri məmlüklərinin Misir və Suriyadakı hakimiyyəti dövrunü Misir Məmlük dövlətinin yüksəlişi, hərbi-siyasi və diplomatik sahələrdə inkişaf dövrü kimi xarakterizə etmək olar. Xüsusilə də dövlətin xarici siyasət sahəsindəki uğurları diqqəti cəlb edir. Belə ki, Məmlük dövlətinin Hülakülər dövləti ilə münasibətlərində qazandığı hərbi-siyası və diplomatik uğurlar, Qızıl Orda ddövləti ilə uzunmüddətlə dostluq əlaqələri, səlibçilərə qarşı aparılan uğurlu hərbi əməliyyatlar, həmçinin Osmanlı, Bizans, Siciliya, Venesiya, Genuya, Həbəşistan krallığı və digər dövlətlərlə siyasi-diplomatik əlaqələri dövlətin aktiv xarici siyasət yeritməsindən xəbər verir.

XIV əsrin II yarısında Məmlük sarayında siyasi çəkişmələr güclənməyə başladı. Bu dövrdən başlayaraq Məmlük hakimiyyəti uğrunda gedən mübarizədə türk əsilli məmlüklərlə yanaşı, güclü siyasi dayaqlara malik Bürci-Çərkəz məmlükləri də iştirak edirdilər. Qaradəniz limanlarında qurulan qul bazarlarından satın alınaraq Venesiya və Genuya gəmiləri vasitəsilə Misirə gətirilən çərkəzlər tezliklə siyasi və hərbi sistemdə nüfuz qazanaraq hakimiyyət uğrunda mübarizəyə başladılar[280].

Misir sultanı Əlaəddin Əli əl-Mənsurun (1376-1381) vəfatından sonra hakimiyyət uğrunda mübarizədə qələbə çalan əslən çərkəz olan Bərkuk hakimiyyəti ələ keçirdi və sultanlıq taxtında oturdu (26 noyabr/1382)[281]. Beləliklə, bu dövrdən etibarən Misir Məmlük dövlətində siyasi hakimiyyət türkəsilli Bəhri məmlüklərindən Çərkəz əsilli Bürci məmlüklərinə keçdi. Azəbaycanda XV əsrdə mövcud olan dövlətlərin Misir dövləti ilə siyasi əlaqələri Bürci məmlüklərinin hakimiyyəti dövrünə təsadüf edir.

Azərbaycan dövlətləri ilə Misir Məmlük dövləti arasındakı siyasi münasibətləri iki mərhələyə - Qaraqoyunlu və Ağqoyunlu

---

[280] И. Фильштинский, *История Арабов и Халифата*., c.277; İ. Yiğıt. *İslam tarihi*, VII c., s.95.

[281] İ. Yiğıt, *a.g.ə*., s.94; L. Stanley, *History of Egypt in the middle ages*, Londan, Metuen and Co, 1901, p.330; İ. Lapidus, *Muslim cities in the later Middle Ages*, Cambridge, Harvard University Press, 1967, p.26.

bəyliklərinin Şərqi Anadolu bölgəsindəki fəaliyyəti dövrünə və Qaraqoyunlu ilə Ağqoyunlu sülalələrinin Azərbaycanda siyasi hakimiyyətdə olduqları dövrdə mövcud olan siyasi münasibətlərə bölmək olar.

Azərbaycan taxt-tacına iddialı olan Qaraqoyunlu və Ağqoyunlu bəyliklərinin Məmlük dövləti ilə siyasi münasibətləri, hələ XIV əsrin II yarısından başlanmışdır. Bunun səbəbi Qaraqoyunlu və Ağqoyunlu bəyliklərinin Şərqi Anadolu bölgəsində bir siyasi güc mərkəzi olaraq bu bölgədə baş verən siyasi hadisələrdə aktiv iştirak etməsi idi. Digər tərəfdən Teymurun Azərbaycan və Anadoluya yürüşü Qaraqoyunlu-Məmlük və Ağqoyunlu-Məmlük münasibətlərinin yaranmasını şərtləndirən əsas amillərdən idi.

XIV əsrin II yarısından başlayaraq Əmir Teymurun Ön Asiyanı işğal etmək siyasəti bu bölgədə baş verən siyasi hadisələrdə yeni bir mərhələ açdı. Bu dövrdə Cəlairilər dövlətinin siyasi cəhətdən möhkəm olmaması Toxtamışla Əmir Teymur arasında Azərbaycana yiyələnmək uğrunda gedən mübarizəni asanlaşdırırdı.

Əmir Teymur tərəfindən 1386-cı ildə Azərbaycanın işğal olunmasından sonra Şərqi Anadoluda və Azərbaycanda Teymuri işğalına qarşı mübarizə aparan siyasi qüvvələrin Məmlük dövləti ilə siyasi əlaqələri xeyli gücləndi. Bu dövrdə Şərqi Anadoluda və Azərbaycanda Teymura qarşı mübarizə aparan əsas qüvvələrdən biri Qaraqoyunlu bəyliyi idi[282]. Teymurun Azərbaycana və Anadoluya yürüşü zamanı Qaraqoyunlu bəyliyinin başçısı Qara Məhəmməd idi (1380-1389)[283].

Qərb istiqamətində Əmir Teymurun həyata keçirdiyi işğallar Qaraqoyunlu-Məmlük münasibətlərinin yaranması zərurətini meydana çıxardı. Cağatay hökmdarına qarşı birgə mübarizə zə-

---

[282] V. Piriyev, *Azərbaycan XIII-XIV əsrlərdə,* Bakı, Nurlan, 2003, s.165-166; M. Əsədov, *Azərbaycan XIII-XV əsrin birinci yarısında*., s.23.

[283] Ş. Fərzəlibəyli, *Azərbaycan və Osmanlı imperiyası*., s.6; F. Sümer, *Kara-Koyunlular.,* s.46.

rurəti Qaraqoyunlu bəyliyi ilə Məmlük dövləti arasında siyasi əlaqələrin əsasının qoyulmasına səbəb oldu.

Teymura qarşı mübarizə aparmaq məqsədilə, danışıqlar aparmaq üçün Qara Məhəmməd, h. 787-ci ildə (1385) əmisi Misir Xocanı Qahirəyə göndərdi. Məmlük sarayına gələn Qaraqoyunlu elçisi sultan Bərkukdan "iki düşmənin hücumuna uğradığı üçün himayə və Suriyaya keçməyə icazə istədi". Məmlük tarixçiləri Qara Məhəmmədin bu təklifinin Misir sultanı tərəfindən qəbul edildiyini qeyd edirlər[284]. Qara Məhəmmədin Misir sultanından etdiyi bu xahiş yaxınlaşan Teymur təhlükəsi ilə bağlı idi. Qeyd edilən "ikinci düşmən" isə Teymurun müttəfiqi Ağqoyunlu bəyliyi idi.

Əmir Teymur 1386-cı ilin qışında Qarabağa gələrək, qaraqoyunlular üzərinə yürüşə hazırlaşmağa başladı. Teymurun qaraqoyunlular üzərinə bu yürüşünün əsas səbəbi, Teymurun Qara Məhəmmədə itaət etmək üçün göndərdiyi məktuba Qaraqoyunlu bəyinin rədd cavabı verməsi idi[285]. Bu səbəbdən Teymur 1387-ci ilin yazında qaraqoyunlulara qarşı mübarizəyə başladı. O, qaraqoyunlulara qarşı aparılan mübarizə nəticəsində, Şərqi Anadolunun bəzi ərazilərini və Van bölgəsini işğal etdi. Teymurla döyüşdə qüvvələrinin bir hissəsini itirən Qara Məhəmməd isə məmlüklərin Malatya valisi Mintaşın yanına gəldi[286].

Hadisələrin bu istiqamətdə baş verdiyi bir vaxtda Malatya valisi Mintaşın başçılığı ilə türk əmirləri Sultan Bərkuka qarşı üsyan qaldırdı. Bu üsyanı müdafiə edənlər arasında Sivas-Qayseri hakimi Qazi Bürhanəddin və Qaraqoyunlu əmiri Qara Məhəmməd də var idi. Lakin sonradan Qara Məhəmməd üsyançılardan ayrılaraq Qahirəyə bir elçı heyəti göndərdi (aprel/1389) və Sultan Bərkuka qarşı üsyan edən əmirlərə qarşı mübarizə

---

[284] F. Sümer, *a.g.ə.,* s.48.

[285] F. Sümer, *a.g.ə.*, s.49; İ. Aka, *Timur devri Anadolusu.*, s.229; F. Metsopski, *Teymurləngin və onun xələflərinin tarixi.*, s.12.

[286] M. Əsədov, *Azərbaycan XIII-XV əsrin birinci yarısında.*, s. 24; F. Sümer, *a.g.ə.*, s.51.

aparmaq üçün kömək təklif etdi. Lakin Misir sultanı Qara Məhəmmədin bu təklifini diplomatik şəkildə rədd etdi[287].

Sultan Bərkuka qarşı qaldırılan bu üsyanda (Bu üsyanın nəticəsində Misir sultanı taxtdan salınmışdır-M.A.) Qara Məhəmmədin kömək təklifinin Misir sultanı üçün əhəmiyyəti böyük olsa da, lakin o, Qaraqoyunlu bəyinə etibar etmədiyi üçün onun təklifini rədd etmişdi. Misirin çərkəz hakimiyyətinə qarşı türk əmirlərinin qaldırdığı bu üsyanda Qara Məhəmmədin üsyançılardan ayrılaraq məmlükləri müdafiə etməsi Teymura və digər düşmənlərinə qarşı mübarizədə Məmlük dövlətinin qaraqoyunlular üçün ən etibarlı müttəfiq olması və Qaraqoyunlu bəyinin bu hadisənin hər iki müttəfiq arasındakı münasibətlərə xələl gətirəcəyindən ehtiyat etməsi idi.

Azərbaycanda siyasi hakimiyyət uğrunda mübarizəyə aktiv şəkildə qoşulan Qara Məhəmməd Teymurun Mavəraünnəhr dönməsindən istifadə edərək 1388-ci ilin may ayında Təbrizə gəlib Cəlairi əmirlərini məğlub etdi və şəhərə hakim oldu. Qaraqoyunlu bəyi Təbrizi tutduqdan sonra Qahirəyə bir elçi göndərərək Təbrizi tutması, orada sultan Bərkuk adına xütbə oxutdurub sikkə kəsdirməsi haqqında məlumat verdi və Məmlük sultanından onu himayə etməyi xahiş etdi. Misir sultanı elçi vasitəsilə Qara Məhəmmədə təşəkkür edərək onun xahişini qəbul etdi[288].

Qara Məhəmməd Təbrizi tutduqdan sonra türkman əmiri Pir Həsənlə arasında ixtilaf yarandı və 1389-cu ilin aprel ayında baş verən münaqişədə öldürüldü. Qara Məhəmmədin ölümündən sonra Qaraqoyunlu bəyliyinin başına onun oğlu Qara Yusif (1389-1420) keçdi[289].

XIV əsrin sonlarında Şərqi Anadolunun Diyarbəkr bölgəsində yaşayan ağqoyunlular da bu bölgədə baş verən siyasi hadisələrdə aktiv iştirak edirdilər. Bu dövrdə Ağqoyunlu bəyliyi ilə

---

[287] R. Yinanç, *Dulkadir beyliği.*, s.30; İ. Yiğıt, *İslam tarihi,* VII c., s.101; F. Sümer, *a.g.ə.*, s.53.

[288] F. Sümer, *a.g.ə.,* s.52.

[289] Ə. Tehrani, *Kitabi-Diyarbəkriyyə.*, s.51; F. Sümer, *a.g.ə.*, s.53-54.

Misir Məmlük dövləti arasında da siyasi münasibətlər mövcud idi. Əmir Teymurun Şərqi Anadoluya yürüşü dövründə qaraqoyunlulardan fərqli olaraq Ağqoyunlu bəyliyinin Cağatay hökmdarını müdafiə etməsi Ağqoyunlu-Məmlük siyasi münasibətlərində ciddi problemlər yaradırdı.

Teymurun yürüşləri dövründə ona qarşı yaradılan hərbi ittifaqın aparıcı üzvlərindən biri olan Kayseri-Sivas hakimi Qazi Bürhanəddinin ağqoyunlu Osman bəy tərəfindən öldürülməsi ağqoyunlulara qarşı osmanlıların və məmlüklərin münasibətini bir qədər də kəskinləşdirdi. Bu səbəbdən Osmanlı ordusu ağqoyunlulara qarşı yürüşə başladı. Osmanlılara qarşı mübarizə aparacaq gücdə olmayan Osman bəy məcburiyyət qarşısında qalaraq münasibətləri heç də yaxşı olmayan Sultan Bərkukdan ona himayə etməyi xahiş etdi. Mısir sultanı Ağqoyunlu bəyinin bu təklifini məmnuniyyətlə qəbul edərək ona bir "amannamə" və 50.000 gümüş dirhəm göndərdi[290]. Lakin 1399-cu ildə Sultan Bərkukun ölümündən sonra Məmlük sarayında baş verən siyasi çəkişmələr Osman bəyin Məmlük dövlətinə olan ümidlərini puça çıxardı və özünə yeni müttəfiq axtarmağa başladı[291].

Göründüyü kimi, Məmlük sultanı Bərkukun Ağqoyunlu bəyinin itaət təklifini qəbul etməsi bu dövrdə osmanlıların məmlük ərazilərinə etdiyi hərbi yürüşləri ilə bağlı idi. Məmlük sultanı Osmanlı-Ağqoyunlu ziddiyyətlərindən istifadə edərək ağqoyunlulardan Osmanlı imperiyasına qarşı istifadə etməyə çalışırdı. Lakin məmlüklərlə ağqoyunluların qısamüddətli bu siyasi əməkdaşlığı nəticəsiz qaldı.

Teymur 1399-cu ildə qərb istiqamətində növbəti yürüşünə başladı və Qarabağa gəldi[292]. Həmin ilin sonlarında Osman bəy Qarabağda olan Əmir Teymurun yanına gələrək yenidən ona öz

---

[290] S. Tansel, *Yeni vesikalar karşısında sultan II Bayasit hakkında bazi mutalazlar*, Türk Tarih Kurumu, bel., c. XXVII, Nisan, 1963, s.28.

[291] Ə. Tehrani, *Kitabi-Diyarbəkriyyə.*, s.53; İ. Aka, *Timur devri Anadolusu.*, s. 230; H. Yınanç, *Akkoyunlular.*, s.28; *Doğuştan günümüze Büyük İslam tarihi.*, s.515.

[292] N. Şami, *Zəfər-namə.*, s.18

itaətini bildirdi. Bu dövrdən etibarən ağqoyunlular Teymurun Anadoluda apardığı hərbi yürüşlərdə onun müttəfiqi və bu yürüşlərin iştirakçısı oldu.

Bu ərəfədə Qaraqoyunlu Yusif bəylə Cəlairi Sultan Əhməd Teymurun Sivasa doğru getmək niyyətində olduğunu görərək məmlüklərdən kömək almaq üçün Hələb istiqamətində hərəkət etdilər. Həmçinin Məmlük sultanı Fərəcə elçi göndərərək onları qəbul etməyi xahiş etdilər. Hələb ətrafına catdıqda şəhər naibi Dəmirtaş onlara irəliləməyə icazə verməyərək Hama naibi Toxmaqla birlikdə Qaraqoyunlu bəyinə və Cəlairi sultanına qarşı döyüşə başladı. Bu döyüşdə Hələb naibi Dəmirtaş məğlub oldu. Bu hadisədən sonra məmlüklərdən yardım istəməyin mənasız olduğunu görən hər iki hökmdar Osmanlı sarayına getməyə qərar verdi[293].

Sultan Əhməd və Qara Yusif Osmanlı sarayında olduğu müddətdə Teymur dəfələrlə "onların təslim edilməsini, bu olmadıqda ölkədən çıxarılmasını" tələb etsə də, sultan Bəyazid bu təklifi rədd etmiş və ona "bir qonağın qovulmasını amansızlıq və imansızlıq olduğu" cavabını vermışdir[294].

Teymur tərəfindən 1401-ci ildə Bağdadın, sonra isə Suriyanın işğal edilməsi, 1402-ci ildə isə Ankara döyüşündə osmanlıları ağır məğlubiyyətə uğratması, Qara Yusifi bölgədə Cağatay hökmdarına qarşı yeganə siyasi güc mərkəzi olan Misir məmlükləri ilə əlaqələri daha da gücləndirməyə vadar edirdi. Belə bir şəraitdə hər iki hökmdarın siyasi əlaqələri gücləndirməsi onların siyasi maraqlarını tamamilə təmin edirdi.

Qara Yusif 1403-cü ildə Teymurun qoşunu ilə döyüşdə məğlub olaraq Şama gəldi və burada Şam naibi Şeyx əl-Mahmudi tərəfindən hörmətlə qarşılandı. Bu xəbər Qahirəyə çatdıqda Misir Sultanı Şam naibinə bir elçi göndərib Qara Yusifi Qahirəyə gön-

---

[293] İ. Aka, *Timur devri Anadolusu.*, s.231; F. Sümer, *Kara-Koyunlular.*, s.61.

[294] S. Əhmədov, *Azərbaycan tarixinin yüz şəxsiyyəti,* Bakı, Ayna, 2006, s.75; П. Горгиджанидзе, *История Грузии.*, с.46; F. Sümer, *a.g.ə.,* s.63; Ş. Fərzəlibəyli, *Azərbaycan və Osmanlı imperiyası.*, s.7-9.

dərməyi tələb etdi. Lakin Şeyxin xahişindən sonra Misir sultanı Qaraqoyunlu bəyinin Dəməşqdə qalmasına razılıq verdi[295].

Bir müddət sonra (21noyabr/1403) Teymurdan qaçan Cəlairi Sultan Əhməd də Şama gəlməyə məcbur oldu. Məmlük sultanı Teymurun Misirə yürüşündən ehtiyat edərək onların həbsi barədə göstəriş verdi. 1404-cü il yanvarın 10-da Şeyx əl-Mahmudi hər iki hökmdarı həbs etdi[296].

Bu zaman Əmir Teymur elcisi Xoca Məsudu Qahirəyə göndərərək Qara Yusifin edam edilməsini, Əhməd Cəlairi isə ona göndərməsini tələb etdi[297]. Teymurun bu tələbindən sonra fevral ayında (1404) Qahirədən gələn yeni bir fərmanla onların öldürulməsi hökmü verildi. Lakin Şam valisi bu fərmanı icra etmədi[298].

Məmlük əmiri Yaşbəy 1404-cü ilin dekabr ayında Sultan Fərəci taxtdan endirmək üçün Qahirədə üsyan qaldırdı. Şam valisi Şeyx və  Hələb valisi Çəkəm də bu üsyanda iştirak edirdi. Şeyx üsyançılara kömək etmək üçün 1405-ci ilin aprel ayında Qara Yusif və Sultan Əhmədi həbsdən azad etdi. Lakin Sultan Əhməd bu üsyana qatılmayaraq Şam şəhərini tərk etdi. Qara Yusif isə 500 atlı ilə üsyançılara kömək etmək qərarına gəldi[299]. Qara Yusif sona qədər üsyançılara kömək etsə də, lakin sonradan Şam naibi Şeyxlə aralarında yaranan anlaşılmamazlıq səbəbindən 1405-ci ilin iyul ayında yanındakı türkmanlarla birlikdə öz ölkəsinə geri döndü [300].

---

[295] K. Kopraman, *Misir Memlükleri tarihi.*, s.33; Дж. Ибрагимов, *Феодальные государства на территории Азербайджана* XV века, Баку, Изд. Азерб. Педогог. Университета, 1962, с.26.

[296] F. Sümer, *a.g.ə.*, s.66; K. Kopraman, *Misir Memlükleri tarihi.*, s.33.

[297] N. Şami, *Zafername.*, s.348; F. Sümer, *a.g.ə.*, s.66.

[298] Ə. Tehrani, *Kitabi-Diyarbəkriyyə.*, s.58; İ. Uzunçarşılı, *Anadolu beylikleri və Akkoyunlu, Karakoyunlu devletləri*, Ankara, TTK Basımevi, 1969, s.181.

[299] F. Sümer, *a.g.ə.*, s.68;  İ. Uzunçarşılı, *a.g.ə.*, s.181; R. Yinanç, *Dulkadir beyliği.*, s.36-37.

[300] K. Kopraman, *Misir Memlükleri tarihi.*, s.44; F. Metsopski, *Teymurləngin və onun xələflərinin tarixi.*, s.22.

Şamda həbsdən azad edildikdən sonra Sultan Əhməd və Qara Yusif Azərbaycanda siyasi hakimiyyət uğrunda mübarizəyə başladılar.

Əmir Teymurun vəfatından sonra (1405) vaxtilə teymuri işğalı nəticəsində ələ keçirilən və geniş bir ərazini əhatə edən böyük bir imperiya dağılmağa başladı. Azərbaycan hərc-mərlik, siyasi çəkişmələr meydanına çevrildi[301].

Uzun sürən mübarizədən sonra Qara Yusif, teymurilərın və Cəlairi sülaləsinin hökmdarı Sultan Əhmədin Azərbaycanda siyasi hakimiyyətinə son qoyaraq Azərbaycanda Qaraqoyunlu sülaləsinin hakimiyyətinin əsasını qoydu (1410).

Azərbaycanda qaraqoyunluların hakimiyyətə gəlməsi ilə Azərbaycan-Misir siyasi münasibətlərində yeni bir mərhələ başlandı. Bu dövrdən etibarən tərəflər arasındakı münasibətlər, dövlətlərarası siyasi münasibətlər formasında təzahür etməyə başladı.

Qaraqoyunlu sülaləsinin hakimiyyətə gəlməsindən sonra Azərbaycan-Misir əlaqələrində müəyyən dəyişikliklər baş verdi. Qara Yusifin dövlətin sərhədlərini cənub-qərb istiqamətində genişləndirmək üçün atdığı addımlar Qaraqoyunlu dövlətini Məmlük dövlətinin siyasi rəqibinə çevirmişdi. Məmlük sultanları Qaraqoyunlu təhlükəsinin qarşısını almaq üçün qaraqoyunluların rəqibi olan Ağqoyunlu bəyliyindən istifadə etməyə çalışırdılar. Bu məqsədlə Məmlük hakimiyyəti Qaraqoyunlu dövlətinə qarşı birgə mübarizə aparmaq üçün Şərqi Anadoluda böyük siyasi güc mərkəzinə çevrilmiş və Azərbaycanda hakimiyyət uğrunda mübarizə aparan Ağqoyunlu bəyliyi ilə danışıqlar aparırdı. Əmir Teymurun ölümündən sonra bölgədə güclü müttəfiqini itirən Ağqoyunlu bəyi Qara Osman da məmlüklərin təklif etdiyi bu ittifaqda maraqlı idi və bu ittifaq onun siyasi maraqlarına cavab verirdi.

---

[301] Ş. Fərzəlibəyli, *Azərbaycan və Osmanlı imperiyası.*, s.10; M. Əsədov, *Azərbaycan XIII-XV əsrin birinci yarısında.*, s.20.

Bu dövrdə Qaraqoyunlu dövləti Məmlük dövləti ilə siyasi münasibətləri gərginləşdirməmək üçün diplomatik addımlardan istifadə etməyə çalışırdı. Bu məqsədlə 1411-ci ildə Qara Yusif Əlbistanda olan Misir sultanı Fərəcin yanına bir elçilik göndərmişdi. Bu elçi heyətinin hansı məqsədlə gəldiyi haqqında məlumatlar cox məhduddur[302]. Lakin qeyd etmək lazımdır kı, həmin ildə qaraqoyunlularla ağqoyunlular arasında Amiddə və Mardin bölgəsində döyüşlər gedirdi. Ehtimal ki, bu danışıqların məzmununu, Qaraqoyunlu hökmdarının ağqoyunlulara qarşı Misir sultanından kömək almaq istəyi təşkil etmişdi. Eyni zamanda bu danışıqlarda sultan Fərəc Suriyada ona qarşı qalxmış üsyanı yatırtmaq üçün qaraqoyunluların köməyindən yararlanmağa çalışmışdı.

Trablis naibi Novruz və Hələb naibi Şeyx əl-Mahmudi, 1411-ci ilin dekabr ayında Məmlük sultanı Fərəci taxtdan endirmək üçün mübarizəyə başladı[303]. Şeyx sultan Fərəcə qarşı bu mübarizədə Qara Yusifdən kömək almaq üçün Əhməd əl-Cəngini onun yanına göndərdi. Eyni zamanda Trablis naibi Novruz da elçisi Pəhləvanı hədiyyələrlə birlikdə Qara Yusifin yanına göndərdi[304].

Sultan Fərəc də bu üsyanı yatırtmaq üçün Qaraqoyunlu, Zülqədər və Ağqoyunlu bəylərindən yardım istəmiş, lakin bu təşəbbüslər nəticəsiz qalmışdı[305].

Sultan Fərəclə üsyançılar arasında h. 815-ci il məhərrəm ayının 13-də (25 aprel/1412) əl-Laccun deyilən yerdə baş verən döyüşdə sultan ağır məğlubiyyətə uğrayaraq Dəməşqə qaçdı. O, səfər ayının 16-da (28 may/1412) Dəməşq qalasında həbs edilərək taxtdan salındı və xəlifə əl-Müstəin Billahın fitvası ilə öldürüldü[306].

---

[302] M. Əsədov, *Azərbaycan XIII-XV əsrin birinci yarısında.*, s.24.
[303] İ. Yiğıt, *İslam tarihi.*, s.108; *Doğuştan günümüze Büyük İslam tarihi.*, s.516.
[304] K. Kopraman, *Misir Memlükleri tarihi.*, s.98.
[305] R. Yinanç, *Dulkadir beyliği.*, s.40.
[306] K. Kopraman, *a.g.ə.*, s.104.

Sultan Fərəcin ölümündən sonra 1412-ci ilin may ayında Abbasi xəlifəsi Əl-Adil əl-Müstəin Billah Misir sultanı oldu. Abbasi Xəlifəsi Misir sultanı olsa da, Məmlük hakimiyyəti uğrunda mübarizə davam edirdi. Uzun mübarizədən sonra Dəməşq naibi Şeyx Müəyyəd əl-Mahmudi bütün rəqiblərinə qalib gələrək (6 noyabr/1412) Məmlük hökmdarı elan olundu[307].

Göründüyü kimi, məmlük taxt-tacı uğrunda gedən mübarizədə Qaraqoyunlu hökmdarı Misir sultanının ondan kömək istəyini rədd etmiş və əksinə hərəkət edərək üsyançıları müdafiə etmişdir. Çünki Qara Yusifin Qaraqoyunlu dövlətinin hüdudlarını cənub-qərb istiqamətində genişləndirmək cəhdləri Məmlük dövləti tərəfindən ciddi müqavimətlə qarşılanırdı. Buna görə də Qara Yusif Məmlük sultanının əleyhdarlarını müdafiə etməklə məmlüklər arasında hakimiyyət uğrunda gedən mübarizənin dərinləşməsində və Misir dövlətinin zəifləməsində maraqlı olmuşdu. Digər tərəfdən Qaraqoyunlu hökmdarı keçmiş müttəfiqi Şeyx əl-Mahmudinin Misir taxtına iddialarını müsbət qarşılayırdı.

Şeyx əl-Mahmudi Misir taxtına oturduqdan sonra onun Qara Yusiflə ənənəvi dostluq münasibətləri tərəflərin siyasi mənafeləri ilə əvəz olundu. Bu dövrdə bölgədə baş verən siyasi hadisələr hər iki hökmdarı dostluq münasibətlərindən daha çox mənsub olduqları dövlətin siyasi maraqlarını qorumağa vadar edirdi.

1415-ci il iyulun 26-da Misir sultanı Şeyx Dəməşq naibi Qanıbəyin üsyanını yatırtmaq üçün Suriyaya yürüş etdi[308]. Sultan Hələbdə olarkən Ağqoyunlu bəyi Qara Osman, oğlu Əbu Səidi elçi olaraq ora göndərdi. Hələbə gələn Əbu Səidin məqsədi Misir sultanını Qanıbəyin üsyanını yatırtmaq münasibətilə təbrik etmək idi. Sultan Şeyx ramazan ayının 24-də (27 noyabr/1415) Əbu Səidi hədiyyələrlə geri göndərmişdi[309].

---

[307] K. Kopraman, *a.g.ə.*, s.113; L. Stanley, *History of Egypt in the middle ages.*, p.334.
[308] K. Kopraman, *a.g.ə.*, s.150.
[309] K. Kopraman, *a.g.ə.*, s.192.

Tarixçi əl-Məqrizinin yazdığına görə sultan Şeyx hələ Hələbdə olarkən Qara Yusifin də elçisi ora gəlmişdi[310]. Tarixçi, bu elçinin gəliş səbəbi haqqında məlumat verməsə də, ehtimal etmək olar ki, Qaraqoyunlu elçisinin Hələbə gəlişi Şeyxi təbrik etmək məqsədi daşımışdı.

Bu dövrdə Şərqi Anadoluda qaraqoyunlularla ağqoyunlular arasında mübarizə getdikcə güclənirdi. Ağqoyunlular 1416-cı ilin ortalarında (iyun-iyul/1416) Ərzincana hücum etmiş və ağqoyunlulara qarşı mübarizə aparmaq üçün Ərzincan hakimi Pir Ömər Qara Yusifdən kömək istəmişdı. Pir Ömərin köməyinə gələn Qaraqoyunlu İskəndər Qara Osmanı məğlub edərək qaçmağa məcbur etmişdi[311].

Ağqoyunluların Ərzincana hücumu vaxtı Qara Yusif (27 noyabr/1416) Pir Ömərin elçisi ilə birlikdə Qahirəyə Dəniz adlı bir elçi göndərmişdi. Qaraqoyunlu elçisinin bura nə məqsədlə gəlməsi haqqında heç bir məlumat yoxdur[312]. Çox ehtimal ki, Misir dövlətinə göndərilən bu elçinin məqsədi Ərzincana hücum edən ağqoyunlulara qarşı məmlüklərdən kömək almaq idi.

Misir sultanı Şeyx əl-Mahmudi 1417-ci il martın 23-də türkmanların nəzarətində olan Malatya, Darendə və digər əraziləri geri qaytarmaq, ölkənin şimal əyalətlərində işləri yoluna qoymaq üçün növbəti dəfə Suriyaya səfər etdi. Bu yürüş zamanı Misir sultanının yanında olan şəxslər arasında Qara Yusifin və Pir Ömərin elçiləri də olmuşdu[313].

Məmlük hökmdarı Şeyx əl-Mahmudi Suriya səfəri zamanı Əlbistanda olarkən yanında olan qaraqoyunlu elçisini öz elçisi ilə birlikdə geri göndərdi. Qaraqoyunlu sarayına gələn bu elçi

---

[310] K. Kopraman, *a.g.ə.*, s.192.

[311] F. Sümer, *Kara-Koyunlular.*, s.96; F. Metsopski, *Teymurləngin və onun xələflərinin tarixi.*, s.24.

[312] K. Kopraman, *a.g.ə.*, s.193.

[313] K. Kopraman, a.g.ə., s.152; F. Sümer, *a.g.ə.*, s.97.

sultanın dostluq məktubunu və qiymətli hədiyyələri Qara Yusifə təqdim etmişdi[314].

Qara Yusif h. 820-ci ildə (1417), Anadolu istiqamətində ağqoyunlulara qarşı yürüşə başladı[315]. Qara Yusif bu yürüşü ərəfəsində (11 avqust/1417) məmlük sarayına Həmid əd-Dinin rəhbərliyi ilə bir elçi heyəti göndərdi. Qahirədə böyük hörmətlə qarşılanan qaraqoyunlu elçisi, Qara Yusifin məktubunu Şeyxə təqdim etmişdi. Qara Yusif sultan Şeyxə göndərdiyi bu məktubda Məmlük sultanını ağqoyululara qarşı hücuma hazırlaşdığından xəbərdar etmişdi[316].

Qaraqoyunluların hücum xəbərini eşidən Ağqoyunlu Osman bəy də, oğlu Həmzəni məktub və hədiyyələrlə Misir sultanının yanına göndərdi və ondan qaraqoyunlulara qarşı kömək istədi. Sultan Şeyx Ağqoyunlu elçilərini hörmətlə qarşilasa da, Ağqoyunlu bəyinin xahişinə müsbət cavab vermədi[317].

Məmlük sultanı Hələb istiqamətində hərəkət edərkən (8 sentyabr 1417) Hələb naibi Qoçqar sultana məktub göndərərək Qara Yusifin ağqoyunluları məğlub etdiyini və məmlük sərhədlərinə doğru irəlilədiyini xəbər verdi. Bu xəbərdən təşvişə düşən Misir sultanı sentyabr ayının 16-da (16 sentyabr/1417) Hələb şəhərinə gəldi[318].

Misir sultanı Hələbdə olarkən, h. 820-ci il rəcəb ayının 20-də (31 sentyabr/417) Qara Yusif, elçisi Həmid əd-dini Sultan Şeyxin yanına göndərdi. Hələb şəhərinə gələn Qaraqoyunlu elçisi, Qara Yusifin ağqoyunlular üzərindəki qələbə xəbərini Misir sultanına çatdırdı. Sultan Şeyx bu xəbərdən məmnun olmasa da, elçini hörmətlə qəbul etmiş və qiymətli hədiyyələrlə yola salmışdı[319].

---

[314] K. Kopraman, a.g.ə., s.193.
[315] F. Sümer, a.g.ə., s.97; F. Sümer, *Akkoyunlular.*, s.11.
[316] K. Kopraman, *a.g.ə.*, s.194.
[317] K. Kopraman, *a.g.ə.*, s.194.
[318] F. Sümer, *Kara-Koyunlular.*, s.97.
[319] K. Kopraman, *a.g.ə.*, s.195; F. Sümer, *a.g.ə.*, s.97.

Qaraqoyunluların ağqoyunlular üzərində qələbəsindən sonra Qara Yusiflə Qara Osman arasında sülh bağlandi. Razılaşmaya görə Qara Osman Mardinin şimal-qərbində yerləşən Saur qalasını qaraqoyunluların ixtiyarına verdi və əvəzində 1.000.000 dirhəm, 100 at və 100 dəvə aldı[320]. Ağqoyunlularla qaraqoyunlular arasında bağlanan sülh razılşmasından məmnun qalan Misir sultanı ölkənin şimal sərhədlərində qayda-qanun yaradaraq Misirə qayıtdı.

Göründüyü kimi, Misir sultanının Suriya səfəri dövründə Qaraqoyunlu və Ağqoyunlu hökmdarları ilə məmlüklər arasında diplomatik əlaqələr daha da güclənmişdi. Bu əlaqələr istər məmlüklərin, istərsə də Qaraqoyunlu və Ağqoyunlu hökmdarlarının siyasi maraqlarından irəli gəlirdi. Belə ki, Məmlük sultanı Şeyx başa düşürdü ki, dövlətin şimal sərhədlərində sabitlik yaratmaq üçün Şərqi Anadoluda böyük siyasi nüfuza malik olan qaraqoyunlu və ağqoyunlularla münasibətləri mühkəmləndirmək lazımdır. Eyni zamanda Qaraqoyunlu və Ağqoyunlu hökmdarları da öz aralarında gedən siyasi mübarizədə məmlüklərin köməyini əldə etməyə çalışırdılar. Bu amillər qeyd olunan siyasi hakimiyyətlərin əməkdaşlığını zəruri edirdi.

Qaraqoyunlularla ağqoyunlular arasında əldə olunan razılaşma uzun sürmədi. Ağqoyunlu Osman bəy teymuri Şahruxun və Misir sultanının təhriki ilə 1418-ci ilin iyul ayında qaraqoyunlulara qarşı Mardin istiqamətində yürüşə başladı. Bundan xəbər tutan Qara Yusif ağqoyunlulara qarşı hücuma keçərək Amid yaxınlığında onları məğlub etdi. Qaraqoyunlular tərəfindən təqib edilən Osman bəy məcburiyyət qarşısında qalaraq Hələb naibinə sığındı. Qara Yusif yürüşü davam etdirərək məmlüklərin nəzarətində olan Antəp bölgəsinə gəldi. Misir sultanından icazəsiz qaraqoyunluların Məmlük torpağına girməsi, Qahirədə böyük təşvişə səbəb oldu. Sultan Şeyx əl-Mahmudi Qara Yusifin Suriya üzərinə də yürüşündən ehtiyat edərək, hətta Həcc səfərini təxirə

---

[320] F. Sümer, *a.g.ə.*, s.97; R. Yinanç, *Dulkadir beyliği.*, s.43.

saldı və qaraqoyululara qarşı yürüşə hazırlaşmağa başladı. Bu zaman Qara Yusif Hələb naibi Yaşbəyə və sultan Şeyxə məktub göndərərək Ağqoyunlu Osman bəyi cəzalandırmaqdan başqa məqsədi olmadığını bildirərək Suriyaya girməmək haqda təminat verdi. Həmçinin bu məktubda Qara Yusif məmlüklərin ağqoyunluları himayə etməsinə ciddi etirazını bildirmişdi. Qara Yusif bu səfər əsnasında Şeyxin Osman bəyi himayə etməsi səbəbindən məmlüklərə məxsus Birə bölgəsinə də hücum etmişdi. Qaraqoyunlu hökmdarı ölkəsinə dönərkən Məmlük sultanına növbəti bir məktub yazaraq "bu hücumların öz ixtiyarı xaricində olduğunu" bildirmiş və Ağqoyunlu bəyini himayə etməsinin sonrakı nəticələrindən çəkinməsini tövsiyə etmişdi[321].

Göründüyü kimi, Qaraqoyunlu-Ağqoyunlu ziddiyyətlərindən məmlüklər məharətlə istifadə etməyə çalışmış, dövlət sərhədlərinin təhlükəsizliyini təmin etmək üçün ağqoyunlulardan sipər kimi istifadə etmişlər.

Bu dövrdə ağqoyunlular üzərində bir neçə qələbə çalan Qaraqoyunlu hökmdarı Qahirə ilə siyasi münasibətlərində diktə edən tərəf kimi çıxış edirdi. Əgər əvvəllər Qara Yusifin Misir sarayına göndərdiyi məktublarda, daha çox dövlətlərarası münasibətləri gərginləşdirməmək meyli hiss olunurdusa da, lakin sonradan göndərilən məktublarda, artıq bir sıra siyasi tələblər irəli sürülürdü.

Misir hakimiyyətini təhdidedici məktublarla hədələyən Qara Yusif, 1420-ci ilin mart ayında Misir sultanına növbəti bir məktub göndərdi. O, bu məktubda Şeyxdən Dəməşqdə həbsdə olduğu zaman (1404) ondan aldığı qiymətlə əşyaları tələb etmiş, əks halda ölkəsinə hücum etməsi ilə hədələmişdi[322].

Qaraqoyunluların əldə etdiyi hərbi və siyasi üstünlük, Qahirəyə göndərilən təhdidedici məktublar, artıq Misir siyasi hakimiyyətində ciddi narahatçılığa səbəb olmuşdu. Həmçinin Qara

---

[321] F. Sümer, *Akkoyunlular.*, s.11; F. Sümer, *Kara-Koyunlular.*, s.100-101.
[322] Ə. Tehrani, *Kitabi-Diyarbəkriyyə.*, s.58; K. Kopraman, *Misir Memlükleri tarihi.*, s.198; F. Sümer, *Kara-Koyunlular.*, s.104.

Yusifin Suriyaya yürüşə hazırlaşması haqqında Misir sarayına gələn məlumatlar, Şeyxi qaraqoyunlulara qarşı ciddi tədbirlər görməyə vadar edirdi.

Teymuri hökmdarı Şahruxun qaraqoyunlular üzərinə yürüşə başladığı bir vaxtda Məmlük sultanı da Qaraqoyunlu dövlətinə qarşı müharibəyə hazırlaşırdı. Bu məqsədlə 1420-ci il avqustun 14-də Misir sarayında məmlük əmirlərinin, xəlifə və dörd məzhəb qazisinin iştirak etdiyi yığıncaqda qaraqoyunlulara qarşı müharibəyə fitva verildi və döyüş hazırlıqlarına başlandı[323].

Şahruxun Azərbaycana yürüşündən iki gün əvvəl (23 avqust/1420) Məmlük ordusu Qara Yusifə qarşı Suriya istiqamətində yürüşə başladı. Bu ərəfədə gözlənilmədən Qara Yusifin Ucan bölgəsində vəfat etməsi (13 noyabr/1420), qaraqoyunlularla məmlüklər arasında baş verəcək hərbi münaqişəni təxirə saldı Bu vaxt Hisn-Keyfə hakimi Suleyman Qara Yusifin ölüm xəbərini Qahirəyə çatdırdı və Məmlük ordusu qaraqoyunlulara qarşı hərbi yürüşü dayandırdı[324].

Qara Yusifin ölümündən sonra Azərbaycanla Məmlük dövləti arasındakı siyasi münasibətlərdə yaxınlaşma meylləri güclənməyə başladı. Artıq Misir sultanları teymurilərin aramsız hücumlarına məruz qalan və daxili siyasi çəkişmələr burulğanına düşən Qaraqoyunlu hakimiyyətini ciddi təhlükə hesab etmirdilər. Digər tərəfdən Diyarbəkr ətrafında yerləşən ərazilərini getdikcə genişləndirən Ağqoyunlu Osman bəy tədricən Şərqi Anadoludakı ticarət yollarını və strateji məntəqələri öz nəzarəti altına almışdı. Artıq bölgədə ciddi güc mərkəzinə çevrilən Ağqoyunlu bəyliyi Misir dövləti üçün ciddi təhlükə yaradırdı. Məhz bu səbəblər Misir dövlətini Qaraqoyunlu dövləti ilə siyasi əlaqələri bərpa etməyə məcbur edirdi. Bu səbəbdən Məmlük dövləti Qaraqoyunlu hökmdarı Qara İsgəndərə həmişə siyasi yardım göstərmiş, ona ağqoyunlulara və teymurilərə qarşı mübarizədə kömək etmişdi.

---

[323] F. Sümer, *Kara-Koyunlular.*, s.104.

[324] İ. Yiğıt, *İslam tarihi.*, s.158; K. Kopraman, *a.g.ə.,* s.198.

Qaraqoyunlu hökmdarı İsgəndər Şənbi-Qazan döyüşündə (25 sentyabr/1429) Şahruxa məğlub olduqdan sonra Səlmasa çəkilmiş və oradan Rum hüdudlarına getmişdi[325]. Bu zaman o, Misir sultanı Barsbəyin yanına gəlmiş və hörmətlə qarşılanmışdı[326].

Bu dövrdə qaraqoyunlulardan fərqli olaraq Ağqoyunlu-Məmlük münasibətləri getdikcə gərginləşirdi. Hələ 1421-ci ilin iyul ayında Van gölü ətrafında Şahruxun qoşunu ilə birlikdə qaraqoyunlulara qarşı vuruşan Osman bəy qisa zamanda Urfa, Ərzincan, Bayburt, Tərcan, Qara-Hisar, Xarput ərazilərini ələ keçirmişdi[327].

Məmlük dövlətinin sərhədlərinə yaxınlaşan ağqoyunlulara qarşı Sultan Barsbəy, 1429-cu ildə Hələb naibi Tağrıbirmişin komandanlığı altında Ruhaya qoşun göndərmişdi. Bu döyüşdə ağqoyunlular məğlub olmuş, Qara Osmanın oğlu Habil bəy əsir alınaraq Qahirəyə aparılmışdı[328]. Bundan sonra məmlüklərlə ağqoyunlular arasında sülh razılaşması əldə olunmuşdu. Məmlük-Ağqoyunlu razılaşmasına əsasən, Osman bəy Barsbəyin adına xütbə oxutdurub sikkə kəsdirərcək, Hisn Keyfə Əyyubi dövlətinin ərazi bütövlüyünü qəbul edəcəkdir. Sultan Barsbəy isə Osman bəyi Ağqoyunlu hökmdarı kimi tanıyacaqdı. Lakin Osman bəy bu razılaşmanı pozaraq mütəmadi olaraq məmlük ərazilərinə yürüşlərini davam etdirirdi[329].

Azərbaycana üçüncü yürüşə başlayan Şahrux (1434), Azərbaycana daxil olarkən Qaraqoyunlu hökmdarı İsgəndər ona qarşı ciddi müqavimət göstərsə də, lakin məğlub olaraq (1435) Ruma tərəf çəkildi. Qaraqoyunlular geri çəkilərkən onların qarşısını kəsmək istəyən Ağqoyunlu Osman bəy döyüşdə öldürül-

---

[325] M. Solakzadə, *Tarix.*, s.10; F. Metsopski, *Teymurləngin və onun xələflərinin tarixi.*, s.27.
[326] M. Əsədov, *Azərbaycan XIII-XV əsrin birinci yarısında*, s.24; İ. Yiğıt. *İslam tarihi.*, s.114.
[327] F. Sümer, *Akkoyunlular.*, s.13.
[328] Ə. Tehrani, *Kitabi-Diyarbəkriyyə.*, s.76-77; F. Sümer, *Akkoyunlular.*, s.13.
[329] R. Yinanç, *Dulkadir beyliği.*, s.48.

dü[330]. İsgəndər Osman bəyin başını kəsərək Məmlük sultanına göndərdi. Osman bəyin ölümündən çox sevinən Sultan Barsbəy, İsgəndərə on min dinar dəyərində hədiyyə göndərərək ona kömək edəcəyini vəd etdi[331].

Rum ölkəsindən Azərbaycana qayıdaraq hakimiyyət uğrunda qardaşı Cahanşahla mübarizəyə başlayan İsgəndər Təbriz yaxınlığında döyüşdə məğlub olaraq (mart 1436) Əlincə qalasına gəldi. Cahanşah Əlincə qalasını mühasirəyə aldıqdan sonra İsgəndər müttəfiqi Sultan Barsbəyə müraciət edərək yardım istədi. Bu zaman Məmlük qoşunu İsgəndər Mirzəyə kömək etmək üçün Diyarbəkr istiqamətində hərəkət etdi[332]. Bu barədə Əbubəkr Tihrani yazırdı: "Əmirzadələrdən Cahangir Mirzə Sultan Əşrəfin lütf göstərəcəyi ümidi ilə oraya getdi və şahlara layiq hörmət gördu... Sonra Qara Yusifin oğlu İsgəndərlə aralarında olan sazişə görə Şam və Misirdən əlli min atlı Diyarbəkrə göndərdi ki, Əlincə qalasına getsinlər və Cahanşah Mirzənin mühasirəsində olan İsgəndəri xilas etsinlər..."[333].

Əmir Qorxmazın komandanlığı altında Ərzincana qədər gələn Məmlük ordusu bu arada Misir sultanı Barsbəyin ölüm xəbərini eşidərək yürüşü dayandırıb geri döndü. Çox keçmədən Qaraqoyunlu hökmdarı İsgəndər də oğlu Şahbudaq tərəfindən öldüruldü[334]. Bununla da Qaraqoyunlu hakimiyyəti uğrunda uzunmüddət davam edən siyasi mübarizə Cahanşahın qələbəsi

---

[330] R. Ağayev, *Azərbaycan və Mərkəzi Asiya dövlətlərinin qarşılıqlı münasibətləri.*, s.59; F. Metsopski, *Teymurləngin və onun xələflərinin tarixi.*, s.33.
[331] F. Sümer, *Akkoyunlular*, s.14; S. Cöhçe, Otlukbeli savaşına kadar Akkoyunlular, *Türkmen Akkoyunlu imparatorluğu: siyasal, sosyal ve kültürel tarihine ilişkin makaleler antolojisi.*, Ankara, 2003, s.270; H. Yınanç, *Akkoyunlular.*, s.30-31.
[332] F. Metsopski, *Teymurləngin və onun xələflərinin tarixi.*, s.34; T. Cəfiyev, *Azərbaycanın feodal dövlətləri XV-XVI əsrin birinci rübündə.*, s.23.
[333] Ə. Tehrani, *Kitabi-Diyarbəkriyyə.*, s.92.
[334] Ə. Tehrani, *a.g.ə.,* s.93-94; F. Sümer, *Kara-Koyunlular.*, s.140; İ. Uzunçarşılı, *Anadolu beylikleri və Akkoyunlu, Karakoyunlu devletləri.*, s.183.

ilə başa çatdı və Cahanşah (1438-1467) rəsmi şəkildə Azərbaycan hökmdarı oldu.

Bu dövrdə Qaraqoyunlu hökmdarı Cahanşahla münasibətləri gərgin olan Məmlük hakimiyyəti qaraqoyunlulara qarşı mübarizədə Ağqoyunlu bəyliyi ilə siyasi münasibətlərini davam etdirirdi. Bu haqda Həsən bəy Rumlu yazır: "Bu il (1438), Cahangir Mirzə və Həsən padşah Misirə yollandılar. Sultan hörmət edib, qiymətli xələtlər və qızıl qılınc kəməri ilə birlikdə onlara üç min əşrəfi də verib, Diyarbəkrə tərəf yolladı. Bu xəbər Sultan Həmzəyə çatdıqda, çoxlu döyüşçü ilə Birəçuqb qalasını mühasirə etdi. Bu əsnada, Həsən padşah Sultan Həmzə ordusunun yaxınlığına gəlib şəbxun etdi, çox adamı öldürdü, xeyli mal apardı. Sultan Həmzə qala üzərindən çıxaraq öz diyarına rəvan oldu"[335]

Həsən bəy Rumlunun verdiyi məlumatdan aydın olur ki, Məmlük hakimiyyəti bir tərəfdən Ağqoyunlu bəyliyində hakiyyət uğrunda mübarizədə Cahangir Mirzəni və Həsən bəyi müdafiə edir. Digər tərəfdən qaraqoyunlulara qarşı mübarizədə Ağqoyunlulardan istifadə edirdi

Azərbaycanda Cahanşahın hakimiyyəti illərində də Misirlə siyasi münasibətlər davam edirdi. Mənbələrdə Təbriz hakimi Cahangirin elçisinin 1444-cü ildə Qahirəyə gəlməsi haqqında məlumat verilir. Lakin onun nə məqsədlə gəldiyi haqqında məlumat yoxdur[336].

Osman bəyin ölümündən (1435) sonra Ağqoyunlu hakimiyyəti uğrunda gedən mübarizədə fəal şəkildə iştirak edən Cahangir Mirzə, bir tərəfdən əmilərinə və qardaşlarına qarşı mübarizə aparır, digər tərəfdən isə Qaraqoyunlu hökmdarı Cahanşahla döyüşməyə məcbur olurdu.

Cahanşah 1450-ci ildə Ərzincanı ağqoyunlulardan aldıqdan sonra Diyarbəkr istiqamətində Cahangir Mirzənı təqib etməyə başladı. Bu arada qaraqoyunluların Malatyaya qədər irəlilə-

---

[335] Həsən bəy Rumlu, *Tarixlərin ən yaxşısı (Əhsənüt - təvarix).* I cild, Fars dilindən tərcümə edən Şahin Fazil,. Bakı, Elm, 2022, s. 234.
[336] M. Əsədov, *Azərbaycan XIII-XV əsrin birinci yarısında*., s.24.

məsi məmlükləri narahat etməyə başladı. Bu səbəbdən Cahanşah, məqsədinin sadəcə Cahangir Mirzəni təqib etmək oldugunu Misir sultanı Seyfəddin Çakmaq əz-Zahirə (1438-1453) bildirərək onun narahatlığına son qoydu[337].

Bu dövrdə Həsən bəy Bayandur (Uzun Həsən-M.A.) Ağqoyunlu hakimiyyəti uğrunda gedən siyasi mübarizədə rəqibləri üzərində qələbə çalaraq Ağqoyunlu bəyliyinin hökmdarı oldu. Ağqoyunlu bəyi Uzun Həsənin hakimiyyəti dövründə Şərqi Anadoluda Ağqoyunlu bəyliyinn siyasi nüfuzu daha da artdı. Bu illərdə ağqoyunlularla qaraqoyunlular arasında siyasi mübarizə daha da kəskinləşdi.

Uzun Həsən 1457-ci ildə Amid (Diyarbəkr) meydan müharibəsində qaraqoyunluları ağır məğlubiyyətə uğradaraq ağqoyunluların mövqeyini daha da möhkəmləndirdi. Ağqoyunlu hökmdarı bu qələbəsini məktub vasitəsilə Misir sultanı Seyfəddin İnal əl-Əşrəfə (1453-1461) də bildirmiş, Məmlük sultanı bu xəbərdən məmnun olmuşdu[338].

Misir sultanı Seyfəddin İnalın ölümündən sonra (1461) ağqoyunlularla məmlüklər arasında siyasi münasibətlər yenidən kəskinləşdi. Məmlük sarayında mövcud olan siyasi ziddiyyətlərdən istifadə edən Uzun Həsən 1462-ci ilin iyun ayında Şimali Suriyaya qoşun göndərdi. Ağqoyunlu ordusu Birəyə qədər irəliləsə də, Şimali Suriyada möhkəmlənə bilmədi. Uzun Həsən 1462-ci il sentyabrın 6-da Misr sultanına məktub göndərərək on min dinar və Xarputun verilməsi şərti ilə barışıq təklif etdi. Lakin Sultan Xoşqədəm əz-Zahir (1461-1467) bu şərti qəbul etmədi[339].

1464-cü ilin dekabr ayında Gərgər qalasının agqoyunlular tərəfindən ələ keçirilməsi Qahirədə yenidən ciddi narahatlıq yaratdı. Uzun Həsən yenidən Məmlük hakimiyyətindən on min di-

---

337 R. Yinanç, *Dulkadir beyliği.*, s.57.
338 Ə. Tehrani, *a.g.ə.*, s.143-152; F. Sümer, *Akkoyunlular.*, s.21.
339 W. Hinz, *Uzun Hasan ve Şeyh Cüneyd.*, s.121.

nar təzminat və  bu qalanı Xarput qalası ilə dəyişməyi təklif etsə də, lakin yenə də Sultan Xoşqədəm bu təklifi rədd etdi[340].

Ağqoyunlular üçün strateji əhəmiyyətə malik olan Xarput qalasını danışıqlar yolu ilə ala bilməyən Uzun Həsən 1465-ci ilin əvvəlində bu qalanı ələ keçirmək üçün Əlbistan hakimi Məlik Arslan Zülqədər üzərinə yürüş etdi və Xarput qalasını tutdu. Ağqoyunlulara məğlub olan Zülqədər bəyi məcburiyyət qarşısında qalaraq Uzun Həsənə sülh təklif etdi. Uzun Həsənin vəziri vasitəsilə aparılan danışıqlardan sonra Zülqədər bəyi ilə razılıq əldə edildi. Əldə edilmiş razılığa görə qala 4000 qizil pul müqabilində ağqoyunluların ixtiyarina verildi. Xarput qalasının ələ keçirilməsinin Ağqoyunlu-Məmlük münasibətlərini gərginləşdirəcəyindən ehtiyat edən Uzun Həsən 1466-cı il fevralın 16-da Ruha (Urfa) valisi Əmir Musa Türkmanı qalanın açarlarını sultan Xoşqədəmə təqdim etmək üçün Misirə göndərdi. Həmçinin Uzun Həsən mart ayında (mart/1466) Məmlük dövləti ilə diplomatik əlaqələri normallaşdırmaq üçün anası Saray Xatunu da Qahirəyə göndərmişdi. Saray Xatun Ağqoyunlu-Məmlük münasibətlərini qaydaya salmaq üçün xeyli diplomatik səylər göstərmiş, Sultan Xoşqədəm bu cür səmimi münasibətlərdən razı qaldığını bildirmişdi[341].

Qaraqoyunlu hökmdarı Cahanşah 1467-ci ildə ağqoyunlulara qarşı mübarizə aparmaq üçün Diyarbəkr istiqamətində irəliləməyə başladı. Həmin ilin noyabr ayının 10-da Qaraqoyunlularla-Ağqoyunlular arasında baş verən döyüşdə qaraqoyunlular məğlub oldu və Cahanşah öldürüldü. Cahanşahın ölümündən sonra onun oğlu Həsənəlini də məğlub edən Ağqoyunlu bəyi Uzun Həsən Qaraqoyunlu dövlətinin hakimiyyətinə son qoydu (1468)[342].  Bununla da  Ağqoyunlu sülaləsinin uzun bir dövr ərzində Azərbaycanda hakimiyyət uğrunda apardığı mübarizə qə-

---

[340] R. Yinanç, *Dulkadir beyliği.*, s.59; W. Hinz, *a.g.ə.*, s.121.

[341] R. Yinanç, *Dulkadir beyliği.*, s.60; W. Hinz, *a.g.ə.*, p.34.

[342] Ş. Fərzəlibəyli, *Azərbaycan və Osmanlı imperiyası.*, s24; R. Ağayev, *a.g.ə.*, s.64; Ə. Tehrani, *Kitabi-Diyarbəkriyyə.*, s.227.

ləbə ilə başa çatdı. Azərbaycanda siyasi hakimiyyət Qaraqoyunlu sülaləsindən Ağqoyunlu sülaləsinə keçdi.

Ağqoyunlu sülaləsi Azərbaycanda hakimiyyətə gəldikdən sonra da Azərbaycanın Misir Məmlük dövləti ilə siyasi münasibətləri davam etməkdə idi.

Uzun Həsən Azərbaycan hökmdarı olduqdan sonra bu münasibətlə onu təbrik etmək üçün Qahirədən Ağqoyunlu sarayına Sultan Qayıtbəy əl-Əşrəf (1468-1495) tərəfindən bir elçi heyəti göndərilmişdi. Əbubəkr Tihrani bu barədə yazır: "Misir sultanı Qayıtbəy tərəfindən göndərilmiş elçi dəbdəbəli surətdə və qiymətli töhfələrlə gəlib yetişdi və sədaqət, dostluq və vilayətlərin fəthi münasibətilə təbriklər ifadə edən bəlağətli bir məktub təqdim etdi. O da hörmətlə qarşılanıb ənam və hədiyyələr aldıqdan sonra yola salındı"[343]. Əbubəkr Tihraninin bu məlumatından aydın olur ki, Uzun Həsənin hakimiyyəti dövründə də Azərbaycanın Misirlə diplomatik əlaqələri davam etmişdi.

Bu dövrdə Şərqi Anadolu bəylikləri uğrunda osmanlılarla məmlüklər arasındakı siyasi mübarizə güclənmişdi. Xüsusilə məmlüklərin vassalı olan Zülqədər və Qaraman bəyliyi bu mübarizənin mərkəzində dayanırdı. Ağqoyunlu hökmdarı Uzun Həsən bu ziddiyyətlərdən istifadə edərək dövlətin sərhədlərini cənub-qərb istiqamətində genişləndirməyə çalışırdı.

Məmlük dövlətinin vassalı olan Zülqədər bəyliyi Sahsuvar bəyin hakimiyyəti dövründə Misirə tabe olmaqdan imtina etdi. Şahsuvar bəy 1469-cu ildə Qahirəyə bir elçi göndərərək sultan Qayıtbəydən bəyliyin tanınmasını və  məmlüklərin tələb etdiyi Antəp bölgəsinin qaytarılması müqabilində Hələbdə bir Zülqədərli qarnizonunun yerləşdirilməsinə razılıq verməyi tələb etdi. Məmlük hakimiyyəti Şahsuvar bəyin bu tələblərini rədd edərək Zülqədər bəyliyinə qarşı yürüşə başlamağa qərar verdi. Bu zaman Fərat cayı sahillərini ələ keçirməyə çalışan Ağqoyunlu hökmdarı Uzun Həsənin atdığı addımlar Qahirədə təşvişə səbəb

---

[343] Ə. Tehrani, *a.g.ə.*, s.293.

oldu. Misir dövləti ağqoyunluların zülqədərlilərlə birləşərək Hələb şəhərinə hücum edə bilməsindən ciddi narahat idi[344].

Məmlük qoşunu zülqədərlilərə qarşı mübarizə aparmaq üçün Əmir Yaşbəyin komandanlığı altında 1471-ci ilin fevral ayında Qahirədən çıxaraq Hələb istiqamətində yürüşə başladı və iyun ayında Antəp qalasını mühasirəyə alaraq ələ keçirdi[345].

Bu sırada osmanlıların zülqədərlilərə köməyindən ehtiyatlanan Sultan Qayıtbəy Osmanlı imperiyası ilə danışıqlara başladı. O, Osmanlı sultanı Mehmed Fatehə elçi göndərərək Şahsuvar bəyi himayə etməməyi xahiş edərək bunun müqabilində Zülqədər bəyliyini onun ölkəsinə verəcəyini vəd etdi. Osmanlı sultanı Qayıtbəyin bu təklifinə müsbət cavab verərək Şahsuvar bəyi himayə etmədi. Hətta şahzadə Bəyazid Şahsuvar bəyin axırıncı istinadgahı olan Zamanti qalasının mühasirəsi zamanı əmir Yaşbəyə taxıl və ərzaqla kömək edəcəyini vəd etmişdi[346].

Osmanlılarla razılığa gəldikdən sonra Məmlük hakimiyyəti Ağqoyunlu hökmdarı Uzun Həsənlə də danışıqlara qərar verdi. Çünki bu yürüş vaxtı Məmlük sultanı Uzun Həsənin niyyətini bilmədiyi üçün ciddi narahat idi. Ağqoyunlu hökmdarının, məmlüklərin Zülqədər torpaqlarına yürüşünə münasibəti açıq qalırdı, həmçinin məmlüklərə müxalif olan Zülqədər əmirlərini müdafiə edən Uzun Həsənin atacağı addımlar da bəlli deyildi.

Bu vəziyyət şübhəsiz kı, Məmlük hakimiyyətini narahat etməyə bilməzdi. Bu münasibətlə məmlük əmiri Yaşbəy, 1471-ci il avqustun 17-də bu yürüşdə iştirak edən Məhəmməd əl-Hələbini Ağqoyunlu sarayına göndərdi[347].

---

344 R. Yinanç, *Dulkadir beyliği.*, s.69-70.

345 M. Халаби, *Поход Эмира Йашбека*, (перевод с арабского языка акад. З. Буниятова и Т. Гасанова)., Баку, Элм, 1985, с.4; T. Necefli, *Uzun Hasan devri akkoyunlu-memluk ilişkileri,* Asia minor studies, Cilt 1, Sayı 2, Temmuz, Kilis, 2013, s.100.

346 R. Yinanç, *a.g.ə.*, s.72-74.

347 M. Халаби, *Поход Эмира Йашбека.*, с.5.

Məhəmməd əl-Hələbi sentyabr ayının 24-də Təbrizə gələrək ertəsi gün Uzun Həsən tərəfindən hörmətlə qəbul edildi və elçi əmir Yaşbəyin məktubunu hökmdara verdi[348]. Uzun Həsən məmlük elçisi ilə aparılan danışıqlarda məmlüklərin bu yürüşünə birmənalı olaraq münasibət bildirmədi və Misir sultanı ilə münasibətləri daha da kəskinləşdirməmək üçün yumşaq mövqe nümayiş etdirərək elçini diplomatik qaydalara uyğun olaraq yola saldı.

Məmlük ordusu 1472-ci ilin aprel ayında zülqədərlilərə qarşı hücuma başladı. Məmlüklər Şahsuvar bəyin sığındığı Zamantı qalasını ələ keçirdi və Zülqədər bəyini əsir aldı. O, Qahirəyə aparılaraq edam edidi. Şahsuvar bəy öldürüldükdən sonra Məmlük hakimiyyəti Zülqədər taxtına onun qardaşı Şahbudaq bəyi oturtdu. Şahbudaq bəy şəriət qaydaları əsasında məmlüklərə sədaqətli olacağına and içdi[349]. Qeyd edək ki, məmlüklərin Zülqədər bəyliyinə hücumu zamanı Məmlük hakimiyyəti ilə siyasi münasibətlərin pozulmasından ehtiyat edən Ağqoyunlu hakimiyyəti müdafiə etdiyi Şahsuvar bəyə siyasi və hərbi kömək edə bilmədi.

Bu dövrdə Şərqi Anadolu bölgəsində siyasi nüfuz uğrunda ağqoyunlularla osmanlılar arasında mübarizə daha da kəskinləşmişdi. Bu mübarizədə Avropa dövlətələri, xüsusilə də Venesiya Respublikası ilə ciddi əlaqələr quran Uzun Həsən Qaraman bəyliyini də öz tərəfinə çəkmişdi.

Uzun Həsən Aralıq dənizi istiqamətində hücuma keçib Qərb dövlətlərinin hərbi qüvvələri ilə birləşmək üçün 1472-ci ildə osmanlılarla müharibəyə başladı. Ağqoyunlu ordusu həmin ilin baharında osmanlılara qarşı uğurlu döyüş əməliyyatları keçirsə də, lakin Beyşehr gölü yaxınlığında ağır məğlubiyyətə uğradı[350].

---

[348] М. Халаби, *a.g.ə.,* c.7.

[349] М. Халаби, *a.g.ə*., c.5; R. Yinanç, *a.g.ə*., s.76.

[350] T. Nəcəfli, *Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi müasir türk tarixşünaslığında*., s.128.

Bu döyüşdə ağqoyunlular məğlub olsa da, Uzun Həsən 1472-ci ilin oktyabr ayında Aralıq dənizində Venesiya donanması ilə əlaqə yaratmaq üçün Suriya istiqamətində yürüşə başlayaraq Kahta və Gərgəri ələ keçirdi. Bu yürüş Ağqoyunlu-Məmlük münasibətlərində yenidən gərginlik yaratdı. Zülqədərlı Şahbudaq bəy Misir sultanı Qayıtbəydən kömək istədi. Məmlük hakimiyyəti dekabr ayında (dekabr/1472) əmir Yaşbəyin komandanlığı altında ağqoyunlulara qarşı Birə istiqamətində qoşun yeritdi. Məmlüklərlə döyüşlərdə Ağqoyunlu ordusu ciddi uğurlar əldə edə bilməyərək 1473-cü ilin aprel ayında Fərat boyunca geri çəkilməyə başladı[351].

Sultan Qayıtbay 1473-cü ilin iyul ayında Ağqoyunlu hökmdarının Ərzincandakı hərbi düşərgəsinə sülh təklifi ilə bir elçi göndərdi. Uzun Həsən Məmlük sultanının sülh təklifini qəbul edərək elçini öz elçisi ilə birlikdə Misir sarayına yola saldı[352].

1474-cü ilin may ayında Uzun Həsənin oğlu Uğurlu Məhəmmədin başçılığı ilə Şirazda güclü qiyam baş verdi. Bu qiyamda Uğurlu Məhəmmədə Misir sultanı da yardım göstərirdi. Bu səbəbdən Uzun Həsən 1475-ci ildə Hələbə yürüş etdi. Bu yürüşdə Hələb əmirinə sığınan Uğurlu Məhəmməd məğlub edildi, Hələb əmiri İnal əl-Hakim isə öldürüldü. Bundan sonra Misirlə münasibətlərin korlanmasından ehtiyat edən Ağqoyunlu hökmdarı digər tədbirlər görmədən geri çəkildi. Bu hadisədən sonra Uzun Həsənlə Qayıtbay arasındakı siyasi münasibətlər pozuldu[353].

Bu dövrdə (sentyabr/1474) Təbrizdə olan Venesiya elçisi Ambrozio Kontarini də Uğurlu Məhəmmədin qiyamı haqqında məlumat verərək yazırdı: “... Biz Təbrizdə olanda müşahidə etmişdim ki, şəhərin küçələrində maneə sədləri qurulub. Bu işin səbəbini bilmək istəyəndə dedilər ki, Uzun Həsənin igid oğlu

---

[351] W. Hinz, *Uzun Hasan ve Şeyh Cüneyd.*, s.122; R. Yinanç, *a.g.ə.*, s.77.
[352] Ş. Turan, *Fatih Mehmet-Uzun Hasan mücadelesi ve Venedik,* s.222.
[353] F. Sümer, *Akkoyunlular.*, s.25; W. Hinz, a.g.ə., s.123.

Uğurlu Məhəmməd atasının əmrindən boyun qaçırmış və İran şəhərlərindən Şiraz adlanan birini işğal etmişdi. Uzun Həsən çox yaxşı silahlanmış bir qoşun hazırlamış və Şiraz tərəfə getmişdi ki, oğlunun qiyamını yatırsın..."[354].

Uzun Həsən vəfat etdikdən sonra (1478) Onun yerinə hökmdar seçilən oğlu Sultan Yaqubun hakimiyyəti dövründə (1478-1490) də Misir Məmlük dövləti ilə siyasi münasibətlər davam etməkdə idi.

Sultan Yaqubun Azərbaycanda hakimiyyətinin ilk dövründə Azərbaycanla Məmlük dövləti arasındakı siyası münasibətlər gərgin olaraq qalırdı.

Misir qoşunları 1480-ci ildə əmir Yaşbəy komandanlığı altında Urfanı ələ keçirmək üçün ağqoyunlulara qarşı yürüşə başladı. Ağqoyunlu qüvvələri oktyabr ayında məmlükləri ağır məğlubiyyətə uğradaraq Yaşbəyi əsir aldi[355].

Tarixçi Fəzlullah ibn Ruzbehan Xunci məmlük sərkərdəsi əmir Yaşbəyin Ağqoyunlu dövlətinin hüdudlarına yürüşü barədə yazırdı: "Uzun Həsənin ölümündən sonra Yaşbəy əcəm torpaqlarını işğal etmək qərarına gəldi. O, Misir, Dəməşq, Hələb qoşunlarını topladı və Fərat çayını keçdi... Yaqub şah bu yaramazı cəzalandırmaq qərarına gəldi. Bayandur bəy, Suleyman bəy və Xəlil bəy Diyarbəkrə doğru hərəkətə başladılar. Misirlilər Ağqoyunlu qoşununun mərkəzi hissəsini yarmağa çalışsalar da buna nail ola bilmədilər. Nəticədə Misir ordusu məğlub oldu. Başbəy (Yaşbəy) özünün bütün əmirləri ilə birlikdə əsir düşdü... Başbəyi gecə edam etdilər və onun başını kəsib Dəməşq və Hələb əmiri ilə birlikdə Sultan Yaquba göndərdilər"[356].

---

[354] *Səfərnameye veniziyan dər İran (şeş səfərname).*, s.136.

[355] Ш. Бидлиси, *Шараф-Наме.*, с.136; V. Moyer, *Tarixe doləte məmaleke fe Mesr,* (tərcomeye Məhəmməd Abidin, Səlim Həsən)., Tehran, 1375, s.173; F. Sümer, *Akkoyunlular.*, s.26.

[356] Ф. Хунджи, *Тарих-и алам-ара-йи Амини.*, с.62.

Məmlüklər 1482-ci ildə yenidən Ruhanı (Urfanı) tutmağa çalışmış, lakin müvəffəqiyyət qazana bilməmişdir[357].

Sultan Yaqubun hakimiyyətinin sonrakı illərində, Ağqoyunlu hökmdarı ilə Məmlük sultanı Qayıtbəy arasında münasibətlər normallaşmağa başladı. Buna səbəb Ağqoyunlu və Məmlük dövləti üçün real təhlükəyə çevrilmiş Osmanlı imperiyasına qarşı birləşmək məcburiyyəti idi[358].

Ağqoyunlu dövləti ilə siyasi münasibətləri inkişaf etdirmək məqsədilə Sultan Qayıtbəy, h.891-ci il rəcəb ayının ortalarında (iyul/1486) elçisi Qanum Şərbətdarı Sultan Yaqubun yanına göndərdi. Ağqoyunlu sarayına gələn məmlük elçisi Misir sultanının dostluq məktubunu Ağqoyunlu hökmdarına təqdim edərək məmlüklərin osmanlılar üzərindəki qələbəsi haqqında məlumat vermişdi. Sultan Yaqub bu xəbərdən məmnun qalmış və vəziri Qazi Səfiəddin Səvaçi vasitəsilə Qayıtbəyə cavab məktubu yazmışdı. Ağqoyunlu hökmdarı yazdığı məktubda Misir sultanına vəd etmişdir ki, növbəti il öz elçisini Qahirəyə göndərəcəkdir. Misir hökmdarının elçisi avqust ayının ortalarında (avqust/1486) geriyə qayıtmışdı[359].

Sultan Yaqub vəd etdiyi kimi, h.892-ci ildə (1487) elçisi Əmir Əxi Fərəci sultan Qayıtbəyin yanına göndərdi. Bu haqda Fəzlullah ibn Ruzbihan Xunci yazır “ Sultan Yaqub dostcasına verdiyi vədə görə Sidi Əlinin oğlu əmir Əxi Fərəci ərəb dilində tərtib olunmuş məktubla birlikdə Malik əl-Əşrəf Əbu Nəsir Seyfəddin Qayıtbəyin yanına göndərdi. Elçi h.862-ci ilin rəbiül-əvvəl ayında (mart/1487) Sultanın qəbuluna gedərək nadir hədiyyələrlə geri qayıtdı. Bu hədiyyələr içərisində məşhur xəttat Yaqut əl-Müstəsimin tərtib etdiyi Quran kitabı da var idi”[360].

---

[357] V. Moyer, *a.g.ə.*, s.174.
[358] V. Moyer, *a.g.ə.,* s.175.
[359] Ф. Хунджи, *Тарих-и алам-ара-йи Амини.,* с.70.
[360] Ф. Хунджи, *a.g.ə.*, с.71.

Fəzlullah ibn Ruzbihan Xuncinin verdiyi məlumata görə ağqoyunlularla məmlüklər arasında diplomatik əlaqələr sonrakı dövrlərdə də davam etmişdi[361].

Qeyd edildiyi kimi, Sultan Yaqub ilə Məmlük Sultanı Qayıtbəy arasındakı münasibətlər 1480-ci il savaşı xaric dostyana olmuşdur[362].

1485-1491-ci illər arasında davam edən Məmlük-Osmanlı savaşı illərində Quma gələn iki məmlük elçisinə "Qayıtbəy ilə sülhə sadiq olduğunu və Qahirədəki "baba"sının köməyinə gələcəyini" bildirmişdir[363].

Ağqoyunlu hökmdarı Sultan Yaqubun ölümündən (1490) sonra Azərbaycan-Məmlük münasibətlərində passivlik hökm sürməyə başladı. Bu bir tərəfdən Azərbaycanda siyasi hakimiyyət uğrunda gedən mübarizə ilə bağlı idi. Ağqoyunlu sarayında baş verən siyasi çəkişmələr dövlətin xarici siyasi əlaqələrini arxa plana keçirmişdi. Digər tərəfdən Osmanlı dövlətinin hərbi-siyasi təzyiqləri qarşısında aciz qalan Məmlük dövləti zəif durumda olan Ağqoyunlu hakimiyyətini potensial müttəfiq kimi görmürdü. Ümumiyyətlə, XV əsrin sonlarından etibarən özünün tənəzzül dövrünü yaşayan Ağqoyunlu hakimiyyəti və Misir Məmlük dövləti bölgədə baş verən siyasi hadisələrə müdaxilə imkanlarını getdikcə itirirdi.

Bu dövrdə Azərbaycanda taxt-tacı uğrunda gedən mübarizədə osmanlı və məmlük hakimiyyətləri öz mənafelərinə uyğun şəxslərin hakimiyyətə gəlməsi üçün cəhdlər edirdilər. Osmanlı hakimiyyəti Gödək Əhmədi, Qahirə sarayı isə Hüseyini ağqoyunlu taxtına keçirməyə çalışırdı. Lakin Hüseyinin Hicazda vəfat etməsi onların siyasi məqsədlərinin üstündən xətt çəkmişdir[364].

---

[361] Ф. Хунджи, *a.g.ə.,* с.113.

[362] J. Woods, *Akkoyunlular: Aşiret, Konfederasyon, İmparatorluk,* (türkçeye çeviren Sibel Özbudun)., Milliyet Yayın, İstanbul,1993, s.241.

[363] P. Holt, *Mamlûks,* e.I., c. VI, Leiden, 1991, p.324.

[364] J. Woods, *Akkoyunlular.,* s.255.

Beləliklə, XIV əsrin sonu-XV əsrdə Azərbaycan dövlətləri ilə Misir Məmlük dövləti arasında mövcud olan münasibətlər mürəkkəb xarakter daşımış, bu münasibətlər tarixi şərait və bölgədə baş verən siyasi hadisələrə uyğun olaraq formalaşmışdı. Bu dövrdə Azərbaycanla Misir Məmlük dövləti arasında mövcud olan siyasi əməkdaşlıq bir tərəfdən bu dövlətlərin qarşılıqlı münasibətləri ilə xarakterizə olunmuş, digər tərəfdən isə hər iki dövlətin Teymurilər dovləti ilə münasibətlərindən də asılı olmuşdur. Cünki teymuri təhlükəsi hər iki dövlət arasında mövcud olan münasibətlərin möhkəmlənməsində mühüm rol oynamışdı. Eyni zamanda Şərqi Anadoluda siyasi nüfuz ugrunda gedən mübarizənin müəyyən bir mərhələsində bu dövlətlər müttəfiq rolunda çıxış etsələr də, lakin bölgədə hər iki dövlətin siyasi maraqlarının toqquşduğu məqamlarda Azərbaycan-Məmlük siyasi münasibətləri rəqib xarakteri daşımışdır. Ümumilikdə götürdükdə isə Azərbaycan dövlətləri ilə Misir Məmlük dövləti arasında mövcud olan siyasi münasibətlər mürəkkəb, qeyri-sabit xarakterli olduğu qədər ümumi siyasi rəqiblərə qarşı müttəfiqlik, ikitərəfli münasibətlərdə isə qarşılıqlı anlaşmaya söykənən münasibətlər olmuşdu.

## 1.4. Azərbaycan Ağqoyunlu dövlətinin Avropa dövlətləri ilə diplomatik-siyasi münasibətləri

Ağqoyunlu sülaləsinin hakimiyyəti dövründə Azərbaycanla Avropa dövlətləri arasında da siyasi və diplomatik əlaqələr mövcud olmuş və inkişaf etmişdi.

Azərbaycanla Avropa dövlətləri arasında siyasi münasibətlər hələ Hülakülər sülaləsinin Azərbaycanda hakimiyyəti illərində (1258-1357) başlanmışdı. Hülakilər dövlətinin Avropa dövlətləri ilə siyasi münasibətlərinin əsas səbəbi Suriya uğrunda Misir Məmlük dövlətinə qarşı mübarizədə Avropadan kömək almaq idi. Eyni zamanda Şərqdə səlib yürüşlərini davam etdirən Avropa dövlətləri Məmlüklərə qarşı mübarizə aparmaq üçün Hülakülər dövləti ilə siyasi əlaqələr qurmaqda maraqlı idilər. Bu

məqsədlə Hülakü hökmdarı Abaqa xan (1265-1282), 1267-ci ildə Roma Papasına, 1269-cu ildə Araqon krallığına elçilər göndərmişdi[365].

Arqun xanın hakimiyyəti dövründə də (1284-1291) məmlüklərə qarşı mübarizə aparmaq üçün Avropa dövlətləri ilə Hülakülər dövləti arasında diplomatik əlaqələr davam etmişdi. 1288-ci ildə Arqun xan elçisi Rabban-Saumanı Fransa kralı IV Filipin yanına göndərmişdi. Hülaku hökmdarının elçisi Fransa kralına Məmlük dövlətinə qarşı hərbi ittifaq yaratmağı və Yerusəlimi məmlüklərdən geri almağı təklif edirdi. Həmçinin Arqun xan Roma Papası ilə diplomatik yazışmasında, ona Məmlük dövlətinə qarşı birgə ittifaqının yaradılmasını təklif etmişdi[366].

Hülakülər dövləti ilə Avropa dövlətləri arasında siyasi və diplomatik münasibətlər XIV əsrdə də davam etmişdi. Hülakü hökmdarı Sultan Məhəmməd Olcaytu (1304-1316) Fransa və İngiltərəyə elçi heyətləri göndərmişdi[367].

Azərbaycanın Avropa dövlətləri ilə siyasi və diplomatik münasibətləri Qaraqoyunluların hakimiyyəti dövründə (1410-1468) mövcud olmamışdı. Çünki XV əsrdən başlayaraq Şərqdə səlib yürüşlərinin istiqamətini Osmanlı dövlətinə qarşı yönəldən Avropa dövlətləri, osmanlılarla siyasi müttəfiq olan Qaraqoyunlu dövləti ilə münasibətlər qurmaq üçün heç bir siyasi və diplomatik addım atmamışlar. Çünki bu dövrdə Osmanlı imperiyasının siyasi müttəfiqi olan Qaraqoyunlu dövləti Avropa-Osmanlı münaqişəsində tərəfsiz qalmış və bu qarşıdurmalarda iştirak etməmişdi.

---

[365] V. Minorsky, The Middle East in the Western Politics in 13-th, 15-th and 17-th Centuries, *Journal of Royal Asiatic Society, 1940, vol. 27,* p.434; M. Əsədov, *Azərbaycan XIII-XV əsrin birinci yarısında (Bədrəddin Mahmud əl-Ayninin "İqd əl-cuman fi-tarix əhl əz-zaman" əsəri üzrə),* tar. elm. nam... dis. Avtoref, Bakı, 1996, s.17.

[366] *История дипломатии,* Сост. А.Лактионов., М, АСТ, 2005, с.169; V. Minorsky, *The Middle East in the Western Politics in 13-th, 15- th and 17- th Centuries.,* p.435.

[367] V. Minorsky, *a.g.ə.,* p.437.

Azərbaycanda Ağqoyunlu dövləti yarandıqdan (1468-1501) sonra Avropa dövlətləri ilə siyasi və diplomatik münasibətlər yenidən bərpa olundu. Bu dövrdə Azərbaycan-Avropa siyasi münasibətlərinin əsasını Osmanlı imperiyasına qarşı birgə mübarizə təşkil edirdi.

Ağqoyunluların Avropa dövlətləri ilə siyasi münasibətləri hələ Ağqoyunlu Osman bəyin dövründə başlanmışdı. Bu dövrdə osmanlılara qarşı hərbi ittifaq yaratmaq təşəbbüsü ilə çıxış edən Macar kralı Siqizmundla Osman bəy arasında ağqoyunluların "antiosmanlı" koalisiyasında iştirakı ilə bağlı danışıqlar aparılmışdı[368]. Həmçinin Osman bəy Trabzon Yunan dövləti ilə də dostluq münasibətləri saxlayırdı[369].

Osman bəyin siyasi varisi Uzun Həsənin siyasi yüksəlişi dövründə (1453) də Avropa dövlətləri ilə siyasi münasibətlər inkişaf etməkdə idi. Bu dövrdə Uzun Həsənin ilk siyasi münasibətləri Trabzon dövləti ilə olmuşdu.

Sultan II Mehmed İstanbulu fəth etdikdən sonra (1453) Trabzon dövləti üçün ciddi təhlükə yarandı. Bunu nəzərə alan Trabzon imperatoru IV Kalo İoannes (1447-1458) osmanlı təhlükəsindən qorunmaq üçün siyasi müttəfiqlər axtarmağa başladı. Osmanlılara qarşı mübarizə aparmaq üçün Avropa dövlətləri ilə danışıqlar aparan Trabzon imperatoru, bu mübarizədə Ağqoyunlu hökmdarının da köməyinə böyük ümid bəsləyirdi. Bu münasibətlə IV Kalo İoannes 1457-ci ildə Uzun Həsənin yanına bir elçi göndərərək on beşinci əsrdən bəri ailələri arasında davam edən sıx dostluq və qohumluq münasibətlərini gücləndirmək istədiyini bildirdi. (Qeyd edək ki, Ağqoyunlu bəyləri Qutlu bəy və Qara

---

[368] Н. Ахундова, *Азербайджанские государства в 15-16 вв. по материалам «Кембриджской истории Ирана»», «Об истории азербайджанских государств Аккоюнлу и Каракоюнлу. Туркманские династии (выдержки из «Кембриджской истории Ирана»),* Баку, 2015, ИПО Турхан, с. 40-41; L. Tardy, *Beyond the Ottoman Empire (14-th – 16-th centry Hunqarian Diplomacy in the East), Szeged,* Attila Jozsef University, 1978, p.17.

[369] İ. Ertaylan, *Trabzonun fethi.*, s.161.

Yuluq Osman bəy Trabzon imperatorlarının qızları ilə ailə qurmuşdular-M.A.). Uzun Həsən Trabzon imperatorunun bu təşəbbüsünü müsbət qarşılayaraq onun qızı Teodora (Dəspinə Xatun) ilə evləndi. Tərəflər arasında Osmanlı imperiyasına qarşı birgə mübarizə aparmaq üçün razılıq da əldə edildi. Gürcü çarları ilə də osmanlılara qarşı mübarizə aparmaq üçün razılıq əldə edən Trabzon imperatoru Avropa dövlətlərini də "antiosmanlı" ittifaqına cəlb etmək üçün danışıqlara başladı[370].

Bu arada Roma Papası III Kalikst (1455-1458) öz elçisi rahib Lüdovik de Boloqnanı, osmanlılara qarşı mübarizə məqsədilə Trabzon imperatoru və Gürcü çarları ilə danışıqlar aparmaq üçün Trabzona göndərdi. Trabzon imperatoru və Gürcü çarları ilə aparılan danışıqlardan sonra rahib Lüdovik, 1459-cu ildə Trabzon imperatorunun təşəbbüsü ilə Diyarbəkrə gələrək Uzun Həsəni osmanlılar əleyhinə ittifaqa dəvət etdi. Bu təklifi müsbət qarşılayan Uzun Həsən Avropaya bir elçi göndərmək qərarına gəldi. Rahib Lüdovik, Trabzon və Gürcü elçiləri ilə birlikdə yola düşən Ağqoyunlu elçisi Məhəmməd, 1460-cı ilin dekabr ayında Romaya çatdı. Elçilər papa II Piylə (1458-1464) aparılan danışıqlarda "Xristian dövlətləri osmanlılar əleyhinə qərbdə savaşa girəcəyi təqdirdə 100.000 nəfərlik ordu ilə  şərqdən hərəkət edəcəklərini" bildirdilər. Roma papası aparılan danışıqlarda elçilərə, hökmdarlarının osmanlılara qarşı mübarizədə onlara pul yardımı edəcəyinə söz verdi və hərbi ittifaq planlarını gerçəkləşdirmək üçün Burqundiya hersoqu Filippə müraciət etməyi tövsiyyə etdi[371].

---

[370] İ. Ertaylan, *Trabzonun fethi.*, s.161; Ş. Turan, *Fatih Mehmet-Uzun Hasan mücadelesi ve Venedik.*, s.190; N. Çağatay, Akkoyunlular, *Türkmen Akkoyunlu imparatorluğu: siyasal, sosyal ve kültürel tarihine ilişkin makaleler antolojisi.*, Ankara, 2003, s.44; F. Kırzıoğlu, *Osmanlılar'ın Kafkas-elleri'ni fethi (1451-1590).*, Ankara, Türk tarih kurumu basımevi, 1993, s.26; B. Baykal, Fateh Sultan Mehmet Uzun Hasan rakabetinde Trabzon meselesi, *Türkmen Akkoyunlu imparatorluğu: siyasal, sosyal ve kültürel tarihine ilişkin makaleler antolojisi.*, Ankara, 2003, s.149.

[371] İ. Ertaylan, *a.g.ə.,* s.164; S. Tansel, Trabzon Rum imparatorluğunun ortadan kaldırılması, *Türkmen Akkoyunlu imparatorluğu: siyasal, sosyal ve kültürel tarihine ilişkin makaleler antolojisi.*, Ankara, 2003, s.244.

1461-ci ilin may ayında kardinal Bessarion ilə birlikdə Brüsselə gələn elçilər Filip tərəfindən qəbul edildi. Görüşdə Trabzon elçisi, İmperator Davidin Filipə yazdığı 1459-cu il 22 aprel tarixli məktubunu da təqdim etdi. Lakin bu görüş də müsbət nəticə ilə yekunlaşmadı. Burqunduya hersoqu ilə aparılan nəticəsiz danışıqlardan sonra elçilər Parisə gələrək Fransa kralı XI Lüdoviq ilə də görüşdülər. Bu görüşdə də ciddi bir nəticə əldə edə bilməyən elçilər geri döndülər[372].

Beləliklə, Avropa dövlətlərinin qətiyyətsiz mövqe tutması “antiosmanlı” ittifaqının yaranmasına imkan vermədi. Bundan sonra Uzun Həsənin Osmanlı sarayı ilə apardığı danışıqlar da nəticəsiz qaldı. Sultan II Mehmed isə qətiyyətli hərəkət edərək (15 avqust/1461) Trabzon dövlətinin varlığına son qoydu[373].

Trabzonun süqutundan sonra Ön Asiyada Uzun Həsənin Sultan II Mehmedlə bölgədəki siyasi maraqlar uğrunda rəqabəti daha da gücləndi. Uzun müddət davam edən Ağqoyunlu-Osmanlı rəqabəti artıq açıq mübarizə müstəvisinə keçmiş oldu. Bu amil Ağqoyunlu hakimiyyətini Avropa dövlətləri ilə sıx siyasi münasibətlər qurmağa məcbur edirdi. Həmçinin Qərb dövlətlərinin də Ağqoyunlu dövləti ilə ittifaq cəhdləri Osmanlı imperiyasına qarşı birgə mübarizə zərurətindən doğurdu.

Bu dövrdə Ağqoyunlu dövləti ilə Venesiya, Polşa, Avstriya, Macarıstan, Çexiya, Almaniya, Papalıq, Burqundiya, Neapol krallığı, Rodos, Kipr və digər Qərbi Avropa dövlətləri arasında siyasi və diplomatik əlaqələr mövcud olmuşdu[374].

XV əsrin 70-ci illərində Ağqoyunlu dövlətinin Osmanlı imperiyası ilə toqquşması tarixi zərurət idi. Çünki Sultan II

---

[372] Y. Yücel, Fatehin Trabzon’u fethi öncəsinde Osmanlı-Trabzon-Akkoyunlu ilişkileri, *Türkmen Akkoyunlu imparatorluğu: siyasal, sosyal ve kültürel tarihine ilişkin makaleler antolojisi,* Ankara, 2003, s.135.

[373] Y. Yücel, *a.g.ə.*, s.135; F. Kırzıoğlu, *Osmanlılar’ın Kafkas-elleri’ni fethi.*, s.31.

[374] Я. Махмудов, *Взаимоотношения государств Ак-коюнлу и Сефевидов с европейскими странами (II половина XV - начало XVII века).*, Баку, Издательство Бакинского университета, 1991, с.82.

Mehmedin Avropada və Asiyada keçirdiyi bir sıra işğallar Ağqoyunlu dövlətini Qara dəniz və Aralıq dənizinə çıxış yollarından məhrum etmiş, Azərbaycanın qərb ölkələri ilə ticarət əlaqələrini məhdudlaşdırmışdı[375]. Digər tərəfdən Avropa ilə Şərq arasında ənənəvi karvan yollarında üstünlüyü ələ keçirməyə çalışan Sultan II Mehmed Azərbaycanı bu strateji ticarət yollarından məhrum etmək istəyirdi. Eyni zamanda strateji cəhətdən böyük əhəmiyyət daşıyan,  tarixən Azərbaycan dövlətlərinin sərhədləri daxilində olan Şərqi Anadolunu əldə etmək Osmanlı dövlətinin hərbi-siyasi planlarına daxil idi.

Ağqoyunlu hökmdarı bu mühüm hərbi-siyasi vəzifəni yerinə yetirmək məqsədilə Murad bəyi 1464-cü ildən Ağqoyunlu sarayında Venesiyanın təmsilçisi olan Lazaro Kvirino ilə birlikdə Qərb dövlətləri ilə danışıqlar aparmaq üçün Avropaya yola saldı. 1471-ci ilin fevralında Venesiyaya çatan Murad bəy Uzun Həsənin məktubunu Venesiya hökumətinə təqdim etdi. Uzun Həsənin 1470-ci il avqustun 2-də Sultaniyyədə yazdığı bu məktubda deyilirdi: "Osmanlı türklərinin oğlundan, Məhəmməd bəydən başqa bir düşmənimiz yoxdur. O da yenilməyəcək, mülkündən və səltənətindən atılmayacaq bir şey deyildir. Biz sizinlə ciddi bir işbirliyi yaradıb, sizin donanmanız dənizdən, bizim çox qüvvətli ordumuz da qurudan hərəkət edincə, Osmanoğlu Asiya və Avropadakı bütün torpaqlarından məhrum olacaqdır"[376].

Bu ərəfədə Osmanlı dövləti ilə Venesiya arasında Levantedəki Evbeya (bu ada 1470-ci ilin iyul ayında osmanlılar tərəfindən ələ keçirilmişdi-M.A.) adası ilə bağlı sülh danışıqları başlamışdı. Bu səbəbdən Venesiya hökuməti Osmanlı hakimiyyəti ilə danışıqlar başa çatana qədər Ağqoyunlu elçisinə cavab vermədi[377].

---

[375] Y. Mahmudov, *Azərbaycan diplomatiyası.*, s.92.

[376] Ş. Turan, *Fatih Mehmet-Uzun Hasan mücadelesi ve Venedik.*, s.203; G. Berchet, *La Respubblica di Venezia e la Persia.*, p.5; V. Minorsky, *The Middle East in the Western Politics in 13-th, 15-th and 17-th Centuries.*, p.445.

[377] Ş. Turan, *a.g.ə.*, s.205; Y. Mahmudov, a.g.ə., s.95.

Murad bəyin Venesiyada gecikdiyini görən Uzun Həsən Avropaya başqa bir elçi göndərdi. Şərafəddin Turanın məlumatına görə bu elçinin Nikolo adlı bir xristian olduğu bildirilir[378]. Gürcü elçisi ilə birlikdə Avropaya yola düşən Ağqoyunlu elçisi Trabzondan Akkermana, oradan isə Polşaya keçmiş, polşa kralı IV Kazimirin Papaya göndərdiyi elçi ilə birlikdə Romaya yollanmışdır. Romada danışıqlar aparan Ağqoyunlu və gürcü elçilərinin hər ikisi də hökmdarlarının Türkə qarşı savaşmağa hazır olduqlarını söyləyərək xristianların da eyni əzmlə hərəkət etmələrini istəmişdir. Uzun Həsənin bu ikinci elçisinin əsas vəzifəsi xristian dövlətlərinin köməyini təmin etmək üçün Poma papası II Paulusun vasitəçiliyindən istifadə etmək olmuşdu[379].

Venesiya hökuməti Osmanlı imperiyası ilə apardığı sülh danışıqları nəticəsiz başa çatdıqdan sonra Ağqoyunlu dövləti ilə danışıqları davam etdirməyə qərar verdi. Bu məqsədlə Venesiya Senatı 1471-ci ilin sentyabr ayında Ağqoyunlu sarayına elçi təyin etmiş Katerino Zenoya, Osmanlılara qarşı Ağqoyunlu dövləti ilə ittifaq yaratmaq üçün məxfi təlimat verərək onu Murad bəylə birlikdə Təbrizə yola saldı[380].

Bu arada Romada olan Uzun Həsənin ikinci elçisi avqust ayının 2-də papa IV Sikst (1471-1484) tərəfindən gəbul edildi. Öz sələfləri kimi "Türklərə qarşı ittifaq" siyasətin davam etdirən Papa elçisi rahib San Françeskonu danışıqları davam etdirmək üçün Ağqoyunlu sarayına göndərməyə qərar verdi. Nəhayət, Venesiyaya gələn Papanın elçisi Ağqoyunlu elçiləri və Katerino Zeno ilə birlikdə Ağqoyunlu sarayına getmək üçün oktyabr ayında yola düşdü[381]. Ağqoyunlu elçiləri ilə birlikdə Təbrizə gələn Katerino

---

[378] Hasan-i Rumlu, *Ahsenü't-Tevarix,* (çeviren Mürsel Özrürk)., Ankara, Türk Tarih Kurumu Basımevi, 2006, s.205.

[379] Я. Махмудов, *Взаимоотношения государств Ак-коюнлу и Сефевидов с европейскими странами*... c.86; Ş. Turan*, a.g.ə.*, s.206.

[380] G. Berchet, *a.g.ə.*, p.7; Y. Mahmudlu, *a.g.ə.*, s.99.

[381] Ş. Turan, *a.g.ə.*, s.206; P. Jackson and L. Lockhart (eds.) *The Cambridge History of Iran (The Timurid and Safavid periods),* Cambridge, Cambridge University Press, vol 6, 1986, p.377.

Zeno Uzun Həsənlə danışıqlar zamanı bildirdi ki, ağqoyunlular şərqdə osmanlılara qarşı müharibəyə başlasalar Venesiya donanması Aralıq dənizində onlara kömək edəcəkdi[382].

Aparılan Ağqoyunlu-Venesiya danışıqları nəticəsində Osmanlı imperiyasına qarşı eyni vaxtda həm şərqdən, həm də qərbdən müharibəyə başlamaq qərara alındı. "Antiosmanlı" koalisiyasının üzvləri arasındakı ümumi razılığa əsasən, Ağqoyunlu dövləti 1472-ci ilin baharında Osmanlı imperiyasına qarşı müharibəyə başladı. Ağqoyunlu süvariləri Bidlis-Toqat-Ağşehir-Konya istiqamətində hücuma keçərək Qaramanı osmanlılardan azad edib Aralıq dənizi sahilinə çıxdı. Lakin "antiosmanlı" ittifaqına daxil olan Avropa dövlətləri razılığı pozaraq Ağqoyunlu dövlətinə hərbi yardım göstərmədi. Onlar qərb istiqamətində osmanlılara qarşı hərbi əməliyyatlara başlamadı. Bunun nəticəsi olaraq Beyşehr gölü yaxınlığında baş verən döyüşdə osmanlılar ağqoyunluları məğlub etdi və Ağqoyunlu dövləti üçün böyük strateji əhəmiyyətə malik olan Qaraman ərazisi yenidən osmanlıların nəzarətinə keçdi.

Ağqoyunlu hökmdarı Həsən padşah Avropa dövlətləri ilə danışıqları intensivləşdirmək üçün 1472-ci ildə İtaliyaya Hacı Məhəmməd başda olmaqla bir elçilik göndərdi. Bu elçi heyəti Ağqoyunlu-Venesiya hərbi müqaviləsinin şərtlərinə uyğun olaraq xristian dövlətlərinin osmanlılara qarşı hərbi əməliyyatlara başlamasını və Venesiyanın vəd etdiyi hərbi yardımın göstərilməsini tələb etməli idi. Hacı Məhəmmədin Venesiya hökuməti ilə apardığı danışıqlar nəticəsində 1472-ci il sentyabr ayının 25-də Venesiya Senatı qeyd olunan müqavilə şərtlərini yerinə yetirmək üçün qərar qəbul etdi və elçi İosofat Barbaroya ağqoyunlulara göndərilən hərbi yardımı Ağqoyunlu hökumətinə çatdırmaq tapşırığı verildi. Ona verilən təlimata görə o, əvvəlcə Kiprə getməli, silah və artilleriya mütəxəssislərini Ağqoyunlu hökmdarının sərəncamına verməli idi. Əgər Qaraman osmanlılar tərəfin-

---

[382] Y. Mahmudov, *Azərbaycan diplomatiyası.,* s.100.

dən işgal olunubsa, göstərilən hərbi sursatı Kiprdə qoyub, özü isə Hacı Məhəmmədlə birlikdə Ağqoyunlu sarayına getməli idi. Beləliklə, Venesiya hökumətinin Azərbaycana yola saldığı İosafat Barbaro 1473-cü ilin fevral ayında ağqoyunlular üçün silah gətirən 4 gəmi ilə Venesiyadan yola salındı[383].

Ağqoyunlular üçün silah gətirən gəmilər 1473-cü il martın 29-da Kiprə çatarkən, artıq Qaramanın osmanlılar tərəfindən işgal olunması Venesiyanın ağqoyunlulara hərbi yardım etmək planını boşa çıxardı. Lakin buna baxmayaraq, "antiosmanlı" ittifaqının üzvləri (Venesiya, Neapol, Roma, Kipr, Rodos) admiral Pyetro Moçeniqonun başçılığı ilə Osmanlı imperiyasının Aralıq dənizi sahillərini atəşə tutmaq qərarına gəldilər. Koalisiyanın üzvü olan Qaraman şahzadəsi Qasım bəy bəzi Qaraman qalalarını osmanlılardan geri ala bildi[384].

Bu ərəfədə Uzun Həsən osmanlılara qarşı ikinci cəbhə açmaq üçün Alman imperatoru III Fridrix və Macarıstan kralı Matias Korvinə məktub göndərərək Avropadakı Osmanlı torpaqlarına hücum etməyi təklif etdi. Lakin Uzun Həsənin bu təşəbbüsü nəticəsiz qaldı. Çünki Venesiya ilə siyasi rəqabət aparan Alman imperatoru Venesiyanı osmanlılarla müharibədə tək qoymaq üçün Diet məclisində Uzun Həsənə kömək etməmək üçün qərar qəbul olunmasına çalışırdı. Macarıstan kralı isə Osmanlı sultanı ilə sülh danışıqları aparmaq üçün öz elçisini İstanbula göndərmişdi[385].

1473-cü il iyulun 13-də Uzun Həsənin Ərzincandakı hərbi düşərgəsinə İosafat Barbarodan bir məktub gəldi. Barbaro bu məktubda yazırdı: "Zati-şahanəniz nəzdnində elçi olan Katerino Zenoya məktublar yazaraq admiral Moçeniqonun Papa həz-

---

[383] G. Berchet, *a.g.ə.,* p.9; Y. Mahmudov, *Azərbaycan diplomatiyası.*, s.105; W. Hinz, *Uzun Hasan ve Şeyh Cüneyd.*, s.48; V. Minorsky, *The Middle East in the Western Politics in 13-th, 15- th and 17- th centuries.*, p.446.

[384] Я. Махмудов, *Взаимоотношения государств Ак-коюнлу и Сефевидов с европейскими странами...* с.98; W. Hinz, *a.g.ə.*, s.48.

[385] Ş. Turan, *a.g.ə.,* s.221.

rətləri ilə Neapol kralı I Ferdinand (1458-1494) tərəfindən göndərilən elçilərin və eyni zamanda Hacı Məhəmməd ilə birlikdə qüdrətli bir donanma ilə buraya gəldiyimizi bildirirəm. Zati-şahanənizdən bu tərəfə gəlmənizi rica edirəm. Bizim donanmamızla birləşərək xain osmanlıya qarşı hücum edəcək və zəfər qazanacağıq”[386].

Uzun Həsən 1473-cü il iyulun 17-də Barbaroya göndərdiyi cavab məktubunda yazırdı: “Sevgili oğlumuz Uğurlu Məhəmməd idarəsində osmanlılara qarşı 30000 qəhrəman və təcrübəli əsgər göndərdiyimizi sizə bildirirəm. Qaramanda sahilləri alın və toplarla düşmən qalalarını zəbt edin”[387].

Venesiya admiralı Moçeniqo isə Uzun Həsənə yazdığı məktubda ona müttəfiqlərin Qasım bəylə birlikdə apardıqları hərbi əməliyyatlar haqqında məlumat verir və onu Aralıq dənizi istiqamətində hücuma keçməyə tələsdirirdi[388]. Venesiya admiralının bu məktubuna müsbət cavab verən Uzun Həsən 1473-cü ilin iyul ayında Aralıq dənizi istiqamətində hərəkət etməyə başladı. Lakin Sultan II Mehmed Aralıq dənizi sahillərində ağqoyunlu hərbi qüvvələri ilə müttəfiq dövlətlərin hərbi qüvvələrinin birləşməsinin qarşısını almaq üçün Ərzincan istiqamətində yürüşə başladı. Osmanlı sultanının bu taktiki addımı Uzun Həsənin müttəfiqləri ilə birləşmək planını boşa çıxardı və Osmanlı ordusu ilə təkbətək mübarizə aparmaq məcburiyyətində qoydu.

Tərəflər arasında 1473-cü ilin avqust ayında Tərcan yaxınlığında baş verən döyüşdə Ağqoyunlu ordusu məğlub oldu. Bu zaman Aralıq dənizi sahillərində osmanlılara qarşı hərbi əməliyyatlar aparan müttəfiq dövlətlərin hərbi dəniz qüvvələri də hərbi əməliyyatları uzun müddət davam etdirə bilmədi. Kipr taxtı üs-

---

[386] Y. Mahmudov, *Azərbaycan diplomatiyası*, s.110; W. Hinz, *a.g.ə.,* s.54; Ş. Turan, *a.g.ə.*, s.222.

[387] N. Gümüş, *Gürcüstanın fethi, Osmanlı 1.*, Ankara, Yeni Türkiye Yayınları, 1999, s.54.

[388] Y. Mahmudov, *a.g.ə.*, s.110.

tündə Venesiya ilə digər dövlətlər arasında yaranan siyasi narazılıq bu ittifaqın dağılması ilə nəticələndi[389].

Beləliklə, Osmanlı imperiyasına qarşı yaradılan və Ağqoyunlu dövlətinin də iştirak etdiyi "antiosmanlı" ittifaqı tam müvəffəqiyyətsizliyə uğradı.

Ümumiyyətlə, "antiosmanlı" ittifaqının üzvlərinin məğlubiyyətinin səbəblərini araşdırarkən bunu bir neçə amillə izah etmək olar. Birincisi, bu dövrdə Şərqdə iqtisadi və siyasi hegemonluq uğrunda Avropa dövlətləri arasında gedən mübarizə bu dövlətləri osmanlılara qarşı konkret mövqedən çıxış etməyə imkan vermədi. Digər tərəfdən müttəfiqlərin iradə nümayiş etdirərək vaxtında Ağqoyunlu hərbi qüvvələrini döyüş sursatı ilə təmin etməməsi ağqoyunluları hərbi-texniki üstünlüyə malik olan osmanlılar qarşısında çətin vəziyyətdə qoydu. Həmçinin Sultan II Mehmedin düzgün hərbi taktika seçərək Ağqoyunlu qoşunu ilə Avropa dövlətlərinin hərbi dəniz qüvvələrinin birləşməsinin qarşısını alması, müttəfiqlərin qüvvələrinin parçalanmasına səbəb oldu. Eyni zamanda Avropalı müttəfiqlərin Osmanlı imperiyasını Ağqoyunlu dövlətinin əliylə məğlub etmək siyasəti də məğlubiyyətin əsas şərtlərindən biri idi. Bu amillər müttəfiqlərin gələcək addımlarını və Osmanlı imperiyasıının taleyini müəyyən edən Qtluqbeli döyüşündə Ağqoyunlu qoşunlarının məğlubiyyətinə səbəb oldu.

Otluqbeli savaşından sonra Ağqoyunlu dövləti ilə Avropa ölkələri arasında diplomatik əlaqələrdə o qədər də fəallıq nəzərə çarpmırdı. Bu dövrdə Ağqoyunlu elçisi statusu ilə Avropa dövlətləri ilə danışıqlar aparan Katerino Zeno, Ağqoyunlu sarayına göndərilən Paolo Onyibene və Ambrocco Kontarini danışıqların aparılmasında əsas simalardan idi[390].

---

[389] W. Hinz, *a.g.ə.,* s.55; Y. Mahmudov, *Azərbaycan diplomatiyası.,* s.112; Ю. Агаев и С. Ахмедов, *Ак-коюнлу–Османская война (1472-1473 годы).,* Баку, Элм, 2006, с.96.

[390]*Səfərnameye veniziyan dər İran (şeş səfərname), (Səfərnamehaye veniziyan ke dər zəmane Uzun Həsən Ağqoyunlu be İran amədeənd),* tər. M. Əmiri,

Uzun Həsənin vəfat etməsi (yanvar/1478) Ağqoyunlu hakimiyyətinin Avropa dövlətləri ilə apardığı danışıqları yarımçıq qoydu. Uzun Həsənin ölümündən sonra onun oğlanları arasında hakimiyyət uğrunda mübarizənin getdiyini görən sonuncu Venesiya elçisi İosafat Barbara 1478-ci ilin baharında Kipr vasitəsi ilə Venesiyaya qayıtdı[391].

Ağqoyunlu hökmdarı Sultan Yaqubun hakimiyyəti dövründə də Azərbaycanla Avropa dövlətləri arasında diplomatik münasibətlər davam etmişdi. Bu dövrdə Venesiya və Macarıstan elçiləri Ağqoyunlu sarayında Osmanlı imperiyasına qarşı birgə mübarizə aparmaq üçün danışıqlar aparırdı[392]. Lakin Ağqoyunlu-Osmanlı (1472-1473) və Venesiya-Osmanlı (1463-1478) müharibələrinin Osmanlı imperiyasının qələbəsi ilə başa çatması müvəqqəti olaraq Azərbaycan-Avropa əlaqələrini zəiflətdi. Çünki özünün daxili siyasi böhran dövrünü yaşayan Ağqoyunlu dövləti artıq aktiv xarici siyasət yeritmək iqtidarında deyildi. Digər tərəfdən 1479-cu ildə bağlanan Venesiya-Osmanlı sülh müqaviləsi, Ağqoyunlu dövlətinin xarici siyasət və ticarət sahəsində əsas avropalı tərəfdaşı olan Venesiya Respublikasının siyasi passivliyinə səbəb oldu.

Ümumiyyətlə, istər Uzun Həsənin hakimiyyəti illərində, istərsə də onun varisləri zamanında Azərbaycanın Qərbi Avropa dövlətləri ilə diplomatik əlaqələrinin mövcud olduğu dövrü Ağqoyunlu dövlətinin xarici siyasətinin ən parlaq dövrlərindən biri hesab etmək olar.

Ağqoyunluların hakimiyyəti dövründə Azərbaycanın xarici siyasətinin istiqamətlərindən biri də Moskva knyazlığı ilə olan siyasi əlaqələr olmuşdu. XV əsrin ortalarından başlayaraq

---

Tehran, Şerkəte səhamiye enteşarate xarəzmi, 1349, s.138-141; Y. Mahmudov, *Azərbaycan diplomatiyası.,* s.115-122.

[391]Y. Mahmudov, *a.g.ə.,* s.123; *Барбаро и Контарини о России (к истории итало-русских связей в XV век),* пер. Е. Скржинской и М. Михайловского, М, Наука, 1971, с.10.

[392] Y. Mahmudov, *a.g.ə.*, s.126.

Moskva knyazlığı Rusiya knyazlıqlarının vahid bir dövlətdə birləşdirilməsi prosesinə başladı. Rus dövlətinin (Moskva knyazlığının) beynəlxalq nüfuzunun gücləndiyi bir şəraitdə Volqa-Xəzər ticarət yolunun da əhəmiyyəti artmağa başladı. XV əsrin ikinci yarısında ticarətin mərkəzinin tədricən şimala doğru dəyişməsi Xəzər ticarətində Azərbaycanın şimal bölgələrinin əhəmiyyətinin artmasına gətirib çıxardı[393].

Bu dövrdə Qızıl Orda dövlətinə qarşı birgə mübarizə aparmaq üçün Moskva knyazı III İvan (1462-1505) qonşu dövlətlərlə diplomatik danışıqlar aparmağa qərar verdi. Bu münasibətlə 1475-ci ildə III İvan öz elçisi Mark Rossonu danışıqlar aparmaq üçün Ağqoyunlu sarayına göndərdi. Danışıqların əsas məqsədi ticarət və diplomatik əlaqələrin genişləndirilməsi və Qızıl Orda xanı Əhmədə (1459-1481) qarşı birgə mübarizə aparmaq idi. Aparılan danışıqlar dostluq şəraitində keçmiş və 1475-ci ilin noyabr ayında rus elçisi Venesiya səfiri Ambrocco Kontarini və Uzun Həsənin elçisi ilə birlikdə Moskvaya geri qayıtmışdı[394]. Onu da qeyd edək ki, Ağqoyunlu dövləti ilə Moskva knyazlığı arasında aparılan diplomatik danışıqlarda, çox ehtimal ki, Şirvanşah Fərrux Yasar vasitəçilik etmişdir. Çünki bu dövrdə Şirvanşahlar dövləti də Rusiya ilə aparılan siyasi danışıqlarda Qızıl Orda dövlətinə qarşı birgə mübarizə məsələsini müzakirə etmişdir.

Uzun Həsən Moskva knyazlığı ilə siyasi münasibətlər qurmaqda maraqlı olsa da, lakin Qızıl Orda dövlətinə qarşı mübarizə aparmaq üçün ona hərbi yardım göstərə bilmədi. Çünki bu dövrdə Osmanlı imperiyası ilə müharibədə məğlubiyyətə uğra-

---

[393] Ф. Алиев, *Азербаджано-Русские отношения (XV-XIX вв.)*, Баку, Элм, 1985, с. 23; С. Ашурбейли, *Экономические и культурные связи Азербайджана с Индией в средние века*., Ваку, Элм, 1990, с.31.

[394] *Барбаро и Контарини о России*., с.216; Ф. Алиев, *a.g.ə.*, с.23; А. Гусейнов, *Азербайджано-Русские отношения (XV-XVII веков).,* Баку, Изд. АН Азерб. ССР), 1963, с.71; *История народов Северного Кавказа с древнейших времен до концьа XVIII в*., Москва, Наука, 1988, с.274; М. Фехнер, *Торговля русского государства со странами Востока в XVI в*., М, 1956, с.19.

mış və daxili iğtişaşları yatırmaqla məşğul olan Ağqoyunlu hökmdarı, Qızıl Orda dövlətinə qarşı mübarizə aparacaq gücdə deyildi. Digər tərəfdən Uzun Həsəndən ehtiyat edən Əhməd xan, Marko Rossodan əvvəl Təbrizə qiymətli hədiyyələrlə birlikdə 200 nəfərlik bir elçi heyəti göndərmiş, Ağqoyunlu hökmdarından Qızıl Ordanın cənub sərhədlərini pozmayacağı haqqında təminat almışdı[395].

Ağqoyunluların Azərbaycanda siyasi hakimiyyəti dövründə gürcü çarları ilə siyasi münasibətlər Azərbaycanın xarici siyasətində olduqca vacib rol oynayırdı. Bu dövrdə Gürcü çarları Ağqoyunlu dövlətindən vassal asılılığında idi və Azərbaycan xəzinəsinə illik xərac ödəyirdilər.

XV əsrdə Gürcüstanda üç carlıq (Kartli, Kaxetiya, İmeretiya) və bir Atabəylik (Samçxe) mövcud idi[396].

Ağqoyunluların Gürcü çarları ilə siyasi münasibətləri hələ onların Azərbaycanda hakimiyyətə gəlməsindən əvvələ təsadüf edir. Bu münasibətlər gürcü çarlarının itaətsizliyi səbəbindən Ağqoyunluların gürcü bölgələrinə yürüşü ilə müşayiət olunurdu.

Uzun Həsənin Gürcüstana ilk hərbi yürüşü 1458-ci ildə olmuşdur. Bu dövrdə Osmanlı imperiyası Gürcüstanın Qara dəniz ətrafı ərazilərini işğal etməyə başlamışdı. "Gürcü xronikləri"ndə verilən məlumata görə "139-cu gürcü ilində (1451), (Gürcü təqvimi 1312-ci ildən başlayır - M.A.) Tatarlar (türklər) Abxaziya ərazilərinə gələrək Sokum şəhərini və bütün Qaradənizin şimal hissəsini ələ keçirdilər". Qeyd olunduğu kimi, həqiqətən, 1451-ci ilin yazında Sultan II Mehmedin göndərdiyi Osmanlı donanması Şərqi Qaradəniz ətrafını-Meqrel və Abxaziya ərazilərini işğal etmişdi. Osmanlıların Gürcüstanın Qara dənizlə sərhəd ərazilərinə hakim olması 1453-cü ildə Diyarbəkrdə Ağqoyunlu bəyliyinin başına keçən Uzun Həsənlə Sultan II Mehmed arasında

---

[395] *Azərbaycan tarixi: VII cilddə,* III c., s.101-102.

[396] В. Багратиони, *История царства Грузинской,* пер. Н. Накашидзе, Тбилиси, Мецьниереба, 1976, с.21.

Qara dənizə sahib olmaq uğrunda rəqabəti gücləndirdi[397]. Çünki osmanlıların Qara dənizdə möhkəmlənməsi liman dövləti olan Trabzonun işğalına səbəb ola bilərdi. Bu da Uzun Həsənin həyat yoldaşı Teodora (Dəspinə xatun) vasitəsilə bu Yunan dövlətinə olan hüquqi varisliyinə ciddi təhlükə demək idi.

Uzun Həsən 1457-ci ilin yazında qaraqoyunluları məğlub edərək Ərzincanı ələ keçirdikdən sonra 1458-ci ildə gürcü bölgəsinə yürüşə başladı. Ağqoyunlu hökmdarı bu səfərdə Samçxe atabəyliyini ələ keçirərək itaət altına aldı. Həmçinin Kartli bölgəsinin qərb hissəsinə yürüş edərək böyuk qənimətlə geri qayıtdı[398].

Uzun Həsən bu yürüşdən sonra Məmlük sultanı İnala bir elçi göndərərək "altı qalanı gürcü kafirlərinin əlindən aldığı" xəbərini ona bildirmişdi[399].

Bu dövrdə Gürcü çarları arasında gedən siyasi mübarizə ağqoyunluların və osmanlıların bu ərazilərə müdaxiləsinə səbəb olurdu. 1462-ci ildə İmeretiya çarı I Baqrat, Meqrel hakimi Dadyan-Liparit, Abxaz hakimi Şarvaşidze ittifaq bağlayaraq Kartli çarı VIII Georgini Çikori döyüşündə ağır məğlubiyyətə uğratdılar. Bu arada Kartli çarlığına vergi verməkdən imtina edən Samçxe Atabəyi Kvarkvare, VIII Georginin hücumuna məruz qalaraq İmeretiya çarlığına qaçdı. Samçxe Atabəyinin Uzun Həsəndən kömək istəməsi ağqoyunluların Gürcüstana ikinci səfərinə səbəb oldu[400]. 1463-cü ildə Uzun Həsən Dərviş Gilani və Teymur bəyin başçılığı altında Samçxe Atabəyinə kömək üçün

---

[397] F. Kırzıoğlu, *Osmanlılar'ın Kafkas-elleri'ni fethi.*, s.5-8.

[398] F. Kırzıoğlu, *a.g.ə.*, s.9.

[399] W. Hinz, *Uzun Hasan ve Şeyh Cüneyd.*, s.32; H. Yınanç, Akkoyunlular, *Türkmen Akkoyunlu imparatorluğu-siyasal, sosyal ve kültürel tarihine ilişkin makaleler antolojisi.*, Ankara, 2003, s.31.

[400] F. Kırzıoğlu, *a.g.ə.*, s.10; Н. Бердзенишвили, И. Джавахишвили и С. Джанашиа, *История Грузии (с древнейших времен до начала XIX века),* под ред. С. Джанашиа ч.1., Тбилиси, Гос. Издател. Грузинской ССР, 1946, с.301; W. Hinz, *a.g.ə.*, s.120; В. Багратиони, *История царства Грузинской.*, с.132.

Kartli çarına qarşı qoşun göndərdi. Kartli kralı VIII Georgini məğlub edən Ağqoyunlu qoşunu Samçxe atabəyliyində Kvarkvarenin hakimiyyətini bərpa etdi[401].

Uzun Həsən 1466-ci ilin yazında Samçxe atabəyliyi ilə Kartli çarlığı arsında yaranan münaqişə səbəbindən Gürcüstana üçüncü səfərə başladı. Bu səfər əsnasında Uzun Həsən Axalsik qalasını alaraq gürcülərin əsir etdiyi müsəlmanları azad etdi və böyük qənimətlə Ərzuruma qayıtdı.

Uzun Həsən Azərbaycanda hakimiyyətə gəldikdən sonra da gürcü çarlarını öz siyasi təsirində saxlamaq üçün gürcü bölgəsinə yürüşlərini davam etdirmişdi. Ağqoyunlu hökmdarı 1472-ci ildə Gürcüstana dördüncü yürüşə başladı. Bu yürüşün səbəbi bir tərəfdən Ağqoyunlu ordusunda hərbi ruh yüksəkliyini qaldırmaq, digər tərəfdən isə osmanlılarla müharibə ərəfəsində ağqoyunlulara qarşı gürcülərin arxadan ehtimal olunan hərbi təhlükəsini neytrallaşdırmaq məqsədi daşıyırdı[402].

Uzun Həsən Otluqbeli məğlubiyyətindən sonra Ağqoyunlu hakimiyyətinin asılılığından imtina edən gürcü hakimlərini itaətə gətirmək üçün Gürcüstana növbəti yürüşə qərar verdi. Bu məqsədlə Uzun Həsən 1477-ci ildə 20 min süvari və 11 min piyada ilə Gürcüstana hücum etdi. Tiflis və Qori də daxil olmaqla ölkənin mühüm hissəsi ağqoyunlular tərəfindən işğal edildi. Məğlubiyyətə uğrayan gürcü çarı VI Baqrat və Samçxe Atabəyi Kvarkvare Ağqoyunlu hökmdarı ilə sülh müqaviləsi bağlamağa məcbur oldu. Müqaviləyə görə hər il gürcü knyazları 16 min dukat vergi ödəməli idilər. Eyni zamanda Lori vilayəti və Tiflis şəhəri Ağqoyunluların nəzarətinə keçirdi. Bu qələbədən sonra

---

401 Н. Бердзенишвили, И. Джавахишвили и С. Джанашиа, *История Грузии.,* с.308; W. Hinz, *a.g.ə.,* s.120.

402 W. Hinz, *a.g.ə.,* s.120.

Uzun Həsən Tiflisdə bir hərbi qarnizon yerləşdirərək Xəlil bəy Bektaşı ora canişin təyin etdi və Təbrizə qayıtdı[403].

Ağqoyunlu hökmdarı Sultan Yaqubun hakimiyyəti dövründə də Gürcüstana bir neçə hərbi yürüş edilmişdi. Ağqoyunlu hərbi qüvvələrinin 1486, 1488, 1490-cı illərdə gürcü bölgələrinə etdiyi yürüşlərin məqsədi itaətsizlik göstərən gürcü çarlarını cəzalandırmaq olmuşdu[404].

Ümumiyyətlə, Ağqoyunlu sülaləsinin hakimiyyəti dövründə gürcü çarları Azərbaycandan vassal asılılığında olmuş və Ağqoyunlu xəzinəsinə illik vergi ödəmişlər. Həmçinin Ağqoyunlu dövlətinin Tiflis şəhərində və Lori vilayətində hərbi qarnizonu yerləşdirilmişdi.

## 1.5. XV əsrdə Şirvanşahlar dövlətinin xarici siyasi əlaqələri

XV əsrdə Yaxın Şərq bölgəsində gedən siyasi hadisələrdə fəal şəkildə iştirak edən, istər hərbi-siyasi, istərsə də diplomatik münasibətlərdə özünəməxsus şəkildə mövqe tutan Azərbaycan dövlətlərindən biri də Şirvanşahlar dövləti idi. Bu dövrdə Şirvanşahların siyasi hakimiyyəti Azərbaycanın Kür çayından şimal-şərqdə yerləşən ərazilərini əhatə edirdi.

XV əsrdə Şirvanşahlar dövləti özünün inkişaf dövrünü yaşayırdı. İstər dövlətin daxili siyasəti, istərsə də xarici siyasi əlaqələri intensiv şəkildə inkişaf edirdi. Eyni zamanda Şirvanşahlar dövləti bölgədə baş verən siyasi hadisələrdə yaxından iştirak edirdi. Bunun əsas səbəbi mövcud mürəkkəb siyasi şəraitdə qon-

---

[403] Н. Бердзенишвили, И. Джавахишвили и С. Джанашиа, *История Грузии.,* с.309; В. Багратиони, *История царства Грузинской.*, с.23; W. Hinz, *a.g.ə.*, s.121.

[404] В. Багратиони, *a.g.ə.,* с.24-26; Фазлуллах ибн Рузбихан Хунджи, *Тарих-и алам-ара-йи Амини,* пер: с английского на русский Т. Минорской, редакторы и прим. З. Буниятов и О. Эфендиев, Баку, Элм, 1987, с.67-69; J. Woods, *The Aqquyunlu Clan, Confederation, Empire.*, p.156.

şu dövlətlərin hücumlarından qorunmaq və öz siyasi müstəqilliyini qoruyub saxlamaq idi. Bu dövrdə Şirvanşahlar dövlətinin hökmdarı Şeyx I İbrahim (1382-1417) idi. Onun hakimiyyəti illərində dövlətin xarici siyasətinin əsasını dövlətin siyasi müstəqilliyinin qorunması təşkil edirdi. XV əsrdə Şirvanşahlar dövlətinin xarici siyasətində mühüm rol oynayan dövlətlərdən biri Teymurilər dövləti idi. Şirvanşahların teymurilərlə münasibətləri Əmir Teymurun qərb istiqamətində birinci yürüşü (1386-1389) dövrünə təsadüf edir.

Əmir Teymur ilk yürüşü dövründə Qarabağda olarkən (1386) Şirvanşah Şeyx I İbrahim Şirvanşahlar dövlətini Teymurun viranedici hücumundan xilas etmək üçün Şamaxıda Teymurun adına xütbə oxudub sikkə kəsdirdi və onun yanına gələrək öz itaətini bildirdi. Teymur Şirvan hökmdarını hörmətlə qəbul edərək ehtiram göstərdi və onu Şirvan hakimi kimi tanıdı[405].

Əmir Teymurun qərb istiqamətində üçüncü yürüşündən (1399-1404) sonra işğal etdiyi ərazilərin idarə olunması qaydasını müəyyənləşdirərkən Şirvanşahlar dövləti vassal ərazi kimi Ömər Mirzənin tabeliyinə verilmişdi[406].

Əmir Teymurun ölümündən (1405) sonra Teymurilər dövlətinin beynəlxalq nüfuzunun zəifləməsindən istifadə edən I Şeyx İbrahim Teymuri Miranşaha və Mirzə Ömərə qarşı itaətsizlik göstərməyə başladı. Teymurilər dövlətinin siyasi dayaqlarının zəiflədiyi bu dövrdə Azərbaycanda teymuri işğalına qarşı güclü müqavimət hərəkatı baş qaldırdı. Bu müqavimət hərəkatının başında duran şəxslərdən biri də Şeyx I İbrahim idi. Teymurilərə qarşı mübarizə aparmaq üçün Azərbaycan əmirlərini öz ətrafında birləşdirən Şirvan hökmdarı hakimiyyət boşluğundan istifadə edərək Azərbaycanda siyasi hakimiyyət uğrunda mübarizəyə başladı.

---

[405] S. Aşurbəyli, *Şirvanşahlar dövləti (VI-XVI əsrlər).,* s.281.

[406] R. Ağayev, *a.g.ə.,* s.44; В. Бартольд, *Ширваншахи,* Сочинения, т.2, ч. 1., М, Изд Вост. Лит, 1963, с. 878; N. Şami, *Zafername.*, s.346.

Ölkədə yaranan siyasi böhrandan istifadə edən Şeyx I İbrahim, h. 809-cu ilin zilhiccə ayında (may-iyun/1406) paytaxt Təbrizə daxil oldu[407]. Lakin Sultan Əhmədin İraqdan Azərbaycana gəldiyini eşidib "ərse-i məmləkət sahibsiz olduğundan xalq hər kəsin təqibindən əziyyət çəkirdi. Gəldik və mühafizə etdik.. İndi məmləkətin sahibi gəldiyi üçün biz də öz evimizə gedirik...", - deyərək Təbrizi tərk etdi[408].

Azərbaycanda Qaraqoyunlu dövləti yarandıqdan sonra I Şeyx İbrahim Qaraqoyunlu dövlətinin vassallığlını qəbul etdi və sikkəni Qaraqoyunlu dövlətinin rəsmi hökmdarı Pirbudağın adına kəsdirdi. Bunun müqabilində o, Şirvan vilayətini idarə etmək hüququnu özündə saxladı[409]. Şirvanşahlar dövləti Qaraqoyunlu hakimiyyətindən siyasi cəhətdən asılı olsa da, öz daxili müstəqilliyini qoruyub saxlayırdı. Bu dövrdə də Şirvanşahlar dövlət ilə Teymurilər dövləti arasında dostluq münasibətləri davam edirdi. Hər iki dövlət arasında mövcud olan bu dostluq münasibətləri tərəflərin bölgədəki siyasi maraqlarından irəli gəlir və onların dövlət maraqlarını ifadə edirdi.

H. 814-cü ildə (1411) Şeyx I İbrahim öz elçilərini qiymətli hədiyyələrlə Teymuri hökmdarı Şahruxun yanına göndərmişdi[410].

H. 820-ci ildə (1417) vəfat edən Şirvanşah I Şeyx İbrahimdən sonra Şirvanşahlar taxtına əyləşən I Xəlilullah (1417-1465) da atası kimi Teymurilər dövləti ilə dostluq münasibətlərini qoruyub saxlayırdı[411].

Şahruxun Azərbaycana yürüşü dövründə (1420) I Xəlilullah Qarabağda olan teymuri hökmdarının yanına gələrək öz sə-

---

[407] İ. Aka, *Timur ve devleti.*, s.42; S. Aşurbəyli, *Bakı şəhərinin tarixi.,* s.87.
[408] S. Aşurbəyli, *Şirvanşahlar dövləti (VI-XVI əsrlər).*, s.286.
[409] Ш. Бидлиси, *Шараф-Наме.*, с.102; R. Ağayev, *a.g.ə.,* s.49; Ş.Fərzəliyev, *Azərbaycan XV-XVI əsrlərdə.*, s.92.
[410] S. Aşurbəyli, *Şirvanşahlar dövləti (VI-XVI əsrlər).*, s.292.
[411] Ş. Fərzəlibəyli, *Azərbaycan və Osmanlı imperiyası.,* s.67; R. Ağayev, *a.g.ə.,* s.55.

daqətini bildirdi (17 dekabr/1420). Şahrux Şirvan hakimiyyəti ilə siyasi münasibətlərini daha da möhkəmləndirmək üçün Əmir Teymurun nəvəsi Əbubəkrin qızını I Xəlilullaha ərə verdi[412].

Bu haqda Həsən bəy Rumlu yazırdı: "Şahrux padşah Qarabağda qışlayan vaxt Şirvan valisi Əmir Xəlilullah, qardaşı Mənuçöhr, Şəki hakimi Seydi Əlinin oğlu Seydi Əhməd, Seyid Əhməd Qaramani, Əmir Şeyx Qəpani, Gürcüstan valisi Aleksandr (Əlisgəndər), Moğolustan padşahının elçisi (rəsul) Kor Yarğuçi, Gilan padşahının əmisi oğlu Əmir Heydər Kiya, Əmir Seyid Rza və Məlik İzzəddin Şir dəfələrlə gələrək, kamyab padşahın (Şahruxun) müzəffər ordusuna bol peşkəşlər gətirdilər"[413]

H. 835-ci ildə (1431-1432) qaraqoyunluların Van hakimi Yar Əlinin Şirvanşah I Xəlilullaha sığınması və Şirvan hökmdarının onu teymuri sarayına göndərməsi Qaraqoyunlu hakimiyyəti ilə Şirvan hakimləri arasında siyasi münasibətləri kəskinləşdirdi. Bu hadisədən qəzəblənən Qaraqoyunlu hökmdarı İsgəndər h. 837-ci ilin sonlarında (1434) Şirvan üzərinə yürüş etdi. Şirvanşah I Xəlilullah elçisi Xalıqverdini kömək üçün Şahruxun sarayına göndərdi. Cağatay hökmdarının yanına gələn (12 sentyabr/1434) elçi ondan hökmdarı adına hərbi kömək istədi. Şirvan hökmdarının Teymuri hakimiyyətindən hərbi kömək xahişi Şahruxun Azərbaycana növbəti yürüşünə (noyabr/1434) səbəb oldu[414].

Cahanşahın Qaraqoyunlu dövlətində hakimiyyətə gəlməsi (1436), Şirvan-Qaraqoyunlu ziddiyyətlərini aradan qaldırdı. Bu dövrdən etibarən Şahruxun ölümünə qədər (1447) teymurilərin siyasi himayəsini qəbul edən hər iki Azərbaycan dövləti daha çox sülh şəraitində yaşamışdır.

---

[412] S. Aşurbəyli, *a.g.ə.,* s.293; F. Sümer, *Kara-Koyunlular*., s.118.

[413] Həsən bəy Rumlu, *Tarixlərin ən yaxşısı (Əhsənüt - təvarix).* I cild, Fars dilindən tərcümə edən Şahin Fazil,. Bakı, Elm, 2022, s. 121.

[414] F. Sümer, *a.g.ə.,* s.133; İ. Aka, *Timur ve devleti*., s.71; Ш. Бидлиси, *a.g.ə*., c.113.

Şirvanşah I Xəlilullahın ölümündən sonra Fərrux Yasarın hakimiyyəti illərində (1462-1500) də Şirvanşahlar dövləti ilə Teymurilər dövləti arasında siyasi-diplomatik münasibətlər inkişaf edərək diplomatik yazışmalar davam etmişdir[415].

1468-ci ilə ağqoyunluların Azərbaycanda siyasi hakimiyyətə gəlməsi ilə Şirvanşah Fərrux Yasar Teymurilər dövləti ilə ənənəvi dostluq münasibətini pozaraq teymurilərə qarşı Ağqoyunlu hakimiyyəti ilə ittifaq yaratdı. Bunun qarşılığında Ağqoyunlu dövləti Şirvanşahlar dövlətinin daxili siyasi müstəqilliyinə təminat verdi. Uzun Həsən və onun varisləri hakimiyyətdə olduqları müddətdə Şirvanşahlar dövləti ilə müttəfiqlik münasibətlərini davam etdirmişdir[416].

Ümumiyyətlə, XV əsrdə Şirvanşahlar dövləti ilə Teymurilər dövləti arasında siyasi münasibətlər hər iki dövlətin mənafeyinə uyğun olaraq, əsasən dostluq xarakteri daşımış və bu münasibətlər hər iki dövlətin siyasi rəqibi olan Qaraqoyunlu dövlətinə qarşı yönəlmişdi. Ağqoyunlu sülaləsi hakimiyyətə gəldikdən sonra hər iki Azərbaycan dövlətinin siyasi müttəfiqə çevrilməsi Şirvan-Teymuri münasibətlərini zəiflətmiş və bu münasibətlər passiv xarakter daşımışdı.

Şirvanşahlar dövləti öz siyasi müstəqilliyini qorumaq üçün çoxşaxəli xarici siyasət yeridirdi. Bu xarici siyasət istiqamətlərindən biri də Osmanlı imperiyası ilə mövcud olan siyasi münasibətlər idi.

Şeyx I İbrahimin hakimiyyəti dövründə Şirvanşahlar dövləti ilə Osmanlı imperiyası arasındakı siyasi münasibətlər aktiv xarakter daşımamışdı. Çünki Əmir Teymurun qərbə yürüşləri zamanı Şirvanşahların teymurilərlə müttəfiqliyi Şirvanşahlar dövləti ilə Osmanlı imperiyası arasında siyasi münasibətlərin inkişafına ciddi maneə yaradırdı.

---

[415] Ş. Fərzəlibəyli, *Epistolyar irsimizdən: Şirvanşahlar Xəlilullah və Fərrux Yəsarla yazışmalar*, Azərbaycan tarixi müzeyinin əsərləri., 2005, s.71.

[416] S. Aşurbəyli, *Şirvanşahlar dövləti (VI-XVI əsrlər)*., s.302.

Şirvanşah I İbrahimin ölümündən sonra Şirvanşahlar taxtına əyləşən I Xəlilullahın hakimiyyəti dövründə (1417-1465) Şirvanşahlar dövləti ilə Osmanlı imperiyası arasındakı diplomatik münasibətlərdə müəyyən canlanma yarandı. I Xəlilullah hakimiyyətə gəldikdən sonra Qaraqoyunlu dövlətinin siyasi asılılığından qurtarmaq üçün siyasi əlaqələrini gücləndirdi. Bu dövrdə Qaraqoyunlu dövləti ilə dostluq münasibətində olan Osmanlı imperiyası ilə siyasi münasibətləri sahmana salmaq Şirvanşahlar dövləti üçün olduqca vacib idi.

I Xəlilullah Osmanlı sarayı ilə dostluq münasibətlərini inkişaf etdirmək üçün 1420-ci ildə elçisi Xacə Məhəmməd Bakuyi vasitəsilə Osmanlı sultanı II Mehmedə bir məktub göndərmişdi. Məktubda o, teymurilərin qaraqoyunlular üzərinə yürüşə başlaması və Şahruxun ona yazdığı məktub haqqında ətraflı məlumat verir və teymurilərlə olduğu kimi osmanlılarla da dostluq münasibəti saxladığını nümayiş etdirirdi. Osmanlı sultanı cavab məktubunda yazırdi: "Xoşbəxt şəhriyar və böyük padşah Şirvanşah Sultan Xəlilə,.. Sizin qədim məhəbbət səmimi dostluq barədə izhar etdiyiniz sözlər bizim tərəfimizdən diqqətlə mütaliə olundu... Əlahəzrət xaqan Şahruxun Azərbaycana tərəf yürüşə keçməsi bizə məlum oldu... Əgər keçmiş zamanlarda olduğu kimi o, Qara Yusif bəyin cəzalandırılmasını bəhanə edərək bu diyara tərəf hücum edərsə, biz əbəs yerə onlara yaltaqlıq etməyəcəyik.. Siz daha ağıllı, kamallı hərəkət edin və həmişə dostluq və birlik yolunu qoruyun"[417].

Osmanlı imperiyası ilə diplomatik münasibətləri davam etdirən Şirvan hökmdarı osmanlıların Trabzonu fəthi münasibətilə Sultan II Mehmedi təbrik etmək üçün elçisi Ziyaəddin Yusif bəyi qiymətli hədiyyələrlə Osmanlı sarayına göndərmişdi[418].

Fərrux Yasarın hakimiyyəti dövründə (1465-1500) də Şirvan-Osmanlı münasibətləri normal davam etmiş, hər iki

---

[417] Ş. Fərzəlibəyli, *Azərbaycan və Osmanlı imperiyası.*, s.68-69; Ş. Fərzəlibəyli, *Epistolyar irsimizdən.*, s.72-75; R. Ağayev, *a.g.ə.,* s.52.
[418] Ş. Fərzəlibəyli, *Epistolyar irsimizdən.*, s.75-78.

dövlətin hökmdarları müntəzəm olaraq məktub vasitəsilə əlaqə saxlamışlar[419].

XV əsrdə Şirvanşahlar dövlətinin siyasi münasibətlər yaratdığı dövlətlərdən biri də Moskva knyazlığı idi. Şirvanşahlar dövləti ilə Moskva knyazlığı arasında diplomatik münasibətlər Fərrux Yəsarın hakimiyyəti dövrünə (1462-1500) təsadüf edir. Fərrux Yasar 1465-ci ildə öz elçisi Həsən bəyi Moskvaya göndərdi və bununla da Azərbaycanın Moskva knyazlığı ilə rəsmi diplomatik əlaqələrinin əsası qoyuldu. Rus çarı III İvan (1462-1505) Şirvan hökmdarınn elçisini layiqincə qəbul etdi. Həsən bəylə aparılan danışıqlarda Şərq ölkələri ilə Rusiya arasında aparılan ticarət əlaqələri məsələləri müzakirə olunmuşdu[420].

1466-cı ildə çar III İvan buna cavab olaraq öz elçisi Vasili Papini qiymətli hədiyyələrlə Şirvana göndərdi. Bu danışıqlarda da Azərbaycanla Moskva knyazlığı arasında ticarət əlaqələri müzakirə olunmuşdu[421].

1499-cu ilin mart ayında Şirvanşahlar dövləti Moskvaya növbəti bir elçi göndərdi. Şirvanşahlar dövlətinin Şahəbəddin adlı bu elçisinin diplomatik missiyası Şirvanşahlar dövləti ilə Moskva knyazlığı arasında dostluq müqaviləsi bağlamaq olmuşdu[422].

XV əsrdə Şirvanşahlar dövləti ilə Moskva knyazlığı arsında mövcud olan diplomatik-siyasi münasibətlər hər iki dövlət arasında siyasi və tıcarət əlaqələrinin inkişafına güclü təkan vermişdi.

---

[419] Ş. Fərzəlibəyli, *Azərbaycan və Osmanlı imperiyası.*, s.70; S. Aşurbəyli, *Şirvanşahlar dövləti (VI-XVI əsrlər).*, s.301.

[420] *Azərbaycan tarixi: VII clilddə,* III c., s.100-101; Ф. Алиев, *Азербаджано-Русские отношения (XV-XIX вв.).*, с.15; А. Гусейнов, *Азербайджано-Русские отношения (XV-XVII веков).*, с.65; М. Фехнер, *Торговля русского государства со странами Востока в XVI в.*, с.19; П. Бушев, *История посольств и дипломатических отношений Русского и Иранского государства в 1586-1612 гг.*, с.34.

[421] S. Aşurbəyli, *Şirvanşahlar dövləti (VI-XVI əsrlər).*, s.301; М. Фехнер, *Торговля русского государства со странами Востока в XVI в.*, с.19; П. Бушев, *a.g.ə.,* с.35.

[422] Ф. Алиев*, a.g.ə.,* с.24; А. Гусейнов, *a.g.ə.*, с.78.

XVI əsrdə səfəvilər sülaləsinin Azərbaycanın bütün ərazilərini birləşdirmək istiqamətindəkı addımları, Şirvanşahlar dövlətinin daxili müstəqilliyinə və xarici siyasi əlaqələrinə nəzərəçarpacaq dərəcədə mənfi təsir etdi.

1500-cü ilin dekabr ayında İsmayıl Səfəvi Şirvanşah Fərrux Yəsarı Çobanı (Cəbani) düzündə baş vermiş döyüşdə ağır məğlubiyyətə uğratdı və bu döyüşdə Fərrux Yəsar qaçarkən öldürüldü. Onun oğlu Şeyxşah xəzinəsini Gülüstan qalasında yerləşdirib, oranın müdafiəsini qulamı Xosrova tapşırdı, özü isə Şahdağ istiqamətində geri çəkili. 1501-ci ilin yazında İsmayıl Səfəvi Xosrova elçi göndərərək təslim olmağı tələb etsə də, lakin Xosrov imtina etdi və səfəvi elçisini qətlə yetirdi. Bundan sonra İsmayılın əmri ilə Bakı qalası hücumla alındı[423].

Şirvanşah Fərrux Yəsarın qızılbaşların təqibindən qaçan oğlu Şeyxşah Xəzər sahilindəki Şəhrinov limanından gəmi ilə Biye-pəs Gilanına qaçaraq, 1501-1502 –ci illərdə Biye-pəs əmiri Hüsaməddinə sığınmışdı. Şeyxşah 1502-ci ildə Şirvana qayıdaraq, hakimiyyətə keçdi[424].

Şeyxşah yalnız Şah İsmayılın ali hakimiyyətini tanıdıqdan və ona tabe olduqdan sonra Şirvanda hakimiyyətini davam etdirməyə başladı.

Şamaxı və Şabranda h. 911 (1505/6)-ci ildə kəsilən sikkələrin Şeyxşahın deyil, Şah I İsmayıl Səfəvinin adından zərb edilməsi onu deməyə əsas verir ki, artıq bu dövrdə Şirvanşahlar Səfəvilərin təbəəsi idi.

1509-cu ilin sonlarında Şah I İsmayıl bac-xərac ödəməkdən imtina edən Şirvanşah II İbrahım Şeyxşahın (1502-1524) üzərinə yürüş edərək, Şirvanın Səfəvilər dövlətindən asılılığını gücləndirdi[425]. Şirvanşah II İbrahim Şeyxşah (1502-1524) Şah I İsmayılın Şirvana ikinci yürüşündən sonra yenidən xərac ödə-

---

[423] О. Эфендиев, *Азербайджанское государство Сефевидов в XVI веке.*, с.88.

[424] S. Aşurbəyli, *Şirvanşahlar dövləti (VI-XVI əsrlər).*, *s.312-313, 317.*

[425] О. Эфендиев, *a.g.ə.,* s.67.

məyə razı oldu. Şeyxşah 1517-cı ildə öz elçilərini Təbrizə göndərib, Səfəvilərdən vassal asılılığını qəbul etdiyini bildirdi. Şeyxşah hətta özü bundan sonra şəxsən 1518-ci və 1521-ci illərdə iki dəfə İsmayılın hüzuruna gələrək, onunla görüşmüşdü[426].

Qeyd edildiyi kimi, XVI əsrin əvvəllərindən artıq Şirvanşahlar Səfəvi dövlətinin təbəəsi olaraq, Səfəvi xəzinəsinə xərac verir və qızılbaş hökmdarının adına sikkə kəsdirirdi. Bu asılılıq Şirvanşahların xarici siyasi əlaqələrini nəzərəçarpacaq dərəcədə məhdudlaşdırmışdı.

Çaldıran savaşından (1514) sonra Şirvanşah Şeyxşahla Osmanlı hökmdarı Sultanı Səlim arasında bir neçə məktub mübadiləsi olmuşdur.

Çaldıran döyüşündəki qələbədən sonra, Misir və Suriyada da böyük qələbə əldə edən Sultan Səlim Şirvanşah İbrahim Şeyxşaha göndərdiyi məktubunda, özünün Orta Şərqin bu iki dövləti (Səfəvi və Məmlük dövləti – M.A.) üzərində əldə etmiş qələbəsini ona xəbər vermişdi. Bu məktubda Osmanlı Sultanı Səfəvi dövlətinə qarşı yeni yürüşü barədə də məlumat verərək, tezliklə Şah İsmayıl üzərinə hücuma keçmək niyyətində olduğunu bildirir, Sultan Səlim Şirvana çatacağı tədqirdə Şirvanşahdan Osmanlı qoşunu üçün azuqə və ülufə hazırlanmasını xahiş edirdi[427].

Şirvanşah İbrahim Şeyxşah Sultan Səlimin vəfatı və Sultan Süleymanın taxta çıxması münasibətilə, h. 930 (1524)-cu ildə elçisi əl-Hac Hüseynlə Osmanl sarayına rəsmi məktub göndərmiş, — səltənət, cahandarlıq, xilafət və şəhriyarlıq taxt-tacının öz varisinə çatmasını təbrik etmişdi. Sultan Süleyman isə öz növbəsində ona göndərdiyi cavabında — aramızdakı vəfadarlıq əbədi olsun yazaraq Şirvanşaha olan dostluq münasibətini bildirmişdir[428].

Qeyd edək ki. İbrahim Şeyxşahın 1524-cu ildə vəfatından sonrakı dövrdə Şirvanşahlar dövləti II Xəlilullahın (1524-1535)

---

[426] S. Aşurbəyli, *a.g.ə.,* s.320.
[427] Ş. Fərzəlibəyli, *Azərbaycan və Osmanlı imperiyası.*, s.106.
[428] Ş. Fərzəlibəyli, *a.g.ə.,* s.110.

və II Fərrux Yəsarın hakimiyyəti altında olmuş, 1538-ci ildə isə Səfəvilərə tabe edilmişdir.

1534-cü ildə İraqeyn yürüşü zamanı Sultan Süleyman Ərzincanda olarkən II Xəlilullah ona səfir göndərərək Osmanlı dövlətinin vassalı olmağa hazır olduğunu bildirmişdi[429].

Ümumiyyətlə, XV əsrdə Şirvanşahlar dövlətinin xarici siyasi əlaqələrinə nəzər yetirərkən öz dövlət müstəqilliyini qorumaq üçün uğurlu siyasət yeritdiyinin şahidi oluruq. Bölgədə baş verən mürəkkəb siyasi hadisələrdə balanslaşdırılmış xarici siyasət yeridən Şirvan hakimləri nəticədə öz daxili müstəqilliklərini qoruyub saxlamış və qonşu dövlətlərlə diplomatik və siyasi münasibətlər yarada bilmişdilər. XVI əsrin əvvəllərindən etibarən Səfəvi hakimiyyətinin təbəəsi olan Şirvanşahların qonşu dövlətlərlə siyasi münasibətləri məhdud xarakter daşımış, bu amil Şirvanşahların beynəlxalq əlaqələrində nəzərəçarpacaq dərəcədə özünü biruzə vermişdi. 1538-ci ildə Səfəvi hakimiyyəti Şirvanşahlar dövlətinin varlığına son qoyaraq Şirvan ərazilərini Səfəvi dövlətinin siyasi hüdudlarına daxil etmişdi.

## 1.6. Azərbaycan dövlətlərinin beynəlxalq münasibətlər sistemində yeri və rolu

XV əsrdə Azərbaycan dövlətlərinin beynəlxalq münasibətlər sistemində özünəməxsus yeri və rolu olmuşdur. Bu dövr Azərbaycanın dövlətçilik tarixinə Qaraqoyunlu, Ağqoyunlu, Şirvanşahlar dövlətinin öz varlıq və inkişafı uğrunda apardıqları mübarizə və onların yerləşdikləri bölgənin digər dövlətləri ilə sıx xarici siyası əlaqələr tarixi kimi düşmüşdür. XIV əsrin ikinci yarısından başlayaraq Yaxın və Orta Şərq bölgəsi böyük siyasi və strateji maraqları olan Osmanlı imperiyası, Teymurilər və Qızıl Orda dövlətlərinin daim diqqət mərkəzində olmuşdur. Bu dövlətlərin hər birinin bölgədə özünəməxsus siyasi maraqları və

---

[429] Kırzıoğlu, *Osmanlıların Kafkas Ellerini Fethi*, s.141.

xarici siyasət xətti olmuşdur. Məhz bu dövrdə Azərbaycan dövlətlərinin yeritdiyi xarici siyasət, bölgədə baş verən siyasi hadisələr əsasında müəyyən olunurdu.

Bu dövrdə beynəlxaq münasibətlər sistemi dövlətlərin siyasi və diplomatik münasibətləri, hərbi-siyasi qarşıdurmaları və iqtisadi-ticarət əlaqələrinin tənzimlənməsi fonunda inkişaf edirdi. Özünəməxsus orta əsr xüsusiyyətlərini özündə əks etdirən, əsasını siyasi və hüquqi ənənələr təşkil edən beynəlxalq münasibətlər sisteminin inkişafı Yaxın və Orta Şərqdə mövcud olan siyasi və iqtisadi münasibətlərin formalaşmasına ciddi surətdə təsir edirdi.

Rus tarixçisi S.D.Skazkin beynəlxalq münasibətlər sisteminin formalaşması haqqında qeyd edirdi ki, "XI-XV əsrlərdə Avropada müəyyən beynəlxalq münasibətlər sistemi yaranır, tədriclə bəzi diplomatik normalar və ənənələr işlənib hazırlanırdı. Bu dövrdə müharibə və dəniz hüququ (XII əsrdə qanun halına salınmış Barselona dəniz hüququ) inkişaf etməkdə idi. Eyni zamanda Avropa ölkələri ilə Şərq ölkələri arasında da iqtisadi, siyasi və mədəni əlaqələr genişlənir və möhkəmlənirdi"[430].

Bu dövrdə beynəlxalq münasibətlərin inkişafına bir neçə amil təsir edirdi. Xalqlar və dövlətlər arasında inteqrasiya əlaqələrinin sürətlənməsi, Avropada feodallaşma prosesinin başa çatması, daxili və xarici ticarətin genişlənməsi ilə əlaqədar bu münasibətlər inkişaf etməkdə idi. Eyni zamanda xalqların formalaşması və milli dövlətlərin təşəkkülü prosesinin başlanması, həmçinin XIV-XV əsrlərdə osmanlıların Ön Asiya və Balkan yarımadasında möhkəmlənməsi beynəlxalq münasibətlərin inkişafına böyük təsir göstərirdi[431].

Orta əsrlər dövründə beynəlxalq münasibətlər sisteminin formalaşmasında beynəlxalq hüququn subyektləri arasında münasibətləri tənzimləyən beynəlxalq hüquq normaları mühüm rol

---

[430] *Orta əsrlər tarixi*, red. S. Skazkin, tərc. Y. Mahmudov., Bakı, Maarif, 1988, s. 444-445.
[431] *Orta əsrlər tarixi*, red. S. Skazkin., s.444.

oynayırdı. Bu dövrdə beynəlxalq hüququn ən qədim sahələrindən biri olan, beynəlxalq münasibətlər sisteminin formalaşmasında müstəsina əhəmiyyət kəsb edən və diplomatik münasibətləri özündə əks etdirən diplomatiya hüququ inkişaf etməkdə idi. XV əsrdə diplomatiya hüququ dövlətlər arasında danışıqlar, müqavilələr, diplomatik yazışmalar yolu ilə həyata keçirilirdi. Bu dövrdə diplomatik elçilər və elçilik xidməti toxunulmazlıq hüququna malik idi[432].

Hələ qədim Hindistanda Mani qanunlarına görə "səfir və səfirlik Allahın himayəsi altında" idi. Orta əsrlərdə də bu prinsip xüsusi olaraq qorunub saxlanır, müəyyən istisina hallara baxmayaraq, elçilərin toxunulmazlıq hüququna ciddi əməl olunurdu[433].

Səfəvi dövrü Azərbaycan tarixçisi İsgəndər bəy Münşi elçilərin toxunulmazlığını bu şəkildə şərh edirdi: "Ağıllı adamlara mə'lumdur ki, aləm sultanları və dünya padşahları arasında elçilər barədə belə bir qanun vardır: Elçilərin istər dostluq, birlik, istərsə də düşmənçilik və ixtilaf vaxtlarında göndərilmələrindən asılı olmayaraq incidilmələri və zərər görmələri "Allah və əhali tərəfindən" yol verilməyən və bəyənilməyən hadisədir. Elçilərin canlarına və mallarına Allah və insanlar tərəfindən pislənilən və məzəmmət olunan [yolverilməz hərəkətlər] heç vəch ilə elçilərə qarşı yönəlməməlidir, çünki elə adamlar onları göndərən şəxslərin buyruq adamlarıdır, elçilərin vəziyyətləri elçilik xidmətlərini yerinə yetirmək, məktub və xəbər çatdırmaqdır... Gözəl xasiyyəti bütün aləm tərəfindən bəyənilən, ölçülüb-biçilən davranışı isə böyük qanun olan və cahan sultanları üçün dəsturüləmələ çevrilən Allah-taalanın ali həzrəti (Şah Abbas) cahana pənah verən dərgaha gələn rum sülaləsinin mötəbər elçilərindən Məhəmməd ağanı Qəzvin darüssəltənəsində izzət və ehtiramla saxlamış, on-

---

[432] Л. Левин, *История международного права*, М, Экзамен, 2006, с.121; Ю. Баскин, и Д. Фельдман, *История международного права*, Москва, Международные отношения, 1990, с.52.
[433] Л. Левин, *История международного права.*, с.123.

dan sonra gələn Mustafa ağaya isə şahanə diqqət yetirmiş, onu nəvazişləndirib öz diyarına rəvan etmişdi”[434].

Diplomatik toxunulmazlıq hüququ bəzən hərbi münaqişələr zamanı dövlətlər tərəfindən pozulsa da, lakin siyasi hakimiyyətlər bu prinsipə müntəzəm şəkildə əməl etməyə çalışırdılar. Belə ki, Osmanlı-Teymuri münasibətlərinin gərginləşdiyi bir vaxtda Əmir Teymur sultan Bəyazidə təhdidedici bir məktub göndərmiş (avqust/1400) və bu məktubdan qəzəblənən Osmanlı sultanı elçiyə işgəncə vermək istəmişdi. Bu zaman Şeyx Buxari və Fənari, Osmanlı sultanına elçilərin toxunulmazlıq hüququnu xatırladaraq onu bu işdən çəkindirmişlər[435].

Biz elçilərin müharibə vaxtı toxunulmazlıq hüququnun qorunmasını, Ankara döyüşü (1402) ərəfəsində Əmir Teymurun Osmanlı elçilərinə göstərdiyi münasibətdə də görürük. Belə ki, Ankara döyüşü ərəfəsində sultan Bəyazid Əmir Teymura təhqiramiz şəkildə bir məktub yollayır. Əmir Teymur məktubu oxumuş və elçiyə dönərək: “Əgər millətlərin elçilərinin toxunulmazlıq hüququ olmasa idi onun və ətrafındakı adamların başını kəsəcəyini” söyləmişdi[436]. Göründüyü kimi, bu dövrdə nəinki Qərbdə, eyni zamanda Şərq ölkələrində də beynəlxalq hüququn prinsipləri qorunmaqda idi.

XV əsrdə Azərbaycanda mövcud olan siyasi hakimiyyətlərin (Qaraqoyunlu, Ağqoyunlu, Şirvanşahlar-A.M.) diplomatik protokol qaydalarına nəzər yetirdikdə diplomatik toxunulmazlıq hüququna ciddi əməl olunduğu və bu prinsipə hörmətlə yanaşıldığının şahidi oluruq. Belə ki, Azərbaycana gələn elçilər üçün orta əsrlər dövrünün diplomatik protokol qaydalarına uyğun olaraq qəbul mərasimləri təşkil olunmuşdu.

---

[434] İsgəndər bəy Münşi Türkman, *Dünyanı bəzəyən Abbasın tarixi Tarixe-aləmaraye-Abbasi),* II kitab, tərc. Ş. Fərzəliyev., Bakı, Şərq-Qərb Nəşriyyat evi, 2014, s.1883-1884.

[435] J. Hammer, *Osmanlı tarihi.*, s.72.

[436] J. Hammer, *a.g.ə.*, s.77.

XV əsrə qədər daimi səfirlik sistemi yox idi. Dövlətlərarası elçilik sistemi əsasən konkret siyasi missiyanı yerinə yetirən böyük nüfuza malik elçilərdən ibarət olur və iki, üç, beş illik bir dövrü əhatə edərək müvəqqəti xarakter daşıyırdı. Lakin XV əsrdən başlayaraq daimi elçilik sistemi yarandı. Həmçinin bu dövrdə konsul institutları inkişaf edərək dövlətin diplomatik təhsisatlarından birinə çevrildi. Hələ XII-XIII əsrlərdə xristian dövlətləri ilə müsəlman dövlətləri arasında bağlanan müqavilələrə (Piza-Mərakeş/1133) Venesiya-Misir/1238), Araqon-Tunis/1285)) ilk konsulluq haqqında müqavilə kimi baxmaq olar. Məhz bu cür beynəlxalq müqavilələrin bağlanması səfirlik sisteminin daimi xarakter almasına səbəb oldu[437].

Bu dövrdə beynəlxalq diplomatiyada elçilərin girov saxlanması hallarına da tez-tez təsadüf olunurdu. Əsasən siyasi və hərbi münaqişələr zamanı yaranan bu hallardan dövlətlər bir-birinə qarşı təzyiq vasitəsi kimi istifadə edirdi. Bu hadisələrdən biri məhz Osmanlı imperiyasının Trabzonu işğalı ərəfəsində baş vermişdi. Belə ki, Ağqoyunlu bəyi Uzun Həsənin, Sultan Mehmedi Trabzonun işğalından çəkindirmək üçün Saray Xatunun rəhbərliyi ilə Osmanlı sarayına  göndərdiyi elçi heyəti osmanlılar tərəfindən girov saxlanmış və bu yürüşdə ağqoyunluların siyasi bitərəfliyinə nail olunmuşdur.

XV əsrdə Avropa ilə Asiya arasında ticarət əlaqələrinin inkişafında müham rol oynayan beynəlxalq gömrük hüququ da formalaşırdı. Bu dövrdə hər hansı bir dövlətin digər bir dövlətə kapitulyasiya hüququ (ölkə daxilində gömrük və digər ticarət güzəştləri) verməsi hallarına da rast gəlinirdi. Kapitulyasiya hüququ daha çox hərbi münaqişələr zamanı hər hansı bir dövlətin bitərəfliyini təmin etmək üçün verilir və bu dövlətin münaqişədə iştirakının qarşısı alınırdı[438]. Məhz  1454-cü ildə Osmanlı imperiyasının Venesiya respublikasına kapitulyasiya hüququ verməsi onun antiosmanlı hərbi koalisiyasında iştirakının qarşısını almaq

---

[437] Ю. Баскин и Д. Фельдман, *История международного права.*, с.53-54.
[438] Л. Левин, *История международного права.*, с.57.

məqsədi daşıyırdı. Eyni zamanda bu dövrdə müharibə, dəniz və ticarət hüququnun inkişafı beynəlxalq münasibətlər sisteminin formalaşmasında vacib amillərdən biri idi.

Ümumiyyətlə, XV əsrdə beynəlxalq münasibətlər sisteminin hüquqi əsasını təşkil edən beynəlxalq hüquq normalarının inkişaf etməsi Avropa ilə Asiya arasında ticarət əlaqələrinin, xüsusilə də dəniz ticarətinin daha da intensivləşməsi beynəlxalq münasibətlər sisteminin formalaşmasına və dövlətlər arasında siyasi və diplomatik münasibətlərin inkişafına ciddi təkan verirdi.

Beynəlxalq münasibətlər sisteminin inkişaf etdiyi bir vaxtda Yaxın Şərq regionunda böyük siyasi və strateji mövqeyə malik olan orta əsr Azərbaycan dövlətləri (Qaraqoyunlu, Ağqoyunlu, Şirvanşahlar), bu siyasi sistemin tərkib hissəsi olaraq Yaxın və Orta Şərqdə baş verən siyasi hadisələrdə yaxından iştirak edirdilər.

XIV əsrin II yarısından başlayaraq Yaxın və Orta Şərqdə baş verən mürəkkəb siyasi hadisələr bölgənin mövcud siyasi xəritəsində ciddi dəyişikliklərə səbəb oldu. Bu dövrdə Azərbaycanda Cəlairilər sülaləsinin hakimiyyəti özünün siyasi böhran dövrünü yaşayırdı. Mərkəzi hakimiyyətin zəifləməsi əyalətlərdə mərkəzdənqaçma meyllərini gücləndirdi və hakimiyyət uğrunda mübarizənin yenidən başlamasına səbəb oldu[439].

Bu dövrdə Azərbaycanda hökm sürən siyasi böhrandan istifadə edən Əmir Teymur qərb istiqamətində həyata keçirdiyi yürüşlər (1386-1389, 1392-1397, 1399-1404) nəticəsində Azərbaycanda Cəlairilər sülaləsinin hakimiyyətinə son qoydu və Cəlairilər dövlətinin əraziləri Əmir Teymurun yaratdığı imperiyanın tərkibinə daxil edildi[440].

---

[439] V. Piriyev, *Azərbaycan Hülakülər dövlətinin tənəzzülü dövründə. (1316-1360-ci illər).*, Bakı, Elm, 1978, s.158-160; S. Aşurbəyli, *Şirvanşahlar dövləti (VI-XVI əsrlər).*, s.203-205.

[440] R. Ağayev, *Azərbaycan və Mərkəzi Asiya dövlətlərinin qarşılıqlı münasibətləri.*, s.41-44; İ. Aka, *Timur ve devleti.*, s.31.

Əmir Teymurun yürüşləri dövründə Şirvanşahlar dövlətində siyasi hakimiyyətdə olan Şeyx I İbrahim (1382-1417) isə mövcud siyasi gerçəkliyi nəzərə alaraq ölkə ərazisini teymuri talanlarından xilas etmək üçün onun vassalığını qəbul etdi.

Qeyd edək ki, Əmir Teymurun qərbə yürüşləri dövründə teymurilərə qarşı istər siyasi mübarizə, istərsə də dini-ideoloji mübarizədə Azərbaycan bir siyasi-ideoloji mərkəz kimi əsas rol oynayırdı. Bu yürüşlər dövründə Əmir Teymura qarşı ən ciddi mübarizəni Azərbaycan hökmdarı Qara Yusif və Cəlairi Sultan Əhməd aparmışdır.

Əmir Teymurun ölümü onun yaratdığı imperiyanın siyasi dayaqlarına və beynəlxalq nüfuzuna ciddi zərbə vurdu. Bölgədə olan siyasi güclər bundan istifadə edərək Teymuri imperiyasının mövcud dayaqları üzərində siyasi müstəqillik və hakimiyyət uğrunda mübarizəyə başladılar.

Bu dövrdə ənənəvi olaraq Yaxın Şərq bölgəsində cərəyan edən siyasi hadisələrin mərkəzində dayanan Azərbaycanda ciddi siyasi dəyişikliklər baş verirdi. Azərbaycanda mövcud olan siyasi qüvvələr arasında baş verən bu hadisələr iki istiqamətdə inkişaf edirdi. Bir tərəfdən teymuri işğalına qarşı mübarizə ilə xarakterizə olunur, digər tərəfdən Azərbaycan taxt-tacı uğrunda siyasi mübarizə formasında təzahür edirdi.

Azərbaycanda baş verən siyasi hadisələrdə Qaraqoyunlular, Cəlairilər, Ağqoyunlular və Şirvanşahlar fəal şəkildə iştirak edirdilər. Bu qüvvələrin əsas məqsədi Azərbaycanda siyasi hakimiyyəti əldə etmək idi. Azərbaycan taxt-tacı uğrunda gedən bu mübarizədə, nəhayət, Qaraqoyunlu sülaləsi qalib gəldi. Qaraqoyunlu hökmdarı Qara Yusif 1410-cu ildə Azərbaycanın və İraqın rəsmi hakimi olan Sultan Əhməd Cəlairini hakimiyyətdən rəsmi şəkildə kənarlaşdıraraq Cəlairilər sülaləsinin hakimiyyətinə son qoydu[441]. Bu dövrdən etibarən Azərbaycanda Qaraqoyunlu sülaləsinin hakimiyyəti elan olundu.

---

[441] T. Nəcəfli, *Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi müasir türk tarixşünaslığında.,* s.57.

Qara Yusifin əsasını qoyduğu Qaraqoyunlu dövlətinin yaranması ilə Yaxın Şərq bölgəsində böyük siyasi dəyişikliklər baş verdi. İlk növbədə teymuri talanlarından xilas olan bu ərazilər yenidən vahid siyasi hakimiyyət altında birləşdirildi. Vahid siyasi hakimiyyətin yaranması bölgədə siyasi sabitliklə yanaşı iqtisadi inkişafa münbit şərait yaratdı. Digər tərəfdən Yaxın Şərqin böyük bir etno-siyasi məkanını özündə birləşdirən Qaraqoyunlu dövləti böyük bir siyasi güc mərkəzi kimi teymurilərin Yaxın Şərqə və Anadoluya mümkün hərbi yürüşlərinin qarşısını aldı və Ankara döyüşündən sonra siyasi mövcudluğu təhlükə qarşısında qalan Osmanlı imperiyasını teymuri axınlarından xilas etmiş oldu.

Qaraqoyunlu hökmdarı Qara Yusifin siyasi fəaliyyəti və Azərbaycan dövlətçilk tarixində oynadığı rol tarixi qaynaqlarda öz əksini tapmışdır. Həsən bəy Rumlu Qara Yusifin şəxsiyyətini və siyasi fəaliyyətini bu şəkildə təsvir etmişdi: “Xoş əxlaqı ilə bütün adamlardan seçilirdi. Bütün işlərində həmişə həzrət ilahi xofunu xatırlayırdı. Bütün insanlarla ədalətlə davranırdı. Zalımların cəzalanmasına, məzlumların zülmünün rəf’ olmasına çalışırdı. Dünyadakı insanların ərzaqlarını tə’min edən dehqan və əkinçilərə hörmət edir, məhsulların çoxaldılmasına çalışırdı. Məmləkətlərin zəbti və yolların qorunmasından ötrü [ayrı-ayrı yerlərə] ədalətli naiblər və kamil amillər (məmurlar) tə’yin edirdi. Əcgərlərin ülufələrinin vaxtlı-vaxtında çatdırılması və haqqı olan şəxslərin mükafatlandırılmasını bir dəqiqə belə ləngitməzdi. Dini işlərin rəvacı, peyğəmbərin şəri məsələlərinin yerinə yetirilməsi, məscidlərin inşası, xeyriyyə binalarının tikilməsi və vəqflərin genişləndirilməsində səylər edirdi. Üzüyünün üstündə bu sözlər yazılmışdı: “Ədalətlə işləyən [adam] məlik, zülmkarlıq edən [şəxs] isə həlak olur”...

... Hakimiyyət müddəti on dörd il, şərafətli ömrü altmış beş yaş idi. Məmləkəti: Azərbaycan, İraqi-Ərəb, Qəzvin və Həmədan İraqi-Əcəmdən və Diyarbəkrin bəzi yerlərindən. Səltənəti dövründə altı cəng etmişdi. Birinci cəng – Pasində Mirzə Əbubəkrlə; ikinci cəng – Təbrizin Sərdrudunda Mirzə Miranşah və

Mirzə Əbubəkrlə; üçüncü cəng – Muş səhrasında Qara Osman Bayandurla; dördüncü cəng – Şənb-Qazanda Sultan Əhməd Cəlairlə; beşinci cəng – Ərğəni qalasında yenə Qara Osmanla; altıncı cəng – Şirvan valisi Sultan İbrahim və Gürcüstan hakimi Kustəndillə. Əzəmətli övladlarından altı oğlu vardı: Özünün hakimiyyəti zamanı vəfat etmiş Mirzə Pirbudaq; Bağdad valisi Əmir Şahməhəmməd, Mirzə İsgəndər, Mirzə Cahanşah və Mirzə Əbu Səid. Onun vəfatı barədə belə [maddeyi-tarix] yazmışlar[442]:

***Təbriz şahı Mir Yusifin vəfatı***
***"Ketabət" kəlməsi ilə yazıldı.***

Qaraqoyunlu dövləti yarandıqdan sonra bu dövlətin beynəlxalq münasibətlərdə siyasi nüfuzu getdikcə artmağa başladı. Qonşu dövlətlərlə diplomatik əlaqələrin qurulması dövlətin xarici siyasətinin möhkəmlənməsinə şərait yaratdı.

Qara Yusifin hakimiyyəti illərində (1410-1420) Qaraqoyunlu dövlətinin xarici siyasi əlaqələri inkişaf etməyə başladı. Osmanlı imperiyasına qarşı dostluq münasibəti daşıyan bu siyasət teymurilərə qarşı daha çox hərbi-siyasi xarakterli idi. Çünki Qaraqoyunlu dövləti yarandıqdan sonra teymuri hökmdarı Şahrux Qaraqoyunlu hakimiyyətini rəsmi şəkildə tanımır və daima hərbi yürüşlərlə təhdid edirdi. Hələ Əmir Teymurun qərbə yürüşləri dövründə tərəflər arasında yaranan siyasi düşmənçilik davam edir və diplomatik münasibətlərin yaranmasına ciddi şəkildə mane olurdu. Çünki həmsərhəd olan bu dövlətlərin bölgədəki siyasi və strateji maraqları toqquşduğundan tərəflərin münasibətlərində hərbi münaqişələr daha çox üstünlük təşkil edirdi. Özlərini Əmir Teymurun yaratdığı imperiyanın varisi sayan teymurilər Qaraqoyunlu dövlətinin ərazisini teymuri Miranşahın varislərinin əraziləri hesab edir və bu əraziləri işğal etməyə çalışırdılar. Məhz Teymuri hökmdarı Şahruxun Azərbaycana yürüşlərinin (1420 1429, 1435) səbəbi də bununla bağlı idi.

---

[442] [442] Həsən bəy Rumlu, *Tarixlərin ən yaxşısı (Əhsənüt - təvarix).* I cild, Fars dilindən tərcümə edən Şahin Fazil,. Bakı, Elm, 2022, s. 117-118.

Uzun müddət davam edən Qaraqoyunlu-Teymuri münaqişəsi, nəhayət, Cahanşahın Azərbaycanda hakimiyyətə gəlməsindən sonra səngimiş və Şahruxun ölümünə (1447) qədər tərəflər sülh və dostluq şəraitində yaşamışlar[443].

Qaraqoyunlu hökmdarı Cahanşah, Şahruxun ölümündən sonra Teymurilər dövlətində yaranan siyasi gərginlikdən istifadə edərək İraqi-Əcəm, Fars, Kerman ərazilərini də dövlətin tərkibinə daxil etmişdi[444].

Bu dövrdə Qaraqoyunlu dövlətinin aktiv siyasi münasibətlər yaratdığı dövlətlərdən biri də Osmanlı imperiyası olmuşdu. Qaraqoyunlu hakimiyyətinin Osmanlı imperiyası ilə siyasi münasibətləri davamlı olaraq dostluq xarakteri daşımışdı. İstər Qara Yusifin, istərsə də onun varislərinin hakimiyyəti dövründə Qaraqoyunlu-Osmanlı münasibətlərində diplomatik əlaqələr inkişaf etmiş, tərəflər arasında intensiv elçilik mübadiləsi olmuşdu.

Teymurilərdən fərqli olaraq Qaraqoyunlu dövləti ilə Osmanlı imperiyasının dövlət maraqları toqquşmurdu. Çünki hələ, əsasən Orta Anadolu və Balkanlarda fəthlərlə məşğul olan Osmanlı imperiyası, Anadolu bəylikləri və Şərqi Anadolu ərazisində böyük siyasi təsir imkanlarına malik olan Qaraqoyunlu dövləti ilə siyasi münasibətlərinin normal olmasında maraqlı idi. Digər tərəfdən Osmanlı imperiyasının siyasi təsisatlarına ciddi zərbə vuran Ankara döyüşündən on illər keçməsinə baxmayaraq, hələ də osmanlılar üçün siyasi və psixoloji cəhətdən mövcud olan teymuri təhlükəsindən qorunmaq üçün qaraqoyunlularla müttəfiqlik zəruri bir addım idi.

Qaraqoyunluların hakimiyyəti dövründə Azərbaycanın Misir Məmlük dövləti ilə də siyasi münasibətləri mövcud olmuş və hər iki dövlətin siyasi maraqları əsasında formalaşmışdı. Hələ qaraqoyunluların Şərqi Anadoludakı siyasi fəaliyyəti dövründə məmlüklərlə münasibətlər dostluq xarakteri daşımışdı. Əmir Teymurun qərbə yürüşləri dövründə Teymura qarşı mübarizə

---

443 R. Ağayev, *a.g.ə.*, s.60-61.
444 R. Ağayev, *a.g.ə.*, s.63.

qaraqoyunluların və məmlüklərin müttəfiqliyini zəruri edirdi. Digər tərəfdən Teymurun müttəfiqi, qaraqoyunluların isə siyasi rəqibi olan Ağqoyunlu bəyliyinin mütəmadi olaraq məmlüklərin şimal ərazilərini (Suriya-M.A.) təhdid etməsi hər iki dövləti ağqoyunlulara qarşı birgə mübarizəyə sövq edirdi. Bu baxımdan Qaraqoyunlu-Məmlük əlaqələri mövcud real şəraitdən və tərəflərin siyasi mənafelərindən yaranan bir zərurət idi.

Qaraqoyunluların hakimiyyəti dövründə Azərbaycan-Məmlük münasibətlərində müəyyən siyasi dəyişiklik baş verdi. Artıq Qaraqoyunlu dövlətini özünə ciddi siyasi rəqib hesab edən Məmlük dövləti, Qaraqoyunlu hakimiyyətinin siyasi rəqibi olan Ağqoyunlu bəyliyini siyasi cəhətdən himayə etməyə başladı[445]. Bunun nəticəsində də Qaraqoyunlu-Məmlük münasibətlərində müəyyən siyasi ziddiyyətlər yarandı. Lakin bu siyasi ziddiyyətlərə baxmayaraq, Qaraqoyunlu dövləti ilə Məmlük dövləti arasında siyasi münasibətlər davam etmişdir.

Ümumiyyətlə, qaraqoyunluların siyasi hakimiyyəti dövründə Azərbaycanın beynəlxalq münasibətlər sistemində özünəməxsus yeri və mövqeyi olmuşdu. Belə ki, qaraqoyunlu sülaləsi istər Şərqi Anadoludakı siyasi fəaliyyətləri dövründə, istərsə də Azərbaycanda hakimiyyətə gəldikdən sonra Yaxın Şərq bölgəsi üçün ciddi təhlükə yaradan və bu bölgənin siyasi və iqtisadi həyatına böyük zərbə vuran teymuri talanlarına qarşı ciddi şəkildə mübarizə aparmışdır. Həmçinin Qaraqoyunlu dövlətinin qonşu dövlətlərlə yaratdığı diplomatik əlaqələr, xüsusilə də Osmanlı imperiyası ilə dostluq münasibətləri, Avrasıya məkanında siyasi sabitliyin yaranmasında mühüm rol oynamışdı.

Azərbaycan bu dövrdə teymurilərə qarşı mübarizədə siyasi mərkəz rolunu oynamaqla yanaşı, eyni zamanda işğalçılara qarşı dini-ideoloji mübarizədə də böyük əhəmiyyətə malik idi. Əmir Teymurun yürüşləri və teymurilərin siyasi hakimiyyəti dövründə Azərbaycanda yaranan və inkişaf edən hürufilik dini-fəlsəfi cə-

---

[445] K. Kopraman, *Misir Memlükleri tarihi.*, s.191.

rəyanı qısa müddətdə Yaxın və Orta Şərqdə geniş bir siyasi coğrafiyanı əhatə edərək dini-fəlsəfi cərəyandan siyasi-ideoloji hərəkata çevrilmiş, teymurilərə qarşı mübarizədə mühüm ideoloji təbliğat rolunu oynamışdı.

Bu təriqətin əsasını qoyan Təbrizli Fəzlullah Nəimi Şərqin bir çox şəhərlərini gəzərək hürifilik təlimini təbliğ edir və gizli hürufi təşkilatları yaradırdı. Bu dövrdə hürufiliyin mərkəzi hesab olunan Bakıda çoxlu hürufi təşkilatları var idi. Bu dövrdə Nəimi hürifilik təlimini təkcə əhalinin aşağı təbəqəsində deyil, siyasi iqtidar sahibləri arasında da yaymaq üçün siyasi dayaqlar axtarmağa başlamışdı[446]. Tarixi mənbələrdə Fəzlullah Nəiminin Toxtamış xanı və Əmir Teymuru hürufiliyə cəlb etməyə səy göstərdiyi barədə məlumatlar var[447]. Bu barədə Fəzlullahın müasiri İbn Xədcar Əskəlani yazırdı: "Əbu Məhəmməd Təbrizinin oğlu Fəzlullah dərviş qardaşlığı yaratdı, öz saxta təliminin əsasında hürufilər hizbini yaratdı. O, Teymuru da öz küfrünə cəlb etmək istəyirdi, amma o razılaşmadı və onun edam edilməsi barədə əmr verdi. Fəzli Teymurun oğlu Miranşah edam etdi[448].

İbn Xədcar Əskəlaninin qeyd etdiyi kimi, 1394-cü ilin sentyabr ayının 2-də Teymurun əmri ilə Fəzlullah Şirvanda həbs olunub Naxçıvan yaxınlığında qədim Əlınca qalasında vəhşicəsinə qətlə yetirilmişdi[449]. Fəzlullahın qətlə yetirilməsindən sonra hürufilərin fəaliyyətində siyasi çalarlar güclənməyə başlamış və bu səbəbdən hürufilər Əmir Teymura qarşı siyasi mübarizəyə başlamışlar.

Fəzlullahın ölümündən sonra hürufilərin Anadoluya kütləvi mühacirəti zamanı Əbülhəsən Əliyyül-Əla Əmir Teymurun

---

[446] H. Araslı, *Azərbaycan ədəbiyyatı: tarixi və problemləri,* Bakı, Gənclik, 1998, s.252; S. Şıxıyeva, Hürufilərin siyasi mübarizə tarixindən, *Dil və Ədəbiyyat jurnalı, Bakı, № 3(21),* s.127.

[447] H. Araslı, *a.g.ə.,* s.252; S. Şıxıyeva, *a.g.m.,* s.127; R. Əliyev, *Nəsimi və klassik dini üslubun təşəkkülü,* Bakı, Nafta-Press, 2006, s.100.

[448] З. Кули-заде, *Хуруфизм и его представители в Азербайджане.,* Баку, Элм, 1970, с.90.

[449] H. Araslı, *a.g.ə.,* s.253; S. Şıxıyeva, *a.g.m.,* s.127.

qatı düşməni olan Qaraqoyunlu Qara Yusifi hürufi təliminə dəvət etmiş, həmçinin teymurilərə qarşı ciddi şəkildə mübarizə aparan Qaraqoyunlu bəyinin siyasi mövqeyini müdafiə edərək mürşüdləri Fəzlullahın qisasını almaq üçün ona kömək göstərmişlər[450].

Əhali arasında böyük nüfuza malik olan hürufilər teymurilərə qarşı siyasi və ideoloji baxımdan ciddi şəkildə mübarizə aparmışlar. 1408-ci ildə teymurilərlə baş verən Sərdrud döyüşündə (23 aprel/1408) Qara Yusifin qoşununun tərkibində çoxlu sayda hürufi döyüşçü iştirak etmişdi. Hətta Əbülhəsən Əliyyül-Əlanın "Qiyamətnamə"sində Miranşahı qətlə yetirən şəxsin hürufi olduğu bildirilir[451].

Fəzlullahın ölümündən sonra hürufilərin başına keçən İmadəddin Nəsimi bu təriqətin daha da geniş ərazidə yayılması üçün ciddi fəaliyyət göstərmişdi. O, bu məqsədlə Hələb şəhərinə gələrək hürufiliyin təbliği ilə məşğul olmuşdu.

Bu dövrdə Nəsimi Zülqədərli Əli bəy, onun qardaşı Nəsirəddin bəy və Ağqoyunlu Osman bəylə münasibət yaradaraq türkmanların siyasi nüfuzunun böyük olduğu Cənub-şərqi Anadoluda və Suriya ərazisində özünün dini və siyasi dayaqlarını möhkəmləndirməyə çalışırdı[452].

Hürufilərin Suriya ərazisindəki dini və siyasi fəaliyyətinin güclənməsi Məmlük dövlətini ciddi şəkildə narahat edirdi. Çünki bu dövrdə hürufilər türkmanların Misir sultanı Şeyx-əl-Mahmudiyə qarşı qaldırdığı qiyamı müdafiə edirdilər.

Türkmanların bu hərəkətlərinə son qoymaq üçün Məmlük sultanı 1417-ci il martın 23-də üçüncü Suriya səfərinə çıxmışdı[453]. Məmlük sultanı bu yürüşü dövründə fərman verərək hürufilərin rəhbəri Nəsiminin edam olunmasını əmr etmiş və o,

---

450 S. Şıxıyeva, *a.g.m.*, s.127.
451 S. Şıxıyeva, *a.g.m.*, s.127.
452 H. Araslı, *a.g.ə.*, s.253.
453 K. Kopraman, *Misir Memlükleri tarihi*, s.152; R. Yinanç, *Dulkadir beyliği.*, s.42.

1417-ci ildə Hələb şəhərində edam edilmişdi. Nəsiminin ölümü haqqında "Künuziz-zəhəb" adlı ərəb mənbəsində deyilir: "Əli əl-Nəsimi Yaşbəyin zamanında öldürüldü. O, zaman Darül-Ədldə şeyximiz İbn Xəttib əl -Nəsiri, qazilər qazisi Şeyx İzzəddinin naibi Şəmsəddin ibn Əminüddövlə, qazilər qazisi Fəthəddin əl-Maliki, qazilər qazisi Şəhabəddin əl-Hənbəlinin hüzurunda dava açıldı... Şeyx Şəhabəddin ibn Hilal bu məclisdə fitva verdi ki, Nəsimi allahsızdır, o öldürülməlidir... Lakin bu məsələdə onunla razılaşmadılar... Yaşbəy dedi mən onu öldürmərəm. Çünki Sultan mənə tapşırmışdı ki, onu işlə tanış edim... Bununla məclis dağıldı. Sultan Müəyyəd işlə tanış edildi. Sultandan əmr gəldi ki, dərisi soyulsun... Əl-ayağı kəsilib Əli bəy ibn Zülqədirə, biri qardaşı Nəsirəddinə, biri də Osman Qarayölüyə göndərilsin..."[454].

Göründüyü kimi, Nəsiminin ölümü haqqında verilən edam hökmü dini fitva deyil siyasi qərar olmuşdu. Bu sahənin tədqiqatçılarından biri olan S. Şıxıyevanın qeyd etdiyi kimi, Nəsiminin məhkəməsində iştirak edən qazilər və üləmalar ona qarşı ölüm hökmü çıxarmamışlar. Nəsimi haqqında ölüm hökmü siyasi xadim, Misir sultanı Şeyx əl-Müəyyədin fərmanı əsasında həyata keçirilmişdi[455].

Məmlük sultanını Nəsimi və hürufilərə qarşı tədbirlər görməyə vadar edən dini-təriqət amili ilə yanaşı siyasi səbəblər də olmuşdu. Bu dövrdə Cənub-şərqi Anadolu bölgəsində və Suriyada türkmanlar tərəfindən məmlüklərə qarşı baş qaldıran siyasi çıxışlar və məmlüklərin vassalı olan Zülqədər bəyliyinin hakimləri Əli bəy və Nəsrəddin bəyin siyasi itaətsizliyi, Məmlük dövləti üçün ciddi təhlükə yaradırdı. Belə bir şəraitdə dini-siyasi müstəvidə mühüm rol oynayan hürufilərin türkman siyasi elitası və əhali arasında mövqelərinin möhkəmlənməsi, türkmanların Məmlük hakimiyyətinə qarşı siyasi mübarizəsini daha da gücləndirə bilərdi. Digər tərəfdən Cənub-şərqi Anaddolu istiqamə-

---

[454] H. Araslı, *a.g.ə.*, s.254.
[455] S. Şıxıyeva, *a.g.m.*, s.126.

tində qaraqoyunluların yürüşlərinin artdığı bir vaxtda Qaraqoyunlu hökmdarı Qara Yusifin hürufiləri himayə etməsi Misir sultanını narahat edirdi. Bu səbəblərdən hürufilərin ciddi bir siyasi qüvvə olduğunu nəzərə alan Məmlük sultanı onlara qarşı qəti tədbirlər görməyə başlamışdı. Eyni zamanda bu dövrdə ağqoyunluların da Məmlük dövlətinin hüdudlarına döğru təhdidedici hücumları baş verirdi. Məhz Nəsimiyə qarşı çıxarılan bu ölüm hökmündə Zülqədər bəyləri ilə yanaşı, məmlüklər üçün təhlükəli rəqib olan Ağqoyunlu Osman bəyin də adının çəkilməsi, Ağqoyunlu bəyliyinə bir ismarıc idi.

Hürufilik təriqətinin tərəfdarları Nəsiminin ölümündən sonra da fəaliyyətlərini davam etdirmiş, Yaxın və Orta Şərqin dini və siyasi həyatında mühüm rol oynamışlar.

Qaraqoyunlu hökmdarı Cahanşah Həqiqinin hakimiyyətinin ilk dövrlərində Azərbaycanda hürufilərin fəaliyyəti nəzərəçarpacaq dərəcədə güclənmişdi. Lakin bu dövrdə onların fəaliyyəti İslam ruhaniləri tərəfindən kəskin şəkilədə etirazla qarşılanırdı. Ruhanilər onları sıradan çıxarmaq üçün Allahsızlıqda ittiham edirdilər. Bu da onlar haqqında edam fətvalarının verilməsinə gətirb çıxarırdı. Cahanşah Həqiqiyə qarşı müxalifətdə duran ruhanilər onları sıradan çıxarmaq üçün bütün vasitələrə əl atırdılar. Həmçinin hürufilərin Qaraqoyunlu dövlətində bu dərəcədə güclənməsi Cahanşah Həqiqini hakimiyət itirmək təhlükəsi ilə də üzəşdirə bilərdi. Buna görə də Cahanşah Həqiqi siyasətini dəyişməyə məcbur oldu. Bu da hürufilərin təqibi ilə nəticələndi və nəticədə 500-ə qədər hürufi qətlə yetirildi[456].

Bu haqda Həsən bəy Rumlu yazırdı: “Bu il (1441), Cahanşah padşah möcüzəli Təbriz şəhərində yaşayan hürufiçiləri, mübahisədən sonra qətlə yetirdi[457].

---

[456] D. Əzimli., M. Purmuxtari, *XIV əsrin sonları – XV əsrin əvvəllərində hürufilərin dövlətçilik görüşlərinə dair, /Dilavər Əzimlinin seçilmiş əsərləri,* Bakı, 2002, Turxan NPB, s. 35.

[457] [457] Həsən bəy Rumlu, *Tarixlərin ən yaxşısı (Əhsənüt - təvarix).* I cild, Fars dilindən tərcümə edən Şahin Fazil,. Bakı, Elm, 2022, s. 241.

Ümumiyyətlə, Azərbaycan xalqının dini-fəlsəfi dünyagörüşünə söykənən və qısa bir dövrdə böyük bir dini-siyasi coğrafiyanı əhatə edən hürufilik təriqəti Əmir Teymurun qərbə yürüşləri dövründə dini-təriqət məcrasından çıxaraq siyasi xarakter almış və bu təriqətin üzvləri Teymuri işğalına qarşı istər ideoloji, istərsə də hərbi-siyasi mübarizədə əhəmiyyətli dərəcədə rol oynamışlar. Həmçinin hürufilər fəaliyyətlərinin sonrakı dövrlərində də cəmiyyət arasında böyük nüfuz sahibi olmuş, istər dini. Istərsə də siyasi arenada öz mövqelərini qoruya bilmişdilər.

XV əsrin ortalarından etibarən Ağqoyunlu-Bayandur sülaləsi Azərbaycan taxt-tacı uğrunda fəal şəkildə mübarizəyə başladılar. Hələ XV əsrin 30-cu illərindən başlayaraq ağqoyunlular Şərqi Anadoluda ciddi siyasi güc mərkəzinə çevrilirdi. Bu dövrdən etibarən Ağqoyunlu bəyliyinin Avropa dövlətləri ilə ilk diplomatik təmasları başlayır. Həmin dövrdə ağqoyunlularla avropalılar arasında aparılan siyasi müzakirələrin məzmununu Osmanlı imperiyasına qarşı birgə mübarizə təşkil edirdi[458]. Lakin Avropa dövlətlərinin ağqoyunlularla yaratdığı bu siyasi əlaqələr müntəzəm xarakter daşımamışdı. Çünki bu dövrdə Ağqoyunlu bəyliyi ilə Osmanlı imperiyası arasında normal siyasi münasibətlər olduğu üçün ağqoyunlular bu münasibətləri pozmaqda maraqlı olmamışlar. Digər tərəfdən bu dövrdə Osmanlı imperiyası ilə Ağqoyunlu bəyliyi arasında ciddi siyasi rəqabətin olmaması Avropa dövlətlərinin bu bəyliklə siyasi münasibətlərini arxa plana keçirirdi.

1453-cü ildə Uzun Həsənin Ağqoyunlu bəyliyinin başına keçməsi bu bəyliyin siyasi baxımdan daha da güclənməsinə və ağqoyunluların Azərbaycanda hakimiyyət uğrunda mübarizəsinə ciddi təkan verdi. Həmçinin XV əsrin ortalarından etibarən Ağqoyunlu-Osmanlı siyasi rəqabətinin başlanması beynəlxalq münasibətlərdə Ağqoyunlu bəyliyinin siyasi rolunun artmasına səbəb oldu.

---

[458] L. Tardy, *Beyond the Ottoman Empire (14-th – 16-th centry Hunqarian Diplomacy in the East).*, p.15-17.

Konstantinapolun fəthindən sonra (1453) Sultan II Mehmed öz imperiyasını Şərqə döğru genişləndirmək üçün müəyyən tədbirlər görməyə başladı və Trabzon dövlətinin işğalına qərar verdi. Osmanlı imperiyasının Trabzonu işğal etməsi qərarı Ağqoyunlu dövlətinin siyasi və iqtisadi-ticarət maraqlarına ciddi zərbə idi. Çünki Qara dəniz vasitəsilə Avropa-Asiya ticarətində vasitəçi rolunu oynayan Ağqoyunlu dövləti Trabzon-Təbriz ticarət yoluna nəzarəti itirərək Qara dəniz vasitəsilə Avropaya yeganə çıxışdan məhrum ola bilərdi. Digər tərəfdən Avropa dövlətləri ilə siyasi münasibətlərin aktivləşdiyi bu dövrdə Trabzonun işğalı Ağqoyunlu hakimiyyətinin Avropa dövlətləri ilə xarici siyasi əlaqələrinə ciddi zərbə vura bilərdi. Bu səbəbdən Ağqoyunlu hakimiyyəti Osmanlı imperiyasının şərq istiqamətində hücumlarının qarşısını almaq üçün hərbi kömək məqsədilə Avropa dövlətləri ilə danışıqlara başladı.

Bu dövrdə hərbi-siyasi təsisatları daha da güclənən Ağqoyunlu bəyliyinin beynəlxalq nüfuzu getdikcə möhkəmlənirdi. Belə bir şəraitdə Avropa dövlətləri bölgədə siyasi və strateji mövqeləri möhkəmlənən ağqoyunluları özlərinin ən ciddi müttəfiqi hesab edirdilər. Bu baxımdan Roma papaları diplomatik kanallardan və Trabzonun xristian hakimiyyətindən istifadə edərək Ağqoyunlu bəyliyinin başçılığı ilə Osmanlı imperiyasının arxasında bir antitürk koalisiyası yaratmağa çalışırdı. Bu səbəbdən Roma papası II Piyin (1458-1464) elçisi Boloniyalı Lüdoviq xüsusi göstərişlə Şərqə göndərilmiş (4 oktyabr/1458), Trabzon, Gürcüstan, Qaraman və Ağqoyunlu bəyliyi ilə danışıqlar aparılmışdı[459].

Avropa dövlətlərinin Kiçik Asiyada mövcud olan siyasi hakimiyyətlərlə apardığı danışıqlar sonda Avropalı hökmdarların siyasi iradəsizliyi səbəbindən nəticəsiz qaldı və Roma papa-

---

[459] Y. Yücel, *Fatehin Trabzon'u fethi öncəsinde Osmanlı-Trabzon-Akkoyunlu ilişkileri.,* s.134.

larının “antiosmanlı” koalisiyası yaratmaq təşəbbüsləri uğursuzluğa düçar oldu[460].

Avropa dövlətləri ilə danışıqların ciddi nəticələrlə sonuclanmayacağını və vəziyyətin təhlükəli məqama çatdığını görən Uzun Həsən Trabzona hücumu bir qədər ləngitmək məqsədi ilə osmanlılarla danışıqlara başlamağa qərar verdi[461].

Uzun Həsən 1459-cu ildə İstanbula Murad bəyin başçılığı ilə bir elçi heyəti göndərərək osmanlılara cizyə verməyi qəbul edən Trabzon imperatorluğunun 1453-cü ildən bəri ödəmədiyi illik vergini ləğv etməyi, İldırım Bəyazidin Osmanlı torpaqlarına basqın etməməsi müqabilində Ağqoyunlu Osman bəyə vəd etdiyi və Teymurun ölümündən sonra göndərilməyən hədiyyələrin dərhal verilməsini, xanımı Dəspinəyə atası tərəfindən cehiz verilən Kappodokiya şəhəri və ətrafındakı torpaqları özünə verməsini tələb etmişdi[462]. Lakin Uzun Həsənin bu təklifi Osmanlı hakimiyyəti tərəfindən qəbul edilmədi.

Bu ərəfədə Mora səfərinə hazırlaşan II Mehmed ağqoyunluların Şərqi Anadoludaki hərbi uğurlarından ehtiyat edərək sülh məqsədi ilə Uzun Həsənin yanına Muş Əli adlı bir elçi göndərmişdi. Uzun Həsən bu osmanlı elçisi ilə bərabər öz elçisi Xurşud bəyi Fateh Mehmedin yanına göndərərək Trabzon və ətrafındakı qalalarla bağlı tələblərini ona bildirmişdi. Osmanlı sultanı bu tələbləri qəbul etmiş və əmirlərinə xəbər göndərərək Trabzona hücum etməməyi və bu əraziləri ağqoyunluların ixtiyarına buraxmağı əmr etmişdi[463].

Sultan II Mehmed Bizansın Aralıq dənizinin şimalında yerləşən ərazilərini ələ keçirdikdən sonra 1461-ci ilin oktyabr ayında Şimal-Şərqi Anadolu istiqamətində yürüşə başladı. Bu barədə Y. Yücel “Kitabi-Diyarbəkriyyə” əsərinə istinad edərək yazır: “Uzun Həsən Rakka qışlağında ikən Cahanşahın elçisi

---

[460] Y. Mahmudov, *Azərbaycan diplomatiyası.*, s.81; Y. Yücel, *a.g.ə.*, s.135.
[461] Ş. Fərzəlibəyli, *Azərbaycan və Osmanlı imperiyası.*, s.34.
[462] Ş. Fərzəlibəyli, *a.g.ə.*, s.31.
[463] Y. Yücel, *a.g.ə.*, s.138.

gəlmiş və iki tərəf arasında yenidən sülh bağlanmışdı... Bu arada Sultan Mehmed Koylu-Hisarı mühasirə etmiş, buradakı Ağqoyunlu darğası Yar Əli bəy əhaliyə zərər gəlməməsi üçün qalanı təslim etmişdi. Bundan sonra Osmanlı ordusu Ərzincana döğru yürüşü davam etdirmişdi.... Bunun üzərinə Uzun Həsən öz adamlarını 2.000 süvari ilə Eşgirdə pusquya qoymuş, özü isə 2.000 süvari ilə arxada gözləmişdi. Eşgirdə tərəflər arasında şiddətli döyüş başlanış və osmanlı qüvvələri darmadağın edilmişdi. Bu məğlubiyyətdən sonra II Mehmed geri çəkilməyə qərar vermiş və Kəlkitə doğru hərəkət etmişdi. Bundan sonra bir elçi göndərərək "Mənim müsəlmanlarla ixtilafım yoxdur. Məqsədim Trabzon qəzavatına getməkdir" deyə xəbər göndərmişdir. Bu vaxt Saray Xatun, Mövlanə Əhməd və digər ülamələr osmanlılarla sülh bağlanmasını münasib bilmişlər... Fateh də yenə elçi göndərərək "Validey-i Sahib-qıran (Saray Xatun) sülh üçün gələrsə, qarşılığında Trabzonun işğalından imtina edərəm" demişdi. Bununla da Uzun Həsən Saray Xatunu, Fateh də Kutlu-Şah oğlunu göndərmiş, arada sülh bağlanmışdı... Fəqət Fateh sözündə durmamış, Trabzonu fəthə çıxmışdı. Lakin sözünə sadiq qalan Uzun Həsən osmanlılara qarşı hücum etməmişdi..."[464].

Göründüyü kimi, II Mehmed Trabzon səfərindən öncə ağqoyunluların irsi mülklərindən sayılan Ərzincana hücum edərək bu əraziləri işğal etmək istəmişdi. Lakin ağqoyunluların ciddi müqaviməti ilə rastlaşaraq taktiki planlarında dəyişiklik edərək Trabzon istiqamətində yürüşə başlamışdı.

Türkiyə tarixçisi Y. Yücel də bu fikirdədir ki, "Trabzon səfəri sırasında ağqoyunlularla osmanlılar arasında ilk savaşın Osmanlı ordusunun məğlubiyyəti ilə nəticələndiyi həqiqətə uyğundur. Çünki Fateh bu döyüşdən sonra ehtiyatlı hərəkət edərək Ərzincana döğru yürüşdən imtina etmiş və Kəlkitə doğru hərəkət etmişdi"[465].

---

[464] Y. Yücel, *a.g.ə.,* s.142.
[465] Y. Yücel, *a.g.ə.,* s.144.

Qeyd olunduğu kimi, Uzun Həsən anası Saray Xatunu böyük bir elçi heyəti ilə birlikdə Osmanlı sarayına göndərmiş, lakin bu diplomatik addım da osmanlıların Trabzonu işğalını əngəlləyə bilməmişdi[466]. Əksinə, diplomatik prinsipləri pozan II Mehmed diplomatik girov olaraq Saray Xatunu da özü ilə götürüb Trabzona yürüşə başlamışdı. Bununla da Yaşar Yücelin qeyd etdiyi kimi, "Fatehin bütün Trabzon səfəri boyunca Uzun Həsəndən qorxduğu, onun arxadan edə biləcəyi hücumlarından çəkindiyi üçün - İbn Kamalın göstərdiyi kimi Saray Xatunu bir əsir olaraq yanında götürmüş"[467] və Uzun Həsənin osmanlılara qarşı hərbi-siyasi addımlarının qarşısını almışdı. Beləliklə, Osmanlı sultanı bütün siyasi və hərbi vasitələrdən istifadə edərək 1461-ci ilin oktyabr ayında Trabzonu ələ keçirdi və bu dövlətin siyasi mövcudluğuna son qoydu. Trabzonun ələ keçirilməsi ilə Osmanlı imperiyasının Şərqi Anadolu istiqamətindəki hərbi yürüşlərinin əsası qoyuldu.

1467-ci il noyabrın 10-da ağqoyunlularla qaraqoyunlular arasında baş verən döyüşdə Qaraqoyunlu hökmdarı Cahanşahın öldürülməsindən sonra qaraqoyunlu şahzadəsi Həsənəlini məğlub edən Uzun Həsən (1468) Qaraqoyunlu sülaləsinin Azərbaycanda siyasi hakimiyyətinə son qoydu[468]. Bu dövrdən etibarən Azərbaycanda Qaraqoyunlu sülaləsinin mərkəzi hakimiyyət sistemindən güclü və siyasi coğrafiyası daha geniş əraziləri əhatə edən Ağqoyunlu dövləti yarandı. Ağqoyunlu hakimiyyətinin nəzarətində olan Azərbaycan əraziləri Şərqi-Anadolu və Kür çayından cənubda yerləşən Azərbaycan torpaqlarını əhatə edirdi. Bu dövrdə Azərbaycanın Kür çayından şimalda yerləşən əraziləri isə Ağqoyunlu dövlətindən asılı olan Şirvanşahlar hakimiyyətinin nəzarətində idi. Həmçinin İraq-i Ərəb, İraq-i Əcəm, Xora-

---

[466] Ş. Fərzəlibəyli, *Azərbaycan və Osmanlı imperiyası.,* s.34.
[467] Y. Yücel, *a.g.ə.*, s.144.
[468] Ş. Fərzəlibəyli, *a.g.ə.,* s.36; R. Ağayev, *Azərbaycan və Mərkəzi Asiya dövlətlərinin qarşılıqlı münasibətləri.*, s.64.

san və vassal asılılığında olan gürcü əraziləri də Ağqoyunlu dövlətinin nəzarətində idi.

Bu dövrdə Osmanlı imperiyası ilə mövcud olan siyasi gərginlik hələ də davam etməkdə idi. Trabzonun osmanlılar tərəfindən işğalından sonra Qara dənizə cıxışdan məhrum olan Azərbaycan tacirləri öz mallarını Avropa ölkələrinə aparmaq üçün Suriya və Qaraman bəyliyi ərazilərindən keçən karvan yollarından istifadə edirdilər. Ağqoyunlu dövlətinin strateji müttəfiqi olan Qaraman bəyliyinin Uzun Həsən hakimiyyəti üçün böyük siyasi əhəmiyyəti var idi. Eyni zamanda bu bəyliyin Osmanlı imperiyası üçün də böyük strateji əhəmiyyəti var idi. Çünki Osmanlı imperiyasına qarşı birgə mübarizə aparmaq üçün osmanlılar əleyhinə yaradılan Avropa və Asiya hərbi blokunun yeganə tranzit əlaqələndiricisi bu bəylik idi. Bu bəyliyin siyasi varlığı Osmanlı imperiyasının strateji maraqlarına ciddi təhlükə yaradırdı. Məhz bu səbəbdən 1468-ci ildə Osmanlı imperiyası Qaramana hücum edərək bu bəyliyin varlığına son qoydu. Qaramanın Osmanlı imperiyasına birləşdirilməsi nəticəsində Ağqoyunlu dövləti Aralıq dənizinə çıxışdan da məhrum oldu[469]. Beləliklə, Qaramanın işğalı Ağqoyunlu-Osmanlı siyasi ziddiyyətlərini son həddə çatdırdı.

Qaraman bəyliyinin işğalından sonra bölgədə cərəyan edən siyasi hadisələr daha da aktivləşdi. Artıq müntəzəm xarakter alan Osmanlı işğalları nəinki Avropa üçün, eyni zamanda Yaxın Şərq bölgəsi üçün də ciddi təhlükələrdən xəbər verirdi. Məhz XV əsrin 60-cı illərin sonu 70-ci illərin əvvəllərində beynəlxalq münasibətlər sistemində antiosmanlı siyasətinin güclənməsi, əsasən osmanlı işğalları ilə birbaşa bağlı idi.

XV əsrin 60-70-ci illərində Ağqoyunlu dövləti xeyli gücləndi. Dövlətin beynəlxalq nüfuzu artdı. Ağqoyunlu dövləti Yaxın və Orta Şərqin Qərbi Avropa dövlətləri ilə beynəlxalq münasibətlərində mühüm rol oynamağa başladı. Bu dövrdə Ağqoyun-

---

[469] Ş. Fərzəlibəyli, *Azərbaycan və Osmanlı imperiyası.*, s.36.

lu dövlətiinin istər Qərb dövlətləri ilə, istərsə də Asiya ölkələri ilə diplomatik əlaqələri genişləndi. Müxtəlif qərb dövlətlərinin elçiləri paytaxt Təbrizdə müntəzəm olaraq diplomatik danışıqlar aparırdılar. Venesiya respublikasının isə Ağqoyunlu sarayında daimi səfirliyi var idi[470]. Ağqoyunlu dövlətinin siyasi nüfuzunun möhkəmlənməsi onun beynəlxalq münasibətlər sistemindəki rolunun artması ilə müşahidə olunurdu.

Ağqoyunlu dövlətinin Yaxın və Orta Şərqdə güclü dövlətlərdən birinə çevrilməsi və beynəlxalq aləmdə siyasi nüfuzunun artması Osmanlı imperiyasını ciddi surətdə narahat etməyə başladı. Çünki Ağqoyunlu dövlətinin getdikcə güclənməsi Osmanl imperiyasının Ağqoyunlu əraziləri hesabına imperiyanın sərhədlərini şərqə doğru daha da genişləndirmək və bölgədə hegemon dövlətə cevirilmək planlarına ciddi əngəl törədirdi. Bu baxımdan osmanlıların Ağqoyunlu dövlətinin ərazilərinə hərbi yürüşləri, dövlətin hərbi-strateji planlarının tərkib hissəsi idi.

Bu dövrdə Ağqoyunlu dövlətinin xarici siyasət xəttinin əsasını ölkənin beynəlxalq nüfuzunu daha da artırmaq, osmanlıların nəzarətində olan Aralıq və Qara dənizə çıxışı təmin edən strateji məntəqələri geri qaytarmaq təşkil edirdi. Həmçinin Ağqoyunlu dövləti Osmanlı imperiyasının ölkənin qərb ərazilərinə qarşı hərbi yürüşlərinin qarşısını almaq üçün qabaqlayıcı tədbirlər görürdü. Belə ki, Osmanlı imperiyasının Ağqoyunlu dövlətinə qarşı hərbi planları Uzun Həsəni osmanlılarla münaqişə vəziyyətində olan Avropa dövlətləri ilə hərbi-siyasi əməkdaşlığa vadar edirdi.

Trabzonun fəthindən sonra osmanlılarla ciddi siyasi rəqabətə başlayan Ağqoyunlu hakimiyyəti Avropa dövlətləri ilə diplomatik əlaqələri gücləndirərək osmanlılara qarşı birgə mübarizə aparmaq üçün ciddi siyasi addımlar atmağa başladı.

Bu dövrdə Təbrizdə-Uzun Həsənin sarayında Osmanlı imperiyasına qarşı mübarizə planı hazırlanırdı. Bu plana əsasən

---

[470] Y. Mahmudov, *Azərbaycan diplomatiyası.*, s.92.

Venesiya başda olmaqla, Avropa dövlətləri qərbdən, Ağqoyunlular isə şərqdən Osmanlı imperiyasına qarşı eyni zamanda hücuma keçib onun hərbi qüvvələrini iki cəbhəyə parçalamalı idilər. Müttəfiqlər Aralıq dənizinin Qaraman sahilində görüşməli, Ağqoyunlular Venesiyadan odlu silah almalı, sonra hücumu davam etdirib müharibəni qələbə ilə başa çatdırmalı idilər[471].

Osmanlı-Ağqoyunlu müharıbəsi ərəfəsində, Osmanlı hakimiyyəti də ciddi şəkildə hərbi-siyasi hazırlıqlar aparırdı. İlk növbədə Osmanlı hakimiyyəti hərbi qüvvələrini Ağqoyunlulara qarşı səfərbər etmək üçün Venesiya ilə apardığı müharibəni (1463-1479) dayandırmaq üçün sülh danışıqlarına başladı. Digər tərəfdən Uzun Həsənin başını sülh müzakirələrinə qatıb qarşıdakı müharibəyə hazırlaşmaq üçün Ağqoyunlu sarayı ilə diplomatik danışıqlara başlandı[472].

Venesiya Respublikası və Ağqoyunlu dövləti ilə aparılan diplomatik danışıqlarla vaxtı uzatmağa çalışan Osmanlı hakimiyyəti hərbi hazırlıqlarını başa çatdırdıqdan sonra, 1473-cü il aprel ayında İstanbuldan çıxaraq Ağqoyunlu dövlətinə qarşı hərbi yürüşə başladı. Yürüş ərəfəsində Osmanlı Sultanı Uzun Həsənə bir məktub göndərərək Şəbin Qarahisar üzərinə yürüş edəcəyini bildirərək, "...Bilmədim və ya qafil oldum deməyəsən..." yazaraq onu müharibəyə çağırdı[473].

Osmanlı imperiyası Ağqoyunlu dövlətinə qarşı rəsmi müharibə elan etdikdən sonra Uzun Həsən Osmanlı imperiyasının hücumlarının qarşısını almaq üçün hərbi-siyasi tədbirlər görməyə başladı. 1473-cü ilin iyul ayının sonlarında Ağqoyunlu hərbi qüvvələri Ərzincandan Aralıq dənizi istiqamətində Avropalı müttəfiqləri ilə birləşmək üçün hərəkətə keçdi. Türkiyə tarixçilərindən İsmət Barmaqsız oğlunun qeyd etdiyi kimi, "Fatehin Fərat çayını keçməsi İranda və Azərbaycanda böyük bir dövlət ya-

---

[471] Y. Mahmudov, *Azərbaycan diplomatiyası.*, s.92.

[472] Ş. Turan, *Fatih Mehmet-Uzun Hasan mücadelesi ve Venedik.*, s.220; Y. Mahmudov, a.g.ə., s.101.

[473] Ş. Turan, *Fatih Mehmet-Uzun Hasan mücadelesi ve Venedik.*, s.220.

ratmış Ağqoyunlu hökmdarını bu dövlətin qanuni torpaqları sayılan Fərat çayının şərqində qalan Anadolu ərazilərinin müdafiəsi üçün hərəkətə gətirmişdir”[474].

1473-cü ilin avqust ayının 11-də iki türk fatehinin hərbi qüvvələri arasında Tərcan vadisində həlledici döyüş oldu. Bu döyüşdə ağır toplardan istifadə edən Osmanlı ordusu böyük itkilər bahasına qələbə çaldı[475]. Osmanlı ordusu Otluqbeli döyüşündə ağqoyunlular üzərində qələbə çalsa da, Osmanlı imperiyasının Ağqoyunlu dövlətinə qarşı hərbi-siyasi planları gerçəkləşmədi. Lakin geri dönən osmanlı ordusu 1473-cü ilin avqustun 29-da  Ağqoyunlu dövləti üçün strateji əhəmiyyətə malik ərazi hesab olunan Şəbin-Qarahisarı işğal etdi. Bununla da Ağqoyunlu-Osmanlı müharibəsi başa çatdı[476].

Ümumiyyətlə, osmanlıların Ağqoyunlu dövlətinə qarşı hərbi yürüşü əsasən uğursuzluqla nəticələndi. Osmanlı ordusu Otluqbeli döyüşündə qələbə çalmağına baxmayaraq, Ağqoyunlu hərbi birləşmələri tərəfindən ağır itkilərə məruz qaldığı üçün yürüşü davam etdirə bilməyərək  geri çəkilməyə məcbur oldu. Otluqbeli döyüşündə osmanlılara qarşı ciddi şəkildə mübarizə aparan və Osmanlı ordusunu böyük itkilərə məruz qoyan Ağqoyunlu ordusu sonda hərbi artilleriyaya malik olan Osmanlı hərbi qüvvələri tərəfindən məğlub oldular. Ağqoyunlu-Osmanlı müharibəsi dövründə Avropalı müttəfiqlər Ağqoyunlu dövlətinə vəd etdikləri hərbi silah və artilleriyanı Ağqoyunlu ordusuna çatdıra bilmədilər. Bu da hərbi-texniki baxlmdan Osmanlı ordusundan geri qalan Ağqoyunlu ordusunun məglub olmasının əsas səbəblərindən biri idi.

---

[474] T. Nəcəfli, *Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi müasir türk tarixşünaslığında*., s.129.

[475] Y. Mahmudov, *Azərbaycan diplomatiyası*., s.112; S. Tansel, Fatih’in doğu siyaseti, *Türkmen Akkoyunlu imparatorluğu: siyasal, sosyal ve kültürel tarihine ilişkin makaleler antolojisi.,* Ankara, 2003, s.183.

[476] E. Konukçu, Osmanlı-Akkoyunlu, *Türkmen Akkoyunlu imparatorluğu: siyasal, sosyal ve kültürel tarihine ilişkin makaleler antolojisi.,* Ankara, 2003, s.297.

Ağqoyunlu dövlətinin Otluqbeli döyüşündəki məğlubiyyətinə baxmayaraq, Azərbaycanın beynəlxalq nüfuzu və siyasi mövqeyi yenədə güclü olaraq qalırdı. Bu dövrdə də Azərbaycanın istər Avropa dövlətləri, istər Osmanlı imperiyası, istər Məmlük, istərsə də Teymurilər dövləti ilə siyasi-diplomatik münasibətləri davam etməkdə idi.

Uzun Həsənin ölümündən sonra Sultan Yaqubun hakimiyyətə gəlməsi ilə (1478-1490) Ağqoyunlu dövlətinin Osmanlı imperiyası ilə siyasi münasibtlərində yaxınlaşma hiss edilməyə başladı. Alman tarixçisi J.Hammer də Sultan Yaqubun Bəyazidlə dostluq əlaqəsi yaratdığını və 12 illik hakimiyyəti dövründə dəfələrlə Osmanlı sarayına elçılər göndərdiyini qeyd edir[477]. Məhz Ağqoyunlu hakimiyyətinin Osmanlı sarayı ilə dostluq münasibətlərinin nəticəsi olaraq XV əsrin 80-ci illərində Avropa-Azərbaycan siyasi münasibətlərində nəzərəçarpacaq dərəcədə diplomatik fəallıq hiss olunmur. Lakin buna baxmayaraq, XV əsrin sonlarında da Ağqoyunlu dövləti beynəlxalq münasibətlər sistemindəki rolunu qorumaqda davam edirdi.

XV əsrdə Azərbaycanın şimal ərazilərini əhatə edən Şirvanşahlar dövləti də  beynəlxalq münasibətlərin subyekti kimi bölgədə baş verən siyasi hadisələrdə yaxından iştirak edir və öz dövlət maraqlarını qorumağa çalışırdı. Bu dövrdə strateji cəhətdən böyük əhəmiyyətə malik olan Şirvan bölgəsi, istər siyasi baxımdan, istərsə də Şərqlə-Qərb arasında mövcud olan ticarət əlaqələrinin inkişafında mühüm rol oynayırdı. Rusiyanın Şərq ölkələri ilə iqtisadi-ticarət əlaqələrini tədqiq edən M. V. Fexner yazır ki, XV əsrdə Rusiya dövlətinin Şərq ölkələri ilə ticarətində aparıcı rol Şirvanşahlar dövlətinə məxsus idi. Şamaxıdan hər il rus tacirlərinin quru yolla çoxlu karvanları keçirdi. Onların dəniz karvanları tez-tez Niyazabada gedib çıxır, buradan Azərbaycanın daha uzaq şəhərlərinə və başqa ölkələrə yola düşürdülər[478].

---

[477] J. Hammer, *Osmanlı tarihi.*, s.332.

[478] М. Фехнер, *Торговля русского государства со странами Востока в XVI в., с.*25-27.

Şirvan hakimləri Teymurun yürüşləri dövründə bölgədə gedən siyasi hadisələri düzgün dəyərləndirərək teymurilərin təbəəliyini qəbul etmış, bununla da ölkəni hərbi talanlardan xilas etməklə dövlətin daxili müstəqilliyini qoruyub saxlaya bilmişlər.

Əmir Teymurun ölümündən (1495) sonra Təbrizdə siyasi hakimiyyət uğrunda mübarizəyə qoşulan Şeyx I İbrahim bu mübarizədə məğlub olaraq Təbrizi tərk etməyə məcbur olmuşdu. Hələ Cəlairilərin Azərbaycanda hakimiyyəti dövründə onlardan asılı vəziyyətdə olan Şirvanşahlar, Qaraqoyunlu hakimiyyəti dövründə də qaraqoyunlularının vassallığını qəbul etmişlər[479].

Qaraqoyunlu dövlətinin siyasi təbəəsi olan Şirvan hakimiyyəti ilə Qaraqoyunlu hakimiyyətinin siyasi münasibətləri həmişə gərgin xarakter daşımış və Şirvan hakimləri qaraqoynluların siyasi asılılığından azad olmaq üçün bütün siyasi vasitələrdən yararlanmağa çalışmış, hətta ənənəvi siyasi müttəfiqləri teymurilərin qaraqoyunlularla düşmənçilik münasibətlərindən istifadə edərək Şirvanşahlar dövlətinin maraqlarının qorunmasına çalışmışlar.

Şirvanşahlar hakimiyyəti Qaraqoyunlu dövlətindən vassal asılılığında olsa da, bu asılılıq əsasən formal xarakter daşımışdı. Çünki bu dövrdə Şirvanşahlar dövlətinin xarici siyasi əlaqələri mövcud olmuş, qonşu dövlətlərlə mütəmadi şəkildə diplomatik əlaqələr saxlamışdı.

Bu dövrdə Şirvanşahlar Osmanlı sarayına və Teymurilər dövlətinə diplomatik nümayəndə heyəti göndərərək bu dövlətlərlə müntəzəm diplomatik əlaqələr saxlayır və dostluq əlaqələrini inkişaf etdirirdi. Şirvan hakimləri osmanlı və teymurilərin bölgədəki siyasi maraqlarından mütəmadi şəkildə öz siyasi məqsədləri üçün istifadə etməyə çalışırdı. Qeyd edək ki, bu münasibətlərin inkişafında hər üç dövlətin ümumi dini təriqət mənsubluğu (Şirvanşahların dini mənsubiyyəti osmanlı və teymurilərdə

---

[479] S. Aşurbəyli, *Şirvanşahlar dövləti (VI-XVI əsrlər).,* s.288-289.

olduğu kimi İslam dininin sünnilik təriqətinə əsaslanırdı-M.A.) da əsas rol oynayırdı.

Bu dövrdə Şirvanşahlar gürcü çarları və Dağıstan hakimləri ilə də dostluq münasibətləri saxlayırdılar. Şeyx I İbrahimin zamanında Dərbənd və cənubi Dağıstanın Samur vadisindəki ərazilər Şirvanın siyasi asılılığında idi. Bu ərazilərdə Şirvanşahların siyasi nüfuzu olduqca güclü idi. Hətta bəzi vaxtlarda Şirvanşahlar Qızıl Orda dövlətinin xanlarına siyasi himayədarlıq da etmişdi. Belə ki, 1407-ci ilə Cuci əmiri Yedigeyə məğlub olan Qızıl Orda xanı Şadi bəy (1400-1408) Dərbəndə qaçaraq Şirvanşah I İbrahimə şığınmışdı. Yedigey elçi göndərərək Qızıl Orda xanını geri qaytarmağı tələb etsə də, lakin Şirvan hökmdarı bundan imtina etmişdi[480].

Ağqoyunlu sülaləsi Azərbaycanda hakimiyyətə gəldikdən sonra Şirvanşahlar dövlətinin siyasi mövqeyində ciddi dəyişiklik yarandı. Siyasi şəraiti düzgün qiymətləndirən Şirvan hökmdarı Fərrux Yasar Ağqoyunli-Teymuri qarşıdurmasında bölgədə siyasi mövqeləri kifayət qədər zəifləmiş teymuri hakimiyyətini deyil, Ağqoyunlu dövlətini müdafiə etməyə başladı.

XV-XVI əsrlərdə Azərbaycan-Mərkəzi Asiya münasibətlərini tədqiq edən R. Ə. Ağayevin qeyd etdiyi kimi, “uzun müddət teymurilərin siyasətini öz siyasi məqsədlərinə və tarixi şəraitə görə müdafiə edən Şirvanşahların birdən-birə onlarla münasibətləri kəsməsi, məhz Fərrux Yasarın özünün uzaqgörən siyasəti və Uzun Həsənin Şirvanşaha elçi göndərib ona kömək edəcəyi təqdirdə Şirvana sülh və təhlükəsizlik vəd etməsi ilə bağlı idi”[481].

Ümumiyyətlə, XV əsrdə Şirvanşahlar dövlətinin beynəlxalq münasibətlər tarıxını izləyərkən bu dövlətin bölgədə gedən siyasi hadisələrdə fəal şəkildə iştirak etdiyinin şahidi oluruq. Bu dövrdə Şirvanşahlar dövləti Qaraqoyunlu və Ağqoyunlu haki-

---

[480] S. Aşurbəyli, *a.g.ə.*, s.290.

[481] R. Ağayev, *Azərbaycan və Mərkəzi Asiya dövlətlərinin qarşılıqlı münasibətləri.*, s.76.

miyyətindən siyasi baxımdan asılı olsa da, bu asılılıq formal xarakter daşımış, Şirvan hakimləri istər daxili siyasətdə, istərsə də xarici siyasi əlaqələrin qurulmasında müstəqilliyini qoruya bilmişdi. Əsasən Azərbaycanın şimal ərazilərini öz siyasi hakimiyyətində birləşdirən Şirvanşahlar dövləti, digər Azərbaycan dövlətləri (Qaraqoyunlu, Ağqoyunlu) kimi bölgədə mövcud olan aparıcı dövlətlərlə siyasi rəqabət gücünə və baş verən hadisələrdə həlledici rola malik olmasa da baş verən hadisələrin iştirakçısı olmuş və öz siyasi mövqeyini qoruyub saxlaya bilmişdi.

Beləliklə, XV əsrdə Azərbaycan dövlətlərinin beynəlxalq münasibətlər sistemindəki yerinə və roluna yekun vurarkən qeyd etmək lazımdır ki, bu dövrdə Avrasiya məkanında strateji cəhətdən böyük rol oynayan Azərbaycan dövlətləri Yaxın və Orta Şərqdə baş verən siyasi hadisələrdə fəal şəkildə iştirak etmiş və regionun aparıcı dövlətlərindən birinə çevrilmişlər. Bu dövrdə bölgənin siyasi xəritəsində mövcud olan ən aktiv dövlətlərdən biri kimi, istər Qaraqoyunlu, istər Ağqoyunlu, istərsə də Şirvanşahlar dövləti öz siyasi dövlət təsisatları, mövcud olan yerli hüquq sistemi və geniş bir siyasi coğrafiyada yayılan və təşəkkül tapan dini-ideoloji dəyərlər sistemi ilə bölgənin siyasi, iqtisadi və sosial-mədəni həyatının inkişafında mühüm rol oynamışdır. Eyni zamanda bu dövlətlərin orta əsr diplomatiyasına və hüquq sisteminə verdiyi töhfələr beynəlxalq münasibətlər sisteminin formalaşmasında böyük əhəmiyyət kəsb etmişdi.

# II FƏSİL

# AZƏRBAYCAN XVI ƏSR BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ

## 2.1. Azərbaycan Səfəvi dövlətinin Osmanlı və Şeybani dövlətləri ilə siyasi əlaqələri

XVI əsrdə Avrasiya məkanında siyasi hadisələrlə zəngin olan bir dövr başlamışdı. Bu dövr yeni imperiyaların yaranması və onların siyasi, iqtisadi, mədəni və dini-ideoloji sərhədlərə bölünməsi ilə xarakterizə olunurdu. Bu dövrdə Şərqdə baş verən siyasi hadisələr bölgənin yeni siyasi xəritəsini meydana çıxardı. Böyük bir siyasi coğrafiyanı əhatə edən Osmanlı imperiyası, Yaxın Şərq bölgəsinin geniş bir hissəsini əhatə edən Azərbaycan Səfəvi dövləti, Hindistanda Böyük Moğol imperiyası, Mavəraünnəhr bölgəsinə hakim olan Şeybanilər, Misir, Suriya, Hicaz ərazilərini əhatə edən Məmlük dövləti bu siyasi xəritənin əsas subyektlərindən biri idilər.

XVI əsrin əvvəllərində Azərbaycanın siyasi həyatında mürəkkəb xarakterli hadisələr baş verirdi. Ağqoyunlu hakimiyyəti özünün siyasi tənəzzül dövrünü yaşayırdı. Sultan Yaqubun (1478-1490) hakimiyyəti dövründə yaranmış siyasi sabitlik onun ölümündən sonra pozuldu. Uzun Həsənin varisləri arasında başlayan hakimiyyət uğrunda mübarizə dövlətin siyasi təsisatlarına və xarici siyasi əlaqələrinə ciddi zərbə vurdu. Belə bir böhranlı şəraitdə siyasi və dini mərkəzi Ərdəbil şəhərində yerləşən Səfəvilər sülaləsinin nümayəndəsi İsmayıl, Azərbaycanda hakimiyyət uğrunda mübarizəyə başladı.

İlk növbədə Şirvanşahlar üzərinə yürüşə qərar verən qızılbaşlar, 1500-cü ilin dekabr ayında baş verən Cəbani döyüşündə Şirvanşahların hərbi qüvvələrini ağır məğlubiyyətə uğratdılar. Fərrux Yəsar bu döyüşdə öldürüldü. Onun oğlu Şeyxşah xəzinəsini Gülüstan qalasında yerləşdirib oranın müdafiəsini qulamı Xosrova tapşırdı və Elburz (Şahdağ) dağlarına çəkildi. Bir neçə

aylıq mühasirəyə baxmayaraq, Gülüstan qalasını ələ keçirmək qızılbaşlara nəsib olmadı. İsmayıl Səfəvi Gülüstan qalasını mühasirə edən vaxt ağqoyunlu hökmdarı Əlvənd Mirzənin Naxçıvanda iri hərbi qüvvələr yığması haqqında məlumat gəlmiş və o, öz sərkərdələri ilə keçirdiyi məşvərətdə Gülüstan qalasının mühasirəsindən əl çəkib Azərbaycan taxtı uğrunda mübarizəyə başlamağı məqsədəuyğun saymışdı[482].

Bu hadisəni İsgəndər bəy Münşi bu şəkildə şərh edir: "Şirvan vilayətinin uca və məşhur qalalarından olan bu qala (Gülüstan qalası-M.A.) mühasirəyə alındı. Mühasirə vaxtı qeyb aləmindən xəbər gətirən mələk (soruş) o həzrətə Azərbaycanın səltənət taxtına və padşahlığına yetişmək müjdəsi verdi... O həzrət əzəmətli əmirləri çağırıb onlara dedi: "Sizə Gülüstan qalası lazımdır, ya Azərbaycan taxtı?". Müqəddəs Səfəvi xanədanına etiqadı olan adamlar sədaqət və müdriklik aləminə qapılıb ilham dilinin sidq sözlərini bəyan edərək bu fikri düzgün sandılar, Azərbaycan taxtının müjdəsi ilə öz sevinc sözlərini Keyvan eylamınadək (eyvane-Keyvan) ucaltdılar. Bu əsnada əmirzadə Əlvəndin artıq türkman əsgərləri ilə Naxçıvana gəlmə və Süleyman şanlı xaqanla döyüşməkdən ötrü türkman döyüşçü dəstələrini təyin etmə xəbəri gəlib çatdı[483].

Qeyd edək ki, İsgəndər bəy Münşinin bu məlumatı bir daha onu deməyə əsas verir ki, bu dövrdə Azərbaycanda Ağqoyunlu sülaləsinin hakimiyyəti mövcud idi, bu hakimiyyət (taxt-tac-M.A.) İsmayıl Səfəviyə müjdə verilmişdi.

1501-ci ildə İsmayıl Şərur düzündə baş verən döyüşdə Ağqoyunlu hökmdarı Əlvənd Mirzəni məğlub edərək paytaxt Təbrizə daxil oldu və ana babası Həsən padşahın hüquqi varisi kimi şahlıq taxt-tacına əyləşdi. Şiə məzhəbini (İmami-M.A.) rəsmi

---

[482] N. Musalı, *I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Sah İsmayıl" əsəri əsasında).,* Bakı, Elm və Təhsil, 2011, s.131-132.

[483] İsgəndər bəy Münşi Türkman, *Dünyanı bəzəyən Abbasın tarixi (Tarixe-aləmaraye-Abbasi),* I kitab, tərc. Ş. Fərzəliyev., Bakı, Şərq-Qərb Nəşriyyat evi, 2010, s.83.

dövlət dini elan edən Şah I İsmayıl Səfəvi "On iki İmam" adına xütbə oxutdu və öz adına sikkə kəsdirdi[484].

Əmir Mahmud Xandəmir özünün "Tarix-i Şah İsmayil və Şah Təhmasib Səfəvi" əsərində İsmayıl Səfəvinin hakimiyyətə gəlişini bu şəkildə təsvir edir: "“... Müzəffər padşah məqsədinə çatdığına görə səltənət bayrağını dalğalandırdı, türkmanlarin (ağqoyunluların-M.A.) zülmünü həmin məmləkətdə aradan qaldırdı. Uzun müddət ərzində kölgədə qalan imamiyyə məzhəbini yenidən yüksəldərək zahirə çıxartdı və məsum imamların (s) adlarını yenidən ucaldaraq onlara ziynət verdi... Həmin dövrdə Azərbaycan məmləkəti qazilərin qılıncının hesabına cahillərdən və təəssübkeşlərdən təmizləndi, haqq dini və on iki imam məzhəbi rəvac və rövnəq tapdı"[485].

Beləliklə, Şah I İsmayıl Səfəvi Ağqoyunlu sülaləsinin hüquqi varisi kimi (Şah I İsmayılın anası Aləmşah bəyim Uzun Həsənın qızı idi-A.M.) hakimiyyətə gələrək Azərbaycanda Səfəvilər sülaləsinin rəsmi hakimiyyətini elan etdi.

Şah I İsmayıl 1503-cü il iyunun 21-də, Həmədan yaxınlığında Almabulağı deyilən yerdə digər Ağqoyunlu hökmdarı Muradı məğlub etdi. Muradın qoşunlarının məğlub edilməsi Farsın və İraq-i Əcəmin böyük bir hissəsinin Səfəvi dövlətinin tabeliyinə keçməsinə səbəb oldu[486].

---

[484] O. Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti*, Bakı, Azərnəşr, 1993, s.45; И. Петрушевский, *Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI - начале XIX вв.*, Ленинград, Изд. ЛГУ им. А.А.Жданова, 1949, с.69; X. Qasımov, *Azərbaycan mədəniyyəti (XVI-XVII əsrlər),* Bakı, Nurlan, 2002, s.60; N.S.Musalı. I Şah İsmayılın hakimiyyəti... s.10.

[485] Əmir Mahmud Xandəmir, *Tarix-i Şah İsmail və Şah Təhmasib Səfəvi,* Tənzim Məhəmməd Cərrah, Tehran, 1370, s.64.

[486] Ш. Бидлиси, *Шараф-Наме*., с.147; О. Эфендиев, *Образование Азербайджанского государства Сефевидов в начале XVI века,* Баку, Изд. АН. Азербайджанской ССР, 1961, с.106; C. Brockelmann, *İslam ulusları ve devletleri tarihi,* türkçeye çeviren Neşit Cağatay, Ankara, Türk Tarih Kurumu Basımevi, 1992, s.263; R. Savory, *Iran under the Safawids,* Cambridg: Cambridge University Press, 1980, p.64.

Ağqoyunluların siyasi hakimiyyətinə tamamilə son qoyan Şah I İsmayılın 1503-1508-ci illərdə apardığı uğurlu hərbi əməliyyatlar nəticəsində bütün İran coğrafiyası (Xorasan istisina olmaqla) və İraq-i Ərəb əraziləri Azərbaycan Səfəvi dövlətinin siyasi nüfuz dairəsinə daxil edildi[487].

Azərbaycanda Səfəvilərin hakimiyyətinin möhkəmlənməsi ilə dövlətin xarici siyasi əlaqələrində yenidən canlanma müşahidə olunmağa və qonşu dövlətlərlə siyasi və diplomatik münasibətlər inkişaf etməyə başladı. Bu dövrdə dövlətin sərhədlərinin genişləndirilməsi, qonşu dövlətlərlə iqtisadi-ticarət və diplomatik əlaqələrin inkişafı Səfəvi hakimiyyətinin xarici siyasətinin əsasını təşkil edirdi.

Səfəvilər sülaləsinin hakimiyyəti dövründə Azərbaycanın xarici siyasətində Osmanlı imperiyası ilə siyasi münasibətlər mühüm yerlərdən birini tuturdu. Çünki, hələ XV əsrin ortalarından başlayaraq osmanlıların Azərbaycan dövlətlərinin qanuni torpaqları sayılan Şərqi Anadolunu ələ keçirmək uğrunda apardıqları mübarizə davam edirdi. Həmçinin "Böyük coğrafi kəşflər"dən sonra Hindistana gedən ticarət yolunun nəzarətdən çıxması osmanlıları səfəvilərin nəzarətində olan Hind okeanı ilə birbaşa əlaqəsi olan Bəsrə (İran) körfəzini ələ keçirməyə sövq edirdi. Eyni zamanda Səfəvi sülaləsinin hakimiyyətə gəlişindən sonra şiəliyin rəsmi olaraq dövlət dini elan edilməsi sünni osmanlıların dini-ideoliji maraqlarına cavab vermirdi. Çünki İmam Əli nəslindən olduqlarını iddia edərək hakimiyyət məsələsində "vilayət" (Peyğəmbər nəslinin hökmranlıq sürməsi) prinsipini sərt şəkildə ortaya qoyan səfəvilər özlərindən savayı İslam Şərqindəki digər müsəlman sülalələrinin hakimiyyətini qeyri-qanuni sayırdılar. Bu da İslam dünyasının xilaskarı və təhlükəsizliyinin təminatçısı rolunda çıxış edən Osmanlı dövlətinin ideoloji təbliğatına çox ciddi alternativ idi. Bu səbəblər Səfəvi-Osmanlı

---

[487] Ш. Бидлиси, *a.g.ə.*, с.147; O. Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti.*, s.46; Y. Mahmudov, *Azərbaycan diplomatiyası.*, s.130.

siyasi münasibətlərinin daima mürəkkəb xarakter daşımasına və uzunmüddətli hərbi-siyasi münaqişələrə yol açmışdı.

Səfəvi-Osmanlı siyasi münasibətlərindəki ziddiyyətlərə baxmayaraq, Osmanlı sultanı II Bəyazid səfəvilərlə dostluq və sülh münasibətləri saxlamağa çalışırdı. Hətta 1504-cü ildə Osmanlı elçisi Məhəmməd Çavuş Balaban xüsusi hədiyyələrlə Səfəvi sarayına gələrək İraqı və Farsı alması münasibətilə I Şah İsmayılı təbrik etmiş, onu "Azərbaycan və İran hökmdarı" kimi tanımışdı[488]. Bununla da Osmanlı imperiyası Azərbaycan Səfəvilər dövlətini rəsmi olaraq tanımışdır.

Şah I İsmayıl Fars əyalətlərini Səfəvi hakimiyyətinə tabe etdikdən sonra ağqoyunluların hakimiyyətinin son dövründə işğal olunmuş Şərqi Anadolu ərazilərində siyasi hakimiyyəti bərpa etmək üçün bu ərazilərə yürüş etməyə qərar verdi.

Səfəvilərin Şərqi Anadoluya yürüşünün siyasi və strateji əhəmiyyəti böyük idi. Belə ki, səfəvilər dövlətin dini-siyasi və iqtisadi həyatında mühüm rol oynayan və əhalisinin 4/5 hissəsini şiə türkman-qizilbaşların təşkil etdiyi bu əraziləri osmanlılardan geri almaqla dövlətin siyasi gücünü artırmış olur, həmçinin Məmlük dövlətinin sərhədlərinə birbaşa çıxış əldə etmək imkanı qazanırdılar. Həmçinin karvan yollarının keçdiyi Şərqi Anadolunu əldə etmək "karvan ticarəti yollarından" böyük gəlir əldə edən Səfəvi xəzinəsi üçün ciddi iqtisadi əhəmiyyət kəsb edirdi[489]. Eyni zamanda Zülqədər bəyi Əlaüddövlə bəyin Agqoyunlu Sultan Muradı himayə etməsi də bu yürüşə əsas yaradırdı. Bu səbəblərdən 1507-ci ilin yayında Şah I İsmayıl Şərqi Anadolu istiqamətində yürüşə başladı. Bu yürüş Səfəvi-Osmanlı münasibətlərində gərginlik yaranmasına səbəb oldu. Səfəvi hökmdarı-

---

[488] Ş. Məmmədova, *"Xülasət ət-təvarix" Azərbaycan tarixinin mənbəyi kimi,* Bakı, Elm, 1991, s.66.

[489] R. Kılıç, *Kanuni devri Osmanlı-İran münasebetleri (1520-1565),* İstanbul, İQ Kültür Sanat Yayinçılıq ve Uluslararası Tanıtım Hizmetleri Şti., 2006, s.42; Ш. Мустафаев, *Восточная Анатолия: от Аккоюнлу к Османской империи*, М, Востлит, 1994, с.15.

nın Ərzincana gəldiyini eşidən Amasya valisi şahzadə Əhməd vəziyyəti atasına bildirərək Anadolu qızılbaşlarının Şah I İsmayılın ətrafına toplanmaması üçün müəyyən tədbirlər gördü[490].

Şah I İsmayıl Ərzincanda olarkən (1507) Qulu bəy adlı elçisini Osmanlı sultanının, Zəkəriyyə adlı elçisini isə Məmlük sultanının yanına göndərərək yürüşün məqsədinin Zülqədər bəyini cəzalandırmaq olduğunu bildirdi. Həmçinin o, II Bəyaziddən Zülqədər ölkəsinə daxil olmaq üçün Osmanlı ərazilərindən keçiş izni istədi. Şah İsmayılın Osmanlı torpaqlarına hücum etməsindən ehtiyat edən II Bəyazid Səfəvi hökmdarının xahişinə müsbət cavab verdi. Eyni zamanda səfəvilərin mümkün hücüm təhlükəsini nəzərə alan Osmanlı sultanı Orta Anadoluya böyük hərbi qüvvə cəmləşdirdi[491].

Osmanlı sultanından razılıq aldıqdan sonra Səfəvi ordusu 1507-ci ilin iyul ayının sonlarında Sivas-Qayseri ərazisindən keçərək Zülqədər bəyliyinə daxil oldu. Tərəflər arasında baş verən döyüşlərdə Səfəvi qoşunu Ağqoyunlu Sultan Muradin və Zülqədər bəyi Əlaüddövlənin birləşmiş qüvvələrini məğlub edərək Zülqədər bəyliyinin əksər ərazilərini ələ keçirdi. Məğlubiyyətə uğrayan Zülqədər bəyi Osmanlı sultanı və Məmlük hökmdarından kömək istəsə də ciddi bir nəticə əldə edə bilmədi. Çətin vəziyyətdə qalan Zülqədər bəyi Əlaüddövlə Şah I İsmayıl ilə sülh müqaviləsi bağlamağa məcbur oldu. Tərəflər arasında bağlanan sülhə görə Fərat çayı sərhəd olmaqla Diyarbəkr vilayəti səfəvilərin tabeliyinə keçdi. Səfəvi hökmdarı Məhəmməd xan Ustaclunu Diyarbəkr vilayətinə vali təyin edərək geri döndü[492].

---

490 R. Kılıç, *a.g.ə.,* s.41.

491 M. Solakzadə, *Tarix.,* s.21; R. Kılıç, *a.g.ə.,* s.42; F. Sümer, *Safevi devletinin kuruluşu ve gelişmesinde Anadolu türklerinin rolü* (Şah İsmail ile halefleri ve Anadolu türkleri)., Ankara, Türk Tarih Kurumu Basımevi, 1992, s.29.

492 R. Yinanç, *Dulkadir beyliği.,* s.93-94; M. Solakzadə, *Tarix.,* s.21; N. Musalı, *I Şah İsmayılın hakimiyyəti.,* s.12.

Bu razılaşma anonim müəllifin "Tarix-i aləm-ara-yi Şah İsmayıl" əsərində bu şəkildə təsvir olunur: Əlaüddövlə vəd etdi ki, "mən bundan sonra Durna (Fərat) çayının sahilindən o tərəfə keçməyəcəyəm və Diyarbəkr vilayətini sizin qulamlarınıza peşkəş edərək oradan əl çəkirəm". O, bu barədə "qəsəmnaməçə" (and məktubu) yazıb şaha yolladı. Tərəflər bir-birilərinə qiymətli hədiyyələr göndərdilər. Şah I İsmayıl Əlaüddövləyə padşahanə xələt, tac, tumar, cıqqa, kəmərlə birlikdə qılınc və xəncər, qəba, bala-puş (palto), daş-qaşla bəzədilmiş yəhəri olan at göndərdi. Əlaüddövlə də öz növbəsində Məmlük sultanı Qansu Qurinin ona bağışladığı bahalı toppuzu, nizə, qalxan və s. kimi hədiyyələri, ümumi dəyəri 30 min tümən olan peşkəşləri şah üçün yolladı[493].

Beləliklə, Şah I İsmayıl Səfəvinin Anadolu səfəri nəticəsində Ağqoyunlu hakimiyyəti dövründə itirilmiş Şərqi Anadolu əraziləri yenidən geri qaytarıldı.

Diyarbəkrin Səfəvi dövlətinin tərkibinə birləşdirilməsi böyük əhəmiyyət kəsb edən hadisə idi. Bu məsələni şərh edən O.Əfəndiyev yazır: "Babası Uzun Həsənin vətəni Diyarbəkrin Qızılbaş dövlətinin hakimiyyəti altına girməsi Şah İsmayıl üçün çox önəmli idi. Çünki İsmayıl özünü Ağqoyunlu dövlətinin qanuni varisi sayırdı[494].

H. 914 /1508-ci ildə Şah I İsmayıl Həmədan yaylaqlarında olarkən öz elçisi Xəlil bəyi hədiyyələrlə Bağdad hakimi Barik (Bayrək) bəy Pornakın yanına göndərərək ondan itaət tələb etdi. Barik bəy təklifi yaxşı qarşıladı, hətta qızılbaş tacı örtərək Səfəvilərin tərəfinə keçdiyini bildirdi və öz adamlarından Əbu-İshaq Şirəçini Xəlil bəylə birgə Şah İsmayılın hüzuruna yolladı. Lakin İsmayıl Barikin səmimiliyinə inanmayaraq onun itaət etmək üçün şəxsən özünün dərgaha gəlməsinin zəruriliyini bildirdi. Bu tələbə rədd cavabı verən Barik müdafiə hazırlıqlarına başladı.

---

[493] N. Musalı, *I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləm-ara-yi Şah İsmayıl" əsəri əsasında),* Bakı, Elm və təhsil, 2011, s.166-167.

[494] O. Efendiyev, Sultan II. Bayezid ve Şah İsmail, *XIII. Türk Tarih Kongresine Sunulan Bildiriler.*, Ankara, 2002, s.93.

Buna cavab olaraq Şah I İsmayıl Bağdad üzərinə yürüşə başladı. 1508-ci il oktyabrın 21-də Səfəvi hökmdarı Bağdad şəhərinə daxil oldu. Əhali "dövlət – Şah İsmayıl Bahadır xanın dövlətidir, qılınc – qızılbaş qazilərinin qılıncıdır", - deyərək küçələrə töküldü. Şahın fərmanı ilə Xadim bəy Xüləfa Bağdad hakimi təyin edildi[495].

Bununla da Şah I İsmayılın öz babası Uzun Həsənin məmləkətinə sahib olmaq istiqamətində apardığı fəaliyyət əsasən başa çatdırıldı. Abbasilər sülaləsindən olan keçmiş ərəb hökmdarlarının 5 əsr ərzində paytaxtı olmuş Bağdad şəhərinin öz türkman döyüşçüləri tərəfindən fəthinə xüsusi əhəmiyyət verən Şah I İsmayıl bu tarixi hadisəni bir şeirində belə vəsf etmişdir:

"Yetdikcə tükənir ərəbin kuy-i məskəni,
Bağdad içində hər necə kim türkman qopar"[496]

Bu beytə istinad edən M.Qasımlı haqlı olaraq yazır ki, "Xətai özünün mənəvi kökünü Həzrət Əliyə bağlasa da, ərəb mənşəli olmağı qəbul etmir və ərəblərə təəssübkeşlik hissi ilə yanaşmırdı"[497]. Tədqiqatçının fikrincə, yuxarıda qeyd olunan "misralar onun məhz türk-türkman oymaqlarından qürur duyduğunu açıq şəkildə göstərməkdədir.

"Cahanarayi-Şah İsmayıl Səfəvi" adlı tarix əsərində Şah I İsmayılın ordusunun Bağdadı fəth etməsi belə təsvir edilmişdir: "Şah İsmayıl ay-ulduz bayrağı altında Bağdada yaxınlaşdı. İraq əhalisi sürətli addımlarla onu qarşılamağa çıxdı. Sadə camaat Bağdad və başqa şəhərlərdən gəlib şadlıq içində qeyri-adi qələbələr və ilahi təyinatla bağlı hökmdarı qarşılayırdı. Onlar sevinc və bəxtiyarlıq içində idilər..."[498].

---

[495] N. Musalı, *I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləm-ara-yi Şah İsmayıl" əsəri əsasında).,* s.171-172.

[496] N. Musalı, *I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləm-ara-yi Şah İsmayıl" əsəri əsasında).,* s.172-173.

[497] M. Qasımlı, *Şah İsmayıl Xətayinin poeziyası*, Bakı, 2002, s.63.

[498] Şah İsmayıl Xətai*, Əsərləri,* tərtib edənlər: Ə. Səfərli, X. Yusifli, Bakı, Şərq-Qərb, 2005, s.6-7.

Göründüyü kimi, Şah I İsmayılın Osmanlı sərhədləri yaxınlığında apardığı hərbi yürüşlərə II Bəyazid loyal münasibət göstərmişdi. Çünki Osmanlı sultanı ehtiyat edirdi ki, Şah I İsmayıla qarşı görəcəyi tədbirlər nəticəsində Osmanlı ərazilərində yaşayan, tarixən siyasi və mədəni baxımdan qızılbaşlarla bağlı olan şiə məzhəbli türkman əhalisi ona qarşı çıxa bilərdi. Bu səbəbdən Osmanlı sultanı II Bəyazidin hakimiyyəti dövründə Səfəvi-Osmanlı siyasi münasibətləri dinc xarakter daşımışdı.

Sultan II Bəyazidin hakimiyyətinin son illərində (1509-1512) şahzadələr arasında Osmanlı taxt-tacı uğrunda gərgin mübarizə başladı. Bu mübarizənin nəticəsi olaraq Osmanlı hakimiyyətində mövcud olan siyasi böhran dərinləşməyə başladı. Osmanlı dövlətində yaranan bu siyasi və iqtisadi böhrandan təngə gələn Anadolunun türkman əhalisi h.917-ci ilin (1511) məhərrəm ayında Şahqulu Baba Təkəlinin başçılığı ilə üsyan etdilər. Qısa zamanda üsyançılar böyük hərbi uğurlar qazanaraq böyük bir əraziyə nəzarəti ələ keçirdilər. Lakin II Bəyazidin gördüyü hərbi tədbirlər nəticəsində üsyan yatırıldı və Şahqulu Baba Təkəli öldürüldü[499].

Şahqulu üsyanı mövcud Osmanlı hakimiyyətinin siyasi dayaqlarına ciddi zərbə vurdu. Əsasən Amasya və Toqat valisi şahzadə Əhmədlə Trabzon valisi şahzadə Səlim arasında gedən siyasi mübarizə daha da dərinləşdi. Bu mübarizədə ordunun əsasını təşkil edən yeniçərilər şahzadə Səlimi müdafiə etməyə başladılar. Yeniçərilər Osmanlı dövlətini bu siyasi böhrandan ancaq şahzadə Səlimin qurtaracağını bəyan edərək şahzadə Əhmədin padşahlığını qəbul etməyəcəklərini bildirdilər və 1511-ci il avqustun 21-də üsyan etdilər. Sultan II Bəyazid ordunun və bir çox dövlət adamlarının şahzadə Səlimi müdafiə etdiyini nəzərə ala-

---

[499] Ş. Fərzəlibəyli, *Azərbaycan və Osmanlı imperiyası.*, s.97; Y. Küçükdağ. *Osmanlı devleti'nin Şah İsmail'in Anadolu'yu şiileştirme çalışmalarını engellemeye yönelik önlemleri, Osmanlı 1*, Ankara, Yeni Türkiye Yayınları, 1999, s.273; R. Kılıç, *Kanuni devri Osmanlı-İran münasebetleri...* s.49-50.

raq h. 918-ci il səfər ayının 7-də (24 aprel/1512) Osmanlı taxt-tacını şahzadə Səlimə təhvil verdi[500].

Anadoluda Şahqulu üsyanının baş vermə səbəbləri səfəvilərin siyasi təsirindən çox Osmanlı dövlətində mövcud olan hakimiyyət böhranı və ağır sosial-iqtisadi problemlərlə bağlı idi. Yerli türkman əhalisinin ağır sosial vəziyyəti və siyasi özbaşınalıq bu üsyana səbəb olmuşdu. Lakin Şah I İsmayıl bu üsyana nəinki kömək etmədi, hətta türkmanların bu hərəkətini səhv bir addım kimi qəbul edərək Səfəvilər dövlətinə sığınan üsyan iştirakçılarını ciddi surətdə cəzalandırdı.

Y.Küçükdağ Osmanlı tarixçisi Cəlalzadənin "Səlimnamə" əsərinə əsaslanaraq üsyanın səbəbləri haqqında yazarkən bunu "ölkədə ağır şəraitin hökm sürməsi və olub bitəndən xəbəri olmayan vəzirlərin iş başında olması ilə əlaqələndirmişdi"[501].

Osmanlı tarıxçisi Mehmed Solakzadə Səfəvi dövlətinə sığınan üsyan rəhbərlərinin cəzalandırılması haqqında yazırdı: "....Yaşıl çəmənlikdə Şah özü də oturdu və onları sorğu-sual edib belə dedi: "Sultan Bəyazid xanın himayəsi altında neçə zamandan bəri əhli əyallarınızla asudə hal ikən nə üçün onun itaətindən çıxdınız?" Sərdarları olan biri belə cavab verdi: "Bəyazid xan dövlətinin üzənglərini vəzirlərinə təslim etməklə məmləkətə ixtilaf vaqeə oldu. Rəiyyət ayaq altında payimal oldu. Zülmlərinə tab gətirməyib getməyi qərara aldıq". Şah İsmayıl yenə sual verdi: " Bəs məmləkəti talan etmək nəyə lazım idi?"... -"Çəkdiyimiz zülmlərin intiqamını almaq üçün"... Bundan sonra onları qətl edib günahlarının cəzalarını verdilər"[502].

Osmanlı tarixçilərinin məlumatlarından da aydın olur ki, bu üsyan əsasən Osmanlı zülmündən doğan və Osmanlı dövlətinin daxilində siyasi və sosial problemlərdən baş verən bir hadisə idi. Lakin Şah I İsmayıl anlayırdı ki, bu hərəkət Osmanlı-Səfəvi

---

[500] Ш. Бидлиси, *Шараф-Наме.*, c.157; R. Kılıç, *a.g.ə.*, s.55-56.

[501] Y. Küçükdağ, *Osmanlı devleti'nin Şah İsmail'in Anadolu'yu şiileştirme çalışmalarını engellemeye yönelik önlemleri.*, s.273.

[502] M. Solakzadə, *Tarix.*, s.24.

münasibətlərinə ciddi zərbə vuracaqdır. Bu səbəbdən müridlərinin bu hərəkətini səhv bir addım olaraq dəyərləndirən I Şah İsmayıl Səfəvi sarayına sığınan üsyan iştirakçılarını ciddi surətdə cəzalandırdı. Səfəvi hökmdarının bu addımlarına baxmayaraq, qızılbaşlara qarşı daima düşmənçilik mövqeyində dayanan sultan Səlim bu üsyanın arxasında Səfəvi hakimiyyətinin olduğunu əsas gətirərək səfəvilərə qarşı mübarizəyə qərar verdi. Atasından fərqli olaraq sultan Səlimin səfəvilərə qarşı kəskin xarakterli münasibəti hər iki dövlət arasında uzunmüddətli siyasi-hərbi ixtilafların əsasını qoydu.

Şah I İsmayıl Səfəvi ilə Sultan Səlim arasında siyasi ziddiyyətlər hələ şahzadə Səlimin Trabzon valisi olduğu dövrdən başlamışdı. Şahzadə Səlimin 1508-ci ildə səfəvilərdən vassal asılılığında olan gürcü bölgələrinə yürüşlər edərək bu bölgənin qərb hissəsini işğal etməsi, həmçinin Anadoluda Səfəvi dövlətinin bəzi ərazilərinin (Bayburt, Ərzincan, Kəmah, İspir, Tunceli) ələ keçirməsi ciddi siyasi gərginliyə səbəb oldu. I Şah İsmayıl şahzadə Səlimin bu addımlarına son qoyulması üçün İstanbula bir elçi heyəti göndərərək Ağqoyunlu sülaləsinin qanuni varisi kimi əvvəllər ağqoyunlulara məxsus sonradan Səfəvi hakimiyyətinə keçən və şahzadə Səlim tərəfindən işğal edilən bu torpaqların geri qaytarılmasını və onun cəzalandırılmasını tələb etdi[503].

Şahzadə Səlim bu torpaqların Osmanlı torpağı olduğunu və babası İldırım Bəyazid tərəfindən fəth edildiyini önə çəksə də Osmanlı Divanı bunu qəbul etməmiş və şahzadə Səlimə Anadolu bölgəsində səfəvilərə məxsus işğal edilmiş əraziləri geri qaytarmağı əmr etmişdi[504].

Şah I İsmayılla Sultan Səlim arasında olan bu siyasi gərginlik artıq hər iki dövlət arasında baş verəcək hərbi-siyasi münaqişəni qaçılmaz edirdi. Hərçənd ki, Osmanlı hakimiyyəti Ana-

---

503 F. Kırzıoğlu, *Osmanlılar'ın Kafkas-elleri'ni fethi.*, s.94; M. Solakzadə. *Tarix.*, s.22; R. Kılıç, *Kanuni devri Osmanlı-İran münasebetleri.*, s.46-47; Ş. Fərzəlibəyli, *Azərbaycan və Osmanlı imperiyası.*, s.95.

504 R. Kılıç, *a.g.ə.*, s.47.

doluda baş verən yerli münaqişələrin arxasında Səfəfi dövlətinin dayandığını iddia etsə də, lakin bu ittihamlar osmanlıların səfəvilərə qarşı başlayacağı müharibə öncəsi ideoloji təbliğatdan başqa bir şey deyildi. Osmanlı hakimiyyəti bu təbliğatı aparmaqla bir tərəfdən Osmanlı bürokratiyası arasında öz nüfuzunu artırmağa və Səfəvi-Osmanlı müharibəsinin başlanmasının səbəbi kimi təqdim etməyə çalışırdı. Əslində isə Sultan Səlimin Azərbaycana hərbi yürüşlərinin cox ciddi siyasi səbəbləri var idi. İlk növbədə Osmanlı dövlətinin əsas məqsədi strateji və iqtisadi baxımdan böyük əhəmiyyətə malik olan Şərq Anadolu bölgəsini ilhaq etmək idi. Azərbaycan dövlətlərinin irsi mülkü sayılan bu bölgəni işğal etmək Osmanlı dövlətinin xarici siyasətinin əsas məqsədlərindən biri idi. Osmanlı hakimiyyəti başa düşürdü ki, səfəvilərin irsi torpaqları olan bu ərazilərin işğal edilməsi Səfəvi dövlətinin siyasi, iqtisadi və etno-kulturoloji təsisatlarına ciddi zərbə vura bilər. Digər tərəfdən bu bölgənin işğalı ilə səfəvilərin Anadoluda apardığı dini-siyasi təbliğata son qoyula bilərdi. Bölgənin işğalı osmanlılar üçün iqtisadi baxımdan da böyük əhəmiyyət kəsb edirdi. Belə ki, Şərqdən Qərbə gedən böyük ticarət yollarını (Təbriz-Hələb, Təbriz-Bursa) və Mesopotomiya, Anadolu və Hələb ticarət yollarının birləşdikləri böyük ticarət mərkəzi Diyarbəkrin ilhaq olunması Osmanlı xəzinəsinə böyük həcmdə gəlir gətirə bilərdi. Həmçinin avropalılar tərəfindən okean vasitəsilə Hindistana gedən dəniz yolunun kəşf olunması osmanlıların nəzarət etdiyi Aralıq dənizi ticarətinə nəzərəcarpacaq dərəcədə zərbə vurmuş və Şərq-Qərb dəniz ticarətində Osmanlı hegemonluğu zəifləmişdi. Osmanlı dövlətinin strateji planlarından biri də səfəvilərin nəzarətində olan Bəsrə körfəzini ələ kecirməklə dünya okeanına birbaşa çıxış əldə etmək idi. Bu baxımdan osmanlı hakimiyyəti öz siyasi və iqtisadi məqsədlərinə çatmaq üçün Səfəvi dövlətinə qarşı ciddi addımlar atmağa başladı.

Tarixçi Münəccimbaşı bu barədə yazırdı: “Yavuz Sultan Səlim dövlət adamlarını, yeniçəri başlarını, Rumeli bəylərini toplayıb qəza və cihat etmək arzusunda olduğunu, Ərəb diyarını Çərkəzlərdən (Məmlüklərdən), Əcəm diyarını da Qızılbaşların

(Səfəvilərin) əlindən almaq istədiyini, hətta Hində və Sində səfər edəcəyini bildirdi”[505].

Azərbaycana hücumu ərəfəsinə Sultan Səlim səfəvilərə qarşı bir çox siyasi, iqtisadi və hərbi tədbirlər həyata keçirdi. İlk növbədə Səfəvilət dövləti ilə bütün sahələrdə əlaqələrə son verərək əhalinin gediş-gəlişinə və ticarət əlaqələrinə qadağa qoyuldu. Osmanlı sultanı birmənalı şəkildə Səfəvilər dövləti ilə ipək ticarətinə qadağa qoydu və Bursada Azərbaycanlı tacirlərini həbs etdirdi. Eyni zamanda Osmanlı sultanı Anadoludakı qızılbaş-türkmanları siyahıya aldıraraq 40 min əhalini qətlə yetirdi və yaxud sürgünə göndərdi[506]. Sultan Səlimin öz hakimiyyət maraqları naminə Anadoluda qızılbaş-türkman əhalisinə qarşı törətdiyi kütləvi qətllər bu bölgədə baş verən siyasi hadisələrdə mühüm rol oynayan türkman etnosuna cox ciddi zərbə vurdu.

Sultan Səlim səfəvilərə qarşı mübarizədə özünə müttəfiqlər də tapmağa çalışırdı. Bu məqsədlə Osmanlı hakimiyyəti h. 920-ci ilin məhərrəm ayında Mavəraünnəhr hakimi Übeydulla xana elçisi Məhəmməd bəy vasitəsilə bir məktub göndərdi. Məktubda Osmanlı sultanı tezliklə Şah İsmayıla qarşı müharibəyə başlayacağını və bu müharibədə Özbək hökmdarının ona yardım etməsini istəyirdi[507].

Özbək hökmdarı h. 920-ci il cəmadiüs-sani ayının axırlarında sərkərdəsi Xurşud Bahadur vasitəsilə göndərdiyi cavab məktubunda, “ Siz hücum edən kimi biz də hərəkətə gəlməyi qə-

---

[505] R. Kılıç, *a.g.ə.*, s.67.

[506] R. Kılıç, *a.g.ə.*, s.68; V. Minorsky, *The Middle East in the Western Politics in 13-th, 15-th and 17-th Centuries*., p.452; H. İnalçik, *Osmanlı tarihine toplu bir bakış, Osmanlı 1,* Ankara, Yeni Türkiye Yayınları, 1999, s.91; F. Sümer, *Safevi devletinin kuruluşu ve gelişmesinde Anadolu türklerinin rolü.,* s.36; Ş. Fərzəlibəyli, *Azərbaycan və Osmanlı imperiyası.,* s.96.

[507] R. Kılıç, *Kanuni devri Osmanlı-İran münasebetleri.,* s.79-80.

rara almışıq...” yazaraq Osmanlı sultanına tərəfdar olduğunu bildirmişdi[508].

Sultan Səlim 1514-cü il aprel ayının 14-də Ağqoyunlu bəylərindən Fərruxşad bəyə də məktub göndərmişdi. Osmanlı sultanı bu məktubda qısaca: “ ... Sizlərin və sizə uyanların dindarlığı, Əhli-Sünnət yolunda olduğunuz məlumdur... indi biz Şahın üzərinə getməkdəyik... Sizdə üzərinizə düşən vəzifəni yerinə yetirin” yazaraq ağqoyunluları da Səfəvilərə qarşı müharibəyə çağırırdı[509].

Osmanlı hakimiyyətinin atdığı diplomatik addımlar nəticəsində Məmlük dövləti Osmanlı-Səfəvi qarşıdurmasında bitərəf qaldı[510].

Səfəvi hakimiyyəti Sultan Səlimin bu tədbirlərinin qarşısını almaq məqsədi ilə müəyyən siyasi və diplomatik tədbirlərə al atmaq qərarına gəldi. Bu səbəbdən Nur Əli Xəlifə Rumlunu Anadoluya göndərərək bu ölkədəki sufiləri toplamağı əmr etdi. Qısa müddətdə qızılbaş-türkmanları öz ətrafında toplayan Nur Əli Xəlifə Osmanlı hərbi qüvvələrini məğlub edərək Toqatı ələ keçirdi. Bu arada Sultan Səlimə qarşı müxalif olan şahzadə Əhmədin oğlu Murad qızılbaş-şıəliyi qəbul edərək qızılbaş-türkman ordusu ilə birləşmiş və Sultan Səlimə qarşı mübarizəyə başlamışdı[511].

Sultan Səlimin üsyançılara qarşı gördüyü tədbirlər şahzadə Muradı Təbrizə gələrək Səfəvi hakimiyyətinə sığınmağa məcbur

---

508 Ş. Fərzəlibəyli, *Azərbaycan və Osmanlı imperiyası.*, s.99; Ə. Vilayəti, *Şah İsmayıl Səfəvi dövründə İranın xarici əlaqələr tarixi,* Bakı, Əlhuda, 1998, s.127-131.

509 R. Kılıç, a.g.ə., s.79; Ş. Fərzəlibəyli, *Azərbaycan və Osmanlı imperiyası.*, s.99.

510 H. İnalçik, *Osmanlı tarihine toplu bir bakış.*, s.92; K. Yussof, *XVI. Yüzyılda I Selim ve Mısır arasındaki ilişkiler, Osmanlı 1,* Ankara, Yeni Türkiye Yayınları, 1999, s.284.

511 R. Kılıç, *Kanuni devri Osmanlı-İran münasebetleri.*, s.62-63; İ. Uzunçarışlı, *Osmanlı tarixi (İstanbul'un fethinden Kanuni Sultan Suleyman'ın ölümüne kadar).*, s.253.

etdi. Bu zaman sultan Səlim Şah İsmayıla bir məktub göndərərək atası Sultan II Bəyazidin vəfatı və özünün osmanlı taxtına oturması barədə xəbər verdi. Həmçinin sultan Səlim bu məktubunda Səfəvi hökmdarından şahzadə Muradı geri qaytarmaqı tələb etmişdi. Lakin Səfəvi sarayında bu tələb qəbul edilməmiş və osmanlı elçisi öldürülmüşdü[512].

Şah I İsmayıl eyni zamanda osmanlılara qarşı mübarizə aparmaq üçün Avropa dövlətləri ilə də intensiv danışıqlar aparırdı.

Səfəvi hökmdarının Osmanlı imperiyası ilə müharibə ərəfəsində Məmlük hakimiyyəti ilə apardığı danışıqlar da nəticəsiz qaldı. 1512-ci ildə Təbrizdən Qahirəyə göndərilən elçilər məqsədlərinə çatmadan geri döndülər. Çünki bu zaman Misirin Hind okeanına çıxış yoluna nəzarət edən portuqaliyalılara qarşı mübarizədə osmanlılar məmlüklərə kömək edirdi. Bu səbəbdən Misir hökuməti Səfəvi dövlətinə kömək etməkdən imtina etdi[513].

Sultan Səlim hərbi hazırlıqlarını başa çatdırdıqdan sonra 1514-cü il martın 16-da Ədirnə şəhərində fövqalədə bir divan təşkil etdi. Bu divanda Şah I İsmayıl və onun ardıcılları əleyhinə cihad elan edildi və buna fətva verildi. H. 920-ci il səfər ayının 27-də (23 aprel/1514) Osmanlı sarayından Səfəvi sarayına farsca bir məktub göndərildi və "döyüşdən qabaq xəbərdarlıq etmək islamın hökmü və şəriətin tələbidir", - deyilərək, Səfəvi dövlətinə qarşı rəsmi müharibə elan edildi[514].

Azərbaycana hücum ərəfəsində Sultan Səlim Şah I İsmayıla bir-birinin ardınca üç məktub göndərmişdi. Həmin məktubların hamısı təhqiramiz xitab və hədə-qorxu ilə dolu ifadələrlə yazılmışdı. Osmanlı sultanı bu məktublarında Səfəvi hökmdarını o taxta çıxarkən təbrik etməməkdə, şəriət qanunlarını pozaraq mü-

---

512 İ. Uzunçarışlı, *a.g.ə.,* s.256; Ə. Vilayəti, *Şah İsmayıl Səfəvi dövründə İranın xarici əlaqələr tarixi.*, s.115.

513 Y. Mahmudlu, *Azərbaycan diplomatiyası.*, s.152.

514 Ə. Vilayəti, *Şah İsmayıl Səfəvi dövründə İranın xarici əlaqələr tarixi.*, s.120; R. Kılıç, *a.g.ə.,* s.75-78.

səlmanları zülmə düçar etməkdə günahlandıraraq Şah İsmayıla, "Əgər sən tövbə edib əlindəki ölkəni osmanlı ölkəsi saysan çox yaxşı, yox əgər belə hərəkət etməsən, Allahın istədiyi nəsə o da olacaqdır" deyərək tabe olmağı tələb etmişdir[515].

Şah I İsmayıl Osmanlı sarayından gələn məktubların yalnız birinə cavab yazdı. 1514-cü il iyulun 19-da Şah I İsmayıl elçisi Şahqulu Ağa vasitəsilə Sultan Səlimə göndərdiyi cavab məktubunda yazırdı: "... Məlumunuz olsun ki, son zamanlar göndərdiyiniz üç məktub yetişdi. Onların məzmunu düşmənçilikdən xəbər verirdi, hədə və kobudluqla dolu idi, lakin bunun səbəbi və mənşəyi nədir bilmirəm... Cənnətməkan atanızın zamanında Əlaüddövlə Zülqədərin həyasızlığı səbəbindən biz Rum ölkəsinə hərəkət etdik və o vaxt tərəflər arasında dostluq və birlikdən başqa bir şey görünmədi... İndi bu kin-küdurətin səbəbi anlaşılmır... Bu cavabı dostca yazdıq və sizə qarşı çıxmaq üçün hazırlığa başladıq. Əli övladları ilə savaşanlar özləri yox olub gedər. İş savaşla sona çatacaqsa, onu gecikdirmək doğru olmaz. Vəssalam..."[516].

Sultan Səlim 1514-cü ilin avqust ayının ortalarında Çermukda Şah I İsmayıla türk dilində dördüncü məktubunu yazdı. Bu məktubda da o, Səfəvi hökmdarını təhqir və təhdidedici ifadələrlə döyüşə təhrik edirdi[517].

Səfəvi dövlətinin sərhədlərini keçən Osmanlı ordusu ilə Səfəvi ordusu arasında h. 920-ci il rəcəb ayının 2-də (23 avqust/ 1514) Maku yaxınlığında Çaldıran düzündə şiddətli döyüş oldu. Bu döyüşdə toplardan istifadə edən osmanlılar Səfəvi qoşunu üzərində qələbə çaldı. Bu qələbədən sonra Təbriz şəhərinə girən Sultan Səlim orada 8 gün qaldıqdan sonra yeniçəri qoşun hissə-

---

[515] Ş. Fərzəlibəyli, *Azərbaycan və Osmanlı imperiyası.*, s.100.

[516] M. Solakzadə, *a.g.ə.*, s.27; R. Kılıç, *a.g.ə.,* s.85; Ə. Vilayəti, *Şah İsmayıl Səfəvi dövründə İranın xarici əlaqələr tarixi…* s.148.

[517] M. Solakzadə, *a.g.ə.*, s.27-28; Ş. Fərzəlibəyli, *Azərbaycan və Osmanlı imperiyası.*, s.101; Ə. Vilayəti, *a.g.ə.,* s.151.

lərinin təkidi ilə şəhəri tərk etdi və Amasyaya dönmək üçün hərəkət etdi[518].

Çaldıran qələbəsindən sonra hərbi əməliyyatları davam etdirən Osmanlı ordusu 1515-ci il mayın 19-da Kəmax qalasını, həmin ilin iyun ayının 12-də (12 iyun/1515) Zülqədər bəyliyini, 1515-ci ilin sentyabr ayında Diyarbəkri, 1517-ci ilin aprel ayında isə Mardini ələ keçirdi. Bununla da Cənub-Şərqi Anadolu və Diyarbəkr bölgəsi Osmanlı imperiyasının nəzarətinə keçdi[519].

Ümumiyyətlə, Osmanlı imperiyası Səfəvi dövlətinə qarşı etdiyi bu hərbi yürüşü nəticəsində Səfəvi hakimiyyətini aradan qaldıraraq Bəsrə körfəzi vasitəsilə dünya okeanına çıxış əldə edə bilməsə də, səfəvilərin irsi torpaqları olan Şərqi Anadolunun böyük bir hissəsinin ilhaqına nail oldular. Şərqi Anadolunun osmanlılar tərəfindən işğalı, istər etno-siyasi, istər strateji, istərsə də iqtisadi baxımdan Səfəvi dövlətinə ciddi zərbə idi.

Çaldıran döyüşündən sonra I Şah İsmayıl hər iki dövlət arasında münasibətləri normallaşdırmaq üçün h. 920-ci ilin şəvval ayında (noyabr/1514) Mir Nurəddin Əbdülvahab başda olmaqla Qazi İshaq, Mövlana Şükrüllah Muğani, Xəlifə Heydərdən ibarət bir nümayəndə heyətini məktub və hədiyyələrlə Amasyada olan Sultan Səlimin yanına göndərdi. Səfəvi Şahının türkçə yazılmış məktubunda deyilirdi: “Mərhum Sultan Bəyazid Xan dövründə kimsə məndən sadiqlikdən başqa nəsə görməmişdi. Onun mülkünə tamah salmadım. Əcəm mülkü ilə kifayətləndim, ədəb qaydalarına riayət edib xilaf bayrağını qaldırmadım... Mənim məzhəbimə həqarət edənlər qismindəsiniz. O, şəxslər ki,

---

[518] Hoca Sadeddin Efendi, *Tacü’t-tevarih (Şehzadelerin girişimleri-Selimname ve Yavuz Sultan Selim dönemi),* yalınlaştıran İsmet Parmaksızoğlu. IV c., İstanbul, Milli Egitim Basımevi, 1979, s. 197-203; *История Востока (Восток на рубеже средневековья и нового времени-XVI-XVIII вв.),* T.3., M, Восточная литература PAH, 1999, c.103; E. Eberhard, *Osmanische Polemik gegen die Safawiden im 16. Jahrhundert nach arabischen Handschriften,* Freiburq, Klaus Schwarz Verlaq, 1970, p.35.

[519] M. Solakzadə, *a.g.ə.,* s.37; R. Kılıç, *a.g.ə.,* s.110-116; F. Kırzıoğlu, *Osmanlılar’ın Kafkas-elleri’ni fethi.,* s.115.

mənə Allahsız münasibət göstərər, ona Allah sözü ilə cavab verərəm. Mənim əslim Beyt-i Peyğəmbər-i və dinim paklıqda zəri-Cəfəridir..."[520]. Bu məktubu ilə Şah I İsmayıl Osmanlı Sultanına düşmənçilikdən vaz keçməyi təklif etmişdir.

Lakin 1514-cü ilin noyabrın 29-da Sultan Səlimin hüzuruna gələn səfəvi elçiləri həbs olundu[521].

Osmanlı sarayına göndərilən səfəvi elçilik heyətinin başçısı Mir Nurəddin Əbdülvahab uzun müddət Osmanlı zindanında qaldı və yalnız Sultan Səlimin ölümündən (1520) sonra Sultan Süleyman tərəfindən azad edildi. Lakin həbsdən azad ediləndən bir qədər sonra dünyasını dəyişmiş və İstanbulun Eyüb qəbiristanlığında dəfn edilmişdi[522].

Şah I İsmayıl h. 921-ci ilin axırlarında (dekabr/1515) Kəmaləddin Hüseyin bəy və Bəhram ağadan ibarət yeni bir elçi heyətini İstanbula göndərmişdi. Səfəvi elçiləri həmin ilin şəvval ayının 3-də Sultan Səlim tərəfindən qəbul edilmiş və Səfəvi Şahının məktubu Sultana təqdim olunmuşdur. Məktubda deyilirdi: "Şah İsmayıl tərəfindən Sultan Səlim Xana. Allah ona rəhm etsin və bağışlasın. Həmd olsun Allah-Təalaya və onun adı ilə Sultan Səlim şahın sultanlığı, ədaləti, əzəməti, şöhrəti və səadəti ucalsın!... Yüksək nəsildən olan, Həzrət, səltənətin pənahı, ədalətli, Cəmşid rütbəli, məmləkətləri bəzəyən mələk xislətli, ən böyük sultanların iftixarı, qüdrətli Xaqanların dayağı, İslamın ve Müsəlmanların hamisi... Şah İsmayıl ibn Heydər ibn Cüneyd əs-Səfəvi - Onun hökmranlığı və sultanlığı Allahın lütfü və məhəbbəti ilə davam etsin... Mən öz təbiət və xislətimə uyğun şəkildə düşmənçilik və özbaşınalıq yolunu tutanlara qarşı savaşarkən sizin tərəfinizdən buna qarşı müxalif olacağını ağlıma və təsəvvürümə belə gətirmirdim... Hər halda iki qardaş arasında sülhü bər-

---

[520] Ə. Vilayəti, *a.g.ə.,* s.173-174; R. Kılıç, *a.g.ə.*, s.107-108.

[521] F. Kırzıoğlu, *a.g.ə.*, s.112-113; Ə. Vilayəti, *a.g.ə.*, s.173-174.

[522] B. Cavanşir, *İrandakı türk boyları ve boy mensubu kişiler (Safevi dönemi – I.Şah Tahmasb hakimiyyetinin sonuna kadar/1576),* doktora tezi., İstanbul, 2007, s. 185-186; R. Kılıç, *a.g.ə.*, s.107-111.

qərar edən hər kəs digərlərindən daha tez behiştə gedəcəkdir... Sülh daha xeyirlidir... Seyidlərin nuru Əmir Əbdülvahabı birlik yaratmaq, düşmənçiliyi aradan qaldırmaq üçün siz tərəfə göndərdik... Aradan bir müddət keçib, lakin ondan xəbər almadıq... Ağlıma gələn odur ki, hər iki tərəfdən bəzi əmirlər bizdən xəbərsiz olaraq yüksək rütbəli seyyidin verəcəyi məlumata zidd olan işlər görmüşlər. Buna görə də yüksək əmirlik vəzifəsinə layiq görülmüş Kəmaləddin Hüseyn bəyi və ağsaqqalların rəhbəri Bəhram Ağanı sizin hüzurunuza göndərirəm. Məsələləri təfsilatı ilə çatdırmaq onlara həvalə edilmişdir. İmkan olan kimi onları geri göndərin... Bu məktub əbədi və möhkəm dualarla Təbriz iqamətgahından yazılıb sona çatdırılmışdır."[523].

Sülh danışıqları üçün İstanbula gələn səfəvi elçiləri Sultan Səlim tərəfindən qəbul edilsələr də, lakin bu elçilər də həbs olundular[524].

Osmanlı tarixçisi Hoca Sadəddin Əfəndi İstanbula gələn Səfəvi elçiləri haqqında öz əsərində belə bəhs etmişdir: "Sultan Səlim xan İdris Bitlisiyə yazdığı məktubunda bildirir ki, Şah İsmayıl Hüseyn bəy və Bəhram Ağa adlı adamlarını sülh təklifi ilə onun hüzuruna göndərmişdir. Lakin onun sözlərinə və niyyətinə etibar edilmədiyi üçün mən bu səfirləri Dimatoka qalasında, digər adamlarını isə Kilid-ül-bəhr qalasında zindana atdırdım"[525].

Sultan Səlimin Misir səfərindən sonra (1517), Şah I İsmayıl osmanlılarla diplomatik əlaqələri bərpa etmək üçün növbəti bir cəhd etdi. O, 1518-ci ilin fevral ayında Saru-Şeyx adlı elçisini Hələbdə olan Sultan Səlimin yanına göndərdi. Fevral ayının 15-də Sultan Səlim tərəfindən qəbul edilən elçi, Misirin fəthi münasibətilə Səfəvi hökmdarnın göndərdiyi "təbriknamə"ni ona

---

[523] Ə. Vilayəti, *a.g.ə.*, s.185-187.

[524] R. Kılıç, *a.g.ə.*, s.111; Ş. Fərzəlibəyli, *Azərbaycan və Osmanlı imperiyası.*, s.102; Ə. Vilayəti, *a.g.ə.,* s.184.

[525] Hoca Sadeddin Efendi, *Tacü't-tevarih (Şehzadelerin girişimleri-Selimname ve Yavuz Sultan Selim dönemi),* yalınlaştıran İsmet Parmaksızoğlu, IV c., İstanbul: Milli Egitim Basımevi, 1979, s.271-272.

təqdim etdi və Şah I İsmayılın sülh təklifini ona çatdırdı. Lakin Sultan Səlim sülh təklifini rədd edərək elçini Yedi-Kule qalasında həbs etdirdi[526].

Sultan Səlim h. 926-cı il şəvval ayının 9-da (22 sentyabr/1520) vəfat etdi. Onun ölümündən sonra osmanlı hakimiyyətinə yeganə varis olan şahzadə Suleyman (1520-1566) Osmanlı taxtına oturdu[527].

Sultan Suleymanın hakimiyyətə gəlməsindən sonra Səfəvi-Osmanlı münasibətləri müəyyən dərəcədə normallaşmağa başladı. İlk olaraq Sultan Suleyman atası Sultan Səlimin Səfəvi dövlətinə qarşı yürütdüyü aqressiv siyasəti dəyişmək qərarına gəldi. Bu münasibətlə Səfəvi dövlətinə qarşı tətbiq olunan "İbrişim yasağı" deyilən ipək ticarəti qadağasını aradan qaldırdı. Eyni zamanda Sultan Səlim dövründə bu qadağanı pozduğuna görə həbs edilən tacirlər azad olundu və onlara dəyən maddi zərər dövlət xəzinəsindən ödənildi. Həmçinin səfəvi tacirlərinin silah ticarətinə qoyulan qadağa da aradan qaldırıldı[528]. Sultan Suleyman bu iqtisadi qadağaları aradan götürməklə yanaşı diplomatik əlaqələri bərpa etmək məqsədilə Səfəvi sarayına bir məktub göndərərək "Qərbli kafirlərə qarşı dostluq və əməkdaşlığı, ticarət əlaqələriinin və gediş-gəlişin bərpa edilməsini təklif etdi. Lakin Səfəvi hökmdarı Sultan Suleymanın bu diplomatik addımına müsbət cavab vermədi[529].

Sultan Suleyman hakimiyyətinin ilk illərində Osmanlı dövlətinin xarıcı siyasətinin əsasını dövlətin qərb sərhədlərini genişləndirmək təşkil edirdi. Bu səbəbdən Osmanlı hakimiyyəti Şərq sərhədlərinin toxunulmazlığı üçün Səfəvilər dövləti ilə siyasi münasibətlərin normal olmasında maraqlı idi. Digər tərəfdən Səfəvilər dövlətinə qarşı tətbiq edilən ticarət qadağaları Os-

---

[526] Hoca Sadeddin Efendi, *a.g.ə.*, s.343; R. Kılıç, *a.g.ə.*, s.117.
[527] Ш. Бидлиси, *Шараф-Наме.*, с.166; F. Kırzıoğlu, *Osmanlılar'ın Kafkas-elleri'ni fethi.*, s.122; R. Kılıç, *a.g.ə.*, s.121.
[528] R. Kılıç. *a.g.ə.*, s.128-130.
[529] R. Kılıç, *a.g.ə.*, s.132.

manlı xəzinəsinin gəlirlərinə mənfi təsir etməklə yanaşı, Osmanlı tacirləri arasında da narazılığa səbəb olurdu. Bu baxımdan sultan Suleymanın Səfəvilər dövləti ilə münasibətləri bərpa etmək üçün atdığı bu addımlar Osmanlı dövlətinin siyasi və iqtisadi maraqlarından döğan bir addım idi.

Şah I İsmayıl Səfəvi Sultan Suleymanın əməkdaşlıq təklifinə osmanlıların Belqradın (1521) və Rodosun (1522) fəthindən sonra cavab verdi. Səfəvi sarayından (1523) Osmanlı dövlətinə Tacəddin Həsən Xəlifənin başçılığı ilə 500 nəfərlik bir elçi heyəti göndərildi. Osmanlı hakimiyyəti bu elçi heyətini yüksək səviyyədə qarşılamadı. Bu diplomatik heyətdən yalnız 20 nəfərə İstanbula getməyə icazə verildi. Sultan Səlimin ölümündən sonra baş sağlığı vermək, Sultan Suleymanı taxta çıxması və Rodosun fəthi münasibəti ilə təbrik etmək üçün İstanbula gələn elçi heyəti Şah I İsmayılın məktubunu Osmanlı sultanına təqdim etdi. Məktubda deyilirdi: "Müqəddəs qəlbə və məlum və aşkardır ki, "Sən olmasaydın fələkləri (aləmləri) yaratmazdım" hökmünə uyğun olaraq dünyada insandan heysiyyətli və ləyaqətli bir məxluq yoxdur. Şübhəsiz ki, İslamın küfr, düz yolun isə azğınlıq üzərində hər bir qələbəsi Allahın qeyb pərdəsi arxasından göndərdiyi yardım, uğur və lütf sayəsində baş verir... Bu əzəmətli hadisəni böyük bayram və sonsuz sevinc hesab edərək Tacəddin Xəlifəni böyük qələbələri təbrik etmək üçün sarayınıza göndərirəm, səmimiyyətlə mehribanlığımı, sədaqətlə etiqad və etimadımı bildirirəm"[530].

Şah I İsmayılın göndərdiyi məktuba cavab olaraq Sultan Suleyman h. 930-cu il məhərrəm ayının 14-də (23 noyabr/1523) Səfəvi sarayına dostluq münasibətlərini özündə əks etdirən bir cavab məktubu göndərmişdi[531].

---

[530] Ə. Vilayəti, *a.g.ə.*, s.195; F. Kırzıoğlu, *a.g.ə.*, s.123; İ. Uzunçarışlı, *Osmanlı tarixi (İstanbul'un fethinden Kanuni Sultan Suleyman'ın ölümüne kadar).*, s.448; Ş. Fərzəlibəyli, *Azərbaycan və Osmanlı imperiyası.*, s.106.
[531] F. Kırzıoğlu, *a.g.ə.*, s.123; Ə. Vilayəti. *a.g.ə.*, s.197.

Şah I İsmayılın 37 yaşında qəflətən vəfat etməsi (h. 930 19 rəcəb - 23 may/1524) normallaşmaqda olan Səfəvi-Osmanlı münasibətlərinə ciddi zərbə vurdu[532].

Şah I İsmayılın hakimiyyəti dövründə (1501-1524) Azərbaycan Səfəvi dövlətinin xarici siyasətinin formalaşmasında Şeybanilər dövləti ilə münasibətlərin də mühüm rolu var idi. Yaranma tarixi Azərbaycanda Səfəvilər sülaləsinin hakimiyyətə gəlməsi ilə eyni dövrə təsadüf edən Şeybanilər dövlətinin Səfəvi hakimiyyəti ilə siyasi münasibətləri, ilk dövrlərdən başlayaraq mürəkkəb xarakter daşımağa başladı. Səfəvi dövləti ilə Şeybanilər dövləti arasında tezliklə bir sıra siyasi ziddiyyətlər özünü göstərməyə başladı. Həmçinin hər iki dövlət arasında mövcud olan dini təriqət fərqliliyi bu ziddiyyətləri daha da kəskinləşdirirdi. Hətta münasibətlər o qədər gərginləşmişdi ki, Şeybani hakimiyyəti Səfəvi tacirlərinin öz ölkəsi ilə ticarətinə qadağa qoymuşdu.

Şeybanilərin h. 913-cü ildə (1507-1508) teymurilərin Xorasan dövlətinin varlığına son qoyması səfəvilərlə şeybanilər arasında siyasi münasibətləri gərginləşdirdi. Artıq Xorasanı işğal edən şeybanilər Səfəvi dövlətinin cənub-şərq sərhədlərinə ciddi təhlükə yaradırdı.

Özbək hökmdarı Məhəmməd Şeybani Heratı işğal etdikdən sonra (1508) Şah I İsmayıla özünün təhdid xarakterli ilk məktubunu yazaraq onu itaət etməyə və şiəlikdən əl çəkməyə çağırırdı. Bu ərəfədə Səfəvi hökmdarı İraqı və Şirvanı fəth etməklə məşğul olduğu üçün bu məktubu cavabsız qoymuşdu[533].

---

532 O. Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti.*, s.59; Ш. Бидлиси, *Шараф-Наме.*, с.171; Zeynalabidin Əli Əbdi bəy Şirazi, *Təkmilətül-əxbar*, fars dilindən tərcümə, müqəddimə və şərhlərin müəllifi Ə. H. Rəhimli., Bakı, Elm, 1996, s.53; *Книга Оруджа-бека Баята - Дон-Жуана Персидского*, перевод с английского, введение и комментарии О. Эфендиева и А. Фарзалиева., Баку, Язычы 1988, с.77; Ş. Fərzəliyev, *Azərbaycan XV-XVI əsrlərdə.*, s.116.

533 Ş. Fərzəliyev, *Azərbaycan XV-XVI əsrlərdə.*, s.114; R. Ağayev, *Azərbaycan və Mərkəzi Asiya dövlətlərinin qarşılıqlı münasibətləri.*, s.102.

Şah I İsmayıl özbəklərin Kermana hücum etdiyini eşitdikdən sonra öz elçiləri Məhəmməd bəy Rumlu və Qazı Nurullah Sədrini Özbək hökmdarının yanına göndərərək bütün məsələləri dinc yolla həll etməyi təklif etdi. Lakin Məhəmməd xan bu təklifi rədd edərək Yəzd istiqamətində irəliləməyə başladı. Səfəvi hökmdarı h. 914-cü ilin rəbiülaxir ayında (iyul/1508) elçisi Şeyx Məhyəddin Əhmədi (Şeyxzadə Lahici) bir məktubla Özbək hökmdarının yanına göndərdi. Məktubda deyilirdi: "Salam yetirdikdən sonra bildiririk ki, məktubunuzun məzmunu eşidilib dərk olundu... Qəribədir ki, sizin daimi sultanlıq etmiş ata-babalarınız bu nicat verən əqidədə və xilas edən yolda olmuşlar. Siz bilə-bilə haqqa yalan donu geydirib haqqı gizlətməyin... Tacirlərin sizin diyara və şəhərlərə gediş-gəlişinin qadağan olunması qardaşlıq və ədalət meyarlarına zidd olduğu üçün belə bir işin sizə aid edilməsinə yol verməyəcəksiniz..."[534]. Eyni zamanda Səfəvi hökmdarı bu məktubda sülh təklif edərək hücumları dayandırmağı tələb etmişdi.

Bir-birinin ardınca qazandığı qələbələrdən ruhlanan Məhəmməd xan I Şah İsmayılın məktubuna cavab olaraq elçisi Kəmaləddin Hüseyin Əbiverdi vasitəsilə təhqiramiz məzmunda bir məktub göndərdi. O, məktubda, tezliklə İraq və Azərbaycana tərəf hərəkət edəcəyini, Məkkə və Mədinəni tutmayınca hücumlarını dayandırmayacağını qeyd edirdi[535].

Artıq Şeybanilər dövləti ilə müharibənin qaçılmaz olduğunu görən Səfəvi hökmdarı özbəklərlə müharibəyə başlamağa qərar verdi. Eyni zamanda o, Məhəmməd Şeybaniyə sərt formada bir cavab məktubu göndərmiş, "Mən Tanrının bir qəzası baş verməsə, novruzdan sonra Əbülhəsən Əli ibn Musa Ər-Rzanın məzarını ziyarət etməyə yollanacağam... Əgər mənimlə qarşılaşmaq

---

[534] Ə. Vilayəti, *a.g.ə.*, s.46-49.
[535] R. Ağayev, *a.g.ə.*, s.102; Ə. Vilayəti, *a.g.ə.*, s.59-61.

istəyirsənsə, buyur, bu sən bu da döyüş meydanı...”, – deyərək ona qarşı müharibə edəcəyini elan etmişdi[536].

H. 916-ci ilin şaban ayında (noyabr/1510) Şah I Ismayıl Xorasan istiqamətində Məhəmməd xana qarşı yürüşə başladı. Şaban ayının 28-də (2 dekabr/1510) tərəflər arasında Mərv yaxınlığında baş verən döyüşdə özbək qoşunları məğlub edildi və Məhəmməd Şeybani öldürüldü. Bu zaman özbək sərkərdələri Übeydulla xan və Teymur sultan Şah I İsmayılın yanına elçi göndərərək itaət ərizəsini təqdim etdilər[537]. Özbək qoşununun Mərvdə məğlub olması nəticəsində Xorasan əyaləti Amu-Dəryayadək Səfəvi qoşunu tərəfindən fəth edildi[538].

Şah İsmayıl 1510-cu ildə Mərv yaxınlığında Özbək hökmdarı Məhəmməd Şeybaninin öldürülməsi ilə başa çatan məşhur qələbəsindən sonra Çin imperatorunun Xətaya (Şərqi Türküstan) olan iddialarına işarə edərək onu da eyni cür cəzalandıracağını ifadə etmişdi. Şeybani xanın başını Osmanlı sultanı II Bəyazidə göndərən Şah I İsmayıl qürurla bəyan edirdi: “Əgər (Sultan Bəyazid) öz ədəb ayağını hədd ətəkləri daxilinə yığışdırmasa və özbaşınalıq atına minərək bizim diyarımıza basqın etsə, onun da başını (Şeybani xanın) başı kimi kəsəcəyəm və Hind racasının dərgahına yüz həşəmət və ayin ilə göndərəcəyəm. Əgər Hind racası da (Sultan Bəyazidin) başını görüb ədəb-ərkan saxlamasa, onun da başını bədənindən ayırıb Çin fəğfuru üçün sovqat gön-

---

[536] Ə. Vilayəti, *a.g.ə.*, s.64-66; Ş. Məmmədova, *“Xülasət ət-təvarix” Azərbaycan tarixinin mənbəyi kimi.*, s.67.

[537] *Отрывки из «Ахсан-ут-таварих» Хасан бека Румлю,* перевод А. Арендса, материалы по истории Туркмен и Туркмении (XVI-XIXвв.), т.2, М-Л, Изд. АН. СССР, 1938, с.55-56; *Извлечения из «Хабиб-ус-сияр» Хондемира*, т.3, ч.4, перевод под. ред. А. Ромаскевича, материалы по истории Туркмен и Туркмении (XVI-XIXвв.), т.2. М-Л, Изд. АН. СССР, 1938, с.49; В. Бартольд, *Шейбаниды,* Сочинения, т.2, ч.2, М, Наука, 1964, с.546; М. Сейфеддини и Р. Байрамов, *Денежное обращение и монетное дело в Азербайджане XXVI-XIX вв.*, Баку, Элм, 2001, с.33.

[538] Ş. Məmmədova, *“Xülasət ət-təvarix” Azərbaycan tarixinin mənbəyi kimi.*, s.68.

dərəcəyəm. Və əgər o da dargözlük edərək Xətadan dəm vurarsa, başını bədən yükündən azad edib, Firəngdəki Portuqal padşahına yollayacağam”[539]. Mərv qələbəsindən sonra Səfəvi padşahı özünü Türküstan taxtının və tacının varisi kimi qələmə verməyə başlamışdı.

Şah I İsmayılın hakimiyyəti dövründə özbəklər Xorasana bir neçə dəfə hücum etsələr də məğlub olub Ceyhun çayının sağ tərəfinə çəkildilər. Özbəklərin Səfəvi mülklərinə 1523-cü ilin aprel ayında etdikləri hücum da nəticəsiz başa çatdı[540].

Ümumiyyətlə, Şah I İsmayılın hakimiyyəti dövründə Azərbaycan Səfəvi dövlətinin Şeybanilər dövləti ilə münasibətləri hərbi-siyasi xarakter daşımış və bu münasibətlərdə hərbi qarşıdurmalar üstünlük təşkil etmişdi.

Şah I İsmayılın hakimiyyəti illərində (1501-1524) Səfəvi dövlətinin Osmanlılar və Şeybanilərlə siyasi münasibətlərinə yekun vuraraq bu nəticəyə gəlmək olar ki, Səfəvilərin bölgədə strateji maraqlarının toqquşduğu Osmanlı imperiyası və Şeybanilər dövləti ilə siyasi münasibətləri daha çox hərbi-siyasi xarakter daşımış və dövlətlərin siyasi-iqtisadi maraqlarına uyğun olaraq tənzimlənmişdir.

Azərbaycan Səfəvilər dövlətinin banisi Şah I İsmayıl h. 930-cu il rəcəb ayının 19-da (23 may/1524) 37 yaşında vəfat etdi. Şah I İsmayılın vəfatından sonra Səfəvi taxtına onun 10 yaşında olan böyük oğlu Əbul-Müzəffər Təhmasib Bahadır Xan (1514-1576) keçdi[541].

Əmir Mahmud Xandəmir Təhmasibin taxta çıxmasını əsərində bu şəkildə təsvir etmişdir: “Şah İsmayılın günortaya doğru

---

[539] N. Musalı, *I Şah İsmayılın hakimiyyəti (“Tarix-i aləm-ara-yi Şah İsmayıl” əsəri əsasında),* Bakı, “Elm və təhsil”, 2011, s.180-181.

[540] R. Ağayev, *Azərbaycan və Mərkəzi Asiya dövlətlərinin qarşılıqlı münasibətləri.*, s.108.

[541] O. Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti.,* s.59; M. Solakzadə, *Tarix.*, s.38; *История Востока (Восток на рубеже средневековья и нового времени-XVI-XVIII вв.).*, с.104.

vəfatından sonra Div Sultan və Köpək Sultan şahın vəsiyyətinə əsasən Təhmasibi taxta oturdub, başına tac qoydular”[542].

Şah I Təhmasib Səfəvinin hakimiyyətinin ilk illərində onun azyaşlı olmasından istifadə edən qızılbaş əmirləri siyasi hakimiyyətə nəzarət uğrunda mübarizəyə başladı. 1524-cü ildən 1534-cü ilə qədər davam etmiş bu saraydaxili mübarizə mərkəzi hakimiyyətin zəifləməsinə gətirib çıxardı. Lakin tezliklə Şah I Təhmasibin siyasi hakimiyyəti öz nəzarətinə alması və idarəetmə sistemində müəyyən tədbirlər həyata keçirməsi dövlətin güclənməsinə səbəb oldu.

Şah I Təhmasib mərkəzi hakimiyyəti gücləndirdikdən sonra onun əsas siyasi addımlarından biri Azərbaycanın şimal bölgələrini əhatə edən Şirvanın Səfəvi dövlətinin siyasi hakimiyyətinə tabe etdirilməsi təşəbbüsü oldu. Səfəvi hakimiyyəti Şirvanşahlar dövlətində mövcud olan siyasi gərginlikdən istifadə edərək h. 946-cı ilin yayında (1538) Əlqas Mirzənin rəhbərliyi ilə Şirvana qoşun göndərdi. Tezliklə Şirvan ərazisi Səfəvi dövlətinin nəzarətinə keçdi və Şirvan hökmdarı Təbrizə aparılaraq edam edildi. Şahın qardaşı Əlqas Mirzə Şirvanın birinci bəylərbəyi oldu[543]. Şah I Təhmasib h. 958-ci ildə (1551) Şəki hakimliyini də Səfəvi dövlətinə birləşdirdi və Toygün bəy Qacar Şəkinin ilk qızılbaş hakimi təyin olundu[544].

Beləliklə, Azərbaycanın dövlətçilik tarixində mühüm rola malik olan Azərbaycanın şimal-şərq ərazilərini əhatə edən Şirvanşahlar dövlətinin siyasi varlığına son qoyuldu və dövlətin ərazisi Səfəvi dövlətinin tərkibinə daxil oldu. Bununla da Azərbaycanın şimal və cənub bölgələri vahid bir siyasi hakimiyyət altında birləşdirildi.

---

[542] Əmir Mahmud Xandəmir, *Tarix-i Şah İsmail və Şah Təhmasib Səfəvi.,* s.126.

[543] O. Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti.,* s.70-71; A. Bakıxanov. *Gülüstani-İrəm*, Bakı, Möminin, 2001, s.100; Ş. Fərzəliyev, *Azərbaycan XV-XVI əsrlərdə.*, s.119-120.

[544] O. Əfəndiyev, *a.g.ə.*, s.79; *Azərbaycan tarixi: VII cilddə*, III c., s.200.

Şah I Təhmasibin hakimiyyəti dövründə Səfəvi dövlətinin daxili siyasətində müsbət addımlar atılmaqla yanaşı, ölkənin xarici siyasi əlaqələri də inkişaf edirdi. Bu dövrdə də Səfəvi hakimiyyətinin Osmanlı imperiyasi ilə siyasi münasibətləri dövlətin xarici siyasətinin formalaşmasında mühüm rol oynayırdı. Çünki Osmanlı imperiyası ilə siyasi münasibətlər Səfəvilər dövlətinin xarici siyasətinin əsas istiqamətlərinin müəyyən olunmasında mühüm rol oynayırdı.

Şah I İsmayılın hakimiyyətinin son illərində nisbətən yumşalan Səfəvi-Osmanlı siyasi münasibətləri Şah I Təhmasib taxta çıxdıqdan sonra yenidən kəskinləşdi.

Şah I Təhmasib taxta çıxdıqdan sonra Osmanlı sultanı onu təbrik etmədi, əksinə Səfəvi hökmdarına həqarətlə dolu uzun bir təhdidnamə yazıb göndərdi. Sultan Suleyman bu təhdidnaməsində, "..nə üçün dərgahıma adam göndərib öz tabeliyini bizə izhar etmədin..." deyərək Səfəvi hökmdarını ittiham edir və tezliklə Səfəvi torpaqlarına hücum edəcəyini bildirirdi[545].

Osmanlı imperiyası ilə münasibətlərin yenidən gərginləşməsinə baxmayaraq, Osmanlıların Azərbaycana hücumu 1534-cü ilə qədər təxirə salındı. Bunun səbəbi osmanlıların Avropa istiqamətində Macarıstan, Almaniya və Avstriyaya etdiyi hərbi yürüşlərlə (1526-1533) bağlı idi[546].

H. 938-ci ildə (1531-32) Üləma bəy Diyarbəkrin Osmanlı hakimi Fil Yaqub paşanın köməyi ilə yerli hakim Şərəf xanı Bidlisdən sıxışdırb çıxartdı və o da yardım üçün qızılbaş sarayına müraciət etdi. Səfəvi hakimiyyəti elçisi Habil bəyi İstanbula göndərib Ülama bəyin təslim olmasını tələb etdi. Lakin osmanlı

---

545 J. Hammer, *Osmanlı tarihi*, I c., s.48; Ş. Fərzəliyev, *Azərbaycan və Osmanlı imperiyası.*, s.106; R. Kılıç, *Kanuni devri Osmanlı-İran münasebetleri.*, s.139-141; İ. Uzunçarışlı, *Osmanlı tarixi (İstanbul'un fethinden Kanuni Sultan Suleyman'ın ölümüne kadar).*, s.449.

546 İ. Uzunçarışlı, *a.g.ə.*, s.482-487.

Sultan rədd cavabı verərək öz növbəsində Şərəf xanın ona təslim olmasını tələb etdi[547].

Bu barədə Xacə Zeynalabidin Əli Əbdi bəy Şirazi öz əsərində məlumat verərək yazır: "Rumda Sultan Suleyman Firəngistana üz tutdu. O, Allahın kölgəsi, kama çatmış Şah tərəfindən bir qədər əvvəl elçiliyə getmiş Mehmandar Habil bəyi Firəng yolundan qaytarıb ali dərgaha yola saldı ki Şərəf bəyi tutub onun yanına göndərsin"[548].

Şah I Təhmasib növbəti dəfə Hüseyn xan Şamlunun rəhbərliyi ilə bir elçi heyəti göndərərək Üləma bəyi Şərəf xanla dəyişdirməyi təklif etdi. Lakin Osmanlı sultanı bu təklifi rədd etdi. Belə olduqda Səfəvi hökmdarı Üləma bəyə qarşı qoşun göndərərək Bidlisi geri aldı[549]. Bu hadisə Səfəvi-Osmanlı münasibətlərində gərginlik yaratsa da, tərəflər arasında hərbi münaqişəyə səbəb olmadı. Çünki bu dövrdə osmanlıların Avropada apardığı müharibə buna maneə oldu.

Sultan Suleyman Avropaya hərbi yürüşlərini başa çatdırdıqdan sonra Səfəvi dövlətinə qarşı ilk hərbi yürüşə -"İraqeyn səfəri"nə (1533-1535) çıxmağa qərar verdi.

Səfər öncəsi Sultan Suleyman Buxara xanı Übeydulla xan (1533-1539), Səmərqənd xanı Əbu Səid (1530-1533) və Mavəraünnəhrin digər hakimləri ilə danışıqlar apararaq səfəvilərə qarşı mübarizə aparmaq üçün razılıq əldə etdi[550].

Osmanlı sultanının bu siyasi addımları Şah I Təhmasibi analoji olaraq Avropa dövlətləri ilə osmanlılar əleyhinə danışıqlar aparmağa məcbur edirdi[551].

Osmanlı imperiyası Avstriya ilə "əbədi sülh" (22 iyun/1533) bağladıqdan 4 ay sonra, 1533-cü il oktyabrın 21-də

---

547 O. Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti.*, s.64.

548 Zeynalabidin Əli Əbdi bəy Şirazi, *Təkmilətül-əxbar.*, s.67.

549 Zeynalabidin Əli Əbdi bəy Şirazi, *a.g.ə.*, s.67; O. Əfəndiyev, *a.g.ə.*, s.64.

550 İ. Uzunçarışlı, *a.g.ə.*, s.348; R. Kılıç, *a.g.ə.*, s.161.

551 R. Kılıç., *a.g.ə.*, s.162.

Səfəvi dövlətinə qarşı hərbi əməliyyat kampaniysına başladı[552]. Osmanlı imperiyasının bu müharibədə əsas məqsədi Şərqi Anadolunun işğalını tamamilə başa çatdırmaq, Bağdad da daxil olmaqla İraq-i Ərəbi ələ keçirərək Bəsrə körfəzinə (İran) birbaşa çıxış əldə etmək idi.

H. 940-ci ilin zilhiccə ayında (iyun/1534) İbrahim paşanın rəhbərliyi ilə Osmanlı ordusu Azərbaycan istiqamətində yürüşə başladı. Eyni vaxtda, 1534-cü il iyunun 11-də Sultan Suleyman başçılıq etdiyi əsas hərbi qüvvələrlə İstanbuldan çıxaraq Səfəvi dövləti istiqamətində hərəkətə keçdi. Osmanlı ordusu Azərbaycan sərhədlərini keçərkən Qızılcadağ yaylağında Səfəvi ordusunun ciddi müqaviməti ilə qarşılaşdı. Bu ərazidə baş verən döyüşdə Üləma paşanın başçılıq etdiyi on min nəfərlik Osmanlı ordusu Qızılbaş qoşunu tərəfindən ağır məğlubiyyətə uğradıldı. Lakin bu məğlubiyyətə baxmayaraq, artıq sentyabr ayının sonuna qədər başda Təbriz şəhəri olmaqla Azərbaycanın cənub hissəsi Osmanlı qoşunu tərəfindən zəbt edildi[553].

Sultan Suleyman Təbrizə daxil olmasına (19 rəbiül-əvvəl/941 – 28 sentyabr/1534) baxmayaraq, bir həftədən sonra Təbrizi tərk etməyə məcbur oldu. Osmanlı ordusu 1534-cü ilin oktyabr ayının sonlarında Səfəvi ordusunun ciddi müqaviməti və ərzaq çatışmamazlığı səbəbindən Bağdad istiqamətində geri çəkildi. Həmin ilin noyabr ayının 28-də osmanlılar Bağdad şəhərini ələ keçirdilər[554].

Osmanlı sultanı 1535-ci ilin aprel ayında ikinci dəfə Təbriz istiqamətində yürüşə başladı. Bu ərəfədə I Şah Təhmasib bir elçi heyəti göndərib Sultan Suleymana sülh təklif etsə də, o, bu təklifi qəbul etmədi. Ustaclu Xan Türkmanın başçılıq etdiyi elçi heyəti İraqi-Əcəmin Səfəvilərdə, İraqi-Ərəbin isə Osmanlıda

---

[552] R. Savory, *Iran under the Safawids.*, p.63.

[553] Zeynalabidin Əli Əbdi bəy Şirazi, *Təkmilətül-əxbar.*, s.70; R. Savory, *a.g.ə.*, p.60; R. Kılıç, *a.g.ə.*, s.190-193.

[554] F. Kırzıoğlu, *Osmanlılar'ın Kafkas-elleri'ni fethi.*, s.154; Ş. Fərzəliyev, *Azərbaycan və Osmanlı imperiyası.*, s.108.

qalması ilə sülh təklif etmiş lakin bu təklif qəbul olunmayaraq Səfəvi elçiləri geri göndərilmişdi. "Şah Təhmasibin təzkirəsi"ndə verilən məlumata görə bu dövrdə Şah Təhmasib Seyid Abdulla və Mir Şahsuvarı sülh əldə etmək üçün barış əldə etmək üçün İbrahim Paşanın yanına göndərsə də, lakin bu təşəbbüs də nəticəsiz qalmışdır[555].

Qeyd edək ki, osmanlıların bu yürüşü də ciddi qələbələrlə nəticələnmədi. Sultan Suleyman 1535-ci ilin avqust ayında İstanbul istiqamətində geri döndü və "İraqeyin səfəri" başa çatdı[556].

Sultan Suleymanın Azərbaycana bu yürüşü osmanlılar üçün ciddi uğurlarla nəticələnmədi. Bu yürüşdə osmanlılar Səfəvi dövlətinin varlığına son qoya bilmədilər. Lakin "İraqeyn səfəri" nəticəsində Səfəvi dövlətinin tərkibində olan İraqi-Ərəb ələ keçirilərək Osmanlı imperiyasının tərkibinə qatıldı. Osmanlıların Səfəvi dövlətinə bu hərbi yürüşündən sonra tərəflər arasında hər hansı bir sülh razılaşması əldə olunmadı. Şah I Təhmasibin Osmanlı sarayına üç dəfə elçi göndərməsinə baxmayaraq, danışıqlar nəticəsiz qaldı[557].

Osmanlı imperiyası Azərbaycana hücum cəhdindən əl çəkməmişdi. Çünki qonşuluğunda Səfəvi dövləti kimi güclu bir dövlətin olması, Osmanlı imperiyasının strateji maraqlarına cavab vermirdi. Bu səbəbdən Səfəvi dövlətinin hərbi-siyasi gücünü zəiflətmək məqsədilə Osmanlı imperiyası üçüncü dəfə (1548-1549) Azərbaycana yürüş etmək qərarına gəldi.

Osmanlıların Azərbaycana üçüncü yürüşündə, 1547-ci ildə Şirvanda uğursuz müstəqillik cəhdindən sonra İstanbula qaçan Şirvan bəylərbəyisi Əlqas Mirzənin mühüm rolu oldu. Əlqas

---

555 *Şah Təhmasibin təzkirəsi*, fars dilindən tərcümə və müqəddimə Rəhimov Əbülfəz Haşim oğlu)., Bakı, Azərnəşr, 1996, s. 41.

556 Ш. Бидлиси, *Шараф-Наме*., с.183; O. Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti*., s.67-68; F. Kırzıoğlu, *a.g.ə*., s.156.

557 R. Kılıç, *a.g.ə*., s.235-238.

Mirzənin Sultan Suleymana sığınaraq onu səfəvilər üzərinə yürüşə təhrik etməsi bu yürüşün əsas səbəblərindən biri oldu[558].

Sultan Suleyman h. 955-ci ilin səfər ayının 18-də (29 mart/1548) böyük bir odu ilə İstanbuldan çıxaraq Azərbaycan istiqamətində hərbi yürüşə başladı. O, yürüş vaxtı Şərqi Anadoluda yerli türkman əhalisinin osmanlılara qarşı üsyan edəcəyindən ehtiyat edərək Anadolunun mühafizəsi üçün şahzadə Mustafa Sultanı Amasyada qoydu. Həmçinin Osmanlı sultanı Əhməd Çavuş adlı bir nəfərlə Özbək xanı Əbdüllətif Xana məktub göndərərək özbəklərin səfəvilərə qarşı savaş açmasını istədi[559].

Alaşkert yolu ilə Təbriz istiqamətində hərəkət edən Sultan Suleyman h. 955-ci ilin cumadəl-axir ayının 23-də (27 iyul/1548) Təbriz şəhərinə daxil oldu. Bu vaxt Şah I Təhmasib osmanlılarla meydan savaşının təhlükəli olduğunu nəzərə alaraq Təbrizi tərk etdi və Qəzvinə çəkildi[560].

Sultan Suleyman Təbrizdə olarkən Əlqas Mirzəni Səfəvi taxtında oturtmaq istəsə də ə qızılbaş əyanlarının və əhalinin narazılığından ehtiyat edərək bu fikrindən daşınmışdı[561].

Azərbaycanın paytaxt şəhərində əhalinin ciddi müqaviməti və şah qoşunlarının aramsız hücumları ilə qarşılaşan Osmanlı Sultanı, Təbriz şəhərində qalmağın osmanlılar üçün ciddi fəlakət olacağını gördüyündən h. 955-ci il cumadəl-axir ayının 25-də (1 avqust/1548) şəhəri tərk edərək Van istiqamətində geri çəkildi və Van qalasını ələ keçirmək üçün hücuma başladı. Səfəvilərin Van hakimi Şah Əli Sultanın ciddi müqavimətinə baxmayaraq, Şah I Təhmasibin "Azərbaycanın açarı" adlandırdığı Van qalası osmanlılar tərəfindən işğal olundu. Vanın osmanlılar tərəfindən

---

[558] M. Solakzadə, *Tarix.*, s.41; Ş. Fərzəliyev, *Azərbaycan və Osmanlı imperiyası.*, s.109; R. Kılıç, *a.g.ə.*, s.258.

[559] O. Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti.*, s.74; F. Kırzıoğlu, *Osmanlılar'ın Kafkas-elleri'ni fethi.*, s.180; R. Kılıç, *a.g.ə.*, s.261.

[560] M. Solakzadə, *Tarix.*, s.42; O. Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti.*, s.74; R. Kılıç, *a.g.ə.*, s.266.

[561] M. Solakzadə, *a.g.ə.*, s.43; F. Kırzıoğlu, *a.g.ə.*, s.187; R. Kılıç, *a.g.ə.*, s.267.

işğalı ilə barışa bilməyən Səfəvi ordusu bu əraziləri geri qaytarmaq üçün Şərqi Anadolu istiqamətində hücuma keçdi. Səfəvi ordusu bu yürüşdə osmanlılar üzərində ciddi qələbələr qazansa da bu bölgədə möhkəmlənə bilmədi[562].

Osmanlıların Səfəvi dövlətinə üçüncü yürüşü nəticəsində strateji cəhətdən böyük əhəmiyyət kəsb edən Azərbaycanın Van bölgəsi işğal olunaraq Osmanlı imperiyasının tərkibinə qatıldı. Eyni zamanda bu yürüşdən sonra Ərzurum vilayətinin şimalında yerləşən, Səfəvi dövlətinin vassalı olan gürcü Atabəylərinin ərazisinin bir hissəsi də osmanlılar tərəfindən ələ keçirildi.

Osmanlıların üçüncü yürüşündən sonra Səfəvi hökmdarı diplomatik danışıqlar aparmaq üçün Şəmsi Fələki Dəvvar adlı elçisini bir məktubla Osmanlı sarayına göndərdi. Osmanlı sultanına yazılmış bu məktubda Şah I Təhmasib, Van valisi İsgəndər paşanın "Səfəvi torpaqlarına basqınlar etdiyini, Qızılbaş sərhəd bəylərinə ədəbsizcə təhdid məktubları yazdığını, artıq bu işin son həddi aşdığını" bildirir və bu hərəkətlərə son verilməsini istəyirdi. Sultan Suleyman Səfəvi hökmdarına yazdığı cavab məktubunda (h. 959/1552) İsgəndər paşanın bu hərəkətlərini təqdir edir, "özünün də yaxın zamanlarda Əcəm ölkəsinə gələcəyini" bildirirdi[563].

Osmanlı hakimiyyəti ilə sülh danışıqlarının mənasız olduğunu görən Şah I Təhmasib 1552-ci ildən başlayaraq Səfəvi dövlətinin Osmanlı imperiyası tərəfindən işğal edilmiş ərazilərini geri qaytarmaq üçün Şərqi Anadolu və İraqi-Ərəb istiqamətində hücuma başladı. Səfəvi ordusu 1552-1553-cü illərdə bir sıra hərbi uğurlar əldə edərək Əhlət, Adilcəvaz, Ərciş və Bargir qalalarını ələ keçirdi[564].

Şah I Təhmasib h. 960-cı ilin baharında (1553) Naxçıvana qayıdaraq Ərzurumda əsir etdiyi Bigə sancaqbəyi Mahmud bəyi azad edərək bir məktubla İstanbula göndərdi. Bu məktubda Sə-

---

[562] F. Kırzıoğlu, *a.g.ə.*, s.187-188; O. Əfəndiyev, *a.g.ə.*, s.75.

[563] F. Kırzıoğlu, *a.g.ə.*, s.211.

[564] Ş. Fərzəliyev, *Azərbaycan və Osmanlı imperiyası.*, s.114.

fəvi hökmdarı Osmanlı sultanına sülh təklif edir və tezliklə öz elçisini osmanlı sarayına göndərəcəyini bildirirdi. Bunun ardınca Şah I Təhmasib elçisi  Əmir Şəmsəddin Dilcanini sülh danışıqları aparmaq üçün Osmanlı sarayına göndərdi. Səfəvi elçisi İstanbula çatarkən, artıq Sultan Suleyman Azərbaycana yürüş hazırlıqlarını başa çatdırmışdı. Bu səbəbdən Səfəvi hökmdarının bu diplomatik addımı da Osmanlı sultanı tərəfindən dəyərləndirilmədi və sülh təklifi rədd edildi[565].

Sultan Suleyman 1553-cü il avqust ayında dördüncü dəfə Azərbaycan istiqamətinə yürüşə başladı. Bu ərəfədə o, Şah I Təhmasibə təhdid xarakterli bir məktub göndərdi. Bu məktubda o, etik normalara zidd olan təhqiramiz ifadələr işlədərək Səfəvi hökmdarını savaşa dəvət edirdi[566].

H.961-ci ilin saban ayının 27-də (28 iyul/1554) Osmanlı ordusu Naxçıvana daxil oldu. Lakin səfəvilərin güclü müqaviməti ilə üzləşən Osmanlı ordusu heç bir nəticə əldə etmədən şaban ayının 29-da (30 iyul/1554) Naxçıvanı tərk edərək Ərzurum istiqamətində geri çəkilməyə başladı. Qızılbaş qoşunları geri çəkilən osmanlı ordusunun ardınca osmanlı ərazilərinə daxil oldular və osmanlıların böyük dəstəsini darmadağın edərək Sinan bəyi əsir aldılar[567].

Sultan Suleyman hələ Naxçıvanda olarkən Şah I Təhmasib ona bir məktub göndərdi. Məktubda deyilirdi: “Mənə deyiblər ki, rum tayfası öz amansız qədəmlərini Naxçıvan vilayətinə basıb zülm bayrağını ucaltmışlar.. Bu xəbər mənə çatdıqda, əziz fərzəndim İsmayıl Mirzə, bəzi adlı-sanlı əmirlər... qoşunla onların arxasınca getmək izni istədi... Mən buna razı olmadım. Mənə yazdığın “mən bir neçə dəfə sənin məmləkətinə hücum etdimsə də, sən qarşıya çıxmadın” kimi yava sözlərinə qarşı bildirirəm ki adlı-sanlı sultanlar mərdliyi, mərdaniliyi, igidliyi və müdrikliyi

---

565 F. Kırzıoğlu, *a.g.ə.*, s.217; Ş. Fərzəliyev, *a.g.ə.*, s.114.
566 Ş. Fərzəliyev, *a.g.ə.*, s.115; R. Kılıç, *a.g.ə.*, s.329-332.
567 O. Əfəndiyev, *a.g.ə.*, s.81-82; F. Kırzıoğlu, *a.g.ə.*, s.226; R. Kılıç, *a.g.ə.*, s.334.

sənə şamil etmirlər. Sən heç vaxt igidlər səfindən olmamısan, müdriklik və mərdanəlik etməmisən. Əgər sultanlıq, şəhriyarlıq, şücaət və igidliyin varsa, kişi kimi girdiyin top-tüfəng qalasının daxilindən çıx ki, bizim humayun əsgərlərimizin igidliyini müşahidə edə biləsən"[568].

Azərbaycanı işğal etmək cəhdlərinin faydasız olduğunu görən Sultan Suleyman səfəvilərlə sülh danışıqlarına başlamağa qərar verdi. Bu barədə Həsən bəy Rumlu yazırdı: "Şah Təhmasib osmanlılar üzərinə hücuma keçən kimi "xandigar" (Sultan Suleyman-M.A.) tərəfindən sülh xahiş edildiyi üçün dinin pənahı olan şah razılaşdı.. hər iki tərəfin küdurəti aradan götürüldü"[569].

Səfəvi-Osmanlı sülh danışıqları barədə tarixçi Xacə Zeynalabidin Əli Şirazi də ətraflı məlumat verir: "...Xandigar (Sultan Suleyman) işi belə gördükdə sülh istəmək qərarına gəldi. Sultan Suleymanın baş hərəmi və qızı, dinin pənahı Şah yanında hörməti son dərəcə əziz olan əlahəzrət Şahın bacısı şahzadə (Məhinbanu) Sultanım xanıma məktub yazdılar. Xandigarın baş vəziri və damadı olan Rüstəm paşa da böyük əmirlərə məktub yazıb sülh istədilər... Ali nəvvabi-kamyab (Şah I Təhmasib) onların həqiqətən sülh istədiklərini yəqinləşdirmək üçün Əcəm İraqının möhtəbər seyidlərindən olan Mir Şəmsəddin Əli əl-Hüseyni əl-Dilicanini oraya nümayəndə göndərdi"[570].

Osmanlı sultanının baş vəziri Rüstəm Paşa ilə Səfəvi vəzirləri arasında aparılan məktub mübadiləsinin davamı olaraq sülh danışıqları aparmaq üçün h. 961-ci ilin şəvval ayının 28-da (26 sentyabr/1554) Səfəvi elçisi Qorçubaşı Şahqulu Qacar Ağa səfəvilərə əsir düşmüş Sinan bəy ilə birlikdə Ərzurumda olan Osmanlı sultanının yanına göndərildi. Səfəvi elçisinin apardığı danışıqlar müsbət nəticələndi və elçi qiymətli hədiyyələrlə geri döndü[571].

---

568 Ş. Fərzəliyev, *a.g.ə.*, s.116-120.
569 Ş. Fərzəliyev, *Azərbaycan XV-XVI əsrlərdə.*, s.118.
570 Zeynalabidin Əli Əbdi bəy Şirazi, *Təkmilətül-əxbar.*, s.101.
571 R. Kılıç, *a.g.ə.*, s.343-344.

Nəhayət, Şah I Təhmasib sülh müqaviləsi bağlamaq üçün Eşık Ağası Fərruxzad Bəyi Amasyaya göndərdi. H. 962-ci il cumadel-axir ayının 18-də (10 may/1555) Amasyaya gələn Səfəvi elçisi, Şah I Təhmasibin sülh şərtlərini Osmanlı hökumətinə təqdim etdi. 1555-ci il iyunun 1-də Səfəvi elçisinin də iştirak etdiyi Osmanlı Divani-Hümayunu sülh şərtlərini müzakirə edərək qəbul etdi.[572]. Beləliklə, Amasyada ilk Səfəvi-Osmanlı sülhü bağlandı.

Amasya sülhü, Səfəvi dövlətinin əraziləri olan Şərqi Anadolu, Qars, Ərdahan, Ərdalan əyalətinin bir hissəsi, İraq-i Ərəb əraziləri Osmanlı imperiyasının tərkibinə keçməsini hüquqi cəhətdən təsdiq etdi. Eyni zamanda bu müqaviləyə görə Gürcü torpaqları Osmanlı dövləti ilə Səfəvi dövləti arasında bölündü. Kaxetiya, Mosuk (Şamçe Atabəyliyinin şərq hissəsi), Axıska, Borçalı kəsimləri, Kartli, Mesxetiya, Tiflis əraziləri Səfəvi dövlətinin tabeliyində qaldı. Başıaçıq (İmeretiya), Dadyan (Meqreliya), Quriya, Çoruk (Şamçe Atabəyliyinin qərb hissəsi) isə Osmanlı imperiyasının nəzarətinə keçdi. Həmçinin bu müqvilədə tərəflərin dini düşmənçiliyə son qoyduqları da öz əksini tapmışdı[573].

Sultan Suleyman h. 962-ci ilin rəcəb ayının 11-də (1 iyun/1555), Osmanlı-Səfəvi sülhünu təsdiqləyən bir məktub (Müxtəsər Nameyi-Humayun) yazaraq Səfəvi elçiləri ilə Şah I Təhmasibə göndərdı. Bununla da osmanlılar ilə səfəvilər arasında yarım əsrdən çox davam edən dini-siyasi düşmənçiliyə son qoyuldu[574].

Səfəvi elçi heyəti yola salındıqdan sonra Osmanlı sultanı Səfəvi dövlətinin sərhəddi boyu yerləşən 11 bölgənin hakimlərinə hökmlər göndərərək Səfəvi-Osmanlı müqaviləsini elan etdi

---

[572] R. Kılıç, *a.g.ə.,* s.348-351; M. Solakzadə, *Tarix.,* s.52-53; İ. Uzunçarışlı, *Osmanlı tarixi (İstanbul'un fethinden Kanuni Sultan Suleyman'ın ölümüne kadar).,* s.450-451.

[573] O. Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti.,* s.83; Ş. Fərzəliyev, *Azərbaycan və Osmanlı imperiyas*ı., s.121; J. Hammer, *Osmanlı tarihi.,* s.354-355.

[574] R. Kılıç, *a.g.ə.,* s.355; F. Kırzıoğlu, *a.g.ə.,* s.243.

və bu müqavilənin icra edilməsi əmrini verdi[575]. Bununla da uzunmüddət davam edən Səfəvi-Osmanlı müharibələrinə son qoyuldu.

Ümumiyyətlə, Səfəvi dövlətinin Osmanlı imperiyası ilə bağladığı Amasya sülh müqaviləsi mövcud siyasi zərurətdən doğan bir müqavilə idi. Çünki bu dövrdə qərbdə uzun müddət Osmanlı imperiyası ilə müharibə aparan Səfəvi hakimiyyəti dövlətin şərq ərazilərini işğal etməyə çalışan özbəklərə qarşı da mübarizə aparmaq məcburiyyətində idi. Bu baxımdan iki cəbhədə rəqiblərinə qarşı mübarizə aparmaq dövlətin hərbi-siyasi mövqeyinə ciddi zərbə vururdu. Səfəvi dövlətinin siyasi varlığına son qoymaq üçün ciddi cəhdlə mübarizə aparan Osmanlı-Şeybani ittifaqı, dövlətin siyasi mövcudluğunu təhlükə altında qoyurdu. Məhz bu səbəblərdən Səfəvilər dövlətinin siyasi maraqlarına cavab verməyən və dövlətin ərazi itkisi ilə nəticələnən Amasya sülh müqaviləsinin bağlanması Səfəvi hakimiyyəti üçün məcburiyyətdən döğan bir addım idi. Bu müqavilə nəticəsində Səfəvilər dövlətinin böyük bir hissəsi olan Şərqi Anadolu, İraq-i Ərəb və vassal torpaqları hesab edilən Qərbi Gürcüstan bölgəsinin osmanlılar tərəfindən işğalı hüquqi cəhətdən təsdiq olundu. Bununla da osmanlılar ilə səfəvilər arasında yarım əsrdən çox tərəflərin strateji maraqlarının toqquşma səbəbindən davam edən müharibələrə son qoyuldu. Eyni zamanda bu sülh razılaşması nəticəsində, yenidən Osmanlı imperiyası Səfəvi dövlətini rəsmi şəkildə tanıdı.

Amasya sülh müqaviləsindən sonra tərəflər arasında kiçik sərhəd münaqişələri baş versə də aparılan diplomatik danışıqlar nəticəsində bu ziddiyyətlər aradan qaldırılmışdı. Şah I Təhmasibin bu məqsədlə öz elçisi Həmzə Sultanı Osmanlı sarayına göndərməsi hər iki dövlət arasında olan münasibətlərin müsbət istiqamətdə inkişafına təkan verdi[576].

---

575 R. Kılıç, *a.g.ə.,* s.353.

576 T. Nəcəfli, *Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti (Türkiyə tarixşünaslığında).*, s.75

Suleymaniyyə məscidinin açılışına iştirak etmək üçün h. 963-cü ilin şəvvəl ayında (15 avqust/1556) Səfəvi hökuməti tərəfindən Osmanlı sarayına bir nümayəndə heyətinin göndərilməsi Səfəvi-Osmanlı dostluq münasibətlərinin möhkəmlənməsi istiqamətinə atılmış vacib addım idi. Məscidin açılışında iştirak etmək və Rüstəm Paşanın ikinci dəfə vəziri-əzəm seçilməsi münasibəti ilə təbrik etmək üçün Şah I Təhmasib Kəmaləddin Təbət Ağanın rəhbərliyi ilə İstanbula qiymətli hədiyylərlə birlikdə fövqaladə səlahiyyətli bir elçilik heyəti göndərdi. Osmanlı sarayına gələn nümayəndə heyəti Səfəvi hökmdarının "təbriknamə"sini Sultan Suleymana təqdim etmiş və nəfis formada olan "Qurani-Kərim"in nüsxələri ona hədiyyə edilmişdi. İstanbulda böyük ehtiramla qəbul edilən Səfəvi elçiliyi qiymətli hədiyyələr və sultan Suleyman tərəfindən yazılan "təşəkkürnamə"ilə geri qayıtdı[577].

1559-cu ildə Osmanlı şahzadələri Səlimlə Bəyazid arasında siyasi nüfuz və vəliəhdlik uğrunda gedən mübarizə nəticəsində şahzadə Bəyazid məğlub olaraq (29 may/1559) Səfəvi sarayına sığındı. Şahzadə Bəyazidin Səfəvi dövlətinə qacması Osmanlı sarayında ciddi təşvişə səbəb oldu. Çünki Osmanlı sultanı ehtiyat edirdi ki, Səfəvi dövləti Osmanlı imperiyasında hökm sürən siyasi gərginlikdən istifadə edərək Amasya sülhü nəticəsində osmanlıların nəzarətinə keçən əraziləri geri qaytarmaq üçün hərbi yürüşə başlaya bilər. Bu səbəbdən Sultan Suleyman dərhal Şah I Təhmasibə Sinan Paşa vasitəsilə bir məktub göndərərək Bəyazidin geri qaytarılmasını xahiş etdi. Həmçinin şahzadə Səlim də elçisi Durak Ağanı bu məsələ ilə bağlı Səfəvi sarayına göndərdi. Şah I Təhmasib elçi Kəmaləddin Təbət Ağanı və Seyfəddin Əriş Ağanı osmanlı elçiləri ilə birlikdə Osmanlı sarayına göndərərək Bəyazidin Osmanlı Sultanı tərəfindən əhv edilməsini xahiş etdi[578].

---

577 Ş. Fərzəliyev, *Azərbaycan və Osmanlı imperiyası.,* s.122-123; R. Kılıç, *a.g.ə.,* s.363-365.

578 M. Solakzadə, *a.g.ə.,* s.53-54; Zeynalabidin Əli Əbdi bəy Şirazi, *Təkmilətül-əxbar.,* s.110-113; Ş. Məmmədova, *"Xülasət ət-təvarix" Azərbaycan tarixinin mənbəyi kimi.*, s.85-86; R. Kılıç, *a.g.ə.,* s.392-393.

Səfəvi dövləti ilə Osmanlı imperiyası arasında elçilər vasitəsilə aparılan diplomatik danışıqlar sonda müsbət nəticə ilə yekunlaşdı. Şah I Təhmasib böyük həcmdə qızıl pul və Qars qalasının geri qaytarılması müqabilində Osmanlı şahzadəsini geri qaytarmağa razı oldu. H. 969-cu ilin zülqədə ayının 14-də (16 iyul/1562) Xosrov Paşanın rəhbərliyi ilə Qəzvinə gələn osmanlı nümayəndə heyəti hörmətlə qəbul edildi və şahzadə Bəyazid onlara təhvil verldi. Osmanlı elçilik heyətinin tərkibində Qəzvinə gələn cəllad Əli Ağa tərəfindən şahzadə Bəyazid və dörd oğlu öldürülərək (21 iyul/1562) tabuta qoyuldu və Osmanlı dövlətinə aparıldı. Şah I Təhmasibin tələbləri isə Osmanlı sultanı tərəfindən müəyyən bəhanələr gətirilərək yerinə yetirilmədi[579].

Bu barədə Əbdi bəy Şirazi yazırdı: "Həmin il Ruma elçi getmiş yasavulbaşı Vəli bəy Ustaclu oranın hakimlərindən Xosrov paşa, çaşnigir Sinan bəy və Əliağa çavuş başı və 200 nəfər kişi ilə zilqədə ayının 14-də (16 iyul/1562) pəncşənbə günü Qəzvinə çatdılar... Onlar Xandigar xəttilə yazılmış əhd və peymandan ibarət məktub gətirdilər və o ölkədən gətirdikləri hədiyyələri verdilər... Sultan Bəyazidi 4 oğlu ilə zilqədə ayının 21-də (23 iyul/1562) Xandigar buyruğuna əsasən elçilərə təqdim etdilər... Onlar Xandigarın dediyi kimi beşini də boğub həlak etdilər... Məzkur ayının axırında (zilqədə ayının 30-u - 1 avqust/1562 - M.A.) onların cəsədlərini Ruma apardılar..."[580].

Beləliklə, Səfəvi dövləti ilə Osmanlı imperiyası arasında davam edən və hər an hərbi münaqişə ilə nəticələnə biləcək 3 illik siyasi gərginlik (1559-1562) aradan qalxdı və hər iki dövlət arasında diplomatik münasibətlər bərpa olundu.

Əli Əbdi bəy Şirazi "Sultan Bəyazid" hadisəsi həll olunduqdan sonra da tərəflər arasında elçilik mübadiləsinin olduğu haqqında məlumat verir: "Donuz ili – bəzi ayları 970 və bəzi ayları isə h.971-ci ildə (31.VIII. 1562 - 8.VIII.1564) nəvvabi-kam-

---

[579] R. Kılıç, *a.g.ə.,* s.404; Ş. Fərzəliyev, *Azərbaycan və Osmanlı imperiyası.,* s.130; Ş. Məmmədova, *a.g.ə.,* s.87.

[580] Zeynalabidin Əli Əbdi bəy Şirazi, *Təkmilətül-əxbar…* s.115-116.

yab (Şah I Təhmasib) Qəzvinə təşrif buyurmuşdu. Elçi getmiş Cəfər bəy Kəngərli Xandigar (Sultan Suleymanın) elçisi İlyas bəylə dünyanın pənahı (Şah I Təhmasibin) dərgahına gəlib Rum, Firəng, Misir və Yəmən nəfis şeylərini və məskukatlarını təhvil verdilər..."[581].

Osmanlıların ən uzun hakimiyyət sürən hökmdarı Sultan Süleyman 1566-cı ilin sentyabr ayında vəfat etdi. Atasının ölüm xəbərini eşidən şahzadə Səlim dərhal İstanbula gəldi. Osmanlı Divan üzvləri onun sultan olmaq tələbini qəbul edib əlini öpdülər. Atasının vəfatı və özünün culusu barədə Səfəvi, Fransa, Venesiya hökmdarlarına məktub yollayan II Səlim (1566-1574) öz sultanlığını rəsmən elan etdi[582].

Yeni Osmanlı sultanından məktub alan Şah I Təhmasib II Sultan Səlimin culusunu təbrik etmək üçün Osmanlı sarayına Çuxur-Səd hakimi Şahqulu Sultan Ustaclının başçılığı ilə min nəfərdən ibarət böyük bir nümayəndə heyəti göndərdi. Sərhəddə Ərzurum bəylərbəyisi tərəfindən hörmətlə qarşılanan nümayəndə heyəti 1568-ci ilin fevral ayında Ərzurum-Tokat-Amasya-Merzifon-Osmancık-Bolu yolu ilə Ədirnədə olan II Sultan Səlimin yanına gəldi. Osmanlı sultanı tərəfindən böyük hörmətlə qarşılanan nümayəndə heyəti Şah I Təhmasibin məktubunu II Sultan Səlimə təqdim etdi. Bu görüşdə Amasya sülh müqaviləsi yenidən təzələndi[583].

Osmanlı imperiyası ilə diplomatik münasibətləri davam etdirən Səfəvi hakimiyyəti Osmanlı sultanı III Muradın (1574-1595) culusunu təbrik etmək üçün də bir nümayəndə heyəti göndərmişdi. Toxmaq Məhəmməd Sultanın rəhbərliyi ilə İstanbula gələn bu nümayəndə heyəti 1576-cı il mayın 5-də Divani-Humayunda qəbul edildi və Şah I Təhmasibin hədiyyə və məktubunu təqdim etdi. Səfəvi hökmdarı bu məktubda III Muradın sultan se-

---

581 Zeynalabidin Əli Əbdi bəy Şirazi, *a.g.ə.,* s.116.

582 Ş. Fərzəliyev, *Azərbaycan və Osmanlı imperiyası.*, s.131.

583 B. Kütükoğlu, *Osmanlı-İran siyasi münasebetleri (1578-1612),* İstanbul, Özal Matbaası, 1993, s.5.

çildiyini Səfəvi dövlətinə gələn hacı və tacirlərdən öyrəndiyini, Sultanın dövlət və səadətinin davamını arzu etdiyini bildirirdi[584].

Şah I Təhmasibin hakimiyyəti dövründə Səfəvi-Osmanlı münasibətlərinə yekun vuraraq bu qənaətə gəlmək olar ki, zun bir dövr ərzində tərəflər arasında hərbi-siyasi münasibətlər davam etsə də. Lakin Amasya sülh sazişindən sonra siyasi sabitlik yaranmış və diplomatik əlaqələr üstünlük təşkil etmişdir.

Şah I İsmayılın hakimiyyəti dövründə olduğu kimi, Şah I Təhmasib Səfəvi taxtına çıxdıqdan sonra da Şeybanilər dövləti ilə siyasi münasibətləri gərgin olaraq qalırdı. Şah I Təhmasibin hakimiyyətinin ilk dövründə özbəklər müntəzəm olaraq Səfəvi torpaqlarına hərbi yürüşlər edirdilər.

Qazi Əhməd Qumi bu barədə yazırdı: "Özbəklərin niyyəti ondan ibarət idi ki, Xorasan məmləkətini, eləcə də Azərbaycan, İraq, Fars, Kirman, Xuzistan və Rum vilayətinin sərhədlərinə qədər əraziləri öz aralarında bölüşdürsünlər"[585].

Səfəvi dövrü tarixçisi Əmir Mahmud Xandəmir qeyd edir ki, "Padşahın (Şah I Təhmasibin-M.A.) dünyasını dəyişməsi xəbəri çatdıqdan sonra özbək sultanları bir araya gələrək Xorasanı tutmaq haqqında qərar qəbul etdilər..."[586].

Übeydulla xanın Xorasana yürüşlərindən biri h. 931 (1524-1525)-ci ilə təsadüf edir. Əmir Mahmud Xandəmir bu yürüşu belə təsvir etmişdir: "İlk öncə Şah Təhmasibin Xorasana təyin etdiyi vali Burun Sultan müqəddəs Məşhədə ziyarətə gedərkən Köpək Sultan tərəfindən qətlə yetirildi. Əmirlər arasında ixtilaf yaranması, Burun Sultanın müqəddəs Məşhəd şəhərində qətlə yetirilməsi, Durmuş xanın ölümü, Xacə Həbibullahın qətlə yetirilməsi, azğın şamluların istilası nəticəsində paytaxt Herat əhalisi arasında qarşıdurma yaranması ilə bağlı xəbərlər Übeyd xana çatdığında böyük bir ordu topladı. O, Amudəryanı keçib,

---

[584] B. Kütükoğlu, *a.g.ə.*, s.7.

[585] Ş. Məmmədova, *a.g.ə.*, s.73.

[586] Əmir Mahmud Xandəmir, *Tarix-i Şah İsmail və Şah Təhmasib Səfəvi.*, s.128.

öncə Şahicandan Mərvə gəldi... Özbəklər yerli əhalinin müqaviməti ilə qarşılaşdılar. Uzunmüddətli mühasirədən sonra Məşhədi ələ keçirdilər”[587].

Übeydulla xan Məşhəd şəhərini ələ keçirdikdən sonra Astrabada doğru istiqamət aldı. Bəstam düzündə baş verən döyüşdə qızılbaşların, xüsusilə Əxi Sultan Təkəlinin rəşadətinə baxmayaraq, sayca daha çox olan özbəklər qalib gəldilər. Əxi Sultan döyüşdə həlak oldu. Zeynal xan Astrabaddan qaçıb Firuzkuh dağlarında kömək gözlədi. Übeydulla xan Astrabad hakimliyini sərkərdələrindən olan Zeynəş Bahadıra tapşırıb Herata doğru yola düşdü. H. 933-cü (1526/27) ilin qışında Quryanda qışlaq edib h. 934-cü ilin (1527/28) yazında Heratı mühasirəyə aldı. Hüseyn xan Şamlu mübarizəyə qalxdı. Übeydulla xan qalanın müdafiəçilərini çətin vəziyyətdə qoymaq üçün qalanın ərzaq yollarını kəsdi və qalaya ərzaq daşınmasının qarşısını tamamilə aldı. Hüseyn xan Şamlu şəhər sakinlərinin əksər hissəsini şəhərdən çıxararaq azuqə ehtiyatına qənaət etməklə özbəklər qarşısındakı müqavimətini davam etdirdi. O, özbəklərin bütün hücumlarını dəf etdi. Heratın mühasirəsindən yeddi ay keçdikdən sonra Çuhə Sultan Təkəli özbəkləri məğlub etmək üçün Xorasana doğru hərəkətə keçdi. Qoşunun önündə hərəkət edən Çuhə Sultan həmin vaxt Damğanda məskunlaşmış Astrabad hakimi Zeynış bahadırın üzərinə hücuma keçib onu öldürdü. Şah I Təhmasibin gəlişindən və Zeynəş bahadırın ölümündən xəbər tutan Übeydulla xan Heratın mühasirəsindən əl çəkib Mavəraünnəhrə qaçdı. Şah Təhmasib şiələrin Məşhəddə olan səkkizinci imamının məqbərəsini ziyarət edib Herata doğru yollandı. Hüseyn xan Şamlu və müqavimət göstərən Herat sakinlərinə mehribanlıq göstərdi. Şah Heratda vəziyyəti qaydasına salıb geri döndü[588].

Özbək hakimi Übeydulla xanın Xorasana növbəti yürüşü 1529-cu ildə oldu. Tarixçi Əmir Mahmud qeyd edirdi ki,

---

[587] Əmir Mahmud Xandəmir, *a.g.ə.,* s.140.

[588] P. Semnani, *Şah Esmail morşede sorx kolahan,* Nəşre-ketabbe-numune, Tehran, 1371, s. 64-67.

“Übeyd xan Şah Təhmasibin qoşun çəkdiyini eşidib özbək sultanları və saysız-hesabsız qoşunla birlikdə Mürtəza sülaləsinin mənsubları ilə döyüşmək üçün Amudəryadan keçdi”[589].

Şah I Təhmasibin şəxsən başçılıq etdiyi bu döyüş h. 935-ci ildə (1528/sentyabr) Cam vilayətinin Sarıqumaş adlı yerində baş verdi. İsgəndər bəy Münşi yazır ki, “Doqquz yüz otuz beşinci ilin məhərrəmül-həram ayının doqquzuna (23 sentyabr/1528) düşən tasuva (tasua) günü özbək sultanları Camın Sarıqamış adlı yerində fələk ehtişamlı Xosrovun (Şah Təhmasibin) ordusunun yaxınlığına yetişdi. O gecə heç bir tərəf cəngə başlamadı, aşura günü sübh çağı isə tərəflərin döyüş səfləri bəzəndi”[590].

Özbəklərin üstünlüyü ilə keçən bir gecə-gündüzlük döyüşdən sonra səfəvi ordusunun məğlub olması xəbəri yayıldı. Bu xəbəri eşidən ustaclı tayfasından olan döyüşçülərin çoxu döyüş meydanından qaçdı. Bu zaman Şah Təhmasib belə bir göstəriş verdi: “Tüfəngçilər olduqları yerdə hazır vəziyyətdə dayansınlar!” Tüfəngçilər əmrə tabe olub, belə də etdilər. Bir müddətdən sonra yer və göydəki zülmət yox oldu və qələbə parıltısı şölə saçdı”[591].

Bu döyüşdə diqqəti cəlb edən maraqlı məqam budur ki, qızılbaş ordusu pərən-pərən düşdüyü, zəiflədiyi və məğlub vəziyyətə düşdüyü bir vaxtda Şah Təhmasib atası Şah İsmayıla məxsus üsula əl ataraq döyüşün gedişatında tam dəyişiklik yaratmışdı.

Əmir Mahmud bu döyüş haqda yazır: “Həmin vaxt qəlbən məsumlardan (Allahın salavat və salamı olsun onlara) yardım dilədi, əmir, döyüşçü və silahdaşlarını əmin edərək dedi: İndi mənə qeybdən belə bir xəbər gəldi ki, zəfər və qələbə bizimlədir. Bu xəbər dövlətə bağlı əmirlər, ayıq-sayıq döyüşçülər, topçular və saray əyanlarında yüksək inam və əzmkarlıq yaratdı. Onlar düşmənin say çoxluğunu düşünmədən döyüş meydanına atıldılar

---

[589] Əmir Mahmud Xandəmir, *a.g.ə.,* s.146.
[590] İsgəndər bəy Münşi Türkman, *Dünyanı bəzəyən Abbasın tarixi (Tarixe-aləmaraye-Abbasi),* I kitab., s.126.
[591] Əmir Mahmud Xandəmir, *a.g.ə.,* s.149.

və elə ilk hücumda özbək ordusunu darmadağın etdilər, günün sonunda özbək qoşunu tamamilə məğlub oldu”[592].

Qeyd edək ki, Əmir Mahmudun verdiyi bu məlumatlar bir daha təsdiq edir ki, Şah I Təhmasibin hakimiyyəti dövründə səfəvi ordusunda odlu silahdan (top və tüfəng) istifadə olunmuşdur.

Übeydulla xanın ölümündən sonra da Səfəvi-Şeybanı münasibətlərinin əsasını ənənəvi olaraq hərbi münaqişələr təşkil edirdi. Lakin buna baxmayaraq, Əbdüləziz xanın hakimiyyəti dövründə (1539-1550) Səfəvi dövləti ilə Seybanilər dövləti arasında müəyyən diplomatik əlaqələr yaranmışdı. H. 948-ci ildə (1541) Buxara hakimi Əbdüləziz xanın elçisi Səfəvi sarayında olmuşdu. Həmçinin 1548-ci ildə digər özbək hökmdarı (Bəlx hakimi) Kistin Qara Sultan ilə Şah I Təhmasib arasında elçilik mübadiləsi olmuş və onlar arasında sülh müqaviləsi bağlanmışdı.[593].

Qeyd edək ki, Şah I Təhmasibin hakimiyyətinin ilk dövrlərindən XVI əsrin 40-cı illərinə qədər, Səfəvi-Şeybani münasibətlərinin əsasını özbək hökmdarı Übeydulla xanın Xorasan uğrunda mübarizəsi təşkil etmişdi.

Sonrakı dövrdə də Özbək hakimləri ilə Səfəvi dövləti arasında məhdud xarakterli diplomatik təmaslara baxmayaraq, özbək-qızılbaş münasibətləri qeyri-normal xarakter daşımış, müxtəlif illərdə onlar arasında qanlı vuruşmalar olmuşdu. Özbəklər 950 (1543/44), 952 (1545/46), 955 (1548/49), 957 (1550/51), 967 (1559/60), 971 (1563/64), 973 (1565/66), 974 (1566/67) və 977 (1569/70)-ci illərdə Xorasan əyalətinə basqınlar etmiş və məğlubiyyətə uğrayaraq geri çəkilmişlər[594].

Ümumiyyətlə, XVI əsr ərzində Səfəvi-Şeybani münasibətləri, əsasən hərbi-siyasi qarşıdurmadan ibarət olmuş, bu hərbi-si-

---

[592] Əmir Mahmud Xandəmir, *a.g.ə.,* s.150.

[593] R. Ağayev, *a.g.ə.,* s.114.

[594] Ş. Fərzəliyev, *Azərbaycan XV-XVI əsrlərdə.,* s.117; *Извлечения из «Тарих-и-алям-ара-и-Аббаси» Искандера Мунши.,* с.69-71; Мир Мухаммед Амин-и Бухари, *Убайдалла-наме,* (пер. А.А.Семенова). Ташкент, АН УзССР, 1957, с.49-51.

yasi qarşıdurmanın mərkəzində üzünmüddətli münaqişələrə səbəb olan Xorasan uğrunda mübarizə dayanmışdı.

Şah I Təhmasibin hakimiyyəti dövründə Səfəvi dövlətinin xarici siyasətinə nəzər yetirdikdə bu qənaətə gəlmək olar ki, bu dövrdə Azərbaycan hakimiyyətinin yürütdüyü siyasət bir tərəfdən hərbi-siyasi xarakter daşıyır, digər tərəfdən isə bu siyasət diplomatik münasibətlər formasında təzahür edirdi. Bütün hallarda bu siyasi addımlar Səfəvi dövlətinin siyasi və iqtisadi maraqlarını özündə əks etdirmiş və Səfəvi hakimiyyətinin daxili və xarici siyasətinin möhkəmlənməsinə zəmin yaratmışdı.

Şah I Təhmasib 1576-cı il may ayının 15-də 52 yaşında vəfat etdi. Bu səbəbdən Səfəvi sarayında böyük qarışıqlıq yarandı. Hakimiyyət uğrunda siyasi qruplar arasında gedən mübarizədə şahzadə İsmayıl Mirzənin tərəfdarları qələbə çaldı və o, h. 984-cü ilin cümədə əl-əvvəl ayının 27-də (22 avqust/1576) Şah II İsmayıl adı ilə taxta çıxdı[595].

Şah II İsmayıl taxta çıxdıqdan sonra mərkəzi hakimiyyəti gücləndirmək məqsədi ilə həyata keçirilən bəzi mühafizəkar tədbirlər uğursuzluqla nəticələndi və dövlətin siyasi təsisatlarının zəifləməsinə, əhali arasında ciddi narazılığa səbəb oldu. Eyni zamanda Şah II İsmayılın Səfəvi dövlətinin dini-siyasi həyatının əsasını təşkil edən şiəliyi təqib edərək sünniliyə meyl etməsi, onun dini aristokratiya arasındakı nüfuzuna da ciddi zərbə vurdu. Bu dövrdə ölkə daxilində hökm sürən qeyri - sabit siyasi şərait dövlətin xarici siyasi əlaqələrinə də ciddi təhlükə yaradırdı.

İsmayıl Mirzənin taxta çıxması Osmanlı sarayında müəyyən canlanmaya səbəb oldu. O, taxta çıxan kimi Osmanlı imperiyasının diqqəti Səfəvi dövlətinin sərhədlərinə dikildi. Baş verən siyasi hadisələr yeni Səfəvi-Osmanlı müharibəsinin başlayacağından xəbər verirdi. Artıq 20 il müddətində mövcud olan Səfəvi-Osmanlı sülh müqaviləsi təhlükə qarşısında idi. Şah II İs-

---

595 O. Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti.*, s.118; Ş. Fərzəliyev, *Azərbaycan XV-XVI əsrlərdə.*, s.124; B. Kütükoğlu, *Osmanlı-İran siyasi münasebetleri (1578-1612).*, s.16.

mayılın osmanlılarla sülh münasibətlərini qorumaq üçün ölkə daxilində sünni-şiə qarşıdurmasını yumşaltmağa səy göstərməsi də Səfəvi-Osmanlı münaqişəsinin qarşısını ala bilmədi. Bölgədə böyük strateji maraqları olan Osmanlı imperiyasını yalnız dövlətin siyasi maraqları düşündürürdü.

H. 985-ci ilin ramazan ayının 13-də (24 noyabr/1577) Şah II İsmayı sui-qəsd nəticəsində öldürüldü. Səfəvi dövlətindəki hakimiyyət böhranından istifadə edən Osmanlı hakimiyyəti rəsmi müharibə elan etmədən Amasya sülh müqaviləsini (1555) pozaraq Səfəvi dövlətinə qarşı müharibəyə qərar verdi. Osmanlı ordusu h. 986-ci il səfər ayında (5 aprel 1578) Mustafa Paşanın başçılığı altında Səfəvi dövlətinə yürüşə başladı[596].

Şah II İsmayılın ölümündən sonra Səfəvi taxtına çıxan Şah Məhəmməd Xudabəndə (13 fevral 1578) osmanlılara qaşı mübarizə aparmaq üçün hazırlıqlara başladı[597].

H. 986-cı ilin cumadəl-axir ayının 5-də (9 avqust/1578) Çıldır düzündə səfəvilərlə osmanlılar arasında baş verən döyüşdə osmanlılar qələbə çaldı. Beləliklə, Osmanlı imperiyası ilə Səfəvi dövləti arasında 12 ilə qədər davam edən (1578-1590) yeni müharibə başladı[598].

Osmanlı imperiyasına qarşı təkbətək müharibə aparmağa qadir olmayan Səfəvi hakimiyyəti osmanlılara qarşı birgə mübarizə aparmaq üçün qərb dövlətlərinə müraciət etdi. 1579-cu ilin sonlarında Xoca Məhəmmədin başçılığı ilə Venesiyaya bir elçi heyəti göndərildi. Eyni zamanda Səfəvi dövləti osmanlılara qarşı

---

[596] Ş. Fərzəlibəyli, *Azərbaycan və Osmanlı imperiyası...* s.139; B. Kütükoğlu, *a.g.ə.,* s.48; F. Kırzıoğlu, *a.g.ə.,* s.281; Ф. Гусейн, *Османо-Сефевидская война 1578-1590 гг,* (по материалам трудов османского летописца Ибрахима Рахимзаде)., Баку, Нурлан, 2005, с.38.

[597] F. Kırzıoğlu, *a.g.ə.,* s.287.

[598] B. Kütükoğlu, *a.g.ə.,* s.53-55; Mustafa Əfəndi Selaniki, *Tarix-i Selaniki 1563-1600 (Azərbaycan və qonşu ölkələrin tarixinə dair iqtibaslar),* Osmanlı türk dilindən tərcümə edəni akad. Z. Bünyadov, Bakı, Elm, 1992, s.10; Ф. Гусейн, *Османо-Сефевидская война 1578-1590 гг.,* с.39; *Книга Оруджбека Баята - Дон-Жуана Персидского.,* с.87.

İspaniya, Portuqaliya və Papalıqla da diplomatik danışıqlar aparırdı. Lakin Qərbi Avropa dövlətləri ilə aparılan danışıqlar arzu olunan nəticəni vermədi və uğursuzluqla başa çatdı[599].

Vəziyyətin çıxılmazlığını dərk edən Şah Məhəmməd Xudabəndə 1579-cu il oktyabr ayının 16-da III Sultan Murada bir məktub göndərərək onu barışığa dəvət etdi. Məhəmməd Xudabəndənin bu məktubunu alan III Murad ona son dərəcə təhqiramiz bir namə yolladı və ondan təslim olmağı tələb etdi[600].

Səfəvi hökuməti 1582-ci ildə İbrahim xan Türkmanın başçılığı ilə 200 nəfərdən ibarət elçi heyətini sülh danışıqları aparmaq üçün İstanbula göndərdi. 1582-ci il martın 29-da Osmanlı paytaxtına gələn elçi heyəti aprelin 7-də Divani-Hümayunda qəbul edildi və gətirdiyi hədiyyələri və Şah məktubunu təqdim etdi. İsgəndər bəy Türkman yazır ki, İbrahim xan İstanbulda Rum hökmdarı Sultan Muradın hüzuruna çıxdığı zaman Osman paşa başda olmaqla fitnə əhli sülhün qəbuledilməz olduğunu bəyan etmişlər. Bu səbəbdən İbrahim xanın İstanbulda sülh təşəbbüsləri uğur qazana bilmədi. Elçi İbrahim xan isə Sokullu Mehmed Paşanın sarayında saxlanıldı[601].

1578-1590-cı illərdə səfəvilərlə osmanlılar arasında dəfələrlə qanlı döyüşlər baş verdi. Həmçinin hərbi əməliyyatların getdiyi dövrdə tərəflər arasında sülh danışıqlarına cəhdlər edilsə də, lakin bu danışıqlar nəticəsiz başa çatdı[602].

Şah Məhəmməd Xudabəndənin uğursuz daxili və xarici siyasəti ölkədə ciddi siyasi böhrana səbəb oldu. Dövlətin siyasi mövcudluğunun təhlükə altında olduğunu görən qızılbaş əmirləri hökumətə qarşı qiyam qaldırdı. Hakimiyyət uğrunda mübarizənin başlanması Osmanl imperiyasının Səfəvi dövlətinin işğalı təhlükəsini optaya çıxardı.

---

599 Y. Mahmudov, *Azərbaycan diplomatiyası.*, s.200-202.
600 Ş. Fərzəlibəyli, *Azərbaycan və Osmanlı imperiyası.*, s.143.
601 B. Kütükoğlu, *a.g.ə.,* s.117-119.
602 Ş. Fərzəlibəyli, *a.g.ə.,* s.146; F. Kırzıoğlu, *a.g.ə.,* s.341-343.

Şah Xudabəndə hakimiyyətinin keçirdiyi dərin siyasi böhrandan istifadə edən Osmanlı ordusu 1585-ci ilin sentyabr ayında Osman Paşanın komandanlığı altında Təbriz şəhərini və ətraf əraziləri ələ keçirdi[603]. Osmanlı ordusu qısa zamanda Səfəvi dövlətinin mərkəzi və şimal ərazilərini tamamilə işğal etdi. Həmçinin Şeybanilər dövləti də Səfəvi sarayında mövcud olan siyasi qarşıdurmadan yaralanaraq 1588-ci ilin mart ayında Xorasanı işğal etdi[604].

Səfəvi dövlətində baş verən siyasi böhran və ölkənin böyük bir hissəsinin osmanlılar tərəfindən işğal edilməsi hakimiyyət uğrunda mübarizəni daha da gücləndirdi. Çünki siyasi cəhətdən güclü bir dövlət xadimi olmayan Şah Məhəmməd Xudabəndə mərkəzi hakimiyyəti gücləndirmək və ölkəni daxili parçalanmadan və osmanlı işğalından qurtarmaqda aciz idi. Artıq onun hakimiyyəti dövründə dövlətin siyasi və hərbi təsisatları zəifləmiş, ölkənin iqtisadi sistemində ciddi böhran yaranmış və hakimiyyətin xarici siyasət sahəsində atdığı kortəbii addımlar uğrsuzluqla nəticələnmişdi. Belə bir şəraitdə, h. 995-ci ilin rəcəb ayında (7-16 iyun/1587) qızılbaş tayfalarının Xorasan qrupu (ustaclu və şamlu tayfaları), Şah Xudabəndənin kiçik oğlu Abbas Mirzəni, Qəzvində şah elan etdilər[605].

Şah I Abbas Səfəvi taxtına çıxdıqdan sonra ölkə daxilində siyasi sabitlik yaratmaq, Səfəvi dövlətinin osmanlılar və özbəklər tərəfindən işğal edilmiş torpaqlarını azad etmək üçün ciddi tədbirlər həyata keçirməyə başladı. O, ilk əvvəl osmanlılarla sülh tərəfdarı olan əmirləri öldürərək Osmanlı imperiyasının işğal etdiyi əraziləri qaytarmaq üçün qızılbaş əmirlərinə göstəriş

---

[603] *Книга Орудж-бека Баята - Дон-Жуана Персидского.*, с.110; Ш. Бидлиси, *Шараф-Наме.*, с.247; Mustafa Əfəndi Selaniki, *Tarix-i Selaniki 1563-1600.*, s.18-19; Ф. Гусейн, *Османо-Сефевидская война 1578-1590 гг.*, с.81.

[604] R. Ağayev, *a.g.ə.,* s.119.

[605] Ш. Бидлиси, *a.g.ə.,* с.255-256; O. Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti.*, s.179; Ş. Məmmədova, *a.g.ə.,* s.100; F. Kırzıoğlu, *a.g.ə.,* s.375-376.

verdi. O, əmirlərdən Şahqulu Sultanı "əl-tamğa" ilə Rəvan və Naxçıvan valisi təyin edərək bu əraziləri azad etməyi tapşırdı. Eyni zamanda özbəklərin işğal etdiyi Xorasanı azad etmək üçün 1588-ci il mayın 12-də Qəzvindən çıxaraq Xorasan istiqamətinə yürüşə başladı[606].

Şah I Abbasın ölkə ərazilərini işğaldan azad etmək üçün atdığı hərbi-siyasi addımlar lazimi nəticə vermədi. Çünki dövlətin hərbi-siyasi qüdrətinin zəiflədiyi bir vaxtda iki cəbhədə osmanlılara və özbəklərə qarşı eyni vaxtda mübarizə aparmaq olduqca çətin idi. Bu baxımdan Səfəvi dövlətinin hərbi qüdrətini bərpa etmək üçün osmanlılarla sülh müqaviləsi bağlamaq olduqca vacib idi. Bu səbəbdən Səfəvi hökmdarı osmanlılarla sülh danışıqlarına başlamağa qərar verdi.

Danışıqlara başlayan tərəflər 1586-ci ildə Fərhad Paşa və vəliəhd Həmzə Mirzə tərəfindən aparılan sülh danışıqlarının davam etdirilməsi qərarına gəldilər. Osmanlı elçisi Vəli Ağa ilə I Şah Abbasın vəzirləri arasında sülh şərtləri müzakirə olundu və razılıq əldə edildi. Sülh müqaviləsi bağlamaq üçün 1589-ci ilin sentyabr ayında Səfəvi hakimiyyəti Ərdəbil hakimi Mehdiqulu Xan Ustaclunun rəhbərliyi ilə İstanbula bir elçi heyəti göndərdi. Osmanlı hakimiyyətinin tələbi ilə elçi heyəti ilə birlikdə Həmzə Mirzənin 9 yaşlı oğlu Heydər Mirzə də girov kimi İstanbula göndərildi[607].

Şah I Abbas elçi heyəti ilə Fərhat Paşaya qızılbaş türkcəsində yazılmış bir məktub da göndərmişdi[608].

1000 nəfərlik Qızılbaş süvarilərinin mühafizə etdiyi Səfəvi elçi heyəti Fərhat Paşanın yanına çatdıqdan sonra onunla birlikdə 1590-cı il yanvarın 18-də İstanbula gəldilər. Yanvarın 24-də elçi heyəti vəzirlər tərəfindən qəbul edildi. III Sultan Murad yan-

---

[606] F. Kırzıoğlu, *a.g.ə.,* s.376-377.
[607] Mustafa Əfəndi Selaniki, *Tarix-i Selaniki 1563-1600.,* s.39-40; Ш. Бидлиси, *a.g.ə.,* c.260-261; F. Kırzıoğlu, *a.g.ə.,* s.378-379.
[608] Ə. Nəvai, *Şah Abbas: Mecmua-i Esnad ve Mekatibat-ı Tarixi Hemrah ba Yâddaşthâ-yı Tafsilî,* İntişârât-ı Bünyâd-ı Ferheng-i İran,1352, s.52-55.

varın 28-də Heydər Mirzəni və elçi heyətini qəbul etdi. Mehdiqulu xan Şah I Abbasın məktubunu sultana təqdim etdi[609].

İstanbulda aparılan danışıqlar nəticəsində 1590-cı il martın 21-də tərəflər arasında 12-illik Osmanlı-Səfəvi müharibəsinə (1578-1590) son qoyan sülh müqaviləsi bağlandı. 4 bənddən ibarət olan bu müqavilənin 2-ci bəndində, Osmanlı imperiyasına qatılan Səfəvi dövlətinin əraziləri əks olunmuşdu. Bu bənddə deyilirdi: "H.998 Nevruzi-firuzi (21 mart/1590) tarixinədək Qızılbaşların əlindən alınaraq Osmanlı dövlətinin tabeliyinə keçən bu ərazilər Osmanlı mülkiyyəti sayılmalıdır: Təbriz, Qaracadağ və ətrafı, Gəncə, Qarabağ və ətrafı, Şirvan, Gürcüstan, Nihavənd, Luristan[610]. Göründüyü kimi, bu müqavilənin şərtlərinə görə Səfəvi dövlətinin böyük bir hissəsi Osmanlı imperiyasının tərkibinə daxil edildi.

Ümumiyyətlə, İstanbul sülh müqaviləsi Səfəvi dövlətinin mövcud siyasi reallığından doğan və onun böhranlı siyasi vəziyyətini özündə əks etdirən bir saziş idi. Bu müqavilə nəticəsində Osmanlı imperiyası Qafqazda və Xəzər hövzəsində öz strateji mövqelərini möhkəmləndirərək, bölgədəki siyasi nüfuzunu daha da artırdı. Bu razılaşmanın bəndləri isə Səfəvi dövlətinin siyasi və strateji maraqlarına tamamilə zidd idi. Lakin buna baxmayaraq, bu müqavilə Səfəvi hakimiyyəti üçün dövlətin hərbi-siyasi və iqtisadi qüdrətini artırmaq üçün əlverişli vaxt əldə etməyə imkan yaradırdı.

Beləliklə, İstanbul sülh müqaviləsindən sonra Səfəvi dövləti ilə Osmanlı imperiyası arasında hərbi münaqişəyə son qoyuldu və diplomatik əlaqələr bərpa olundu. İstanbul sülh müqa-

---

[609] M. Solakzadə. *a.g.ə.,* s.67; F. Kırzıoğlu, *a.g.ə.,* s.379. R. Kılıç, *XVI ve XVII yüzyıllarda Osmanlı-İran siyasi Antlaşmaları,* Tez Yayınları. İstanbul: 2001, s.128.

[610] B. Kütükoğlu, *a.g.ə.,* s.195-197; M. Solakzadə, *a.g.ə.,* s.67; F. Kırzıoğlu, *a.g.ə.,* s.379-381; O. Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti.,* s.179.

viləsindən sonra da hökmdarlar arasında məktublaşmalar olmuş, Səfəvi-Osmanlı əmirləri arasına yazışmalar davam etmişdi[611].

Osmanlı hökmdarı III Mehmedin (1595-1603) zamanında da Səfəvi dövləti ilə Osmanlı imperiyası arasında elçilik mübadiləsi və diplomatik yazışmalar davam etməkdə idi. Sultan III Mehmedin taxta çıxdığı ərəfədə Səfəvi elçisi Kərəm Xan Osmanlı sarayına göndərilmişdir. Elçinin məqsədi hər iki dövlət arasında diplomatik münasibətləri inkişaf etdirmək və şahzadə Heydər Mirzənin vəziyyəti ilə maraqlanmaq olmuşdur. Eyni zamanda elçi İraqda şiələr üçün müqəddəs hesab olunan yerlərdə kasıblara nəzarət olunması üçün bu yerlərə iki nəfər Şəfəvi nümayəndəsiinin təyin olunmasını istəmişdir[612].

Şah I Abbas 1596-cı ildə III Mehmedin (1595-1603) cülusunu təbrik etmək, atasının vəfatı ilə əlaqədar baş sağlığı vermək, eyni zamanda Özbək xanı üzərində qazandığı qələbə xəbərini çatdırmaq üçün qiymətli hədiyyələrlə elçisi Ərdəbil hakimi Qaramanlı Zülfüqar Xanın başçılığı ilə böyük bir elçi heyətini İstanbula göndərmişdir. Min nəfərdən çox olan elçi heyəti 1596-ci il noyabrın 12-də İstanbula çatmışdır[613].

Ümumiyyətlə, Şah I Abbas osmanlılarla sülh bağladıqdan sonra dövlətin hərbi-siyasi qüdrətini artırmağa başladı. Ölkədə siyasi sabitlik yaradaraq bir çox hərbi-siyasi və inzibati tədbirlər həyata keçirən Səfəvi hökmdarının atdığı diplomatik addımlar dövlətin xarici siyasətinin inkişafına ciddi təkan verdi.

Şah I Abbas, Osmanlılarla və Şeybanilərlə mövcud münaqişə vəziyyətini nəzərə alaraq dövləti siyasi böhrandan çıxararaq işğal olunmuş torpaqları azad etmək, xüsusilə də beynəlxalq siyasi və ticarət əlaqələrinin təhlükəsizliyini təmin etmək üçün məcburiyyət qarşısında paytaxtı Qəzvindən İsfahana köçürdü (1598).

---

611 Ş. Fərzəlibəyli, *Azərbaycan və Osmanlı imperiyası.*, s.166.

612 B. Kütükoğlu, *a.g.ə.,* s.216.

613 R. Kılıç, *XVI. ve XVII. Yüzyıllarda Osmanlı-Safevi antlaşmaları,* İstanbul, Tez Yayınları, 2001, s.140.

Tarixiçi Dilavər Əzimli qeyd edir ki, “Şah I Abbasın paytaxtı İsfahana köçürməsində heç bir şəxsi maraqdan söhbət gedə bilməzdi. Şah I Abbasın başlıca məqsədi İran (Kəngər-M.A.) körfəzi ticarətinə çıxış əldə etmək idi. Çünki həmin dönəmdə dünya ticarət sistemində böyük dəyişiklik baş vermiş, okean ticarəti böyük önəm kəsb edirdi. İsfahanın İran körfəzinə (Kəngər körfəzi-M.A.) yaxınlığını nəzərə alsaq, onun bu addımına yalnız haqq qazandırmaq olar. Paytaxtın İsfahana köçürülməsində təhlükəsizlik məsələləri də mühüm rol oynayırdı. Çünki qarşısına imperiyanı əvvəlki sərhədlərdə bərpa etməyi məqsəd qoyan Şah I Abbas üçün paytaxtın təhlükəsizlik məsələləri mühüm məsələlərdən idi”[614].

Bir sıra hərbi islahatlar nəticəsində nizami ordu yaradan Şah I Abbas, 1598-ci ilin avqust ayında yürüş edərək özbəklər tərəfindən işğal olunmuş Xorasan bölgəsini azad etdi. Beləliklə, I Şah Abbasın həyata keçirdiyi daxili və xarici siyasət nəticəsində dövlətin hərbi-siyasi qüdrəti möhkəmləndi və osmanlılar tərəfindən işğal edilmiş Səfəvi torpaqlarının işğaldan azad edilməsi üçün münbit şərait yarandı[615].

Ümumiyyətlə, XVI əsrdə Azərbaycan Səfəvi dövlətinin Osmanlı və Şeybanilərlə siyasi münasibətlərinə yekun vuraraq qeyd etmək olar ki, bu dövrdə dövlətin atdığı siyasi və diplomatik addımlar onun siyasi mənafelərini və strateji maraqlarının qorunmasına və inkişafına xidmət edirdi. Şah I İsmayıl tərəfindən başlanan xarici siyasi əlaqələrin əsasını Səfəvi dövlətinin Osmanlı imperiyasının hücumlarına qaşı birgə mübarizə aparmaq üçün bölgə dövlətləri ilə diplomatik əlaqələrin qurulması və Azərbaycanın Yaxın və Orta Şərqdə mövcud olan iqtisadi və si-

---

[614] D. Əzimli, *Azərbaycan Səfəvilər imperiyası tarixində Şah I Abbasın rolu, Dilavər Əzimlinin seçilmiş əsərləri*, Bakı, Turxan, 2022, s.339-340.

[615] И. Петрушевский, *Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI-начале XIX вв.*, с.81-82; А. Рахмани, *Азербайджан в конце XVI и XVII веке (1590-1700 годы).*, Баку, Элм, 1981, с.35-37; Y. Mahmudov, *Azərbaycan diplomatiyası.*, s.203-206.

yasi maraqlarının qorunması təşkil edirdi. Şah I Təhmasibin hakimiyyəti dövründə (1524-1576) də dövlətin bu siyasi mövqeyi davam etdirilmiş, xarici siyasi əlaqələr daha da möhkəmləndirilmişdi.

Şah I Təhmasibin ölümündən sonra Səfəvi dövlətində yaranan siyasi böhran dövlətin hərbi-siyasi qüdrəti ilə yanaşı onun xarici siyasətinə də ciddi zərbə vurdu. Osmanlı imperiyasına qarşı Avropa dövlətləri ilə aparılan uğursuz diplomatik danışıqlar, Osmanlı hakimiyyəti ilə münasibətlərin gərginləşməsi, sonda osmanlıların və özbəklərin Səfəvi dövlətinin ərazisinin böyük bir hissəsinin işğalı ilə nəticələndi.

Şah I Abbasın hakimiyyətə gəlişi ilə Azərbaycan Səfəvi dövlətinin siyasi və hərbi qüdrəti yenidən möhkəmləndi. Ölkə daxilində siyasi böhrana son qoyuldu və dövlətin xarici siyasi əlaqələrində nəzərəçarpacaq dərəcədə canlanma əmələ gəldi. Şah I Abbas, 1598-ci ilin avqust ayında yürüş edərək özbəklər tərəfindən işğal olunmuş Xorasan bölgəsini azad etdi. Həmçinin Şah I Abbasın hakimiyyəti dövründə (1587-1629) Osmanlı imperiyasının Azərbaycan Səfəvi dövlətinin siyasi varlığına son qoymaq cəhdləri uğursuzluqla nəticələndi və 1603-1629-cu illərdə osmanlılara qarşı fasilələrlə aparılan hərbi əməliyyatlar Səfəvi torpaqlarının tamamilə işğaldan azad edilməsi ilə nəticələndi. Bununla da Azərbaycan hökmdarı I Şah Abbas tərəfindən Səfəvi dövlətinin hərbi-siyasi qüdrəti və ərazi bütövlüyü bərpa edildi.

## 2.2. Azərbaycan Səfəvi dövləti ilə Misir Məmlük dövləti arasında siyasi əlaqələr

XVI əsrin əvvəllərindən başlayaraq dünyada baş verən siyasi və iqtisadi dəyişikliklər Yaxın və Orta Şərqdə də ciddi hadisələrlə müşahidə olunurdu. Bu dövrdə hələ əsası XIII əsrdə qoyulan Misir Məmlük dövləti də (1250-1517) bölgədə baş verən siyasi hadisələrdə fəal iştirak edirdi. Misir, Suriya və Hicaz bölgəsinə hakim olan Məmlük hakimiyyəti şimalda möcud olan Osmanlı təhlükəsi və Hind okeanında isə Portuqaliya ilə başlanan

hərbi-siyasi mubarizədə öz siyasi varlığını qoruyub saxlamaq üçün iqtisadi və siyasi tədbirlər həyata keçirməyə çalışırdılar.

Bu dövrdə hakimiyyətdə olan məmlük sultanı Qansu əl-Quri (1501-1516) öz sələfi Qayıtbəy əl-Əşrəfin (1468-1495) həyata keçirdiyi siyasətin əksinə olaraq daha aqressiv siyasət yeritməyə başladı. Onun dövlətin siyasi gücünü artırmaq üçün atdığı iqtisadi və siyasi addımlar ciddi nəticələrə səbəb olmadı. Onun gömrük vergilərini ikiqat artırması Hind ticarət mallarını Misir və Suriya üzərindən Avropaya daşıyan Portuqaliyalı tacirləri alternativ ticarət yolları axtarmağa vadar edirdi. Artıq Avropanı Asiya ilə birləşdirən okean ticarət yolunun kəşfi (1498) Avropalı tacirlərin hind mallarını Ümid burnu vasitəsilə Asiyadan Avropaya daşımasına şərait yaratdı. Bu hadisə Məmlük xəzinəsinin gəlirlərinin nəzərəçarpacaq dərəcədə azalmasına səbəb oldu. Məmlük hakimiyyəti Avropalıların bu addımlarının qarşısını almaq üçün bir sıra siyasi addımlar atsa da sonda nəticəsiz qaldı və Məmlüklərin Avropalılarla okean ticarət yollarına nəzarət uğrunda hərbi münaqişəsinə səbəb oldu. Məmlüklərin Portuqaliya ilə apardığı bu mübarizə sonda güclü hərbi donanmaya malik olan portuqalların qələbəsilə başa çatdı.

Qansu əl-Qurinin bu yanlış siyasəti Məmlük dövlətinin siyasi və iqtisadi sisteminə ciddi zərbə vurdu. Bu dövrdən etibarən Məmlük dövlətində başlayan siyasi tənəzzül digər xarici təhlükələrə də yol açdı.

Azərbaycanda Səfəvilərin hakimiyyətə gəlməsi (1501) ilə dövlətin xarici siyasi əlaqələrində canlanma müşahidə olunmağa və qonşu dövlətlərlə siyasi və diplomatik münasibətlər inkişaf etməyə başladı. Bu dövrdə dövlətin sərhədlərinin genişləndirilməsi, qonşu dövlətlərlə iqtisadi-ticarət və diplomatik əlaqələrin inkişafı Səfəvi hakimiyyətinin xarici siyasətinin əsasını təşkil edirdi.

Qaraqoyunlu və Ağqoyunlu sülalələrinin hakimiyyəti zamanında da mövcud olmuş Azərbaycan-Məmlük əlaqələri, Səfəviər sülaləsi Azərbaycan iqtidarına sahib olduqdan sonra da davam etmişdir.

Səfəvilərin hakimiyyəti dövründə Azərbaycanın xarici siyasətində Misir Məmlük dövləti ilə siyasi münasibətlər mühüm yerlərdən birini tuturdu. Çünki bu dövrdə bölgədə aparıcı dövlətlərdən biri olan Məmlük dövləti baş verən siyasi hadisələrdə yaxından iştirak edirdi. Bu amil Səfəvi hakimiyyətinin xarici siyasətində mühüm rol oynayırdı.

Məmlüklərin Səfəvilərlə ilk münasibətləri hələ Şah I İsmayılın babası Şeyx Cüneyd zamanında mövcud olmuşdur. Qaraman hökmdarı İbrahim bəyin təqibindən qaçan Şeyx Cüneyd Məmlük sultanlığı ərazisinə gələrək Hələbdəki məmlük hakiminə sığınmaq məcburiyyətində qaldı. O, Məmlüklərə bağlı olan İskəndərun körfəzində Cəbəl-Arus deyilən bir dağda oraların hakimi İbn Bilaldan xaçlılardan qalma uçuq bir yaşayış yerini kirayəyə götürdü və buranı təmir etdirərək təkkə kimi istifadə etməyə başladı. Şeyx Cüneyd buradan öz təriqətini yaymaq üçün təsirli və geniş bir təbliğata başladı. Osmanlı ölkəsindən, Suriyadan və İraqdan bir çox sufi müridləri bura gələrək Cüneydin ətrafına toplandılar. Bunların arasında 1416-cı ildə Rumelidə Sultan I Mehmed tərəfindən çətinliklə yatırılan üsyanın başçısı Simavnaoğlu Şeyx Bədrəddinin yaxın silahdaşları da var idi. Sayı getdikcə artan Səfəvi mənsublarının bu dini fəaliyyəti Hələbdəki Mövləvi şeyxi Əhməd Bəkrini və digər təriqət şeyxlərini narahat etdiyindən onlar Məmlük sultanı Çaxmağa müraciət edərək onun ölkəsində bir şəxsin dini pozuculuq təbliğatı ilə məşğul olmasından şikayət etdilər. Osmanlı tarixçisi Aşiq Paşazadə bu hadisəni belə şərh edir: “Misir sultanı Çakmağa xəbər göndərdilər ki, sənin vilayətində dəccal zahir oldu. Misir sultanı dəxi Hələb naibinə xəbər göndərdi ki, “onu Hələb çərisilə tut”. Şeyx Cüneydin üzərinə yürüş etdilər. Cüneydin yetmişə qədər adamın həlak etdilər, bunların iyirmi beşi Simavnaoğlu adamlarından idi. Şeyx Çüneyd qaçdı, Canikə getdi. “Məni istəyən kişi Canikdə bulsun”

dedi"[616] Tarixçi V. Hinz öz əsərində bu hadisənin 1453-cü ildə baş verdiyini qeyd edir[617].

Azərbaycanda Səfəvilər sülaləsi hakimiyyətə gəldikdən sonra da Səfəvilərlə Məmlüklər arasında siyasi münasibətlər mövcud olmuşdu. Səfəvi dövlətinin Məmlük dövləti ilə siyasi münasibətlərini iki mərhələyə ayırmaq olar:

1. Səfəvi dövləti ilə Məmlük dövləti arasındakı siyasi münasibətlərin birinci mərhələsi (1501-1514);
2. Səfəvi dövləti ilə Məmlük dövləti arasındakı siyasi münasibətlərin ikinci mərhələsi (1514-1517).

**Səfəvi dövləti ilə Məmlük dövləti arasındakı siyasi münasibətlərin birinci mərhələsi (1501-1514).** Səfəvi dövləti ilə Məmlük dövləti arasındakı siyasi münasibətlərin birinci mərhələsi Şah I İsmayılın hakimiyyətinin ilk illərindən başlayaraq Çaldıran (1514) döyüşünə qədər davam etmişdir. Bu dövrdə Səfəvilərlə Məmlüklər arasında siyasi münasibətlər olduqca gərgin olmuş, lakin bölgədə mövcud olan Osmanlı təhlükəsi səbəbindən tərəflər açıq düşmənçilik etməmişlər.

Həmin dövrdə bir tərəfdən Qızılbaşların Məmlük ərazilərində apardığı dini-ideoloji və siyasi təbliğat, digər tərəfdən isə Səfəvi hakimiyyətinin Qərbdən göndərilən odlu silah və artilleriya mütəxəssislərini qəbul etmək üçün Məmlüklərin nəzarətində olan Suriya vasitəsi ilə Aralıq dənizinə çıxış əldə etmək istəyi Səfəvi-Məmlük münasibətlərində ciddi gərginlik yaradırdı. Hətta Səfəvi hakimiyyəti Aralıq dənizinə birbaşa çıxış əldə etmək üçün qərb dövlətləri ilə Osmanlı imperiyasına qarşı mübarizədən əvvəl Məmlüklərə qarşı birgə mübarizə aparmaq üçün danışıqlar aparmışdır[618]. Lakin Avropa dövlətlərinin ilk növbədə Osmanlı

---

[616] Aşık Paşazade, *Tevarih-i Al-i Osman,* İstanbul, Matbaa-i Amire, h.133, s.266.

[617] W. Hinz, *Uzun Hasan ve Şeyh Cüneyd.,* s.18-19.

[618] İ. Uzunçarışlı, *Osmanlı tarixi (İstanbul'un fethinden Kanuni Sultan Suleyman'ın ölümüne kadar).,* s.247.

imperiyasına qarşı mübarizə planları Səfəvi hakimiyyətinin bu cəhdlərini nəticəsiz qoymuşdur.

Osmanlı imperiyasına qarşı Avropa və Asiya dövlətlərinin hərbi ittifaqını yaratmağa çalışan Şah I İsmayıl, 1501-ci ildə Misirə elçi göndərib Osmanlılara qarşı Məmlük Sultanı ilə ittifaq bağlamağa cəhd göstərmişdir[619]. Lakin Suriya ərazisində şiəliyin yayılması və qızılbaş təsirinin artmasından narazı qaldığı üçün Misir Sultanı bu təklifi rədd etmişdi[620].

Səfəvi dövlətinin bölgədə getdikcə güclənən siyasi mövqeyi Məmlük dövlətini ciddi narahat edirdi. Çünki Qahirəni bütün İslam dünyasının baş şəhəri sayan Məmlük hakimiyyəti şiəliyə əsaslanan Səfəvi dövlətinin güclənməsini özləri üçün siyasi və ideoloji təhlükə hesab edirdi. Məmlük sultanı Qansu Quri 910 (1504/05)-cu ildə Osmanlı sultanı II Bəyazidə yazdığı məktubda "... Şərq diyarında yolunu azmış qızılbaş güruhunun qələbəsi" hadisəsini xatırladaraq bunu "... o tərəfləri bürümüş ictimai fəlakət" kimi qiymətləndirmişdi[621]. Tərəflər arasında mövcud olan bu siyasi ziddiyyətlər Məmlükləri Osmanlı hakimiyyəti ilə yaxınlaşmağa vadar edirdi. Bu dövrdə Misir sultanı Qansu Quri Şah I İsmayılın müttəfiqi olan və Osmanlılara qarşı üsyan qaldırıb Suriyaya qaçan Qaraman şahzadəsi Mustafa bəyi öldürtmüşdü[622]. Bu hadisə Səfəvilərlə Məmlüklər arasında mövcud olan siyasi gərginliyi daha da artırmışdı.

1503-cü ildə Həmədan yaxınlığındakı Almabulağı döyüşündə Qızılbaşlara məğlub olan Ağqoyunlu Murad Məmlüklərdən kömək almaq ümidi ilə Hələbə gəldi, lakin Məmlük haki-

---

[619] S. Tansel, *Yeni vesikalar karşısında sultan II Bayasit hakkında bazi mutalazlar.*, s.193, 206; S. Fisher, *The foreign relations of Turkey 1481-1512,* Illionis, 1948, p.93.

[620] Y. Öztuna, *Başlanğıcından zamanımıza kadar Türkiye tarihi*, IV c., İstanbul, Sanayi A. Ş. Matbaası, 1964, s.164.

[621] N. Musalı, *I Şah İsmayılın hakimiyyəti.*, s.267.

[622] Y. Mahmudov, *Azərbaycan diplomatiyası, Ağqoyunlu və Səfəvi dövlətlərinin Avropa ölkələri ilə əlaqələri (XV-XVII yüzilliklər),* Bakı, Təhsil, 2006, s.185-186; R. Yinanç, *Dulkadir beyliği.*, s.89.

miyyəti onu himayə etməkdən imtina etdi[623]. Bundan sonra Murad bəy Zülqədər bəyi Əlaüddövlənin yanına gələrək ona sığınmışdı. Göründüyu kimi, Məmlük hakimiyyəti Səfəvi dövləti ilə gözlənilən münaqişədən ehtiyat edərək Ağqoyunlu Muradı himayə etməkdən imtina etmişdir.

Şah I İsmayıl Səfəvi dövlətinin Şərqi Anadolu bölgəsində geosiyasi mövqelərini möhkəmlətmək üçün 1507-ci ilin yayında Şərqi Anadolu istiqamətində yürüşə başladı. Bu yürüş Səfəvi-Osmanlı münasibətlərində gərginlik yaranmasına səbəb oldu. Səfəvi hökmdarının Ərzincana gəldiyini eşidən Amasya valisi şahzadə Əhməd vəziyyəti atasına bildirərək Anadolu qızılbaşlarının Şah I İsmayılın ətrafına toplanmaması üçün müəyyən tədbirlər gördü[624].

Şah I İsmayıl Ərzincanda olarkən Qulu bəy adlı elçisini Osmanlı Sultanının yanına göndərərək yürüşün məqsədinin Zülqədər bəyini cəzalandırmaq olduğunu bildirdi. Həmçinin o, II Bəyaziddən Zülqədər ölkəsinə daxil olmaq üçün Osmanlı ərazilərindən keçiş izni istədi. Şah I İsmayılın Osmanlı torpaqlarına hücum etməsindən ehtiyat edən II Bəyazid Səfəvi hökmdarının xahişinə müsbət cavab verdi. Digər tərəfdən bu dövrdə Osmanlı dövləti üçün müəyyən siyasi problemlər yaradan Zülqədər bəyinin cəzalandırılması Osmanlı hakimiyyətinin mənafelərinə uyğun idi. Bu ərəfədə səfəvilərin mümkün hücüm təhlükəsini nəzərə alan Osmanlı Sultanı Orta Anadoluya böyük hərbi qüvvə cəmləşdirdi[625].

Səfəvi hökmdarı 1507-ci ildə digər bir Zəkəriyyə adlı elçisini Məmlük sarayına göndərdi. Dekabr ayında Qahirəyə gələn bu elçi Misir Sultanını əmin etməyə çalışmışdır ki, Şah İsmayı-

---

[623] A. Allouche, *Osmanlı-Safevi ilişkileri (kökenleri ve gelişimi),* çeviren A. Emin Dağ, İstanbul, Anka Yayınları, 2001, s.94; O. Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti.*, s.45-46.

[624] R. Kılıç, *Kanuni devri Osmanlı-İran münasebetleri.*, s.41.

[625] R. Kılıç, *Kanuni devri Osmanlı-İran münasebetleri.*, s.41-42; F. Sümer, *Safevi devletinin kuruluşu ve gelişmesinde Anadolu türklerinin rolü.*, s.29.

lın məqsədi onlara heç bir zərər vermədən Əlaüddövlə bəylə haqq-hesab çəkməkdir[626]. Bu barədə Venesiyalı səyyah Marino Sanudo isə məlumat verir ki, Səfəvi elçisinin Qahirəyə gəlməkdə məqsədi Məmlüklərin dərəbəyi olan Ramazanoğullarına aid olan Adana və Tarsus torpaqları ilə bağlı Şahın tələbini Qansu Quriyə çatdırmaq olmuşdu. Eyni zamanda səyyahın verdiyi məlumata görə  Şah I İsmayıl bu elçi vasitəsilə Məmlük Sultanını Hələbi, Şamı, hətta bütün Suriyanı ələ keçirməklə hədələmişdir[627]. Görünür, Səfəvi hakimiyyəti Şərqi Anadolu yürüşü dövründə Məmlüklərin Zülqədər bəyliyinə kömək etməsindən ehtiyat edərək bu hədə-qorxu ilə onları Əlaüddövləyə kömək etməkdən çəkindirməyə çalışmışdır.

Osmanlı Sultanından razılıq aldıqdan sonra Səfəvi ordusu, 1507-ci ilin iyul ayının sonlarında Sivas-Qayseri ərazisindən keçərək Zülqədər bəyliyinə daxil oldu. Tərəflər arasında baş verən döyüşlərdə Səfəvi qoşunu Ağqoyunlu Sultan Muradın və Zülqədər bəyi Əlaüddövlənin birləşmiş qüvvələrini məğlub edərək Zülqədər bəyliyinin əksər ərazilərini ələ keçirdi. Məğlubiyyətə uğrayan Əlaüddövlə bəy Turna Dağına sığınaraq Şah I İsmayıla qarşı mübarizədə Məmlük və Osmanlı sultanından kömək istəmiş, lakin heç bir cavab almamışdı[628]. Çünki bu dövrdə Osmanlı və Məmlüklərlə siyasi münasibətləri gərgin olan Əlaüddövlə bəyin Səfəvilər tərəfindən cəzalandırılması Osmanlı və Məmlüklərin siyasi mənafelərinə uyğun idi.

Səfəvilərlə mübarizədə məğlubiyyətə uğrayan Zülqədər bəyi Əlaüddövlə Şah I İsmayıl ilə sülh müqaviləsi bağlamağa məcbur oldu. Tərəflər arasında bağlanan sülhə görə Fərat çayı

---

[626] *Seyyahların Gözüyle Sultanlar ve Savaşlar: Giavvani Maria Angiolello-Venedikli Bir Tüccar ve Vincenzo D'Alessandri'nin Seyahatnameleri (Tercüme ve notlar T.Gündüz),* İstanbul, Yeditepe Yayınları, 2007, s.86; N. Musalı, *I Şah İsmayılın hakimiyyəti.,* s.164.

[627] A. Allouche, *Osmanlı-Safevi ilişkileri (kökenleri ve gelişimi).,* s.100.

[628] F. Sümer, *a.g.ə.,* s.30; R. Kılıç, *a.g.ə.,* s.43; R. Yinanç, Dulkadir beyliği., s.93.

sərhəd olmaqla Diyarbəkr vilayəti səfəvilərin tabeliyinə keçdi. Səfəvi hökmdarı Məhəmməd xan Ustaclunu Diyarbəkr vilayətinə vali təyin edərək geri döndü[629]. Səfər başa çatdıqdan sonra Qızılbaş ordusu Məmlük torpaqlarından keçərək döndüyü zaman səfəvilərdən ehtiyat edən Sultan Qansu əl-Quri Suriya ərazisinə bir dəstə qoşun göndərsə də, heç bir qarşıdurma baş verməmiş və məmlüklər qızılbaşlarla qarşılaşmaqdan çəkinmişlər[630].

1507-08-ci illərdə Səfəvilərin Şərqi Anadoludakı keçmiş Ağqoyunlu ərazilərində möhkəmlənmələri və Diyarbəkrin qızılbaş valisi Məhəmməd xan Ustaclunun uğurlu fəaliyyəti Anadoluda xüsusi maraqları olan Məmlük əyanları arasında ciddi narahatlıqlar doğurmuş və Qahirə sarayında Qansu Qurinin iştirakı ilə müzakirələrin açılmasına səbəb olmuşdu[631]. Lakin bu narahatlıqlara baxmayaraq məmlüklər səfəvilərlə açıq münaqişəyə girməkdən çəkinmişdir.

Bu arada Səfəvi hakimiyyəti Avropa dövlətlərini qərbdən Osmanlı imperiyasına qarşı qaldırmaq üçün Venesiya hökuməti ilə mütəmadi danışıqlar aparırdı. Bu məqsədlə Sah İsmayıl 1510-cu ildə əslən Kiprli olan Nikolo Soror adlı elçisini Təbrizdən Hələbə qayıdan bir dəstə italyan tacirinə qoşaraq danışıqlar aparmaq üçün Venesiyaya göndərdi. Lakin Suriya ərazisinə daxil olan kimi həmin elçi Şah İsmayılın məktubu ilə birlikdə ələ keçirildi (avqust/1510) və Misir Sultanının hökmü ilə zindana salındı. Venesiyanın Dəməşqdəki konsulu Pyetro Zeno bu hadisə ilə əlaqədar üç dəfə Misir Sultanının qəbuluna getmiş, lakin Səfəvi elçisini azad etdirə bilməmişdi[632]. Bu hadisə gərgin olan Səfəvi-Məmlük münasibətlərini daha da gərginləşdirdi.

---

629 R. Yinanç, *Dulkadir beyliği.*, s.93-94; M. Solakzadə, *Tarix.*, s.21.

630 A. Allouche, *Osmanlı-Safevi ilişkileri (kökenleri ve gelişimi)*., s.100.

631 N. Musalı, *I Şah İsmayılın hakimiyyəti.*, s.267-268.

632 Я. Махмудов, *Взаимоотношения государств Ак-коюнлу и Сефевидов с европейскими странами.*, с.135; A. Allouche, *Osmanlı-Safevi ilişkileri (kökenleri ve gelişimi)*., s.101.

Səfəvi-Məmlük münasibətlərinin kəskinləşməsi Osmanlı imperiyası ilə siyasi münaqişə vəziyyətində olan Venesiya hökumətini qane etmirdi. Çünki Venesiya Osmanlı imperiyasını Səfəvi dövlətinin əli ilə zəiflətməyə çalışdığı bir vaxtda Səfəvi-Məmlük ziddiyyətlərinin dərinləşməsi, Venesiya hökumətinin Şərq siyasətinə zidd idi.

Venesiya hökuməti Misirlə münasibətləri qaydaya salmaq və Səfəvi hakimiyyəti ilə Məmlük dövləti arasında siyasi gərginliyi yumşaltmaq üçün 1511-ci ilin dekabrın 22-də elçisi Domeniko Trevizanı Qahirəyə yola saldı. Ona tapşırıq verildi ki, Misir sultanını "sakitləşdirmək üçün bütün vasitələrdən və imkanlardan istifadə etsin"[633].

O, Misir sultanını əmin etməli idi ki, Səfəvi elçilərinin Venesiyada danışıqlar aparması "kiminsə əleyhinə qəsd hazırlamaq" məqsədi daşımır[634]. Qeyd edək ki, Səfəvilərin Aralıq dənizinə birbaşa çıxış əldə etmək üçün Məmlük torpaqlarına olan iddiaları Məmlük hakimiyyətini ciddi surətdə narahat edirdi və onlar Venesiya-Səfəvi danışıqlarına ehtiyatla yanaşırdılar. Bu səbəbdən Səfəvi elçisinin həbs edilməsi Məmlük hakimiyyətinin narahatlığından irəli gələn bir siyasi addım idi.

Bu dövrdə Səfəvi dövləti ilə Məmlük dövləti arasında mövcud olan siyasi gərginliyi tərəflər arasında baş verən sərhəd münaqişələri daha da dərinləşdirirdi. Belə ki, Zülqədər bəyi Əlaüddövlənin 1510-cu ildə Səvəfi dövlətinin nəzarətində olan Diyarbəkrə yürüş etməsi Səfəvi-Məmlük ziddiyyətlərini daha da artırdı. Əlaüddövlə bəy h. 915-ci ildə (1509/1510) oğlanları Şahrux və Əhmədin komandanlığı altinda Diyarbəkrə yürüş etdi. Lakin zülqədərlilər Məhəmməd xan Ustaclu tərəfindən ağır məğlubiyyətə uğradıldı. Bu qələbədən sonra Səfəvi qoşunları Məmlük dövlətinin ərazisinə daxil olaraq Malatyaya qədər irəli-

---

[633] G. Berchet, *La Respubblica di Venezia e la Persia.*, p.27.

[634] Y. Mahmudov, *Azərbaycan diplomatiyası, Ağqoyunlu və Səfəvi dövlətlərinin Avropa ölkələri ilə əlaqələri (XV-XVII yüzilliklər).*, Bakı, Təhsil, 2006, s.196.

lədilər. Bu müdaxilənin Səfəvi-Məmlük münasibətlərini gərginləşdirəcəyindən ehtiyat edən I Şah İsmayıl, Sultan Qansu əl-Quriyə elçisi Həmzə Xəlifə vasitəsilə bir məktub göndərib "bu müdaxilənin öz iradəsi xaricində edildiyini ifadə edərək öz üzüntülərini bildirdi". Səfəvi hökmdarının bu addımına cavab olaraq Misir sultanının Səfəvi sarayına elçi göndərməsi (1511) hər iki dövlət arasında gərginliyi aradan qaldırdı[635].

Bicənin "Cahangüşa-yi xaqan" əsərində h. 917-ci ilin başlanğıcında (1511-ci ilin aprelində) Məmlüklərlə Səfəvilər arasında digər bir sərhəd münaqişəsi haqqında da məlumat verilir[636].

Bu hadisə haqqında "Aləm ara-yi Səfəvi" qaynağında da geniş məlumat verilmişdir: "Qansu Qurinin həbəş qulamları korpusunun 300 nəfər xüsusi hazırlıqlı döyüşçüsü Sədan Həbəşinin komandanlığı ilə sərhədi pozub kəşfiyyat və Səfəvi qoşunlarınım döyüş qabiliyyətini yoxlamaq məqsədilə Diyarbəkr bəylərbəyliyinin ərazisinə daxil olmuş, lakin Dəli Dovraq ləqəbli qızılbaş sərkərdəsi Murad bəy Ustaclunun 100 nəfərlik dəstəsi tərəfindən darmadağın edilmişdilər. Döyüşün əvvəlində Dəli Dovraq şəxsən Sədanı öldürmüş, həbəşlərdən 180 nəfər qətlə yetirilmiş, 20 nəfəri əsir düşmüş, qalanları qaçıb öz ölkələrinə getmişdirlər. Əsirlərin çoxu Səfəvilərin tərəfinə keçmiş, Misirə geri qayıtmaq istəyən üç həbəş isə şəxsən Şah İsmayılın əmri ilə sərbəst buraxılmış və onlara ənamlar verərək öz ölkələrinə yola salmışdılar[637].

Şah I İsmayıl, eyni zamanda Həmzə xəlifə adlı elçisini göndərərək Qansu Qurini Şeybani xan üzərindəki qələbəsindən məlumatlandırdı. Geri qayıtmış həbəşlərdən məğlubiyyət və şahın alicənablığı haqqında məlumat alan Qansu Quri dərhal "Şeyxoğlunun yanına dostluq izharı və bu hərəkətlərin üzrünün istənilməsi üçün gözəl nitq qabiliyyətinə malik seçkin bir adamın

---

635 R. Yinanç, *Dulkadir beyliği.*, s.95; Zeynalabidin Əli Əbdi bəy Şirazi, *Təkmilətül-əxbar.*, s.45.

636 N. Musalı, *I Şah İsmayılın hakimiyyəti.*, s.268.

637 N. Musalı, *I Şah İsmayılın hakimiyyəti.*, s.268.

göndərilməsini" qərara almış və elçi ilə bərabər Şah İsmayıl üçün "Misir, Məğrib, Rum, Firəng və Zəngibar töhfələri" yollamışdı [638].

Tarixçi Əbdi bəy Şirazi yazır ki, "Qansu Qurinin elçisi h. 917-ci (1511/12) ilin qışında şah Qumda olarkən onun hüzuruna gəldilər"[639]. Həmin elçi öz sultanı adından şahı Xorasanın fəthi münasibətilə təbrik etməklə yanaşı sərhəd münaqişəsinə görə də üzrxahlıq etmişdi[640].

Həmin zaman qərbdə Osmanlılar, şərqdə isə özbəklərlə münaqişə vəziyyətində olan Səfəvilər dövləti üçün Məmlüklərlə toqquşmaq sərf etmirdi və Şah I İsmayılın əsirləri hörmətlə azad etməsi, Qansu Quriyə mülayim tonda məktub yazması da sərhəd münaqişəsi ilə gərginləşə biləcək münasibətləri yumşaltmaq məqsədi daşıyırdı. Eyni zamanda Məmlük sultanı Qansu Qurinin Mərv qələbəsi (1510) münasibətilə Səfəvi hökmdarını təbrik etməsi siyasi gücünü getdikcə möhkəmləndirən Səfəvi dövləti ilə açıq münaqişədən çəkinməsi ilə izah oluna bilər.

Tarixçi Adel Alloçe də Sah İsmayılın Mərv qələbəsindən sonra Səfəvilərin siyasi üstünlüyə malik olduğunu qeyd edərək yazır: "Şah İsmayıl bu qalibiyyətdən sonra rəqib olan iki Sünni dövlətinə öz üstünlüyünü göstərmək üçün Özbək hökmdarının başını II Bəyazidə, digər Özbək liderlərinin başını isə Məmlük sarayına göndərmişdi"[641].

Çaldıran döyüşü ərəfəsində Səfəvi və Osmanlı hakimiyyəti qonşu dövlətlərlə diplomatik əlaqələri gücləndirərək özlərinə müttəfiq axtarırdılar. Bu məqsədlə hər iki tərəf bölgədə siyasi nüfuza malik olan Məmlük hakimiyyəti ilə də diplomatik danışıqlar aparırdılar.

Səfəvi hakimiyyəti Osmanlı imperiyasına qarşı birgə mübarizə aparmaq üçün 1512-ci ildə Təbrizdən Qahirəyə bir elçi

---

[638] N. Musalı, *I Şah İsmayılın hakimiyyəti.*, s.268-269.
[639] Zeynalabidin Əli Əbdi bəy Şirazi, *Təkmilətül-əxbar.*, s.157.
[640] N. Musalı, *a.g.ə.,* s.269.
[641] A. Allouche, *Osmanlı-Safevi ilişkileri (kökenleri ve gelişimi).*, s.103.

heyəti göndərdi. Lakin Məmlüklərlə aparılan danışıqlar nəticəsiz başa çatdı. Çünki bu zaman Osmanlı hakimiyyəti ilə daha yaxşı münasibətdə olan Məmlüklər Osmanlılara qarşı mübarizə aparmaqda maraqlı deyildilər. Eyni zamanda bu dövrdə Misirin Hind okeanına çıxış yoluna nəzarət edən Portuqaliyalılara qarşı mübarizədə Osmanlı donanması Məmlüklərə kömək edirdi. Bu səbəbdən Misir hökuməti Səfəvi dövlətinə kömək etməkdən imtina etmişdir[642].

Osmanlı hakimiyyətinin də Misiri Səfəvilərə qarşı ittifaqa cəlb etmək planı baş tutmadı. Çaldıran səfəri ərəfəsində Qahirəyə göndərilmiş Osmanlı elçisinə rədd cavabı verildi[643]. Bununla da Çaldıran döyüşündə Məmlük hakimiyyəti bitərəf mövqe tutaraq bu hərbi münaqişədə iştirak etmədi. Çünki bölgədə baş verən hərbi münaqişələrdə bitərəf mövqe tutmağa çalışan məmlüklər bir tərəfdən güclü dövlətlərlə münaqişəyə girməkdən ehtiyat edir, digər tərəfdən özünün hərbi-siyasi gücünu qorumağa çalışırdı. Həmçinin Səfəvi-Osmanlı hərbi münaqişəsində tərəflərin bir-birini zəifləτməsi Misir hakimiyyətinin xeyirinə idi. Çünki özlərini "bütün müsəlmanların sultanı" hesab edən Məmlük sultanları İslam dünyasında birinciliyi saxlamaq üçün həm Səfəvi dövlətinin, həm də Osmanlı imperiyasının güclənməsini istəmirdilər.

Ümumiyyətlə, Səfəvi dövləti ilə Məmlük dövləti arasında Çaldıran döyüşünə qədər mövcud olan siyasi münasibətlər kifayət qədər gərgin xarakter daşımış, lakin açıq hərbi münaqişə səviyyəsinə yüksəlməmişdi. Çünki tərəflər bölgədə mövcud olan Osmanlı təhlükəsi səbəbindən açıq düşmənçilik etmirdilər. Xüsusilə də Məmlüklərin Səfəvi-Osmanlı rəqabətində bitərəf mövqe tutması Səfəvi-Məmlük münaqişəsini arxa plana keçirmişdir.

---

[642] Y. Mahmudov, *Azərbaycan diplomatiyası: Ağqoyunlu və Səfəvi dövlətlərinin Avropa ölkələri ilə əlaqələri (XV-XVII yüzilliklər).,* Bakı, Təhsil, 2006, s.200; İ. Yiğıt, *İslam tarihi.,* s.126.

[643] A. Allouche, *Osmanlı-Safevi ilişkileri (kökenleri ve gelişimi).,* s.126-127.

**Səfəvi dövləti ilə Məmlük dövləti arasındakı siyasi münasibətlərin ikinci mərhələsi (1514-1517).** Səfəvi dövləti ilə Məmlük dövləti arasındakı siyasi münasibətlərin ikinci mərhələsi 1514-cü ildən başlayaraq Məmlük dövlətinin süqutuna qədər olan bir dövrü əhatə edir. 1514-cü ildən etibarən Səfəvi-Məmlük əlaqələrində yeni bir mərhələ başlayır. Səfəvi dövlətinin Çaldıran döyüşündə (1514) Osmanlı imperiyasına məğlub olması Osmanlı imperiyasının bölgədəki siyasi mövqelərini daha da gücləndirdi. Osmanlı imperiyasının bölgədə hegemon dövlətə çevrilməsi, artıq Məmlük dövləti üçün ciddi təhlükə idi. Bu səbəbdən Məmlük hakimiyyəti Osmanlı təhlükəsinə qarşı Səfəvilərlə müttəfiqlik etmək məcburiyyətində idi.

Çaldıran məglubiyyətindən sonra Şah I İsmayıl Osmanlı hakimiyyəti ilə siyasi danışıqlar aparmağa cəhd etsə də bu addımlar uğursuzluğa düçar oldu. Səfəvi hakimiyyəti bu danışıqların nəticəsiz qaldığını görərək mövcud Osmanlı təhlükəsinə qarşı yenidən Məmlük hakimiyyəti ilə danışıqlara başladı. Artıq Osmanlı təhlükəsinin yaxınlaşdığını hiss edən Məmlük hakimiyyəti Səfəvi dövləti ilə danışıqlara ciddi önəm verirdi.

Şah I İsmayıl 1514-cü ildə Osmanlılara qarşı birgə mübarizə məqsədi ilə danışıqlar aparmaq üçün Məmlük sarayına bir elçi heyəti göndərdi. Şah I İsmayılın Misir Sultanına göndərdiyi elçilər dekabr ayında (1514) Qahirəyə çatdılar və elçiliklərinin səbəbini bildirdilər. Misir Sultanı Səfəvilərlə Türklərə qarşı birgə mübarizə aparmağa, ona kömək üçün ordu göndərməyə hazır olduğunu bildirdi. Eyni zamanda Səfəvi elçiləri Məmlüklərin Osmanlılarla gizli və ya açıq şəkildə danışıqlar aparacağı təqdirdə Misir Sultanı ilə danışıqların pozulacağı şərtini irəli sürdülər. Bununla da Səfəvi dövləti ilə Məmlük dövləti arasında Osmanlı dövlətinə qarşı birgə mübarizə aparmaq üçün razılaşma əldə olundu (dekabr/1514)[644]. Səfəvi hakimiyyətinin apardığı danı-

[644] T. Gündüz, *Sultanlar ve Savaşlar.*, s.103.

şıqlar nəticəsində Zülqədər bəyi Əlaüddövlə və Kartli çarı X David də bu ittifaqa qoşuldu[645].

Osmanlılara qarşı yeni bir ittifaqın yaranması Sultan Səlimin müttəfiqlərə qarşı ciddi hərbi-siyasi addımları ilə nəticələndi. 1515-ci ilin iyun ayında Osmanlı qoşunu Zülqədər bəyliyini işğal etdi və edam edilmiş Əlaüddövlə bəyin və oğlunun başı Misir Sultanına göndərildi. Bu hadisə Osmanlı-Məmlük münasibətlərində ciddi gərginlik yaratdı və Məmlük sarayında təşvişə səbəb oldu. Osmanlı təhlükəsini aradan qaldırmaq üçün Məmlük Sultanı Səfəvilərlə razılaşmanı pozaraq Osmanlı sarayı ilə diplomatik danışıqlara başladı. Bu məqsədlə Qansu Quri (1501-1516) Sultan Səlimə elçi göndərərək "heç olmasa Zülqədər bəyliyinin bəzi ərazilərini Əlaüddövlə bəyin oğlanlarına verilməsini" xahiş etdi. Osmanlı Sultanı "Qılıncla aldığım yerləri ancaq qılıncla təslim edərəm" deyərək bu xahişi rədd etdi[646].

Bu ərəfədə Məmlük hakimiyyəti yenidən ənənəvi olaraq ikili siyasət yeritməyə başladı. Onlar Səfəvi dövləti ilə razılaşmanı pozaraq Osmanlı hakimiyyəti ilə danışıqlara başladı. Bu danışıqlarda məqsəd Osmanlılarla-Səfəvilər arasında vasitəçilik etmək idi. Məmlük Sultanı bu danışıqlarda Sultan Səlimə "Sufiyə hücum etməməyi məsləhət görür", hətta "iki müsəlman padşahın" barışması üçün vasitəçiliyini təklif edirdi[647]. Digər tərəfdən isə Səfəvilərlə gizli danışıqlarını davam etdirirdi. Lakin 1516-cı ilin may ayında Səfəvi sarayından qayıdan Məmlük elçiləri Osmanlı casusları tərəfindən müəyyən olundu və bu barə-

---

[645] *Travels of the Venetians in Persia*., s. 64-65; *Книга Орудж‑бека Баята - Дон-Жуана Персидского*., s.76; T. Gündüz, *Doğu'da Venedik Elçileri (Caterino Zeno ve Ambrogio Contarini'nin Seyahatnemeleri),* İstanbul, 2006, s.66.

[646] R. Yinanç, *Dulkadir beyliği*., s.101; L. Stanley, *History of Egypt in the middle ages*., p.352; K. Yussof, *XVI. Yüzyılda I Selim ve Mısır arasındaki ilişkiler, Osmanlı 1*, Ankara, Yeni Türkiye Yayınları, 1999, s.284; *Səfərnameye veniziyan dər İran (şeş səfərname).,* s.331-333.

[647] Ş. Fərzəlibəyli, *Azərbaycan və Osmanlı imperiyası*., s.103; A. Allouche, *Osmanlı-Safevi ilişkileri (kökenleri ve gelişimi).,* s.137.

də Osmanlı sarayına məlumat verildi[648]. Məmlüklərin bu hərəkəti Osmanlı sarayında cox ciddi narazılıqla qarşılandı. Bu hadisə Osmanlı-Məmlük münasibətlərinə ciddi zərbə vurdu. Eyni zamanda Məmlüklərin Osmanlılarla danışıqlar aparması Səfəvi-Məmlük razılaşmasının pozulmasına səbəb oldu. Məmlük hakimiyyətinin həyata keçirdiyi bu yanlış siyasət son nəticədə onları Osmanlılarla döyüş meydanında müttəfiqsiz qoydu.

Artıq diplomatik uğursuzluğa düçar olan Məmlük Sultanı Zülqədər bəyliyində Məmlüklərin siyasi hakimiyyətini bərpa etmək üçün 1516-cı ilin martın 16-da Suriya istiqamətində qoşun göndərdi. Özü isə iyul aynın 11-də Hələb istiqamətində hərəkət etdi[649].

Məmlüklərə qarşı ciddi müharibəyə hazırlaşan Sultan Səlim Misir Sultanını arxayın salmaq məqsədilə Şah I İsmayıla qarşı yeni bir səfər hazırlığına başladığı xəbərini yaymışdı. Həmçinin Osmanlı hakimiyyəti diplomatik yolla Məmlük-Səfəvi ittifaqını parçalamağa çalışırdı. Bu məqsədlə Sultan Səlimin Qansu Quriyə göndərdiyi məktubda "Sən mənim babamsan, mən sadəcə sənin izninlə Əlaüddövlə ölkəsinə girdim... Əlaüddövlə ölkəsindən aldığım yerləri sizə qaytarıram, yetər ki, Şah İsmayıl ilə aramıza girməyin" yazaraq Məmlük Sultanının Səfəvilərlə yaxınlaşmasının qarşısını almağa çalışırdı[650].

Osmanlı imperiyası ilə Məmlük dövləti arasında davam edən bu siyasi mübarizənin sonu tərəflər arasında hərbi toqquşma ilə nəticələndi. Osmanlılarla Məmlüklər arasında h. 922-ci ilin rəcəb ayının 26-da (24 avqust/1516) Hələb yaxınlığında Mercidabukda baş verən döyüşdə məmlüklər məğlub oldu və Sultan Qansu Quri qətlə yetirildi. H. 922-ci il zilhiccə ayının 29-da (22 yanvar/1517) isə Qahirə yaxınlığında Ridaniyyədə baş verən həlledici döyüşdə osmanlılar qələbə qazandılar və paytaxt

---

[648] A. Allouche, *Osmanlı-Safevi ilişkileri (kökenleri ve gelişimi).,* s.137.
[649] R. Yinanç, *Dulkadir beyliği.,* s.101; L. Stanley, *History of Egypt in the middle ages.,* p.353.
[650] R. Yinanç, *a.g.ə.,* s.101; İ. Yiğıt, *İslam tarihi.,* s.127.

şəhəri Qahirə ələ keçirildi. Osmanlıların bu qələbəsindən sonra Misir Məmlük dövləti süqut etdi və dövlətin ərazisi Osmanlı imperiyasının tərkibinə qatıldı[651].

Venesiya mənbələrinin verdiyi məlumata görə Osmanlı-Məmlük müharibəsində Şah I İsmayıl Məmlüklərə kömək etmək üçün 60 min döyüşçü ilə Suriya istiqamətinə hərəkət etmiş, lakin Suriya ilə Diyarbəkr arasındakı əl-Birə keçidində Sultan Səlimin eyni sayda əsgər yerləşdirməsi səbəbindən məmlüklərə kömək edə bilməmişdir[652].

Osmanlı imperiyası tərəfindən Misir Məmlük dövlətinin varlığına son qoyulması, Osmanlı hakimiyyəti üçün çox böyük siyasi əhəmiyyət kəsb edirdi. Belə ki, Osmanlılar bu dövləti işğal etməklə bir tərəfdən böyük təbii ehtiyatlara malik bir ərazini ələ keçirmiş oldu. Həmçinin osmanlılar iqtisadi-ticari baxımından əhəmiyyət kəsb edən Qırmızı dəniz vasitəsilə dünya okeanına birbaşa çıxış əldə etdilər.

Məmlük dövlətinin süqut etməsi Səfəvi dövləti ilə Məmlük dövləti arasında rəsmi münasibətlərin sona çatmasına səbəb oldu. Lakin Səfəvi hakimiyyəti ilə Məmlüklər arasında münasibətlər sonrakı dövrlərdə davam etmişdi.

Venesiya qaynaqlarının verdiyi məlumata görə keçmiş Məmlük sərkərdəsi Can Birdi əl-Gəzzali Sultan Səlimin vəfatından sonra Osmanlılara qarşı üsyan qaldırdığı zaman (1520) Şah I İsmayıl üsyançılara kömək üçün Osmanlı sərhədlərinə qədər gəlmiş, lakin üsyanın yatırıldığı səbəbindən Qəzvinə geri dönmüşdür. Eyni zamanda qaynağın verdiyi bilgiyə görə bu üsyanın planlaşdırılmasında Səfəvi hakimiyyətinin də rolu olmuşdur[653].

---

651 *Hoca Sadeddin Efendi, Tacü't-tevarih (Şehzadelerin girişimleri-Selimname ve Yavuz Sultan Selim dönemi),* Yalınlaştıran İsmet Parmaksızoğlu, IV c., İstanbul, Milli Egitim Basımevi, 1979, s.311; Ш. Бидлиси, *Шараф-Наме.*, c.164-165; L. Stanley, *History of Egypt in the middle ages*., p.353; *Книга Оруджж-бека Баята - Дон-Жуана Персидского.,* s.76-77.

652 N. Musalı, *I Şah İsmayılın hakimiyyəti*., s.269-270.

653 A. Allouche, *Osmanlı-Safevi ilişkileri (kökenleri ve gelişimi).,* s.142-143.

“Aləm ara-yi Şah İsmayıl” əsərində də  qeyd olunur ki, Məmlük dövlətinin süqutundan sonra osmanlı xidmətinə keçmiş Məmlük sərkərdələri olan Qəzzalilər nəslinin bəzi nümayəndələri osmanlılara qarşı qiyam qaldırıb Səfəvilərə sığınmışdılar. Çox güman ki, bu hadisə osmanlı xidmətinə keçib Suriya hakimi təyin edilmiş Məmlük sərkərdəsi Canberdi əl-Qəzzalinin qiyam qaldıraraq 1521-ci ildə öldürülməsindən sonra baş vermişdir[654].

Ümumiyyətlə, XVI əsrin əvvəllərində Səfəvi dövlətinin xarici siyasətində Məmlük dövləti ilə siyasi münasibətlər mühüm yerlərdən birini tuturdu. Çünki bu dövrdə bölgədə aparıcı dövlətlərdən biri olan Osmanlı imperiyası ilə siyasi rəqabətdə olan Məmlük dövləti Osmanlı imperiyasına qarşı  birgə mübarizə aparmaq üçün Səfəvi hakimiyyəti üçün potensial müttəfiq hesab olunurdu. Cünki bu dövrdə Osmanlı imperiyası ilə Məmlük dövləti arasında müəyyən siyasi və iqtisadi rəqabət və ziddiyyətlər var idi. Lakin bu dövrdə Məmlük hakimiyyəti ilə Səfəvi dövləti arasında mövcud olan bir sıra siyasi ziddiyyətlər bu dövlətlər arasında mövcud olan siyasi və diplomatik əlaqələrə və müttəfiqlik münasibətlərinə xələl gətirmişdir. Bunun nəticəsində də Çaldıran döyüşünə qədər Səfəvi-Məmlük münasibətləri açıq mübarizə müstəvisində olmasa da, mütəmadi olaraq siyasi ziddiyyətlərlə müşahidə olunmuşdur. Çaldıran qələbəsindən (1514) sonra Osmanlı imperiyasının daha da güclənməsi Məmlük dövləti üçün ciddi təhlükəyə çevrildi. Bu səbəbdən Osmanlı təhlükəsinə qarşı mübarizə Səfəvilərlə Məmlüklərin yaxınlaşmasına səbəb oldu və Osmanlı imperiyasına qarşı birgə mübarizə aparmaq üçün tərəflər arasında razılaşma əldə olundu. Lakin Misir Sultanının həyata keçirdiyi ikili siyasət nəticəsində bu razılaşma pozuldu və Osmanlılara qarşı hərbi ittifaq iflasa uğradı. Məmlük dövlətinin bölgədə həyata keçirdiyi bu uğursuz siyasət sonda bu dövlətin özünün süqutuna səbəb oldu.

---

[654] N. Musalı, *I Şah İsmayılın hakimiyyəti.*, s.270.

### 2.3. Azərbaycan Səfəvi dövləti ilə Böyük Moğol dövləti arasında siyasi münasibətlər

XVI əsrin birinci yarısında Cənub-Şərqi Asiyada yeni bir dövlətin əsası qoyuldu. Zəhirəddin Məhəmməd Babur (1526-1530) tərəfindən əsası qoyulan bu dövlət XVI əsr siyasi tarixinə Böyük Moğol dövləti adı ilə daxil oldu. Babur on iki yaşında ikən Fərqanə xanlığında siyasi hakimiyyət uğrunda mübarizəyə qoşulmuş və Böyük Moğol dövlətinin hökmdarı səviyyəsinə qədər yüksəlmişdir.

XIV əsrin ikinci yarısında Şərqi Türküstanda siyasi vəziyyət getdikcə gərginləşirdi. Əbu Səidin (1455-1469) ölümündən sonra Teymurilər dövləti onun oğlanları tərəfindən idarə olunan bir neçə kiçik dövlətə parçalanmışdı. Bu dövlətlərin arasında Sırdərya çayının orta axarında yerləşən, Baburun atası Ömər Şeyx Mirzə (1462-1494) tərəfindən idarə olunan Fərqanə xanlığı da var idi. Teymurilər nəslindən olan Ömər Şeyx xanlığın sərhədlərini cənub-qərb istiqamətində genişləndirmək üçün qardaşı, Səmərqənd xanı Sultan Əhməd və Daşkənd-Seyram hakimi Mahmud xana qarşı müntəzəm olaraq mübarizə aparırdı[655].

Atası Ömər Şeyxin ölümündən (iyun/1494) sonra Babur valisi olduğu Əndicandan Aksi qalasına (Fərqanə xanlığının paytaxtı Əndican şəhəri olsa da xan Namanqan şəhəri yaxınlığında yerləşən Aksi qalasında otururdu-M.A.) gələrək Fərqanə xanlığında siyasi hakimiyyətə sahib oldu[656].

Babur hakimiyyətə gəldikdən sonra rəqiblərinə qarşı Səmərqənd uğrunda ciddi mübarizəyə başladı. O, Səmərqənd haki-

---

[655] *Бабур-наме, Записки Бабура*, перевод М. Салье, Ташкент, Изд-во Акад. Наук Узбекской ССР, 1958, с.18; H. Bıyıktay, *Timurlular zamanında Hindistan Türk imparatorluğu,* Ankara, Türk Tarih Kurumu Basımevi, 1989, s.9; G. Dunbar, *A history of India: From the earliest times to the present day*, vol. I. London, 1943, p.164.

[656] Zeynalabidin Əli Əbdi bəy Şirazi, *Təkmilətül-əxbar.*, s.141; H. Bıyıktay, *Timurlular zamanında Hindistan Türk imparatorluğu.*, s.9; J. Powell-Price, *A History of India*, London, Thomas Nelson and Sons LTD, 1955, p.223.

mi Baysunqur Mirzənin Buxara üzərinə yürüşündən istifadə edərək 1497-ci ilin mayında Səmərqənd üzərinə yürüş etdi və şəhəri ələ keçirdi. Lakin bu zaman Babur ona qarşı Fərqanədə qalxan qiyam səbəbindən Səmərqəndi tərk etməyə məcbur oldu[657].

XV əsrin sonlarında Mavəraünnəhr yeni bir dövlət –Məhəmməd xan Şeybani tərəfindən əsası qoyulan Özbək dövləti siyasi səhnəyə çıxdı. 1499-cu ildən başlayaraq Şeybani xan, mərhələlərlə Mavəraünnəhri ələ keçirdi və 1501-ci ildə paytaxtı Səmərqənd olan Şeybanilər dövlətinin əsasını qoydu[658].

Şeybanilər dövlətinin getdikcə artan siyasi nüfuzu qarşısında Mavəraünnəhrdə ciddi siyasi uğurlar əldə edə bilməyəcəyini başa düşən Babur şərq istiqamətində yürüş edərək H.910-cu ildə (1504) Kabili işğal etdi[659]. Kabilin işğal edilməsi ilə Baburun Hindistanı işğal etmək arzusu reallaşmağa başlaşdı.

Şah I Ismayılın 1501-ci ildə Azərbaycanda hakimiyyətə gəlməsi ilə Yaxın və Orta Şərqin siyasi mənzərəsində yeni bir mərhələ başladi. Tarix səhnəsinə yenicə çıxmış Azərbaycan Səfəvi dövləti ilə Şeybanilər dövləti arasında tezliklə bir sıra hərbi-siyasi ziddiyyətlər meydana çıxdı. Hər iki dövlət arasında olan bu ziddiyyətlər Məhəmməd xan Şeybani ilə düşmən münasibətində olan Zəhirəddin Baburla Şah I İsmayıl arasında müttəfiqlik münasibətlərinin yaranmasına səbəb oldu. Bu müttəfiqlik əlaqələri Kabildə məskunlaşan Babur üçün Mavəraünnəhrdə öz

---

[657] *История Востока (Восток на рубеже средневековья и нового времени-XVI-XVIII вв.),* Т.3., с.148; А. Пронин, *История Индии в средние века,* Москва, Изд. МИВ, 1948, с.119; С. Азимджанова, Г*осударство Бабура в Кабуле и Индии,* М, Наука, 1977, с.35; H. Bıyıktay, *a.g.ə.,* s.11.

[658] *История Востока (Восток на рубеже средневековья и нового времени-XVI-XVIII вв.),* т.3., с.120.

[659] Zeynalabidin Əli Əbdi bəy Şirazi, *Təkmilətül-əxbar.*, s.141; G. Dunbar, *A history of India: From the earliest times to the present day*., p.164; E. Merçil, *Müslüman türk devletleri tarihi,* Ankara, Türk Tarih Kurumu Basımevi, 1993, s.353; 243. *The Oxford History of India: From the earliest times to the end of 1911,* edited by Vincent A. Smith., Oxford, At the Clarendon Press, 1921, p.321.

siyasi hakimiyyətini bərpa etmək üçün çox vacib idi. Səfəvi hakimiyyəti ilə Babur arasındakı siyasi mövqelərin üst-üstə düşməsi Səfəvi-Moğol münasibətlərinin başlanmasına səbəb oldu.

Şeybanilər tərəfindən h. 913-cü ildə (1507-1508) teymurilərin Xorasan dövlətinin varlığına son qoyuldu. İranın və Şimali Əfqanıstanın böyük bir hissəsi Şeybanilərin əlinə keçdi[660]. Dövlətin sərhədlərini Xorasan istiqamətində genişləndirməyə nail olan özbək hökmdarı Məhəmməd xan Şeybani, bununla kifayətlənməyərək Səfəvi dövlətinin ərazilərini də ələ keçirməyə çalışırdı.

Özbəklərin Səfəvi dövlətinin ərazisinə hücumlarının qarşısını almaq məqsədi ilə h. 916-cı ildə (1510) Şah I İsmayıl, Xorasan istiqamətində Məhəmməd xana qarşı yürüşə başladı. Mərv yaxınlığında qızılbaşlarla özbəklər arasında baş verən döyüşdə (1dekabr/1510) özbək qoşunları məğlub oldu və Şeybani xan öldürülərək başı Osmanlı sultanı II Bəyazidə göndərildi[661].

Mərv qələbəsindən sonra Səvəfi ordusunun ələ keçirdiyi hərbi qənimətlərin içərisində Şeybani xanın hərəmxanası da var idi. Hərəmxanada Baburun bacısı Xanzadə bəyimin olduğunu eşidən Şah I İsmayıl ona böyük ehtiram göstərərək bir elçi heyəti ilə Babur şahın iqamətgahına yola saldı[662].

Şah I İsmayılın özbəklər üzərində qələbə xəbərini Babur Kabulda eşidərək 1511-ci ilin yanvarında Qunduza gəldi. Bu zaman Səfəvi elçiləri Xanzadə bəyimlə birlikdə Qunduza gələrək Səfəvi hökmdarının dostluq məktubunu Babura çatdırdılar. Ba-

---

[660] R. Ağayev, *Azərbaycan və Mərkəzi Asiya dövlətlərinin qarşılıqlı münasibətləri.,* s.101; *История Востока (Восток на рубеже средневековья и нового времени-XVI-XVIII вв.),* т.3., с.120.

[661] О. Эфендиев, *Образование Азербайджанского государства Сефевидов в начале XVI века.,* с.110; R. Ağayev, *a.g.ə.,* s.103-104; H. Bıyıktay, *Timurlular zamanında Hindistan Türk imparatorluğu.,* s.23.

[662] H. Bıyıktay, *a.g.ə.,* s.24; R. Ağayev, *a.g.ə.,* s.105; J. Powell-Price, *A History of India,* p.224.

cısı Xanzadə bəyimin gəlişinə çox sevinən Babur Səfəvi hökmdarının bu addımını yüksək qiymətləndirdi[663].

Şah I İsmayılın dostluq münasibətləri istiqamətində atdığı bu addımın qarşılığında Babur, Səfəvi sarayına əmisi oğlu Xan Mirzə başda olmaqla bir elçi heyəti göndərdi. Səfəvi hökmdarı bu elçi heyətini hörmətlə qəbul etmiş və Baburun Mavəraünnəhrdə – Səmərqənd və Buxarada hakimiyyətini bərpa etməyə kömək edəcəyini bildirmişdi. Bunun müqabilində Şəfəvi hökmdarı Babur qarşısında həmin ərazilərdə şiəliyin yayılması şərtini qoymuşdu[664].

Tezliklə Şah I İsmayıl, Babura özbəklərə qarşı vuruşmaq üçün hərbi kömək göstərdi. Səfəvilərin köməyindən ruhlanan Babur, Qunduzdan Hisari-Şadmana keçərək oranı işğal etdi. Bu qələbə Babura bütün Mavəraünnəhri tutmaq və Səmərqəndi qaytarmaq imkanı verirdi. Lakin bu məqsədi həyata keçirməyə hərbi qüvvəsi çatmayan Babur yenidən Şah İsmayılın yanına elçi göndərərək ondan Səmərqəndi almaq üçün hərbi kömək istədi və əvəzində onun adına xütbə oxutduracağını və sikkə kəsdirəcəyini vəd etdi[665].

Şah I İsmayılın əmri ilə Şahrux xan Əfşar və Əhməd Sultan Ustaclunun başçılığı ilə 5 min qızılbaş və Baburun komandanlığında 20 min nəfərdən ibarət Moğol qoşunu hücum edərək

---

[663] Riazul Islam, *Indo Persian relations: A study of the political and diplomatic relations between the Mughul empire and Iran,* Tehran, Iranian Culture Foundation, 1970, p.5; F. Qrenard, *Babur*, hazırlayan Orhan Yüksel, İstanbul, Milli Egitim Basımevi, 1971, s.106; С. Азимджанова, *Государство Бабура в Кабуле и Индии.*, с.90.

[664] А. Фарзалиев, Р. Мамедова, *Сефевиды и Великие Моголы в мусулйманской дипломатии,* Санкт-Петербург, Филологический факультет СПбГУ, 2004, с.52; Riazul Islam, *Indo Persian relations.*, p.6; Н. Синха и А. Бенарджи, *История Индии*, (перевод с английского Л. Степанова, И. Ястребовой и Л. Княжинской), М, Изд. Иностранной Литературы 1954, с.211; F. Qrenard, *Babur.*, s.106.

[665] Zeynalabidin Əli Əbdi bəy Şirazi, *Təkmilətül-əxbar.,* s.141; С. Азимджанова, *Государство Бабура в Кабуле и Индии.,* с.91; H. Bıyıktay, *Timurlular zamanında Hindistan Türk imparatorluğu.*, s.25.

Bəlxdən Səmərqəndə qədər olan əraziləri ələ keçirdi. H. 917-ci ilin rəcəb ayında (sentyabr/1511) Babur səfəvilərin köməyi ilə Səmərqəndi ələ keçirdi və burada Şah I İsmayılın adına sikkə kəsdirərək 12 imamın xatirəsinə xütbə oxutdurdu[666]. Tarixçi Fernard Grenard bu barədə yazır: “Babur, 1511-ci ilin oktyabr ayında Kabildən ayrıldığından on ay sonra müzəffər şəkildə Səmərqəndə girdi. Cümə xütbəsini Şah İsmayıl və on iki imam adına oxutdu və yenə onların adına sikkə kəsdirdi. Özü və qoşunu üçün qızılbaş başlığını qəbul etdi”[667].

Göründüyü kimi, Şah I İsmayılın Baburla əlaqələrini möhkəmləndirməsi onun bölgədəki siyasi və dini maraqlarından irəli gəlirdi. Osmanlı imperiyasının Səfəvilər dövlətinin qərb sərhədləri üçün hər zaman təhlükə yaratdığını nəzərə alaraq dövlətin şərq sərhədlərini özbəklərin hücumundan qorumaq üçün Səfəvi hökmdarının Baburla ittifaqı vacib idi. Bu baxımdan Baburun Məvərənnəhri işğal etməsi Səfəvi dövlətinin şərq sərhədlərinin təhlükəsizliyinin təminatı demək idi. Həmçinin Şah I İsmayılın hərbi yardımı müqabilində Baburun Mavəraünnəhrdə şiə məzhəbini yaymaq öhdəliyini götürməsi Səfəvi hökmdarının dini maraqlarını təmin edirdi. Eyni zamanda Səfəvi hakimiyyəti ilə siyasi əlaqələrin möhkəmlənməsi Baburun da siyasi maraqlarını ifadə edirdi. Babur başa düşürdü ki, Şah I İsmayılın hərbi və siyasi dəstəyi olmadan Mavəraünnəhrdə öz hakimiyyətini bərpa etməsi mümkün deyil.

Səmərqəndin alınmasından sonra səfəvilərlə Moğol hakimi arasında ilk narazılıqlar yarandı. Çünki qızılbaş qoşun rəislərinin Baburun siyasi qərarlarına təsiri onu qane etmirdi. Bu səbədən daim müstəqil olmağa can atan Babur Səmərqəndin alınmasından sonra qızılbaş qoşun rəislərinə qarşı o qədər də iltifatla davranmadı. Həmçinin qızılbaşların burada şiəliyi yayması Sə-

---

666 Zeynalabidin Əli Əbdi bəy Şirazi, *a.g.ə.,* s.141; R. Ağayev, *a.g.ə.,* 107; A. Фарзалиев и Р. Мамедова, *Сефевиды и Великие Моголы в мусулйманской дипломатии.,* c.52; J. Powell-Price, *A History of India.,* p.224.

667 F. Qrenard, *Babur.,* s.108.

mərqənddə qızılbaşlarla yerli hakimlər və ruhanilər arasında ciddi narazılıqlara səbəb oldu. Babur Şah I İsmayıla sədaqətini saxlasa da, qızılbaşların hərəkətlərindən narazı olduğunu gizlətmirdi. Bu narazılıqlara son qoymaq üçün o, Səfəvi ordusundan şəhəri tərk etməyi istədi. Babur ordusunda xidmət edən qızılbaş hərbi rəisi Məhəmmədcan Səfəvi hökmdarına xəbər göndərərək Baburun səfəvilərlə ittifaqı pozmaq niyyətində olduğunu bildirdi. Bu xəbəri eşidən Şah I İsmayıl Baburu itaətə gətirmək üçün h.917-ci ilin əvvəlində (1512) maliyyə vəziri Əmir Nəcmi-Sani başda olmaqla Mavəraünnəhrə qoşun göndərdi[668].

Baburun istəyi ilə qızılbaş hərbi qüvvələri şəhəri tərk etdikdən sonra Səmərqənddə Babura qarşı əhali arasında ciddi narazılıq yarandı və Qulu-Məlikin başçılığı altında özbək hərbi birləşmələri h.918-ci ilin səfər ayında (may/1512) Baburu məğlub edərək Səmərqənddən uzaqlaşdırdı[669].

Baburun bu məğlubiyyət xəbərini eşidən qızilbaş əmiri Nəcmi-Sani Şah I İsmayılı xəbərdar etmədən 12 minlik qoşun ilə Bəlxə gəldi və Baburla birlikdə özbək qoşunlarının yerləşdiyi Buxara istiqamətində hərəkət etdi. H. 918-ci il ramazan ayının 3-də (12 noyabr/1512), Qicduvan (Hac-Divan-M.A.) yaxınlığında özbəklərlə qızılbaş-moğol hərbi birləşmələri arasında şiddətli döyüş baş verdi. Döyüş zamanı ehtiyatda duran Babur döyüşə girmədən qoşununu geri çəkərək Hisar yolunu bağladı. Nəticədə Səfəvi qoşunu məğlub oldu və Nəcmi-Şanı öldürüldü[670].

Səfəvilərin özbəklər qarşısında bu məğlubiyyətindən sonra Şah I Ismayıl və Babur arasındakı münasibətlər pozuldu. Lakin Səfəvi hökmdarı özbəklərə qarşı mübarizədə Baburun yardımın-

---

[668] Riazul Islam, *Indo Persian relations.*, p.9; А. Антонова, *Очерки общественных отношений и политического строя Могольской Индии времен Акбара (1556-1605)*, М, Изд-во Акад. наук СССР, 1952, с.143.
[669] Riazul Islam, *a.g.ə.,* p.9; С. Азимджанова, *Государство Бабура в Кабуле и Индии.*, с.96; F. Qrenard, *Babur.*, s.109.
[670] Zeynalabidin Əli Əbdi bəy Şirazi, *a.g.ə.,* s.142; О. Эфендиев, *Образование Азербайджанского государства Сефевидов в начале XVI века.,* с.111; С. Азимджанова, *a.g.ə.,* с.97.

dan istifadə etmək məqsədilə Moğol hökmdarı ilə əlaqələri bərpa etməyə çalışırdı. Bu məqsədlə Şah I İsmayıl öz müvəkkili Miramı Məvərənnəhrə göndərərək ona səfəvilərlə moğollar arasında inamı bərpa etməyə və Baburu Buxaraya hücum etməyə təhrik etməyi tapşırdı. Lakin Mavəraünnəhrdə siyasi məğlubiyyəti ilə barışan Babur bu təkliflərə ciddi yanaşmadı. Bu vaxtdan etibarən Səfəvilər dövləti ilə moğollar arasındakı siyasi münasibətlərdə müəyyən bir fasilə yarandi.

Babur Mavəraünnəhrdə məğlubiyyətə uğradıqdan sonra 1514-cü ilin sonunda Kabilə gəlməyi qərara aldi. Kabilə gələrkən qardaşı Nəsir Mirzə Kabilin idarəçiliyini yenidən Babura təhvil verdi[671].

Qeyd edək ki, Baburun Kabilə gəlməsinin bir səbəbi də müttəfiqi Şah İsmayıl Səfəvinin Çaldıran döyüşündə (1514) osmanlılara məğlub olması idi. Çünki siyasi qələbələrində böyük rolu olan Şəfəvi hökmdarının bu məğlubiyyəti, dolayısi ilə Baburun Mavəraünnəhrdə siyasi məqsədlərinin iflası demək idi. Mövcud siyasi vəziyyəti nəzərə alan Babur Hindistan istiqamətində hərəkət etməyi qarşısına məqsəd qoydu və bu yürüşə ciddi şəkildə hazırlaşmağa başladı.

Babur qısa bir zamanda güclü ordu yaradaraq şimali Hindistan istiqamətində yürüşə başladı və Ceylam vadisinə qədər irəlilədi. Lakin Baburun Hindistan istiqamətində yürüşünə coğrafi və strateji cəhətdən böyük əhəmiyyəti olan Qəndəhar məntəqəsi ciddi maneə törədirdi. Qəndəharın şimal-qərbindən Kabilin magistral yolu başlayır və bu yol tarixən ipək yolu sayılırdı. Babur bu ərazini həmişə böyük əhəmiyyətə malik bir strateji məntəqə kimi dəyərləndirirdi[672].

---

671 F. Qrenard, *Babur.*, s.113; H. Bıyıktay, *Timurlular zamanında Hindistan Türk imparatorluğu.*, s.27.

672 H. Cəbbari, *Qəndəhar və nəqşe an dər rəvabete por fərazo nəşib miyane İran və Hendustan,* Həmayeşe Səfəviyye dər qostəreye tarixe İranzəmin (məcmue məqalat) Təbriz, Daneşqahe Təbriz, 1383, s.219-220.

Vaxtilə Məhəmməd xan Şeybaniyə xidmət etmiş Şah Şüca bu qalanın hakimi idi. 1504-cü və 1517-ci illərdə Babur Qəndəhara hücum etsə də buranı ala bilməmişdi. Qəndəharı ələ keçirmədən Hindistanda siyasi qələbələr əldə etmək mümkün olmadığını nəzərə alan Babur 1521-ci ildə yenidən Qəndəhara hücum etdi. Lakin ərzaq çatışmamazlığı səbəbindən geri çəkilməyə məcbur oldu. Qeyd edək ki, moğolların Qəndahara bu hücumunun uğursuzluqla bitməsində Şah I İsmayılın siyasi müdaxiləsinin də rolu olmuşdu. Qonşu dövlətlər arasında münaqişə mərkəzinə çevrilmiş bu ərazidə hakimiyyətini davam etdirə bilməyəcəyini nəzərə alan Şah Şüca, 1522-ci ildə Babura xəbər göndərərək Qəndəharı könüllü şəkildə ona təslim etdi[673]. Babur Qəndəhara sahib olmaqla Hindistan səfərində qarşısına çıxan ən ciddi maneəni aradan qaldırmış oldu.

Babur 1525-ci ilin noyabrın 12-də Kabildən çıxaraq Pəncab istiqamətində yürüşə başladı. Baburla Dehli hakimi İbrahim Lodi arasında 1526-cı ilin aprelin 21-də Panipatda həlledici döyüş oldu. Hindistanın gələcək taleyini həll edən bu döyüşdə Babur qələbə çaldı və Dehliyə daxil oldu. Burada Baburun adına xütbə oxunaraq Moğol hökmdarı elan edildi[674].

Böyük Moğol dövləti yarandıqdan sonra Səfəvi dövləti ilə Böyük Moğol dövləti arasında diplomatik əlaqələri bərpa etmək üçün ilk addımı Babur şah atdı. O, elçisi Hacıağa Əsədi Şah I Təhmasibi taxta çıxması münasibətilə təbrik etmək üçün Səfəvi sarayına göndərdi. Səfəvi sarayında böyük hörmətlə qarşılanan moğol elçisi 1527-ci ildə Şah I Təhmasibin elçisi Süleyman ağa ilə birlikdə geri qayıtdı[675].

---

[673] H. Cəbbari, *a.g.ə.,* s.219; H. Bıyıktay, *Timurlular zamanında Hindistan Türk imparatorluğu.*, s.31.

[674] G. Dunbar, *A history of India,* s.165; Н. Синха и А. Бенарджи, *История Индии,* с.211; *The Oxford History of India.*, p.322; А. Низовский, *Средние века*, М, Вече, 2002, с.359.

[675] R. Islam, *Indo Persian relations.,* p.19.

H. 935-ci il cəma-diul əvvəl ayının 15-də (25 yanvar/1529) Şah I Təhmasib Moğol sarayına Həsən Çələbinin başçılığı ilə növbəti bir elçi heyəti göndərdi. Lakin bu elçi heyətinin geri qayıtması haqqında heç bir məlumat yoxdu[676].

Qeyd edıldiyi kimi, Böyük Moğol dövləti yarandıqdan sonra Səfəvi-Moğol siyasi-diplomatik münasibətləri yenidən bərpa olunmuş, hər iki dövlət arasında elçi mübadiləsi vasitəsilə siyasi əlaqələr davamlı şəkildə inkişaf etmişdi.

Babur şahın ölümündən (dekabr/1530) sonra da Səfəvi dövləti ilə Böyük Moğol dövləti arasında siyasi münasibətlər davam edirdi. Əsası Şah I İsmayıl və Babur şah zamanında qoyulan bu dostluq münasibətləri uzun müddət Səfəvi və Moğol hökmdarları üçün bir nümunə olmuş və hər iki dövlətin əlaqələrinin möhkəmlənməsində mühüm rol oynamışdı.

Bu dövrdə Səfəvi dövləti ilə Böyük Moğol dövləti arasında mühüm hərbi-strateji məntəqə olan Qəndəhara yiyələnmək uğrunda mübarizə gedirdi. Qəndəharın bölgədə strateji mövqeyi ilə yanaşı həm də böyük iqtisadi əhəmiyyəti var idi. Bu səbəbdən XV-XVI əsrlərdə Qəndəhar 15 dəfə xarici müdaxiləçilərin hücumlarına məruz qalmış, 12 dəfə əldən-ələ keçmişdi. Bu dövrdə Qəndəhar Səfəvilər dövləti ilə moğollar arasında çox mühüm strateji məntəqə hesab olunurdu. Bu məntəqə hər iki dövlət arasında ticarət əlaqələrini tənzimləyən karvan yolları üzərində yerləşirdi. Buna görə də şəhər dəfələrlə səfəvilər və moğollar arasında münaqişə obyektinə çevrilmişdi[677].

Səfəvilərin Xorasan valisi Sam Mirzə 941-ci ildə (1535) Baburun oğlu Mirzə Kamranın ixtiyarında olan Qəndəharı ələ

---

[676] А. Фарзалиев и Р. Мамедова, *Сефевиды и Великие Моголы в мусулйманской дипломатии.,* с.57; R. Islam, Indo *Persian relations.*, p.20.
[677] О. Эфендиев, *Азербайджанское государство Сефевидов в XVI веке.*, c.108; H. Cəbbari, Q*əndhar və nəqşe an dər rəvabete por fərazo nəşib miyane İran və Hendustan.*, s.219.

keçirməyə cəhd etdi, lakin 8 aylıq mühasirədən sonra Səfəvi qoşunu geri çəkildi[678].

H. 943-cü ilin zilhiccə ayında (aprel/1537) Şah I Təhmasib özbək hökmdarı Übeydullah xan əleyhinə yürüş edərkən oradan Qəndəhar istiqamətində hərəkət etdi. Qəndəhar hakimi Cənci-Xoca müqavimətin mənasız olduğunu görərək qaladan çıxdı və şəhərin açarlarını Səfəvi hökmdarına təhvil verdi. Şah I Təhmasib Budaq xan Qacarı Qəndəhara hakim təyin edərək Herata qayıtdı[679].

H. 944-cü ildə (1538) Hümayunun qardaşı Mirzə Kamran böyük bir ordu ilə Qəndəharı geri almağa gəldi. Şah I Təhmasibin başı osmanlılarla müharibəyə qarışdığından kömək göndərə bilmədi və Budaq xan Qacar şəhəri tərk edib geri çəkildi. Bu dövrdən başlayaraq Hümayunun səfəvilərə sığınmasına qədər Qəndəhar Böyük Moğol dövlətinin nəzarətində qaldı[680].

Səfəvilərlə moğollar arasında münasibətlər Şah I Təhmasiblə Hümayunun hakimiyyəti dövründə də davam etmişdi. İlk növbədə qeyd edək ki, Şah I Təhmasibin hakimiyyətinin ilk onilliklərində Moğol sarayı ilə əlaqə olmamışdır. Bunun səbəbi Baburun ölümündən sonra Moğol taxtına çıxan Hümayunun saraydaxili çəkişmələri həll etməsi və əfqan əmirlərinə qarşı aramsız mübarizə aparması olmuşdur.

Əfqan hakimi Şirşah ordusu tərəfindən 1540-cı ildə məğlub olan Hümayun hərbi qüvvə toplamaq üçün Qəndəhara gəldi. Lakin qardaşları Kamran Mirzə və Əskəri Mirzə tərəfindən qala-

---

[678] Xanbaba Bəyani, *Tarixe nezamiye İran dər doreye Səfəviyye*, Tehran, Enteşarate bozorə ərteştaran, 1353, s.448; R. Islam, *Indo Persian relations.*, p.23.

[679] H. Zərcabad, Təəmmolate tarixiye İran və Hend dər əsre Səfəviyye, *Həmayeşe Səfəviyye dər qostəreye tarixe İranzəmin (məcmue məqalat).*, Təbriz, Daneşqahe Təbriz, 1383, s.981; Xanbaba Bəyani, *Tarixe nezamiye İran dər doreye Səfəviyye.*, s.449; R. Islam, *Indo Persian relations.*, p.23.

[680] O. Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti.*, s.94; R. Islam, *Indo Persian relations,* p.24; H. Cəbbari, *Qəndhar və nəqşe an dər rəvabete por fərazo nəşib miyane İran və Hendustan.,* s.221.

ya buraxılmadı. Hətta Əskəri Mirzə ilə döyüşdə məğlub olaraq ailəsi və 40 əsgəri ilə qaçmaga məcbur oldu. Bu məğlubiyyətdən sonra Hümayun Səfəvi dövlətinə sığınmaq qərarına gəldi[681].

Hümayunu müşayiət edən yaxın dostu Bayram xan Baharlunun məsləhəti ilə Hümayun Şah I Təhmasibə məktub yazaraq ondan ölkəsində sığınacaq istədi. "Əkbər-namə"də bu barədə deyilir: "Hümayun İrana girməzdən əvvəl Çuli Bahadırla Səfəvi sarayına bir məktub göndərdi. Bu məktubda düşdüyü vəziyyəti Şaha anladaraq ondan məmləkətinə keçmək üçün izn istədi "[682].

Şah I Təhmasib Hümayunun ona yazdığı məktubu razılıqla qarşılayaraq onu ölkəsinə dəvət etdi. Həmçinin 1544-cü ilin yanvar ayında onun qarşılanması barədə bir fərman verdi[683]. Hümayun h. 951-ci ilin səfər ayında (may/1544) Səfəvi hökmdarının Sultaniyyədəki yay düşərgəsinə gəldi[684].

Həsən bəy Rumlu Hümayunun Səfəvi dövlətinə gəlişi barədə geniş məlumat verərək yazırdı: "Ondan (Baburdan) sonra da oğlu Nasirəddin Məhəmməd Hümayun Səfəvi dövləti ilə dostluq münasibətlərini saxlamış və bu münasıbətlər davam etmişdi... və bir dəfə öz qardaşı ilə arasında baş vermiş ixtilaf zamanı Şah Təhmasibin sarayında pənah tapdı. Təhmasib onu hərarətlə qarşıladı"[685].

---

[681] N. Fəlsəfi, *Zendeqaniye Şah Abbase əvvəl, Celde əvvəl, moqəddemate səltənəte u əz veladət ta padşahi,* Çape dovvom, Tehran, çape Keyhan, 1334, s.216; H. Bıyıktay, *Timurlular zamanında Hindistan Türk imparatorluğu,* s.53; *История Востока (Восток на рубеже средневековья и нового времени XVI-XVIII вв.),* т.3., с.153; E. Merçil, *Müslüman türk devletleri tarihi.*, s.356.

[682] Абу-л Фазл Мубарак Аллами, *Акбар-наме*, подготовка к изданию С. Воробьневой., т.1, Самара, Агни, 2003, с.203.

[683] R. Islam, *Indo Persian relations*, p.27; А. Фарзалиев и Р. Мамедова, *Сефевиды и Великие Моголы в мусульманской дипломатии.*, с.60.

[684] R. Islam, *a.g.ə.,* p.29.

[685] Həsən bəy Rumlu, *Əhsənüt təvarix (Ba ehtemame Əbdülhüseyn Nəvayi),* Tehran, Nəşre Əsatir, 1349, s.309.

Qazi Əhməd Qumi də Hümayunun Səfəvi torpağında qarşılanma mərasimini geniş şəkildə əks etdirərək yazırdı: “Şimali Hindistanda Hümayunun hakimiyyəti əleyhinə qiyam qalxdığından o, ölkəni tərk edərək Səfəvi sarayına gəldi. Hümayun padşah hansı şəhər və vilayətə çatırdısa, hakimlər və seyidlər onu hörmətlə qarşılayır, ona layiqli bəxşişlər, ənamlar verirdilər”[686].

Şərəfxan Bidlisi yazır ki, “Hümayunun Şah Təhmasibə gətirdiyi hədiyyələr arasında 4 misqal ağırlığında almaz var idi ki, əsrlər boyu heç kim belə bir şey görməmişdi”[687].

Azərbaycanda böyük təmtəraqla qarşılanan Moğol Şahı, Təbriz və Ərdəbil şəhərində də olmuş, Ərdəbil şəhərində olarkən Şeyx Səfiəddinin türbəsini ziyarət etmişdi[688]. Hümayun Səfəvi sarayında olarkən Şah I Təhmasib ona şiəliyi qəbul etməyi təklif etmişdir. Hümayun mövcud vəziyyətini və Hindistanda hakimiyyətini bərpa etmək üçün səfəvilərin göstərəcəyi hərbi yardımı nəzərə alaraq bu təklifə müsbət cavab vermişdi[689].

Hümayunun Səfəvi sarayında olarkən Osmanlı sultanı Süleymana göndərdiyi məktubda da ona şiəliyi qəbul etmək təklif olunduğunu və məcburən bunu qəbul etdiyini bildirmişdi. Şah I Təhmasib Hümayunun Osmanlı sarayı ilə gizli əlaqə yaratdığından xəbər tutmuş, Moğol hökmdarını ölkədən uzaqlaşdırmağa qərar vermişdi [690].

Hümayun Səfəvi dövlətinə gəldikdən sonra faktiki olaraq Şimali Hindistanın hakimi olan Şirşah hakimiyyətini bütün Hindistan ərazisində yaymaq üçün hərbi yürüşlərini davam etdirməyə başladı. Eyni zamanda o, Hümayun təhlükəsinin hələ də qal-

---

[686] Ş. Məmmədova, *“Xülasət ət-təvarix” Azərbaycan tarixinin mənbəyi kimi.*, s.79.

[687] Ш. Бидлиси, *Шараф-Наме.*, с.197.

[688] О. Эфендиев, *Азербайджанское государство Сефевидов в XVI веке.*, с.109.

[689] H. Bıyıktay, *Timurlular zamanında Hindistan Türk imparatorluğu.*, s.55; А. Фарзалиев и Р. Мамедова, *Сефевиды и Великие Моголы в мусулйманской дипломатии.*, с.64-65; *The Oxford History of India.*, p.326.

[690] H. Bıyıktay, *a.g.ə.*, s.55-56.

dığını nəzərə alaraq Şah I Təhmasibin yanına bir elçi göndərdi və şahdan onu tezliklə Hindistana göndərməyi tələb etdi. Şah I Təhmasib Şirşahın bu təklifini həyasızlıq kimi qəbul edərək Hind elçisinin burun və qulaqlarını kəsdirdi[691]. Səfəvi hökmdarının bu addımından sonra Şirşah Osmanlı sarayına elçi göndərərək səfəvilərə qarşı ittifaq yaratmağı təklif etdi. Şirşah 1545-ci ilin may ayında öldüyü üçün onun bu addımı nəticəsiz qaldı[692].

Moğol hökmdarı Səfəvi dövlətini tərk edərkən Şah I Təhmasiblə Hümayun arasında bir razılaşma əldə olundu. Razılaşmaya görə, səfəvilər əfqanlara qarşı mübarizədə Hümayuna hərbi yardım göstərməli, bunun əvəzində Qəndəhar Səfəvi dövlətinin tabeliyinə verilməli idi[693].

Şah I Təhmasib 1544-cü ildə Moğol hökmdarı Hümayun Şahı Dehlidə öz hakimiyyətini bərpa etmək üçün oğlu Sultan Murad Mirzə, Budaq xan Qacar və Şahverdi bəy Ustaclu başda olmaqla 12 minlik qoşunla yola saldı. Səfəvilərin köməyi ilə Hümayun h. 952-ci ilin cəma-diul axir ayında (sentyabr/1545) Qəndəharı aldı və onu səfəvilərə təhvil verdi[694].

Xacə Zeynalabidin Əli Əbdi bəy bu barədə yazırdı: "Məhəmməd Hümayun padşah h. 952-ci ildə özünü birtəhər dünyanın pənahı (Şah Təhmasibin) dərgahına çatdırdı... Allahın kölgəsi nəvvabi-kamyab Şah ona hədsiz-hesabsız silah və qoşun ehtiyatı verib qızılbaş qoşunu ilə birlikdə yola saldı. Onlar əvvəlcə Qəndahara Kamranın üstünə getdilər... Dəfələrlə onunla qardaşları arasında vuruşma və qırğın oldu... h. 952-ci ildə (1545) Humayun padşah zəfər qazandı. H. 952-ci ilin şaban ayında (28 iyun/1545) Hindistana qoşun çəkdi və oranın paytaxtı Dehlini

---

691 Н. Синха и А. Бенарджи, *История Индии.*, с.217; А. Фарзалиев и Р. Мамедова, *a.g.ə.,* s.67.

692 А. Фарзалиев и Р. Мамедова, *a.g.ə.,* s..68.

693 Н. Синха и А. Бенарджи, *История Индии.*, с.220.

694 Ш. Бидлиси, *Шараф-Наме.*, с.192; О. Эфендиев, *Азербайджанское государство Сефевидов в XVI веке.*, с.109; J. Powell-Price, *A History of India.,* p.239.

işğal etdi və istiqlaliyyət qazanıb əvvəllərdə olduğu kimi hakimiyyətini ələ aldı”[695].

Hümayun 1545-ci ildə Kabili tutduqdan sonra yenidən Qəndəhara daxil oldu. Lakin Hümayun I Şah Təhmasibdən çəkinərək Qəndəharı dostu Bayram xana hədiyyə etdi. O isə öz növbəsində onun idarəsini öz adından Məhəmməd şah Qəndəhariyə həvalə elədi. Bu dövrdə Osmanlı imperiyası ilə münaqişə vəziyyətində olan I Şah Təhmasib, Böyük Moğol dövləti ilə siyasi münasibətləri gərginləşdirməmək üçün Hümaynun bu addımı ilə razılaşdı[696]. Qəndəhar problemi hər iki dövlət arasında münaqişə obyekti olsa da, lakin bu problem Hümayun ilə I Şah Təhmasib arasında dostluq munasibətlərinə ciddi maneə törətmədi. Çünki bölgədə baş verən siyasi hadisələr bu dövlətlərin siyasi əməkdaşlığını zəruri edirdi.

1546-cı ildə Şah I Təhmasib Hümayunu Kabildə siyasi hakimiyyətini bərpa etmək münasibətilə təbrik etmək üçün Vələd bəy Təkəli başda olmaqla Moğol sarayına bir elçi heyəti göndərdi[697]. Hümayun buna cavab olaraq 1548-ci ildə elçisi Hacı Cəlaləddin Mahmudu Səfəvi sarayına göndərdi. Lakin Qəndəharla bağlı bəzi problemlər səbəbindən bir il sonra bu elçi geri çağırılmışdır[698].

Hümayun h. 956-957 ci illərdə (1549-1550) öz maliyyə vəziri Şeyx Əlini Səfəvi sarayına göndərmiş və məktubda qardaşı Kamran Mirzənin hərəkətləri barədə müfəssəl məlumat vermişdi. Şah I Təhmasib Kəmaləddin Uluq bəy Ərəbgirli ilə göndərdiyi cavab məktubunda Kamran Mirzəyə qarşı sərt olmağı məsləhət görmüş, lazım olduqda hərbi qüvvə ilə kömək edəcəyini vəd etmişdi[699].

---

695 Zeynalabidin Əli Əbdi bəy Şirazi, *Təkmilətül-əxbar.*, s.142.

696 А. Фарзалиев и Р. Мамедова, *Сефевиды и Великие Моголы в мусульманской дипломатии.*, с.68.

697 R. Islam, *Indo Persian relations.*, p.46.

698 R. Islam, *a.g.ə.,* p.46; А. Фарзалиев и Р. Мамедова, *a.g.ə.,* с.69.

699 А. Фарзалиев и Р. Мамедова, *a.g.ə.,* с.69; R. Islam, *a.g.ə.,* с.46.

Hümayun h. 958-ci ildə (1551) Hacı Qazi başda olmaqla Səfəvi sarayına növbəti bir elçi heyəti göndərdi. Elçi heyəti 961-ci ildə (1554) geri qayıtdı. Şah I Təhmasib moğol elçi heyəti geri qayıdarkən Hümayuna kiçik məzmunlu bir məktub göndərmişdi. Məktubda h. 956-cı ildə (1549) Əlqas Mirzənin qiyamını yatırmasından, onun Kamran Mirzə ilə əlaqəsindən məlumat vermişdi[700].

H. 960-cı ilin yayında (1553) Şah I Təhmasib tərəfindən Kəmaləddin Uluq bəyin başçılığı ilə göndərilən qızılbaş elçiləri müxtəlif hədiyyələrlə Hümayun sarayına gəlmişdi. Bu elçi heyəti Hümayunun hakimiyyəti dövründə Səfəvi sarayından gələn sonuncu elçilik idi[701].

Qeyd edık ki, XVI əsrin otralarında Səfəvi-Moğol diplomatik əlaqələri intensivləşmişdir. Bu intensivlik bir tərəfdən Qəndəhar probleminin diplomatik yolla həlli məqsədini daşıyır, digər tərəfdən bölgədə baş verən siyasi hadisələrdə əməkdaşlıq zərurətindən irəli gəlirdi. Lakin 1553-1556-cı illərdə bu münasibətlərdə passivlik müşahidə olunurdu. Çünki Şah I Təhmasibin osmanlılarla apardığı müharibələr, eyni zamanda Hümayunun Hindistanı tamamilə işğal etmək planları Səfəvi-Moğol diplomatik əlaqələrinin zəifləməsinə səbəb olmuşdu.

Moğol hökmdarı Hümayun h. 963-cü ilin zilhiccə ayında (25 sentyabr/1556) vəfat etdi. Onun ölümündən sonra Moğol taxtına onun 14 yaşlı oğlu Cəlaləddin Əkbər oturdu[702].

Əkbər şahın hakimiyyəti dövründə (1556-1605) də səfəvilərlə moğollar arasında siyasi əlaqələr davam edirdi. Səfəvi dövləti ilə Böyük Moğol dövləti arasında diplomatik münasibətləri gücləndirmək məqsədi ilə Moğol sarayında "xanlar xanı" titulu-

---

[700] R. Islam, *a.g.ə.,* c.46.

[701] А. Фарзалиев и Р. Мамедова, *a.g.ə.,* c.69; R. Islam, *a.g.ə.,* c.47.

[702] Zeynalabidin Əli Əbdi bəy Şirazi, *Təkmilətül-əxbar.,* s.143; *История Востока (Восток на рубеже средневековья и нового времени-XVI-XVIII вв.),* Т.3., с.155; H. Bıyıktay, *Timurlular zamanında Hindistan Türk imparatorluğu.*, s.59.

nu daşıyan Bayram xan, elçisi Qazi Sultanı Səfəvi sarayına göndərmişdi. Şah I Təhmasib moğol elçisini hörmətlə qarşılamış və ona “əmir” titulu vermişdi[703].

Əkbər şahın hakimiyyətinin ilk illərində Qəndəhar məsələsi yenə də səfəvilərlə moğollar arasında siyasi gərginliyə səbəb oldu. Davər hakimi Bahadur xan h. 963-cü ildə (1556) Qəndəharı zəbt etdi. Şah I Təhmasib Sultan Hüseyn Mirzəni və Vəli Xəlifə Şamlunu qoşunla oraya göndərdi. Tezliklə Bahadur xanın ordusu məğlub oldu və qızılbaş ordusu Davər vilayətini ələ keçirdi[704].

H. 965-ci ildə (1558) Şah I Təhmasib Qəndəharı tutmaq üçün Əli Sultan Tatıoğlu Zülqədərin başçılığı ilə qoşun göndərdi. Qızılbaşlar 6 aylıq muhasirədən sonra Qəndahar vilayətini ələ keçirdilər. Səfəvi hökmdarı vilayətin hakimliyini oğlu Sultan Hüseyn Mirzəyə tapşırdı[705]. Qəndəhar ələ keçirildikdən sonra Səfəvi-Moğol münasibətlərində yenidən soyuqluq yarandı.

Şah I Təhmasib moğollarla siyasi münasibətləri gücləndirmək məqsədilə 1562-ci ildə Moğol sarayına Seyid bəy Səfəvinin başçılığı ilə növbəti bir elçi heyəti göndərdi. Bu elçi heyətinin məqsədi Əkbər şaha atası Hümayunun vəfat etməsi münasibətilə başsağlığı vermək və Əkbər şahı taxta çıxması münasibətilə təbrik etmək idi. I Şah Təhmasib Əkbər şaha yazdığı məktubda özünün Hümayunla dostluğunu xatırladır, Əkbər şahı taxta çıxması münasibətilə təbrik edir və diplomatik əlaqələrin davam etdirilməsini arzu etdiyini bildirirdi[706].

Əkbər şah Səfəvi hökmdarının bu diplomatik addımına hər hansı formada cavab vermədi. Çünki Qəndəharın qızılbaşlar tə-

---

703 А. Фарзалиев и Р. Мамедова, *a.g.ə.,* с.70.

704 Xanbaba Bəyani, *Tarixe nezamiye İran dər doreye Səfəviyye*., s.451.

705 Xanbaba Bəyani, *a.g.ə.,* s.452; А. Фарзалиев и Р. Мамедова, *a.g.ə.,* с.71; H. Cəbbari, *Qəndhar və nəqşe an dər rəvabete por fərazo nəşib miyane İran və Hendustan.,* s.222.

706 R. Islam, *a.g.ə.,* p.49; N. Fəlsəfi, *Zendeqaniye Şah Abbase əvvəl, Celde əvvəl, moqəddemate səltənəte u əz veladət ta padşahi*., s.216.

rəfindən tutulması Əkbər şahın Səfəvi sarayına diplomatik cavab elçiliyi göndərməsinə maneə olurdu.

Şah I Təhmasib 1564-cü ildə Moğol sarayına yeni bir elçi heyəti göndərdi. Məktub və hədiyyələrlə gələn bu elçi heyətinə Əkbər şah sarayında lazımi səviyyədə isti münasibət göstərilmədi. Səfəvi hökmdarı Moğol hökmdarına göndərdiyi bu məktubda da Hümayunla dostluq əlaqələrindən bəhs edərək bu əlaqələrin davam etməsini arzu etdiyini bildirmişdi. Moğol sarayında soyuq qarşılanan Səfəvi elçi heyəti həmin ildə də geri qayıtdı[707].

Qeyd olunduğu kimi, Şah I Təhmasib moğollarla siyasi münasibətləri gücləndirmək üçün diplomatik addımlar atmasına baxmayaraq, buna nail olmaq mümkün olmadı. Əkbər şah Moğol sarayına gəlmiş Səfəvi elçilərini qəbul etsə də, Səfəvi sarayına cavab elçiliyi göndərməyə tələsmirdi. Çünki Əkbər şahın Səfəvi sarayına elçi göndərməsi atası Hümayun tərəfindən səfəvilərə "hədiyyə" edilən Qəndəharın Səfəvi torpağı olduğunu təsdiq etməsi demək idi. Moğol hökmdarı isə bunu istəmir, əksinə imkan düşən kimi Qəndəharı Moğol dövlətinin tərkibinə daxil etməyə çalışırdı. Eyni zamanda Moğol hökmdarı səfəvilərlə münasibətləri də korlamaq istəmirdi. Çünki Şah I Təhmasib zamanında da Səfəvi dövləti hərbi-siyasi cəhətdən qüdrətli və güclü mərkəzi hakimiyyətə malik bir dövlət idi.

Qeyd edək ki, bu dövrdən etibarən Səfəvi hakimiyyəti ilə Moğol sarayı arasında siyasi-diplomatik əlaqələr özünün böhran dövrünü yaşayırdı.

Səfəvi dövrü tarixçisi İsgəndər bəy Münşi Türkman Şah Təhmasiblə Əkbər Şah arasında soyuqluğu bu şəkildə qeyd etmişdir: "Məhəmməd Əkbər padşahın səltənət və hökmranlığı Hindistanda bərqərar olandan sonra dostluq qapıları bağlandı, onların arasındakı yazışma və gediş-gəliş kəsildi. Həzrət cənnətməkan şahın başına gələn vaqiədən sonra Səfəvi məmləkətlərində cürbəcür hadisələr baş verdiyi üçün yaxşı dostlara xas olan

[707] А.Фарзалиев и Р. Мамедова, *a.g.ə.,* с.72; С. Азимджанова, *Государство Бабура в Кабуле и Индии.*, с.53.

ülfət, aşinalıq və dostanə hal-əhval tutma ənənəsi yerinə yetirilmədi, uzun müddət aralarında get-gəl yolu bağlandı"[708] .

XVI əsrin ikinci yarısından başlayaraq Şeybani hökmdarı II Abdulla xan Moğol dövləti ilə siyasi əlaqələri gücləndirməyə başladı. II Abdulla xanın bu siyasətinin arxasında səfəvilərə düşmənçilik münasibətləri dayanırdı. Onun məqsədi vaxtilə səfəvilərin şeybanilərə vurduğu zərbənin əvəzini çıxmaq və Xorasanı Özbək dövlətinin tərkibinə qatmaq idi. Bunun üçün isə Özbək hakiminin Əkbər şahın dəstəyinə ehtiyacı var idi. Çünki səfəvilərlə moğollar arasında olan dostluq münasibətləri II Abdulla xanı çox narahat edir, Səfəvi-Moğol yaxınlaşmasının Buxara üçün böyük təhlükə olduğunu nəzərə alaraq bu münasibətləri pozmağa çalışırdı.

Bu məqsədlə II Abdulla xan 1572-ci ildə Xoca Altamışın başçılığı altında Hindistana bir elçi heyəti göndərdi. Moğol sarayına gələn Buxara elçiliyi Əkbər şaha Abdulla xanın məktubunu və qiymətli hədiyyələri təqdim etdi. Məktubda II Abdulla xan Orta Asiya ilə Hindistan arasında keçmişdə yaxşı münasibətlər olduğunu xatırladaraq iki dövlət arasında dostluq münasibətlərini bərpa etmək və daha da möhkəmləndirmək istədiyini bildirirdi[709]. Moğol sarayında özbək elçisi hörmətlə qarşılansa da, lakin səfəvilərlə münasibətlərin korlanmasını istəməyən Əkbər şah II Abdulla xanın təkliflərinə konkret şəkildə münasibət bildirmədi.

Şah I Təhmasibin ölümündən sonra (1576), Səfəvi hökmdarları Şah II İsmayıl (1576-1578) və Sultan Məhəmməd Xudabəndənin hakimiyyəti zamanı (1578-1587) Səfəvi dövləti ilə Böyük Moğol dövləti arasındakı diplomatik əlaqələr haqqında geniş məlumat yoxdur. Bizə yalnız Səfəvi hökmdarı Məhəmməd

---

[708] İsgəndər bəy Münşi, *Dünyanı bəzəyən Abbasın tarixi*, I kitab., s.809-810.

[709] А. Антонова, *Очерки общественных отношений и политического строя Моголиской Индии времен Акбара (1556-1605).*, с.235; С. Азимджанова, *Государство Бабура в Кабуле и Индии.*, с.51.

Xudabəndinin Hindistana hərbi kömək üçün bir elçi heyəti göndərdiyi məlumdur[710].

Osmanlı imperiyası ilə müharibə aparan Şah Məhəmməd Xudabəndə 991-ci ildə (1583) elçisi Sultanqulu bəy Çandanoğlunu Moğol sarayına göndərmişdi. Moğol sarayına gələn elçi Əkbər şahdan osmanlılara qarşı hərbi kömək istəmişdir. Əkbər şah səfəvilərə kömək bəhanəsilə Xorasana ordu yeritmək istəmiş, lakin sonra bu niyyətin təhlükəli olduğunu nəzərə alaraq həyata keçirməkdən imtina etmişdir[711].

Şah I Təhmasibin ölüm xəbəri məlum olduqdan sonra II Abdulla xan daha da fəallaşdı. II Abdulla xan 1577-ci ildə özünün ikinci elçisi Əbdürrəhimi Əkbər şahın yanına göndərdi. Bu elçi vasitəsilə o, Əkbər şaha Səfəvi dövlətinin ərazilərini (Xorasan, İraq, Fars) Şeybani və Moğol dövləti arasında bölməyi təklif edirdi[712]. Bu təklifi maraqla qarşılayan Əkbər şah danışıqları davam etdirmək üçün elçisi Mirzə Fulatı Əbdülrəhimlə birlikdə II Abdulla xanın yanına göndərdi. 1578-ci ildə bu elçi II Abdulla xan tərəfindən Zamində qəbul edildi. Moğol elçisi II Abdulla xana Əkbər şahın dostluq məktubunu və qiymətli hədiyyələrini təqdim etdi. Məktubda Buxara ilə dostluq siyasətinə böyük əhəmiyyət verilsə də, Əkbər şah səfəvilərə qarşı müharibə təklifini qəbul etmədiyini bildirdi[713].

Göründüyü kimi, II Abdulla xanın bu diplomatik cəhdləri hələlik elə bir nəticə verməmişdi. Çünki bu dövrdə Əkbər şah

---

[710] А. Фарзалиев и Р. Мамедова, *a.g.ə.,* с.75.

[711] T. Nəcəfli, *Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti (Türkiyə tarixşünaslığında),* Bakı, Turxan NPB, 2020, s.229; Xanbaba Bəyani, *Tarixe nezamiye İran dər doreye Səfəviyye.,* s.430; R. Islam, *Indo Persian relations.,* p.51; N. Fəlsəfi, *Zendeqaniye Şah Abbase əvvəl. Celde əvvəl, moqəddemate səltənəte u əz veladət ta padşahi*., s.216.

[712] R. Ağayev, *Azərbaycan və Mərkəzi Asiya dövlətlərinin qarşılıqlı münasibətləri.,* s.117.

[713] R. Islam, *a.g.ə.,* p.52; 192; И. Низамутдинов, *Из истории Среднеазиатско-индийских отношений IX-XVIII вв.,* Ташкент, Узбекистан, 1969, с.55.

səfəvilərlə müharibəyə hazır deyildi. Bu dövrdə Moğol dövlətinin əksər hissəsi onun hakimiyyəti altında olsa da, bəzi əyalətlər, xüsusilə səfəvilərlə həmsərhəd olan Sistan və Mekran tamamilə nəzarətdə deyildi. Əkbər şahın Kabildə də hakimiyyəti möhkəm deyildi. Öz daxili problemləri ilə məşğul olan Moğol hökmdarı səfəvilərə qarşı müharibədən ehtiyat edirdi. Ona görə də Buxara sarayına gələn Moğol elçisinin əsas vəzifəsi diplomatik yolla Bədəxşan üzərində olan özbək təhlükəsini aradan qaldırmaq idi[714].

II Abdulla xanın Moğol sarayına göndərdiyi üçüncü elçi Mir Qureyş 1586-cı ilin mart ayında Əkbər şah tərəfindən qəbul edildi və Özbək hökmdarının məktubu ona təqdim olundu. Məktubda deyilirdi ki, Abdulla xan tezliklə qızılbaşlara qarşı hücuma keçmək arzusundadır. Səfəvilərə qarşı mübarizədə Əkbər şah ya Abdulla xanı müdafiə etməli, ya da tərəfsiz qalmalı idi. Danışıqları davam etdirmək üçün Əkbər şah öz elçiləri Hakim Hümam və Sədr Cahanı cavab məktubu ilə Buxaraya yola saldı[715]. Hər iki dövlət arasında aparılan danışıqlardan sonra şeybanilərlə moğollar arasında səfəvilərə qarşı gizli müqavilə bağlandı. Bu müqaviləyə görə, şeybanilərlə moğollar Səfəvi dövlətinə qarşı birgə yürüş etməli və səfəvilərin şərq əraziləri ələ keçirilərək tərəflər arasında bölünməli idi. Razılaşmaya görə, Səfəvi dövlətinə məxsus Qəndəhar Moğol dövlətinə, Xorasan isə Şeybanilər dövlətinin ərazisinə birləşdirilməli idi[716].

Səfəvilərlə müharibəyə hazırlaşan II Abdulla xan, Osmanlı dövləti ilə də əlaqələri möhkəmləndirməyə çalışırdı. Bu məqsədlə 1587-ci ilin avqust ayında II Abdulla xanın elçisi məktub və hədiyyələrlə Osmanlı sarayına gəlmişdi[717].

---

[714] И. Низамутдинов, *Из истории Среднеазиатско-индийских отношений IX-XVIII вв.*, с.56-57.
[715] R. Ağayev, *a.g.ə.,* s.118; R. Islam, *a.g.ə.,* p.53.
[716] Д. Арапов, Из истории политических взаимоотношений Средней Азии и Ирана в конце XVI века, Вестник МГУ, Серия IX, *История, 1969, №1*, с.76.
[717] Mustafa Əfəndi Selaniki, *Tarix-i Selaniki 1563-1600.,* s.27.

Özü üçün əlverişli beynəlxalq şərait yaradan II Abdulla xan 1587-ci ilin ikinci yarısında Xorasan uğrunda mübarizəyə başladı. Artıq özbəklər tərəfindən H. 996-cı ildə (17 fevral/1588) Herat tutuldu. 1593-cü ilə kimi təşəbbüsü əldə saxlayan şeybanilər bütün şimal-şərqi Xorasanı əldə saxlaya bildilər[718].

Herat və Məşhəd şəhərlərini tutduğuna baxmayaraq, II Abdulla xan səfəvilərə qarşı hücumu davam etdirə bilmədi. Yeni Səfəvi hökmdarı I Şah Abbas tez bir zamanda daxili çəkişmələrə son qoyaraq bütün əyalətlərdə hakimiyyətini möhkəmləndirdi[719]. 1590-cı ildə Osmanlı dövləti ilə sülh müqaviləsi bağlayan Şah I Abbas (1587-1629) Səfəvi dövlətinin böyük bir hissəsini Osmanlı imperiyasına güzəştə gedib əsas diqqətini Xorasana yönəltdi[720].

Şah I Abbas hakimiyyətə gəldikdən sonra ilk növbədə Moğol dövləti ilə diplomatik əlaqələri bərpa etmək qərarına gəldi. Şah I Abbasın Moğol hökmdarı Əkbər şahla diplomatik əlaqələri hələ Xorasan hakimi olarkən yaranmışdı. 1583-cü ildə o, Moğol sarayına Mürşüd Təbrizinin başçılığı ilə bir elçi heyəti göndərmiş və özbəklərə qarşı mübarizədə Moğol hökmdarından kömək istəmişdi. Lakin Əkbər şah özbəklərlə aparılan danışıqları nəzərə alaraq onun istəyinə etinasız yanaşmışdı[721].

I Şah Abbas H. 999-cu ildə (1591) Yadigar Əli Sultan Rumlunun başçılığı altında məktub və hədiyyələrlə Moğol sarayına bir elçi heyəti göndərdi. Bu elçilik Xorasanda özbəklərə qarşı mübarizədə Əkbər şahdan hərbi kömək almağa nail olmalı idi[722].

---

[718] R. Ağayev, *a.g.ə.,* s.119.

[719] А. Фарзалиев и Р. Мамедова, *Сефевиды и Великие Моголы в мусульманской дипломатии.*, с.78.

[720] R. Ağayev, *a.g.ə.,* s.119; O. Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti.,* s.179; *История Востока (Восток на рубеже средневековья и нового времени-XVI-XVIII вв.),* Т.3., с.108.

[721] N. Fəlsəfi, *Zendeqaniye Şah Abbase əvvəl. Celde əvvəl, moqəddemate səltənəte u əz veladət ta padşahi.*, s.217; А. Фарзалиев и Р. Мамедова, *a.g.ə.,* с.78.

[722] N. Fəlsəfi, *a.g.ə.,* s.218; Xanbaba Bəyani, *Tarixe nezamiye İran dər doreye Səfəviyye...* s.430; R. Islam, *a.g.ə.,* p.56.

Şah I Abbasın Moğol hökmdarına yazdığı bu məktubda səfəvilər və moğollar arasında uzun müddət davam edən dostluq əlaqələrindən danışılaraq qeyd olunurdu ki, "Bütün bu səmimi arzulardan sonra Sizin diqqətinizə çatdırırıq ki, hamıya mənim rəhmətlik babamla sizin şərəfli və qüdrətli atanızın dostluğu birliyinin səbəbləri aydındır. Hümayun həzrətləri bizim yanımıza gələndə iki xoşbəxt hökmdar möhkəm ittifaq bağladılar və bu ittifaqın onlardan sonra da davam edəcəyinə, saxlanmasına inam bildirdilər. Bu şöhrətli hökmdarlar taxtda olduqları zaman bu əhdi, ittifaqı çox şərəflə yerinə yetirirdilər. Onlar daim dostluq münasibətlərini möhkəmləndirmək üçün tədbirlər görür, məktub və elçiliklərlə əlaqə saxlayırdılar. O dövrün məşhur hökmdarları belə onların bu dostluğuna həsəd aparırdı"[723].

Məktubun sonunda Şah I Abbas yazırdı: "Biz həmişə dostluq münasibətlərini qoruyub saxlayacağıq və əgər Əkbər həzrətləri çətin məsələlərin həllində hər hansı bir məsləhət verərsə, biz onu yerinə yetirməyə çalışacağıq"[724]. I Şah Abbas Əkbər şaha məktubla yanaşı şifahi xəbər də göndərmişdi. Həmin xəbərdə deyilirdi ki, "Abdulla xan Xorasana basqın edib və şah onu dəf etməklə məşğuldur. Sülalələrimiz arasındakı köhnə müttəfiqliyə və ittifaqa əsasən biz intizar çəkirik ki, o tərəfdən (Əkbərdən) bizə kömək göndərilsin və əgər zahiri yardımdan imtina edərlərsə, heç olmazsa hüsn və rəğbəti bizdən əsirgəməsinlər.

Lakin Moğol hökmdarı Səfəvi hakimiyyətinə cavab verməyə tələsməmiş, elçi heyəti 4 il Moğol sarayında qalmışdır[725]. Görünür ki, Əkbər şah bu dövrdə Abdulla xanla münasibətləri körlamaq istəmirdi. Moğol imperatoru həmin dövrdə hər iki tərəflə, həm səfəvilər, həm də özbəklərlə eyni zamanda dostluq siyasəti yeridərək öz bitərəfliyini saxlamağa çalışırdı.

---

[723] Z. Sabetiyan, *Əsnad və namehaye tarixiye doreye Səfəviyye,* Tehran, Enteşarate daneşqahe Tehran, 1343, s.280-290; А. Фарзалиев и Р. Мамедова, *a.g.ə.,* c.119.

[724] Z. Sabetiyan, *a.g.ə.,* s.280-290; N. Fəlsəfi, *a.g.ə.,* s.218.

[725] Xanbaba Bəyani, *a.g.ə.,* s.431.

Bu dövrdə Moğol dövlətinin bölgədə balanslaşdırılmış siyasət yeritməsinə baxmayaraq, onların da şeybanilərlə siyasi maraqlarının toqquşduğu məqamlar var idi. Belə ki, Özbək hökmdarı II Abdulla xanın (1583-1598) siyasi yüksəlişi Əkbər şahın dövlət mənafelərinə uyğun gəlmirdi. Çünki moğolların Məvarənnəhrdə olan irsi torpaqlarını şeybanilərdən geri almaq ümidi Moğol-Şeybani siyasi münasibətlərinə kölgə salırdı. Digər tərəfdən Şeybani xanları ənənəvi Səfəvi-Moğol dostluq münasibətlərini pozmağa cəhd edərək hər iki dövlətə qarşı olan torpaq iddialarını gerçəkləşdirməyə çalışırdı. Bu səbəbdən moğollarla şeybanilər arasında mövcud olan diplomatik münasibətlər zahiri xarakter daşıyırdı.

Səfəvilərlə moğollar arasında münaqişə mənbəyinə çevrilən Qəndəhar vilayəti Şah I Abbasın hakimiyyəti dövründə də, hər iki dövlət arasında mübahisəli ərazi olaraq qalırdı. Əvvəllər Qəndəhar vilayətini Sultan Hüseyn Mirzə idarə edirdi. Onun ölümündən sonra Şah I Abbas bu ərazini oğlanları arasında iki hissəyə bölərək Qəndəharı Müzəffər Hüseyn Mirzəyə, Harmisir və Zamin-Davəri isə Rüstəm Mirzənin idarəsinə verdi. Lakin Qəndəhar vilayətinə daxil olan Sistan ərazisi üstündə qardaşlar arasında başlayan narazılıqdan istifadə edən özbəklər Zamin-davərı ələ keçirdilər. Bu zaman Rüstəm Mirzə Moğol sarayına gələrək Əkbər şaha sığınır (sentyabr/1593). Əkbər şah onu hörmət və ehtiramla qəbul edərək Multan vilayətinin idarəçiliyini ona tapşırdı. Bir qədər sonra şeybanilər Sistan və Qəndəhar üzərinə də öz təzyiqini artırırlar. Bu zaman Əkbər şah Hüseyn Mirzənin yanına elçi göndərərək ona Qəndəharı moğol hakimiyyətinin idarəçiliyinə verməyi, əvəzində Hindistanda istənilən ərazinin hakimliyini təklif etdi. Hüseyin Mirzə Əkbər şahın təklifini qəbul edərək Qəndəharı moğolların ixtiyarına verdi[726]. Beləliklə, 1595-ci ildə Qəndəhar Böyük Moğol dövlətinin tərkibinə qatıldı[727].

---

[726] С. Азимджанова, *Государство Бабура в Кабуле и Индии.*, с.77.
[727] H. Cəbbari, *Qəndhar və nəqşe an dər rəvabete por fərazo nəşib miyane İran və Hendustan.*, s.222.

Qəndəhar vilayəti moğollar tərəfindən ələ keçirildikdən sonra Moğol sarayında dörd il saxlanan səfəvi elçisi Yadigar Sultan Rumluya geri qayıtmağa icazə verildi. O, Mirzə Ziyaəddinin rəhbərlik etdiyi moğol elçi heyəti ilə birlikdə geriyə Şah I Abbasın sarayına məktubla yola salındı. Mirzə Ziyaəddinin rəhbərlik etdiyi elçi heyəti Əkbər şah tərəfdən Səfəvi dövlətinə göndərilən ilk böyük elçilik idi. Elçi heyəti 1596-cı ildə Səfəvi sarayına gələrək Əkbər şahın məktubunu Şah I Abbasa təqdim etdi[728].

Əkbər şahın Şah I Abbasa yazdığı bu məktubda o, Səfəvi hökmdarından məktub aldığı üçün ona öz təşəkkürünü bildirir və etiraf edirdi ki, o, Şah Abbasa bu məktubu əvvəl yazmalı idi. Lakin Hindistan daxilində işləri sahmana salmaqla məşğul olduğuna görə gec məktub yazmaq məcburiyyətində qalmışdı. Məktubda Əkbər şah Qəndəharın tutulması səbəblərini geniş şəkildə izah edir və Qəndəharın tutulmasından sonra da səfəvilərlə dostluq əlaqələrini saxlamaq arzusunda olduğunu bildirirdi. Əkbər şah məktubda səfəvilərə hər hansı hərbi kömək göstərilməməsinin səbəbini izah edərək bildirirdi ki, onun bu addımı bölgədə anlaşılmazlıq yarada bilərdi. Həmçinin Moğol hökmdarı Şah I Abbasdan Səfəvi dövlətindəki işlər barədə ona daim məlumat verilməsini xahiş edirdi. Əkbər şah II Abdulla xana münasibətini izah edərək yazırdı ki, "sülh axtarana qarşı müharibə başlamaq olmaz"[729].

Şəfəvi hökmdarı Şah I Abbas h. 1007-ci ildə (oktyabr/1598) Əkbər şahın elçiləri ilə birlikdə, Mənuçöhr bəy Eşikağasıbaşının rəhbərliyi ilə Moğol sarayına növbəti elçi heyəti göndərdi[730]. Hatəm bəy Ordubadi tərəfindən tərtib edilmiş məktubu Əkbər şaha aparan bu elçilik 1598-ci ildə Hindistana gəldi və Əkbər şah tərəfindən hörmətlə qəbul edildi[731].

---

[728] Xanbaba Bəyani, *a.g.ə.,* s.431; R. Islam, *a.g.ə.,* p.61-62; А. Фарзалиев и Р. Мамедова, *a.g.ə.,* с.82

[729] А. Фарзалиев, и Р. Мамедова, *a.g.ə.,* с.81.

[730] Xanbaba Bəyani, *a.g.ə.,...* s.431; R. Islam. *a.g.ə.,* p.64.

[731] А. Фарзалиев и Р. Мамедова, *a.g.ə.,* s.83.

Şah I Abbasın Əkbər şaha göndərdiyi bu məktubda yenə də səfəvilər və moğollar arasında ənənvi dostluq münasibətlərindən bəhs olunurdu: "Allaha şükür olsun ki, sələflərimiz tərəfindən əkilən acağlar zaman keçdikcə böyüyür və öz bəhrəsini verir. Bizim dostluğumuzun yeni təzahürü sənin məktubun oldu. Orada bizə zəruri olan xeyli dəyərli məsləhətlər var idi. Bu məsləhətlər bizə dövlət və idarə işlərini, dini məsələləri və xalqın həyatını qaydaya salmaqda kömək etdi"[732].

Şah I Abbas məktubda daha sonra Şah I Təhmasibin ölümündən sonra yeridilən siyasət və xarici dövlətlərlə münasibətlər barədə məlumat verir. O, Şah Məhəmməd Xudabəndə zamanı ölkədə baş alıb gedən anarxiyadan, Xorasanın işğal edilməsindən, səfəvilərin qərb sərhədlərində daim gərginlik olduğu barədə də moğol imperatoruna yazırdı. Daha sonra o, Osmanlı sultanı ilə sülh bağladığından Xorasanı geri almaq üçün özbəklərə qarşı müharibə hazırlıqlarından yazır və bu işdə Əkbər şahdan xeyir-dua almaq istəyini bildirirdi[733].

Moğol sarayına gələn Səfəvi elçiləri burada böyük hörmət və ehtiramla qarşılansa da, bu dəfə də Əkbər şah elçi heyətini 4 il öz sarayında saxladı. Yalnız h. 1011-ci ilin rəcəb ayında (oktyabr/1603) Moğol hökmdarı öz elçisi Mirməhəmməd Məsum Bəkri ilə birgə Səfəvi elçilərini geri göndərdi. Onlar Şah I Abbas İrəvanda osmanlılara qarşı vuruşarkən onun yanına gəldilər. Səfəvi hökmdarı Moğol imperatorunun onun səfirini lazımsız olaraq 4 il saxladığı üçün moğol elçisinə lazımı səviyyədə ehtiram göstərmədi və yalnız h. 1013-cü ilin məhərrəm ayında (iyun/1604) İrəvan qalasının fəthindən sonra elçiyə qayıtmağa icazə verdi[734].

Özbək hökmdarı II Abdulla xanın vəfatı (1598) və ardınca da varisi Əbdülmömin xanın öldürülməsindən sonra Buxarada siyasi vəziyyət gərginləşdi. Şah I Abbas dərhal özbəklərin bu

---

[732] А. Фарзалиев и Р. Мамедова, *a.g.ə.,* s.125.
[733] А. Фарзалиев и Р. Мамедова, *a.g.ə.,* s.126-127.
[734] Xanbaba Bəyani, *a.g.ə.,* s.431; R. Islam, *a.g.ə.,* p.65-66.

qarışıq vəziyyətindən istifadə edərək Xorasana gəlib onun çox hissəsini tutdu. Səfəvi qoşunları Şeybani xanı Din Məhəmmədi 1598-ci ilin avqust ayında Puli-Salar kəndi yaxınlığında məğlubiyyətə uğradaraq Herata daxil oldu. Bununla da Xorasan özbəklərdən tamamilə təmizləndi. Şah I Abbas, Moğol hökmdarı Əkbərlə ona "ata" deyəcək səviyyədə dostluq münasibətləri olduğundan Qəndəhara qoşun çəkməmiş, bu problemi danışıqlar yolu ilə həll etməyə çalışmışdır[735].

Heratda olarkən Səfəvi hökmdarı, elçisi Mirzə Əli bəy Qaramanlı ilə Əkbər şaha bir məktub göndərdi[736]. O, bu məktubda özbəklər üzərində qələbə xəbərini Moğol hökmdarına çatdırır və eyhamla işarə edirdi ki, "düşmənlərin əlində olan bütün Xorasan məmləkətinin idarəçiliyini öz əlimizə götürmüşük, Qəndəharı da öz idarəçiliyimizə yad saymırıq"[737].

Şah I Abbasın Moğol hökmdarına diplomatik tərzdə yazdığı bu məktubda Qəndəharın geri verilməsini istəmişdi. Lakin Əkbər şah öz mövqeyinə və Şah I Abbasın ehtiyatlı siyasətinə arxayın olaraq onun Qəndəharla bağlı bu fikrinə məhəl qoymamışdı. Eyni zamanda Əkbər şah, Səfəvi hökmdarının bu istəyindən məmnun qalmayaraq Səfəvi elçisini uzun müddət Moğol sarayında saxlamışdı.

Bu dövrdə Şah I Abbas Qəndəhar məsələsini yenə də həll edə bilmədi. O, Moğol sarayı ilə dostluq münasibətlərinin Səfəvilər dövləti üçün vacib olduğunu nəzərə alaraq Əkbər şahın hakimiyyəti dövründə Qəndəharın Moğol dövlətinin tərkibində qalması ilə barışmağa məcbur oldu.

Yalnız Moğol hökmdarı Nurəddin Şah Cahangirin dövründə Şah I Abbas, h.1031-ci ildə (1622) Qəndəhara yürüş edərək bu məntəqəni Səfəvilər dövlətinin tərkibinə daxil etdi[738].

---

735 H. Cəbbari, *Qəndhar və nəqşe an dər rəvabete por fərazo nəşib miyane İran və Hendustan...* s.222.

736 А. Фарзалиев и Р. Мамедова, *a.g.ə.,* s.84.

737 H. Cəbbari, *a.g.ə.,* s.222.

738 H. Cəbbari, *a.g.ə.,* s.223; *История Востока (Восток на рубеже средневековья и нового времени-XVI-XVIII вв.),* т.3., с.164.

XVI əsrdə Səfəvi dövləti ilə Böyük Mogol dövləti arasında siyasi rəqabət meydanına çevrilən bölgələrdən biri də Dekan bölgəsi idi. Dekan bölgəsi də Qəndəhar kimi Səfəvi dövləti ilə Böyük Moğol dövlətinin strateji maraqlarının toqquşduğu bir ərazi idi. Dekanda səfəvilərlə moğollar arasındakı siyasi rəqabət bu bölgənin strateji əhəmiyyəti ilə bağlı idi.

Hələ əsası e. ə. 1347-ci ildə Dekanda yaradılan Bahmani krallığı XV əsrin sonlarına yaxın 5 müstəqil əmirliyə parçalanmışdı: Berar, Bidar, Əhmədneqar, Bicapur və Qolkəndə. Moğollar bu əmirləri heç vaxt müstəqil hökmdarlar kimi tanımamışdır. Dekanın müsəlman əmirləri Əkbər şahın hakimiyyəti zamanından başlayaraq moğolların işğalçılıq hədəfinə çevrilmişdir. Bu səbəbdən Dekan əmirləri moğolların siyasi təzyiqinin qarşısını almaq üçün həmişə Səfəvi dövlətinin köməyinə ehtiyac duyurdular. Həmçinin onları Səfəvi dövlətinə bağlayan başqa bir səbəb ümumi dini məzhəb idi. Hələ Bicapurun Adil Şah sülaləsi və Qolkəndənin Qütbşahlıq sülaləsi moğolların Hindistana gəlişindən əvvəl, Əhmədneqarın Nizamşahlıq sülaləsi isə 944/1537-38-ci ildə şiəliyi qəbul etmişdi[739].

Bəzi tədqiqatçılar Adilşahların Osmanlı sultanı II Muradın, Qütbşahların isə Qaraqoyunlu hökmdarı Cahanşahın soyundan olduğunu qeyd edirlər[740].

Bicapur hakimi Yusif Adil Şah (1490-1510), Şah I İsmayılın şiyəliyi dövlət dini elan etməsi xəbərini eşitmiş və şiəliyi qəbul etmişdi. Əhmədneqar hakimi Nizam şah isə Səfəvi dövlətindən gələn emiqrant şah Tahir Huseyni tərəfindən (944/1537/38) şiə məzhəbini qəbul etmişdi. Şiəliyin təbliğatçılarından biri olan şah Tahir Hindistanın cənubunda şiəliyin yayılmasında böyük rol oynamışdı. Bu dövrdə Qolkəndə hakim olan Qütbşahlar da şiə təriqətini qəbul etmişlər. Hətta Qütbşahlarda oxunan xütbədə Şah I İsmayılın da adı çəkilirdi[741].

---

[739] R. Islam, *Indo Persian relations*., p.92.
[740] Y. Bayur, *Hindistan tarihi,* c.1, 2 baskı, 1987, Ankara, TTK, s.440.
[741] R. Islam, *a.g.ə.,* s.92.

Səfəvi dövləti ilə Dekan əmirləri arasında diplomatik əlaqələr Şah I İsmayılın hökmranlığı dövrünə təsadüf edir.

Bicapurda şiəliyi rəsmi dini məzhəb kimi qəbul edən Yusif Adil Şah 1509-cu ildə öz elçisi Seyyid Əhməd Hərəvini qiymətli hədiyyələr və "Şah I İsmayılla birləşmək haqqında bəyannamə" ilə birlikdə Səfəvi sarayına göndərmişdi. Lakin Şah I İsmayıl bu məktuba on il sonra Bicapurda İsmayıl Adilşahın hakimiyyəti (1510-1530) dövründə 1519-cu ildə İbrahim bəy Türkman vasitəsi ilə göndərdiyi "hökmdara, şaha eşq olsun!" ifadəsi ilə başlayan məktubu ilə cavab vermiş, bununla da Bicapur hakimini hökmdar kimi tanımışdır. İsmayıl Adilşah Səfəvi şahının bu hərəkətini çox yüksək qiymətləndirmiş və "sülaləsinə şah statusu" qazandırdığını bildirmişdi. Bundan sonra İsmayıl Adilşah cümə xütbəsində Səfəvilər sülaləsi üçün duaların oxunmasını əmr etdi[742].

Adilşahlar həmişə Səfəvi hökmdarının onlara verdiyi "şah" titulu ilə öyünmüş bunu özlərinə şərəf bilmişlər. Bunu 1531/32-ci ildə İsmayıl Adilşah ilə Burhan Nizamşah arasında qarşıdurma zamanı İsmayıl Adilşahın Burhan Nizamşaha xitabından da görmək olur: "Əgər Sultan Bahadırın sizə "şah" deyə müraciət etməsi ilə öyünürsünüzsə (İlk dəfə Burhan Nizamşaha Qucarat hakimi Sultan Bahadır "şah" deyə müraciət etmişdir – M.A.), çoxdandır ki, Biz, Axır-zaman Peyğəmbərin soyundan olan Hümayun Şahın (Şah I İsmayıl-M.A.) (əzəli səltənət o xanədanındır) "şah" deyə xitabı ilə şərəfləndirilmişik. Sən isə Qucaratlıların soyu-kökü bilinməyən sürübaşısının (hökmdarının – M.A.) verdiyi adla öyünürsən"[743].

Qeyd edək ki, Bicapur sultanı İsmayıl Adilşah xarici dövlətin hökmdarı tərəfindən tanınan ilk Dekan hökmdarı olmuşdur.

Yusif Adilşahın Səfəvi dövləti ilə diplomatik əlaqələr yaratmaq üçün göndərdiyi elçisi Seyyid Əhməd Hərəvi uzun müd-

---

[742] T. Nəcəfli, *Azərbaycan Səfəvi dövlətinin Hindistanın türk-müsəlman sultanlıqları ilə əlaqələri,* Bakı, Turxan NPB, 2020, s.83-84.

[743] Y. Bayur, *Hindistan tarihi,* c.1., s.440.

dət Səfəvi sarayında Bicapurun daimi səfiri kimi fəaliyyət göstərmişdi[744].

1510-cu ildə Şah I İsmayıl Yadigar bəy Qızılbaşın başçılığı altında Dekanın müsəlman sultanlıqlarına böyük bir elçi heyəti göndərmişdi. Elçi heyətinin göndərilməsində məqsəd portuqallara qarşı mübarizəyə Dekan sultanlarını cəlb etmək idi. Səfəvi elçisi Dekanın əksər müsəlman sultanlıqlarında yüksək səviyyədə qəbul edilsə də, Qucarat hakimi Sultan I Mahmud Bigarha (1458-1511) elçini qəbul etməkdən imtina etmişdir. Lakin bu ərəfədə I Mahmud vəfat etmiş, onun yerinə taxta əyləşən oğlu Müzəffər Şah, Şah İsmayılın elcisi Yadigar bəyi qəbul edərək hədiyyələrini almış və elçilərə zərli xələt geydirmişdir[745].

Səfəvi hökmdarları Şah I Təhmasib və Şah II İsmayılın hakimiyyət illərində də Adilşahlarla əlaqələr davam etmişdir.

İsgəndər bəy Münşi, Bicapur hakimi I Əli Adilşahın Şah I Təhmasibin sarayına elçi göndərilməsi barədə yazırdı: "Dekanin böyük sultanları tərəfindən, ələlxüsus... Bicapur valisi I Əli Adilşahdan yaxşı nitq qabiliyyətinə malik elçilər dəfələrlə gələrək səmimi dostluqlarını və onların məmləkətlərində o həzrətin şanlı və təmiz adına on iki imam xütbəsi oxunduğunu izhar etmiş, töhfə və hədiyyələr gətirmişdilər. Şah I Təhmasib də onlara daş-qaşla bəzədilmiş taclardan, qızıl yəhərli atlardan, xəncər kəmərlərindən və s. ibarət xüsusi xələtlər pay vermişdi"[746].

Qeyd etmək lazımdır ki, Azərbaycan Səfəvi dövləti ilə Bicapur sultanlığı arasındakı qarşılıqlı əlaqələrdə Bicapura mühacirət etmiş və dövlətin idarə olunmasında yaxından iştirak etmiş Səfəvi əyanları – Şah Abu Turab Şirazi, Mustafa xan Ərdistani,

---

[744] T. Nəcəfli, *Azərbaycan Səfəvi dövlətinin Hindistanın türk-müsəlman sultanlıqları ilə əlaqələri.*, s.84.

[745] Y. Bayur, *a.g.ə.,* s.397.

[746] İsgəndər bəy Münşi, *Tarix-i alamara-yi Abbasi,* farscadan tərcümənin, ön sözün, şərhlərin və göstəricilərin müəllifləri O. Əfəndiyev və N. Musalı. Bakı, Təhsil, 2009, s.260-261.

Qasım bəy Təbrizi, İnayətullah Kazuini ilə yanaşı, Şah Cəfər və Şah Tahir qardaşları da mühüm rol oynamışdı[747].

Şah I Təhmasib dövründə olduğu kimi, Şah I Abbas dövründə də Səfəvi dövlətinin Bicapur sultanlığı ilə qarşılıqlı əlaqələri daha da inkişaf etdi. Şah I Abbas dövründən başlayaraq bu əlaqələr daha da genişlənmiş və tərəflər arasında mütəmadi olaraq elçilik mübadiləsi olmuşdu.

Səfəvi hakimiyyəti Qütbşahlar dövləti ilə də siyasi və diplomatik əlaqələr saxlayırdılar. Dini inanc və adət-ənənələrindəki oxşarlıq, qohumluq Səfəvi və Qütbşahlar dövlətini bir-birinə yaxınlaşdırmış, onlar arasında möhkəm diplomatik münasibətlərin yaranmasına və ticarət əlaqələrinin inkişafına gətirib çıxartmışdı. Beləliklə, dini inanc, ticarət və diplomatik əlaqələr bu iki dövlət arasında qarşılıqlı anlaşma, yaxınlıq və sıx əlaqələr üçün geniş imkanlar yaratmışdı. Qolkəndə Qütbşahları Dekanın İsnə-Əşəriyyə şiəliyini qəbul edən ikinci türk-müsəlman sultanlığı olmuşdu. Qaraqoyunlu nəslindən olan Qütbşah Sultanqulu Barani (1518 - 1543) cümə namazında oxutdurduğu xütbədə Şah I İsmayılın adını öz adından əvvələ qoyması onun vassal statusunu göstərirdi[748].

Sultanqulu Qütbülmülk hakimiyyəti dövründə Səfəvi şahları ilə sıx əlaqələr yaratmağa səy göstərirdi. O, özünümüdafiəni təmin etmək, böyük dövlətlərin təzyiqindən hakimiyyətini qoruyub saxlamaq üçün ehtiyatlı şəkildə həm Moğollar, həm də Səfəvilərlə xoşməramlı dostluq münasibətlərini davam etdirirdi.

Səfəvi hakimiyyəti ilə Qütbşahlar arasında münasibətlər Sultanqulu Qütbşahın varisləri dövründə də davam etdirilmişdi. Bu haqda İsgəndər bəy Münşi yazırdı: “Dekənin əzəmətli sultanları, xüsusilə Heydəri-Kərrar xanədanına məhəbbəti olan və özlərini pak imamların (onlara Allah-təlanın salamı olsun) şiələ-

---

[747] T. Nəcəfli, *Azərbaycan Səfəvi dövlətinin Hindistanın türk-müsəlman sultanlıqları ilə əlaqələri.*, s.92.

[748] T. Nəcəfli, *Azərbaycan Səfəvi dövlətinin Hindistanın türk-müsəlman sultanlıqları ilə əlaqələri.*, s.177-178.

ri sayan Qolkəndə və Heydərabad valisi Qütbşahın dilli-dilavər elçiləri dəfələrlə gəlib onların ölkələrində on iki imam xütbəsinin o həzrətin (Şah I Təhmasibin) adına oxunduğunu bildirir, xüsusi xələtlər, o cümlədən qiymətli daş-qaşlarla bəzənmiş tac, qızıl yəhərli atlar, xəncər kəməri və başqa şeylərdən ibarət töhfə və hədiyyələr gətirirdilər[749].

Şah I Abbasın dövründə də Qütbşahlarla siyasi-diplomatik əlaqələr davam etmişdi.

Azərbaycan Səfəvi dövlətinin Dekanın Nizamşahlar sultanlığı ilə münasibətləri 1522-ci ildə Səfəvi vaizi Şah Tahir Hüseynin Əhmədnaqarda şiəlik təbliğatını aparması nəticəsində inkişaf etməyə başlamışdı. Şah Tahirin təsiri altında Əhmədnaqar hakimi I Bürhan Nizamşah 1537-ci ildə şiəliyi rəsmi məzhəb kimi qəbul etdiyini elan etdi, xütbədən ilk üç xəlifənin adını çıxardaraq onları İsnə-Əşəriyyə İmamlarının adları ilə əvəz etdi. I Bürhan Nizamşah şiəliyi qəbul etdikdən sonra Şah I Təhmasiblə daha da yaxınlaşdı. Bu, Şah I Təhmasibin I Bürhan Nizamşaha yazdığı 1545-1546-cı il tarixli məktublarından da aydın görünür. Səfəvi şahı I Bürhan Nizamşahı Səfəvi sarayı ilə müntəzəm dostluq əlaqələrini saxlamağa çağırır və onu heç bir tərəddüd etmədən “arzularını” çatdırmağa dəvət edirdi[750].

XVI əsrin ortalarında Dekanın türk-müsəlman sultanlıqları arasında mübarizə davam etdiyi üçün Azərbaycan Səfəvi dövlətinin Nizamşahlarla münasibətləri daha intensiv xarakter daşımışdır. Dekan sultanlıqlarında xütbələrdə Şah I Təhmasibin adının xatırladılması Dekanın şiə məzhəbli sultanlıqları ilə Moğol imperiyası arasındakı münasibətlərdəki gərginliyi daha da artırdı.

Səfəvi dövləti ilə Dekan əmirləri arasında bu yaxın və getdikcə genişlənən əlaqələr Böyük Moğol dövlətinin xoşuna gəlmirdi. Lakin səfəvilərlə siyasi münasibətlərin gərginləşməsində

---

[749] İsgəndər bəy Münşi, *Dünyanı bəzəyən Abbasın tarixi*, I kitab, s.226.

[750] T. Nəcəfli, *Azərbaycan Səfəvi dövlətinin Hindistanın türk-müsəlman sultanlıqları ilə əlaqələri.*, s.283-284.

maraqlı olmayan Moğol hökmdarları Babur və Hümayun Dekana əhəmiyyət vermirdilər[751].

Əkbər şah hakimiyyətə gəldikdən sonra Moğol sarayında Dekan əmirlərinə qarşı münasibət dəyişdi. O, Dekana qarşı daha sərt siyasət yeridən ilk moğol hökmdarı idi. Bu dövrdə Dekanda hökm sürən anarxiya və müharibələr Əkbər şahın bu ərazilərə qarşı hərbi siyasətinə münbit şərait yaradırdı. XVI əsrin ikinci yarısından başlayaraq moğollar Dekan hakimlərini öz siyasi nüfuz dairəsinə almaq üçün mübarizəyə başladılar. Əkbər şahın Dekanda həyata keçirdiyi hərbi-siyasi tədbirlər nəticəsində bu bölgədə moğolların mövqeyi daha da möhkəmləndi. Bu dövrdə Səfəvi dövlətində mövcud olan siyasi böhran Səfəvi hakimiyyətinin Dekan hakimlərinə yardım etməsinə imkan vermədi. Beləliklə, Əkbər şahın hökmranlığının sonuna qədər moğollar Dekanda güc olaraq qaldılar.

Ümumiyyətlə, XVI əsrdə Azərbaycan Səfəvilər dövləti ilə Böyük Moğol dövləti arasında siyasi-diplomatik münasibətlərə yekun vuraraq onu qeyd etmək olar ki, əsası I Şah İsmayıl və Babur şah tərəfindən qoyulan bu münasibətlər ardıcıl olaraq Səfəvi və Moğol hökmdarları tərəfindən davam etdirilmişdi. Bu dövrdə Səfəvi-Moğol münasibətləri əsasən dostluq və müttəfiqlik xarakteri daşımış və inkişaf etmişdir. Hər iki dövlətin siyasi maraqlarının toqquşduğu strateji əhəmiyyətə malik olan Qəndəhar vilayəti üstündə yaranan problemlərin həllində daha çox diplomatik addımlardan istifadə olunmuş, bu problem dövlətlərarası dostluq münasibətlərinə ciddi şəkildə ziyan vurmamışdır. Digər tərəfdən hər iki dövlət arasında olan dini məzhəb fərqliliyi də bu dövlətlərin siyasi münasibətlərinə kölgə sala bilməmişdir. Bölgədə siyasi vəziyyəti düzgün dəyərləndirməyi bacaran ölkə hökmdarları dövlətin siyasi maraqlarını dini və digər maraqlardan üstün tutaraq dövlətçilik prinsiplərini qorumağa çalışmışlar.

---

[751] R. Islam, *a.g.ə.,* p.93.

## 2.4. Azərbaycan Səfəvi dövlətinin Avropa dövlətləri ilə diplomatik-siyasi münasibətləri

Səfəvilər sülaləsinin hakimiyyəti dövründə Azərbaycanla Avropa dövlətləri arasında siyasi münasibətlər davam etməkdə idi. Böyük cöğrafi kəşflər okean ticarət yolunun fəaliyyətə başlamasına səbəb oldu. Bunun nəticəsində də Şərqdə mövcud olan strateji ticarət məntəqələri və Avropa-Asiya ticarət yolları üstündə Avropanın aparıcı dövlətlərindən olan Venesiya və Portuqaliya arasında ciddi rəqabət başladı. Həmçinin Osmanlı imperiyasının qərb istiqamətində davam etdirdiyi hərbi siyasət və Aralıq dənizi ticarətində hegemon dövlət rolunda çıxış etməsi Avropa-Osmanlı ziddiyyətlərini daha da kəskinləşdirdi. Bu baxımdan Avropa dövlətləri Şərqdə öz siyasi və ticarət maraqlarını həyata keçırmək üçün bu bölgədə güclü müttəfiq axtarışında idilər. Məhz bu müttəfiq, osmanlılarla siyasi münasibətləri kifayət qədər gərgin olan və bölgənin siyasi müstəvisində mühüm rol oynayan Səfəvi dövləti idi.

Azərbaycan Səfəvi dövlətinin Qərbi Avropa ilə ilk diplomatık təması 1499-1502-ci illər Venesiya-Osmanlı müharıbəsi zamanı yarandı. Venesiya hökuməti səfəvilərlə əlaqə yaratmaq üçün öz elçisi Konstantino Laskarini Azərbaycana yola saldı. Venesiya elçisi səfəvilərin Ərzincana səfəri ərəfəsində Səfəvi sarayına gələrək Səfəvi hökmdarının Qaramana hücum edəcəyi təqdirdə, Venesiya hökumətinin ona artilleriya və hərbi gəmilərlə kömək edəcəyini bildirmişdi[752].

Lakin hadisələrin sonrakı gedişi onu göstərdi ki, hələ ölkə daxilində siyasi vəziyyətə tam nəzarət etməyən Şah I İsmayıl osmanlılarla münasibətlərin gərginləşəcəyindən ehtiyat edib Qara-

---

[752] Y. Mahmudov, *Azərbaycan diplomatiyası.*, s.132-133; G. Berchet, *La Respubblica di Venezia e la Persia*., p.22; H. İnalçik, *Osmanlı tarihine toplu bir bakış.*, s.88.

man istiqamətində hücumu davam etdirərək Venesiya ilə əlaqə yarada bilmədi[753].

Avropa dövlətlərinin siyasi və hərbi dəstəyini əldə edə bilməyən Venesiya Respublikası məcburiyyət qarşısında qalaraq 1502-ci ilin dekabr ayında Osmanlı imperiyası ilə sülh müqaviləsi bağladı[754].

Venesiya hökuməti 1503-cü ildə Moriati Erzerum adlı növbəti elçisini danışıqlar aparmaq üçün Təbrizə-Səfəvi sarayına göndərmişdi[755].

Şah I İsmayıl da Osmanlı imperiyası ilə müharibə vəziyyətində olan Venesiya ilə diplomatik əlaqələrin inkişafında maraqlı idi. Bu münasibətlə Səfəvi hökmdarı 1505-ci ilin avqustunda Suriyadakı Venesiya konsulu vasitəsilə Venesiya hökumətinə bir məktub göndərdi. Məktubda deyilirdi: "Sizə bəslədiyimiz məhəbbəti dillə ifadə etmək, qələmlə təsvir etmək, ağılla əhatə etmək mümkün deyil. Allaha ümid edirəm ki, biz tezliklə görüşəcəyik və mehriban dost olacağıq... Sizə bildirirəm ki, mən bütün Əcəm ölkəsini fəth etmişəm. Indi bu ölkə tərəqqi etməkdədir...ümid edirik ki, hələ indidən sonra da çoxlu böyük qələbələr çalacağıq"[756].

Səfəvi hökmdarı diplomatik dildə yazılmış bu məktub vasitəsilə Venesiya hökumətinə Osmanlı imperiyasına qarşı birgə mübarizə aparmağı təklif edirdi. Lakin bu dövrdə Venesiya hökumətinin siyasi və dövlət maraqları Şah I İsmayılın təklifinə uyğun gəlmədiyinə görə Venesiya hakimiyyəti bu təklifi müdafiə etmədi.

1508-ci ildə Venesiyaya məxsus bir gəmidə Şah I İsmayılın və Qaraman şahzadəsinin səfirləri Venesiyaya gəldilər. Səfirlər Venesiyada yüksək səviyyədə qarşılandılar. Səfəvi elçisi Venesiya hökuməti ilə danışıqlar zamanı bildirdi ki, odlu silah və

---

[753] Y. Mahmudov, *Azərbaycan diplomatiyası.*, s.133.
[754] G. Berchet, *La Respubblica di Venezia e la Persia.*, p.22.
[755] G. Berchet, *a.g.ə.*, p.23.
[756] Y. Mahmudov, *a.g.ə.*, s.144.

artilleriyaçılar üçün gəlmişdir və silahları İtaliya və Suriyadan keçərək aparmaq niyyətindədir. Venesiyaya təklif olunurdu ki, Yunanıstan sahillərində osmanlılara qarşı dəniz döyüşünə başlayaraq Bəyazidin diqqətini ora yönəltməlidir. Buna cavab olaraq Səfəvi dövləti öz növbəsində Kiçik Asiyada osmanlılara qarşı müharibəyə başlaya bilər. Lakin aparılan danışıqlar əməli nəticələr vermədi. Venesiya hökuməti Səfəvi dövlətinə müsbət, "nəzakətli" cavab verməklə kifayətlənərək bildirdi ki, Osmanlı imperiyasına qarşı müharibəyə razıdır, ancaq Avropadakı indiki siyasi şərait buna imkan vermir[757].

1508-ci ildə Venesiyada danışıqlar aparmış Səfəvi elçiləri geri qayıtdıqdan sonra danışıqları davam etdirmək üçün Şah I İsmayıl əslən Kiprli olan Nikolo Soror adlı bir nəfəri elçi olaraq Venesiyaya yola saldı. Lakin bu elçi Suriya ərazisində ələ keçirilərək Misir sultanının göstərişi ilə həbs edildi. Misir hakimiyyətinin bu addımı Səfəvi-Məmlük münasibətlərində ciddi siyasi gərginlik yaratdı[758].

Çaldıran döyüşü ərəfəsində də Osmanlı imperiyasına qarşı Səfəvi dövləti ilə Venesiya arasında diplomatik danışıqlar aparılsa da, bu danışıqlar nəticəsiz başa çatdı.

Bu dövrdə Şah I İsmayıl Səfəvi dövlətinin hərbi qüdrətini artırmaq və Osmanlı imperiyasına qarşı birgə mübarizə aparmaq üçün Portuqaliya ilə də diplomatik əlaqələr yaratmağa çalışırdı. Səfəvi-Portuqaliya əlaqələrinin yaranması Avropadan Hindistana dəniz yolunun kəşf olunması və Portuqaliyanın Hind okeanı hövzəsində möhkəmlənməsi ilə bağlı idi. 1507-ci ildə Ədən körfəzinin girəcəyindəki Sokotra adasını fəth edən və 1513-cü ildən Ədənin özünü ələ keçirmək uğrunda müharibələrə başlayan portuqaliyalılar əslində Hind okeanı hövzəsini Qırmızı dəniz və Mi-

---

[757] Я. Махмудов, *Взаимоотношения государств Ак-коюнлу и Сефевидов с европейскими странами.*, с.134.

[758] Y. Mahmudov, *Azərbaycan diplomatiyası, Ağqoyunlu və Səfəvi dövlətlərinin Avropa ölkələri ilə əlaqələri (XV-XVII yüzilliklər).*, Bakı, Təhsil, 2006, s.195.

sir vasitəsilə Aralıq dənizi sahilləri ilə əlaqələndirən məhşur ticarət yolunu bağladılar[759].

1507-ci ilin oktyabrında Alfonso de Albukerkenin başçılıq etdiyi Portuqaliya donanması Səfəvilər dövlətindən asılı olan və Səfəvi xəzinəsinə illik xərac verən Hörmüz əmirliyinə hücum etdi. Həmin ildə Zülqədəroğlu Əlaüddövləyə qarşı yürüşdə olan Şah I İsmayıl Hind okeanına çıxış əldə etmək və bu mühüm strateji məntəqəni portuqallardan qorumaq üçün Hörmüz əmirinə hərbi yardım göstərə bilmədi. Hörmüzlülərin ciddi müqavimətinə baxmayaraq, portuqallar bu şəhəri ələ keçirdilər. Bununla da Hörmüz hakimi Əmir Seyfəddin Portuqaliyanın asılılığını qəbul etdi[760]. Beləliklə, osmanlıların Şərqi Anadoluda, portuqalların isə Bəsrə (İran körfəzi-M.A.) körfəzindəki işğalları nəticəsində Səfəvi dövlətinin dünya ticarət sistemindəki mövqeləri nəzərəçarpacaq dərəcədə zəiflədi və Avropa-Asiya ticarət yolları üzərində nəzarət itirilmiş oldu.

Hörmüzün portuqallar tərəfindən ələ keçirilməsi ilə Hind okeanında möhkəmlənmək uğrunda Osmanlı-Portuqaliya rəqabətinin əsası qoyuldu. Bu isə Osmanlı imperiyasına qarşı Portuqaliya ilə Səfəvi dövləti arasında yaxınlaşmaya səbəb oldu[761].

Lissabon Milli Arxivində saxlanılan sənədlərdən məlum olur ki, Albukerki Hindistana vitse-kral təyin olunan zaman I

---

[759] Y. Mahmudov, *Azərbaycan diplomatiyası.,* s.149; H. İnalçik ve D. Quataert, *Osmanlı imparatorluğunun ekonomik ve sosyal tarihi (1300-1600),* türkçeye çeviren Halil Berktay, I c., İstanbul, Mart Matbaacılıq Sanatları Ltd. Şti., 2001, s.379.

[760] Э. Шахмалиев, Дипломатические отношения Испании с Сефевидским государством во второй половине XVI века, *"Ученые записки" Азербайджанского Государственного Университета, Серия истории и философии,* 1955, с.117; Y. Mahmudov, *Azərbaycan diplomatiyası.,* s.150; Ə. Vilayəti, *Şah İsmayıl Səfəvi dövründə İranın xarici əlaqələr tarixi.,* s.230-231; *The Cambridge History of Iran (The Timurid and Safavid periods).,* p.380.

[761] Y. Mahmudlu, *Azərbaycan diplomatiyası.,* s.151; O. Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti.,* s.97.

Şah İsmayıl Osmanlı imperiyasına qarşı birgə mübarizə aparmaq üçün öz səfirini Hindistana göndərmişdi. Bu Səfəvi dövlətinin Portuqaliya ilə siyasi əlaqələr yaratmaq sahəsində ilk addımı hesab olunur. Albukerki Şah İsmayılın elçisini Qoa şəhərində hərarətlə qarşılamış və Osmanlı dövləti əleyhinə siyasi və hərbi sahədə əməkdaşlıq etmək üçün, H.915-ci ilin zilhiccə ayında (mart 1510) Rui Qomez adlı öz elçisini Səfəvi sarayına göndərmişdi. Lakin bu səfir Səfəvi sarayına gedib çatmadan Hörmüzdə vəfat etmişdi[762].

Rui Qomezin vəfatından sonra Şah I İsmayıl, H. 916-cı ilin cəmadiüs-sani ayında (oktyabr/1510) Mir Əbu İshaq adlı elçisini danışıqları davam etdirmək üçün Albukerkinin yanına-Qoaya göndərdi. Qoaya gələn Səfəvi elçisi bildirdi ki, danışıqları davam etdirmək üçün Albukerki öz nümayəndəsini Səfəvi sarayına göndərsin. Lakin Albukerki Hindistanda başlamış daxili qiyamlar səbəbindən Səfəvi hakimiyyəti ilə danışıqları davam etdirə bilmədi[763].

Albukerki Hindistanda daxili problemləri qaydaya saldıqdan sonra Şah I İsmayılla danışıqlar aparmaq üçün (dekabr/1513), Migel Ferreyra adlı elçini Səfəvi sarayına göndərdi. Migel Ferreyra Səfəvi sarayında olduğu günlərdə Şah I İsmayıl Xacə Əlixan adlı elçisini Portuqaliya kralı Don Emanuelə yazdığı dostluq məktubu ilə Hindistanın vitse-kralı Albukerkinin yanına göndərdi[764].

Bu ərəfədə Hörmüzdə siyasi vəziyyət gərginləşmişdi. Məsqətin səfəvilər tərəfindən təyin edilmiş hakimi Rəis Əhməd Hörmüzə gələrək hakimiyyəti öz əlinə almışdı. Belə bir vəziyyətdə Albukerki Hörmüzə nəzarəti ələ keçirmək üçün H.919-cu ilin sə-

---

[762] Ə. Vilayəti, *a.g.ə.*, s.234.
[763] Ə. Vilayəti, *a.g.ə.*, s.235.
[764] Ə. Vilayəti, *a.g.ə.*, s.235-236; Y. Mahmudov, *Azərbaycan diplomatiyası.*, s.160.

fər ayında (mart/1515) bu məntəqəyə hücum etdi. O, tezliklə Rəis Əhmədi məğlub edərək Hörmüzdə nəzarəti ələ keçirdi[765].

Albukerki Hörmüz adasını tutan zaman Şah I İsmayılın elçisi Hörmüzdə Albukerki ilə görüşdü və aparılan danışıqlar nəticəsində tərəflər arasında müqavilə bağlandı. Bu müqavilənin şərtlərinə görə, Portuqaliya dəniz qüvvələri Bəhreyn və Qətifə həmlə etməyəcək, Mukran və Bəlücistan qiyamlarını yatırmaqda Səfəvilərə köməklik göstərəcək, Səfəvi və Portuqaliya dövlətləri Osmanlı imperiyasına qarşı vahid cəbhədə çıxış edəcək, bunun müqabilində Şah I İsmayıl Hörmüzə iddialarından əl çəkəcəkdir[766].

Səfəvi dövləti ilə Portuqaliya arasında osmanlılar əleyhinə birgə mübarizə aparmaq üçün əldə olunan razılığa baxmayaraq, portuqallar bu razılaşmaya əməl etmədi. Çünki Bəsrə körfəzində möhkəmlənməyə ciddi cəhdlə çalışan Portuqaliya onlara qarşı mübarizə aparmaq üçün məmlüklərə hərbi yardım göstərən Osmanlı dövləti ilə açıq mübarizəyə qoşulmaqdan ehtiyat edirdi. Digər tərəfdən Portuqaliya bu ərazilərdə möhkəmlənənə qədər səfəvilərlə qarşıdurma yaratmamaq üçün Şah I İsmayılla diplomatik əlaqələrin davam etdirilməsində maraqlı idi. Beləliklə, Bəsrə körfəzindəki strateji məntəqələr üstündə gedən mübarizədə Portuqallar üstünlüyü ələ alaraq orada öz mövqelərini genişləndirdilər və Hörmüzü qəti şəkildə işğal etdilər. Bununla da Səfəvi dövləti Hörmüz vasitəsilə  birbaşa Hind okeanına çıxış yolundan məhrum oldu.

Səfəvilərin Çaldıran döyüşündə osmanlılara məğlubiyyətindən sonra Azərbaycanın Avropa dövlətləri ilə diplomatik əlaqələrində yeni bir mərhələ başladı. Osmanlı imperiyasının Səfəvi dövlətini məğlub etməsi (1514) və Misir Məmlük dövlətini süquta uğratması (1517) Avropa dövlətlərinin antiosmanlı siyasətində yeni bir canlanma yaratdı[767].

---

765 Ə. Vilayəti, *a.g.ə.*, s.238; Y. Mahmudov, *a.g.ə.*, s.160.
766 Ə. Vilayəti, *a.g.ə.*, s.238.
767 Y. Mahmudov, *Azərbaycan diplomatiyası.*, s.158.

Albukerki 1515-ci il mayın 5-də Fermao Qomes de Lemosun rəhbərliyi altında nümayəndə heyətini Şah I İsmayılın sarayına göndərdi. Albukerki elçisi vasitəsilə Şah I İsmayıla yaqut, zümrüd, almaz, mirvari, qızıl və müxtəlif cavahirlərdən ibarət çoxlu qiymətli hədiyyələrlə bərabər, xeyli qızıl sikkə, qılınc, qızılla işlənmiş nizə, 3 at, 6 tüfəng, 2 top, 4 mancanaq göndərdi. Qiymətli hədiyyələrlə belə yüksək səviyyəli nümayəndə heyətinin göndərilməsi portuqaliyalıların Səfəvilərlə əlaqələrə nə dərəcədə əhəmiyyət verdiyini nümayiş etdirir[768].

Bundan sonra da Portuqaliya hakimiyyəti portuqlların nəzarətində olan ərazilərə osmanlıların hücum təhlükəsindən ehtiyat edərək Osmanlı imperiyasına qarşı birgə mübarizə aparmaq üçün Səfəvi dövləti ilə diplomatik danışıqları davam etdirmişdi. Bu məqsədlə Portuqaliyanın Hindistandakı valisi Duarte de Menezes 1523-cü ilin sentyabr ayında Baltasar Pessoanın rəhbərliyi ilə paytaxt Təbrizə bir elçi heyəti göndərmişdir. Bu heyətin tərkibində portuqaliya səyyahı Antonio Tenreiro da təmsil olunurdu. Bu səfərdə Hindistan valisi Antonio Tenreiroya xüsusi tapşırıq verərək Osmanlı hakimiyyətinin Hindistan iştiqamətindəki ərazilərə dəniz yürüşü niyyətinin olub-olmamasını öyrənməyi tapşırmışdır [769].

XVI əsrin 20-ci illərində Səfəvi dövlətinin digər Avropa dövlətləri-Almaniya və Macarıstanla da diplomatik əlaqələri başlayır.

Sultan Suleyman (1520-1566) atasının ölümündən çox keçməmiş Macarıstanın paytaxtı Belqradı ələ keçirdi. Bununla da Mərkəzi Avropa istiqamətində osmanlı işğallarına yol açıldı. Osmanlı sultanının bu hərbi müvəffəqiyyətləri Avropada ciddi təşvişə səbəb oldu. Bu ərəfədə osmanlı işğalına məruz qalan Macarıstan kralı II Lüdovik osmanlılara qarşı mübarizə aparmaq məqsədilə danışıqlar aparmaq üçün rahib Petrus de Monte Liba-

---

[768] T. Nəcəfli, *Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti.*, s.325.
[769] S. Özbaran, *Portekizli seyyahlar (İran, Türkiye, İrak, Suriye ve Mısır yollarında),* İstanbul, Kitap Yayınevi, 2007, s.31-33.

no adlı elçisini Səfəvi sarayına göndərdi. Səfəvi sarayında ehtiramla qarşılanan macar elçisi 1523-cü ilin avqustunda Şah I İsmayılın Macarıstan kralına yazdığı cavab məktubu və Alman imperatoru V Şarla yazdığı digər bir məktubla geri qayıtdı[770].

Şah I İsmayılın Alman imperatoruna yazdığı məktubda “Baharın əvvəllərində, eyni vaxtda Osmanlı türklərinin Sultanına həmlə etməyi... ” təklif edirdi[771].

Lakin Almaniya imperatoru Şah I İsmayıla tezliklə cavab vermədi. Yalnız 1525-ci il avqustun 25-də Almaniya imperatoru Şah I İsmayıla cavab məktubu yazdı. O, bu məktubunda Şah I İsmayılın Osmanlı imperiyasına qarşı birgə mübarizə təklifini yüksək qiymətləndirərək yazırdı ki, “Biz həmişə xristianların torpağında sülh və əmin-amanlıq tərəfdarı olduğumuzdan indi müştərək meyl və həvəsimiz əsasında türklərin əleyhinə qoşun çəkməkdən başqa bir işimiz qalmamışdı”[772].

Qeyd edək ki, bu məktub yazılanda, artıq Şah I İsmayıl vəfat etmişdi. Bu səbəbdən V Şarlın Səfəvi hökmdarına etdiyi təkliflərin heç bir əhəmiyyəti yox idi.

Ümumuyyətlə, Şah I İsmayılın hakimiyyəti dövründə Azərbaycanın Avropa dövlətləri ilə diplomatik münasibətlərinin əsasını Osmanlı imperiyasına qarşı birgə mübarizə təşkil edirdi. Lakin Avropada baş verən siyasi hadisələr, dövlətlərarası ixtilaflar, digər tərəfdən bu dövlətlərin Osmanlı imperiyasına qarşı mübarizədə qeyri-ardıcıl siyasət yeritməsi onların Səfəvi hakimiyyəti ilə antiosmanlı ittifaqında birləşməsinə imkan vermədi. Bununla da Səfəvi dövlətinin Avropa dövlətləri ilə birlikdə Osmanlı imperiyasına qarşı birgə mübarizə planları iflasa uğradı.

---

[770] Ə. Vilayəti. *a.g.ə.*, s.246; *The Cambridge History of Iran (The Timurid and Safavid periods).*, p.382; V. Minorsky, *The Middle East in the Western Politics in 13-th, 15- th and 17- th Centuries.*, p.453.

[771] О. Эфендиев, *Образование Азербайджанского государства Сефевидов в начале XVI века.*, с.140-141.

[772] Ə. Vilayəti, *a.g.ə.*, s.248-250; О. Эфендиев, *a.g.ə.*, с.141-142.

Şah I Təhmasibin hakimiyyəti dövründə ənənəvi olaraq Azərbaycan-Avropa münasibətləri davam edirdi. Bu dövrdə Səfəvilər dövləti ilə aktiv siyasi münasibətlər qurmağa təşəbbüs göstərən dövlətlərdən biri Portuqaliya idi. XVI əsrin 30-cu illərində Bəsrə körfəzində hegemonluq uğrunda Osmanlı-Portuqaliya ziddiyyətlərinin kəskinləşməsi, həmçinin Səfəvi dövlətinin Osmanlı imperiyası ilə müharibə vəziyyətində olması hər iki dövləti osmanlılara qarşı eyni siyasət yürütməyə vadar edirdi.

1515-ci ildən etibarən Portuqaliya ilə ittifaqa girən Səfəvi dövləti Şah I Təhmasibin hakimiyyəti dövründə də həmin siyasəti davam etdirirdi. Səfəvi-Osmanlı münasibətlərinin daim müharibə həddində olması Qərbi Avropanın müstəmləkəçi dövlətlərinin, o cümlədən Portuqaliyanın Bəsrə (İran) körfəzində möhkəmlənməsinə əlverişli şərait yaradırdı[773].

Portuqaliyalılar Osmanlı imperiyası ilə mübarizədə Səfəvi dövlətinə yalnız odlu silah deyil, habelə qoşunlarla hərbi və maliyyə yardımı göstərirdi[774].

Portuqaliyalılar Hörmüzdə möhkəmləndikdən sonra Səfəvi dövləti ilə osmanlılara qarşı birgə mübarizədə müttəfiqlik edir, eyni zamanda Səfəvi hakimiyyətini iqtisadi asılılıqda saxlamaq üçün Səfəvi dövlətinin iqtisadi maraqlarını təmin etməyən ticarət müqavilələri bağlamağa çalışırdılar. Bu məqsədlə Portuqaliya hökuməti osmanlılara qarşı birgə mübarizə aparmaq və səfəvilərlə ticarət müqaviləsi bağlamaq üçün 1551-ci il və 1574-cü illərdə Şah I Təhmasibin yanına elçilər göndərmiş, lakin hər iki Portuqaliya elçisi danışıqlarda müvəffəqiyyət əldə edə bilməmişdi[775].

---

[773] Y. Mahmudov, *Azərbaycan diplomatiyası.*, s.172.

[774] O. Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti.*, s.97; Э. Шахмалиев, Дипломатические отношения Испании с Сефевидским государством во второй половине XVI века, *«Ученые записки» Азербайджанского Государственного Университета, Серия истории и философии*, 1955, с.118.

[775] Э. Шахмалиев, *Дипломатические отношения Испании с Сефевидским государством во второй половине XVI века.*, с.118; O.

XVI əsrin ortalarında Portuqaliya Səfəvi dövləti ilə güzəştli ticarət müqaviləsi bağlamaq üçün təşəbbüs göstərdi. 1551-ci ildə bu məqsədlə Şah I Təhmasibin sarayına Portuqaliya səfiri göndərilsə də, aparılan danışıqlar ticarət müqaviləsinin bağlanması ilə başa çatmadı. Portuqaliya hər vasitə ilə Səfəvi dövlətini əlverişsiz ticarət müqaviləsini bağlamağa təhrik etməyə çalışırdı. Portuqaliya kralı Don Sebastian (1557-1578) 1572-ci ildə Şah I Təhmasibin sarayına ticarət müqaviləsi bağlamaq üçün elçi göndərsə də, aparılan danışıqlar uğursuz oldu[776]

1574-cü ildə də Portuqaliya hökuməti Səfəvi sarayına danışıqlar aparmaq üçün diplomatik missiya göndərsə də, bu danışıqlar da nəticəsiz qalmışdır.

Portuqaliya diplomatik missiyasının uğursuzluğuna səbəb, portuqalların Hörmüzdə müsəlmanlara qarşı xoş münasibət bəsləməməsi idi. Hətta, Şah I Təhmasib Hörmüzdə müsəlmanlara qarşı Portuqaliya məmurlarının çox pis rəftarını nəzərə alaraq elçi heyətini çox soyuq qarşılamışdı. Görünür, Şah I Təhmasib Osmanlı və Səfəvi dövlətləri arasında 1555-ci ildə bağlanmış sülh müqaviləsinin şərtlərini pozmaq istəməmiş, osmanlıların başlıca düşmənlərindən biri olan Portuqaliyanın səfirlərini məhz buna görə soyuq qarşılamışdı[777].

Həsən bəy Rumlu bu hadisələrdən bəhs edərək yazırdı ki, "Bu il (1574) Portuqal [adı] ilə məşhur olan Firəng padşahı Dan Sebastin öz elçilərini müşahidə zamanı nəzər-diqqət əhlinin gözünü qamaşdıran töhfələr və hədiyyələrlə aləmin pənahı olan dərgaha göndərdi. Bundan öncə onlar (portuqallar) məscidlərin xaraba qoyulması və "Kəlami-məcid"in yandırılması kimi neçə-neçə ədəbsizlik törətdikləri üçün [şah] elçilərə iltifatlı nəzərlərlə baxmadı və bir sıra əmirlərə o dövlətsiz qövmü ədəbləndirməyi

---

Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti.*, s.97; Ş. Fərzəliyev, *Azərbaycan və Osmanlı imperiyası.*, s.135.

[776] T. Nəcəfli, *Azərbaycan Səfəvi dövlətinin xarici dsiyasəti.,* s.326.

[777] T. Nəcəfli, *Azərbaycan Səfəvi dövlətinin xarici dsiyasəti.*, s.327.

həvalə etdi”[778]. Portuqaliya elçiləri yalnız Şah I Təhmsibin ölümündən sonra vətənə dönə bildilər.

Şah I Təhmasibin ölümündən sonra da Səfəvi-Portuqaliya arasında diplomatik münasibətləri davam etmişdi.

Həsən bəy Rumlunun verdiyi məlumatlardan aydın olur ki, 1576-cı il avqustun 22-də Çehelsütun sarayında Şah II İsmayılın ziyafət məclisinə dəvət olunan elçilər arasında Portuqaliya kralının da elçiləri olmuşdu[779].

Bu dövrdə Səfəvi dövləti İspaniya, Portuqaliya və Papalığı da qərbdən Osmanlı dövləti əleyhinə qaldırmağa təşəbbüs göstərdi. 1582-ci ildə Avqustinlər ordeninin üzvü Simon Şah Məhəmməd Xudabəndənin sarayına gəlib İspanya kralı II Flipp və Roma papası XIII Qriqorinin elçisi sifətilə danışıqlar apardı[780].

Azərbaycan-Avropa münasibətlərini tədqiq edərkən məlum olur ki, bu münasibətlərdə siyasi səbəblərlə yanaşı iqtisadi maraqlar da ön planda idi. Avropa dövlətləri bir tərəfdən Səfəvi dövlətini Osmanlı imperiyasına qarşı ən real müttəfiq hesab edirdilərsə də, digər tərəfdən Azərbaycana sərfəli satış bazarı və ucuz xammal mənbəyi kimi baxırdılar. Həmçinin Avropa-Asiya ticarət yollarının bir hissəsinin Səfəvi dövləti ərazisindən keçməsi bu dövlətlərin Azərbaycana marağını daha da artırırdı. Məhz XVI əsrin ortalarından Asiya qitəsində siyasi hegemonluq uğrunda mübarizəyə qoşulan İngiltərənin Rusiyadan keçməklə Volqa-Xəzər ticarət yolu ilə Azərbaycanla münasibətlərinin yaranmasında maraqlı olması iqtisadi amillərlə ciddi surətdə bağlı idi. Eyni zamanda Aralıq dənizi və Hind okeanı hövzələrindən sıxışdırılaraq Avropa ilə birbaşa ticarətdən məhrum olan Səfəvi dövləti

---

[778] Həsən bəy Rumlu, *Əhsənüt-təvarix (Tarixlərin ən yaxşısı),* Fars dilindən tərcümə və şərhlər professor Oqtay Əfəndiyev, dosent Namiq Musalı., s. 620.

[779] Həsən bəy Rumlu, *Əhsənüt-təvarix (Tarixlərin ən yaxşısı).,* a.g.ə., s.637-638.

[780] T. Nəcəfli, *Azərbaycan Səfəvi dövlətinin xarici dsiyasəti.,* s.334.

üçün də Rusiya vasitəsilə Avropa dövlətləri ilə ticarət əlaqələri yaratmaq dövlətin iqtisadi maraqlarına tamamilə uyğun idi.

XVI əsrin 60-cı illərindən başlayaraq Rusiya ərazisi vasitəsilə Şərq ölkələri ilə ticarət əlaqələrini inhisara alan "Moskva" kompaniyası (1555-ci il fevralın 6-da ingilis kraliçası Mariyanın xüsusi fərmanı əsasında Riçard Çenslor "Moskva" kompaniyasının əsasını qoymuşdu-M.A.) Səfəvi dövlətinə altı ekspedisiya (1561-1581) göndərdi. Bu dövrə qədər ingilis tacirləri ilə azərbaycanlı tacirlər arasında ticarət əlaqələri Trabluşşam və Beyrut vasitəsilə həyata keçirilirdi[781]. Səfəvi dövləti ilə birbaşa ticarət əlaqələrinin olmaması İngiltərə hökumətinin iqtisadi maraqlarını ifadə etmirdi. Bu baxımdan İngiltərənin Volqa-Xəzər ticarət yolu ilə Azərbaycanla birbaşa ticarət əlaqələrinin yaranması hər iki dövlət üçün böyük əhəmiyyət kəsb edirdi.

Azərbaycanla diplomatik əlaqələrin qurulması məqsədilə İngilis kraliçası Yelizaveta Tüdor Səfəvi sarayına Antoni Cenkinson vasitəsilə 25 aprel 1561-ci il tarixli bir məktub göndərir. İngilis kraliçasının Böyük Sufiyə (I Şah Təhmasibə) yazdığı bu məktubda hər iki dövlət və xalqlar arasında dostluq əlaqələrinin qurulmasından və bu əlaqələrin inkişaf etdirilməsindən bəhs edilirdi[782].

"Moskva" kompaniyası Səfəvi sarayına yola salınan rəsmi nümayəndəsi Antoni Cenkinsona 8 may 1561-ci il tarixli rəsmi göstəriş verərək Böyük Sufidən Səfəvi dövləti ərazisində ticarət etmək üçün toxunulmazlıq hüququ almağı tapşırmışdı. Həmçinin Antoni Cenkinson, ingilis tacirlərinin Səfəvi dövləti ərazi-

---

[781] Y. Mahmudov, *Azərbaycan diplomatiyası.*, s.183; E. Зевакин, *Персидский вопрос в русско-европейских отношениях XVII в.,* Исторические записки, 1940, с.133.

[782] V. Minorsky, *The Middle East in the Western Politics in 13-th, 15- th and 17- th Centuries.*, p.454; *Английские путешественники в Московском государстве в XVI веке,* перевод с английского Ю.Готье., Л, 1937, с. 193-194.

sindən digər dövlətlərə sərbəst hərəkət etməsi üçün I Şah Təhmasibdən təminat almalı idi[783].

"Moskva" kompaniyasının nümayəndələrinin apardığı müntəzəm danışıqlar nəticəsində 1563-cü ilin aprel ayında Şirvan hakimi Abdulla xan tərəfindən ingilis tacirlərinə Səfəvi dövləti ərazisində rüsumsuz və maneəsiz ticarət etmək hüququ verildi. Şah I Təhmasibin 1566-cı il iyunun 29-da verdiyi xüsusi fərmanla bu hüquqlar daha da genışlənirilərək ingilis tacirlərinə Səfəvi dövləti ərazisində geniş ticarət imtiyazları verildi. Bu fərmanda ingilis tacirlərinin ölkə ərazisində gömrük və rüsumlardan azad olunması, sərbəst hərəkət azadlığı və təhlükəsizliklərinin təmini və digər ticarət imtiyazları nəzərdə tutulurdu[784].

XVI əsrin 60-cı illərində başlamış Azərbaycan-İngiltərə əlaqələri iki dövlət arasında fasiləsiz davam edən iqtisadi-siyasi münasibətlərə çevrilə bilmədi. Çünki Livoniya müharibəsində (1558-1583) İngiltərəni öz tərəfinə çəkə bilməyən IV İvan ingilis tacirlərinə verdiyi imtiyazları ləğv etdi və Volqa-Xəzər yolu ilə Şərqlə ticarət etmək qadağan olundu. Bununla da Azərbaycan Rusiya vasitəsilə Avropa bazarlarına birbaşa çıxışdan məhrum oldu[785].

Amasya sülhündən sonra Avropa cəbhəsində hərbi əməliyyatları gücləndirən Osmanlı imperiyası 1570-ci ilin mart ayında Venesiya ilə müharibəyə qərar verdi. Müharibə Kipr üstündə başladı. Osmanlı imperiyası ilə təkbətək müharibə aparmağa qadir olmayan Venesiya osmanlılara qarşı mübarizə aparmaq üçün ənənəvi müttəfiqi Səfəvi dövləti ilə əlaqə yaratmaq qərarına gəl-

---

[783] *Английские путешественники в Московском государстве в XVI веке.*, p.194-196; Э. Шахмалиев, К вопросу о времени начала упадка Венеции, *«Ученые записки» Азербайджанского Государственного Университета. Серия истории и философии,* 1977, c.120.
[784] *Английские путешественники в Московском государстве в XVI веке*., p.233-234; Э. Шахмалиев, *К вопросу о времени начала упадка Венеции...* c.122; Y. Mahmudov, *Azərbaycan diplomatiyası*., s.186-188.
[785] Y. Mahmudov, *a.g.ə.,* s.190.

di. Beləliklə, XVI əsrin 70-ci illərində Səfəvi-Venesiya münasibətlərində yenidən canlanma yarandı[786].

Şah I Təhmasibin hakimiyyəti dövründə Venesiya ilə ilk diplomatik əlaqələr 1538-1540-cı illərdə Venesiya-Osmanlı müharibəsi dövründə yaradıldı. Lakin bu dövrdə Venesiya hökumətinin Səfəvi dövlətinı Osmanlı imperiyasına qarşı mübarizəyə təhrik etmək üçün öz elçisi Mikele Membre vasitəsilə Səfəvi sarayında aparılan diplomatik danışıqlar nəticəsiz qaldı (avqust/1539). Çünki Venesiyanın ikili siyasət yeridərək Osmanlı imperiyası ilə apardığı sülh danışıqları (may-iyun 1540) tərəflər arasındakı danışıqların nəticələrini heçə endirdi[787].

Venesiya hökumətinin 1570-ci il oktyabrın 27-də Venesiyadan vətənə qayıdan Səfəvi taciri Xoca Əli ilə I Şah Təhmasibə göndərdiyi məktubunda iki dövlət arasındakı "qədim və səmimi dostluq münasibətləri" xatırladılır, Venesiya respublikasının Osmanlı imperiyasına qarşı müharibə üçün gördüyü hərbi hazırlıq barədə məlumat verilirdi. Venesiya hökuməti Şah I Təhmasibi inandırmağa çalışırdı ki, əgər Səfəvi dövləti şərqdən, Venesiya və başqa xristian dövlətləri isə qərbdən eyni zamanda hücuma keçsələr, Osmanlı hərbi qüvvələrini iki cəbhəyə parçalayıb məğlub etmək olar[788].

Osmanlı imperiyasının Kipr adasına qoşun yeritməsi osmanlılara qarşı İspaniya, Venesiya və papa V Piydən ibarət "müqəddəs ittifaq"ın yaranmasını sürətləndirdi. Səfəvi dövlətini də bu ittifaqa cəlb etmək üçün Venesiya hökuməti diplomat Vinçenso Alessandrinin başçılığı ilə Şah I Təhmasibin yanına bir elçi heyəti göndərdi (1571-ci ilin əvvəli). 1571-ci il avqustun 14-

---

[786] Y. Mahmudov, *a.g.ə.*, s.191.

[787] *Venesiyalılar Şah I Təhmasibin sarayında (Mikele Membre və Vinçenso Alessandri),* ingilis dilindən tərcümə, ön söz, giriş və şərhlər O.Əfəndiyev., Bakı, 2005, 5-6; Ə. Quliyev, *XVI əsrin ortalarında Azərbaycan Səfəvilər dövlətinin ictimai-siyasi vəziyyəti: Mikel Membrenin "Səyahətnamə"si əsasında.*, Bakı, Şərq-Qərb, 2011, s.13-14.

[788] T. Nəcəfli, *Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti (Türkiyə tarixşünaslığında).*, s.311.

də Qəzvinə gələn Venesiya elçisi şahzadə Heydər Mirzə tərəfindən qəbul edildi[789].

Venesiya elçisinin Heydər Mirzə vasitəsilə apardığı danışıqlar konkret nəticə ilə yekunlaşmadı. Çünki Venesiya hökumətinin osmanlılara qarşı mübarizədə dəfələrlə ikiüzlü siyasət yeritməsi Şah I Təhmasibi ehtiyatlı davranmağa vadar edirdi. Bu səbəbdən Venesiya elçisinə konkret cavab verilmədi və danışıqların davam etdirilməsinə qərar verildi. Lakin Səfəvi elçisi Xoca Əli və Venesiya elçisi Vinçenso Alessandri vasitəsilə davam etdirilən Səfəvi-Venesiya danışıqları da nəticəsiz başa çatdı. Eyni zamanda İspaniya, Papa və Venesiya arasında bağlanmış "antiosmanlı ittifaqı" isə Lepanto döyüşündən sonra (7 oktyabr/1571) müttəfiqlərin fikir ayrılığı üzündən dağıldı. Bununla da "antiosmanlı" ittifaqının fəaliyyəti iflasa uğradı. 1573-cü il martın 18-də Osmanlı hakimiyyəti ilə Venesiya arasında bağlanmış sülh müqaviləsinə görə Kipr adası Osmanlı imperiyasının tərkibinə daxil edildi[790].

Ümumiyyətlə, Şah I Təhmasibin hakimiyyəti illərində Azərbaycanın xarici siyasətində Avropa dövlətləri ilə siyasi münasibətlər böyük əhəmiyyət kəsb edirdi. Şah I Təhmasibin Avropa dövlətləri ilə siyasi münasibətləri sələfi Şah I İsmayılın bu dövlətlər ilə siyasi və ticarət əlaqələrinin davamı kimi təzahür edir və bu münasibətlərin əsasını Osmanlı imperiyasına qarşı birgə mübarizə və iqtisadi maraqlar təşkil edirdi.

---

789 Э. Шахмалиев, *Дипломатические отношения Испании с Сефевидским государством во второй половине XVI века.*, с.119; Y. Mahmudov, *Azərbaycan diplomatiyası.*, s.193; *The Cambridge History of Iran (The Timurid and Safavid periods).*, p.385; *Venesiyalılar Şah I Təhmasibin sarayında (Mikele Membre və Vinçenso Alessandri).*, s.7.

790 Y. Mahmudov, *Azərbaycan diplomatiyası.*, s.194; *Kıbrıs'ın fethi (1570-1571),* hazırlayan Genelkurmay Askeri Tarih ve Stratejik Etüd Başkanlığı., Ankara, Kültür ve Turizm Bakanlığı Yayınları, 1986, s.88; Э. Шахмалиев, *К вопросу о времени начала упадка Венеции.*, с.123; Е. Зевакин, *Персидский вопрос в русско-европейских отношениях XVII в.*, с.131.

1578-1590-cı illər Səfəvi-Osmanlı müharibəsi zamanı Osmanlı imperiyasına qarşı təkbaşına müharibə aparmağa qadir olmayan Səfəvi dövləti onun hərbi qüvvələrini iki cəbhəyə parçalamaq məqsədilə yenidən Qərb dövlətlərinə müraciət etdi. 1579-cu ilin sonlarında təcrübəli diplomat Xoca Məhəmmədin başçılığı altında yeddi nəfərdən ibarət elçi heyəti Venesiyaya yola salındı[791].

1580-ci ilin aprelində Venesiyaya çatan Səfəvi elçisi Xoca Məhəmməd Venesiya doju tərəfindən çox yaxşı qarşılandı. Venesiya Müqəddəs liqanı tərk edərək 1573-cü ildə Osmanlı imperiyası ilə sülh bağladı. Buna görə də Xoca Məhəmmədin apardığı danışıqlara baxmayaraq, Venesiya bağladığı sülhü davam etdirməyi üstün tutdu[792].

XVI əsrin sonlarında Osmanlı imperiyasına qarşı birgə mübarizə, Avropa dövlətləri ilə Səfəviləri yaxınlaşdıran başlıca səbəb olaraq qalırdı. Osmanlı imperiyası ilə müharibə (1592-1606) vəziyyətində olan Habsburq monarxiyası Səfəvi dövlətini Osmanlılar üzərinə qaldırmağa çalışırdı. 1594-cü ildə kral II Flipp Hindistandakı nümayəndəsi Matias de Albukerkeyə Səfəvi hökmdarı Şah I Abbasın sarayına elçi göndərməyi tapşırdı. 1598-ci ildə İspaniya kralı və papa tərəfindən göndərilən Alfonsu Kordero və Nikola de Malo adlı keşişlər İsfahanda Şah I Abbas tərəfindən qəbul edildi. Keşişlərə qiymətli hədiyyələr verən Şah I Abbas onları Avropa dövlətlərini Osmanlı dövləti əleyhinə ittifaq yaratmaq üçün göndərdiyi Səfəvi elçi heyətinin tərkibinə qatdı[793].

---

[791] T. Nəcəfli, Azərbaycan Səfəvi dövlətinin Venesiya və Papalıqla münasibətləri Türkiyə tarixşünaslığında, *Geostrategiya, №1 (25), Yanvar, fevral, Bakı, 2015,* s. 9.

[792] G. Rota, Safevi İranı ile Venedik Cumhuriyeti arasındakı diplomatic ilişkilere genel bir bakış., *Türkler*, Yeni Türkiye Yayınları, Ankara, 2002, s. 901.

[793] T. Nəcəfli, *Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti (Türkiyə tarixşünaslığında).,* s. 336.

XVI əsrin sonlarında İspaniya donanmasına sarsıdıcı zərbə vuran İngiltərə Hind okeanında Portuqaliya ilə rəqabət apardığı üçün Səfəvi dövləti ilə əlaqələri möhkəmləndirməkdə maraqlı idi. Şah I Abbasın hakimiyyətə gəlməsindən sonra Səfəvilər dövlətinin güclənməsi Avropa dövlətlərini onunla yaxınlaşmağa sövq edirdi. Papalıq, Venesiya, İspaniya və Almaniya imperiyası kimi İngiltərə də Səfəvilər dövlətinə xüsusi maraq göstərirdi. Bu xristian qərbinin güclü Osmanlı imperiyasını zəiflətmək istəyi ilə bağlı idi[794].

XVI əsrin sonlarında Osmanlı imperiyası ilə sıx siyasi və iqtisadi əlaqələr yaradan İngiltərə Səfəvilər dövlətində baş verən hadisələri diqqətlə izləyirdi. 1598-ci ilin mayında ingilis hökuməti adından Osmanlı imperiyasına qarşı birgə mübarizə aparmaq və iki dövlət arasında ticarət münasibətlərini yeniləmək üçün Şah I Abbasla danışıqlar aparmaq məqsədilə Antoni və Robert Şerli qardaşları 25 nəfərlik heyətlə Venesiyadan yola düşdü. Şerli qardaşları Hələb-Bağdad yolu ilə Qəzvinə gəldi və dekabrda Şah I Abbas tərəfindən qəbul edildi. Avropa hakimlərinin rəğbətini və dəstəyini qazanmaq üçün o, A.Şerliyə qarşı çox səxavətli idi. Şah ingilislərə bildirirdi ki, Səfəvilərlə ticarət etmək arzusunda olan xristian tacirlərə ən əlverişli imtiyazlar veriləcək, onların üzərinə heç bir vergi qoyulmayacaq, heç bir "din adamları" onları narahat etməyəcək. Osmanlı dövlətinə qarşı mübarizədə Avropa dövlətləri ilə ittifaq yaratmağa çalışan I Şah Abbas ingilis elçilərini mehriban qarşıladı və yanlarına güvəndiyi adamlarını qataraq xristian hökmdarlarla əlaqələr yaratmaq məqsədilə Avropaya göndərdi[795].

1599-cu ilin mayında Hüseynəli bəy Bayatın başçılığı altında Roma papası, Venesiya respublikası, Almaniya, İngiltərə, Fransa, İspaniya, Toskana hersoqu, Şotlandiya kralı, Polşa və

---

[794] T. Nəcəfli, *Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti.,* s.348.

[795] T. Nəcəfli, *Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti (Türkiyə tarixşünaslığında).,* s.348.

Skandinaviya ölkələrinin hökmdarları ilə danışıqlar aparmaq üçün Avropaya böyük elçi heyəti yola salınmışdı.

Qeyd edək ki, XVI əsrin axırlarında Osmanlı imperiyasına qarşı birgə mübarizə aparmaq zərurəti Avropa dövlətlərini, o cümlədən Venesiya respublikasını Səfəvilər dövləti ilə yaxınlaşdıran başlıca amil olaraq qalırdı. Bu baxımdan Səfəvi dövləti ilə Osmanlı imperiyası arasında yeni müharibənin başlaması avropa dövlətlərinin, xüsusilə də, Venesiya respublikasının mənafeyinə uyğun idi. Eyni zamanda Şah I Abbasın Avropa dövlətlərinin hərbi gücündən istifadə edərək işğal altında olan Səfəvi ərazilərini Osmanlılardan geri almaq istəyi, Səfəvi-Avropa münasibətlərinin əsas qayəsini təşkil edirdi. Məhz bu baxımdan Səfəvi Şahının 1599-cu ildə Hüseynəli bəy Bayatı Avropaya göndərərək Osmanlılara qarşı ittifaq təklifi Osmanlı imperiyasına qarşı birgə mübarizədən doğan zərurət idi.

Səfəvilər sülaləsinin hakimiyyəti dövründə Azərbaycanın gürcü çarları ilə ənənəvi siyasi münasibətləri də davam edirdi. Hələ Ağqoyunlu sülaləsinin Azərbaycanda hakimiyyəti dövründə gürcü çarları Ağqoyunlu hakimiyyətindən vassal asılılığında idi. XVI əsrdə də Gürcü ərazisinin böyük bir hissəsi Səfəvi hakimiyyətinin siyasi nüfuz dairəsinə aid idi.

XVI əsrin əvvəllərində gürcü bölgəsi bir neçə çarlığa və knyazlığa (Kartli, Kaxetiya, İmeretiya, Samçe Atabəyliyi) bölünmüşdü[796].

XV əsrin ortalarından etibarən Ağqoyunlu dövlətinin vassalı olan və Ağqoyunlu xəzinəsinə illik vergi ödəyən gürcü çarları ağqoyunluların varisi olan səfəvilərin də vassalı hesab olunurdu.

Səfəvi hakimiyyətinin gürcü çarları ilə ilk siyasi təmasları Kaxetiya çarı Aleksandr (1492-1511) ilə olmuşdu. Belə ki, Aleksandr Şah I İsmayılın Şirvana yürüşü dövründə oğlu Dmitrini Səfəvi hökmdarının yanına göndərərək ona öz itaətini bil-

---

[796] O. Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti.*, s.92.

dirmişdi. Bu barədə gürcü tarixçisi Vaxuşti Baqrationi məlumat verir: "Aleksandrın hökmranlığı vaxtında Şeyx oğlu Şah İsmayıl meydana çıxdı və miladi 1500-cü, tatar xronikası ilə 907-ci il, gürcü təqvimi ilə isə 188-ci ildə (gürcü təqvimi 1312-ci ildən başlayır-M.A.) o, Azərbaycanı və Şirvanı ələ keçirdi. Həmin Aleksandr oğlu Dmitrini bəxşişlərlə Şirvana Şah İsmayılın yanına göndərdi və ona tabe olduğunu bildirdi. Şah İsmayıl Dmitrini hörmətlə qəbul etdi, bəxşiş və barış sazişi ilə yola saldı"[797].

Bu dövrdə gürcü əraziləri səfəvilərlə osmanlılar arasında mühüm hərbi-strateji bölgələrdən biri hesab olunurdu. Bu səbəbdən gürcü ərazilərini ələ keçirmək məqsədi ilə osmanlılar dəfələrlə bu əraziyə hərbi yürüşlər təşkil etmişdir.

Qeyd olunduğu kimi, şahzadə Səlim Trabzon valisi olarkən 1508-ci ildə Səfəvi hakimiyyətindən vassal asılılığında olan İmeretiya (Başı-açıq) çarlığına dağıdıcı hərbi yürüş etmişdi[798]. Bu yürüşdən sonra Şah I İsmayıl Sultan II Bəyazidə bir məktub göndərərək şahzadə Səlimin bu hərəkətlərindən şikayət etmiş və onun Trabzon valiliyindən azad edilərək cəzalandırılmasını tələb etmişdi[799].

Növbəti dəfə osmanlılar İmeretiya çarlığına 1512-ci ildə yürüş edərək Laz Elini (Batumi) ələ keçirmiş və Trabzon sancağına qatmışdır. Bu yürüşdən sonra Quriya, İmeretiya hakimləri və Samçe Atabəyi Mirzə Çabuk (1502-1516) itaət edərək osmanlılara illik vergi verməyə razı olmuşdur[800]. Bu yürüşdən sonra Qərbi Gürcüstan əraziləri Osmanlı imperiyasının siyasi nüfuz dairəsinə keçdi.

---

[797] В. Багратиони, *История царства Грузинской.*, с.134.

[798] Ş. Fərzəlibəyli, *Azərbaycan və Osmanlı imperiyası...* s.95; R. Kılıç, *Kanuni devri Osmanlı-İran münasebetleri.*, s.46.

[799] F. Kırzıoğlu, *Osmanlılar'ın Kafkas-elleri'ni fethi.,* s.94-95; R. Kılıç, *Kanuni devri Osmanlı-İran münasebetleri.*, s.46-47.

[800] Н. Бердзенишвили, И. Джавахишвили и С. Джанашиа, *История Грузии.,* с.330; N. Gümüş, *Gürcüstanın fethi.,* s.326; F. Kırzıoğlu, *a.g.ə.,* s.93.

Səfəvilərin gürcü bölgəsinə ilk yürüşü h.921-ci ildə (1515/16) olmuşdu. Bu yürüş barədə "Aləmara-yi Şah İsmayıl" əsərində məlumat verilir: "Gürcü knyazları bir-biri ilə müttəfiq olaraq Qarabağ vilayətinə basqın edib çoxlu dağıntılara məruz qoydular... Bu hadisə Şah İsmayılın Div Sultanı 15 minlik qoşunla Gürcüstan üzərinə göndərməsinə səbəb oldu. Gürcüstana daxil olan qızılbaş ordusu gürcü qoşunlarını məğlubiyyətə düçar edib fəth və firuzatla geri qayıtdı[801].

Səfəvilərin gürcü ərazilərinə ikinci yürüşü isə 1518-ci ilə təsadüf edir. Vaxuşti Baqrationi bu barədə yazırdı: "1518-ci miladi, 206-cı gürcü ilində Şah İsmayıl Kartlini işğal etmək üçün çıxış etdi... Bunu eşidən çar David çoxlu bəxşişlərlə oğlu Ramazı şahın yanına göndərdi və ona itaət etməyə söz verdi... Bu vaxt şah böyük hörmətlə şahzadə Ramazı qəbul edərək ona bəxşışlər verib geri buraxdı və çarla barışığa razılaşdı.."[802]. Bu yürüşdən sonra Kartli çarı X David (1505-1525) Səfəvi hakimiyyətinə öz itaətini bildirmiş və hər il ödənc olaraq 300 tay ipək parça verməyi öhdəsinə götürmüşdü[803].

Səfəvi ordusunun gürcü ərazilərinə növbəti yürüşü Kaxetiya çarı II Levanın (1520-1574) hakimiyyəti dövrünə təsadüf edir. Çar II Levanın, hakimiyyətə gəldikdən sonra Səfəvi dövlətinin vassallığından imtina etməsi Şah I İsmayılın Kaxetiya çarını cəzalandırmaq üçün h.927-ci ilin qışında (1521) Div Sultan Rumlunun komandanlığı altında Gürcü bölgəsinə qoşun göndərməsi ilə nəticələndi. Bu yürüşdə Div Sultan gürcülərin hərbi qüvvələrini darmadağın edərək Levanı əsir tutub Naxçıvanda olan Səfəvi hökmdarının hüzuruna aparmışdı. Burada Səfəvi hökmdarından əhv diləyən Levan bağışlanmış və azad edilmişdi. Bu zaman Samçe atabəyi Kvarkvare (1516-1535), Kartli çarı X

---

[801] N. Musalı, *I Şah İsmayılın hakimiyyəti.*, s.15.

[802] В. Багратиони, *История царства Грузинской.*, с.134.

[803] Н. Бердзенишвили, И. Джавахишвили и С. Джанашиа, *История Грузии.*, с.31.

David (1505-1525) və İmeretiya çarı III Baqrat (1510-1565) da Şah İsmayılın yanına gələrək öz itaətlərini bildirmişdi[804].

Şah I İsmayılın hakimiyyəti dövründə Gürcü bölgəsinə sonuncu yürüş 1522-ci ildə olmuşdu. Bu yürüşə səbəb Kartli çarı X Davidin Səfəvi xəzinəsinə illik vergi ödəməkdən imtina etməsi olmuşdu. Bu yürüş barədə Vaxuşti Baqrationi yazır: "1522-ci miladi, 929-cu tatar, 210-cu gürcü ilində Deval (Div Sultan nəzərdə tutulur - M.A.) gəldi. Kartli və Samtsxeni viran etdi. Çünki gürcülərin müsəlmanları qırmağını eşitmişdi, həm də o sultana məğlub edilmişdir və gürcülərin sultana qoşulmasından ehtiyat edirdi. Bu səbəbdən o Ağcaqalaya gəlib oturdu və onu qurmağa başladı. Burda car David ondan sülh xahiş etdi, şah isə onu öz yanına çağırdı. Çar isə şah onu İsadan dönməyə və müsəlman olmağa məcbur etdiyi üçün yanına getmək istəmədi və o, mesxlər və kaxların başçısı Levandan hərbi dəstək alıb bütün qoşunları ilə Teletiyə (Tiflisin cənub-şərqi) gəldi. Burada şah əsgərlərinə döyüşə başlamağa əmr verdi. Baxmayaraq ki, burda gürcülər sərt döyüşdülər, lakin çar David məğlub oldu"[805].

Bu yürüş nəticəsində gürcüləri məğlub edən Səfəvi qoşunu Tiflisi ələ keçirərək orda xüsusi bir qarnizon yerləşdirdi və geri döndü[806].

Şah I Təhmasibin hakimiyyəti dövründə də gürcü çarları Səfəvi hakimiyyətindən vassal asılılığında olmuş və Səfəvi xəzinəsinə illik vergi ödəmişdir.

Şah I Təhmasibin hakimiyyəti illərində səfəvilərdən asılı olan gürcü çarları haqqında geniş məlumata Səfəvi tarixçisi İsgəndər bəy Münşinin "Tarix-e aləm-ara-ye Abbas" əsərində rast

---

[804] О. Эфендиев, *Азербайджанское государство Сефевидов в XVI веке,* Баку, Элм, 1981, s.63. F. Kırzıoğlu, *a.g.ə.,* s.99; Zeynalabidin Əli Əbdi bəy Şirazi, *Təkmilətül-əxbar*., s.51.

[805] В. Багратиони, *История царства Грузинской.*, с.33-34.

[806] О. Эфендиев, *Образование Азербайджанского государства Сефевидов в начале XVI века.*, с.120; Н. Бердзенишвили, И. Джавахишвили и С. Джанашиа, *История Грузии.*, с.320.

gəlirik. F.Kırzıoğlu Səfəvi tarixçisinin bu əsərinə əsaslanaraq Şah Təhmasibin ilk Gürcüstan səfəri öncəsi səfəvilərə tabe gürcü carlıqları haqqında ətraflı məlumat verərək yazır: " Xütbə və sikkəni Şah Təhmasib adına işlədib cizyə ilə xərac verənlər: Vilayət-i Kaxet (mərkəzi Girəm və Zağam) ilə Kartli (mərkəzi Tiflis) və Mosuk/Samçe Atabəyliyinin şərq hissəsi (mərkəzi Axılkələk)"[807]. Göründüyü kimi, XVI əsrin 40-cı illərində İmeretiya çarlığı və Samçe Atəbəyliyinin qərb hissəsindən (Çoruk) başqa bütün Gürcü çarlıqları Səfəvi hakimiyyətindən vassal asılılığında idi.

Gürcü carları Şah I Təhmasibin hakimiyyəti dövründə də itaətsizlik göstərərək səfəvilərin siyasi təbəəliyindən imtina etmiş, bu səbəbdən h. 947-ci ildə (1540) Səfəvi hökmdarı "İlk gürcü səfərinə" çıxmışdı[808].

Şah I Təhmasibin gürcü bölgələrinə ilk səfərinin 1536-cı ildə olduğunu qeyd edən Vaxuşti Baqrationi bu barədə yazırdı: "Şah Tamaz (I Təhmasib) 1536-cı miladi, 224-cü gürcü ilində qoşunla Gəncəyə gəldi. Həmin vaxt car Luarsab Tiflisdə idi... Sübh tezdən Şah Tamaz Tiflisə girdi ki, çarı ələ keçirsin. Lakin Tanrı çarı oğluna görə əsirlikdən qurtardı... Tiflis qalasının başçısı Kəlbad, Şahın Tiflisi yandırmasından qorxub qaladan çıxdı. O, (Şah I Təhmasib) hamını İsadan dönməyə məcbur etdi və müsəlmanlaşdırdı. Tiflis qalasında öz qızılbaş mühafizəçilərini qoydu və Qarabağa qayıtdı"[809].

Şah I Təhmasibin gürcü ərazilərinə ikinci səfəri Şirvan bəylərbəyi Əlqas Mirzənin qiyamı dövrünə təsadüf edir. Səfəvilər tərəfindən 1547-ci ildə gürcü bölgəsinə edilən bu yürüş haqqında gürcü tarixçisi Parsadan Qorqidcanidze ətraflı məlumat verir: "Şahın qardaşı Əlqas Mirzə Şirvanda hakim olarkən itaət-

---

[807] F. Kırzıoğlu, *Osmanlılar'ın Kafkas-elleri'ni fethi*...172.

[808] П. Горгиджанидзе, *История Грузии.,* с.29-30; F. Kırzıoğlu, *a.g.ə.,* s.172; Н. Бердзенишвили, И. Джавахишвили и С. Джанашиа, *История Грузии.,* с.320.

[809] В. Багратиони, *История царства Грузинской.,* с.36.

sizlik etməyə başladı və Şah onu cəzalandırmaq qərarına gəldi. Şah Şirvana gələrək onun anası ilə görüşdü və oradakı işləri yoluna qoydu... Oradan yanvarın şaxtasında Ani yolu ilə Samsxeyə gəldi. Şah burada ikən Kaxetiya hakimi Levan və İmeretiya çarı Baqrat hədiyyələrlə şahın hüzuruna gəldilər və bütün yürüş vaxtı sədaqətlə ona xidmət etdilər. Şah buradan Kartliyə gələrək oranı talan etdi və Tiflisdə əvvəlkindən daha çox mühafizəçi qoyaraq Bərdəyə qayıtdı”[810].

Səfəvi hökmdarı Şah I Təhmasib bu yürüşdən sonra da gürcü çarlarının itaətsizliyinin qarşısını almaq üçün bu bölgəyə bir neçə dəfə (1551, 1554) hərbi səfərlər etmişdi[811].

Şah I Təhmasibin hakimiyyəti dövründə Osmanlı imperiyası ilə bağlanan Amasya sülh müqaviləsi (1 iyul/1555) gürcü ərazilərinin də hüquqi statusunu müəyyən etdi. Amasya sülh müqaviləsinə görə Kaxetiya, Axıska, Borçalı, Kartli, Mesxetiya, Samçe Atabəyləri ərazisinin şərq hissəsi (Mosuk) Səfəvilər dövlətinin, İmeretiya, Dadyan (Meqrel), Guriya və Samçe Atəbəyləri ərazisinin qərb hissəsi (Çoruk) Osmanlı imperiyasının nəzarətinə keçirdi[812].

Amasya sülh müqaviləsindən sonra da Səfəvi dövlətindən vassal asılılığında olan gürcü çarları ilə siyasi münasibətləri davam etmişdi. Bu dövrdə Səfəvilər Kartli hakimlərinin itaətsizliyi səbəbindən bir neçə dəfə (1556, 1557, 1560-61) gürcü bölgəsinə hərbi yürüşlər təşkil etmiş və bu ərazilərdə öz siyasi hakimiyyətlərini bərpa etmişlər. Hətta h. 976-cı ildə (1569) Kartli çarı I Si-

---

[810] П. Горгиджанидзе, *История Грузии*, с.30-31.

[811] В. Багратиони, *История царства Грузинской.*, с.37-38; O. Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti.*, s.92; П. Горгиджанидзе, *a.g.ə.,* с.31-34.

[812] R. Kılıç, *Kanuni devri Osmanlı-İran münasebetleri.*, s.354-355; N. Gümüş, *Gürcüstanın fethi.*, s.327; Н. Бердзенишвили, И. Джавахишвили и С. Джанашиа, *История Грузии.*, с.321.

mon (1558-1564) həbs edilərək şahın göstərişi ilə Ələmut qalasına salınmışdı[813].

Şah I Təhmasibin ölümündən sonra Səfəvi dövlətində başlayan siyasi hakimiyyət böhranı Gürcü çarlarının itaətsizliyinə gətirib çıxardı. Bu dövrdə Osmanlı imperiyasının Səfəvi dövlətinə qarşı işğalçılıq yürüşləri yenidən başlandı. Səfəvi dövlətindəki mövcud siyasi böhrandan istifadə edən osmanlılar Səfəvi dövlətinin böyük bir hissəsini işğal etdilər. Bu işğallar nəticəsində gürcü çarlıqları də osmanlıların nəzarətinə keçdi.

Səfəvi dövləti ilə Osmanlı imperiyası arasında bağlanan İstanbul sülh müqaviləsinin (1590) 2-ci bəndinə əsasən gürcü əraziləri tamamilə Osmanlı imperiyasının tərkibinə daxil edildi[814].

Ümumiyyətlə, XVI əsrdə Səfəvi dövləti ilə gürcü çarları arasında mövcud olan münasibətlərə yekun vuraraq bu nəticəyə gəlmək olar ki, bu dövrdə Gürcü carları Səfəvi dövlətindən vassal asılılığında olmuş və Səfəvi xəzinəsinə illik xərac vermişlər. Müəyyən dövrlərdə gürcü çarlarının itaətsizliyi səbəbindən səfəvilər bu ərazilərə hərbi yürüşlər təşkil edərək bu itaətsizliyin qarşısını almış və bu bölgəyə nəzarəti bərpa etmişlər. XVI əsrin ortalarına doğru osmanlıların Səfəvi dövlətinə qarşı mütəmadi xarakter alan  hərbi yürüşləri nəticəsində gürcü əraziləri Osmanlı imperiyasının tərkibinə daxil edilmişdi.

XV əsrin ortalarından etibarən Moskva knyazı III İvanın (1462-1505) Rusiya torpaqlarını öz siyasi hakimiyyəti altında birləşdirmək siyasəti oğlu Vasilinin hakimiyyəti dövründə də (1505-1533) davam etdirildi. XVI əsrin birinci yarısında knyazlığın ərazisinin getdikcə genişləndirilməsi və mərkəzi hakimiyyətin gücləndirilməsi Moskva knyazlığının beynəlxalq aləmdə

---

[813] O. Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti.*, s.93; В. Багратиони, *История царства Грузинской.*, с.38-42; П. Горгиджанидзе, *История Грузии*, с.36-39.

[814] F. Kırzıoğlu, *a.g.ə.,* s.172.

nüfuzunun artmasına və xarici siyasi əlaqələrinin güclənməsinə səbəb oldu[815].

Bu dövrdə Moskva knyazlığının beynəlxalq nüfuzunun artması Azərbaycanın bu dövlətlə münasibətlərinin inkişafına ciddi zəmin yaradırdı. Azərbaycanın Moskva knyazlığı ilə əsası XV əsrin ikinci yarısında qoyulan əlaqələri səfəvilərin hakimiyyəti dövründə də davam etmişdi[816].

XVI əsrdə Azərbaycanla Moskva knyazlığı arasında münasibətlərin inkişafının əsasında Osmanlı imperiyasına qarşı birgə mübarizə və ticarət maraqları dayanırdı. Bu dövrdə Xəzər hövzəsini ələ keçirmək uğrunda Osmanlı imperiyasının həyata keçirdiyi hərbi-siyasi tədbirlər Səfəvi hakimiyyətinin və Xəzərətrafı ərazilərdə siyasi dayaqlarını gücləndirməyə çalışan Moskva knyazlığının strateji maraqlarına cavab vermirdi. Eyni zamanda E.S.Zevakinin qeyd etdiyi kimi, bu diplomatik münasibətlərin başlıca vəzifəsini ticarət əlaqələrinin inkişafı təşkil edirdi[817]. Bu baxımdan Moskva knyazlığının Şərqlə iqtisadi-ticarət əlaqələrinin inkişafında Azərbaycanın müstəsna əhəmiyyəti var idi. Həmçinin Azərbaycanın Avropa ilə ticarət əlaqələrində Volqa-Xəzər yolunun çəkisi getdikcə artırdı. Belə bir şəraitdə hər iki dövlətin siyasi münasibətlərinin aktivləşməsi zəruri idi.

Səfəvi dövlətinin Moskva knyazlığı ilə ilk diplomatik əlaqələri Şah I İsmayılın hakimiyyətinin son illərinə aiddir. 1521-ci ildə Səfəvi hökmdarı Moskvaya səfarətxana yollayaraq Moskva knyazı III Vasilidən "çoxlu top, usta və yaraq-əslahələr" almaq üçün danışıqlar aparmışdı[818]. Görünür ki, bu zərurət Osmanlı

---

815 A. Kurat, *Rusya tarihi (Başlangıçtan 1917'ye kadar),* Ankara, Türk Tarih Kurumu Basımevi, 1988, s.126; Г. Вернадский, *Русская история,* М, Аграф, 2001, с.89-91; *История дипломатии*, под ред. В. Потемкина. т.1. М, ОГИЗ, 1941, с.198-200.

816 Ф. Алиев, *Азербаджано-Русские отношения (XV-XIX вв.).*, с.24.

817 Е. Зевакин, Персидский вопрос в русско-европейских отношениях XVII в., *Исторические записки, 1940, № 8,* с. 157.

818 П. Бушев, *История посольств и дипломатических отношений Русского и Иранского государства в 1586-1612 гг.*, с.36; O. Əfəndiyev,

imperiyası ilə müharibə vəziyyətində olan Səfəvi ordusunda odlu silahların çatışmaması ilə əlaqədar olmuşdu.

Şah I Təhmasibin hakimiyyəti dövründə uzunmüddətli Səfəvi-Osmanlı müharibələri Səfəvi dövləti ilə Moskva knyazlığı arasında diplomatik əlaqələrin güclənməsinə səbəb oldu. Şah I Təhmasib 1552-ci ilin ikinci yarısında Moskvaya Seyid Hüseynin rəhbərliyi ilə bir diplomatik heyət göndərdi. Bu elçi heyətinin gəlişinin əsas məqsədi Rusiya ilə diplomatik münasibətlərin qurulması idi[819]. Moskvada Seyid Hüseynin apardığı danışıqların nəticəsi barədə məlumatlar yoxdur. Lakin P.P.Buşevin qeyd etdiyi kimi, "ehtimal etmək olar ki, Moskva hökuməti Volqaboyu ərazilərin istilası ərəfəsində Səfəvi hökmdarının təşəbbüsünə, xüsusilə ticarət məsələsinə müsbət yanaşmışdı. Ancaq o, çox güman ki, Osmanlı sultanı və Krım xanı ilə münasibətlərini pozmaqdan qorxaraq çox irəli gedən təklif və vədlərdən çəkinmişdi"[820]. Həmçinin çox güman ki, bu danışıqlarda Osmanlı imperiyası əleyhinə hərbi ittifaq haqqında məsələyə də toxunulmuşdu. Çünki bu dövrdə Osmanlı imperiyası Səfəvi dövlətinə qarşı işğalçılıq müharibəsi aparırdı.

Rusiya tərəfindən Qazan (1552) və Həştərxan (1556) xanlıqlarının işğalı nəticəsində Moskvadan Xəzər dənizinə birbaşa su yolunun açılması Səfəvi-Rusiya ticarət əlaqələrinin inkişafına ciddi təkan verdi və Səfəvi hakimiyyətinin şimal qonşusu ilə siyasi münasibətlər yaratmaq marağını artırdı.

Səfəvi hakimiyyəti 1561-ci ildə Moskvaya növbəti səfirlik göndərdi. Bu səfirlik haqqında Rusiya arxivlərində məlumat verilmir[821]. Lakin bu barədə ingilis taciri Antoni Cenkinson öz

---

*Azərbaycan Səfəvilər dövləti.,* s.99; Ф. Алиев, *Азербаджано-Русские отношения (XV-XIX вв.).,* с.24.

819 O. Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti.*, s.99; А. Гусейнов, *Азербайджано-Русские отношения (XV-XVII веков).,* с.116.

820 П. Бушев, *История посольств и дипломатических отношений Русского и Иранского государства в 1586-1612 гг.,* с.40.

821 П. Бушев, *История посольств и дипломатических отношений Русского и Иранского государства в 1586-1612 гг.,* с. 42.

“Səyahətnamə”sində məlumat verərək yazır: 15 mart 1562-ci ildə mən yenidən hökmdar (Rus çarı – M.A.) və Persiya (Səfəvi-M.A.) səfiri və başqa adamlarla nahar etdim və mən hökmdarın əlindən içki dolu badə aldım və bundan sonra onunla vidalaşdım. Çar mənə ancaq fərmanlar vermədi, həmçinin mənə vacib işlər tapşırdı, mən onları getməyə hazırlaşdığım ölkələrdə yerinə yetirməliydim. Yol üçün hazırlıqlar görüb mən 27 aprel 1562-ci ildə Persiya (Səfəvi-M.A.) səfiri ilə Moskvadan böyük Volqa çayı ilə aşağı səyahətə çıxdım ”[822].

Bu dövrdə Səfəvi hakimləri ilə Rusiya arasında da siyasi əlaqələr mövcud olmuşdu. Belə ki, Səfəvi dövlətinin Şirvan bəylərbəyisi Abdulla xan 1563-cü il noyabrın 1-də ticarət danışıqları aparmaq üçün Moskvaya elçi heyəti göndərmişdi[823].

Osmanlı imperiyasinın Avstriya ilə sülh müqaviləsi (1568) bağlayaraq Həştərxana hücuma hazırlaşması Polşa və İsveçlə müharibə vəziyyətində olan Rusiya hökumətini ciddi narahat etməyə başladı. Bu zamana qədər Səfəvi dövləti ilə ticarət əlaqələrinin inkişafına üstünlük verən Rusiya osmanlı təhlükəsini nəzərə alaraq Osmanlı imperiyasına qarşı birgə mübarizə aparmaq üçün Səfəvi hakimiyyəti ilə danışıqlara başladı. Bu münasibətlə Rus hökuməti 1569-ci il mayın 14-də Aleksey Xosnikovu 100 top və 500 tüfəngdən ibarət hərbi sursatla birlikdə danışıqlar aparmaq üçün Qəzvinə göndərdi[824]. N.M.Karamzin bu məlumatı belə şərh edir: “İoan (IV İvan) Sultana qarşı onunla (I Təhmasiblə - M.A.) sıx ittifaq yaratmaq arzu etdiyi üçün 1569-cu ilin may

---

[822] *Английские путешественники в Московском государстве в XVI веке.*, с.201-202.

[823] А. Гусейнов, *Азербайджано-Русские отношения (XV-XVII веков).*, с.117; O. Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti.*, s.100; Ə. Quliyev, *Azərbaycan-Rusiya münasibətləri tarixindən(XV-XVII əsrlər),* Bakı, Azərnəşr, 1958, s.16.

[824] Ф. Алиев, *Азербаджано- Русские отношения (XV-XIX вв.).*, с.30; O. Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti.*, s.100.

ayında İrana (Səfəvilər dövləti) məmur Aleksey Xosnikovu göndərdi”[825].

Rus elçisinin Səfəvi sarayında apardığı danışıqlar nəticəsiz başa çatdı. Çünki Səfəvi hakimiyyəti Osmanlı imperiyası ilə bağladığı Amasya sülh müqaviləsini (1555) nəzərə alaraq rus çarının osmanlılara qarşı birgə mübarizə təklifini rədd etdi[826].

Beləliklə, XVI əsrin ortalarından Səfəvi dövləti ilə Rusiya arasındakı başlayan münasibətlər tərəflər arasında ticarət əlaqələrinin inkişafına təkan versə də, Osmanlı imperiyasına qarşı hərbi ittifaqla nəticələnmədi. Çünki səfəvilərlə osmanlılar arasında bağlanmış sülh (1555) və Rusiya ilə İsveç arasında davam edən Livoniya müharibəsi (1558-1583) səbəbindən Səfəvi dövləti və Moskva knyazlığı Osmanlı imperiyasına qarşı birgə çıxış edə bilmədilər.

1578-ci il Osmanlı-Səfəvi müharibəsi nəticəsində Səfəvi dövlətinin böyük bir hissəsi Osmanlı imperiyası tərəfindən işğal olundu və osmanlılar Xəzər dənizinin cənub sahillərinə gəlib çatdılar. Osmanlı imperiyasına qarşı mübarizədə ölkənin siyasi və hərbi resurslarını səfərbər etməkdə çətinlik çəkən Səfəvi hökmdarı Sultan Məhəmməd Xudabəndə (1578-1587), osmanlılara qarşı mübarizə aparmaq üçün Moskvaya hərbi yardım barədə müraciət etməyə məcbur oldu. Bu məqsədlə 1586-cı ilin payızında Səfəvi hökmdarı elçisi Hadi bəyi (Əndi bəy) Moskvaya yola saldı[827].

Moskvaya səfər edən Hadi bəy Osmanlı imperiyasına qarşı Rus çarından hərbi yardım istədi. Bunun əvəzində o, vəd edirdi ki, rusların osmanlılara qarşı mübarizədə səfəvilərə kömək edəcəyi təqdirdə Səfəvi dövləti Dərbəndi, Bakını və onların ara-

---

[825] П. Бушев, *История посольств и дипломатических отношений Русского и Иранского государства в 1586-1612 гг.*, с.44.

[826] Ф. Алиев, *a.g.ə.,* с.30.

[827] П. Бушев, *История посольств и дипломатических отношений Русского и Иранского государства в 1586-1612 гг.*, с.57; А. Гусейнов, *Азербайджано-Русские отношения (XV-XVII веков).*, с.138.

sındakı sahilboyu zonanı Moskva knyazlığının tabeliyinə verəcəkdir[828].

Səfəvi elçisinin cəlbedici təklifini müsbət qarşılayan Rus carı Fyodor (1584-1598) Səfəvi dövlətinə cavab səfarətxanası göndərməyi qərara aldı. 1588-ci ilin yazında rus hökuməti Q.B.Vasilçikovun rəhbərliyi ilə Səfəvi sarayına bir elçi heyəti göndərdi. Vasilçikovun missiyasının əsas məqsədi şah sarayı ilə dostluq münasibətlərinin yaradılması və Osmanlı imperiyasına qarşı hərbi sazişin bağlanması üçün ilkin danışıqların aparılması idi[829].

Rus elçi heyətinin səfəri dövründə artıq Səfəvi dövlətində əhəmiyyətli dərəcədə siyasi dəyişikliklər baş vermişdi. Səfəvi dövlətində hakimiyyətə Sultan Xudabəndənin oğlu Şah I Abbas (1587-1629) gəlmişdi.

1589-ci il aprelin 6-da rus elçisi Vasilçikov Qəzvində Şah I Abbas tərəfindən qəbul edildi. Səfəvi hökmdarı ilə görüşdə elçi bildirdi ki, Hadi bəy vasitəsilə Şah Xudabəndə tərəfindən təklif edilmiş şərtlərlə rus çarı razıdır. Eyni zamanda rus elçisi, Şah Xudabəndənin Hadi bəy vasitəsilə Moskvaya göndərdiyi məktubu Səfəvi hökmdarına xatırladaraq osmanlılar tərəfindən işğal edilmiş Bakı, Şamaxı və Dərbəndin şah qoşunları tərəfindən geri alınacağı təqdirdə bu şəhərləri Rusiyaya verməyi vəd etdiyini bildirdi. Lakin Şah I Abbas elçiyə bildirdi ki, bu şəhərlərin yalnız rus toplarının gücü ilə türklərin əlindən alınacağı təqdirdə Rusiyaya "güzəştə getməyə" hazırdır. Lakin bu şəhərlər Səfəvi qoşunlarının gücü ilə geri alınarsa, onda "güzəşt" barədə söhbət gedə bilməz. Həmçinin I Şah Abbas bu görüşdə Osmanlı imperiyasına qarşı hərbi ittifaqın bağlanmasına dair məsələyə də birbaşa cavab vermədi[830].

---

[828] Ф. Алиев, *Азербаджано- Русские отношения (XV-XIX вв.).,* с.31; П. Бушев, *a.g.ə.,* с.59.

[829] Ф. Алиев, *a.g.ə.,* с.32.

[830] *Памятники дипломатических и торговых сношений Московский Руси с Персией,* Под ред. Н. Веселовского, т.1., Санкт-Петербург,

Moskva knyazlığı ilə diplomatik danışıqları davam etdirmək üçün Səvəfi hakimiyyəti elçi Budaq bəyi, rus elçisi ilə birlikdə Moskvaya yola saldı[831].

Göründüyü kimi, Vasilçikovun diplomatik missiyası konkret nəticələrlə başa çatmadı. Çünki bu dövrdə Şah I Abbas ölkəni siyasi böhrandan xilas etmək və dövlətin iqtisadi-siyasi mövqeyini möhkəmləndirmək üçün Osmanlı hakimiyyəti ilə sülh danışıqları aparırdı. Belə bir vəziyyətdə osmanlılar əleyhinə hər hansı bir razılaşma Səvəfi-Osmanlı sülh danışıqlarına ciddi zərbə vura bilərdi. Bu səbəbdən Səfəvi dövləti Rusiyanın osmanlılara qarşı bu siyasi addımını müdafiə etmədi.

1590-cı ildə Şah I Abbas hakimiyyəti Osmanlı imperiyası ilə sülh müqaviləsi bağladı. Bu müqavilə nəticəsində osmanlılar tərəfindən işğal olunmuş Səfəvi dövlətinin böyük bir hissəsi Osmanlı imperiyasının tərkibinə qatıldı.

XVI əsrin sonlarında da Azərbaycanla Rusiya arasında diplomatik əlaqələr davam edirdi. Bu dövrdə Səfəvi hakimiyyətinin əsas məqsədi ölkənin osmanlılar tərəfindən işğal olunmuş ərazilərini azad etmək idi. Bu səbəbdən Şah I Abbas Osmanlı imperiyasına qarşı birgə mübarizə aparmaq üçün Moskva knyazlığı ilə əməkdaşlıqda maraqlı idi.

Bu dövrdə Səfəvi hakimiyyəti Rusiya ilə siyasi-diplomatik və ticarət əlaqələrin inkişaf etdirmək məqsədilə Hacı Xosrovu (1592-1594), elçi Hadi bəy və tacir Əli Xosrovu (1594-1596), Qayanı (1591-1593) və Hacı İsgəndəri (1593-1595) danışıqlar aparmaq üçün Moskvaya göndərmişdi. Lakin Moskva hökuməti Səfəvi dövlətinin bu siyasi addımlarına rəsmi cavab ver-

---

Товарищество Паровой Скоропечатии Яблонский и Пероттъ, 1890, с.87, 95-96; П. Бушев, *История посольств и дипломатических отношений Русского и Иранского государства в 1586-1612 гг.*, с.106-110.

[831] *Памятники дипломатических и торговых сношений Московский Руси с Персией.*, сс.131-134; П. Бушев, *a.g.ə.,* с.122.

mədi. Görünür İsveç ilə müharibə, Rusiyanı Osmanlı imperiyasına qarşı hər hansı bir siyasi addım atmaqdan çəkindirirdi[832].

Moskva knyazlığının Osmanlı imperiyasına qarşı birgə mübarizə aparmaq üçün Səfəvi hakimiyyəti ilə növbəti danışıqlar cəhdi 1594-cü ildə oldu. Rus hökuməti 1594-cü ilin may ayında Andrey Zveniqorodskinin rəhbərliyi ilə Səfəvi sarayına bir səfarətxana göndərdi. I Şah Abbas rus elçi heyətini 1595-ci il aprelin 7-də qəbul etdi. Bu görüşdə Səfəvi şahı elçiyə bildirdi ki, o, rus çarını inandırsın ki, öz qoşunlarını Şirvanda türklərə qarşı yönəltsin. Hətta vəd etdi ki, rus qoşunları Dərbənd və Bakini türklərin əlindən alsalar, o buna etiraz etməyəcək[833].

Bu görüşdən sonra danışqları davam etdirmək üçün Səfəvi elçisi Pakizə İmamqulu Bəy rus elçisi ilə birlikdə Moskvaya yola salındı[834].

Moskva hökuməti Səfəvi dövlətindən gələn elçiyə cavab olaraq 1597-ci ilin yazında elçi Vasiliy Tyufyakini Səfəvi sarayına göndərdi. Lakin Rus hökumətinin bu siyasi cəhdi də konkret olaraq bir nəticə ilə sona çatmadı[835].

Dövrün tədqiqatçısı F.Hüseyn haqlı olaraq qeyd edir ki, Şah I Abbasın Azərbaycan şəhərlərini Moskva dövlətinə güzəştə

---

832 *Памятники дипломатических и торговых сношений Московский Руси с Персией.*, с.160-165; 209-213; *Памятники дипломатических сношений древней России с державами иностранными,* т.2. Санкт-Петербург, Изд. Отделениемъ Собственной Е. И. В. Канцелярии, 1852, с.149-150; П. Бушев, *История посольств и дипломатических отношений Русского и Иранского государства в 1586-1612 гг.*, с.229.

833 *Памятники дипломатических и торговых сношений Московский Руси с Персией.*, с.221-229; П. Бушев, *История посольств и дипломатических отношений Русского и Иранского государства в 1586-1612 гг.*, с.235, 251; Ф. Алиев, *Азербаджано-Русские отношения (XV-XIX вв.).*, с.35.

834 *Памятники дипломатических и торговых сношений Московский Руси с Персией.*, с.277; П. Бушев, *a.g.ə.*, s.267.

835 *Памятники дипломатических и торговых сношений Московский Руси с Персией.*, с.335; Ф. Алиев, *Азербаджано-Русские отношения (XV-XIX вв.).*, с.35; П. Бушев, *a.g.ə.*, s.276.

getmək cəhdi diplomatik manevrdən başqa bir şey deyildi. XVI əsrin sonu XVII əsrin əvvəllərində Səfəvi dövlətinin Moskva dövlətilə diplomatik əlaqələri təsdiq edir ki, Səfəvilərin Azərbaycan şəhərlərini ruslara güzəştə getməsinin heç bir əsası yox idi. Çünki qeyd olunan şəhərlər Osmanlı dövlətinin nəzarəti altında idi. Rusiyanın tələblərinə Səfəvilər diplomatik manevrlərlə cavab vermişdi. Osmanlı dövləti əleyhinə ittifaq yaradılması və şəhərlərin güzəştə gedilməsi kimi ciddi bir məsələnin müzakirəsi üçün rusların bütün tələblərinə baxmayaraq, Səfəvi şahı tərəfindən səlahiyyətli nümayəndə heyəti göndərilməmişdi[836].

Ümumiyyətlə, Şah I Abbasın hakimiyyəti dövründə Osmanlı imperiyasına qarşı birgə mübarizə aparmaq üçün Səfəvi dövləti ilə Rusiya arasında diplomatik danışıqlar aparılsa da, bu danışıqlar müsbət sonluqla başa çatmadı. Çünki Moskva hökuməti özünə ciddi təhlükə hesab etdiyi Osmanlı imperiyasını Cənubi Qafqazdan Səfəvi dövlətinin əli ilə vurub çıxartmaq istədiyi üçün osmanlılara qarşı birbaşa mübarizə aparmaqda maraqlı deyildi. Həmçinin uzun müddət davam edən Livoniya müharibəsi nəticəsində daxili böhran keçirən Moskva knyazlığının mövcud beynəlxalq siyasi vəziyyəti Osmanlı imperiyasına qarşı mübarizə aparmağa imkan vermirdi.

## 2.5. Azərbaycan Səfəvi dövlətinin beynəlxalq münasibətlər sistemində yeri və rolu

XVI əsrin əvvəllərindən başlayaraq dünyada baş verən siyasi və iqtisadi dəyişikliklər Yaxın və Orta Şərqdə də ciddi hadisələrlə müşahidə olunurdu. Bu dövrdə öz siyasi coğrafiyasını genişləndirməkdə olan Osmanlı imperiyası, Azərbaycan, Şərqi Anadolu, İraqi-Ərəb, İraqi-Əcəm, Fars və Xorasan vilayətlərini öz hüdudlarında birləşdirən və Azərbaycan Ağqoyunlu dövləti-

---

[836] Ф. Гусейн, К вопросу об обещании шаха Аббаса уступить Московскому государству Дербент, Баку и Шемаху, *Вопросы истории. М.: 2010, №9,* с.121-122.

nin etno-siyasi irsinin daşıyıcısı olan Azərbaycan Səfəvi dövləti, Mavəraünnəhr bölgəsində hakim olan Şeybanilər, Hindistanda Böyük Moğol imperiyası, Misir, Suriya, Hicaz ərazilərini əhatə edən Məmlük dövləti baş verən siyasi hadisələrdə fəal iştirak edirdilər.

Bu dövrdə Avrasiya məkanında cərəyan edən hadisələr beynəlxalq münasibətlər sisteminin inkişafına ciddi təkan verdi. Bu dövrdə beynəlxalq münasibətlər feodalizmin Avropada dağılması, kapitalist münasibətlərinin yaranması, "Böyük coğrafi kəşflər" və müstəmləkə işğalları fonunda baş verirdi. Avropada vahid dövlətlərin yaranması prosesinin başlanması ilə "dövlət marağı" prinsipi, Avropa dövlətlərinin siyasi və iqtisadi sistemində əsas prinsip kimi ön plana keçdi[837].

XV əsrin sonu XVI əsrin əvvəllərindən başlayan "Böyük coğrafi kəşflər" dünyanın siyasi xəritəsinin zənginləşməsinə və Avropa dövlətlərinin Şərqə olan iqtisadi və siyasi maraqlarının artmasına səbəb oldu. Portuqaliya dənizçisi Vasqo da Qamanın Hindistana dəniz yolunu kəşf etməsi (20 may/1498) Asiya ilə Avropa arasında iqtisadi-ticarət sisteminin inkişafına ciddi təkan verdi[838].

Bu dövrdə Kiçik Asiya və Balkanların ışğalı nəticəsində Aralıq dənizində hegemonluğu ələ alan Osmanlı imperiyası Avropanın Şərq ölkələri ilə ticarət əlaqələri üçün ciddi təhlükə yaradırdı. Cünki Osmanlı hakimiyyətinin yeritdiyi ağır "gömrük siyasəti" Şərq-Qərb ticarətinə böyük zərbə vururdu. Digər tərəfdən bu dövrdə iqtisadi və siyasi böhran dövrünü yaşayan Məmlük dövləti ölkəni böhrandan çıxarmaq üçün Misir və Suriya

---

[837] *История дипломатии,* под ред. В. Потемкина, т.1., с.172; *История дипломатии,* сост. А. Лактионов, М, АСТ, 2005, с.197.

[838] А. Хазанов, *Экспансия Португалии в Африке и борьба Африканских народов за независимость (XVI-XVIIIвв.),* Москва, Наука, 1976, с.30; *История Европы (От средневековйя к новому времени конец XV-первая половина XVII в.),* ответственные редакторы Л. Мильская и В. Рутенбург, т.3. М,Наука, 1993, с.389.

üzərindən Avropaya daşınan Hind malları üzərində gömrük vergisini artırdı. Hind mallarını Avropaya daşıyan Portuqaliyalı tacirlər bu ağır vergilərdən qurtarmaq üçün yeni ticarət yolları axtarmağa başladılar. Nəticədə Atlantik okeanı vasitəsilə Hindistana gedən dəniz yolu kəşf olundu. Portuqliyalı dənizçi Vasqo da Qamanın ərəb coğrafiyaşünası və dəniz bələdçisi Əhməd ibn Məcidin köməyi ilə Hindistana çatması Avropa dövlətlərinin Şərqdə müstəmləkəçilik siyasətinin əsasını qoydu[839].

XVI əsrdən başlayaraq ticarət yollarının okeanlara keçməsi Avropanın Şərq ticarətinin Osmanlı təhlükəsindən qurtulması demək idi. Çünki "okean ticarət yolu"nun kəşf olunması ilə osmanlıların nəzarət etdiiyi "Aralıq dənizi ticarət yolu" və məmlüklərin nəzarət etdiyi "Qırmızı dəniz ticarət yolu"na ciddi alternativ yarandı.

Hindistana dəniz yolunun kəşfi Portuqaliyanı dünya siyasətində ön plana çıxardı. Portuqaliya istər iqtisadi-siyasi, istərsə də hərbi-strateji cəhətdən digər Avropa dövlətləri ilə müqayisədə üstünlüyü ələ aldı və Avropa ilə Asiyanı birləşdirən əsas ticarət yolunu öz nəzarətinə götürdü. Həmçinin Portuqliya, Hind ticarətində özünün əsas rəqibi olan Misir və Qırmızı dəniz vasitəsilə Hind malları üzərində inhisarını saxlayan Venesiyanın ticarət fəaliyyətini blokadaya almaq üçün ciddi cəhdlə mübarizə aparırdı[840].

Şərqlə Qərb arasında yeni "okean ticarət yolu"nun kəşf olunması, bölgədə iqtisadi-ticarət maraqları üst-üstə düşən dövlətlərin siyasi mübarizəsinə ciddi surətdə təkan verdi. Portuqalların Hind okeanı üzərində ticarət yolunu ələ keçirmək istiqamə-

---

[839] *История Европы, (От средневековйя к новому времени-конец XV-первая половина XVII в.),* Ответственные редакторы Л. Мильская и В. Рутенбург. т.3., М, Наука, 1993, с.388; А. Хазанов, *Экспансия Португалии в Африке и борьба Африканских народов за независимость (XVI-XVIIIвв.),* Москва, с.30; İ. Yiğıt, *İslam tarihi.*, s.126.

[840] А. Хазанов, *Экспансия Португалии в Африке и борьба Африканских народов за независимость (XVI-XVIIIвв.).*, с.31.

tindəki addımları, Şərq-Qərb dəniz ticarətinin aparıcı dövlətlərindən olan Misir Məmlük dövləti və Venesiya Respublikasının ciddi müqavimətinə səbəb oldu.

Böyük coğrafi kəşflər dünyanın siyasi xəritəsini zənginləşdirməklə yanaşı dünya iqtisadi sisteminin formalaşmasına da münbit şərait yaratdı. Amerika sosioloqu E.Vallerşteyn dünya iqtisadi sisteminin formalaşması haqqında qeyd edir ki, "XV əsrin sonu XVI əsrin əvvəllərində dünya iqtisadi sistemi formalaşmağa başladı. Hələ qədimdə Çin, İran, Roma kimi imperiyalar dünya iqtisadi sisteminin ilk görüntülərini yaratmışlar. Orta əsrlərdə xaç yürüşləri, rekonkista, Böyük coğrafi kəşflər bu sistemi formalaşdırmağa kömək etdi"[841].

Dünya iqtisadi sisteminin formalaşma prosesinin başlaması beynəlxalq münasibətlər sisteminin hüquqi əsasını təşkil edən beynəlxalq hüquq normalarının daha da təkmilləşməsinə səbəb oldu. Beynəlxalq siyasi və ticarət qanunlarının təkmilləşməsi Avropa dövlətləri ilə Şərq ölkələri arasında siyasi və ticarət əlaqələrinin intensiv inkişafına müsbət şərait yaratdı.

XVI əsrdə dünya okean ticarətinin genişlənməsi ilə beynəlxalq ticarət münasibətlərini tənzimləmək üçün daha təkmil ticarət qanunları qəbul edildi. Belə ki, "Açıq dənizlər" haqqında qəbul edilən qanunlar, beynəlxalq ticarət hüququnun və beynəlxalq gömrük qaydalarının daha da təkmilləşdirilməsi beynəlxalq ticarət əlaqələrinin genişlənməsinə təkan verdi[842]. XV əsrin ikinci yarısından etibarən daimi səfirlik xidmətinin yaranması (1480-ci ildə İtaliyada, 1490-cı ildə Fransa və İspaniyada, 1510-cu ildə Vatikanda) dövlətlərarası diplomatik münasibətlərin inkişafına müsbət təsir göstərdi[843].

---

[841] В. Зарин, *Запад и Восток (в мировой истории XIV-XIX вв.),* М, Наука, 1991, с.69.

[842] Л. Левин, *История международного права.,* с.112, 118.

[843] *История Европы(От средневековия к новому времени-конец XV-первая половина XVII в.).,* с.386; Y. Mahmudlu, *Azərbaycan diplomatiyası.,* s.92.

XVI əsrin əvvəllərindən başlayaraq dünyada baş verən dəyişikliklər Avrasiya məkanında siyasi-iqtisadi və mədəni inteqrasiyanın sürətlənməsinə səbəb oldu. Bu dövr Avrasiya məkanının böyük bir hissəsini əhatə edən,  türk və türk-monqol siyasi irsinin daşıyıcısı olan dörd türk imperiyasının (Səfəvi dövləti, Osmanlı imperiyası, Şeybanilər dövləti, Böyük Moğol dövləti) mövcud olduğu dövrə təsadüf edir.

Bu dövrdə bölgədə baş verən siyasi hadisələrdə aktiv iştirak edən Azərbaycan Səfəvi dövlətinin beynəlxalq münasibətlər sistemində böyük rolu olmuşdur.

XVI əsrin əvvəllərində (1501) Şah I İsmayılın Azərbaycanda siyasi hakimiyyətə gəlməsi ilə qurulan Səfəvi dövləti Şərqi Anadolu da daxil olmaqla Azərbaycanın bütün ərazisini əhatə edərək İraq-i Ərəb, İraq-i Əcəm, Qərbi İran və Xorasan əyalətlərini öz siyasi hakimiyyətinə daxil etmiş və qısa bir müddətdə Ön Asiyada aparıcı mövqeyə malik olan dövlətlərdən birinə çevrilmişdi.

Türkiyə tarixçisi Nurtən Kılıcın qeyd etdiyi kimi, "dini-siyasi və hərbi əsasını Qızılbaş-türk tayfaları təşkil edən səfəvilər, XIV əsrdə Şeyx Səfiəddinin yaratdığı dini bir təriqətdən, XV əsrdə onun varisləri Şeyx Cüneyd və Şeyx Heydərin Azərbaycanda və Anadoluda apardığı fəaliyyət nəticəsində dini-siyasi hərəkata və XVI əsrin başlanğıcında Şah I İsmayılın Azərbaycanda hakimiyyətə gəlməsi ilə Səfəvi-Qızılbaş dövlətinə çevrilmişdir. Elxani, Teymuri, Ağqoyunlu, siyasi mirasının daşıyıcısı olan bir bölgədə meydana çıxan Səfəvi-Qızılbaş dövləti, bu dövlətin banisi Şah I İsmayılın şəxsində Seyx Səfiəddin ailəsinin ağqoyunlularla qohumluq əlaqələrinə görə bu siyasi mirasın varisi olmuşdur"[844].

Həqiqətən də tarixçi Nurtən Kılıcın qeyd etdiyi kimi, Azərbaycanda Səfəvilər sülaləsinin hakimiyyətə gəlişi siyasi cə-

---

[844] N. Kılıc-Schubel, *XVI yüzyıl Avrasya dünyasında bölgesel birlik ve çeşitlilik Osmanlı, Özbek, Safevi ve Hind-Baburlu imparatorlukları: bütünsel bir yaklaşım,* Osmanlı 1, Ankara, Yeni Türkiye Yayınları, 1999, s.432-433.

hətdən legitimlik statusuna malik idi və qızılbaş hakimiyyəti ağqoyunlu siyasi mirasının varisi rolunda çıxış edirdi. Bu amili Ağqoyunlu hökmdarı Həsən bəy Bayandurun və Səfəvi hökmdarı Şah I İsmayıl Səfəvinin tuğralarının oxşarlığı da təsdiq edir.

Uzun Həsən Bayandurun tuğrasında əks olunan "əl-Hökmü lillah. Əbün-nəsr Həsən Bahadır bəy sözümüz" ifadəsi ilə Şah I İsmayıl Səfəvinin tuğrasında əks olunan "əl-Hökmü lillah. Əbül-müzəffər İsmayıl Bahadır sözümüz" ifadəsi mahiyyətcə eyniyyət təşkil edir[845].

Azərbaycan Xalq Cümhuriyyətinin qurucusu Məhəmməd Əmin Rəsulzadə Azərbaycanın dövlətçilik tarixini təhlil edərkən yazırdı: "İllərdən bəri çevrələrindəki xalq kütlələri üzərində, bütün türk ellərindəki dədələri kimi dərin nüfuz və təsir sahibi olan Ərdəbildəki Şeyx Səfi ocağından zühur edən Şah İsmayıl şiə dövlətini qurmaq üçün hərəkətə keçir. Səfəvi dövlətinin qurucusu həqiqətdə bir türk sufisi və Azərbaycanlı bir şair idi. İstinad etdiyi qüvvət də tamamilə türk qüvvəti idi. Türkman qəbilələri, bu qüvvətin kökünü təşkil edirdi. Onun sadə bir türkcə ilə yazılan ilahiləri rəsmi hüdudları aşaraq türk topluluqlarının ruhları üzərində müəssir olurdu. Şah İsmayılın sarayı Azəri türk ədəbiyyatının yaradıcı ocağı və bir akademiyası idi. Bu saraya Həbibi kimi şairlər mənsubdu. Şeirdə Xətai təxəllüsündən istifadə edən İsmayıl, xalqın vurulacağı sadə bir dillə yazırdı. Səfəvi sarayının rəsmi dili də türkcə idi. Qonşu dövlətlərə göndərdiyi notalar türkcə yazılırdı. Səfəvi dövlətinin Osmanlılara göndərdiyi notalar türkcə ikən, Osmanlı sarayının Səfəvilərə yazdıqları notalar farsca idi. Rəsmi Türk dövlətlərində misali yox ikən, çevrəsindəki türkdilli şairlər Şah İsmayıla "Türki-tacdar" deyə xitab edirlərdi. Bu dövrdəki şairlər yalnız "Taclı türk"ə deyil, onun da

845 J. Woods, *Akkoyunlular: The Aqquyunlu Clan, Confederation, Empire*, ingilizceden türkçeye çeviren S. Özbudun, İstanbul, Milliyet Yayınları, 1993, s.304.

xitab etdiyi əsil türk kütləsinə müvəffəqiyyətlə xitab edə bilmək üçün türkcə yazırdılar”[846].

Səfəvi dövlətinin yaranması ilə bağlı tarixçi Fernand Grenardın fikirləri də maraq doğurur: “Şah İsmayıl on üç yaşına gəldiyi zaman yeddi silahdaşı ilə bərabər əsasını yeddi türk tayfası təşkil edən tərəfdarlarını topladı. Türkman hökmdarını məğlub edərək Təbrizə girdi və 1501-ci ildə tac qoydu. Qısa zamanda onun hakimiyyəti Fəratdan Qəndahara, Qafqazdan Hind okeanına qədər, 2.800.000 kilometrlik bir ərazini əhatə etməyə başladı... Biz bir millətin yenidən quruluşunu gördük. Bu yeni siyasi birlikdə din, irq, vətən fikirləri yoxdur. Böyük əyalətlərdən çoxu türkcə və ya ərəbcə danışır, iranlı deyildirlər. Səfəvi sarayında türkcə daha uzun müddət hökmran olacaqdır”[847].

İran tarixçisi Nəsrulla Fəlsəfi yazır ki, “Şah İsmayıl ata tərəfdən özünü seyid Əli nəsli sayır və bu nəsil şəcərəsi ilə fəxr edirdi. Ana tərəfdən isə o, Türkman Həsən bəy Ağqoyunlunun nəvəsi idi və haqlı olaraq özünü bu sülalənin qanuni varisi hesab edirdi... Dövrün bütün tarixlərindən məlum olduğu kimi, onun tərəfdarları da əsasən türkman və tatar tayfalarından olanlar idi... Fars dili Osmanlı imperiyasında və Hindistanda siyasət və ədəbiyyat dili olduğu bir dövrdə Şah İsmayıl türk dilini İran sarayının (Səfəvi sarayının-M.A) rəsmi dili etmişdi. Hətta o özü də yalnız türk dilində şeirlər yazırdı. Nəticədə türk dili Səfəvilər sarayında elə geniş yayıldı ki, bu sülalənin hakimiyyətinin sonunadək sarayın rəsmi dili olaraq qaldı... Qızılbaşlar özlərini türk mənşələrinə, əsil-nəcabət və ad-sanlarına görə İranın əhalisindən yüksəkdə tutur, onları həqarətlə tatlar və taciklər adlandırırdılar...”[848].

---

[846] M. Rəsulzadə, *Bolşeviklərin Şərq siyasəti,* ərəb və latın qrafikasından transliterasiya edəni və çapa hazırlayanı A. Rüstəmli, Sabah, Bakı, 1994, s.53.
[847] F. Qrenard, *Babur.,* s.97.
[848] O. Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti.,* s.34-35.

Azərbaycanda Səfəvilər sülaləsinin hakimiyyətə gəlişi ilə səfirlik-elçilik sistemi inkişaf etmiş, beynəlxalq diplomatiya dili daha da təkmilləşmişdi.

Professor Zabil Bayramlı qeyd edir ki, “Şah I İsmayılın başçılığı altında əhalinin müxtəlif kateqoriyalarından olan əxilər, qazilər, sufilərin hərbi-siyasi mücadilələrində qurulmuş Azərbaycan Səfəvi dövləti beynəlxalq aləmdə iki yüzillk bir vaxt ərzində öz nüfuzunu gücləndirib artırmış, qoruyub saxlamışdır. Vahid dövlətçilik ənənəsi iqtisadi irəliləyişlə bağlı mülki, inzibati, hərbi idarəçiliyə, elmi-mədəni yüksəlişə geniş imkanlar yaratmışdır. Azərbaycan türk dili dövlət dili statusu qazanmış, Şah I İsmayılın Avropa monarxlarına Azərbaycan türk dilində yazdığı məktublar isə bu dili rəsmi diplomatiya dili səviyyəsinə yüksəldə bilmişdi. Artıq Səfəvilər zamanında rəsmi sənədlər də Azərbaycan türk dilində tərtib olunurdu”[849].

Qeyd edək ki, Səfəvilərin hakimiyyəti dövründə dövlət idarəçilik sistemində beynəlxalq əlaqələrdə və sosial həyatda türk diliindən geniş istifadə olunsa da, diplomatiya, kargüzarlıq və ədəbi mühitdə türk dili ilə paralel olaraq fars dilindən də istifadə olunurdu.

Qeyd etmək lazımdır ki, Səfəvilər dövlətinin xarici siyasi əlaqələrinin inkişafında müstəsna rola malik elçi-səfirlərin etnik mənsubiyyətinə nəzər yetirdikdə, elçilərin əksəriyyətinin qızılbaş-türk diplomatları olduğunun şahidi oluruq. Tacəddin Həsən Xəlifə, Hüseyn xan Şamlu, Oruc bəy Bayat, Şahqulu Ağa Qacar, Fərruxzad bəy, Kəmaləddin Təbət ağa, Vəli bəy Ustaclu, Mehdiqulu xan Ustaclu, Cəfər bəy Kəngərli, Həsən Çələbi, Seyid bəy Səfəvi, Yadigar Əli Sultan Rumlu və onlarla digər qızılbaş-türk diplomatları Azərbaycan Səfəvi dövlətinin xarici siyasi əlaqələrinin inkişaf etdirilməsində müstəsna xidmətləri olmuşdur.

Tarixçi Ə.Quliyev qeyd edir ki, Səfəvi hökmdarlarının və saray əyanlarının danışdığı türk dilini bilmək Səfəvi sarayına sə-

[849] Z. Bayramlı, *Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu,* Baki, Avropa, 2015, s.69.

fər etmiş avropalı diplomatlar üçün xüsusi əhəmiyyətə malik idi. Bu fakt müxtəlif dövrlərdə Səfəvilər dövlətinə səfər etmiş Avropalı səyyahları, diplomatları və missionerlərdən Tomas Koryat, Pyetro Della Valle, Adam Oleari, Jan Şarden, Engelbert Kempfer və digərləri tərəfindən təsdiq edilmişdir[850].

Səfəvi sarayına elçi kimi 1538-ci ildə Mikele Membrenin və 1570-ci ildə Vinçenzo Alessandrinin göndərilməsində onların türk dilinə yaxşı bələd olmaları mühüm rol oynamışdır. Bu elçilərin yerli türk dilini bilməsi və adətlərə bələd olmaları onlara Səfəvi sarayı əyanları ilə yaxşı münasibət qurmalarına kömək etmişdir. Xüsusilə, Membrenin türk dilinin bilicisi olması ona Şah I Təhmasibin (1524-1576) rəğbətini qazanmasında əsas rol oynamışdı[851].

Türk dilini bilmələri sayəsində bəzi səyyahlar və elçilər tərcüməçiyə ehtiyac olmadan Səfəvi hökmdarları ilə ünsiyyət qura bilirdilər. 1601-ci ildə Şah I Abbas (1587-1629), Polşa kralı III Siqzmundun Səfəvi sarayına göndərdiyi elçisi Səfər Muratoviçin türk dilində bilməsindən və tərcüməçinin vasitəçiliyi olmadan onunla söhbət edə bilməsindən öz məmnunluğunu ifadə etmişdi[852].

Səfəvi sarayında danışılan türkcə İstanbul dialektindən bir qədər fərqli idi. İtalyan səyyah Petra Della Valle də bu dialektik fərqi müşahidə etmişdir. O, qeyd edir ki, Şah Abbasla söhbət zamanı şahın Osmanlı türkcəsini başa düşməkdə çətinlik çəkdiyi hiss olunduğundan onlar tərcüməçi vasitəsilə ünsiyyətini davam etdirmişdir. Qeyd etmək olar ki, Səfəvi hökmdarları Azərbaycan türkcəsinin Təbriz dialektində danışmışlar[853].

---

[850] Ə. Quliyev, *Azərbaycan Səfəvi dövlətinin diplomatiya tarixi məsələləri Venesiya arxiv sənədlərində,* AMEA Tarix İnstitutu, e-kitabxana, Bakı, 2023, s.9-10.
[851] Ə. Quliyev, *a.g.ə.,* s.13
[852] Ə. Quliyev, *a.g.ə.,* s.15.
[853] Ə. Quliyev, *a.g.ə.,* s.15-16.

1620-ci ildə Della Valle İsfahanda olduğu dövrdə yazdığı “Türk dilinin qrammatikası” adlı əsərində Səfəvilər dövlətində türk dilinin mühüm rolunu xüsusilə vurğulamışdır.

1590-ci ildə osmanlılarla sülh danışıqları zamanı Şah I Abbas elçi heyəti ilə osmanlı sərdarı Fərhat Paşaya qızılbaş türkcəsində yazılmış bir məktub da göndərmişdir. Diplomatik yazışma qaydalarına uyğun şəkildə tərtib edilmiş bu məktubda yazılırdı: “ ….Bizim razılıq və fərmanımıza əsasən, vəkilimiz Mürşüd Qulu Xanı fitnəni aradan qaldırmaq üçün sizin hüzurunuza ezam etmiş və qərara gəlmişik ki, ali məqamlı şahzadənin sözü və əhalinin tələbinə əsasən İslam Padşahının (Osmanlı Sultanı) hüzuruna yetişsin… və bu Xan, şahzadənin (Heydər Mirzə) göndərilməsi haqqında bəzi məsələləri hüzurunuzda bəyan edəcəkdir. Öz məmləkətinə və padişahına xidmət etdiyin və fədakarlıq göstərdiyin kimi bizə də dostluq edib iki məmləkət arasında ədalətin möhkəmlənməsi üçün səy göstərməlisən ki, etdiyin bu iş dünya durduqca əbədi qalsın….İnşaallah –Təala”[854].

XVI əsrin ikinci yarısından etibarən Səfəvi dövləti ilə daha sıx şəkildə təmasda olan Moskva knyazları Səfəvi hökmdarlarına türkcə məktublar göndərmişdilər. 1592-ci ildə Moskva saray rəsmiləri çar I Fyodrun (1584-1598) Şah I Abbasa tatar (türk) dilində ünvanlanmış məktubunu Səfəvi elçisi Qayaya təqdim etmişdilər[855].

Səfəvi tarixçisi İsgəndər bəy Münşinin verdiyi məlumatlardan da aydın olur ki, Şah I Abbas dönəmi Səfəvi sarayında diplomatik yazışmalarda qızılbaş türkcəsindən istifadə olunmuşdur. İsgəndər bəy Münşi yazır: “... Həmçinin bu il (1618-ci il) o uca sülalənin (Romanovlar sülaləsinin) əmir və knyazlarından (kənnas) ibarət böyük bir elçi heyəti Xəzər dəryası və çöllərdən

---

[854] Ə. Nəvai, *Şah Abbas: Mectua-i Esnad ve Mekatibat-ı Tarixi Hemrah ba Yâddaşthâ-yı Tafsilî.*, s.52-55.

[855] *Памятники дипломатических и торговых сношений Московский Руси с Персией,* под ред. Н. Веселовского, т.1., Санкт-Петербург, Товарищество Паровой Скоропечатии Яблонский и Пероттъ, 1890, с.171

keçərək Şirvanın Dərbəndinə gəldi və humayun Şah məiyyətinin ardınca Ərdəbildən Qəzvin darüssəltənəsinə çatdı. O elçi də Səadət meydanında şahla görüş səadətinə yetişdi və mütərcim vasitəsilə padşah tərəfindən özlərinin ehtiyat xahişini və möhkəm birlik istəyini ərz edərək türk dilində yazılmış uzun bir məktubu şaha təqdim etdi, məktubun sədaqət məktubu olduğunu bildirdi...”[856].

1593-cü il sentyabrın 13-də Boris Qodunovun qəbulunda olmuş Səfəvi elçisi Həzi Xosrov ona Şah I Abbasın türk dilində yazılmış məktubunu təqdim etmişdi[857].

Qeyd olunanlardan bu qənaətə gəlmək olar ki, Səfəvi dövlətinin xarici dövlətlərlə diplomatik-siyasi əlaqələrinin qurulmasında və beynəlxalq əlaqələrində türk dilinin xüsusi rolu vardır.

Azərbaycanda Səfəvi sülaləsinin hakimiyyətə gəlməsi ilə (1501-1736) Yaxın və Orta Şərqin istər siyasi, istərsə də dini-ideoloji mənzərəsində ciddi dəyişiklər baş verdi. Şah I İsmayılın on iki imam şiəliyini dövlətin rəsmi dini elan etməsi müsəlman şərqində mövcud olan siyasi hakimiyyətlərin dini əsasını təşkil edən sünnilik məzhəbinin hegemonluğuna son qoydu. Bununla da Şərq dünyasında kəskin xarakter almış siyasi rəqabətlə yanaşı, hakimiyyətlərin siyasi ideologiyasına çevrilmiş məzhəblər (sünnilik və şiəlik – A.M.) arasındakı qarşıdurma yenidən açıq mübarizə müstəvisinə qədəm qoydu.

Şah I İsmayılın qısa bir zamanda geniş bir coğrafi məkanı əhatə edən mərkəzləşmiş və hərbi-siyasi baxımdan daha da güclü bir siyasi hakimiyyət yaratması bölgənin aparıcı dövlətlərindən birinə çevrilən Osmanlı imperiyası və Orta Şərqdə siyasi mövqelərini gücləndirməyə çalışan Şeybanilər dövlətində narahatlığa səbəb oldu. Çünki Səfəvi hakimiyyəti Osmanlı imperiyasının Şərqi Anadolu və Bəsrə körfəzi istiqamətindəki siyasi id-

---

[856] İsgəndər bəy Münşi Türkman, *Dünyanı bəzəyən Abbasın tarixi (Tarixe-aləmaraye-Abbasi),* II kitab., s.1674-1675.

[857] П. Бушев, *История посольств и дипломатических отношений Русского и Иранского государства в 1586-1612 гг.,* с.182.

diaları qarşısında ciddi maneə yaradırdı. Bu dövrdə şeybanilərin Səfəvilər dövlətinin ərazisi sayılan Xorasan bölgəsinə olan işğalçılıq planları Səfəvi-Şeybani münasibətlərində siyasi gərginliklə müşahidə olunur və hərbi qarşıdurmaya səbəb olurdu. Səfəvi dövlətinin siyasi və dövlət mənafelərinə təhlükə yaradan Osmanlı imperiyasının və Şeybanilər dövlətinin səfəvilərə qarşı işğalçılıq planları bu dövlətlərin siyasi münasibətlərinin daimi gərgin xarakter daşımasına və uzunmüddətli hərbi münaqişələrə zəmin yaradırdı. Məhz bu dövrdə osmanlıların və şeybanilərin Səfəvi dövlətinə qarşı eyni siyasi mövqedən çıxış etməsi hər iki dövlətin müttəfiqlik münasibətlərini zəruri edirdi. Bu baxımdan uzun müddət davam edən Səfəvi-Osmanlı və Səfəvi-Şeybani qarşıdurmasında Osmanlı imperiyası ilə Şeybanilər dövləti Şəfəvi dövlətinə qarşı hərbi-siyasi müttəfiq kimi çıxış etmişlər.

Qərbdə Osmanlı imperiyası, şərqdə isə Şeybanilər dövlətinin hərbi müdaxiləsi ilə üzləşən və Osmanlı-Şeybani hərbi ittifaqı ilə müqayisədə hərbi cəhətdən zəif olan Səfəvi hakimiyyətinin Osmanlı imperiyasına qarşı mübarizə aparmaq üçün Avropa dövlətləri ilə diplomatik münasibətlərinin yaradılması zərurəti ortaya çıxırdı.

Bu dövrdə Avropada böyük siyasi təhlükələrə səbəb olan osmanlı ekspansiyası Avropa dövlətlərini Osmanlı İmperiyasına qarşı birləşməyə vadar edirdi. Eyni zamanda Avropa dövlətlərinin osmanlılara qarşı mübarizə siyasəti bununla məhdudlaşmır, bu siyasət Şərqdə Osmanlı imperiyasına qarşı müttəfiq axtarışı ilə də müşayiət olunurdu. Belə bir şəraitdə Səfəvi-Osmanlı ziddiyyətləri Səfəvi dövlətinin avropalılarla müttəfiqliyinə real zəmin yaradırdı. Çünki osmanlıların şərq istiqamətindəki hərbi-siyasi planları Səfəvi dövlətini Avropa ilə müttəfiqliyə sövq edirdi.

Səfəvilərin osmanlılarla siyasi rəqabəti Səfəvi dövlətinə Osmanlı imperiyasının arxasında bir güclü hərbi-siyasi qüvvə kimi Avropada marağı artırdı. Hətta Roma papası II Yuli (1503-1513), Səfəvi dövlətinin meydana gəlməsini, Şah İ İsmayılın hərbi müvəffəqiyyətlərini Allahın xristian dünyası üçün yaratdı-

ğı bir fürsət kimi qiymətləndirdi və qərb hakimlərini dərhal bu fürsətdən istifadə etməyə çağırdı[858].

Avropa dövlətləri arasında ilk növbədə Venesiya Respublikası Səfəvi dövləti ilə diplomatik münasibətlər qurmağa başladı. Bununla da Səfəvi dövlətinin Avropa dövlətləri ilə diplomatik münasibətlərinin əsası qoyuldu.

Qeyd etmək lazımdır ki, Avropa dövlətlərinin Səfəvi hakimiyyəti ilə diplomatik əlaqələrinin əsasını Osmanlı imperiyasına qarşı birgə mübarizə təşkil edirdi. Səfəvi dövlətinin qərb ölkələri ilə bu ilk diplomatik təmaslarının başlıca iki məqsədi var idi: Avropa dövlətləri ilə ticarət əlaqələrini genişləndirmək və səfəvi ordusu üçün qərbdən odlu silah almaq[859]. Eyni zamanda avropalıların Osmanlı imperiyasına qarşı birgə mübarizə aparmaq siyasəti Səfəvi dövlətinin də siyasi maraqlarına uyğun idi.

XVI əsrdə Osmanlı-Avropa ziddiyyətləri, təkcə Osmanlı imperiyasının Avropadakı işğalları ilə müşayiət olunmurdu. Eyni zamanda bu ziddiyyətlər Avropa dövlətlərinin Osmanlı imperiyası ilə Asiya-Avropa ticarət yollarına nəzarət uğrunda apardığı mübarizə ilə də xarakterizə olunurdu.

Bu dövrdə Asiya-Avropa tranzit ticarət şəbəkəsinin yerləşdiyi Aralıq dənizi hövzəsində Osmanlı imperiyası və Venesiya Respublikası nəzarəti öz əllərində saxlayırdılar. Venesiyanın rəqibi olan Genuyanı Aralıq dənizinin şərq hissəsindən tamamilə şıxışdırıb çıxarması nəticəsində Avropanın Ön Şərqlə Levantiya ticarətində demək olar ki, yeganə vasitəçisi olmuşdu. Osmanlı imperiyasının Aralıq dənizi hövzəsində apardığı istilalar venesiyalıların ticarət əlaqələrini qismən məhdudlaşdırsa da, lakin Venesiya yenə də Levantiya tcarətində aparıcı mövqelərini qoruyub saxlayırdı. Eyni zamanda Osmanlı imperiyası Venesiyanın Aralıq dənizi hövzəsindəki ticarət mövqelərinin qorunmasında maraqlı idi. Çünki Osmanlı hökuməti venesiyalılardan böyük miqdarda ticarət vergiləri alırdı. Həmçinin Avropada elə də həvəslə

---

[858] Y. Mahmudov, *Azərbaycan diplomatiyası.*, s.141.
[859] Y. Mahmudov, *a.g.ə.,* s.142.

qarşılanmayan türklər, Venesiyalı tacirlərin vasitəçiliyindən istifadə edərək öz yerli mallarını Avropaya keçirir və özlərinə lazım olan Avropa sənayesi mallarını alırdılar[860].

XV əsrin sonlarında okean yolunun kəşf olunması Aralıq dənizi ticarətinə nəzərəçarpacaq dərəcədə mənfi təsir göstərdi. Bunun qarşısını almaq üçün Venesiya Respublikası və Osmanlı imperiyası Portuqaliyaya qarşı mübarizə aparmaq üçün Misir Məmlük dövlətinə hərbi kömək etməyə başladı.

Portuqaliyanın okean ticarətini öz inhisarına alması Osmanlı-Portuqaliya rəqabətinin əsasını qoydu. Osmanlı-Portuqaliya rəqabətinin iqtisadi kökü bundan ibarət idi ki, Portuqaliya XVI əsrin əvvəllərində Hind okeanında möhkəmlənərək Şərqi Afrika, Hindistan, Seylon və Cənub-Şərqi Asiya ölkələrindən Hörmüz və Ədənə gələn su yollarını nəzarət altına almış və bununla da Aralıq dənizi vasitəsilə Avropa-Şərq ticarətinə ağır zərbə vurmuşdu[861]. Osmanlı hakimiyyəti okean ticarətinə nəzarət etmək üçün bir tərəfdən Hind okeanına çıxış əldə etməli, digər tərəfdən portuqalların Hind okeanındakı hegemonluğuna son qoymalı idi.

Bu dövrdə siyasi yüksəliş dövrünu yaşayan Səfəvi dövlətinin möhkəmlənməsi Osmanlı sarayında ciddi narahatlıqla qarşılanırdı. Çünki Səfəvi dövlətinin yüksəlişi Osmanlı imperiyasının şərqdəki işğalçılıq planlarına zidd idi. Həmçinin Bəsrə (İran) körfəzinin səfəvilərin nəzarətində olması gələcəkdə osmanlıları Bəsrə körfəzi vasitəsilə həyata keçirilən Şərq ticarətindən məhrum edə bilərdi. Bu səbəbdən Osmanlı imperiyası strateji maraqlarını qorumaq üçün Səfəvi dövlətinə qarşı müharibəyə başlamağa qərar verdi. Bununla da uzunmüddətli Səfəvi-Osmanlı müharibələrinin əsası qoyuldu.

---

[860] Э. Шахмалиев, К вопросу о времени начала упадка Венеции, *«Ученые записки» Азербайджанского Государственного Университета, Серия истории и философии, 1977, № 9,* с.118-119.

[861] Y. Mahmudov, *Azərbaycan diplomatiyası.*, s.157.

Bəzi tədqiqatçılar Səfəvi-Osmanlı müharibələrinin siyasi-iqtisadi maraqlardan daha çox dini mahiyyət kəsb etdiyini göstərməyə çalışaraq Osmanlı imperiyasının Səfəvi dövlətinə qarşı hərbi yürüşlərinin səbəbini Şah İ İsmayılın Anadoluda şiəliyi yaymasının qarşısını almaq məqsədi ilə edildiyini izah etməyə çalışırlar[862]. Lakin bu dövrdə Anadoluda mövcud olan dini-siyasi duruma nəzər yetirdikdə bu fikirlərin həqiqətdən uzaq olduğunun şahidi oluruq. Tədqiqatçıların araşdırmalarına əsaslanaraq demək olar ki, hələ XV əsrin sonu XVI əsrin əvvəllərində Kiçik Asiya (Anadolu) əhalisinin artıq beşdə dörd hissəsi şiə təriqətli əhali idi. Hətta 1502-ci ildə İstanbulun özündə belə təqribən 5000 nəfər şiə-qızılbaş var idı[863].

Tarixi məlumatlar onu deməyə əsas verir ki, Şah I İsmayıl hakimiyyətə gəldikdən sonra şiəliyi əsasən dövlətin cənub-şərq əyalətlərində – Şiraz, İsfahan, Yəzd, Kirman, Kaşan bölgəsində yaymağa başlamışdı. Çünki bu ərazilər Səfəvi dövlətinin tərkibinə daxil edilərkən əhalisinin böyük əksəriyyəti sünni idi. Bu məsələni tarixi mənbələr əsasında tədqiq edən səfəvişünas alim O.Ə.Əfəndiyev bu qənaətə gəlmişdi ki, "XIV və XV əsrlərdə İranda şiə əhalisi azlıq təşkil edirdi. Mazandaran və Gilan şiə əmirlikləri istisina olunmaqla sünnilik İran əhalisinin hakim dini sayılırdı. Hətta şiə-qızılbaş hərəkatının beşiyi Azərbaycanda da sünni əhali üstünlük təşkil edirdi[864].

Bu haqda tarixçi Fernard Qrenardın da fikirləri maraqlıdır. O, qeyd edir ki, "İran heç bir zaman xalqdan gələn və zamanla formalaşan bir hərəkat nəticəsində şiə olmamışdır, əksinə bu məzhəbi zorla qəbul etmişdilər"[865].

Bu məlumatlara əsaslanaraq qeyd etmək olar ki, Osmanlı-Səfəvi hərbi rəqabətinin əsasını dini məzhəb düşmənçiliyi təşkil

---

[862] R. Kılıç, *Kanuni devri Osmanlı-İran münasebetleri.*, s.90.

[863] Ş. Fərzəlibəyli, *Azərbaycan və Osmanlı imperiyası…* s.93-94; Y. Mahmudov, *a.g.ə.,* s.134.

[864] O. Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti.*, s.49.

[865] F. Qrenard, *Babur.*, s.98.

etmirdi. Dini dünyagörüşün hakim olduğu bu dövrdə dini təriqət fərqliliyindən, sadəcə olaraq, Osmanlı və yaxud Səfəvi hökmdarları ideoloji təbliğat vasitəsi kimi istifadə edərək öz hərbi-siyasi məqsədlərini həyata keçirməyə çalışırdılar. Əslində isə bu dövrdə bölgədə baş verən hadisələrin əsasında bölgə dövlətlərinin siyasi, iqtisadi və strateji maraqları dayanırdı.

Səfəvi hakimiyyətinin dövlətin siyasi-iqtisadi mövqeyini möhkəmləndirmək və dövləti xarici müdaxilələrdən qorumaq üçün atdığı hərbi-siyasi və diplomatik addımları, bu addımların bölgədə böyük siyasi və iqtisadi-ticarət maraqları olan Osmanlı imperiyası tərəfindən kəskin etirazla qarşılanması, həmçinin Avropa dövlətlərinin Şərqdə həyata keçirməyə çalışdığı müstəmləkəçilik siyasəti Avrasiya məkanında hərbi münaqişələrə ciddi siyasi əsas yaradırdı. Mərkəzi Asiyada öz siyasi və iqtisadi maraqları uğrunda mübarizəyə qoşulan Şeybanilər dövlətinin də bu hadisələrdə yaxından iştirakı bölgədə mürəkkəb siyasi hadisələrin inkişafına təkan verirdi.

Bu dövrdə baş verən siyasi hadisələrin mərkəzində Yaxın və Orta Şərqdə mövcud siyasi duruma ciddi surətdə təsir edə biləcək böyük siyasi imkanlara malik Səfəvi dövləti ilə Osmanlı imperiyası dayanırdı. Bu dövlətlərin bölgədəki strateji maraqları hər iki dövlət arasında siyasi rəqabəti və hərbi qarşıdurmanı getdikcə gücləndirir, Osmanlı-Səfəvi müharibələrini qaçılmaz edirdi.

Osmanlı hakimiyyəti uğrunda mübarizədə bütün rəqiblərini məğlub edən Sultan I Səlimin 1512-ci ildə hakimiyyətə gəlişi ilə Osmanlı-Səfəvi ziddiyyətləri daha da kəskinləşdi. Bununla da Osmanlı imperiyasının Azərbaycana yönəlik xarici siyasəti I Sultan Səlim dövrünün (1512-1520) başlanması ilə kökündən dəyişdi[866].

Şərqi Anadoluda baş verən siyasi hadisələri yaxından izləyən Sultan I Səlim bu bölgənin siyasi və strateji əhəmiyyətinin böyük olduğunu anlayırdı. Bu səbəbdən Osmanlı hökmdarının

---

[866] Ş. Fərzəlibəyli, *Azərbaycan və Osmanlı imperiyası.*, s.96.

əsas məqsədi ilk növbədə strateji və iqtisadi baxımdan böyük əhəmiyyətə malik olan Şərqi Anadolu bölgəsini ələ keçirmək idi. Osmanlı hakimiyyəti hesab edirdi ki, böyük təbii resuslara və strateji əhəmiyyətə malik, səfəvilərin irsi torpaqları olan bu əraziləri işğal etməklə Səfəvi dövlətinin siyasi, iqtisadi təsisatlarına ciddi zərbə vura bilər. Bu baxımdan Osmanlı hakimiyyəti öz siyasi və iqtisadi maraqlarını təmin etmək üçün Səfəvi dövlətinə qarşı ciddi addımlar atmağa başladı.

Osmanlılarla Səfəvilər arasında olan bu siyasi gərginlik artıq hər iki dövlət arasında baş verəcək hərbi-siyasi münaqişəni qaçılmaz edirdi. Hərçənd ki, Osmanlı hakimiyyəti Anadoluda baş verən yerli münaqişələrin arxasında səfəvilərin dayandığını iddia etsə də, lakin bu ittihamlar osmanlıların səfəvilərə qarşı başlayacağı müharibə öncəsi siyasi təbliğat xarakteri daşıyırdı. Sultan Səlim hakimiyyəti bu təbliğatı aparmaqla osmanlı siyasi elitası arasında öz nüfuzunu artırmağa və səfəvi-osmanlı müharibəsinin başlanmasının səbəbi kimi təqdim etməyə çalışırdı.

Azərbaycana hücumu ərəfəsinə Sultan I Səlim səfəvilərə qarşı bir çox siyasi, iqtisadi tədbirlər həyata keçirdi. Həmçinin Osmanlı hökmdarı səfəvilərə qarşı mübarizə aparmaq üçün şeybanilər və ağqoyunlularla ittifaq yaratdı[867].

Osmanlı imperiyası ilə toqquşmanın labüd olduğunu görən Şah I İsmayıl başa düşürdü ki, Sultan I Səlim Anadolu türkmanlarına və səfəvilərə qarşı ciddi tədbirlərə əl atacaqdır. Bu tədbirlərin qarşısını almaq üçün Səfəvi hökmdarı müəyyən siyasi və diplomatik tədbirlərə al atmaq qərarına gəldi. İlk növbədə Anadoluda olan siyasi dayaqlarını osmanlılara qarşı yönəltmək üçün Nur Əli Xəlifə Rumlunu Anadoluya göndərərək bu ölkədəki sufiləri toplamağı əmr etdi. Eyni zamanda Səfəvi hakimiyyəti arxadan qərb istiqamətində Osmanlı imperiyasına qarşı mübarizə aparmaq üçün Avropa dövlətləri və Misir Məmlük dövləti ilə

---

[867] R. Kılıç, *Kanuni devri Osmanlı-İran münasebetleri... s.68, 79-80; H.İnalçik. Osmanlı tarihine toplu bir bakış...* s.91.

danışıqlar aparırdı[868]. Lakin osmanlıların hərbi yürüşü ərəfəsində Səfəvi dövlətinin Avropa dövlətləri və Məmlük dövləti ilə apardığı danışıqlar nəticəsiz başa çatdı. Cünki bu dövrdə Məmlük hakimiyyətinin və Avropa dövlətlərinin güclü Osmanlı imperiyası ilə qarşıdurması onların siyasi maraqlarına uyğun deyildi. Bu səbəbdən bu dövlətlər Osmanlı imperiyasını Səfəvi dövləti vasitəsilə məğlub etməyə çalışırdılar. Buna görə də Səfəvi hakimiyyəti osmanlılara qarşı təkbaşına olaraq mübarizə aparmaq məcburiyyətində qaldı.

Sultan Səlim hərbi hazırlıqlarını başa çatdırdıqdan sonra Osmanlı ordusu 1514-cü ilin avqust ayında Səfəvi dövləti istiqamətində yürüşə başladı[869]. Qısa bir müddət ərzində Səfəvi dövlətinin sərhədlərini keçən Osmanlı ordusu ilə Səfəvi ordusu arasında aramsız döyüşlər başladı. Tərəflər arasında (23 avqust/ 1514) Çaldıran düzündə baş verən döyüşdə toplardan istifadə edən osmanlılar Səfəvi qoşunu üzərində qələbə çaldı[870]. Beləliklə, Osmanlı imperiyasının Səfəvi dövlətinə qarşı həyata keçirdiyi ilk hərbi yürüş osmanlıların qələbəsi ilə sona çatdı.

Səfəvi dövləti Osmanlı imperiyasının ilk hərbi yürüşü ərəfəsində Avropa dövlətlərinin vəd etdiyi hərbi-siyasi köməyi əldə edə bilmədi. Çünki Avropa dövlətlərinin Səfəvi dövləti ilə apardığı danışıqların əsas məqsədi osmanlılara qarşı mübarizədə səfəvilərə hərbi kömək etmək deyil, Osmanlı-Səfəvi qarşıdurmasını gücləndirərək osmanlıların səfəvilərə qarşı hərbi planlarına zəmin yaratmaq, bununla da Osmanlı imperiyasının Qərbi Avropada həyata keçirdiyi hərbi ekspansiyanın istiqamətini şərq istiqamətinə doğru dəyişmək idi. Avropa dövlətlərinin ciddi cəhdlə həyata keçirməyə çalışdığı bu siyasət sonda öz nəticəsini verərək

---

[868] R. Kılıç, *a.g.ə.,* s.62-63; Y. Mahmudov, *Azərbaycan diplomatiyası.,* s.152.
[869] M. Solakzadə, *Tarix.,* s.27-28; Ş. Fərzəlibəyli, *Azərbaycan və Osmanlı imperiyası.,* s.101.
[870] *История Востока (Восток на рубеже средневековья и нового времени-XVI-XVIII вв.),* Т.3., с.103; R. Kılıç, *a.g.ə.,* s.89-91; Ш. Бидлиси, *Шараф-Наме.,* с.163.

Osmanlı-Səfəvi müharibəsinə gətirib çıxardı. Bu müharibədə osmanlılarla təkbaşına mübarizə aparmaq məcburiyyətində qalan Səfəvi ordusu hərbi-texniki üstünlüyə malik olan Osmanlı ordusu qarşısında məğlubiyyətə uğradı.

Çaldıran döyüşündən sonra Səfəvi hakimiyyəti Osmanlı dövləti ilə münasibətləri normallaşdırmaq üçün bir neçə dəfə diplomatik addımlar atsa da, Osmanlı sarayında bu addımlar düzgün dəyərləndirilmədi. Hətta Osmanlı sarayına göndərilən elçi heyəti diplomatik qaydalara zidd olaraq həbs olundu[871].

Şah I İsmayıl Osmanlı hakimiyyəti ilə danışıqların nəticəsiz qaldığını görərək hələ də mövcud olan osmanlı təhlükəsinə qarşı birgə mübarizə aparmaq üçün ənənəvi müttəfiqləri ilə diplomatik danışıqları intensivləşdirmək qərarına gəldi. Bu məqsədlə Səfəvi hakimiyyəti bir tərəfdən Avropa dövlətləri ilə danışıqları davam etdirir, digər tərəfdən osmanlıların hədəfində olan Misir Məmlük dövlətini də Osmanlı imperiyasına qarşı mübarizəyə cəlb etməyə çalışırdı.

Bu dövrdə hərbi yürüşləri davam etdirən Osmanlı hakimiyyəti 1515-ci ilin iyun ayında Zülqədər bəyliyinin və 1517-ci ilin yanvar ayında isə Misir Məmlük dövlətinin siyasi varlığına son qoydu[872].

Beləliklə, XVI əsrin əvvəllərində Yaxın Şərq və Misirdə həyata keçirdiyi işğallar nəticəsində böyük iqtisadi və siyasi resursları əlində cəmləşdirən və bölgədəki strateji mövqeyini daha da gücləndirən Osmanlı imperiyası Avrasiya məkanında aparıcı dövlətlərdən birinə çevrildi.

Səfəvi dövləti Osmanlı imperiyası ilə ilk hərbi münaqişədən sonra da bölgədə öz siyasi nüfuzunu qoruyub saxlayırdı. Səfəvi hökmdarı Şah I İsmayılın xarici siyasət sahəsində həyata keçirdiyi tədbirlər bir tərəfdən Səfəvi dövlətinin beynəlxalq mü-

---

[871] F. Kırzıoğlu, *Osmanlılar'ın Kafkas-elleri'ni fethi., s.112-113; Ş. Fərzəlibəyli, Azərbaycan və Osmanlı imperiyası.*, s.102.

[872] R. Yinanç, *Dulkadir beyliği.*, s.101; Ш. Бидлиси, *Шараф-Наме.*, с.164-165; *Книга Орудж-бека Баята - Дон-Жуана Персидского.*, с.75.

nasibətlər sistemində aktiv iştirakına zəmin yaradır, digər tərəfdən xarici siyasi əlaqələrin möhkəmlənməsinə təkan verirdi. Bu dövrdə Səfəvi hakimiyyəti Yaxın Şərqdə mövcud siyasi hadisələrdə aktiv iştirakla yanaşı, Orta Şərqdə də baş verən siyasi hadisələrdə yaxından iştirak edir və bu hadisələrə təsir imkanını özündə saxlayırdı.

XVI əsrin birinci yarısından başlayaraq Yaxın və Orta Şərqdə baş verən siyasi hadisələr daha da aktiv xarakter daşımağa başladı. Belə ki, bu dövrdə bölgədə cərəyan edən siyasi hadisələr Osmanlı imperiyasının Şərqi Avropada və Aralıq dənizi hövzəsində həyata keçirdiyi işğallarla müşayiət olunurdu. Eyni zamanda beynəlxalq aləmdə getdikcə nüfuzu artan Rusiyanın Qara dəniz və Qafqaz istiqamətindəki hərbi planları Osmanlı-Rusiya rəqabətinə zəmin yaradır və bölgədəki siyasi rəqabəti daha da artırıdı.

Bu dövrdə Orta Şərqdə də mürəkkəb siyasi hadisələr baş verirdi. Belə ki, Hindistanın və Əfqanıstanın böyük bir hissəsini əhatə edən Böyük Moğol dövlətinin əsası qoyulmuşdur (1526). Böyük Moğol dövlətinin yaranması ilə Mərkəzi Asiyada hegemonluq uğrunda moğollarla özbəklər arasında siyasi mübarizənin əsası qoyuldu. Bu dövrdə də Azərbaycan Səfəvi dövləti Avrasiya məkanında baş verən siyasi hadisələrdə öz mövqeyini qoruyub saxlayır və bu hadisələrdə yaxından iştirak edirdi.

Şah I İsmayılın ölümündən (1524) sonra Səfəvi taxtına çıxan Şah I Təhmasibin hakimiyyəti dövründə (1524-1576) də Azərbaycanın xarici siyasi əlaqələri davam etməkdə idi. Bu dövrdə dövlətin xarici siyasəti iki istiqamətdə inkişaf edirdi. Bu siyasi münasibətlər bir tərəfdən Avropa dövlətləri və Böyük Moğol dövləti ilə diplomatik əlaqələrlə müşayiət olunur, digər tərəfdən Osmanlı imperiyası və Şeybanilər dövləti ilə hərbi-siyasi münasibətlər formasında təzahür edirdi.

Şah I Təhmasibin hakimiyyəti dövründə Səfəvi-Osmanlı siyasi münasibətləri yenə də gərgin olaraq qalırdı. Osmanlı hökmdarı Sultan Suleyman Səfəvi hökmdarına təhdidedici mək-

tublar göndərərək onu Azərbaycana hücum edəcəyi ilə hədələyirdi[873].

Qeyd edək ki, bu dövrdə osmanlıların səfəvilərə qarşı həyata keçirdiyi bu hərbi-siyasi addımlar Osmanlı imperiyasının Şərq siyasətinin davamı idi. Belə ki, bu siyasətə görə Sultan Suleyman öz sələfi Sultan Səlimin siyasətini davam etdirərək Osmanlı imperiyası üçün böyük strateji əhəmiyyət kəsb edən Şərqi Anadolunun işğalını tamamilə başa çatdırmalı və İraq-i Ərəbi işğal edərək Bəsrə (İran) körfəzinə birbaşa çıxış əldə etməli idi.

Avropa istiqamətində hərbi yürüşləri uğurla başa çatdıran (1533) Osmanlı imperiyası Səfəvi dövlətinə qarşı uzunmüddətli müharibəyə (iyun 1534) başladı. "İraqeyin səfəri" adlanan bu hərbi yürüşdə Osmanlı qoşunu Səfəvi ordusunun ciddi müqavimətinə baxmayaraq, Bağdad şəhərini ələ keçirdi[874]. Beləliklə, Sultan Suleymanın "İraqeyn səfəri" nəticəsində Səfəvi dövlətinin tərkibində olan İraq-i Ərəb ələ keçirilərək Osmanlı imperiyasının tərkibinə qatıldı.

Osmanlı imperiyası İraq-i Ərəbi işğal etsə də, Azərbaycana qarşı hərbi yürüşlərini davam etdirmək fikrindən əl çəkməmişdi. Çünki Şah I Təhmasibin hərbi-siyasi addımları nəticəsində osmanlıların müttəfiqi Şirvanşahların siyasi hakimiyyətinə son qoyması, özbəklərin Xorasana etdikləri yürüşlərin qarşısını alaraq bu ərazilərə tam nəzarət etməsi, həmçinin Şərqi Anadoludakı Van, Erciş və ətrafındakı qalaların Osmanlı işğalından azad edilməsi Osmanlı imperiyasının Şərqdə həyata keçirdikləri işğalçılıq planlarına ciddi zərbə vururdu. Bu səbəbdən Səfəvi dövlətinin siyasi mövcudluğuna son qoymaq üçün Osmanlı imperiyası növbəti dəfə (1548-1549) Azərbaycana yürüşə başladı. Bu-

---

[873] Ş. Fərzəlibəyli, *Azərbaycan və Osmanlı imperiyası.*, s.106; İ. Uzunçarışlı, *Osmanlı tarixi (İstanbul'un fethinden Kanuni Sultan Suleyman'ın ölümüne kadar).*, s.449.

[874] M. Solakzadə, *Tarix.*, s.38-40; F. Kırzıoğlu, *Osmanlılar'ın Kafkas-elleri'ni fethi.*, s.154; Ş. Fərzəlibəyli, *Azərbaycan və Osmanlı imperiyası.*, s.108.

nunla bağlı E. N. Kuşeva yazır: "1548-1550-ci illərdəki hərbi əməliyyatlarda türklərin əsas qüvvələri Azərbaycanın, xüsusilə də Şirvanın istilasına yönəlmişdi"[875].

Osmanlı hökmdarı Sultan Suleyman Səfəvi dövlətinə qarşı bu hərbi yürüşdə də əhalinin ciddi müqaviməti və şah qoşunlarının aramsız hücumları ilə qarşılaşaraq geri çəkildi. Lakin bu yürüş nəticəsində böyük strateji əhəmiyyətə malik olan Van qalası osmanlılar tərəfindən işğal olundu[876].

Osmanlı imperiyası Səfəvi dövlətinə qarşı bu hərbi müdaxilə nəticəsində öz siyasi məqsədlərinə çatmasa da, bu yürüş nəticəsində Van bölgəsi işğal olunaraq Osmanlı imperiyasına qatıldı. Həmçinin bu yürüş nəticəsində Səfəvi dövlətinin vassalı olan Gürcü ərazilərinin bir hissəsi də osmanlılar tərəfindən ələ keçirildi.

XVI əsrin ortalarından etibarən Qara dəniz Volqaboyu və Qafqaz istiqamətində irəliləməyə başlayan Rusiya Xəzəryanı bölgələrı öz siyasi nüfuz dairəsinə tabe etmək üçün ciddi addımlar atmağa başladı. Rusiyanın bu siyasi addımları bir tərəfdən xarici bazara birbaşa çıxış əldə etmək, digər tərəfdən cənub-şərq istiqamətinə siyasi mövqelərini gücləndirmək məqsədindən irəli gəlirdi. Rus çarı IV İvanın (1533-1584) Qazan (1552) və Həştərxan (1556) xanlıqlarını işğal etməsi nəticəsində Rusiya Xəzər dənizinə birbaşa çıxış əldə etdi. Rusiyannın Volqa-Xəzər ticarət yolunu öz nəzarətinə alması, ənənəvi Avropa-Asiya ticarət əlaqələrində Volqa-Xəzər ticarət yolunun əhəmiyyətini nəzərəçarpacaq dərəcədə artırdı. Bununla da Aralıq dənizi və Hind okeanı ticarətində rəqabət gücünə malik olmayan Avropa dövlətləri, xüsusilə də İngiltərə bu ticarət yolundan fəal surətdə istifadə etməyə başladı. Şimal istiqamətində Avropa-Asiya ticarət yolunun əhəmiyyətinin artması Osmanlı imperiyasının iqtisadi-ticarət

---

[875] Е. Кушева, Политика Русского государства на Северном Кавказе в 1552-1572гг., *Исторические записки АН СССР 1950, № 34*, с.238.

[876] M. Solakzadə, *Tarix.*, s.43; F. Kırzıoğlu, *Osmanlılar'ın Kafkas-elleri'ni fethi.*, s.87-188; O. Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti.*, s.75.

maraqlarına ciddi təhlükə idi. Belə ki, bu ticarət yolundan fəal şəkildə istifadə osmanlıların Avropa-Asiya tranzit ticarət gəlirlərinə ikinci zərbə ola bilərdi. Digər tərəfdən Rusiyanın Xəzərətrafı bölgələrdə möhkəmlənməsi bu ərazilərdə Osmanlı imperiyasının siyasi nüfuzuna ciddi təhlükə törədir və osmanlıların Şimali Qafqazda və Krım bölgəsindəki siyasi mövqelərini zərbə altında qoyurdu. Eyni zamanda N.D.Mikluxo-Maklayın qeyd etdiyi kimi, "Rusiyanın Xəzər dənizi sahillərinə çıxışı iki dövlət (Osmanlı və Şeybanilər) arasında yerləşən Səfəvi dövlətinə müəyyən dərəcədə təcrid olunmuş vəziyyətdən çıxmağa kömək edirdi"[877]. Bu da Səfəvi dövlətini iqtisadi və siyasi cəhətdən blokadada saxlamağa çalışan Osmanlı imperiyasının siyasətinə zidd idi. Həmçinin Rusiya ilə Səfəvi dövləti arasında birbaşa iqtisadi və siyasi əlaqələrin qurulması bu dövlətlərin Osmanlı imperiyasına qarşı mübarizə aparmaq üçün birgə ittifaqı ilə nəticələnə bilərdi. Bu da Osmanlı imperiyasının siyasi və strateji maraqlarına təhlükə yaradırdı. Bunları nəzərə alan Osmanlı imperiyası Cənubi Qafqaz bölgəsini işğal etmək üçün Azərbaycana növbəti yürüşə başlamaq qərarına gəldi.

Osmanlı imperiyasının bu yürüşdə əsas məqsədi, P.P.Buşevin qeyd etdiyi kimi, "Səfəvi dövlətinin şimal ərazilərini, xüsusilə də Xəzər ətrafı bölgələri işğal edərək Orta Asiya xanları ilə birbaşa əlaqə yaratmaq idi"[878]. Həmçinin Osmanlı imperiyası bu əraziləri işğal etməklə Volqa-Xəzər vasitəsilə həyata keçirilən Avropa-Asiya ticarət yoluna nəzarət imkanlarını əldə edir, bununla da Səfəvi dövlətinin Rusiya və digər Avropa dövlətləri ilə siyasi və iqtisadi əlaqələrinə qadağa qoyurdu.

Sultan Suleyman 1553-cü il avqust ayında dördüncü dəfə Azərbaycan istiqamətinə yürüşə başladı. Səfəvi ordusunun ciddi

---

[877] Н. Миклухо-Маклай, К истории политических взаимоотношений Ирана со Средний Азией в XVI в., *Краткие сообщения института востоковедения АН СССР, вып. IV*, М, 1952, с.18.

[878] П. Бушев, *История посольств и дипломатических отношений Русского и Иранского государства в 1586-1612 гг.*, с.39-40.

müqavimətinə baxmayaraq, 1554-cü ilin iyul ayında Osmanlı ordusu Naxçıvana daxil oldu[879]. Bu yürüşdə də səfəvilərin ciddi müqaviməti ilə üzləşən Osmanlı ordusu heç bir nəticə əldə etmədən Ərzurum istiqamətində geri qayıtdı (30 iyul/1554)[880].

Səfəvi dövlətinə qarşı dördüncü yürüşün də iflasa uğraması Osmanlı hakimiyyətini Səfəvi dövləti ilə siyasi danışıqlara başlamaq məcburiyyətində qoydu. Bununla da uzun müddət davam edən Osmanlı-Səfəvi müharibəsinə son qoymaq üçün tərəflər arasında sülh danışıqları başlandı. Uzun müzakirələrdən sonra tərəflər arasında 1555-ci il mayın 21-də Amasya şəhərində sülh müqaviləsi bağlandı[881]. Bununla da osmanlılar ilə səfəvilər arasında yarım əsrdən çox davam edən mübarizə başa çatdı.

Uzunmüddətli Səfəvi-Osmanlı müharibələri (1533-1554) dövründə Azərbaycan-Avropa diplomatik münasibətlərində passivlik hökm sürürdü. Çünki Avropa dövlətləri səfəvilərlə osmanlılar arasında hərbi qarşıdurma siyasəti yeritdiyi üçün bu dövrdə aktiv Səfəvi-Avropa diplomatik əlaqələrinə ehtiyac duyulmurdu. Çünki davam edən Osmanlı-Səfəvi müharibəsi Avropa dövlətlərinin siyasətinə tamamilə uyğun idi. Məhz bu səbəbdən Osmanlı imperiyasının Səfəvi dövləti ilə müharibələrindən istifadə edən Avropa dövlətləri öz aralarında mövcud olan siyasi ziddiyyətləri həll etməyə çalışırdılar.

Azərbaycanın Avropa dövlətləri ilə siyasi münasibətlərinin aktivləşməsi yalnız XVI əsrin II yarısına təsadüf edir. Bu dövrdə osmanlıların hücum qorxusu bir çox Avropa dövlətlərini, xüsusilə Osmanlı imperiyası ilə qonşu olan Venesiya, İspaniya, Vatikan və Habsburqlar imperiyasını ciddi narahat edirdi. Bu dövlətlər öz torpaqlarını Osmanlı imperiyasının hücumlarından

---

879 O. Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti.*, s.81; F. Kırzıoğlu, *Osmanlılar'ın Kafkas-elleri'ni fethi.*, s.226.

880 R. Kılıç, *Kanuni devri Osmanlı-İran münasebetleri.*, s.334.

881 F. Kırzıoğlu, *Osmanlılar'ın Kafkas-elleri'ni fethi.*, s.241-242; M. Solakzadə, *Tarix.*, s.52-53; İ. Uzunçarışlı, *Osmanlı tarixi (İstanbul'un fethinden Kanuni Sultan Suleyman'ın ölümüne kadar*)., s.450-451.

xilas etmək üçün osmanlılara qarşı ittifaq yaratmaq məcburiyyətində idilər. Qeyd olunan dövrdə osmanlılara qarşı mübarizədə aparıcı rolu Qərbi Avropanın ən möhtəşəm dövlətlərindən biri İspaniya oynayırdı. İspaniyaya Osmanlı imperiyasına qarşı mübarizədə Şərqdə də müttəfiq lazım idi. İspaniya kralı II Filipp (1556-1598) üçün belə müttəfiq osmanlıların ən qatı düşməni Səfəvi dövləti ola bilərdi. Səfəvi dövləti ilə osmanlılara qarşı ittifaq bağlamaq məqsədi ilə danışıqları II Filipp, adətən Vatikan və ya Portuqaliyanın vasitəçiliyi ilə aparırdı. Eyni zamanda Səfəvi hakimiyyəti də İspaniya ilə danışıqlarda Roma Papasının və ya Portuqliyanın vasitəçiliyindən istifadə edirdi[882].

1570-ci ilin mart ayında Osmanlı imperiyasının Kipr adasına qoşun yeritməsi Azərbaycan-Avropa münasibətlərində yenidən canlanma yaratdı. Osmanlı imperiyasına qarşı "müqəddəs ittifaq" yaradan İspaniya, Venesiya və Vatikan hakimiyyəti (Qeyd edək ki, 1568-ci ildə Habsburqlar Osmanlı imperiyası ilə sülh müqaviləsi bağladığına görə bu ittifaqda iştirak etmirdilər-A.M.) Səfəvi dövlətinin də bu ittifaqda iştirakını təmin etmək üçün diplomatik təmaslara başladılar. Lakin Venesiya elçisi Vinçenso Alessandri və Səfəvi elçisi Xoca Əli tərəfindən aparılan Səfəvi-Venesiya danışıqları nəticəsiz qaldı. Eyni zamanda İspaniya, Papa və Venesiya arasında bağlanmış "antiosmanlı ittifaqı" isə müttəfiqlərin fikir ayrılığı üzündən dağıldı[883].

Avropanın hakim dairələrində hələ də Səfəvi hökmdarını osmanlılara qarşı çıxış etməyə sövq edə biləcəklərinə ümid bəsləyirdilər. Bu baxımdan bir qədər sonra 1572-ci ilin noyabr ayının 16-da Papa V Piy bu məqsədlə Səfəvi sarayına bir məktub göndərmişdi. Papa məktubunda xristian dövlətlərinin silahının gücünü tərifləyərək yazırdı ki, şahın əzəli düşməninə qarşı xris-

---

[882] Э. Шахмалиев, *Дипломатические отношения Испании с Сефевидским государством во второй половине XVI века*., с.119.

[883] Э. Шахмалиев, *a.g.ə.,* s.119; Y. Mahmudlu, *Azərbaycan diplomatiyası.,* s.193; *The Cambridge History of Iran (The Timurid and Safavid periods).,* p.385.

tian dövlətləri ilə birgə çıxış etməsi üçün əlverişli zaman yetişib. O, eyni zamanda şahı varlı əyalətlər –Mesopotomiya və Suriyanı əldə etməklə şirnikləndirməyə çalışırdı. Avropa dövlətləri bu danışıqlar vasitəsilə Səfəvi dövlətini Osmanlı imperiyası ilə müharibəyə cəlb etməklə özlərinin Aralıq dənizi hövzəsindəki torpaqlarının müdafiəsini asanlaşdırmağa çalışrdılar[884].

Avropa dövlətlərinin ciddi səylərinə baxmayaraq, 1568-ci ildə Amasya sülh müqaviləsini yenidən təzələyən I Şah Təhmasib osmanlılara qarşı mübarizədən qəti şəkildə imtina etdi[885].

Şah I Təhmasibin ölümündən (1576) sonra Səfəvi dövlətində başlayan ciddi siyasi böhran və tez-tez baş verən hakimiyyət dəyişikliyi xarici dövlətlərin Səfəvi dövlətinə qarşı hərbi-siyasi məqsədlərini həyata keçirmək üçün əlverişli şərait yaratdı. Səfəvi hakimiyyətində müntəzəm xarakter alan siyasi böhran Osmanlı imperiyasının diqqətini yenidən Səfəvi dövlətinə yönəltdi. Səfəvi hakimiyyətində yaşanan bu siyasi gərginlikdən istifadə edən Osmanlı imperiyası Xəzər hövzəsi bölgələrlə bağlı siyasi və strateji planlarını həyata keçirmək üçün Azərbaycana hərbi yürüşə qərar verdi.

1577-ci ilin noyabr ayında Şah II İsmayılın qəflətən vəfat etməsi osmanlıların Səfəvi dövlətinə qarşı hərbi müdaxiləsini sürətləndirdi və Osmanlı hakimiyyəti Səfəvi dövlətinə qarşı müharibəyə başladı[886].

Şah II İsmayılın ölümündən sonra Səfəvi taxtına çıxan Şah Məhəmməd Xudabəndə (13 fevral/1578), Səfəvi dövlətinin Osmanlı imperiyasına qarşı təkbətək müharibə aparmaq gücündə olmadığını nəzərə alaraq Avropa dövlətlərinə, o cümlədən ənənəvi müttəfiqi Böyük Moğol dövlətinə hərbi yardım üçün müraciət etdi. Lakin Səfəvi hakimiyyətinin Osmanlı təcavüzünə qarşı

---

[884] Э. Шахмалиев, *a.g.ə.*, s.120-121.

[885] Ş. Fərzəlibəyli, *Azərbaycan və Osmanlı imperiyası.*, s.131; Ф. Успенский, *История Византийской империи*, М-Л., Изд. АН СССР, 1948, с.119.

[886] F. Kırzıoğlu, *Osmanlılar'ın Kafkas-elleri'ni fethi.*, s.281; Ş. Fərzəlibəyli, *a.g.ə.*, s.131; Ф. Гусейн, *Османо-Сефевидская война 1578-1590 гг.*, с.38.

mübarizə məqsədi ilə apardığı danışıqlar arzu olunan nəticəni vermədi və uğursuzluqla başa çatdı.

Görkəmli tarixçi E.Şahmalıyev XVI əsrin ikinci yarısında Səfəvi-Avropa münasibətlərini tədqiq edərək bu nəticəyə gəlir ki, Avropa dövlətləri osmanlılarla mübarizədə Şah Xudabəndə hakimiyyətinə nəinki kömək etməmiş, hətta bu dövrdə Avropanın aparıcı dövləti olan İspaniyanın Səfəvi dövlətinin Bəsrə (İran) körfəzi ərazilərinin işğal edilməsi ilə bağlı planları olmuşdu. Bu barədə E.Şahmalıyev yazır: "İspaniya kralı II Filipp Portuqaliyanı işğal etməsindən (1581) sonra Hörmüz limanı İspaniyanın Şərqdəki müstəmləkə ərazilərinə daxil edildi. Bu ada barədə məlumatlar II Filipp üçün olduqca vacib idi. Çünki özünün iqtisadi əhəmiyyətindən əlavə mühüm strateji əhəmiyyətə malik idi və Səfəvi dövləti ilə müharibə şəraitində bu ada dayaq nöqtəsi kimi Səfəvi ərazisinə desant göndərmək üçün istifadə edilə bilərdi". O, bu barədə davam edərək qeyd edir ki, "1619-cu ildə İspaniya kralı III Filipp tərəfindən səfir qismində I Şah Abbasın yanına gəlmiş Don Qarsia de Fiqero türklərə qarşı müharibədə edəcəkləri köməyə qarşılıq olaraq Bəhreyn adalarını, Bəndər qalasını və bir sıra başqa yerləri istəmişdi. Doğrudur, İspaniya səfirinin bu tələbləri rədd edilmişdi, lakin bu təklif özlüyündə səciyyəvidir. Əgər İspaniya XII əsrin birinci rübündə (yəni özünün zəiflədiyi zaman) Səfəvi dövlətinə qarşı ekspansiya siyasəti həyata keçirirdisə, onda bu siyasət II Filippin dövründə daha da səciyyəvi xarakter almışdı"[887].

1578-1590-cı illər arasında səfəvilərlə osmanlılar arasında baş verən müharibə nəticəsində Səfəvi dövlətinin şimal əraziləri Osmanlı imperiyası tərəfindən işğal edildi. Artıq dövlətin siyasi varlığının təhlükə altında olduğunu görən Səfəvi hökmdarı Şah I Abbas (1587-1629) 1590-cı ildə İstanbulda Osmanlı imperiyası ilə qeyri bərabər şərtlər daxilində sülh müqaviləsi bağladı. Bu

---

[887] Э. Шахмалиев, *a.g.ə.,* с.124.

müqavilə nəticəsində Səfəvi dövlətinin böyük bir hissəsi Osmanlı imperiyasının tərkibinə daxil edildi.

XVI əsrdə Osmanlı-Səfəvi müharibələrinə yekun vuraraq bu qənaətə gəlmək olar ki, bu dövrdə tərəflər arasında baş vermiş müharibələr, hər iki dövlətin iqtisadi-siyasi və strateji maraqlarından irəli gələn bir zərurət idi. Dövlət maraqlarının və teokrtatik dünyagörüşün hakim olduğu orta əsrlər dövründə Osmanlı və Səfəvi hakimiyyətini daha çox dövlətin siyasi və ticari maraqları düşündürürdü. Qeyd etmək lazımdır ki, Osmanlı imperiyasının Səfəvi dövlətinə qarşı həyata keçirdiyi hərbi yürüşlər osmanlıların dövlət siyasətinin tərkib hissəsi olaraq ölkənin siyasi və iqtisadi maraqlarının möhkəmlənməsinə xidmət edirdi. Həmçinin osmanlıların yürüşləri dövründə Səfəvi hakimiyyətinin Osmanlı imperiyasına qarşı həyata keçirdiyi hərbi-siyasi və diplomatik fəaliyyəti Səfəvi dövlətinin siyasi maraqlarından irəli gəlir və əsasən özünümüdafiə xarakteri daşıyırdı.

Ümumiyyətlə, XVI əsrdə Avrasiya məkanında baş verən siyasi hadisələrə və dövlətlərin beynəlxalq münasibətlər sistemindəki mövqeyinə nəzər yetirdikdə Azərbaycan Səfəvi dövlətinin beynəlxalq münasibətlər sistemində aparıcı dövlətlərdən biri olduğunun şahidi oluruq. Əsası Şah I İsmayılın hakimiyyəti dövründə (1501-1524) qoyulan və formalaşan dövlətin xarici siyasi münasibətləri və diplomatik əlaqələri çoxşaxəli müstəvidə inkişaf edərək bölgənin bütün dövlətlərini əhatə etmişdi. Səfəvi dövləti dəfələrlə şərq və qərb istiqamətindən xarici müdaxilələrə məruz qalsa da, qonşu dövlətlərin bu təcavüzkar siyasəti iflasa uğramışdı. Həmçinin Şah I İsmayılın hakimiyyəti dövründə yaranan diplomatik əlaqələr Səfəvi dövlətinin beynəlxalq aləmdə siyasi münasibətlərinin möhkəmlənməsinə təkan vermişdir.

Səfəvi dövlətinin xarici siyasi əlaqələri Şah I Təhmasibin hakimiyyəti dövründə (1524-1576) də davam etdirilmişdi. Bu dövrdə Səfəvi hakimiyyətinin həyata keçirdiyi hərbi-siyasi tədbirlər nəticəsində Osmanlı imperiyasının Səfəvi dövlətinə qarşı apardığı uzunmüddətli müharibələrin qarşısı alınmış, Osmanlı imperiyası siyasi məqsədlərini tamamilə həyata keçirə bilmə-

mişdi. Bu dövrdə Səfəvi dövlətinin həyata keçirdiyi uğurlu xarici siyasət nəticəsində dövlətin beynəlxalq əlaqələri daha da möhkəmlənmişdi.

Şah I Təhmasibin ölümündən sonra Səfəvi dövlətində yaranan siyasi böhran dövlətin daxili siyasi təsisatlarına və beynəlxalq münasibətlər sistemindəki mövqeyinə ciddi zərbə vurdu. Bu dövrdə Şah II İsmayıl (1576-1577) və Şah Məhəmməd Xudabəndənin (1578-1587) uğursuz daxili və xarici siyasəti dövlətin siyasi mövcudluğunu təhlükə qarşısında qoydu və Səfəvi dövlətinin böyük bir hissəsi Osmanlı imperiyası tərəfindən işğal olundu. Belə bir şəraitdə Azərbaycan Səfəvi dövlətinin hökmdarı seçilən I Şah Abbas (1587-1629) qısa bir zamanda dövlət sistemində ciddi islahatlar həyata keçirərək dövlətin hərbi-siyasi gücünü yenidən bərpa etdi və Səfəvi dövlətini ağır siyasi böhrandan xilas etdi. Onun həyata keçirdiyi hərbi-siyasi tədbirlər nəticəsində Səfəvi dövlətinin Osmanlı imperiyası və Şeybanilər dövləti tərəfindən işğal olunmuş bütün əraziləri (Şərqi Anadolu və Qərbi Gürcüstan istisina olunmaqla-M.A.) azad olundu. Bununla da Azərbaycan Səfəvi dövlətinin XVI əsrin əvvəllərində mövcud olmuş siyasi sərhədləri yenidən bərpa olundu.

# NƏTİCƏ

XV-XVI əsrlərdə Azərbaycan dövlətləri beynəlxalq münasibətlər sistemində mühüm yer tutmuş, bölgə dövlətləri ilə fəal xarici siyasət xətti yeritmiş, həmin dövlətlərin daxili və xarici siyasətinə əhəmiyyətli dərəcədə təsir göstərmişlər. Bu dövr Azərbaycan tarixinə, Qaraqoyunlu, Ağqoyunlu, Şirvanşahlar, Şəfəvi dövlətlərinin bölgənin digər dövlətləri ilə sıx xarici siyası əlaqələr tarixi kimi düşmüşdür.

Həmin dövrdə Yaxın və Orta Şərqdə baş verən siyasi hadisələr, dövlətlərin siyasi və diplomatik münasibətləri, hərbi-siyasi qarşıdurmaları və iqtisadi-ticarət əlaqələrinin tənzimlənməsi fonunda inkişaf edirdi. Beynəlxalq hüquq normalarının yarandığı və inkişaf etdiyi bir vaxtda Yaxın Şərq regionunda böyük siyasi mövqeyə malik olan Azərbaycan dövlətləri (Qaraqoyunlu, Ağqoyunlu, Şirvanşahlar, Səfəvi), beynəlxalq münasibətlər sisteminin tərkib hissəsi olaraq Avrasiya məkanında baş verən siyasi hadisələrdə yaxından iştirak edirdilər.

XIV əsrin II yarısından başlayaraq Yaxın və Orta Şərqdə baş verən mürəkkəb siyasi hadisələr bölgənin mövcud siyasi xəritəsində ciddi dəyişikliyə səbəb oldu.

Əmir Teymurun qərb istiqamətində başlayan hərbi yürüşləri Azərbaycanın cənub bölgələrində hökmranlıq edən Cəlairi sülaləsinin hakimiyyətinə son qoydu. Azərbaycanın şimal ərazilərini əhatə edən Şirvanşahlar dövləti isə mövcud siyasi gerçəkliyi nəzərə alaraq ölkə ərazisini teymuri talanlarından xilas etmək üçün onun vassalığını qəbul etdi. Bununla da Azərbaycan Teymurilər dövlətinin tərkibinə daxil edildi.

Əmir Teymurun ölümündən sonra Azərbaycanda teymuri işğalına qarşı ciddi mübarizə başladı. Eyni zamanda yerli hakimiyyətin bərpası uğrunda sülalələr arasında siyasi mübarizə gücləndi. Azərbaycanda başlanan hakimiyyət uğrunda mübarizədə Qaraqoyunlu, Cəlairi, Ağqoyunlu və Şirvanşahlar aktiv şəkildə iştirak edirdilər.

Azərbaycan taxt-tacı uğrunda gedən bu mübarizədə qalib gələn Qaraqoyunlu sülaləsinin öz siyasi hakimiyyətini elan etməsi ilə Azərbaycanda yerli dövlətçilik sistemi bərpa olundu. Qaraqoyunlu dövlətinin yaranması ilə Yaxın Şərq bölgəsinin böyük bir hissəsi yenidən vahid siyasi hakimiyyət altında birləşdirildi. Bununla da bölgədə siyasi sabitlik və iqtisadi inkişaf üçün münbit şərait yarandı.

Azərbaycanda Qaraqoyunlu dövləti yarandıqdan sonra bu dövlətin beynəlxalq münasibətlərdə siyasi nüfuzu getdikcə artmağa başladı. Qonşu dövlətlərlə diplomatik əlaqələrin qurulması dövlətin xarici siyasətinin möhkəmlənməsinə şərait yaratdı. Qaraqoyunlu sülaləsinin hakimiyyəti dövründə Azərbaycanın xarici siyasi əlaqələri iki istiqamətdə inkişaf edirdi. Bu siyasət Osmanlı imperiyasına qarşı dostluq münasibəti ilə xarakterizə olunur, teymurilərə qarşı isə daha çox hərbi xarakter daşıyırdı. Çünki Teymurilər dövlətinin Qaraqoyunlu dövlətinə qarşı olan ərazi iddiaları, müntəzəm olaraq tərəflər arasında hərbi-siyasi qarşıdurma ilə nəticələnmişdi. Qaraqoyunlu-Teymuri münaqişəsi Cahanşahın Azərbaycanda hakimiyyətə gəlməsindən sonra səngimiş və Şahruxun ölümünə (1447) qədər tərəflər sülh şəraitində yaşamışlar.

Teymurilərdən fərqli olaraq Qaraqoyunlu dövləti ilə Osmanlı imperiyasının dövlət maraqları toqquşmurdu. Çünki hələ Orta Anadolu və Balkanlarda fəthlərlə məşğul olan osmanlılar, Şərqi Anadolu ərazisində böyük siyasi təsir imkanlarına malik olan Qaraqoyunlu dövləti ilə siyasi münasibətlərinin normal olmasında maraqlı idi. Həmçinin Ankara döyüşündən sonra, hələ də mövcud olan teymuri təhlükəsindən qorunmaq üçün qaraqoyunlularla müttəfiqlik osmanlılar üçün zəruri bir addım idi. Bu səbəbdən Qaraqoyunlu hakimiyyətinin Osmanlı imperiyası ilə siyasi münasibətləri davamlı olaraq dostluq xarakteri daşımış və tərəflər arasında intensiv elçilik mübadiləsi olmuşdu.

Qaraqoyunluların siyasi hakimiyyəti dövründə Azərbaycanın Misir Məmlük dövləti ilə mövcud olan siyasi münasibətləri hər iki dövlətin siyasi maraqları əsasında formalaşmışdı. Daimi

olaraq Qaraqoyunlu hakimiyyətini özünə ciddi siyasi rəqib hesab edən Məmlük dövləti, öz siyasi maraqları naminə qaraqoyunlulara qarşı mübarizədə Ağqoyunlu bəyliyindən istifadə etməyə çalışmışdır. Bunun da nəticəsində Qaraqoyunlu-Məmlük münasibətlərində müəyyən siyasi ziddiyyətlər yaranmışdı. Lakin bu siyasi ziddiyyətlərə baxmayaraq, Qaraqoyunlu dövləti ilə Məmlük dövləti arasında siyasi münasibətlər davam etmişdir.

Ümumiyyətlə, Qaraqoyunlu sülaləsinin hakimiyyəti dövründə Azərbaycanın beynəlxalq münasibətlərdə özünəməxsus yeri və mövqeyi olmuşdu. Belə ki, Qaraqoyunlu hakimiyyəti Yaxın Şərq bölgəsi üçün ciddi təhlükə yaradan və bu bölgənin siyasi və iqtisadi həyatına böyük zərbə vuran teymuri talanlarına qarşı ciddi şəkildə mübarizə aparmış, bu bölgədə siyasi sabitliyin yaranmasında mühüm rol oynamışdı.

Ağqoyunlu-Bayandur sülaləsinin Azərbaycanda hakimiyyətə gəlişi ilə Qaraqoyunlu sülaləsinin mərkəzi hakimiyyət sistemindən güclü və siyasi coğrafiyası daha geniş əraziləri əhatə edən Ağqoyunlu dövləti yarandı.

Ağqoyunlu sülaləsinin hakimiyyəti dövründə Azərbaycanın beynəlxalq nüfuzu xeyli artdı. Ağqoyunlu dövlətiinin istər Avropa dövlətləri, istərsə də Asiya ölkələri ilə diplomatik əlaqələri genişləndi. Bu dövrdə Ağqoyunlu dövlətinin paytaxtı olan Təbriz şəhəri Şərqlə Qərb arasında istər siyasi, istərsə də iqtisadi-ticarət əlaqələri baxımından əhəmiyyətli dərəcədə rol oynayırdı. Ağqoyunlu dövlətinin siyasi nüfuzunun möhkəmlənməsi onun beynəlxalq münasibətlər sistemindəki rolunun artması ilə müşahidə olunurdu.

Ağqoyunlu dövlətinin Yaxın və Orta Şərqdə güclü dövlətlərdən birinə çevrilməsi və beynəlxalq aləmdə siyasi nüfuzunun artması Osmanlı imperiyasını ciddi surətdə narahat edirdi. Çünki Ağqoyunlu dövlətinin getdikcə güclənməsi, Osmanlı imperiyasının Ağqoyunlu əraziləri hesabına imperiyanın sərhədlərini şərqə doğru daha da genişləndirmək və bölgədə hegemon dövlətə çevirilmək planlarına ciddi əngəl törədirdi. Bu baxımdan osmanlı-

ların Ağqoyunlu dövlətinin ərazilərinə hərbi yürüşləri, dövlətin hərbi-strateji planlarının tərkib hissəsi idi.

Bu dövrdə Ağqoyunlu dövlətinin xarici siyasət xəttinin əsasını ölkənin beynəlxalq nüfuzunu möhkəmləndirmək, osmanlıların nəzarətində olan Aralıq və Qara dənizə çıxışı təmin edən strateji məntəqələri geri qaytarmaq təşkil edirdi. Eyni zamanda Ağqoyunlu dövləti Osmanlı imperiyasının ölkənin qərb ərazilərinə qarşı işğalçılıq yürüşlərinin qarşısını almaq üçün qabaqlayıcı tədbirlər görürdü. Bu məqsədlə Ağqoyunlu hakimiyyəti Osmanlı imperiyasına qarşı birgə mübarizə aparmaq üçün Avropa dövlətləri ilə müntəzəm danışıqlar aparmışdır. Ağqoyunlu dövlətinin apardığı diplomatik danışıqlara baxmayaraq, Avropa dövlətləri Ağqoyunlu hakimiyyətinə hərbi-siyasi kömək göstərməmiş, Ağqoyunlu-Osmanlı hərbi qaşıdurmasında ağqoyunlu hakimiyyəti müttəfiqsiz mübarizə aparmışdır.

Ağqoyunlu dövlətinin osmanlılara apardığı müharibələrdə hərbi-siyasi mövqeyinin zəifləməsinə baxmayaraq, həmin dövrdə Azərbaycanın beynəlxalq nüfuzu və siyasi mövqeyi yenə də güclü olaraq qalırdı. Bu dövrdə də Azərbaycanın istər Avropa dövlətləri, istər Osmanlı imperiyası, istər Məmlük, istərsə də Teymurilər dövləti ilə siyasi münasibətləri davam etməkdə idi. Eyni zamanda Ağqoyunluların hakimiyyəti dövründə gürcü bölgələri Azərbaycanın vassal əraziləri olmuş və illik xərac ödəmişlər.

XV əsrdə Azərbaycanın Kür çayından şimal-şərq ərazilərini əhatə edən Şirvanşahlar dövləti də bölgədə baş verən siyasi hadisələrdə yaxından iştirak edirdi. Bu dövrdə strateji cəhətdən böyük əhəmiyyətə malik olan Şirvan bölgəsi, istər siyasi baxımdan, istərsə də ticarət əlaqələrinin inkişafında mühüm rol oynayırdı.

Şirvan hakimləri Əmir Teymurun yürüşləri dövründə teymurilərin təbəəliyini qəbul etmış, bununla da ölkəni hərbi talanlardan xilas etməklə dövlətin daxili müstəqilliyini qoruyub saxlaya bilmişlər.

Əmir Teymurun ölümündən sonra Şirvanşahlar, Qaraqoyunlu hakimiyyətindən vassal asılılığında olmuşdur. Şirvanşahlar hakimiyyəti Qaraqoyunlu dövlətindən vassal asılılığında olsa da, bu asılılıq əsasən formal xarakter daşımış və qonşu dövlətlərlə mütəmadi şəkildə diplomatik əlaqələr saxlanmışdı.

Bu dövrdə Şirvanşahlar Osmanlı sarayına və Teymurilər dövlətinə diplomatik nümayəndə heyəti göndərərək bu dövlətlərlə müntəzəm diplomatik əlaqələr saxlayır və dostluq əlaqələrini inkişaf etdirirdi. Şirvan hakimləri osmanlı və teymurilərin bölgədəki siyasi maraqlarından mütəmadi şəkildə öz siyasi məqsədləri üçün istifadə etməyə çalışırdı. Eyni zamanda Şirvanşahlar gürcü çarları və Dağıstan hakimləri ilə də dostluq münasibətləri saxlayaraq dövlətin xarici siyasi əlaqələrini inkişaf etdirməyə çalışırdılar.

Ümumiyyətlə, XV əsrdə Şirvanşahlar dövlətinin beynəlxalq münasibətlər tarixini izləyərkən, bu dövlətin bölgədə gedən siyasi hadisələrdə fəal şəkildə iştirak etdiyinin şahidi olur və Şirvanşahlar dövlətinin Qaraqoyunlu və Ağqoyunlu hakimiyyətinin siyasi təbəəliyinin formal xarakter daşıdığını görürük. Düzdür, Şirvanşahlar dövləti digər Azərbaycan dövlətləri (Qaraqoyunlu, Ağqoyunlu) kimi bölgədə mövcud olan aparıcı dövlətlərlə siyasi rəqabət gücünə malik olmasa da, lakin baş verən siyasi hadisələrin iştirakçısı olmuş və istər daxili siyasətdə, istərsə də xarici siyasi əlaqələrin qurulmasında müstəqilliyini qoruya bilmişdi.

XVI əsrdə Avrasiya məkanında baş verən iqtisadi-siyasi dəyişiklər beynəlxalq münasibətlər sisteminin inkişafına ciddi təkan verdi. XV əsrin sonu XVI əsrin əvvəlində başlayan Böyük coğrafi kəşflər, dünyanın siyasi xəritəsinin dəyişməsinə və Avropa dövlətlərinin Şərqə olan iqtisadi və siyasi maraqlarının artmasına səbəb oldu.

Bu dövrdə baş verən siyasi hadisələrdə fəal şəkildə iştirak edən Azərbaycan Səfəvi dövlətinin beynəlxalq münasibətlər sistemində böyük rolu olmuşdu.

XVI əsrin əvvəllərində (1501) Şah I İsmayılın Azərbaycanda siyasi hakimiyyətə gəlməsi ilə qurulan Səfəvi dövləti Ön

Asiyada aparıcı mövqeyə malik olan dövlətlərdən birinə çevrilmişdi. Azərbaycanda Səfəvi sülaləsinin hakimiyyətə gəlməsi ilə (1501-1736) Yaxın və Orta Şərqin siyasi və dini-ideoloji mənzərəsində ciddi dəyişiklər baş verdi. Şah I İsmayılın qısa bir zamanda geniş bir coğrafi məkanı əhatə edən mərkəzləşmiş bir siyasi hakimiyyət yaratması bölgənin aparıcı dövlətlərindən birinə çevrilən Osmanlı imperiyası və Mərkəzi Asiyada siyasi mövqelərini gücləndirməyə çalışan Şeybanilər dövləti ilə ciddi qarşıdurmalara səbəb oldu. Çünki bu dövrdə Səfəvi dövləti Osmanlı imperiyasının Yaxın Şərqlə bağlı strateji planlarına ciddi maneə yaradırdı. Həmçinin şeybanilərin Xorasana olan siyasi iddiaları Səfəvi-Şeybani münasibətlərində siyasi gərginliklə müşahidə olunur və hərbi qarşıdurmalarla müşaiyət olunurdu. Məhz bu dövrdə osmanlıların və şeybanilərin Səfəvi dövlətinə qarşı eyni siyasi mövqedən çıxış etməsi hər iki dövlətin Şəfəvi dövlətinə qarşı hərbi-siyasi müttəfiq rolunda çıxış etməsinə səbəb olmuşdu.

XVI əsrdə Azərbaycan Səfəvi dövlətinin xarici siyasətində Böyük Moğol dövləti də əhəmiyyətli yer tuturdu. Şah I Ismayılın hakimiyyəti dövründən başlayan səfəvi-moğol əlaqələri Babur şahın Böyük Moğol dövlətini yaratdığından (1526) sonra da davam etmişdir.

1540-cı ildə Əfqan hakimi Şirşaha məğlub olan Hümayun Səfəvi dövlətinə gəlmiş və Səfəvi dövlətinin hərbi köməyi sayəsində yenidən Kabildə öz hakimiyyətini bərpa etmişdi.

Əkbər şahın hakimiyyəti (1556-1605) illərində də Səfəvi dövləti ilə Böyük Moğol dövləti arasında siyasi və diplomatik münasibətlər davam etmişdi. Bu dövrdə də "Qəndəhar məsələsi" yenə də səfəvilərlə moğollar arasında siyasi gərginliyə səbəb olmuş, lakin tərəflər arasında siyasi münasibətlərin pozulmasına ciddi şəkildə təsir etməmişdir.

Bütün XVI əsr boyu Səfəvi dövlətinin Osmanlı imperiyası və Şeybanilər dövlətinin hərbi müdaxiləsi ilə üzləşməsi Səfəvi hakimiyyətini Osmanlı imperiyasına qarşı mübarizə aparmaq üçün Avropa dövlətləri ilə diplomatik münasibətlərinin yaradıl-

masına vadar edirdi. Səfəvilərin osmanlılarla siyasi rəqabəti Səfəvi dövlətinə Osmanlı imperiyasının arxasında bir güclü hərbi-siyasi qüvvə kimi Avropada marağı artırır və xristian dünyası bu fürsətdən istifadə etməyə çalışırdı.

Bu dövrdə baş verən siyasi hadisələrin mərkəzində Avrasiya məkanında mövcud siyasi duruma ciddi surətdə təsir edə biləcək böyük siyasi imkanlara malik Səfəvi dövləti ilə Osmanlı imperiyası dayanırdı. Bu dövlətlərin bölgədəki strateji maraqları hər iki dövlət arasında siyasi rəqabəti və hərbi qarşıdurmanı getdikcə gücləndirir, Osmanlı-Səfəvi müharibələrini qaçılmaz edirdi. Məhz bu səbəblər uzunmüddətli Səfəvi-Osmanlı müharibələrinin əsasını qoymuşdu.

Uzunmüddətli Səfəvi-Osmanlı müharibələri dövründə Avropa dövlətlərinin vəd etdiyi hərbi-siyasi köməyi əldə edə bilməyən Səfəvi dövləti osmanlılarla təkbaşına mübarizə aparmaq məcburiyyətində qalaraq hərbi-texniki üstünlüyə malik olan Osmanlı ordusu qarşısında məğlubiyyətə uğradı. Bununla da Səfəvi dövləti ilə Osmanlı imperiyası arasında Səfəvi dövlətinin qərb ərazilərinin bir hissəsinin itkisi ilə nəticələnən Amasya sülh müqaviləsi (1555) bağlandı.

XVI əsrin ikinci yarısından başlayaraq Səfəvi dövlətində baş verən siyasi böhran dövlətin daxili və xarici siyasətinə ciddi zərbə vurdu. Səfəvi dövlətində baş verən bu siyasi hadisələr xarici dövlətlərin Səfəvi dövlətinə qarşı hərbi-siyasi məqsədlərini həyata keçirmək üçün əlverişli şərait yaratdı.

Bu dövrdə səfəvilərlə osmanlılar arasında baş verən müharibələr (1578-1590) nəticəsində Səfəvi dövlətinin şimal əraziləri Osmanlı imperiyası tərəfindən işğal edildi. Dövlətin siyasi mövcudluğunun təhlükə altında olduğunu görən Səfəvi hökmdarı Şah I Abbas (1587-1629) 1590-cı ildə Osmanlı imperiyası ilə qeyri-bərabər şərtlər daxilində sülh müqaviləsi bağladı. Bu müqavilə nəticəsində Səfəvi dövlətinin şimal əraziləri Osmanlı imperiyasının tərkibinə daxil edildi. Həmçinin bu siyasi böhrandan istifadə edən Seybanilər dövləti Xorasanı, Böyük Moğol dövləti isə Qəndəhar vilayətini ələ keçirdi.

Şah I Abbasın ölkədə həyata keçirdiyi bir sıra islahatlar nəticəsində Azərbaycan Səfəvi dövlətində mövcud olan siyasi böhrana son qoyuldu. Eyni zamanda Şah I Abbasın həyata keçirdiyi hərbi-siyasi islahatlar nəticəsində dövlətin osmanlılar və şeybanilər tərəfindən işğal olunmuş əraziləri azad olundu. Həmçinin səfəvilərin hərbi müdaxiləsi nəticəsinə Qəndəhar vilayəti yenidən Səfəvi dövlətinin tərkibinə qatıldı. Bununla da Azərbaycan Səfəvi dövlətinin əvvəlki siyasi qüdrəti bərpa olundu.

Beləliklə, XV-XVI əsrlərdə Azərbaycan dövlətlərinin beynəlxalq münasibətlər sistemindəki yerinə və roluna yekun vuraraq bu qənaətə gəlmək olar ki, bu dövrdə Avrasiya məkanında strateji cəhətdən böyük cöğrafi mövqeyə malik olan bu dövlətlər Yaxın və Orta Şərqdə baş verən siyasi hadisələrdə yaxından iştirak etmiş və bölgənin aparıcı dövlətlərindən birinə çevrilmişlər. Bu dövrdə bölgənin siyasi xəritəsində mühüm rola malik olan və sülaləvi mahiyyət daşıyan Azərbaycan dövlətləri –Qaraqoyunlu, Ağqoyunlu, Şirvanşahlar, Səfəvi dövlətləri, öz siyasi dövlət təsisatları, bölgədə geniş bir siyasi cöğrafiyada yayılan və təşəkkül tapan dini-ideoloji dəyərlər sistemi ilə bölgənin mədəniyyətinin və mənəvi dəyərlərinin inkişafında mühüm rol oynamış, bu dövlətlərin orta əsr diplomatiyasına və hüquq sisteminə verdiyi töhfələr,  beynəlxalq münasibətlər sisteminin formalaşmasında böyük əhəmiyyət kəsb etmişdir.

# XÜLASƏLƏR

## M.Z. Aghalarlı: Azerbaijan in the system of international relations (XV-XVI centuries)

The study of the Azerbaijani statehood, diplomatic traditions and rich foreign policy of our forefathers acquire significant importance in the modern stage of Azerbaijan Republic's foreign policy development. The monograph called "Azerbaijan in the system of international relations (XV-XVI centuries)" includes the political mutual relations of Azerbaijani states (Karakoyunlu, Akkoyunlu, Shirvanshahs and Safavids) of 15-16$^{th}$ centuries with the Asian and European powers, the place and role of these Azerbaijani states in the system of international relations.

The monograph consists of the Introduction, two chapters, conclusion, list of references and appendixes.

The introduction includes: the topicality of the theme, goal and duties, scientific novelty, theoretical and practical significance, methods and sources, approbation and structure of the research.

Chapter I "Azerbaijan in the system of international relations of the 15$^{th}$ century" deals with the main directions of Azerbaijani states' foreign policy in the 15$^{th}$ century, their relations with the Mamluks, the Timurids and the Ottomans, their political connections with the European states and the Georgian rulers.

Chapter II called "Azerbaijan in the system of international relations of the 16$^{th}$ century" determines the key directions of the foreign policy of Safavids, the basis of Azerbaijan statehood in the 16$^{th}$ century, investigates their political relations with Sheybanids and the Great Mogols. Here is investigated and analyzed the political relations of Safavids with the Ottoman Empire and the European powers. The chapter

deals with the research of Safavid-Mamluk relations. The role and place of Safavids in the system of international relations of the 16th century are determined thoroughly.

The scientific results, conclusions of the research are reflected in the conclusion of the monograph.

## М.З.Агаларлы: Азербайджан в системе международных отношений (XV-XVI вв.)

На современном этапе развития внешней политики Азербайджанской Республики особо важное значение приобретает изучение истории азербайджанской государственности, дипломатических традиций и богатой внешнеполитической практики наших предков. Предметом исследования работы монографии под названием «Азербайджан в системе международных отношений (XV-XVI вв.) являются политические и дипломатческие взаимосвязи азербайджанских государств (Кара-Коюнлу, Ак-Коюунлу, государство Ширваншахов и империя Сефевидов) XV-XVI столетий, активно участвовавших в политических событиях, происходивших в пространстве Евразии, с державами Азии и Европы, место и роль этих азербайджанских государств в системе международных отношений.

Монография состоит из введения, двух глав, заключения, списка использованных источников и приложений.

Во «Введении» обоснована актуальность темы, указаны цель и задачи, научная новизна, теоретическое и практическое значение, методы и источники исследования, апробация работы и структура диссертации.

Первая глава монографии называется «Азербайджан в системе международных отношений XV века». В этой главе исследуются основные направления внешней политики азербайджанских государств в XV столетии, отношения

этих государств с государством египетских Мамлюков, с Османской империей, с государством Тимуридов и политико-дипломатические связи с европейскими государствами.

Вторая глава монографии называется «Азербайджан в системе международных отношений XVI века». В этой главе определяются главные направления внешней политики государства Сефевидов, исследуются политические связи этого государства с государствами Шейбанидов и Великих Моголов. Исследуются и сравнительно анализируются также политические и дипломатические отношения государства Сефевидов с Османской империей, с государством Мамлюков, и с европейскими державами. Обстоятельно определяются также место и роль государства Сефевидов в системе международных отношений XVI века.

Научные результаты, итоги исследования нашли свое отражение в заключительной части монографии.

# ƏLAVƏLƏR

*Əlavə 1*

**XV əsrdə Məmlük sarayına göndərilən Qaraqoyunlu elçiləri**

| № | Adı | Tarixi | Məqsədi |
|---|---|---|---|
| 1 | ? | 1411 | Ağqoyunlulara qarşı birgə mübarizə aparmaq üçün Məmlük sarayı ilə danışıqlar aparılması. |
| 2 | ? | noyabr/1415 | Qanıbəy üsyanının yatırılması münasibəti ilə Məmlük Sultanının təbrik edilməsi. |
| 3 | Dəniz (Dengiz) | noyabr/1416 | Agqoyunluların Ərzincana hücumu vaxtı Məmlük hakimiyyətindən kömək alınması. |
| 4 | Həmid əd-Din | avqust/1417 | Ağqoyunlulara qarşı hücum hazırlığı xəbərinin verilməsi. |
| 5 | Həmid əd-Din | sentyabr/1417 | Ağqoyunlular üzərində qələbə xəbərini Misir Sultanına çatdırılması. |
| 6 | ? | iyul/1418 | Qaraqoyunluların Ağqoyunlulara qarşı yürüşü zamanı Suriyaya girməmək haqda təminat verilməsi və məmlüklərin ağqoyunluları himayə etməsinə qarşı etiraz bildirilməsi. |
| 7 | ? | mart/1420 | Qara Yusif Dəməşqdə həbsdə olduğu zaman (1404) ondan alınan qiymətli əşyaların Məmlük sultanı Şeyx əl-Mahmudidən geri tələb edilməsi. |
| 8 | ? | 1433 | Ağqoyunlu bəyi Qara Yuluq Osmana qarşı birgə mübarizənin aparılması. |
| 9 | ? | 1436 | Qaraqoyunlu hökmdarı İsgəndər Mirzənin Cahanşaha qarşı birgə mübarizə aparılması üçün Məmlük Sültanından hərbi kömək alınması. |
| 10 | ? | 1450 | Ağqoyunlulara qarşı Ərzincan yürüşü zamanı Qaraqoyunlu ordusunun Malatya istiqamətində irəliləməsinin səbəbinin izah edilməsi. |

*Əlavə 2*

**XV əsrdə Məmlük sarayına göndərilən Ağqoyunlu elçiləri**

| № | Adı | Tarixi | Məqsədi |
|---|---|---|---|
| 1 | Əbu Yezid (Qara Yuluq Osman bəyin oğlu) | 1415 | Qanıbəy üsyanının yatırılması münasibəti ilə Məmlük Sultanını təbrik edilməsi. |
| 2 | Cahangir Mirzə, Həsən bəy | 1438 | Ağqoyunlu bəyliyində baş verən hakimiyyət mübarizəsində məmlük Sultanından kömək alınması, həmçinin qaraqoyunlulara qaşı mübarizədə məmlüklərlə əməkdaşlıq edilməsi. |
| 2 | Saray Xatun | 1450 | Münaqişə vəziyyətində olan məmlüklərlə münasibətlərin qaydaya salınması. |
| 3 | ? | 1465 | Gərgər qalasını məmlüklərə geri qaytaracağı təqdirdə Məmlük Sultanından 100 min dinar və Xarputun tələb ediləcəyi. |
| | Əmir Musa Türkman | fevral /1466 | Xarput qalasının açarlarının Məmlük sultanı Xoşqədəmə təqdim edilməsi. |
| 4 | Saray Xatun | mart /1466 | Uzun Həsən Xarput qalasını ələ keçirdikdən sonra məmlüklərlə münasibətləri normallaşdırılması üçün Saray Xatunu elçi kimi Misirə göndərmişdi. |
| 5 | ? | 1467 | Qaraqoyunlu hökmdarı Cahanşah üzərində qələbə xəbərinin Məmlük sarayına çatdırması. |
| 6 | ? | iyul /1468 | Məmlük hökmdarı Əşrəf Qayıtbəyin (1468-1496) culusunun təbrik edilməsi. |
| 7 | ? | 1469 | 1469-cu ildə Uzun Həsən Teymuri Əbu Səidlə döyüşdən əvvəl Sultan Qayıtbəyə bağlılığını bildirmək üçün Qahirəyə bir elçi heyəti göndərmişdi. Bu elçi qaraqoyunlu Həsənəlidən alınan Azərbaycan qalalarının açarlarını da Məmlük Sultanına təqdim etmişdir. |
| 8 | ? | Fevral /1469 | Ağqoyunluların Teymuri Əbu Səid üzərində qələbə xəbərinin Qayıtbəyə çatdırılması. |
| 9 | ? | Aprel /1472 | Osmanlılarla müharibə ərəfəsində məmlüklərin bitərəfliyinə nail olunması. |
| 10 | ? | Sentyabr /1472 | Hələbdə olan Məmlük sərkərdəsi Yaşbəyin yanına göndərilən bu elçinin məqsədi əsirlərin dəyişdirilməsi idi. |
| 11 | ? | İyul/1473 | Məmlük Sultanının sülh təklifinin Ağqoyunlu hakimiyyəti tərəfindən qəbul edildiyini Məmlük sarayına çatdırılması. |

| | | | |
|---|---|---|---|
| 12 | ? | mart/1480 | Ağqoyunlu hökmdarı Sultan Yaqubun dostluq əlaqələrini möhkəmləndirmək üçün Məmlük sarayına göndərdiyi bu elçini Sultan Qayıtbəy Həccə getmək bəhanəsilə qəbul etməmişdir. |
| 13 | Əmir Əxi Fərəc | mart/1487 | Dostluq əlaqələrini möhkəmləndirmək üçün danışıqlar aparılması. |

*Əlavə 3*

## XV əsrdə Osmanlı sarayına göndərilən Qaraqoyunlu və Ağqoyunlu elçiləri

| № | Adı | Tarixi | Məqsədi |
|---|---|---|---|
| 1 | Xacə Bəhram Naxçıvani | ? | Osmanlı sarayına gələn Qaraqoyunlu elçisi Qara Yusifin dostcasına yazılmış məktubunu Sultan Mehmed Çələbiyə təqdim etmiş, qaraqoyunluların teymurilərə qarşı gördükləri tədbirlər haqqında məlumat vermişdi. |
| 2 | ? | 1420 | Qaraqoyunlu sarayından göndərilən elçinin məqsədi Azərbaycana hücum edən Teymuri hökmdarı Şahruxa qarşı Osmanlı sultanından hərbi kömək almaq idi. |
| 3 | ? | ? | Osmanlı sultanı II Muradın Macarıstanın fəth olunması (1438) münasibəti ilə Qaraqoyunlu Cahanşaha göndərdiyi "fəthnamə"yə cavab olaraq Qaraqoyunlu hökmdarı Cahanşah bu elçi vasitəsilə ona cavab məktubu göndərərək təbrik etmişdi. |
| 4 | Şükrullah | 1454 | Osmanlı hökmdarı Sultan II Mehmedin İstanbul şəhərinin fəth olunması (1453) ilə əlaqədar olaraq Qaraqoyunlu hökmdarı Cahanşaha göndərdiyi "fəthnamə"yə cavab olaraq Cahanşah Osmanlı hökmdarına özünün Bağdad "fəthnamə"sini göndərərək yeni qələbəsini xəbər vermiş və onu təbrik etmişdir. |
| 5 | ? | 1467 | Qaraqoyunlu sarayından göndərilən elçinin məqsədi Ağqoyunlu bəyliyinə qarşı mübarizə aparmaq üçün Osmanlı sultanı II Mehmeddən kömək almaq idi. |
| 6 | Murad bəy | 1459 | Ağqoyunlu bəyi Uzun Həsənin göndərdiyi elçinin məqsədi Trabzon imperatorluğunun 1453-cü ildən bəri osmanlılara ödəmədiyi illik vergini ləğv etdirmək, İldırım Bəyazidin Osmanlı torpaqlarına basqın etməməsi müqabilində Ağqoyunlu Osman bəyə vəd etdiyi və Teymurun ölümündən sonra göndərilməyən hədiyyələrin dərhal verilməsini, xanımı Dəspinəyə atası tərəfindən cehiz verilən Kapodokiya şəhəri və ətrafındakı torpaqları tələb etmək idi. |

| | | | |
|---|---|---|---|
| 7 | Saray Xatun | 1461 | Ağqoyunlu elçi heyətinin məqsədi Osmanlı sultanı II Mehmedi Trabzon yürüşündən daşındırmaq idi. |
| 8 | ? | ? | Ağqoyunlu elçisinin məqsədi Ağqoyunluların Muş döyüşündə (1467) Cahanşah üzərində qələbə xəbərini Osmanlı Sultanına çatdırmaq idi. |
| | Seyid Əhməd Toğanoğlu | ? | Ağqoyunlu hökmdarı Uzun Həsən Qaraqoyunlu Həsənəli Mirzəni məğlub etdikdən sonra Osmanlı sultanı II Mehmedə növbəti bir məktub göndərərək Həsənəli Mirzə ilə Həmədan yaxınlığında baş verən döyüşdə qaraqoyunluların məğlub olması və Həsənəli Mirzənin qətlə yetirilməsi haqqında məlumat vermişdir. |
| 9 | ? | sentyabr/ 1470 | Ağqoyunlu hökmdarı Uzun Həsən fars vilayətlərinə yürüş edib bu əraziləri ələ keçirdikdən sonra Sultan II Mehmedə bir "fəthnamə" göndərərək qələbə xəbərini Osmanlı sarayına çatdırmışdı. |
| 10 | Əhməd Bəkrçi | 1473 | Ağqoyunluların Otluqbeli məğlubiyyətindən sonra Ağqoyunlu elçisi Sultan II Mehmedin yanına gələrək danışıqlar apararaq sülh bağlamışdı. Sülhün şərtlərinə görə ağqoyunlular Şəbin – Qarahisarın osmanlıların tabeliyinə keçməsini qəbul etmişdi. Eyni zamanda tərəflər bir-birinə hücum etməmək haqqında öhdəlik götürmüşdü. |

*Əlavə 4*

## XV əsrdə Qaraqoyunlu və Ağqoyunlu sarayından Teymurilər dövlətinə göndərilən elçilər

| № | Adı | Tarixi | Məqsədi |
|---|---|---|---|
| 1 | ? | 1414 | Qaraqoyunlu elçi heyətinin məqsədi Qaraqoyunlu-Teymuri münasibətlərini normallaşdırmaq üçün danışıqlar aparmaq idi. |
| 2 | Mərdanşah | 1415 | Elçinin məqsədi Teymurilər dövləti ilə Qaraqoyunlu dövləti arasında mövcud olan siyasi ziddiyyətləri sülh yolu ilə həll etmək idi. |
| 3 | ? | 1417 | Qaraqoyunlu elçi heyətinin məqsədi Sultaniyyə şəhəri Teymurilərdən geri alındıqdan (1415) sonra kəskinləşən Qaraqoyunlu-Teymuri münasibətlərini normallaşdırmaq idi. |
| 4 | Əmir Fədlullah oğlu Həmzə | 1421 | Qaraqoyunlu şahzadəsi İspənd Mirzə bu elçisi vasitəsilə Teymuri hökmdarı Şahruxa tabe olduğunu bildirmişdi. |
| 5 | ? | 1446 | Qaraqoyunlu elçisinin məqsədi Cahanşahın Teymuri Şahruxla davam edən dostluq əlaqələrini möhkəmləndirmək idi. |

| | | | |
|---|---|---|---|
| 6 | Əli Şəkər bəy | 1447 | Qaraqoyunlu dövlətinin nüfuzlu əmirlərindən olan Əli Şəkər bəy Baharlı Şahruxla dostluq əlaqələrini möhkəmləndirmək üçün Teymuri sarayına göndərilmiş elçi Sultaniyyə şəhərinə çatdıqda Şahruxun ölüm xəbərini eşitmiş və Sultaniyyə şəhərindən teymuri hakimini qovaraq şəhəri ələ keçirmişdi. |
| 7 | Nizaməddin Seyid Aşur | 1458 | Qaraqoyunlu Cahanşah Heratı ələ keçirdikdən sonra danışıqlar aparmaq üçün elçisini Teymuri hökmdarı Əbu Səidin yanına göndərmişdi. Elçinin məqsədi danışıqları davam etdirmək idi. |
| 8 | | 1458 | Qaraqoyunlu şahzadəsi Həsənəlinin qiyamı Cahanşahı teymurilərlə münaqişəyə girməkdən çəkindirmiş, yeni bir elçi göndərərək məsələləri sülh yolu ilə həll etmək arzusunda olduğunu Əbu Səidə bildirmişdi. |
| 9 | Saray Xatun | 1468 | Teymuri Əbu Səid Azərbaycan istiqamətində yürüşə başladıqdan (fevral/1468) sonra Ağqoyunlu hökmdarı Uzun Həsən teymurilərlə mövcud hərbi qarşıdurmanı aradan qaldırmaq üçün Əbu Səidin yanına elçi göndərərək teymurilərlə münasibətləri danışıqlar yolu ilə həll etmək arzusunda olduğunu bildirmişdi. |
| 10 | Murad bəy | 1468 | Miyanə şəhərində düşərgə salan Teymuri Əbu Səidin yanına gələn Ağqoyunlu elçisi növbəti dəfə Ağqoyunlu hökmdarının sülh təklifini ona çatdırmışdı. |
| 11 | Qaziəsgər Əlaəddin Əli | 1468 | Ağqoyunlu hökmdarı Uzun Həsən Teymurilərlə müharibənin qaçılmaz olduğunu görmüş, elçisini bir məktubla Əbu Səidin yanına göndərib Əbu Səidi döyüş meydanına çağırmışdı. |
| 12 | Qazi Əli | 1469 | Uzun Həsən elçisi vasitəsilə Teymuri hökmdarı Sultan Hüseyin Baykaraya bir məktub göndərərək Xorasanda olan bütün qaraqoyunlular nəslindən olanların ona verilməsini tələb etmişdi. |

*Əlavə 5*

**XV əsrdə Ağqoyunlu sarayından Avropa dövlətlərinə göndərilən elçilər**

| № | Adı | Tarixi | Məqsədi |
|---|---|---|---|
| 1 | Məhəmməd bəy | dekabr /1460 | Ağqoyunlu bəyi Uzun Həsənin Romaya göndərdiyi elçinin məqsədi osmanlılar əleyhinə hərbi ittifaq yaratmaq üçün danışıqlar aparmaq idi. |
| 2 | Murad bəy | fevral/1471 | Ağqoyunlu hökmdarı Uzun Həsənin Venesiyaya göndərdiyi bu elçinin məqsədi osmanlılara qarşı birgə mübarizə məqsədilə danışıqlar aparmaq idi. |
| 3 | Nikolo | ? | Elçisi Murad bəyin Venesiyada gecikdiyini görən Uzun Həsən, Avropaya növbəti bir elçi göndərmişdi. Gürcü elçisi ilə birlikdə Avropaya yola düşən bu Ağqoyunlu elçisi Trabzondan Akkermana, oradan isə Polşaya gəlmiş və Polşa kralı IV Kazimirin Papaya göndərdiyi elçi ilə birlikdə Romaya yollanmışdır. Romada danışıqlar aparan Uzun Həsənin bu ikinci elçisinin əsas vəzifəsi xristian dövlətlərinin Osmanlı imperiyasına qarşı mübarizədə Ağqoyunlu dövlətinə köməyini təmin etmək üçün Poma papası II Paulusun vasitəçiliyindən istifadə etmək idi. |
| 4 | Hacı Məhəmməd | 1472 | Venesiyaya göndərilən bu elçi heyətinin məqsədi Ağqoyunlu-Venesiya hərbi müqaviləsinin şərtlərinə uyğun olaraq xristian dövlətlərinin osmanlılara qarşı hərbi əməliyyatlara başlamasını və Venesiyanın vəd etdiyi hərbi yardımın göstərilməsini tələb etmək idi. |

*Əlavə 6*

**XVI əsrdə Azərbaycan Səfəvi dövlətindən Osmanlı imperiyasına göndərilən elçilər**

| № | Adı | Tarixi | Məqsədi |
|---|---|---|---|
| 1 | Qulu bəy | 1507 | Elçinin məqsədi Səfəvilərin Zülqədər bəyliyinə yürüşünün səbəblərini izah etmək və Osmanlı sultanı II Bəyaziddən Osmanlı torpaqlarından Zülqədər ərazisinə daxil olmaq üçün keçiş izni almaq idi. |
| 2 | ? | 1508 | Elçinin məqsədi Osmanlı sarayından Trabzon valisi şahzadə Səlimin ələ keçirdiyi Gürcü bölgələrinin qərb hissəsini və Anadoludakı bəzi ərazilərin geri qaytarılmasını və şahzadə Səlimin cəzalandırılmasını tələb etmək idi. |

| | | | |
|---|---|---|---|
| 3 | ? | 1510/1511 | Elçinin məqsədi Mərv döyüşündə özbəklər üzərində qələbə xəbərini Osmanlı sultanı II Bəyazıdə çatdırmaq idi. |
| 4 | Şahqulu Ağa | 19 iyul /1514 | Səfəvi elçisinin məqsədi Çaldıran savaşı ərəfəsində Sultan Səlimin Şah I İsmayıla yazdığı üç məktubuna cavab olaraq Səfəvi hökmdarının məktubunu Osmanlı sultanına çatdırmaq idi. |
| 5 | Mir Nurəddin Əbdülvahab, Qazi İshaq, Mövlana Şükrüllah Muğani, Xəlifə Heydər | Noyabr /1514 | Elçi heyətinin məqsədi Çaldıran döyüşündən (1514) sonra hər iki dövlət arasında münasibətləri normallaşdırmaq idi. Bu elçilik heyəti İstanbulda həbs olunmuşdur. |
| 6 | Kəmaləddin Hüseyin bəy, Bəhram Ağa | dekabr /1515 | Osmanlı sarayına sülh təklifi ilə gələn elçilik heyətinin məqsədi sülh danışıqları aparmaq idi. Bu elçi heyəti İstanbulda həbs olunmuşdu. |
| 7 | Saru-Şeyx | fevral /1518 | Elçi Hələbdə olan Sultan Səlimin yanına gələrək osmanlıların Misirin fəthi münasibətilə Səfəvi hökmdarının göndərdiyi "təbriknamə"ni ona təqdim etmişdir. Lakin Sultan Səlim elçinin sülh təklifini rədd edərək elçini Yedi-Kule qalasında həbs etdirmişdi. |
| 8 | Tacəddin Həsən Xəlifə | 1523 | Elçi heyətinin məqsədi Sultan Səlimin ölümünə görə Osmanlı sultanına baş sağlığı vermək, Sultan Suleymanı taxta çıxması və Rodosun fəthi münasibəti ilə təbrik etmək idi. 500 nəfərdən ibarət olan bu səfəvi elçi heyətindən yalnız İstanbula daxil olmağa 20 nəfərə icazə verilmişdi. |
| 9 | Habil bəy | 1531/32 | Elçinin məqsədi Bidlisi ələ keçirən Üləma bəyin təslim edilməsini tələb etmək idi. |
| 10 | Hüseyin xan Şamlu | ? | Elçi heyətinin məqsədi Üləma bəyi Şərəf xanla dəyişdirməyi təklif etmək idi. |
| 11 | Ustaclı xan Türkman | 1535 | Osmanlıların ikinci dəfə Təbriz istiqamətində yürüşü (aprel/1535) ərəfəsində Osmanlı dövlətinə gələn elçi heyəti İraqi-Əcəmin Səfəvilərdə, İraqi-Ərəbin isə Osmanlıda qalması şərti ilə sülh təklif etmiş lakin bu təklif qəbul olunmamışdı. |
| 12 | Seyid Abdulla, Mir Şahsuvar | 1535 | Sülh təklifi ilə osmanlı İbrahim Paşanın yanına gələn bu elçi heyətinin sülh təşəbbüsləri nəticəsiz qalmışdı. |

| | | | |
|---|---|---|---|
| 13 | Şəmsi Fələki Dəvvar | ? | Osmanlı sarayına gələn elçi Şah I Təhmasibin "Van valisi İsgəndər paşanın Səfəvi torpaqlarına basqınlar etdiyi, Qızılbaş sərhəd bəylərinə ədəbsizcə təhdid məktubları yazdığı, artıq bu işin son həddi aşdığını" bildirən məktubunu təqdim etmiş və bu hərəkətlərə son verilməsini tələb etmişdi. |
| 14 | Əmir Şəmsəddin Dilcani | 1553 | Elçinin məqsədi sülh təklif edərək danışıqlar aparmaq idi. |
| 15 | ? | iyul/1554 | Sultan Suleyman Azərbaycana hərbi yürüşü vaxtı Naxçıvanda olarkən, Şah I Təhmasib ona elçi vasitəsilə təhdidedici bir məktub göndəmişdi. |
| 16 | Şahqulu Ağa Qacar | sentyabr /1554 | Elçinin məqsədi sülh danışıqları aparmaq idi. |
| 17 | Fərruxzad Bəy Eşikağası | may/1555 | Elçi heyətinin məqsədi Osmanlı sarayı ilə sülh şərtlərini müzakirə etmək və sülh sazişini imzalamaq idi. 1555-ci il mayın 21-də Səfəvi elçisinin də iştirak etdiyi Osmanlı Divani-Hümayunu sülh şərtlərini müzakirə edərək qəbul etmiş və Amasiyada ilk Səfəvi-Osmanlı sülhü imzalanmışdı. |
| 18 | Həmzə Sultan | ? | Elçinin məqsədi Amasiya sülh müqaviləsindən sonra tərəflər arasında baş verən kiçik sərhəd münaqişələri nəticəsində yaranan gərginliyi aradan qaldırmaq idi. |
| 19 | Kəmaləddin Təbət Ağa | avqust /1556 | Elçi heyətinin məqsədi Suleymaniyyə məscidinin açılışına iştirak etmək və Rüstəm Paşanın ikinci dəfə vəziri-əzəm seçilməsi münasibəti ilə təbrik etmək idi. |
| 20 | Kəmaləddin Təbət Ağa, Seyfəddin Əriş Ağa | 1559 | Elçi heyətinin məqsədi Səfəvi sarayına sığınan osmanlı şahzadəsi Bəyazidin Osmanlı Sultanı tərəfindən əhv edilməsinə nail olmaq idi. |
| 21 | Cəfər bəy Kəngərli | 1562 | Elçinin məqsədi dostluq əlaqələrini möhkəmləndirmək üçün danışıqlar aparmaq idi. |
| 22 | Şahqulu Sultan Qacar | fevral /1568 | Elçi heyətinin məqsədi yeni Osmanlı sultanı II Səlimin (1566-1574) culusunu təbrik etmək idi. |
| 23 | Məhəmməd Sultan Toxmaq | May/1576 | Elçi heyətinin məqsədi Osmanlı sultanı III Muradın (1574-1595) culusunu təbrik etmək idi. |
| 24 | ? | oktyabr /1579 | Elçinin məqsədi Səfəvi hökmdarı Şah Məhəmməd Xudabəndənin III Sultan Murada sülh təklifini çatdırmaq idi. |
| 25 | İbrahim xan Türkman | mart/1582 | 200 nəfərdən ibarət olan bu elçi heyətinin məqsədi Osmanlı sarayında sülh danışıqlarını aparmaq idi. Elçi heyətinin apardığı sülh danışıqları nəticəsiz başa çatmışdı. |

| | | | |
|---|---|---|---|
| 26 | Mehdiqulu Xan Ustaclu | sentyabr /1589 | Elçi heyətinin məqsədi Osmanlı hakimiyyəti ilə sülh danışıqlarını davam etdirmək və sülh sazişini imzalamaq idi. Bu elçi heyətinin tərkibində Osmanlı hakimiyyətinin tələbi ilə girov kimi İstanbula aparılan Həmzə Mirzənin 9 yaşlı oğlu Heydər Mirzə də var idi. 1000 nəfər Qızılbaş süvarisinin mühafizə etdiyi Səfəvi elçi heyəti Fərhat Paşa ilə birlikdə 1590-cı il yanvarın 18-də İstanbula gəlmiş, yanvar ayının 24-də Osmanlı Divan-i Humayunda sülh təklifləri müzakirə olunmuşdu.· 1590-cı il martın 21-də tərəflər arasında, 12 illik Osmanlı-Səfəvi müharibəsinə (1578-1590) son qoyan sülh müqaviləsi imzalanmışdır. |
| 27 | Şah Kərəm Bəy | ? | İstanbula göndərilən bu elçinin məqsədi səfəvi-osmanlı diplomatik münasibətlərini inkişaf etdirmək və şahzadə Heydər Mirzənin vəziyyəti ilə maraqlanmaq olmuşdur. Həmçinin elçi İraqda şiələr üçün müqəddəs hesab olunan yerlərdə kasıblara nəzarət olunması üçün bu yerlərə iki nəfər Şəfəvi nümayəndəsinin təyin olunmasını istəmişdir. |
| 28 | Zülfüqar Xan Qaramanlı | noyabr /1596 | 1000 nəfərdən çox olan elçi heyətinin məqsədi Sultan III Mehmedin (1595-1603) culusunu təbrik etmək, atasının vəfatı ilə əlaqədar baş sağlığı vermək, eyni zamanda Özbək xanı üzərində qazandığı qələbə xəbərini çatdırmaq idi. |
| 29 | Hüseyin bəy Eşikağası, Qoç Qapan | dekabr /1599 | Elçi heyətinin məqsədi Osmanlı hakimiyyəti ilə dostluq əlaqələrini möhkəmləndirmək, Heydər Mirzənin qəbrini ziyarət etmək idi. Səfəvi elçiləri Heydər Mirzənin məzarını ziyarət etdikləri vaxt mərhumun sümüklərini gizlicə çıxarıb, Sultanın və Səfiyyə Xatunun verdiyi xələtlərə bükərək Ərdəbilə gətirmiş, Şeyx Səfi məqbərəsində atasının yanında dəfn etmişlər. |

*Əlavə 7*

**XVI əsrdə Azərbaycan Səfəvi dövlətindən Şeybani dövlətinə göndərilən elçilər**

| № | Adı | Tarixi | Məqsədi |
|---|---|---|---|
| 1 | Məhəmməd bəy Rumlu, Qazı Nurullah Sədri | 1508 | Elçi heyətinin məqsədi şeybanilərlə gərgin olan münasibətlərin dinc yolla həll olunmasına nail olmaq idi. |
| 2 | Şeyx Məhyəddin Əhməd/Şeyxzadə Lahici | iyul/1508 | Elçinin məqsədi Şah I İsmayılını sülh təklifini çatdırmaq və Məhəmməd xan Şeybanidən Səfəvi ərazilərinə hücumları dayandırmağı tələb etmək idi. |
| 3 | Xacə Kəmaləddin Mahmud | noyabr/1510 | Elçinin məqsədi Mərv döyüşü gedişində Şəfəvi hökmdarı Şah I İsmayılın məktubunu Şeybani hökmdarına çatdırmaq idi. Bu məktub Mərv qalası qarşısında Özbək hökmdarı Məhəmməd xan Şeybaniyə təqdim olunmuşdur. |
| 4 | İmamqulu bəy Türkman | 1592 | Elçinin məqsədi Özbək şahzadəsi Əbdülmömin xanın təhqiramiz məktubuna cavab olaraq, Şah I Abbasın təhdidedici məktubunu Əbdülmömin xana çatdırmaq idi. |
| 5 | ? | 1593 | Elçinin məqsədi özbək hökmdarı II Abdulla xanın Xorasana ordu göndərməsinə qəzəblənən Şah I Abbasın təhdid məktubunu özbək hökmdarına çatdırmaq idi. |
| 6 | Qüdbəddin Ağa | 1595 | Elçinin məqsədi Şah I Abbasın Xorasana yürüşü zamanı özbək hakimi Əbdülmömin xana yazdığı məktubu ona çatdırmaq idi. Məktubda Səfəvi hökmdarı Özbək hakiminə döyüş meydanından qaçmamağı, mərdi-mərdanə döyüş meydanına gəlməyi tövsiyyə edirdi. Məktubu gətirən Səfəvi elçisi Əbdülmömin xan tərəfindən öldürtdürülmüşdür. |
| 7 | İslam bəy Şamlı | 1595 | 1595-ci ildə özbək xanlarından Herat hakimi Mir Qulbaba Kökəltaş özbək hökmdarı II Abdulla xanın razılığı ilə dostluq əlaqələri qurmaq məqsədi ilə Səfəvi sarayına elçi göndərmişdi. Herat hakiminin elçisi Şah I Abbasdan Kəbəni ziyarət etməyə gedən özbəklərin və Mavəraünnəhr əhalisinin İran ərazisindən keçməsinə icazə verməsini xahiş etmişdi. Səfəvi hökm- |

| | | | |
|---|---|---|---|
| | | | darı Şah I Abbas buna cavab olaraq Yüzbaşı İslam bəy Şamlını onunla birlikdə Herata yollamış və Mavəraünnəhr əhalisinin Həcc ziyarətinə getmək üçün Səfəvi ərazisindən keçməsinə razılıq vermişdi. |
| 8 | Eşikağası Məhəmməd bəy Ərəbgirli | 1597 | Elçinin məqsədi səfəvi-şeybani münasibətlərini normallaşdırmaq idi. Elçi Şah I Abbasın sülh məzmunlu məktubunu özbək hökmdarı II Abdulla xana təqdim etmiş və onun elçisi ilə birlikdə geri dönmüşdü. |
| 9 | Ruhulla bəy Zülqədər | 1598 | Elçinin məqsədi Şah I Abbasın Herat yürüşü zamanı Özbək hökmdarı Əbdülmömin xana yazdığı məktubu ona çatdırmaq idi. Məktubda Şah I Abbas Əbdülmömin xandan Xorasandan çıxmağı, Bəlx və Buxaranı da təslim etməyi tələb etmişdi. |

***Əlavə 8***

## XVI əsrdə Azərbaycan Səfəvi dövlətindən Böyük Moğol dövlətinə göndərilən elçilər

| № | Adı | Tarixi | Məqsədi |
|---|---|---|---|
| 1 | ? | 1511 | Elçi heyətinin məqsədi Səfəvi dövlətinin Zəhirəddin Məhəmməd Baburla ilk diplomatik əlaqələrini qurmaq idi. Bu elçi heyəti Mərv qələbəsindən sonra azad edilən Babur Şahın bacısı Xanzadə Bəyimi də Moğol sarayına aparmışdır. |
| 2 | Miram | 1512 | Elçinin məqsədi Səfəvilərin Qicduvan döyüşündə (12 noyabr/1512) məğlubiyyətindən sonra Babur Şahla pozulan münasibətləri bərpa etmək idi. |
| 3 | Süleyman Ağa | 1527 | Səfəvi hökmdarı Şah I Təhmasibin dövründə Moğol sarayına göndərilən bu elçiliyin məqsədi Səfəvi-Moğol dostluq münasibətlərini bərpa etmək idi. |
| 4 | Həsən Çələbi | yanvar /1529 | Elçinin məqsədi dostluq əlaqələrini möhkəmləndirmək üçün danışıqlar aparmaq idi. |
| 5 | Vələd bəy Təkəli | 1546 | Elçinin məqsədi Moğol hökmdarı Hümayun Şahın Kabildə hakimiyyətini bərpa etməsi münasibətilə təbrik etmək idi. |

| | | | |
|---|---|---|---|
| 6 | Kəmaləddin Uluq bəy Ərəbgirli | 1550 | Elçinin məqsədi dostluq əlaqələrini möhkəmləndirmək üçün danışıqlar aparmaq idi. |
| 7 | Kəmaləddin Uluqbəy Ərəbgirli | 1553 | Şah I Təhmasibin hakimiyyəti dövründə Moğol sarayına göndərilən bu elçi heyətinin məqsədi dostluq əlaqələrini möhkəmləndirmək idi. |
| 8 | Seyid bəy Səfəvi | 1562 | Səfəvi elçi heyətinin məqsədi Əkbər şaha atası Hümayunun vəfat etməsi münasibətilə başsağlığı vermək, Əkbər şahı taxta çıxması münasibətilə təbrik etmək və dostluq əlaqələrinin davam etdirilməsi istəyini bildirmək idi. |
| 9 | ? | 1564 | Elçi heyətinin məqsədi Şah I Təhmasibin moğol sarayı ilə dostluq əlaqələrini davam etdirmək istəyini çatdırmaq idi. |
| 10 | Sultan Qulu bəy Çandanoğlu | 1583 | Səfəvi hökmdarı Şah Məhəmməd Xudabəndənin göndərdiyi bu elçinin məqsədi Moğol hökmdarı Əkbər şahdan osmanlılara qarşı hərbi yardım almaq idi. |
| 11 | Mürşüd Təbrizi | 1583 | Şah I Abbas Xorasan hakimi olarkən Moğol sarayına göndərdiyi bu elçi heyətinin məqsədi özbəklərə qarşı mübarizədə Moğol hökmdarından hərbi yardım almaq idi. |
| 12 | Yadigar Əli Sultan Rumlu | 1591 | Bu elçilik heyəti Xorasanda özbəklərə qarşı mübarizədə Əkbər şahdan hərbi yardım almağa nail olmalı idi. |
| 13 | Mənuçöhr bəy Eşikağası | oktyabr /1598 | Elçi heyətinin məqsədi Moğol sarayı ilə dostluq əlaqələrini davam etdirmək, osmanlılarla sülh müqaviləsinin bağlandığını bildirmək idi. |
| 14 | Mirzə Əli bəy Qaramanlı | 1598 | Bu elçilik heyətinin məqsədi Heratın fəth xəbərini Moğol hökmdarına çatdırmaq və Əkbər Şahdan Qəndəharın Səfəvi dövlətinə geri qaytarılmasını istəmək idi. |

*Əlavə 9*

**XVI əsrdə Azərbaycan Səfəvi dövlətindən Məmlük sarayına göndərilən elçilər**

| № | Adı | Tarixi | Məqsədi |
|---|---|---|---|
| 1 | ? | 1501 | Elçinin məqsədi osmanlılara qarşı Məmlük Sultanı ilə ittifaq bağlamaq idi. |
| 2 | Zəkəriyyə | dekabr/1507 | Şərqi Anadolu yürüşü dövründə Məmlük sarayına gələn qızılbaş elçisi sultan Qansu Qurini Zülqədər bəyini himayə etməkdən çəkindirməyə çalışmışdır. Səfəvi elçisi Misir Sultanının Zülqədər bəyini himayə edəcəyi təqdirdə, Səfəvilərin Adana, Tarsus, Şam və Hələbi alacaqları ilə hədələmişdir. |
| 3 | Həmzə Xəlifə | aprel/1511 | Elçinin məqsədi Mərv qələbəsi haqqında Məmlük sarayını məlumatlandırmaq idi. |
| 4 | ? | 1512 | Elçinin məqsədi osmanlılara qarşı birgə mübarizə üçün danışıqlar aparmaq idi. |
| 5 | ? | dekabr/1514 | Çaldıran savaşından sonra Misirə gələn Səfəvi elçisi osmanlılara qarşı birgə mübarizə məqsədilə danışıqlar aparmışdı. Danışıqlar nəticəsində osmanlılara qarşı birgə mübarizə aparmaq üçün razılıq əldə edilmişdi. |

*Əlavə 10*

**XVI əsrdə Azərbaycan Səfəvi dövlətindən Qərbi Avropa dövlətlərinə və Moskva knyazlığına göndərilən elçilər**

| № | Adı | Tarixi | Məqsədi |
|---|---|---|---|
| 1 | ? | 1508 | Qaraman bəyliyinin elçiləri ilə birlikdə Venesiyaya gələn Səfəvi elçi heyəti odlu silah almaq və Osmanlı dövlətinə qarşı birgə mübarizə məqsədilə danışıqlar aparmışdı. |
| 2 | Nikolo Soror | 1510 | Əslən Kiprli olan Səfəvi elçisinin məqsədi Venesiya ilə danışıqları davam etdirmək idi. Bu elçi Suriya ərazisində Şah İsmayılın məktubu ilə ələ keçirilərək Misir sultanının göstərişi ilə həbs edilmişdi (avqust/1510). |
| 3 | ? | 1509 | Portuqaliyanın Hindistandakı vitse-kralı Alfonsu d’Albukerkinin yanına gələn Səfəvi elçisinin məqsədi Osmanlı imperiyasına qarşı birgə mübarizə məqsədilə danışıqlar aparmaq idi. Bu təşəbbüs Səfəvi dövlətinin Portuqaliya |

| | | | |
|---|---|---|---|
| | | | ilə siyasi əlaqələr yaratmaq sahəsində ilk addımı idi. Albukerki Şah İsmayılın elçisini Qoa şəhərində qarşılamış və Rui Qomez adlı öz elçisini (mart/1510) Səfəvi sarayına göndərmişdi. |
| 4 | Mir Əbu İshaq | oktyabr/1510 | Portuqaliyanın Hindistandakı vitse-kral Albukerkinin yanına gələn Səfəvi elçisinin məqsədi osmanlılara qarşı birgə mübarizə aparmaq üçün Portuqaliya ilə danışıqları davam etdirmək idi. |
| 5 | Xacə Əlixan | dekabr/1513 | Elçinin məqsədi Şah I İsmayılın Portuqaliya kralı Don Emanuelə yazdığı dostluq məktubunu Hindistanın vitse-kralı Albukerkiyə çatdırmaq idi. |
| 6 | ? | 1515 | Səfəvi elçi heyətinin məqsədi Hörmüzün Portuqallar tərəfindən ələ keçirilməsindən sonra danışıqlar aparmaq idi. Hörmüzdə Albukerki ilə görüşən Səfəvi elçi heyəti aparılan danışıqlar nəticəsində Albukerki ilə müqavilə bağladı. Bu müqavilənin şərtlərinə görə Portuqaliya dəniz qüvvələri Bəhreyn və Qətifə həmlə etməyəcək, Mukran və Bəlücistan qiyamlarını yatırmaqda Səfəvilərəköməklik göstərəcək, Səfəvi və Portuqaliya dövlətləri Osmanlı imperiyasına qarşı vahid cəbhədə çıxış edəcək, bunun müqabilində Şah I İsmayıl Hörmüzə olan iddialarından əl çəkəcəkdir. |
| | ? | 1521 | Səfəvi elçi heyətinin məqsədi Moskva knyazlığı ilə döplomatik əlaqələr qurmaq və Moskva knyazı III Vasilidən odlu silah almaq üçün danışıqlar aparmaq idi. |
| 7 | Seyid Hüseyin | 1552 | Şah I Təhmasibin dövründə Moskvaya göndərilən bu elçi heyətinin məqsədi Moskva knyazlığı ilə diplomatik münasibətlərin qurulması və Osmanlılara qarşı birgə mübarizə məqsədilə danışıqların aparılması idi. |
| 8 | ? | aprel/1562 | Elçi heyətinin məqsədi dostluq əlaqələrini möhkəmləndirmək idi. |
| 9 | ? | noyabr/1563 | Səfəvi dövlətinin Şirvan bəylərbəyi Abdulla xan tərəfindən Moskvaya göndərilən elçi heyətinin məqsədi ticarət danışıqları aparmaq idi. |
| 8 | Hadi Bəy | 1586 | Moskvaya göndərilən Səfəvi elçisinin məqsədi Osmanlı imperiyasına qarşı Rus çarından hərbi yardım almaq idi. |

| | | | |
|---|---|---|---|
| 9 | Budaq bəy | 1589 | Rus elçisi Vasilçikov ilə birlikdə Moskvaya göndərilən Səfəvi elçisinin məqsədi Moskva knyazlığı ilə diplomatik danışıqları davam etdirmək idi. |
| 10 | Hacı Xosrov | 1592 | 50 nəfərdən ibarət olan elçi heyətinin məqsədi Moskva knyazlığı ilə ticarət əlaqələrini inkişaf etdirmək üçün danışıqlar aparmaq idi. |
| 11 | Hacı İsgəndər | 1593 | Elçinin məqsədi Moskva ilə ticarət əlaqələrini inkişaf etdirmək üçün danışıqlar aparmaq idi. |
| 12 | Pakizə İmamqulu bəy | 1594 | Moskvaya göndərilən elçinin məqsədi Moskva hakimiyyətini osmanlılarla bağlanmış İstanbul sülhü haqqında məlumatlandırmaq, davamlı olaraq elçilərin göndərilməsi və osmanlılarla müharibəyə müştərək hazırlıqla bağlı məsə-lələri müzakirə etmək idi. |
| 13 | Pirqulu bəy | 1599 | Moskvaya göndərilən elçinin məqsədi diplomatik danışıqları davam etdirmək idi. |

## *AZƏRBAYCAN HÖKMDARLARI*
## *(XV-XVII ƏSRLƏR)*

***Əlavə 11***



- **Azərbaycan Ağqoyunlu dövlətinin qurucusu Həsən padşah Bayandur (Uzun Həsən)**
  **Rəssam: Aqşin Kazımov**




- **Həsən padşah Bayandurun tuğrası: (Məzmunu: *“əl-Hökmü lillah. Əbün-nəsr Həsən Bahadır bəy sözümüz”*)**



- **Azərbaycan Səfəvi dövlətinin qurucusu Şah I İsmayıl Səfəvi**



- **Şah İsmayıl Səfəvinin tuğrası (Məzmunu: *"əl-Hökmü lillah. Əbül-müzəffər İsmayıl Bahadır sözümüz"*)**




- **Azərbaycan Səfəvi hökmdarı Şah Səfi (1629-1642)**




- **Azərbaycan Səfəvi hökmdarı II Şah Abbas (1642-1666)**




- **Azərbaycan Səfəvi hökmdarı Şah Süleyman (1666-1694)**

*Əlavə 12*

## *XƏRİTƏLƏR*

## *(XV-XVI ƏSRLƏR)*




- **Azərbaycan Qaraqoyunlu dövləti (1410-1468)**




- **Azərbaycan Ağqoyunlu dövləti (1468-1501)**




- **Azərbaycan Şirvanşahlar dövləti (XV əsr)**




- **Azərbaycan Səfəvi dövləti (1501-1524-cü illər)**




- **Azərbaycan Səfəvi dövləti (1524-1576-cı illər)**

# BİBLİOQRAFİYA

## Azərbaycan dilində


1. Abdullayev, H., *Azərbaycan Səfəvi dövlətinin daxili və xarici siyasəti (I Şah Abbas Səfəvinin hakimiyyəti dövrü),* Bakı, Apostol, 2022, 176 s.
2. Ağayev, R., *Azərbaycan və Mərkəzi Asiya dövlətlərinin qarşılıqlı münasibətləri (XV-XVI əsrlər),* Bakı, Kür, 2004. 150 s.
3. Ağalarlı, M., Azərbaycan Ağqoyunlu dövləti beynəlxalq münasibətlər sistemində, *Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri: Tarix və ictimai elmlər seriyası,* Naxçıvan, Qeyrət, 2013, s. 34-38.
4. Ağalarlı, M., Azərbaycan və beynəlxalq münasibətlər sistemi: qarşılıqlı əlaqələr tarixindən (XV-XVII əsrlər), *Strateji təhlil, SAM,* 2015, № 3(14), s.41-51.
5. Ağalarlı, M., I Şah İsmayılın hakimiyyəti dövründə Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, *Geostrategiya,* Bakı, 2015, may-iyun. s.59-64.
6. Araslı, H., *Azərbaycan ədəbiyyatı: tarixi və problemləri,* Bakı, Gənclik, 1998. 731 s.
7. Aşurbəyli, S., *Şirvanşahlar dövləti (VI-XVI əsrlər),* Bakı, Azərnəşr, 1997, 405 s.
8. Aşurbəyli, S., *Bakı şəhərinin tarixi (Orta əsrlər dövrü),* Bakı, Azərnəşr, 1998. 356 s.
9. *Azərbaycan tarixi: VII cilddə,* III c., Bakı, Elm, 1999, 534 s.
10. Bakıxanov, A., *Gülüstani-İrəm,* Bakı, Möminin, 2001, 287 s.
11. Bayramlı, Z., *Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu,* Bakı, Avropa, 2015, 348 s.
12. Cavanşir, B., *İrandakı türk boyları ve boy mensubu kişiler (Safevi dönemi – I. Şah Tahmasib hakimiyyetinin sonuna kadar/1576),* Doktora tezi, İstanbul, 2007, 897 s.

13. Cəfiyev, T., *Azərbaycanın feodal dövlətləri XV-XVI əsrin birinci rübündə (Xoca Sədəddin Əfəndinin "Tacüt-təvarix" əsəri əsasında),* tar. elm. nam.... dis. avtoref. Bakı, 2007, 28 s.
14. Dadaşova, R., *Səfəvilərin son dövrü (İngilisdilli tarix-şünaslıqda),* Bakı, Nurlan, 2003, 439 s.
15. *Dilavər Əzimlinin seçilmiş əsərləri (Toplumdan seçilmişə doğru*), tərtib edənlər: M. Ağalarlı, F. Hüseyin, A. Qazı-yeva-Əzimova, Bakı, 2022, Turxan NPB, 888 s.
16. Əfəndiyev, O., *Azərbaycan Səfəvilər dövləti,* Bakı, Azərnəşr, 1993, 300 s.
17. Əhmədov, S., *Azərbaycan tarixinin yüz şəxsiyyəti*, Bakı, Ayna, 2006, 268 s.
18. Əkbərov, R və Səlimov, S., *Azərbaycanın dövlət və hüquq tarixi,* Bakı, Hüquq, 2003, 487 s.
19. Əliyev, R., *Nəsimi və klassik dini üslubun təşəkkülü,* Bakı, Nafta-Press, 2006, 362 s.
20. Əsədov, M., *Azərbaycan XIII-XV əsrin birinci yarısında (Bədrəddin Mahmud əl-Ayninin "İqd əl-cuman fi-tarix əhl əz-zaman" əsəri üzrə,* tar. elm. nam... dissertasiyası, Bakı, 1996, 158 s.
21. Əsədov M., Azərbaycan XIII-XV əsrin birinci yarısında (Bədrəddin Mahmud əl-Ayninin "İqd əl-cuman fi-tarix əhl əz-zaman" əsəri üzrə): Tar. elm. nam... dis. avtoref. Bakı: 1996, 32 s.
22. Əzimli, D., *Azərbaycanın Qərbi Avropa ölkələri ilə ticarət əlaqələri və Türkiyə (XV əsrin II yarısı- XVII əsrin I yarısı),* Bakı, Turxan, 2014, 292 s.
23. Əzimli, D., Azərbaycan Səfəvilər imperiyası tarixində Şah I Abbasın rolu, *Dilavər Əzimlinin seçilmiş əsərləri,* Bakı, Turxan, 2022, s.339-340.
24. Əzimli, D., Purmuxtari, M., XIV əsrin sonları – XV əsrin əvvəllərində hürufilərin dövlətçilik görüşlərinə dair, *Dilavər Əzimlinin seçilmiş əsərləri,* Bakı, 2002, Turxan NPB, s. 24-37.

25. Fərzəliyev, Ş., *Azərbaycan XV-XVI əsrlərdə (Həsən bəy Rumlunun "Əhsənüt-təvarix" əsəri üzrə).*, Bakı, Elm, 1983, 152 s.
26. Fərzəlibəyli, Ş., *Azərbaycan və Osmanlı imperiyası (XV-XVI əsrlər),* Bakı, Azərnəşr, 1995, 197 s.
27. Fərzəlibəyli, Ş., *Epistolyar irsimizdən: Şirvanşahlar Xəlilullah və Fərrux Yəsarla yazışmalar,* Azərbaycan tarixi müzeyinin əsərləri, Bakı, 2005, s. 69-78
28. İbrahimov, C., *Qaraqoyunlu dövləti,* Bakı, 1948. 83 s.
29. Qasımov, X., *Azərbaycan mədəniyyəti (XVI-XVII əsrlər),* Bakı, Nurlan, 2002. 170 s.
30. Qasımlı, M., *Şah İsmayıl Xətayinin poeziyası,* Bakı, 2002.
31. *Qızılbaşlar tarixi (Tarix-i Qezelbaşan),* fars dilindən tərcümə və şəhrlər M.Ə.Məhəmmədinindir, Bakı, Azərbaycan, 1993, 48 s.
32. Quliyev, Ə., *Azərbaycan-Rusiya münasibətləri tarixindən: XV-XVII əsrlər,* Bakı, Azərnəşr, 1958, 53 s.
33. Quliyev, Ə., *XVI əsrin ortalarında Azərbaycan Səfəvilər dövlətinin ictimai - siyasi vəziyyəti: Mikel Membrenin "Səyahətnamə"si əsasında,* Bakı, Şərq-Qərb, 2011, 192 s.
34. Quliyev, Ə., *Azərbaycan Səfəvi dövlətinin diplomatiya tarixi məsələləri Venesiya arxiv sənədlərində,* Bakı, AMEA Tarix İnstitutunun e-kitabxanası, 2023, 228 s. http://tarixinstitutu.az/books/view/331
35. Mahmudov, Y., *Azərbaycan diplomatiyası: Ağqoyunlu və Səfəvi dövlətlərinin Avropa ölkələri ilə əlaqələri (XV-XVII yüzilliklər),* Bakı, Azərbaycan diplomatiyası, 1996, 289 s.
36. Mahmudov, Y., *Azərbaycan diplomatiyası: Ağqoyunlu və Səfəvi dövlətlərinin Avropa ölkələri ilə əlaqələri (XV-XVII yüzilliklər),* Bakı, Təhsil, 2006, 416 s.
37. Metsopski, F., *Teymurləngin və onun xələflərinin tarixi,* Bakı, Azərbaycan SSR EA nəşriyyatı, 1957, 114 s.
38. Məlikova, M və Nəbiyev, Q., *Xarici ölkələrin dövlət və hüquq tarixi,* I hissə, Bakı, Qanun, 414 s.

39. Məlikzadə, S., *İtalyan "Karmelitlərin xronikası"nda Azərbaycan tarixi məsələləri,* t.ü.f.d. üzrə avtoreferatı, Bakı, 2022, 27 s.
40. Məmmədov, S., *Azərbaycan XV-XVIII əsrin birinci yarısında,* Bakı, APİ-nin nəşriyyatı, 1981, 108 s.
41. Məmmədov, R., *Naxçıvan şəhərinin tarixi oçerki (Orta əsrlər dövrü),* Bakı, Elm, 1977, 157 s.
42. Məmmədova, Ş., *"Xülasət ət-təvarix" Azərbaycan tarixinin mənbəyi kimi*, Bakı, Elm, 1991, 117 s.
43. Musalı, N., *I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Sah İsmayıl" əsəri əsasında),* Bakı, Elm və Təhsil, 2011, 482 s.
44. Musalı, N., Tarixşünaslıqda Səfəvi sülaləsi hakimiyyətinin hüquqi əsaslarına münasibət məsələsinə dair, *AMEA Aspirantlarının elmi konfranslarının matereallları,* Bakı, Elm, 2003, s. 180-183.
45. Münşi, İsgəndər Bəy Türkman., *Tarixe-aləmaraye-Abbasi,* I cild, fars. tərc., ön sözün müəl., şərh. O. Əfəndiyev, N və Musalı, Bakı, Təhsil, 2009, 792 s.
46. Münşi, İsgəndər bəy Türkman., *Dünyanı bəzəyən Abbasın tarixi (Tarixe-aləmaraye-Abbasi),* I kitab, fars dilindən tərcümə Ş. Fərzəliyev, Bakı, Şərq-Qərb Nəşriyyat evi, 2010, 1144 s.
47. Münşi, İsgəndər bəy Türkman., *Dünyanı bəzəyən Abbasın tarixi (Tarixe-aləmaraye-Abbasi),* II kitab, fars dilindən tərcümə Ş. Fərzəliyev, Bakı, Şərq-Qərb Nəşriyyat evi, 2014, 1400 s.
48. Nemətova, M., *Şirvanın XIV-XVI əsrlər tarixinin öyrənilməsinə dair*, Bakı,1959.
49. Nəcəfli, T., *Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi müasir türk tarixşünaslığında,* Bakı, Çaşıoğlu, 2000, 197 s.
50. Nəcəfli, T., *Səfəvi-Osmanlı münasibətləri. (Türkiyə tarixşünaslığında)*, Bakı, Turxan NPB, 2014, 516 s.
51. Nəcəfli, T., *Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti (Türkiyə tarixşünaslığında),* Bakı, Turxan, 2020, 520 s.

52. Nəcəfli, T., *Azərbaycan Səfəvi dövlətinin Hindistanın türk-müsəlman sultanlıqları ilə münasibətləri,* Bakı, Turxan, 2020, 400 s.
53. Nəcəfli, T., *Azərbaycan Səfəvi imperiyasının Türküstan xanlıqları ilə siyasi əlaqələri,* İdeal-Print MMC, Bakı, 2021, 348 s.
54. Nəcəfli, T., Qaraqoyunlu-Teymuri münasibətləri müasir Türkiyə tarixşünaslığında, *AMEA-nın Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası, 2006, №7,* s. 75-86.
55. Nəcəfli, T., Azərbaycan Səfəvi dövlətinin Venesiya və Papalıqla münasibətləri Türkiyə tarixşünaslığında, *Geostrategiya. №1 (25), Yanvar, fevral. Bakı, 2015,* s. 7-12.
56. Nəcəfova, R., Səfəvi ordusunun idarə olunmasında Azərbaycan türkləri, *Bakı Universitetinin Xəbərləri, humanitar elmlər seriyası, №1,* Bakı, 2021, s.166-173.
57. Onullahi, S., *XIII-XVII əsrlərdə Təbriz şəhərinin tarixi,* Bakı, Elm, 1982, 278 s.
58. *Orta əsrlər tarixi,* S. D. Skazkinin ümumi redaktəsi ilə, Azərbaycan dilinə çevirəni Y. Mahmudov., Bakı, Maarif, 1988, 527 s.
59. Piriyev, V., *Azərbaycan Hülakülər dövlətinin tənəzzülü dövründə (1316-1360-ci illər),* Bakı, Elm, 1978, 160 s.
60. Piriyev, V., *Azərbaycan XIII-XIV əsrlərdə,* Bakı, Nurlan, 2003, 456 s.
61. Rəsulzadə, M., *Bolşeviklərin Şərq siyasəti,* Ərəb və latın qrafikasından transliterasiya edəni və çapa hazırlayanı A. Rüstəmli, Bakı, Sabah, 1994, 134 s.
62. Rumlu, Həsən bəy, *Əhsənüt-təvarix (Tarixlərin ən yaxşısı),* Fars dilindən tərcümə və şərhlər professor Oqtay Əfəndiyev, dosent Namiq Musalı, Kastamonu, Uzanlar, 2017, 661 s.
63. Rumlu, Həsən bəy, *Tarixlərin ən yaxşısı (Əhsənüt - təvarix),* fars dilindən tərcümə edən professor Ş.Fərzəliyev, I cild, Bakı, Elm, 2022, 724 s.
64. Selaniki, Mustafa Əfəndi., *Tarix-i Selaniki 1563-1600 (Azərbaycan və qonşu ölkələrin tarixinə dair iqtibaslar),*

osmanlı türk dilindən tərcümə edəni akad. Z. Bünyadov, Bakı, Elm, 1992, 76 s.
65. Solakzadə, M., *Tarix (Azərbaycan tarixinə dair iqtibaslar),* osmanlı türk dilindən çevirəni Z. Bünyadov, Bakı, Elm, 1992, 84 s.
66. Sümər, F., *Oğuzlar (Tarixləri, boy təşkilat dastanları),* Bakı, Yazıçı, 1992. 428 s.
67. Xətai, Şah İsmayıl., *Əsərləri,* tərtib edənlər Ə. Səfərli və X. Yusifli, Bakı, Şərq-Qərb, 2005, 384 s.
68. *Şah Təhmasibin təzkirəsi,* fars dilindən tərcümə və müqəddimə Ə. Rəhimov, Bakı, Azərnəşr, 1996, 128 s.
69. Nizaməddin, Ş., *Zəfər-namə (Azərbaycanın və qonşu ölkələrin tarixinə dair iqtibaslar),* türk dilindən tərcümə edəni akademik Z. Bünyadov, Bakı, Elm, 1992, 37 s.
70. Şıxıyeva, S., Hürufilərin siyasi mübarizə tarixindən, *Dil və Ədəbiyyat jurnalı, Bakı, № 3(21),* s. 126-129.
71. Şirazi, Zeynalabidin Əli Əbdi bəy., *Təkmilətül-əxbar,* fars dilindən tərcümə, müqəddimə və şərhlərin müəllifi Ə. Rəhimli, Bakı, Elm, 1996, 196 s.
72. Tehrani, Əbubəkr., *Kitabi-Diyarbəkriyyə (Həsən bəy Ağqoyunlunun, onun sələflərinin tarixi və Qaraqoyunlu və Cığatay tarixlərindən ona aid olanlar),* fars dilindən tərcümə edən, ön söz, şəhrlər və göstəricilərin müəllifi R. Şükürova, Bakı, Elm, 1998, 335 s.
73. Vamberi, Q., *Əmir Teymur,* Bakı, 1991, 82 s.
74. *Venesiyalılar Şah I Təhmasibin sarayında (Mikele Membre və Vinçenso Alessandri),* ingilis dilindən tərcümə, ön söz, giriş və şərhlər O. Əfəndiyev, Bakı, Təhsil, 2005, 127 s.
75. Vilayəti, Ə., *Şah İsmayıl Səfəvi dövründə İranın xarici əlaqələr tarixi,* Bakı, Əlhuda, 1998, 421 s.
76. Yəzdi, Şərəfəddin Əli., *Zəfərnamə, (Azərbaycan tarixinə dair seçmələr),* tərcümə, ön söz və izahlar V. Piriyev, Bakı, 1996.

## Türk dilində


77. Ağalarlı, M., *Şah İsmail'in zamanında Azerbaycan Safevi devletiyle Mısır Memluk devleti arasında siyasi ilişkiler, Safevîler ve Şah İsmail.,* editör A. Taşğın, A. Yaman ve N. Musalı, Istanbul, Önsöz Yayıncılık, 2014, s. 211-230.
78. Ağalarlı, M., XVI-XVII Yüzyıllarda Osmanlı imparatorluğuna gönderilen Azeri elçiler (Azeri ambassadors sent to the ottoman empire in the XVI-XVII centuries), *XVII. Türk Tarih Kongresi,* IV cilt, III kısım, Ankara, 2018, s.1233-1257.
79. Aka, İ., *Timur ve devleti,* Ankara, Türk tarih kurumu basımevi, 1991, 172 s.
80. Aka, İ., *Timur devri Anadolusu,* Osmanlı 1, Ankara, Yeni Türkiye Yayınları, 1999, s. 229-234.
81. Aktan, A., Memlük-Haçlı münasebetleri, *Belleten, Türk Tarih Kurumu,* 1999, LXIII c., № 237, s. 411-453.
82. Allouche, A., *Osmanlı-Safevi ilişkileri (kökenleri ve gelişimi),* çeviren A. Emin Dağ, İstanbul, Anka Yayınları, 2001.
83. Aşık Paşazade, *Tevarih-i Al-i Osman,* İstanbul, Matbaa-i Amire, h.133, 517 s.
84. Aydoğmuşoğlu, C., *Şah Abbas ve zamanı,* doktora tezi, Ankara, 2011, 320 s.
85. Baykal, B., Fateh Sultan Mehmet – Uzun Hasan rakabetinde Trabzon meselesi, *Türkmen Akkoyunlu imparatorluğu: siyasal, sosyal ve kültürel tarihine ilişkin makaleler antolojisi,* Ankara, 2003, s. 145-151.
86. Baykal, B., Uzun Hasanın Osmanlılara karşı katı mücadeleye hazırlıkları ve Osmanlı-Akkoyunlu harbinin başlaması, *Türkmen Akkoyunlu imparatorluğu: siyasal, sosyal ve kültürel tarihine ilişkin makaleler antolojisi,* Ankara, 2003, s. 235-242.
87. Basso, E., *İstanbul'un fethini müteakir İstanbul'dakı hiristiyan casusların raporları,* Osmanlı 1, Ankara, Yeni Türkiye Yayınları, 1999, s. 247-252

88. Bayur, Y., *Hindistan tarihi,* c.1, 2 baskı, 1987, Ankara, TTK, 536 s.
89. Bıyıktay, H., *Timurlular zamanında Hindistan Türk imparatorluğu,* Ankara, Türk Tarih Kurumu Basımevi, 1989, 115 s.
90. Brockelmann, C., *İslam ulusları ve devletleri tarihi,* türkçeye çeviren Neşit Cağatay, Ankara, Türk Tarih Kurumu Basımevi, 1992, 511 s.
91. Cöhçe, S., Otlukbeli savaşına kadar Akkoyunlular, *Türkmen Akkoyunlu imparatorluğu: siyasal, sosyal ve kültürel tarihine ilişkin makaleler antolojisi,* Ankara, 2003, s. 265-277.
92. Çağatay, N., Akkoyunlular, *Türkmen Akkoyunlu imparatorluğu: siyasal, sosyal ve kültürel tarihine ilişkin makaleler antolojisi*, Ankara, 2003, s. 43-49.
93. Daş, A., Ankara Savaşı Öncesi Timur İle Yıldırım Bayezid'in Mektuplaşmaları, *Selçuk Üniversitesi Türkiyat Araştırmaları Dergisi(15),* 2004, s.141-167.
94. *Doğuştan günümüze büyük İslam tarihi*, İlmi Müşavir ve redaktör H. Yıldız, VI c., İstanbul, Çağ Yayınları, 1992, s. 605.
95. Efendi, Hoca Sadeddin., *Tacü't-tevarih,* yalınlaştıran İ.Parmaksızoğlu, II c., Ankara, Meteksan Limitid Şirketi, 1979, 348 s.
96. Efendi, Hoca Sadeddin., *Tacü't-tevarih (Fatih Sultan Mehmed ve İkinci Beyazid dönemleri),* yalınlaştıran İ. Parmaksızoğlu, III c., İstanbul, Milli Egitim Basımevi, 1979, 397 s.
97. Efendi, Hoca Sadeddin., *Tacü't-tevarih (Şehzadelerin girişimleri-Selimname ve Yavuz Sultan Selim dönemi),* yalınlaştıran İ.Parmaksızoğlu, IV c., İstanbul, Milli Egitim Basımevi, 1979, 407 s.
98. Efendiyev, O., Sultan II. Bayezid ve Şah İsmail, *XIII. Türk Tarih Kongresi*, Ankara, 2002. S.89-101.
99. Ertaylan, İ., Akkoyunlu-Osmanlı mücadelesi, *Türkmen Akkoyunlu imparatorluğu: siyasal, sosyal ve kültürel*

*tarihine ilişkin makaleler antolojisi,* Ankara, 2003, s. 249-264.

100. Ertaylan, İ., Trabzonun fethi, *Türkmen Akkoyunlu imparatorluğu: siyasal, sosyal ve kültürel tarihine ilişkin makaleler antolojisi,* Ankara, 2003, s. 153-172.
101. Gümüş, N., *Gürcüstanın fethi, Osmanlı 1,* Ankara, Yeni Türkiye Yayınları, 1999, s. 326-335.
102. Halaçoğlu, Y., *XIV-XVII. yüzyıllarda Osmanlılarda devlet teşkilatı ve sosyal yapı,* 6. Baskı, Ankara, Türk Tarih Kurumu Basımevi, 2007, 254 s.
103. Hammer, J., *Osmanlı tarihi,* I c., çeviren M. Ata. İstanbul, Milli Egitim Basımevi, 1990, 522 s.
104. Hinz, W., *Uzun Hasan ve Şeyh Cüneyd: XV yüzyılda İran'ın milli bir devlet haline yükselişi.,* Leypsiq, 1936, türk diline çevireni T. Bıyıklıoğlu, Ankara, Türk Tarih Kurumu Basımevi, 1992, 165 s.
105. İnalçik, H ve Quataert, D., *Osmanlı imparatorluğunun ekonomik ve sosyal tarihi (1300-1600),* türkçeye çeviren H. Berktay. I c., İstanbul, Mart Matbaacılıq Sanatları Ltd. Şti., 496 s.
106. İnalçik, H., *Osmanlı tarihine toplu bir bakış, Osmanlı 1,* Ankara, Yeni Türkiye Yayınları, 1999, s 37-116.
107. *Kıbrıs'ın fethi (1570-1571),* hazırlayan Genelkurmay ATS Etüd Başkanlığı, Ankara, Kültür ve Turizm Bakanlığı Yayınları, 1986, 104 s.
108. Kılıç, R., *Kanuni devri Osmanlı-İran münasebetleri (1520-1565),* İstanbul, İQ Kültür Sanat Yayinçılıq ve Uluslararası Tanıtım Hizmetleri Şti., 2006, 496 s.
109. Kılıç, R., *XVI. ve XVII. Yüzyıllarda Osmanlı-Safevi antlaşmaları,* İstanbul, Tez Yayınları, 2001, 236 s.
110. Kılıc, R ve Schubel, N., *XVI yüzyıl Avrasya dünyasında bölgesel birlik ve çeşitlilik Osmanlı, Özbek, Safevi ve Hind-Baburlu imparatorlukları: bütünsel bir yaklaşım, Osmanlı 1,* Ankara, Yeni Türkiye Yayınları, 1999, s. 431-438.

111. Kırzıoğlu, F., *Osmanlılar'ın Kafkas-elleri'ni fethi (1451-1590),* Ankara, Türk tarih kurumu basımevi, 1993, 550 s.
112. Konukçu, E., Osmanlı-Akkoyunlu, *Türkmen Akkoyunlu imparatorluğu: siyasal, sosyal ve kültürel tarihine ilişkin makaleler antolojisi,* Ankara, 2003, s. 279-302.
113. Kopraman, K., *Misir Memlükleri tarihi, Sultan al-Malik al-Muayyad Şeyh al-Mahmudi devri (1412-1421).,* Ankara, Kaynak Eserler dizisi, 1989, 258 s.
114. Kurat, A., *Rusya tarihi (Başlangıçtan 1917'ye kadar),* Ankara, TTK Basımevi, 1988, 537 s.
115. Kütükoğlu, B., *Osmanlı-İran siyasi münasebetleri (1578-1612),* İstanbul, Özal Matbaası, 1993, 340 s.
116. Küçükdağ, Y., *Osmanlı devleti'nin Şah İsmail'in Anadolu'yu şiileştirme çalışmalarını engellemeye yönelik önlemleri, Osmanlı 1.,* Ankara, Yeni Türkiye Yayınları, 1999, s. 269-281.
117. Qrenard, F., *Babur,* hazırlayan Orhan Yüksel, İstanbul, Milli Egitim Basımevi, 1971, 207 s.
118. Merçil, E., *Müslüman türk devletleri tarihi,* Ankara, Türk Tarih Kurumu Basımevi, 1993, 411 s.
119. Necefli, T., *Uzun Hasan devri akkoyunlu-memluk ilişkileri, Asia minor studies,* Cilt 1, Sayı 2, Temmuz, Kilis, 2013, s.93-106.
120. Özbaran, S., *Portekizli seyyahlar (İran, Türkiye, İrak, Suriye ve Mısır yollarında),* İstanbul, Kitap Yayınevi, 2007, 201 s.
121. Öztuna, Y., *Başlanğıcından zamanımıza kadar Türkiye tarihi,* IV c., İstanbul, Sanayi A.Ş. Matbaası, 1964, 284 s.
122. Peçevi, İbrahim Efendi., *Peçevi tarihi,* hazırlayan B.S.Baykal, Ankara, Başbakanlıq Matbaası 1981, 356 s.
123. Rota, G., *Safevi İranı ile Venedik Cumhuriyeti arasındakı diplomatic ilişkilere genel bir bakış,* Türkler. Yeni Türkiye Yayınları, Ankara, 2002, s. 899-906.
124. Rumlu, Hasan., *(Ahsenü't-Tevarix), Şah İsmail tarihi,* çeviren Cevat Cevan, Ankara, Ardıç yayınları, 2004, 256 s.

125. Rumlu, Hasan-i., *Ahsenü't-Tevarix,* çeviren Mürsel Özrürk, Ankara, TTK Basımevi, 2006, 648 s.
126. Sümer, F., *Kara-Koyunlular (Başlanğıctan Cihan-Şaha'a kadar),* cilt I., Ankara, Türk Tarih Kurumu Basımevi, 1984, 167 s.
127. Sümer, F., *Safevi devletinin kuruluşu ve gelişmesinde Anadolu türklerinin rolü (Şah İsmail ile halefleri ve Anadolu türkleri).,* Ankara, Türk Tarih Kurumu Basımevi, 1992, 265 s.
128. *Seyyahların Gözüyle Sultanlar ve Savaşlar: Giavvani Maria Angiolello-Venedikli Bir Tüccar ve Vincenzo D'Alessandri'nin Seyahatnameleri* (Tercüme ve notlar T.Gündüz), İstanbul, Yeditepe Yayınları, 2007, 246 s.
129. Sümer, F., Akkoyunlular, *Türk Dünysı araşdırmaları, 1986, № 40,* s. 1-38.
130. Şami, Nizamüddin., *Zafername,* farscadan çeviren N.Luqal, Ankara, TTK Basımevi, 1987, 403 s.
131. Şimşirgil, A., *Osmanlı'yı yükselten zaferler, Osmanlı 1,* Ankara, Yeni Türkiye Yayınları, 1999, s.347-365.
132. Tansel, S., *Yeni vesikalar karşısında sultan II Bayasit hakkında bazi mutalazlar, Türk Tarih Kurumu,* bel., c. XXVII, Nisan, 1963, s.106-110.
133. Tansel, S., Fatih'in doğu siyaseti, *Türkmen Akkoyunlu imparatorluğu: siyasal, sosyal ve kültürel tarihine ilişkin makaleler antolojisi,* Ankara, 2003, s. 173-188.
134. Tansel, S., Trabzon Rum imparatorluğunun ortadan kaldırılması, *Türkmen Akkoyunlu imparatorluğu: siyasal, sosyal ve kültürel tarihine ilişkin makaleler antolojisi,* Ankara, 2003, s.243- 247.
135. Turan, Ş., Fatih Mehmet-Uzun Hasan mücadelesi ve Venedik, *Türkmen Akkoyunlu imparatorluğu: siyasal, sosyal ve kültürel tarihine ilişkin makaleler antolojisi,* Ankara, 2003, s.189-233.

136. Unat, F., *Osmanlı sefirleri ve sefaretnameleri*, tamamlayıp yayımlayan Bekir Sıtkı Baykal, Ankara, Türk Tarih Kurumu Basımevi, 1987, 261 s.
137. Uzunçarşılı, İ., *Anadolu beylikleri və Akkoyunlu, Karakoyunlu devletləri,* Ankara, TTK Basımevi, 1969, 297 s.
138. Uzunçarışlı, İ., *Osmanlı tarihi,* cilt I. Ankara, TTK Basımevi, 1961, 639 s.
139. Uzunçarışlı, İ., *Osmanlı tarixi (İstanbul'un fethinden Kanuni Sultan Suleyman'ın ölümüne kadar),* cilt II, Ankara, TTK Basımevi, 1988, 756 s.
140. *Uzun Hasan ve Fatih mücadelesi döneminde Doğu'da Venedik elçileri: Caterino Zeno ve Ambrogio Contarini'nin seyahatnâmeleri,* (çev. ve notlar T.Gündüz), İstanbul, Yedetepe Yayınları, 2006, 152 s.
141. Woods, J., *Akkoyunlular: The Aqquyunlu Clan, Confederation, Empire,* ingilizceden türkçeye çeviren Sibel Özbudun, İstanbul, Milliyet Yayınları, 1993, 412 s.
142. Yiğıt, İ., *İslam tarihi,* VII c., İstanbul, 1991, Kayıhan yayınevi neşriyatı, 424 s.
143. Yınanc, H., Akkoyunlular, *Türkmen Akkoyunlu imparatorluğu: siyasal, sosyal ve kültürel tarihine ilişkin makaleler antolojisi,* Ankara, 2003, s.21-42.
144. Yinanç, R., *Dulkadir beyliği,* Ankara, TTK Basımevi, 1989, 184 s.
145. Yussof, K., *XVI. Yüzyılda I Selim ve Mısır arasındaki ilişkiler, Osmanlı 1,* Ankara, Yeni Türkiye Yayınları, 1999, s.282-288.
146. Yücel, Y., *Kadi Burhaneddin,* Ankara, Kültür ve Turizm Bakanlığı Yayınları, 1987, 58 s.
147. Yücel, Y., *Timurun Ortadoğu-Anadolu seferleri ve sonucları (1393-1402),* Анкара, Türk Tarih Kurumu Basımevi, 1989, 152 s.
148. Yücel, Y., Fatehin Trabzon'u fethi öncesinde Osmanlı-Trabzon-Akkoyunlu ilişkileri, *Türkmen Akkoyunlu imparatorluğu: siyasal, sosyal ve kültürel tarihine ilişkin*

*makaleler antolojisi,* Ankara, 2003, s.129-144.
149. Zaitsev, İ., *Osmanlı imparatorluğu ve Taht eli: siyasi münasibetler (XV-XVII. Yüzyıllar), Osmanlı 1,* Ankara, Yeni Türkiye Yayınları, 1999, s. 253-258.

## Rus dilində

150. Абру, Хафиз., *Зайл-и джами ат-таварих-и Рашиди («Дополнение к собранию историй Рашида»),* перевод с персидского, предисловие, комментарий, примечания и указатели Э.Р.Талышханова, Баку, Нафта-Пресс, 2007, 322 с.
151. Агаев, Ю и Ахмедов, С., *Ак-коюнлу Османская война (1472-1473 годы),* Баку, Элм, 2006, с. 125.
152. Агаларов, М., Основные направления внешней политики Азербайджанского государства Ширваншахов в XV веке, *Вестник Казахского Национального Университета имени Аль-Фараби, Серия «Международные отношения и международное право», Алматы, 2011, №1-2,* с.168-170.
153. Агаларов, М., О политических и дипломатических отношениях между Азербайджанским государством Сефевидов и государством Великих Моголов в период правления Шаха Тахмасиба I., *Азербайджан и азербайджанцы. Баку: Nurlan, 2008, № 5-8, с.155-163.*
154. Азимджанова, С., *Государство Бабура в Кабуле и Индии,* М, Наука, 1977. 176 с.
155. Азимджанова, С., *К истории Ферганы второй половины XV века,* Ташкент, Изд-во Акад. Наук Уз.ССР, 1957, 94 с.
156. Алиев, Ф., *Азербайджано-Русские отношения (XV-XIX вв.),* Баку, «Элм», 1985, 173 с.
157. Ализаде, А., *Социально-экономическая и политическая история Азербайджана XIII-XIV вв.,* Баку, Изд-во АН Азерб. ССР, 1956, 420 с.

158. Аллами, Абу-л Фазл Мубарак., *Акбар-наме,* подготовка к изданию С. Воробьневой, т.1., Самара, Агни, 2003, 362 с.
159. *Английские путешественники в Московском государстве в XVI веке.,* перевод с английского Ю.Готье, Л, 1937, 308 с.
160. Антонова, А., *Очерки общественных отношений и политического строя Могольской Индии времен Акбара (1556-1605).,* М, Изд-во Акад. наук СССР, 1952, с. 283 с.
161. Арапов, Д., Из истории политических взаимоотношений Средней Азии и Ирана в конце XVI века, *Вестник МГУ, Серия IX., История, 1969, №1*, с.75-81.
162. Ахмедов, Б., *Из истории торговых отношений Англии с государством Сефевидов,* автореф. дис… канд. ист. наук. Баку, 1967.
163. Ахундова, Н., *Азербайджанские государства в 15-16 вв. по материалам "Кембриджской истории Ирана",* Баку, ИПО Турхан, 2015, 172 с.
164. Ашурбейли, С., *Экономические и культурные связи Азербайджана с Индией в средние века,* Ваку, Элм, 1990, 150 с.
165. *Бабур-наме, Записки Бабура.,* перевод М.Салье. Ташкент, Изд-во Акад. Наук Узбекской ССР, 1958, 528 с.
166. Багратиони, В., *История царства Грузинской,* перевод Н.Т.Накашидзе, Тбилиси, Мецьниереба, 1976, 340 с.
167. *Барбаро и Контарини о России (к истории итало-русских связей в XV век).,* пер. Е.Ч.Скржинской и М.Михайловского., М, Наука, 1971, 274 с.
168. Бартольд, В., *Место прикаспийских областей в истории мусулïманского мира, Сочинения,* т.2, ч.1, М, Изд Вост. лит, 1963, 1020 с.
169. Бартольд, В., *Ширваншахи, Сочинения,* т.2, ч.1, М, Изд Вост. Лит, 1963, с. 875-878.

170. Бартольд, В., *Шейбаниды, Сочинения,* т.2, ч.2, М, Наука, 1964. с. 545-548.
171. Бартольд, В., *Улуг бек и его время, Сочинения,* т.2, ч.2, М, Наука, 1964, с.25-178.
172. Баскин, Ю и Фельдман Д., *История международного права,* Москва, Международные отношения, 1990, 204 с.
173. Бердзенишвили, Н., Джавахишвили, И и Джанашиа, С., *История Грузии (с древнейших времен до начала XIX века),* под ред. С.Джанашиа ч.1., Тбилиси, Гос. Издател. Грузинской ССР, 1946, 459 с.
174. Бидлиси, Шараф-хан ибн Шамсаддин., *Шараф-Наме,* перевод, предисловие, примечания и приложения Е. Васильевой, т.2., М, Наука, 1976, 350 с.
175. Бинаи, Камал-ад-Дин Али., *Шайбани-наме, Материалы по истории казахских ханств XV-XVIII веков (Извлечения из персидских и тюркских сочинений),* Алма-Ата, Наука, 1969, с. 96-128.
176. Босворт, К., *Мусульманские династии, Справочник по хронологии и геналогии,* (перев. с англ. и прим. П.А.Грязневича)., М, Наука, 1971, 324 с.
177. Бухари, Хафиз-и Таныш., *Шараф-наме-йи шахи (Книга шахской славы),* перевод с персидского, введение, приложение и указатели М.А.Салахетдиновой, М, Наука, 1983, 259 с.
178. Бухари, Мир Мухаммед Амин-и., *Убайдалла-наме,* пер. А.А.Семенова, Ташкент, АН УзССР, 1957, 308 с.
179. Бушев, П., *История посолйств и дипломатических отношений Русского и Иранского государства в 1586-1612 гг.,* М, Наука, 1976, 471 с.
180. Вернадский, Г., *Русская история,* М, Аграф, 2001, 542 с.
181. Гасратян, М., Орешкова, С и Петросян, Ю., *Очерки истории Турции,* М, Наука, 1983, 292 с.
182. Гейдаров, М., *Города и городское ремесло Азербайджана XIII-XVII вв.,* Баку, Элм, 1982, 281 с.

183. Горгиджанидзе, Парсадан., *История Грузии,* перевод, исследование и указатели Р.К.Кикнадзе, В.С.Путури), Тбилиси, Мецниереба, 1990, 183 с.
184. Греков, Б и Якубовский, А., *Золотая Орда и её падение,* М-Л, Наука, 1950, 478 с.
185. Греков, И., *Очерки по истории международных отношений Восточной Европы XIV-XVI вв.,* Москва, Наука, 1963, 374 с.
186. *Грузинские документы (IX-XV вв.),* перевод и комментарии С. С. Какабадзе, М, Наука, 1982, 273 с.
187. Гусейнов, А., *Азербайджано-Русские отношения (XV-XVII веков).,* Баку, Изд. АН Азерб. ССР, 1963, 236 с.
188. Гусейн, Ф., *Османо-Сефевидская война 1578-1590 гг.,* по материалам трудов османского летописца Ибрахима Рахимзаде., Баку, Нурлан, 2005, 214 с.
189. Гусейн, Ф., К вопросу об обещании шаха Аббаса уступить Московскому государству Дербент, Баку и Шемаху, *Вопросы исто рии. М.: 2010, №9,* с.113-124.
190. Зарин, В., *Запад и Восток (в мировой истории XIV-XIX вв.),* М, Наука, 1991, 262 с.
191. Заходер, Б., *Средиземноморье и Ближний Восток в средние века,* М, 1940.
192. Заходер, Б., *История восточного средневековья,* М, 1944.
193. Зевакин, Е., Персидский вопрос в русско-европейских отношениях XVII в., *Исторические записки, 1940, № 8,* с. 129-162.
194. Ибрагимов, Дж., *Феодальные государства на территории Азербайджана XV века,* Баку, Изд. Азерб. Педогог. Университета, 1962, 112 с.
195. Иванов, Н., *Османские завоевания арабских стран (1516-1574гг).,* М, Наука, 1984, 237 с.
196. Иванов, М., *Очерки истории Ирана,* М, Госполиздат, 1952, 465 с.

197. *Извлечения из «Тарих-и-алям-ара-и-Аббаси» Искандера Мунши,* перевод под. ред. А.А.Ромаскевича., материалы по истории Туркмен и Туркмении (XVI-XIXвв.)., т.2. М-Л, Изд. АН. СССР, 1938. с. 65-102.
198. Извлечения из «Хабиб-ус-сияр» Хондемира, т.3, ч.4., перевод под. ред. А.А.Ромаскевича., *Материалы по истории Туркмен и Туркмении (XVI-XIXвв.).,* т.2. М-Л, Изд. АН. СССР, 1938. с. 39- 52.
199. *История Востока (Восток в средние века),* т.2. М, Восточная литература РАН, 2000, 716 с.
200. *История Востока (Восток на рубеже средневековья и нового времени-XVI-XVIII вв.),* т.3. М, Восточная литература РАН, 1999, 695 с.
201. *История Европы, (От средневековйя к новому времени-конец XV - первая половина XVII в.),* ответственные редакторы Л.Т.Мильская, В.И.Рутенбург, т.3. М, Наука, 1993, 656 с.
202. *История дипломатии,* под ред. В.П.Потемкина. т.1., М, Соцэкгиз, 1941, 566 с.
203. *История дипломатии*, сост. А.Лактионов, М, АСТ, 2005, 943 с.
204. *История средних веков*, под ред. С.Д.Сказкина и А.С.Самойло. т.2. М, Госполитиздат, 1954, 518 с.
205. *История Узбекиской ССР,* т.1, Ташкент, 1955. 542 с.
206. Кафар-заде Л, Миссия Энтони Дженкинсона в Сефевидское государство: почему из «скромного начала» не возникли «великие последствия»?, *«Клио», №8 (188), ООО «Полторак»,* Санкт-Петербург, 2022, с. 32-44.
207. Камбай-заде, Х., *Взаимоотношения государства Сефевидов с западноевропейскими странами конец XVI-первой треть XVII вв.,* автореф. дис… канд. ист. наук. Баку, 1991, 26 с.

208. Клавихо, Руи де Гонсалес., *Дневник путешествия в Самарканд ко двору Тимура (1403-1406).*, М, Наука, 1990, 185 с.
209. *Книга Орудж-бека Баята-Дон-Жуана Персидского,* перевод с английского, введение и комментарии О.А.Эфендиева и А.Фарзалиева. Баку, Язычы, 1988, 215 с.
210. Кули-заде, З., *Хуруфизм и его представители в Азербайджане,* Баку, Элм, 1970, 264 с.
211. Кутелия, Г., *Грузия и Сефевидский Иран (По данным нумизматики),* Тбилиси, Мецниреба, 1979, 122 с.
212. Кушева, Е., Политика Русского государства на Северном Кавказе в 1552-1572гг., *Исторические записки АН СССР 1950, №34,* с. 236-287
213. Левин, Л., *История международного права,* М, Экзамен, 2006,158 с.
214. Мамедов, С., *Азербайджан по источником XV- первой половины XVIII вв.,* Баку, Элм, 1993, 240 с.
215. Мамедова Н., *Сефевидский посол при дворе французского короля Людовика XIV (Перевод и комментарии к историческому труду Мориса Эрбетта «Персидский посол при дворе Людовика XIV”).* Баку, Турхан ИПО, 2019, 264 с.
216. Мамедова, Р., *Сефевиде-могольские дипломатические отношения во второй половины XVI-первой четверти XVII вв.,* (по матереалам «Мунша’ат-и Салатин» автореф. дис…канди. истор. наук, Тбилиси, 1992, 23 с.
217. Махмудов, Я., *Взаимоотношения государств Ак-коюнлу и Сефевидов с европейскими странами (II половина XV - начало XVII века),* Баку, Издательство Бакинского университета, 1991, 264 с.
218. Миклухо-Маклай, Н., *К истории политических взаимоотношений Ирана со Средний Азией в XVI в, Краткие сообщения института востоковедения АН СССР, вып. IV*, М, 1952, с. 11-18.

219. Муганлинский, Р., *Азербайджанские государства XV-XVI вв.,* в английской историографии, Баку, 1998.
220. Мустафаев, Ш., *Восточная Анатолия: от Аккоюнлу к Османской империи,* М, Востлит, 1994, 224 с.
221. Низамутдинов, И., *Из истории Среднеазиатско- индийских отношений IX-XVIII вв.,* Ташкент, Узбекистан, 1969, 143 с.
222. Низовский, А., *Средние века,* М, Вече, 2002, 462 с.
223. Новоселцьев, А., *Русско-иранские политические отношения во второй половине XVI в., Международные связи России до XVII в.*, М, 1961, с. 444-461.
224. Отрывки из «Ахсан-ут-таварих» Хасан бека Румлю, перевод А.К.Арендса, *Материалы по истории Туркмен и Туркмении (XVI-XIXвв.).,* Т.2. М-Л, Изд. АН. СССР, 1938, с. 52-64.
225. *Памятники дипломатических сношений древней России с державами иностранными,* т.2., Санкт-Петербург, Изд. Отделениемъ Собственной Е.И.В. Канцелярии, 1852. 1542 с.
226. *Памятники дипломатических и торговых сношений Московский Руси с Персией,* Под ред. Н.И.Веселовского., т.1, Санкт-Петербург, Товарищество Паровой Скоропечатии Яблонский и Пероттъ, 1890, 453 с.
227. *Памятники дипломатических и торговых сношений Московский Руси с Персией,* под ред. Н.И.Веселовского. т.2. Санкт-Петербург, Лештуковская Паровая Скоропечатная П.О. Яблонскаго, 1892, 445 с.
228. Петрушевский, И., Государства Азербайджана в XV веке, *Сборник статей по истории Азербайджана,* вып. I, Баку: 1949, с. 153-213.
229. Петрушевский, И., *Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI - начале XIX вв.,* Ленинград, «Изд. ЛГУ им. А.А.Жданова, 1949, 383 с.

230. Петрушевский, И., Азербайджан в XVI-XVII вв., *Сборник статей по истории Азербайджана, вып. I,* Баку, 1949, с. 225-298.
231. Печеви, Ибрахим Эфенди., *«История» (Извлечения по истории Азербайджана и сопредельных стран и областей периода 1520-1640 гг.),* перевод с турецкого языка и примечания академика З.М.Буниятова, Баку, Элм, 1988, с.
232. Полиевктов, М., *Европейские путешественники XIII-XVIII вв. по Кавказу,* Акад. наук СССР, Науч.-исслед. ин-т кавказоведения им. акад. Н.Я. Марра. – Тифлис, 1-я тип., Сахелгами, 1935, 222 с.
233. Пронин, А., *История Индии в средние века,* Москва, Изд. МИВ, 1948,128с.
234. *Путешественники об Азербаджане,* под ред. Э.Н.Шахмалиева., составил З.И.Ямпольский, Баку, 1961, 500 с.
235. Рахмани, А., *«Тарих-и алам-ара-йи Аббаси» как источник по истории Азербайджана,* Баку, Элм, 1960, 192 с.
236. Рахмани, А., *Азербайджан в конце XVI и XVII веке (1590-1700 годы),* Баку, Элм, 1981, 238 с.
237. Салмани, Тадж ад-Дин., *Тарих-наме,* перевод с турецского акад. З.М.Буниятова., Баку, Элм, 1997, 140 с.
238. Сейфеддини, М и Байрамов, Р., *Денежное обращение и монетное дело в Азербайджане XXVI-XIX вв.,* Баку, Элм, 2001, 178 с.
239. Синха, Н и Бенарджи, А., *История Индии,* перевод с английского Степанова Л.В., Ястребовой И.П., Княжинской Л.А., М, Изд. Иностранной Литературы 1954, 265 с.
240. Смирнов, Н., К истории борьбы европейских держав за колониальное порабощение Турции в XVI-XVIII веках*, Труды МИФЛИ*, т.2., М, 1958, с. 162-175.

241. Смирнов, Н., *Политика России на Кавказе в XVI-XIX веках*, М, 1958, 243с.
242. Умняков, И., Международные отношения Средней Азии в начале XV века, *Труды Узбекского Государственного Университета. Новая серия. 1956, Выпуск 61*, с. 179-200.
243. Успенский, Ф., *История Византийской империи,* М-Л, Изд. АН СССР, 1948, 789 с.
244. Фарзалиев, А и Мамедова, Р., *Сефевиды и Великие Моголы в мусульманской дипломатии,* Санкт-Петербург, Филологический факультет СПбГУ, 2004, 227 с.
245. Федоров, К., *История государства и права зарубежных стран,* Ленинград, Изд. ЛГУ, 1977, 456 с.
246. Фехнер, М., *Торговля русского государства со странами Востока в XVI в.*, М, 1956, 122 с.
247. Фильштинский, И., *История Арабов и Халифата (750-1517).*, М, АСТ, 2006, 352 с.
248. Хазанов, А., *Экспансия Португалии в Африке и борьба Африканских народов за независимость (XVI-XVIIIвв.),* Москва, 319 с.
249. Халаби, Мухаммед., *Поход Эмира Йашбека,* перевод с арабского языка акад. З.М.Буниятова и Т.Гасанова, Баку, Элм, 1985, 96 с.
250. Хорошкевич, А., *Русское государство в системе международных отношений в конца XV-начала XVI в.,* Москва, Наука, 1980, 295 с.
251. Хунджи, Фазлуллах ибн Рузбихан, *Тарих-и алам-арайи Амини,* перевод с английского на русский Т.Минорской, редакторы и прим. З.М.Буниятов и О.А.Эфендиев, Баку, Элм, 1987, 170 с.
252. Шахмалиев, Э., К вопросы о дипломатических сношениях первых Сефевидов с западными странами, *Труды АГУ, Серия историческая,* 1950, вып. 1, с.51-68.

253. Шахмалиев, Э., Дипломатические отношения Испании с Сефевидским государством во второй половине XVI века., *«Ученые записки» Азербайджанского Государственного Университета, Серия истории и философии, 1955, №7,* с.117-127.
254. Шахмалиев, Э., К вопросу о времени начала упадка Венеции, *«Ученые записки» Азербайджанского Государственного Университета, Серия истории и философии, 1977, № 9,* с. 117-126.
255. Шильтбергер, Иоганн., *Путешествие по Европе, Азии Африке с 1394 года по 1427 год.,* перевод со старонемецкого Ф.К.Вруна, издание, редакция и примечания З.М.Буниятова, Баку, Элм, 1984, 86 с.
256. Эфендиев, О., *Некоторые сведения о последних ширваншахах Дербентской династии (1500-1538 гг.), Ближний и Средний Восток,* Москва, 1962, с. 87-93.
257. Эфендиев, О., К некоторым вопросам внутренней и внешней политики Шаха Исмаила I, *Труды Института Истории АН Азерб. ССР,* т.XII. 1957, с.150-180.
258. Эфендиев, О., *Образование Азербайджанского государства Сефевидов в начале XVI века,* Баку, Изд. АН. Азербайджанской ССР, 1961, 207 с.
259. Эфендиев, О., *Азербайджанское государство Сефевидов в XVI веке,* Баку, Элм, 1981, 307 с.

## İngilis dilində

260. Dunbar, G., *A history of India: From the earliest times to the present day,* Vol. I. London, 1943.
261. Fisher, S., *The foreign relations of Turkey 1481-1512,* Illionis, 1948.
262. Lapidus, I., *Muslim cities in the later Middle Ages. Cambridge: Harvard University Press,* 1967, 307 p.
263. Minorsky, V., The Middle East in the Western Politics in 13-th, 15-th and 17-th Centuries, *Journal of Royal Asiatic Society, 1940, vol. 27,* p. 427- 461.

264. Minorsky, V., The Aq-qoyunlu and land reforms, *Iranica, Twenty articles, Publications of the University of Tehran*, 1964, p. 228-241.
265. Powell-Price, J., *A History of India*, London, Thomas Nelson and Sons LTD, 1955, 679 p.
266. Riazul Islam, *Indo Persian relations: A study of the political and diplomatic relations between the Mughul empire and Iran*, Tehran, Iranian Culture Foundation, 1970, 254 p.
267. Sadeque, S., *Baybars the First of Eqypt*, London, Oxford University Press, 1956, 379 p.
268. Savory, R., *Iran under the Safawids*, Cambridg, Cambridge University Press, 1980, 277 p.
269. Savory, R., The Struggle for Supremacy in Persia after the death of Timur, *Studies on the History of Safawid Iran*, Der Islam 40, 1964, p.35-65.
270. Stanley, L., *History of Egypt in the middle ages, Londan*, Metuen and Co, 1901, 357 p.
271. Tardy, L., *Beyond the Ottoman Empire (14-th–16-th centry Hunqarian diplomacy in the East)*, Szeged, Attila Jozsef University, 1978, 260 p.
272. *The Oxford History of India: From the earliest times to the end of 1911*, edited by Vincent A.S. Oxford, At the Clarendon Press, 1921.
273. *The Cambridge History of Iran (The Timurid and Safavid periods)*, edited by P. Jackson and L. Lockhart, Cambridge, Cambridge University Press, vol 6, 1986, 1087 p.
274. *Travels of the Venetians in Persia, A Narrative of Italian Travels in Persia in the 15-th and 16-th centuries*, translated and edited by C.Grey, London, Hakluyt Society, vol. 49, 1873.
275. Woods, J., *The Aqquyunlu Clan, Confederation, Empire (A study in $15^{th}/9^{th}$ century Turko-Iranian politics).*, Chicago, Bibliotheca Islamica, 1976, 348 p.

### Digər Avropa dillərində

276. Berchet, G., *La Respubblica di Venezia e la Persia,* Torino, tipoqrafia G. B. Paravia E Comp, 1865, 294 p.
277. Eberhard, E., *Osmanische Polemik gegen die Safawiden im 16. Jahrhundert nach arabischen Handschriften,* Freiburq, Klaus Schwarz Verlaq, 1970, 257 p.

### Fars dilində

278. Bastani, P., *Siyasət və eqtesade əsre Səfəvi,* Tehran, nəşre Səfi Əlişah, 1348, 764 s.
279. Bəyani, X., *Tarixe nezamiye İran dər doreye Səfəviyye,* Tehran, Enteşarate bozorə ərteştaran, 1353, 592 s.
280. Cəbbari, H., Qəndhar və nəqşe an dər rəvabete por fərazo nəşib miyane İran və Hendustan, *Həmayeşe Səfəviyye dər qostəreye tarixe İranzəmin (məcmue məqalat) Təbriz, Daneşqahe Təbriz,* 1383, s.219-228.
281. Fəlsəfi, N., *Zendeqaniye Şah Abbase əvvəl,* Celde əvvəl, moqəddemate səltənəte u əz veladət ta padşahi, Çape dovvom, Tehran, çape Keyhan, 1334, 247 s.
282. Xandəmir, Əmir Mahmud, *Tarix-i Şah İsmail və Şah Təhmasib Səfəvi,* Tənzim Məhəmməd Cərrah, Tehran, 1370.
283. Xandəmir, Qiyasəddin ibn Emaməddin əl-Hüseyni, *Həbib əs-siyər fi əxbar əfrad əl-bəşər,* Celde sevvom, Tehran, 1333.
284. Moyer, V., *Tarixe doləte məmalek fi Mesr,* tərcomeye Məhəmməd Abidin, Səlim Həsən, Tehran, 1375, 220 s.
285. Nəvai, Ə., *Şah Abbas: Mecmueye əsnad və mokatebate tarixe həmrah ba yaddaşthaye təfsili,* Enteşarate Bonyade Fərhənge İran, Tehran, 1352.
286. Parsadust, M., *Şah İsmayıle əvvəl, Padşahi ke nəqşe əmiqi dər İran və irani daşt,* Tehran, 1381, 919 s.
287. Parsadust, M., *Şah Təhmasib,* Tehran, 1377, 1038 s.
288. Rumlu, Həsən Bəy., *Əhsənüt təvarix (Ba ehtemame Əbdülhüseyn Nəvayi),* Tehran, Nəşre Əsatir, 1349.

289. Sabetiyan, Z., *Əsnad və namehaye tarixiye doreye Səfəviyye,* Tehran, Enteşarate daneşqahe Tehran, 1343, 394 s.
290. Semnani, P., *Şah Esmail morşede sorx kolahan,* Nəşre-ketabbe-numune, Tehran, 1371.
291. *Səfərnameye veniziyan dər İran (şeş səfərname), (Səfərnamehaye veniziyan ke dər zəmane Uzun Həsən Ağqoyunlu be İran amədeənd),* tərcome: Doktor Mənuçehre Əmiri, Tehran, Şerkəte səhamiye enteşarate Xarəzmi, 1349, 485 s.
292. Zərcabad, H., Təəmmolate tarixiye İran və Hend dər əsre Səfəviyye, *həmayeşe Səfəviyye dər qostəreye tarixe İranzəmin (məcmue məqalat) Təbriz,* Daneşqahe Təbriz, 1383, s.979-994.

**MÜBARİZ ZAHİD OĞLU AĞALARLI**

# AZƏRBAYCAN
# BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ
# *(XV-XVI ƏSRLƏR)*

Elmi nəşr

---

Format: 60/84 $^{1}/_{16}$. Tiraj: 100.
Buraxılışa məsul: Gülşən Məmmədoğlu.
Kompüter dizaynı və bədii tərtibat: Rəvanə Mirzalıyeva.

“BİROL GROUP” MMC-də çap olunmuşdur.
AZ 1065, Azərbaycan, Bakı, Yasamal rayonu, Z.Əhmədbəyov küç., 65.